ب

Bakı 2021

**Kitabın adı:**
Tariximizin Dahiləri

**İdeya müəllifi:**
Ahmet TECİM

**Hazırlayanlar:**
Ali CAN
Dr. Abbas QURBANOV
Qoşqar ABBASOV

**Nəşrə hazırlayan:**
Dr. Abbas QURBANOV

**Redaktor:**
Əziz SULTANOV

**Qapaq tasarım və iç dizayn:**
Nicat QƏRİBOV

**Bakı-2021; İpəkyolu Nəşriyyatı: 324-046**
**İSBN: 978-9952-8259-4-7**

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16.
**Tel:** (+994 12) 492 14 38
**Mobil:** (+994 51) 412 22 82
**Web sayt:**
www.ipekyolunesriyyati.az
**Elektron poçt:**
ipekyoluneshriyyati@gmail.com

# TARİXİMİZİN DAHİLƏRİ

Bu kitab, Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqraba İcmalar İdarəsi (YTB) və Gəncliyə Yardım Fondunun (GYF) iş birliyi ilə həyata keçirilən **"Təfəkkür Dünyamızın Ulduzları"** layihəsi çərçivəsində hazırlanmışdır.

***Müəlliflər:***

***Ali Can***

*1976-cı ildə Türkiyədə, Kayseri şəhərinə bağlı Yəhyalı qəsəbəsində anadan olub. Orta təhsilini İstanbulun Yedikule liseyində tamamlayıb. 1999-cu ildə Mərmərə Universitetinin İlahiyyat fakültəsindən məzun olub. Fəlsəfə və Dini Elmlər kafedrasında magistr təhsili alıb. Uzun illər qeyri-hökumət təşkilatlarında işləyən Ali Can hazırda Əziz Mahmud Hüdayi vəqfində müdir müavini və Eğitim vəqfində himayəçilər şurasının üzvüdür. 2010-cu ildən "Gənc" jurnalında yazar və redaksiya heyətinin üzvüdür. Evli və üç uşaq atasıdır.*

*alican976@gmail.com*

***Dr. Abbas Qurbanov***

*1977-ci ildə Sumqayıt şəhərində anadan olub. Bakı şəhər 20 saylı orta məktəbin bazasında Tarix liseyində orta təhsilini bitirib. 1994-99-cu illərdə Bakı Dövlət Universisteti İlahiyyat fakültəsindən məzun olan Abbas Qurbanov, 1999-2001-ci ildə Türkiyə Marmara Universiteti Sosial Elmlər İnistitutu İslam Tarixi ixtisası üzrə magistratura dərəcəsində, 2001-2006-cı illərdə isə Türkiyə Səlcuq Universiteti eyni ixtisasin doktorantura dərəcəsində ali təhsil alıb. O, eyni zamanda* ***İslam Tarixi I-II, Peyğəmbərimizin İslamı Təbliğ Metodları*** *kitablarının, onlarla elmi, ədəbi, tarixi, mədəni və ictimai mövzulu məqalələrin müəllifidir. Hazırda Gəncliyə Yardım Fondu Mətbuat şöbəsi və Bakı İslam Universitetində müəllim olaraq işləyir. Evli və iki uşaq atasıdır.*

*abbasqurbanov@gmail.com*

***Qoşqar Abbas***

*1993-cü ildə Qazax rayonu Xanlıqlar kəndində anadan olub. Bakı şəhər 78 saylı orta məktəbdə orta təhsilini bitirib. 2011-2015-ci illərdə Bakı Dövlət Universisteti Sosial Elmlər və Psixologiya fakültəsi Fəlsəfə ixtisası üzrə bakalavr pilləsində, 2018-ci ildə isə Türkiyə Ondokuz Mayıs Universitetində eyni ixtisasin magistratura dərəcəsində ali təhsil alıb. Elmi tədqiqatları ilə yanaşı Azərbaycanın intellektual, ədəbi və mədəni tarixi müəllifin araşdırma sahələrindən biridir. Bu sahədə bir sıra məqalələrin, həmçinin Dəyər Tv-də yayımlanan "Dipnot" və "İki nöqtə" kimi proqramların müəllifidir. Hazırda Gəncliyə Yardım Fondu Mətbuat şöbəsində məsləhətçi işləyir.*

*qosqar.a@gmail.com*

# TƏQDİMAT

Tarix mədəniyyətimizin xariqüladə inkişaf səhnələri ilə doludur. İnancımızın həssas süzgəcindən keçərək bu günlərə gələn mədəniyyətimiz insanlığa bəxş etmiş olduğu bu yeniliklər və insanlığın xeyrinə ortaya qoyduğu baxış bucağı ilə zaman və məkan müstəvisində gerçəkləşmiş, bununla birlikdə ruh, qəlb, vicdan və ağılı, demək olar ki, yenidən şəkilləndirmişdir.

Bu mükəmməl dəyişiklik və yeniliklərin gətirdiyi böyük müvəffəqiyyətlər adət-ənənə və mədəniyyətimizin birləşdirici və qucaqlayıcı yönü ilə böyük bir coğrafiyaya yayılmasına qapı açmışdır.

Bu böyük mədəniyyət bir yandan vəhyin işığında elmi nailiyyətləri zənginləşdirərək böyük bir izzətə qovuşduracaq, digər yandan da ortaya qoyulan bu nəticələri insanlığın xidmətinə təqdim edəcək şəkildə mənsubları tərəfindən inkişaf etdirilmiş və bütün insanlığın istifadə edəcəyi bir mədəniyyət halına gətirilmişdir.

Millətlər müəyyən bir coğrafiya dilimində həyatlarını davam etdirərkən əsil həyatlarını kökləri olan mənəvi dinamikləri ilə davam etdirərlər. Bu tarixi köklər keçmişdəki bütün maddi və mənəvi dəyərlərin mənzuməsi, zəfərlər silsiləsi, abidə şəxsiyyətlər kimi millət gövdəsini çiyinlərində daşıyan təməl köklərdir. Belə ki, bütün budaqlar ancaq bu köklərdən bəsləndikcə yaşayar, çiçəklənər və meyvə verər.

İnsanlıq tarixi boyunca bir çox mədəniyyətlər dünyaya hökm etmək uğrunda apardığı mübarizədə təkcə güc, zorbalıq və vəhşətə arxalanarkən bizim mədəniyyətimiz hər zaman haqq və ədalətdən

yana olmuşdur. Bizim mədəniyyətimiz inanc süzgəcindən süzülən tərtəmiz İrfan mədəniyyətidir. Əlində güc və hakimiyyət olduğu halda çıxdığı səfər və döyüşlərdə heç vaxt mülki şəxslərə və məsum canlara qıymamışdır. Mədəniyyətimizin təməlində insanlığa, hətta bütün məxluqata qarşı şəfqət, mərhəmət və məhəbbət yer alır. Tarixdə bununla bağlı yüzlərlə fəzilət nümunəsi vardır.

Tarixi gedişatda Çin səddindən Adriatik dənizinə qədər böyük bir coğrafiyada Türk-İslam mədəniyyəti təyinedici və təsirli bir ünsür olmuşdur. Bu geniş torpaqlardakı Türk-İslam mədəniyyəti digər bölgə və qitələrdəki mədəniyyətlərdən hər zaman seçilmiş və yeri gələndə müharibələrə qatılsa da, əsla ədalət və insaf cizgisindən kənara çıxmamış, fəth edilən yerlərə sülh, sakitçilik və asayiş aparmışdır. Əcdadlarımız getdikləri hər yerdə qılıncın gücündən daha çox sevginin və ədalətin gücü ilə təsirli olmuşlar. Bu böyük Avrasiya coğrafiyasında ortaya qoyduqları mədəniyyət bütün dünyanı heyran qoymuşdur.

Bu möhtəşəm mədəniyyəti bu dərəcədə təsirli etmək, şübhəsiz ki, insan ünsürü ilə mümkün olmuşdur. Yaxşı yetişmiş dövlət adamları və siyasi dühalarla birlikdə bu mühitin yetişdirdiyi şairlər, elm ərbabı, incəsənət xadimləri, könül insanları və fikir dünyamızın ulduzları bu əngin səmamızı aydınlatmış və bütün toplumu ulu bir çinar kimi gölgəsində himayə etmişdir. Bu ulu canlar insan ruhunun dərinliklərinə nüfuz etmiş, insanın daxili aləmini gerçək kimliyi ilə müşahidə edərək cəmiyyətə yeni təfəkkür üfüqləri açmışlar. Mədəniyyətimizin məfkurə bələdçiləri, Mövlananın pərgar metaforasında olduğu kimi, bir ayağı inanc mərkəzində ikən digər ucu ilə bütün dünyanı dolaşmışlar. Bu böyük mütəfəkkir ömürləri boyunca fikir, dərd və dava sancısı çəkmişlər. Fikir və mədəniyyət dərdimizi həm dünyaya, həm də öz insanımıza anlatmağın və anlada bilməməyin iztirabını hiss etmişlər. Elm dünyasının mühüm simalarından Prof. Dr. Fuad Sezgin bu mənada: *"Mədəniyyətimizin böyüklüyünü öz insanımıza anlatmaq başqalarına anlatmaqdan daha çətindir"*, - deyir.

Bir millətin gələcəkdə də var ola bilməsi üçün sahib olduğu fərdlərin, xüsusi ilə də gəncliyin öz milli-mənəvi dəyərlərinə və mədəniyyətlərinə sahib çıxmaları zəruridir. Əks təqdirdə sürətlə qloballaşan dünyamızda böyük millətlər kiçik millətləri həm həqiqi mənada, həm də mədəni mənada yox etməyə çalışmaqda ikən həyatda qalmaq mümkün görünməməkdədir. Buna görə də gəncliyimizi mədəniyyətimizin əsasını meydana gətirən insan resursları ilə - yaxşı yetişmiş dövlət rəhbərləri və siyasi xadimlərlə, dahi şairlər, elm ərbabı, incəsənət xadimləri, könül insanları və fikir dünyamızın ulduzları sayılan mütəfəkkirlərimizlə tanış etməliyik. Bu mənada əlinizdəki bu kitab belə bir ideala xidmət etməsi baxımından çox əhəmiyyətlidir. Heç şübhəsiz, öz mədəniyyət kökləri və dəyərləri ilə tanış olan, qaynaşan gəncliyimiz bu bayrağı daha da irəli aparmaq həvəsini və cəhdini göstərəcəkdir. **Gəncliyə Yardım Fondu (GYF)** olaraq qurulduğumuz gündən bu yana mədəniyyətimizin müştərək dəyərlərini gənc nəsillərə təqdim edərək tanış olmalarına şərait yaratmaq ən mühüm prioritet məsələlərimizdən biri olmuşdur.

Bu əsərin hazırlanması üçün böyük əmək sərf edən qiymətli qardaşım, yaxın dostum, **araşdırmaçı-yazar Ali Can bəyə**, dəyərli əməkdaşlarım **Dr. Abbas Qurbanov** və **Qoşqar Abbasova**, kitabın texniki məsələlərində əməyi keçən **"İpəkyolu" nəşriyyatının** rəhbəri **Ramiz Məmmədov** və dəyərli əməkdaşlarına dərin minnətdarlığımı bildirirəm. Əlbəttə, bütün bunlardan sonra işin önəmli bir yönü də əməkdaşlıq tərəfidir. Dünyada təhsillə bağlı, sosial-mədəni sahələrdəki bir çox layihələrdə iştirak edən **Xaricdə Yaşayan Türklər və Əqraba İcmalar İdarəsi (YTB)** bu dəyərli əsərdə də öz əməkdaşlığını əsirgəmədi. Xaricdə Yaşayan Türklər və Əqraba İcmalar İdarəsi sədri **Abdullah Ərən bəyə** və dəyərli əməkdaşlarına təşəkkür edirəm.

**Ahmet TECİM**

*Gəncliyə Yardım Fondunun sədri*

# ÖN SÖZ

## Modern insanın böhranı

Bir böhran və təhrif edilmiş azadlıq çağında yaşadığımızı sağlam fikir sahibi hər bir ziyalı, istər yazılı, istərsə də sözlü olaraq bəyan etməkdə ikən səmimi insanların narahatlıqları da bu həqiqəti təsdiq edən xüsusiyyətlərdəndir. Bu günün dünyasında elm, irfan və iradəmiz azadlıq şüarları altında çoxdan tam bir iqtisadi təşəbbüs, məhdudiyyətsiz sərmayə yığımı, limitsiz istehlak və cismani həzlərin doyumuna təhvil verilmiş haldadır. Axtarılan və tapılan həll yolları zindanlara həbs edilib və iztirab içindəki ruhlar ölməkdə olan insanlığın azadlığına dair məhzun nəğmələr oxuyur. Modern insan həqiqi azadlığının tarlası olan dünyanı mənasız hala gətirərək bihudə bir yola girdi. İnsan daim daha irəlidəki bir mərhələ uğrunda elmi, texnoloji və siyasi yeni cığırlar axtarışındadır. Amma heç kim bu uğurda istifadə edilən metodların səmimiyyətini və həqiqiliyini sorğulamır. Modern insanın o biri dünya təsəvvürü yoxdur; nə olacaqsa burada olacaq və yaşanacaq.

İnsanın daha üstün bir iradəyə boyun əymədən və bir yol bələdçisinin köməyi olmadan, təkcə öz mənliyinin dərinliklərində hiss etdikləri ilə yola çıxması mümkündürmü? Ən azı dünyanın son iki yüz illik tarixi bunun mümkün olmadığını göstərir. Bu gün insanın sahib olduğu zəngin imkanlar və vasitə bolluğu onu daha dərin bir idraka, möhtəvası və keyfiyyəti daha zəngin bir həyata və məna sferası daha yüksək bir məfkurəyə yönəltmir, apara bilmir. Məhz gəldiyimiz nəticə: doyumsuz bir acgözlük, zəbt edilə

bilməyən iqtidar hərisliyi və bunun üçün hər cür ilahi və üstün iradənin nəzarət və boyunduruğundan yaxa qurtarmağı vəd edən azadlıq tələbidir.

## Modernləşməyin əsil məqsədi

Modernləşmək mərkəzi kapitalist ölkələr hesabına yoxsul ətraf toplumlarının iqtisadi, siyasi və mədəni quruluşlarını “dəyişdirmək” və dünya sisteminə inteqrasiya hadisəsi olaraq tərif edilə bilər. Bu mənada modernləşmək qətiyyən bir inkişaf, irəliləyiş və yüksəliş hadisəsi deyil, tam tərsinə, istismar edilmə və geriləmə yönündə bir dəyişilmə hadisəsidir. Başqa bir ifadə ilə, bu gediş bir korlaşma, assimilyasiya və böhran siyasətindən başqa bir şey deyildir.

Günümüzdə səyahət və xarici dünya ilə təmas imkanlarının artması, internet və televiziya yayımları, filmlər, qəzet və jurnallar yeni istehlak modelini konkret olaraq təqdim edən reklamlar, müxtəlif cildlərə bürünən təbliğat, moda və fikir axımları, ideologiyalar, beynəlxalq ticari musiqi, kütləviləşən təhsil, sənayeləşmə, bankçılıq, beynəlxalq iqtisadi münasibətlər, xaricdə nəhəng addımlarla irəliləyən və ölkəmizdə satışa çıxarılan texnologiya və xaricdən gələn siyasi təzyiqlər toplumun həyat tərzini, davranış və dəyərlərini dəyişdirir.

Bu gün cəmiyyətimiz nə ilə nəticələnəcəyi təxmin edilə bilməyən bir dəyişmə böhranı ilə qarşı-qarşıyadır. Sənətdən ticarətə, tətil tərzimizdən bayram ziyarətinə, salamlaşma adətindən valideyn-övlad münasibətlərinə, qidalanma vərdişlərindən həyat fəlsəfəsinə qədər hər sahədəki davranış və rəftarımız, əxlaq qaydaları, hər bir sahədəki məlumat və anlayışımız dəyişir. Əslində, dəyişmək hər bir millətin həyatında müşahidə edilən bir gerçəkdir. Şərtlər dəyişər, ehtiyaclar dəyişər, məqsədlər dəyişər; onlarla ayaqlaşmaq üçün istər-istəməz həyatın axışı içində görülən işlər və davranış tərzləri də dəyişər. Bu mənada həyat dəyişməklə

davam edər. Cəmiyyət uyğunsuzluğu hiss etmədən, təbii bir meyl ilə, əksər hallarda, fərqində olmadan dəyişər.

Hər dün davam edən qeyri-ixtiyari dəyişmələrdən fərqli olaraq, bəzən toplumu dərindən sarsan böyük dəyişmələrin də yaşandığını tarix bizə göstərməkdədir. Türklərin İslamiyyəti qəbul etmələri də məhz belə böyük dəyişmələrdəndir. İslamiyyətdən əvvəl də təşkilatçı, əxlaqlı, mədəni bir millət olan türklər İslama səmimi-qəlbdən bağlandılar. Bu əqidə türk toplumunun quruluşunu dəyişdirmiş və onu daha sağlam əsaslara bağlamışdır. İki əsrə yaxın bir müddətdir ki, İslam dünyası müsəlmanlığın əsaslarına meydan oxuyan xarici bir mədəniyyət və dünya görüşünün təcavüzü ilə qarşı-qarşıya qalmışdır. Bu təcavüz əsrlər boyu İslamın yaratdığı mədəniyyəti də böyük ölçüdə təxribata məruz qoymuşdur. Bu gün ailədən dövlətə, iqtisadiyyatdan məscid memarlığına, şeirdən tibbə hər şey modern dünyanın İslam dünyasına və müsəlmanlara təlqin etdiyi, ilk əvvəl Qərbdə hazırlanaraq inkişaf etdirilən və arxasınca digər qitələrə yayılan xarici bir dünya görüşündən təsirlənmiş haldadır. Bütün bunlar qarşısında, modern dünyanın meydan oxuması işığında, İslamı qoruya bilmək və mövcud ideologiyaların ortaya çıxartdığı problemlərə lazımlı şəkildə İslami cavab verə bilmək üçün bu dünyanın elminə və dərinliyinə ehtiyac var.

Modernləşmənin formalaşdığı üç sacayağı: fərdiyyətçilik, sekulyarlaşma və milli dövlətdir. Bu gün bunların hər üçü də dərin bir sarsıntı içindədir. Müvəffəqiyyət, pul, status və bədənin maddi həzlərinin əsas məqsəd olaraq görüldüyü dünyamızda ideal fərd layihəsindən geriyə qalan yeganə əsər “fərdi inkişaf” metodlarıdır. Bəzi məhsulların reklamında istifadə edilən şüarlar bunu açıq bir şəkildə ortaya qoyur: “İçindəki sən ortaya çıxsın!”. Günümüzdə fikir ölmüşdür, tarix ilə arasındakı əlaqə qoparılmışdır. Hikmətdən qopduğu gündən bəri filosoflar baş qarışdıran zehni, mexaniki fərziyyələrdən uzağa gedə bilməmişlər. Modern insanın başına gələn ən böyük fəlakətlərdən biri zehin olaraq ki-

lidlənmiş olması, qapalı bir sistem içində, ucu heç bir yerə açılmayan dünyəvi/sekulyar bir dairə içində dönüb qalmasıdır. Bu dairənin onu hər hansı bir çıxışa aparma ehtimalı da yoxdur.

Bu gün dünyada nihilist, inancsız, melanxolik, əsəbi, alkoqolik nəsillər bir uçqun kimi çoxalmaqda, narahat nəsillər böhran girdabında rahatlıq tapmaq üçün daha çox günaha yönəlməkdə, qarşısında düşmən axtarmaqda, tapa bilmədiyi zaman öz dəyərlərinə hücum çəkməkdədir. Əzablı ovqatla yaşayan insanlıq özünü firavanlığa qovuşduracaq inancı, fikir sistemini, nizamı hər zamankından daha çox həsrətlə gözləməkdə və axtarmaqdadır. Tarix və bu günkü həqiqətlər bizə göstərir ki, insanlar araşdırmaq, düşünmək məcburiyyətindədirlər. Heç kəs uzun müddət şübhə içində, qərarsızlıq halında, boşluqda dayana bilməz.

Səmimiyyətsizlik modernizmlə birlikdə çoxaldı. Səzai Karakoçun təsbiti ilə: “İnsan öz barrikadalarının məhkumu və öz zəncirlərinin əsiri olmuşdur”. Məqsəd götürdüyümüz rifah cəmiyyəti səviyyəsinə yaxınlaşdıqca sahib olduğumuz maddi bolluğa qarşı boşluq, mənasızlıq və yadlaşma kimi daha əvvəl heç bilmədiyimiz duyğuları yaşamağa başladıq. Bəzi şeylərdən əlaqəmizi qopararaq azad olmaq səylərini, bəzi şeylərə sahib olaraq azad olmaq vəhmini insanlara öyrədən modernizm oldu. Dindən, adət-ənənədən qopmaqla azadlıq bir tutuldu. İnsanların səmimiyyətsizliklə dərddən, davadan, kimliyindən uzaq yaşamasının səbəbi “uzaq ol, xoşbəxt yaşa” anlayışıdır. Ancaq heç bir şeyə bağlanmamaq insanın boşluq və mənasızlıq duyğularının girdabına düşməsinə səbəb olur. İctimai hafizəyə “fərdin təkcə özünə fokuslanması” fikri aşılandıqdan sonra doğan nəsil vəzifə və məsuliyyətləri ikinci plana saldı. Bu anlayış gəncləri həyatlarını uyğunlaşdıracaqları inanc və ideal mövzusunda qərarsızlıq və tərəddüdlə qarşı-qarşıya qoydu.

### Kimlik oxumaqla inşa edilir

Kimlik – insana kim olduğu, necə bir insan olduğu, özünü və dünyasını nə qədər dəyişdirə biləcəyi, doğru-yanlış və ya yaxşı və

pisin nə olduğu mövzularında müəyyən edilmiş bir sistem təqdim edən şəxsiyyət anlayışıdır. İnsanın ani dəyişikliklərə uyğunlaşıb bu dəyişmələri mənimsəyə bilməsi üçün yeni hadisələrlə keçmiş arasında bir əlaqə qurması, həyatına nəzarəti əlində saxlaması, haradan gəlib hara getdiyinin dəyərləndirməsini etməsi lazımdır. Belə sürətli dəyişilmələr səbəbi ilə bəzən bir nəsildə mənimsənən dəyərlər sonrakı nəsildə tamamilə rədd edilə bilməkdədir.

Bu gün düzgün bir şəxsiyyət meydana gətirməkdə çətinlik çəkirik. İnsan bu dövrdə hər zaman olduğundan daha çox kimlik və qaydaların meydana gətirilməsinin, tətbiq edilməsinin zəruri olduğunu görür, lakin bunların özündən daha çox digər insanlar üçün lazımlı olduğunu düşünür. İnsan kimliyini meydana gətirən davranışlarını, bu davranışların səbəblərini, necə inkişaf etdirildiyini görmədikcə qəbul etməsi, mənimsəməsi və davam etdirməsi o dərəcədə çətin olur. Bir toplumda o toplumun mədəniyyətinin bir sonrakı nəslə sistemli bir şəkildə öyrədilməsi nəticəsində yeni nəsillər müştərək xüsusiyyətləri inkişaf etdirər və beləliklə, o nəslin əsas şəxsiyyət tipləri formalaşar. Bu gün bu ötürmədə və öyrətmədə ciddi problemlər yaşanır.

Nə istədiyini, hara getdiyini bilməyən insanlar qəti qərar verə, qalıcı seçim edə bilməzlər. Beləri ancaq alınmış qərarlara tabe olarlar. İradə pozuqluğu və məqsədsizlik başqalarına bənzəməkdən narahat olmaq duyğusunu da unutdurar. Kimlik qarışıqlığından çıxış yollarından biri də tərs yöndə mənfi kimlik formalaşdırmaqdır. Cəmiyyət içində bir yer tapmayan, kök sala bilməyən və gələcəyindən ümidini kəsən insan toplumun dəyərlərinə arxa çevirə bilər. Topluma arxa çevirmək yerinə ona meydan oxuyaraq əks tərəfdən kimliyini sübut etməyə çalışanlar da var. Şiddətə əl atanlar və terrorist fəaliyyətlərə yönələnlər beləridir.

Kimlik duyğusu inkişaf etmiş insan öz kimliyinin daimiliyini dərk edən, özünə yad görünməyən, haradan gəlib haraya üz tutduğunun şüurunda olan insandır. Bu insan inanclıdır, özünəxas

duyğuları, düşüncələri, məqsədləri, bir həyat və dünya görüşü var. İnkişaf müddətində boynuna götürdüyü rollar və fərqli təsirlərə qarşı şəxsiyyətinin tutarlılığını və davamlılığını qavrayar və ona görə məsuliyyətli davranar. Bu, müəyyən bir yerə bağlı qalmaq, aid olmaq duyğusudur. Belə bir bütünlükdən və davamlılıqdan məhrum olan insanın şəxsiyyəti və kimliyi yoxdur.

## Ən böyük rəhbər

İnsan həyatında müsbət davranışların əksər hissəsi digər insanlarla münasibətlər zamanı bənzər davranışlarda nümunə götürülən şəxslərə baxaraq öyrənilir. Xeyirli, yaxşı və müsbət davranış sahibi kimsələr aramızda ola biləcəyi kimi, bu dünyadan köçmüş, lakin nümunəvi həyatı yaddaşlara həkk olunan şəxslər də ola bilər. Model almaq icra edərək, yaşayaraq öyrənməkdir. Buna təqlid, yaxud müşahidə edərək öyrənmək də deyilir. Lakin insanlar gördükləri hər davranışı götürməz, təqlid etməzlər. İnsanın insana təsiri təkcə təlqin və nəsihətlə də gerçəkləşmir; əsil təsir xarakter halına gəlmiş daimi davranış tərzində gizlidir.

Zahiri və maddi bilik insan üçün kifayət etməz. Onlar yalnız həqiqi elmə vasitə ola bilərlər. Həqiqi və faydalı elm maddi elmlərlə mənəvi elmləri birləşdirmək yolu ilə əldə edilər. Mənəvi tərbiyədən məhrum bir şəkildə öyrənilən elm insanı mənfi yollara çəkərək bir aldanış vəsiləsinə çevrilə bilər. Elmin həqiqəti onun tətbiq edilməsi ilə ortaya çıxar. Bu baxımdan elm layiqli şəkildə mənimsənməyərək əməllərə və əxlaqa çevrilməzsə, bütün əməklər israf olmuş olar.

Ən böyük rəhbər Peyğəmbərimizdir (s.ə.s). Onun misilsiz əxlaqı və tətbiqləri "sünnə" adı ilə qeydlərə keçmişdir. Uca Allahın onunla endirdiyi vəhy isə uca kitabımız Qurani-Kərimdə qeyd edilmişdir. O halda müsəlmanın birinci vəzifəsi bu iki mənbəni daim ən mühüm stolüstü kitab kimi oxuması, yaşaması və əldə etdikləri ilə qulluq vəzifələrini yerinə yetirməsi, həmçinin bir ibadət eşqi ilə model, məfkurə və mədəniyyət halına gətirməsidir. Bir də

bu mədəniyyətimizin daşıyıcıları, bu mənbələrdən bəhrələnərək axan bərəkətli çaylardan qidalanmış, zehin və könül dünyalarını bu mənbələrlə abad etmiş məhək daşlarımız, dahilərimiz, mədəniyyətimizin rəhbər simaları var ki, onların da həyatlarına və fikirlərinə dönə-dönə baxmağımız, öyrənməyimiz lazımdır.

**Ali CAN**

*İstanbul 2021*

# GİRİŞ

Söz dəyərdir, dəyərlidir. Bizlər, Türk-İslam coğrafiyasında yaşayanlar üçün sözün ilahi bir hökmü var. Bizlər üçün torpaq, yurd müqəddəsdir, canımızdır. Bizim canımız sadəcə vücuddan ibarət olmayıb. İlahi kəlamlarla, elm-irfan sahiblərinin söhbətləriylə zəngin olub. Birlik, bərabərlik, qardaşlıq, qohumluq, qonşuluq, dostluq kimi ülvi keyfiyyətlərlə sarılıb. Tarixin ilk çağlarından fikirləri ədalətə, sevgiyə, barışa çağırışla başlayan aydınlarımız düşüncələri ilə dünyanın dörd bir yanına yayılıb. Zaman keçdikcə bizlərə tariximiz, ənənəmiz, milli-mənəvi dəyərlərimiz, kimliyimiz unutdurulmağa çalışıldı. Tədricən ulu babalarımızı, tariximizdə xüsusi payları olan dahi şəxsiyyətləri xatirimizdən silməyə başladılar.

İbn Xəldun "Coğrafiya qədərdir" deyir. Dəfələrlə Türk-İslam coğrafiyasında sözün, ilahi kəlamın, hikmətin dəyərindən, birlik, bərabərlik və qardaşlığın möhkəmliyindən qısqanclıq duyanlar coğrafiyamızda qədərləri dəyişdirməyə çalışıb. Son zamanlar baş verən elmi-texnoloji nailiyyətlər, dünyanın balaca telefonlara sığdırılması, internetin əlçatarlılığı, həyatların internetdə keçməsi buna daha da şərait yaradır. Gənc nəsil özündən bir neçə il əvvəlki nəsillə bağını qoparır, sökür, atır. Hər gün kənardan yurdumuza fərdi inkişafla bağlı onlarla çıxışlar, mühazirələr, ədəbi-bədii mətnlər daxil olur. Bunlar bir kültür dəyişikliyi, milli ruhun, milli düşüncə və milli ideologiyanın yox edilməsi ilə nəticələnir. Bizi güclü edən cəhətlərimiz əlimizdən sovrulub gedir. Yad təsirlərə məruz qalıb kimliyini, özünü unudan yad nəsil yetişir və onlar

zamanla min illik tarixi, ənənini məhv edəcək, birlik, bərabərlik, dostluq və qardaşlığı sarsıdacaqlar.

Mirasımız qızıl, zinət əşyaları deyil, qiyməti ölçülməyən şairlər, yazıçılar, sənətkarlar, elm adamları və ziyalılarımızdır. Bu mirasımızı qorumalı və ona sığınmalıyıq. Ancaq və ancaq milli-mənəvi dəyərlərə yiyələnmiş gənclər sahib çıxa bilər gələcəyimizə, yurdumuza. Cəmiyyətin hər təbəqəsində, hər qatında, hər nöqtəsində milli-mənəvi dəyərlərə sahib, milli kimliyini dərk edən gənclər gərəkdir. Çarə yaddaşımızı mümkün qədər diri tutmaqdır. Çarə təfəkkürümüzü işlək saxlamaqdır. Çarə sözü dəyərli edənlərin sözünü yenidən çatdırmaqdır. Çarə mədəniyyətimizi gənc nəslə təqdim etməkdir. Nurəddin Topçunun da dediyi kimi: *“Keçmiş bitərsə, millət bitər”*.

Keçmişə sahib çıxmaq üçün atılan ən yaxşı addımlardan biri keçmişi günümüzə köçürmək, bir mənada zehinlərə həkk etməkdir. Ədəbiyyat bunun üçün çox vacibdir. Ədəbiyyat insanın daxili dünyasına, yaddaşına təsir edən sənətdir. Sözlər silahdan çıxan güllədən, düşmənin əlindəki kəskin qılıncdan daha öldürücüdür. Həmçinin dünyanın ən gözəl incəsənət nümunələrindən daha gözəl, estetikdir. Ədəbiyyat bütün dünyanı özündə saxlayır. O, tarixi filmə çəkir, insanın mənəvi duyğularını fərqli rakurslarda canlandırır. Kimlik savaşında kitab əvəzolunmaz silahdır. Bizim silahımız kitabdır, şanlı və üzüağ tariximizdir.

Kitabda Azərbaycan və Türkiyə başda olmaqla türk-islam dünyasının tarixi şəxsiyyətləri, dahilərinin həyat və fikirləri yer alır. Kitab sanki qardaşlıq dastanını xatırladır və gənc nəsli qardaş olmağa səsləyir. Məhəmmədhüseyn Şəhriyar, Almas İldırım, Əhməd Cavad, Hüseyn Cavid, Bəxtiyar Vahabzadə, Çingiz Aytmatov, Məhməd Akif Ərsoy, Hilmi Ziya Ülkən, Nəcib Fazil Kısakürək, Cəmil Meriç, Nurəddin Topçu, Rasim Özdənörən, Aliya İzzetbeqoviç, Səzai Karakoç, İsmət Özəl, Məhəmməd İqbal kimi öndər şəxsiyyətlər kitabımızı bəzəyir.

Kimlik savaşında "dava adamı" olaraq tanınan, qardaş Türkiyədə milli kimliyin özünə dönüşü uğrunda mübarizə aparan Nəcib Fazil Kısakürəyin şeirləri ilə yanaşı, müxtəlif sahillərdə dalğalanıb sovrulduqdan sonra yenə özünü milli-mənəvi dəyərlərində, həqiqi kimliyində tapan İsmət Özəlin şeirləri və fikirləri çağımıza dərman ola bilər. Azərbaycan və Türkiyə qardaşlığının simvollarından biri halına gələn "Çırpınırdı Qaradəniz" şeirinin müəllifi Əhməd Cavad şairliyindən başqa, iki ölkənin haqq mübarizəsində iştirak edir. Osmanlı dövlətinin "Qurtuluş Savaşı"nda qardaşları üçün canından keçən şairin, eyni zamanda Azərbaycan bolşeviklər tərəfindən işğal edilərkən üçrəngli bayrağın düşmən əlinə keçməməsi üçün verdiyi mübarizə gənclərə örnək davranışdır.

Kitab ortaq mədəniyyət birliyinin qorunmağı və tanınmağı qədər dil birliyinə də toxunur. Məhəmmədhüseyn Şəhriyar və Bəxtiyar Vahabzadənin adlarını xüsusi ilə qeyd etmək lazımdır. Şəhriyar Arazın o tayında türk dilinin sıxışdırıldığı bir vaxtda "Türki dil tək istəkli dil olmaz", Vahabzadə isə Arazın bu tayında SSRİ-nin Azərbaycan dilinin unudulması üçün məcburi olaraq rus dilində danışdırmağa çalışdığı zamanda "Ana dilim, səndədir xalqın əqli, hikməti" deməklə türk dilinin səsinin daha da gur çıxmasına çalışırlar. Unutmamalıyıq ki, nəinki Azərbaycan və Türkiyə, hətta SSRİ öz tabeliyində olan digər türkdilli dövlətlərin də Türkiyə ilə bir bağı qalmasın deyə dil islahatları keçirir. Əgər ilk vaxtlarda əlifba latın qrafikli yazı idisə, Türkiyə latın qrafikalı yazıya keçdikdən sonra SSRİ kiril qrafikalı yazıya keçdi. Çünki onlar da bilirdilər ki, türk dilində yazan mütəfəkkirlər gəncləri düşünməyə vadar edəcək, milli hissləri oyadacaq və mübarizə aparmağa çağıracaqlar.

Yüz illər öncə öz dillərində yaza bilməyən və ya güc-bəla ilə yazan Şəhriyarların, öz inanclarını yaşaya bilməyən və ya min bir əzab-əziyyətlə yaşayan İzzetbeqoviçlərin, öz kimliklərini türklüklərini dilə gətirdikləri üçün işgəncələr görən Cavadların, Cavidlərin, Almasların yaşadıqları, yazdıqları həm onların çağını gözlər

önünə sərəcək, həm də gənc nəslin həmin dövrü və şəxsiyyətləri daha yaxşı təfəkkür etmələrinə kömək edəcək.

Kitab ruhun qidasıdır. Mədəniyyətimizi, kimliyimizi, dinimizi, dilimizi, xüsusən də birliyimizi unutmamaq, cansız bədənlərinə can vermək üçün *“Tariximizin dahiləri”*nə ehtiyacımız var. Unutmamalıyıq ki, birlik dirilikdir. Özümüzü qorumaq da, diri olmaq da bundan keçir.

**Dr. Abbas QURBANOV**
**Qoşqar ABBASOV**
*Bakı 2021*

# İBN XƏLDUN

İbn Xəldun 27 may 1332-ci ildə Tunisdə dünyaya göz açdı. Əslən Yəmənin Hədramövt bölgəsindən olduğu üçün özü Müqəddimədə "Hədrami" təxəllüsünü işlətmişdir. Tunisdə dünyaya göz açması səbəbi ilə "Tunisi", həyatının böyük bir qismini Şimali Afrikada keçirməsi səbəbi ilə "Məğribi" təxəllüsü ilə anılmışdır.

İbn Xəldunun mənsub olduğu qəbilənin rəisi olan ulu babası Vail ibn Hücr bir heyətlə Mədinəyə gedərək Hz. Peyğəmbər (s.ə.s)-i ziyarət etmiş: "Allahım, Vail və nəslinə bərəkət ver!" – deyə duasını almış, ölkəsinə qayıdarkən Müaviyə ibn Əbu Süfyan da onunla birlikdə göndərilmişdi. Vail şəxsən özü Hz. Peyğəmbərdən yetmişə yaxın hədis rəvayət etmişdir.

İbn Xəldunun babalarından Xalid ibn Osman Əndəlüsün fəthi zamanı (indiki İspaniya) buralara məskən salmış və o bölgədə xalq arasında "Bəni-Xəldun" kimi ad qazanmış bir siyasətçi idi. İbn Xəldun ilk gənclik illərində uzun müddət dövlət işlərində məmur olaraq işlədi. Üstün qabiliyyəti səbəbi ilə katib vəzifəsinə təyin edildi. Bir müddət bu vəzifədə işləyərək siyasətin çarxlarını, işləmə qaydalarını öyrənməyə başlayan və dövlət mexanizmi içində yavaş-yavaş püxtələşən İbn Xəldun daha sonra Tunisdən ayrılaraq Əlcəzairdəki Biskra şəhərinə, sonra da o bölgədəki Konstantin şəhərinə köçdü.

İbn Xəldunun növbəti dayanacağı Mərakeş oldu. Mərakeşdə yaşadığı müddətdə Məğrib və Əndəlüs haqqında elm adamları

ilə bir çox müzakirələrdə iştirak etdi. 1362-ci ildə Mərakeşdən ayrılaraq Əndəlüsə getdi və Qasabə məscidində xətiblik etməyə başladı. Buradan yenidən Mərakeş və Tunisə qayıtdı. Dövlət işlərində işləməyə davam etdi. 1375-ci ildən etibarən Əlcəzair və Tunis arasında keçən illər ərzində müharibə və münaqişələrin səbəblərindən və götürüləcək dərslərdən bəhs edən "*Kitabul-ibər*" (İbrət kitabı) adlı məşhur tarix əsərini yazmışdır. İbn Xəldun "*Kitabul-ibər*" əsərinin bir ədəd tam nüsxəsini Sultan İbn Abbasa təqdim etdikdən qısa bir müddət sonra ölkədə bitmək-tükənmək bilməyən siyasi istiqrarsızlıq səbəbi ilə dövlət işlərindən uzaqlaşmaq qərarına gəldi. 1382-ci ildə həccə getmək məqsədi ilə Tunisdən ayrıldı. Qırx gün çəkən dəniz səyahətindən sonra Misirin İsgəndəriyyə limanına çatdı. Həmin vaxt Sultan Bərkukun taxta çıxmasından onca gün keçmişdi. Siyasi qarışıqlıq və təhlükəsizlik səbəbi ilə həmin il həccə gedə bilmədi. Onun Misirə gəldiyi eşidildiyi zaman ətrafına tələbələr yığışmağa başladı. Əzhər camesi və Kamhiyə mədrəsəsində müdərrislik etməyə başladı. Eyni zamanda sultan onu Qahirənin "baş qazısı" təyin etdi. Qahirədən xoşu gələn İbn Xəldun ailəsini də Tunisdən bura köçürmək istədi. Bu istəyi qəbul edilsə də, ailəsini gətirən gəmi yarı yolda batdı və İbn Xəldun bütün yaxınlarını itirdi. Ağır bir sarsıntı keçirən İbn Xəldun işlərini görə bilməyəcək dərəcədə depressiyaya girdi və baş qazılıq vəzifəsindən ayrılaraq 1387-ci ildə həccə getdi. Həcdən qayıtdığı zaman özünü daha yaxşı hiss edən İbn Xəldun 1399-cu ildə sultan tərəfindən Maliki məzhəbi üzrə baş qazı təyin edildi.

Bərkukun oğlu Məlik Fərəc dövründə Dəməşq (Şam) səfərində iştirak etdi. Belə ki, Teymurun Şam istiqamətində irəlilədiyi xəbərini alan Fərəc 1401-ci ildə onu dayandırmaq üçün Suriyaya yürüş etdi və İbn Xəldunu da özü ilə apardı. Misirdə baş göstərən üsyan səbəbi ilə Məlik Fərəc Qahirəyə qayıtdı. Şamda Teymurun mühasirəsində qalan İbn Xəldun Əmir Teymur ilə görüşdü. Onunla baş tutan dərin söhbətlərdə Şimali Afrikanın geopolitik vəziyyəti və ilk dəfə özü tərəfindən ortaya atılan, ictimai qrupları

və həmrəyliyi açıqlayan "Əsəbiyyə anlayışı" haqqında məlumat verdi. Usta bir müzakirəçi olaraq o dövrün ən çox qorxulan liderlərindən biri olan Əmir Teymurun təqdirini qazandı. İbn Xəldun həmin il yenidən Qahirəyə geri döndü.

Misirdə cəmi 24 il yaşayan İbn Xəldun 1406-cı ilin ramazan ayında elə orada vəfat etdi və Nəsr qapısının qarşısındakı Sufiyə qəbiristanlığında dəfn edildi.

İbn Xəldunun ən çox tanınan və onu ölümsüzləşdirən, bir növ dünya tarixi xüsusiyyəti daşıyan "*Kitabul-ibər*" əsəri ön söz və giriş mahiyyətindəki "Müqəddimə" adı verilən bölümlə birlikdə yeddi cilddə cəmləşən üç hissədən ibarətdir. Müəllif girişdə tarix elminin əhəmiyyətindən, tarixin yazılması zamanı tətbiq olunan üsullardan, tarixçilərin düşdükləri xətalardan, onları xətaya sövq edən məsnədsiz düşüncə və bunların səbəblərindən bəhs etmiş, tarix elminin əhatəli bir tərifini verərək öz tarix anlayışını ortaya qoymuşdur. "Bəşəri ümran elmi" adını verdiyi yeni və xüsusi bir elm qurduğunu, özündən əvvəl bu sahədə heç kimin araşdırma aparmadığını və bu elmi qurarkən heç kimin əsərlərindən faydalanmadığını ifadə edən İbn Xəldun belə bir elmi qurmaqdakı məqsədi və bu nəticəyə gələnə qədər təqib etdiyi üsullar haqqında da geniş məlumat verir. Bu səbəblə tədqiqatçılar əsərin həmin giriş hissəsinə böyük əhəmiyyət vermişlər. İbn Xəldunun Müqəddimə olaraq bilinən məşhur əsəri *"Kitabul-İlbər"*in birinci hissəsi ilə bu ön söz və girişi əhatə edir. İbn Xəlduna haqlı bir şöhrət qazandıran, İslam və hətta dünya düşüncə tarixinin ən özünəməxsus əsərlərindən biri olan *"Müqəddimə"*yə bu adı İbn Xəldun verməmişdir. *"Kitabul-İlbər"*in altı ana bölümə ayrılan birinci cildi zamanla "Müqəddimə" deyə adlandırılmışdır. Bu birinci kitab digərlərindən fərqli olaraq dəfələrlə nəşr edilmişdir.

Müqəddimədə "ictimai həyat" kimi tərcümə edilən məfhumun İbn Xəldundakı qarşılığı "ümran"dır. Bu kəlmə Müqəddimənin və İbn Xəldunun terminologiyasının əsas məfhumlarından biridir. Kəlmə mənası olaraq ümran: emar, əhali, mədəniyyət

qurmaq kimi mənalara gəlir. İbn Xəldunun istifadə etdiyi termin mənası olaraq isə ümran: hər yönü ilə cəmiyyəti və sosial həyatı incələyən cəmiyyət elmi, yəni sosiologiyadır.

İbn Xəldun toplumları "bədəvi" və "hadari" olaraq iki qismə ayırır.

Bədəvilik: "Badiyə" yəni səhra və ya çöl dediyimiz ərazilərdə yaşayan insanların həyatını əsas alır. Bədəvi çöllərdə, səhralıq yerlərdə köçəri olaraq yaşayan insandır. Başqa bir ifadə ilə, şəhər həyatının, oturaq həyatın və şəhərlinin ziddidir. İbn Xəldun tədqiqatlarında bədəviliyə xüsusi bir yer ayırmışdır ki, bu, şəhərləşməkdən, yəni oturaq həyatdan əvvəlki mərhələni ifadə edir.

Hadari: şəhərləşmə olaraq tərcümə edilən kəlmənin ərəbcə əsli "hadara" kəlməsidir. Kəlmə mənası olaraq mədəniləşməyi (mədinə - ərəbcə şəhər deməkdir), şəhərdə oturaq həyata keçməyi ifadə edir. Məsələn: "Hadaratul-İslam" ifadəsi dilimizə "İslam mədəniyyəti" kimi tərcümə edilir.

İbn Xəldunun terminologiyasındakı əsas məfhumlardan biri də "əsəbiyyə" anlayışıdır. Lüğətdə qohumluq, soy, əsil-nəsəb, tərəfdaşlıq kimi mənalara gəlir. Ümumi olaraq bir insanın qan bağı ilə bağlı olduğu qəbiləsi və qövmünü ifadə edir. İbn Xəldun əsəbiyyəni toplum içində güc və qüvvət sahibi olmaq, cəmiyyətdə güclü bir kök və arxası olmaq mənasında işlədir. İbn Xəlduna görə, xüsusilə dövlətin quruluş mərhələsində və ya iqtidarın ələ keçirilməsi mərhələsində qəbilə bağları və ya güclü bir qəbiləyə mənsub olmaq böyük əhəmiyyət kəsb edir.

## Müqəddimədən seçmələr: Tarix tərəzidir

Tarix çox əhəmiyyətli, faydaları çox olan və məqsədi ali bir elmdir. Din və dünya işlərini sağlam əsaslar üzərində qurmaq istəyən şəxs keçmiş toplumların əxlaqlarını, peyğəmbərlərin

həyat və mübarizələrini, hökmdarların idarə etmə üsulu və siyasətlərini ancaq tarix ilə öyrənərək nümunə götürə bilər. Tarix ilə maraqlanan şəxsin həqiqətə çatmaq və xətalara düşməkdən qorunmaq üçün fərqli mənbələrə, sistemli tədqiqatlara, müxtəlif elm sahələrinə, diqqətli və düzgün bir baxış tərzinə ehtiyacı var. Çünki tarixi xəbərlər mövzusunda təkcə nəql olunan məlumatlara əsaslanaraq cəmiyyət həyatındakı adət-ənənələr, siyasi təməllər, sivilizasiya və mədəniyyətlərin özlərinə xas xüsusiyyətləri diqqətə alınmaz və keçmişdə var olan dəyərlər nəzərə alınaraq qiymətləndirilməzsə, gələn xəbərlərin doğruluğundan və xətalı olmadığından əmin olunmaz.[1]

Tarixlə maraqlanan şəxs siyasətin qaydalarını, varlıqların xüsusiyyətlərini, yaşayış, əxlaq, adət-ənənə, din, inanc, məzhəb və digər xüsuslarda müxtəlif tomlumlar, bölgələr və dövrlər arasındakı fərqlilikləri bilməlidir. Eyni şəkildə içində yaşadığı dövrdə də bu mövzularla əlaqəli geniş, əhatəli məlumatı olmalıdır. Çünki ancaq bu şəkildə keçmişdə yaşanan ilə öz dövründə yaşananın bənzər və fərqli nöqtələrini təsbit edə bilər, dövlətlərin və millətlərin hansı əsaslar üzərində qurulduğunu, meydana çıxışlarındakı təməl qaydaların nələr olduğunu, həmçinin meydana çıxmalarına və var olmalarına hansı ünsürlərin təsir etdiyini aydınlaşdırar. Beləliklə, bütün hadisələrin səbəblərini idrak edər və bütün xəbərlərin köklərindən xəbərdar olar. O zaman nəql olunan bir xəbəri bu əsas və qaydalara görə qiymətləndirər. Əgər xəbər bu əsas və qaydalarda tələb olunan şərtlərə uyğun olarsa, onun doğru olduğuna qərar verər, əks halda onun uydurma olduğunu anlayar və qəbul etməz.[2]

## İnsan təkbaşına yaşaya bilməz

İctimai həyat qaçılmaz bir ehtiyacdır. Filosoflar bu həqiqəti belə ifadə edirlər: "İnsan öz təbiətinə görə sosial bir varlıqdır".

1. İbn Haldun, *Mukaddime*, tərc. Halil Kendir, c. 1, İstanbul 2004, s. 31.
2. *e.a.ə.*, s. 58.

Yəni topluluq halında və cəmiyyət içində yaşaması labüddür. Bu vəziyyətin onların terminologiyasındakı ifadəsi mədənilikdir. Bizim sosial həyat (ümran) ilə nəzərdə tutduğumuz da məhz budur.

Bunu belə açıqlaya bilərik: Allah insanı elə bir təbiətdə yaradıb ki, həyatda qala bilməsi üçün mütləq qidalanmalıdır. Öz qidasını təmin etmək üçün ona lazım olan qabiliyyətləri də verib. Ancaq şəxs olaraq bir insanın gücü, bütün qida ehtiyacını təmin edəcək və normal həyat şərtlərini davam etdirəcək bütün maddələri əldə etməsi üçün kifayət etmir. Məsələn, insanın bir gündə müəyyən miqdar buğda ilə həyatını davam etdirməsinin mümkün olduğunu qəbul etsək, yenə də o buğdanın üyüdülüb un halına gətirilməsi, xəmirin yoğurulması və bişirilməsi kimi mərhələlərdən keçməlidir. Bu işləri görə bilmək üçün bir çox ustalıq məhsullarına: əşya və alətə, dəmirçilik işlərinə, qab-qacağa ehtiyacı var.[3]

## İqlimin insanlara təsiri

Mülayim iqlim qurşaqlarında yaşayan insanlar iqlimin onlara verdiyi münasib şərtlərin təsiri ilə digər insanlara nisbətən daha çox inkişaf edirlər. Evləri, geyimləri, yeməkləri və məşğul olduqları sənətlər yüksək keyfiyyətdədir. Daşdan yüksək binalar tikir, evlərini sənət əsərləri ilə bəzəyir, alət və ədəvat icad etməkdə biri-biri ilə yarışır və hər sahədə çox yüksək nailiyyətlər əldə etdikləri müşahidə olunur. Qızıl, gümüş, dəmir, mis, qurğuşun və qalay kimi təbii mədənlərdən istifadə edirlər. Həmçinin ticarət alış-verişlərini qızıl və gümüş ilə həyata keçirirlər. Ümumi olaraq həyatlarının hər sahəsində həddi aşan təsərrüflərdən uzaqdırlar.

Mülayim olmayan iqlim qurşaqlarında yaşayan insanlar isə bütün hərəkətlərində mötədillikdən və münasib həyat şərtlərindən uzaqdır. Mötədil həyat şərtlərindən uzaq olduqları üçün bu

---

3. *e.a.ə.*, s. 79.

uzaqlıq nisbətində əxlaq və təbiətləri də insanlıqdan uzaqlaşıb heyvanlara yaxınlaşmaqdadır.[4]

## İqlimin insan əxlaqına təsiri

Qaradərili insanların xasiyyətləri, adətən, xəfif, yüngül təbiətli, qəm-qüssədən uzaq, əyləncəyə düşkün və çox nəşəli görünüşdə olur. Hər fürsətdə oynayıb rəqs etməyə can atdıqlarına görə əksər hallarda axmaq kimi göründüklərinə də şahid oluruq. Bunun əsl səbəbi, fəlsəfənin bununla əlaqəli bölməsində də ifadə etdiyim kimi, sevinc və xoş əhvali-ruhiyyənin mənbəyi olaraq insanın ruhundakı canlılığın boşalıb bədənə yayılmasıdır (qanının qaynamasıdır). Kədərin səbəbi də bunun tərsi, yəni içəridəki sərtləşmə və yığılmadır. Bilindiyi kimi, istilik havanı və buxarı yumşaldıb genişlədir, ətrafa yayır. Buna görə də sərxoşluqda tərifi imkansız bir həzz və xoş əhvali-ruhiyyə hiss olunur. Bunun səbəbi içkinin güclü təsiri ilə meydana gələn qızğın hərarətin qəlbdə ruhu buxarlandırıb yumşaltmasıdır. Ruh bu şəkildə yumşalar və bunun nəticəsində keflənmə yaranar. Eyni şey hamama gedənlər üçün də keçərlidir. Oranın isti havasını tənəffüs edən insanların ruhları ilə təmas quran istilik ruhlarını isidir və beləliklə, onlar da sevinc və ləzzət hiss edirlər.

Bəlkə də, onların əksəriyyəti bu həzzin təsiri ilə mahnı da oxuyurlar.[5]

## Bədəvilik olmadan şəhər olmaz

Bədəvi həyat yaşayanlar təkcə zəruri ehtiyaclarını təmin edə bilərlər, bundan artığına gücləri çatmaz. Şəhərlərdə mədəni həyat yaşayanlar isə zəruri ehtiyaclarından əlavə, tamamlayıcı və lüks sayıla biləcək əlavə ehtiyaclarını da təmin edə biləcək imkanlara sahibdir.

---

4. *e.a.ə.*, s. 116-117.
5. *e.a.ə.*, s. 121.

Şübhəsiz ki, zəruri ehtiyaclar tamamlayıcı və lüks ehtiyaclardan daha qədim və əhəmiyyətlidir. Çünki zərurət kökdür, tamamlayıcı olanlar isə bu kökdən çıxan budaqlardır. Bir baxıma badiyə (səhra) və bədəvilik şəhər və şəhər həyatından daha əvvəl gəlir və onların təməlini, kökünü təşkil edir. Çünki bir insanın həyatda qalması üçün tələb edəcəyi ilk şey zəruri ehtiyaclardır. Zəruri ehtiyaclarını əldə etdikdən sonra tamamlayıcı ehtiyaclara və lüksə yönələr. Tarixi olaraq bədəviliyin kobudluğu mədəniliyin (şəhərli olmağın) kübarlığından əvvəl gəlir. Buna görə də şəhərləşmənin bədəviliyin inkişafından törəyən qaçınılmaz bir nəticə olduğunu deyə bilərik.[6]

## Şəhər pozar

Bədəvilər yardım və yaxşılıq etməyə şəhərlilərdən daha çox meyilidir. Bunun səbəbi insan nəfsinin ilkin fitrətinə uyğun (pozulmadan) qaldığı zaman yaxşı və pis işləri seçərək ayırd etməyə daha münasib olmasıdır. Həzrət Peyğəmbər (əleyhissalam) belə buyurur: "Hər doğulan uşaq (İslam) fitrəti ilə dünyaya gələr. Sonra ata-anası onu yəhudi, xristian və yaxud məcusi edər". Nəfs iki əxlaqdan (yaxşılıq və pislikdən) birinə yaxınlaşdığı nisbətdə digərindən uzaqlaşar. Bir müddət sonra bunlardan birini tamamilə itirər. Yəni insanın nəfsi yaxşı və xeyirli yola aparacaq işlərə öyrəşdikcə bu hal onda bir xasiyyətə çevrilər, pis işlərdən uzaqlaşar və onu pisliyə sövq edəcək yollardan da kənarlaşar. Pis işlərə öyrəşənlər üçün bu qayda eynilə keçərlidir.

Şəhərlilər bu dünyanın nemətlərinə həddən artıq meyil etdiklərinə, zövq və əyləncə ilə çox məşğul olduqlarına və şəhvətlərini razı salacaq işlərin arxasınca düşdüklərinə görə vaxt keçdikcə nəfsləri kirlənmiş, bu kirlilik nisbətində də yaxşı və xeyirli işlərdən uzaqlaşmış olurlar. Hətta bu uzaqlaşma davam etdikcə utanma və həya duyğusu da itər. Belə insanların əksəriyyətinin məclislərdə, böyüklərin yanında və hətta öz ailəsinin içində belə olduqca

6. *e.a.ə.*, s. 161.

çirkin söz danışdığını, söyüş söydüyünü, utanma duyğusu olmadığına görə xoşagəlməz hərəkətlərdən çəkinmədiyini görə bilərsiniz. Çünki söz və hərəkətləri ilə təkrarlamaqda olduqları çirkin və pis işlər artıq onlar üçün vərdiş halına gəlmişdir.[7]

## Əsəbiyyə soy kökü ilə meydana gəlir

Əsil-nəsəb və qohumluq əlaqələri istisna hallar xaricində insanlar üçün təbii bir haldır. Zülmə məruz qalan və ya bir fəlakətlə üzləşən insanın öz qohumlarını köməyə çağırması bu əlaqənin nəticəsidir. Hər bir kəs qohum-əqrəbasının (və ya eyni irqdən, eyni soydan olan birinin) zülmə məruz qalması qarşısında öz içində bir zillət və alçalma duyğusu hiss edər və buna mane olmaq istəyər. Bu, əzəldən bəri bütün insanlıq üçün fitri olan təbii bir haldır.

Əgər yardımlaşanlar arasındakı qohumluq əlaqəsi həqiqətən çox yaxın və açıqdırsa, yardımlaşma üçün bu yaxınlıq kifayət edər. Amma çox uzaq bir qohumluq əlaqəsi olar, bir çox adlar yaddan çıxmış və geriyə təkcə o nəslin adı və şöhrəti qalmış olarsa, bu halda yardımlaşma (sırf qohumluq səbəbi ilə olmaz) özü ilə qohum sayılan şəxsə edilən zülm səbəbi ilə hiss edəcəyi utanma və zillət duyğusunun təsiri ilə (bu utanılacaq haldan yaxa qurtarmaq üçün) gerçəkləşər.[8]

## Məğlub olanlar qalib gələnləri təqlid etməyə meyillidir

Nəfs hər zaman özünə qalib gələn və boyun əydiyi şəxsdə bir mükəmməlik olduğuna inanır. Bunun səbəbi qalibin gücündəki səbəbin mükəmməl olmasından qaynaqlandığını qəbul etməsi və ya özünə boyun əydirən bu qalibiyyətin qalib tərəfdəki mükəmməllik səbəbi ilə olduğuna özünü səhvən şərtləndirməsidir. Əgər özünü buna şərtləndirər və bu fikrə bağlı qalarsa, bu baxış onda

7. *e.a.ə.*, s. 163.
8. *e.a.ə.*, s. 171.

bir inanc halına gələr və hər işdə qalibi nümunə götürərək onu təqlid etməyə, ona bənzəməyə çalışar.

Belə də ola bilər ki, məğlub olan tərəf qalib tərəfin qarşısıalınmaz bir əsəbiyyə və güc səbəbi ilə deyil, məhz adət və ənənələri səbəbi ilə qalib gəldiyi fikrinə düşsün. Əslində bu da elə birinci səbəb kimi, qalibi böyük görməkdir. Bütün bu səbəblərdən ötrü məğlubların hər zaman geyimlərində, miniklərində, silahlarında, adət-ənənə və digər xüsuslarda qaliblərə bənzəməyə çalışdığını görürük.[9]

## Həddən artıq əsəbiyyə istiqrarın düşmənidir

Bu təzadın səbəbi (qəbilə bağlılığı və əsəbiyyənin həddən çox olduğu yerdə) fərqli düşüncə və istəklərin çoxalması, bunun nəticəsində də hər görüşün arxasındakı əsəbiyyə qüvvəsinin digərləri ilə mübarizəyə başlamasıdır. Çünki bu fərqli qüvvələrin təsiri ilə dövlətə qarşı etiraz səsləri yüksələr və üsyanlar baş verər. Hər nə qədər dövlət güclü əsəbiyyə bağlarına sahib olsa da, bu üsyan və etirazlar qaçılmazdır; çünki idarə altındakı hər bir əsəbiyyə topluluğu da özünün çox güclü olduğunu zənn edir.

İslamın ilk dövrlərindən etibarən bu günə qədər Afrikada və Məğribdə yaşananlar buna misaldır. Buraların sakinləri olan bərbərlər də bir çox qəbilə və əsəbiyyələrə sahibdir. İlk əvvəl İbn Əbi Sərhin onlara və frenklərə qalib gələrək hamısının üzərində hakimiyyət qurmasının artıq bir təsiri qalmamışdır. Çünki yenidən əvvəlki hallarına qayıdıblar; daim üsyanlar çıxardıb irtidad etmiş (İslamdan dönmüş) və oradakı müsəlmanlara qarşı böyük qətliamlar törətmişlər. İslam onların həyatına yerləşib dini mənimsədikdən sonra da bu xasiyyətləri dəyişməmiş, bu səfər xəvaric əqidəsini mənimsəyərək yenə dəfələrlə üsyan edib baş qaldırmışlar.[10]

9. *e.a.ə.*, s. 200.
10. *e.a.ə.*, s. 231.

## Zülm ümranın dağılmasına səbəb olur

Zülm və haqsızlıqla insanların mallarını əllərindən almaq onların zəhmət çəkərək mal əldə etmə əzmini yox edər. Çünki əziyyət çəkib əldə etdikləri malın zorla əllərindən alınacağını bilirlər. Buna görə də əmək sərf etməyə həvəsləri qalmaz, iş-gücdən əl çəkərlər. Xalqın işdən uzaqlaşması məruz qaldıqları haqsızlıqla mütənasib olaraq əlaqəlidir. Əgər haqsızlıq çoxalar və bütün sahələri əhatə edərsə, xalqın işləməkdən əl çəkməsi də bütün sahələri əhatə edəcək qədər genişlənər. Amma haqsızlıq istisna hal təşkil edəcək dərəcədə azalarsa, xalqın iş görmək faizi də ona uyğun nisbətdə çoxalar.

Cəmiyyətin inkişaf etməsi və bazar iqtisadiyyatının qüvvətlənməsi insanların qazanc əldə etmək üçün ortaya qoyduğu əzmkarlıq və səylərlə düz mütənasibdir. İnsanlar dolanışıqlarını təmin etmək üçün işləməsə və iş-gücdən əl çəksə, alış-veriş azalar və insanlar dolanacaq arxasınca başqa yerlərə köçərlər. Beləcə, o ölkənin əhalisi azalar, evlər boşalar, şəhərlər yiyəsiz qalıb xarabalığa çevrilər. Nəticədə bütün bunlara bağlı olaraq dövlətin və hökmdarın varlığı da təhlükəyə düşər. Çünki dövlət ümranın (ictimai həyatın) sistemli təzahürü olduğu üçün əsas maddə pozulduğu zaman nəticə olaraq özü də dağılar.[11]

## Şəhər doğular, inkişaf edər və ölər

Şəhər yeni qurulanda orada evlərin sayı az olur. Binaların tikilməsində, bəzək vurulmasında istifadə olunan daş, kirəc, mərmər, mozaika, şüşə, kristal və sədəf kimi materiallar da azdır. Buna görə də (başlanğıcda) ortaya çıxan mənzərədə kifayət qədər yaxşı olmayan materiallarla tikilmiş və bədəvilik xüsusiyyətlərini xatırladan binalar yer alar.

Şəhər böyüyüb əhalisi çoxaldıqca material, iş gücü və ustalar da çoxalar. Bu inkişaf cəmiyyətin yüksələ biləcəyi ən zirvə

11. *e.a.ə.*, s. 380.

nöqtəyə qədər davam edər. Cəmiyyət zəifləyib əhalinin sayı azalmağa başladığı zaman ustalıq və sənətkarlıq da zəifləyər, beləliklə, binaların möhkəm, yaraşıqlı və gözəl tikilişi də sonlanmış olar. Əhalinin azalmağa davam etməsi ilə işçi qüvvəsi daha da zəifləyər, buna bağlı olaraq daş və kirəc kimi inşaat ləvazimatları tapılmayan material halına gələr. Bundan sonra yeni binaların tikilməsi üçün daha əvvəlki tərk edilmiş binalarda işlənmiş olan materiallardan istifadə olunar. Beləliklə, inşaat materialları bir binadan digərinə keçməyə başlayar. Onsuz da, əhalinin azalması nəticəsində binaların və tikililərin əksəriyyəti boş vəziyyətdədir.

Nəticədə bir saraydan başqa saraya, o evdən bu evə daşınan materialların çoxu ya it-bat olar, yaxud onun əvəzinə başqa materiallardan, məsələn daş yerinə torpaq kərpicdən istifadə olunar və yenidən bədəvilik xüsusiyyəti daşıyan evlərə qayıdış baş verər. Bundan sonra sarayların naxış vurulub bəzənməsinə də son verilər. Proses davam etdikcə şəhərdəki binalar eynilə kənddəki bədəvi tikililərinə bənzəməyə başlayar. Sonra bu zəifləmə və geriləmə - əgər belə təqdir edilmişsə - o şəhərin tamamilə məhv olub yox olmasına qədər davam edər. Bu, Allahın bəndələri üçün təyin etdiyi qaydalardan biridir.[12]

## Sənətdəki məharət qabiliyyətə bağlıdır

Sənət elmi fikrə əsaslanan bir işdə insanın sahib ola biləcəyi qabiliyyətdir. Praktikada özünü əks etdirməsi ilə bu qabiliyyət cismani və maddi yönünü göstərər. Cismani-maddi yaradıcılıq məhsullarının birbaşa nəql edilmələri daha mükəmməl və əhatəli nəticə verər. Çünki cismani-maddi əsərlərlə birbaşa ötürülən məlumat onu daha doğru və mükəmməl mənbəyə çevirər.

İstedad bir hərəkətin davamlı olaraq və dəfələrlə təkrarlanması nəticəsində əldə edilən kök salmış və möhkəm bir xüsusiyyətdir. Davamlılıq və təkrar insanda o hərəkətin surətinin yerləşməsinə səbəb olar. Bu surətin əslinə uyğunluğu nisbətində insan

12. *e.a.ə.* s. 387.

məharət qazanar. Gözlə görülən bir nəticənin nəql edilməsi xəbərin və ya biliyin nəql edilməsindən daha əhatəli və mükəmməl nəticə verər. Dolayısilə müşahidə edilə bilən bir mənbəyə (əyani vəsaitə) baxaraq əldə edilən bacarıq məlumatlara əsaslanaraq qazanılan bacarıqdan daha möhkəm və üstün olar. Bir sənətə yiyələnən kimsənin o sənətdəki məharəti və qabiliyyəti təhsilin və müəllimin qabiliyyətinin də yaxşı və mükəmməl olması nisbətində təsirlənər.

### Əsərlərin xülasəsi təhsilə zərər verir

Sonrakı alimlərin bir çoxu elmləri qısaldaraq müxtəsər hala gətirmək yolunu seçmişlər. Bu işə həddən artıq rəğbət göstərərək bir çox mənaya gələn qısa ifadələrlə hər elm sahəsində bütün məsələləri və dəlilləri əhatə edəcək kataloq mahiyyətində əsərlər ərsəyə gətirmişlər. Bu təmayül əsərlərdəki bəlağəti ortadan qaldırmış və anlaşılmasını çətinləşdirmişdir. Eyni şəkildə fərqli elm sahələrində yazılmış uzun və izah mahiyyətindəki ana mənbələri də rahatca əzbərlənə bilməsi üçün qısaldaraq xülasəsini yazmışlar. Fiqh və fiqh üsulunda yazılmış İbn Həcibin, ərəbcədə İbn Malikin və məntiq elmində Xuncinin əsərləri buna nümunədir.

Bu təmayül tədrisi pozmuş və elmlərin keyfiyyətli təhsilinə zərər vermişdir. Çünki bu üsul ilə hələ yolun başındakı elm tələbəsinə elmin nəhayətindəki nəticələr təqdim edilir. Halbuki tələbə bunu qavramağa hazır deyil. Belə etmək (yəni tələbəyə onun hazır olmadığı şeyləri yükləmək) tədris üçün yaxşı bir üsul deyil.

Digər tərəfdən, bu üsul tələbəni həddən çox məşğul etməkdə və yormaqdadır. Çünki tələbə qısa cümlələrlə çox mənaların nəzərdə tutulduğu ifadələri anlamaqda çətinlik çəkir və o ifadələrlə həmin elmlərə dair məsələləri həll etməkdə əziyyət çəkir, bu səbəblə lazımsız yerə xeyli vaxt itirir.[13]

13. *e.a.ə.*, s. 782.

## Tələbələrə qarşı kobud rəftar

Təhsildə tələbələrin tab gətirə bilməyəcəyi dərəcədə sərt davranmaq onlara, xüsusilə də balaca yaşdakı uşaqlara zərər verər. Çünki bu, uşaqların pis qabiliyyətlərə yiyələnməsinə yol açar. Şiddət və kobudluqla yetişdirilən tələbələrə, kölələrə və ya xidmətçilərə basqı (psixoloji təzyiq) hakim olar və bu hal onların fərdi inkişafına mane olar, onlardakı məhsuldarlıq və çalışqanlığı yox edər, tənbəlliyə, yalana və ikiüzlülüyə sövq edər. Xarici görünüşünə yansıyanlarla daxilində olanlar fərqli olar. Çünki daim özünə basqı və şiddət əlinin uzanacağından çəkinər. Belə bir vəziyyət onlara hiylə və aldatmağı öyrədər. Bir müddət sonra bu onlarda vərdiş və xarakter halına gələr.

Beləliklə, cəmiyyətin və mədəniləşməyin əsasını təşkil edən insanlığın mənası pozular. Bu məna onun özünü və evini qoruyub müdafiə etmək iradəsidir. Bu mənanı itirən şəxs artıq başqasının qorumasına möhtac bir hala gələr. Hətta bundan da əlavə, gözəl əxlaq və ərdəmlərə sahib olmağa yönəlməz. Bu gedişlə gözəl əxlaqdan və insani dəyərlərdən uzaqlaşar və ən aşağı səviyyələrə düşər.[14]

---

14. *e.a.ə.*, s. 793.

# MƏHMƏD AKİF ƏRSOY

Məhməd Akif 1873-cü ildə İstanbulda, Fateh səmtindəki Sarıgözəl məhəlləsində anadan olmuşdur. Atası Məhməd Tahir Əfəndi indiki Albaniyadan İstanbula köçmüşdü və Fateh mədrəsəsində müəllimlik edirdi. Anası isə Buxaralı bir ailədən idi. Məhməd Akif dörd yaşında Əmir Buxari məhəllə məktəbində oxumağa başladı. Fateh Mərkəz Rüşdiyəsini (orta təhsil) bitirdikdən sonra Məktəbi-Mülkiyəyə (dövlət məmurluğu təhsili) daxil olsa da, oradan yarımçıq ayrılmaq məcburiyyətində qaldı. Belə ki, atası vəfat etmiş, arxasınca da Sarıgözəl məhəlləsindəki evləri yanmışdı. Ailəsi maddi çətinlik çəkirdi. Buna görə də Məhməd Akif yeni açılan yatılı məktəbə - Halkalı Baytarlıq məktəbinə daxil oldu. Buradan birinciliklə məzun oldu (1893). Həmin il Baytarlıq müfəttiş müavinliyi vəzifəsi ilə iş həyatına başladı. Üç-dörd ilə ərzində bu vəzifəsi səbəbi ilə Anadolu, Rumeli və Ərəbistana səfərləri oldu. Halkalı Ziraət (kənd təsərrüfatı) məktəbində (1906) və Çiftçilik Makinist məktəbində (1907) müəllimlik etdi. Sonra Darulfünun (İstanbul universiteti) ədəbiyyat müəllimliyinə təyin edildi (1908).

II Məşrutənin elan edilməsindən sonra Əbu-lula Mardin və Əşrəf Ədibin nəşr etməyə başladığı "Sirati-müstəqim" jurnalının redaksiya heyətində yer aldı. Balkan müharibəsindən sonra Ziraət Nəzarəti idarəsindəki vəzifəsindən istefa verdi. Balkan müharibəsinin sonlarına yaxın qurulan Müdafaayi-milliyənin nəşriyyat şöbəsinə üzv qəbul edildi. I Dünya müharibəsindən əvvəl Misir və Hicaza getdi (1913). Müharibə əsnasında Almaniyadakı müsəlman əsirlərin vəziyyətinə baxmaq üçün Alman hökuməti-

nin dəvəti ilə, Təşkilati-məxsusənin (Osmanlı gizli təhlükəsizlik təşkilatı) də vasitəçiliyi ilə müşahidəçi kimi Berlinə göndərildi (1914). Daha sonra Təşkilati-məxsusə tərəfindən Osmanlı dövlətinə sədaqəti ilə bilinən Nəcd əmiri İbnurrəşidin yanına göndərildi. Hələ səfərdə ikən Darul-hikməti-İslamiyyə (dini ixtilafların həlli üçün qurulan yeni idarə) baş katibliyinə təyin edildi və geri qayıtdığı zaman işə başladı (1918).

İzmirin işğalından (1919) sonra Qərbi Anadoluda yer-yer baş göstərən müqavimət hərəkatını qüvvətləndirmək üçün Balıkəsirə getdi, moizələri ilə xalqı aydınlatdı. Bu fəaliyyəti səbəbi ilə Darul-hikməti-İslamiyyədəki vəzifəsinə xitam verildi (25 dekabr 1920). İstanbulun işğalından sonra Anadoluda başlayan Milli Mücadiləyə qoşulmaq məqsədi ilə İstanbuldan ayrılaraq 9 may 1920-ci il tarixində Ankaraya getdi. Burdur millət vəkili olaraq Milli Məclisə (TBMM) seçildi. Konya üsyanını yatırmaq üçün oraya göndərildi. Kastamonuya getdi, Nəsrullah camesində vəzlər verdi. Ankaraya qayıtdığı zaman Tacəddin dərgahında məskunlaşdı. İstiqlal Marşını burada yazdı (12 mart 1921-ci ildə dövlət himni olaraq qəbul edildi). Şəriyyə və Vəqflər idarəsi nəzdində qurulan İslami Əsərlərin Tədqiqat və Təlifi heyətinə üzv seçildi (1922). Milli Mücadilə müvəffəqiyyətlə sonlandıqdan sonra İstanbula qayıtdı (1923).

Məhməd Akif bir müddət sonra Ankara hökuməti ilə fikir ayrılığını müşahidə etdi və bunun üzüntüsü ilə dərindən sarsıldı. Bu əhvali-ruhiyyə içində Abbas Həlim paşanın dəvəti ilə 1923-cü ilin payızında Misirə getdi. Həmin ilin qışını orada keçirdi. 1926-cı ilə kimi yayı Türkiyədə, qışı Misirdə keçirdi. 1926-1936-cı illər arasında isə Türkiyəyə heç qayıtmadan Misirdə qaldı. Camiətül-Misriyyədə (Misir universiteti) Türk ədəbiyyatı sahəsində dərs keçdi. Misirə yerləşmədən əvvəl TBMM tərəfindən ona sifariş verilən Qurani-Kərim tərcüməsi üzərində uzun bir müddət işlədi, lakin daha sonra nəşr edilməsindən vaz keçdi. 1935-ci ildə qaraciyərindən xəstələndi. Doğma yurduna olan həsrəti onu narahat edirdi. Misirdə ölmək istəmirdi. Nəhayət, 1936-cı il yayın əvvəl-

lərində İstanbula qayıtdı. Xəstəliyi çox ağırlaşmışdı. Bir müddət müalicə aldı, istirahət etdi. 27 dekabr 1936-cı il tarixində vəfat etdi. Ədirnəqapı məzarlığında çox sevdiyi yaxın dostu Babanzadə Əhməd Naim əfəndinin yanında dəfn edildi.

Şərq və Qərb musiqisi ilə çox yaxından maraqlanan, ney çalan, üzgüçülük, daş atmaq (bir növ ağır güllə atmaq), güləş və uzun məsafəyə yürüş kimi idman növləri ilə məşğul olan, xoşsöhbət, ətrafındakılarla zarafatlaşmağı sevən, intellektual bir insan olan Məhməd Akifin bir xüsusiyyəti də onun yaxın dostlarına verdiyi sözləri nə bahasına olursa-olsun tutmasıdır. Məsələn, Baytarlıq məktəbində oxuduğu illərdə bir dostu ilə sözləşmişdilər ki, hansı əvvəl vəfat edərsə, digərinin uşaqlarına baxacaq. İyirmi il sonra  Akif, özü dolanışıq cəhətdən çətinlik çəksə də, sözünün üstündə durmuş, vəfat edən dostunun uşaqlarını evinə almış və öz uşaqları ilə birlikdə oxudub yetişdirmişdir.

Əsərləri: Məhməd Akifin "Safahat" adı altında cəmləşdirilən 7 şeir kitabı nəşr edilmişdir.

"Safahat" (1911), "Süleymaniyə kürsüsündə" (1912), "Haqqın səsləri" (1913), "Fateh kürsüsündə" (1914), "Xatirələr" (1917), "Asim" (1924), "Kölgələr" (Misir 1933).

"Safahat" adı altında bütün şeirlərinin cəm halda nəşrini Ö.Rza Doğrul, 1943-cü ildə gerçəkləşdirmişdir.

Tərcümə etdiyi əsərlərdən bəziləri bunlardır: "Müsəlman qadını" (müəllif Fərid Vəcdi, 1909), "İçkinin həyati-bəşərdə açdığı rəhnələr" (müəllif Əbdüləziz Çaviş, 1923).

Akifin Kastamonuda verdiyi vəzlər də "Kastamonu Nəsrullah kürsüsündə" adı ilə nəşr olunmuşdur (1921).[1]

Əsərlərindən və məqalələrindən seçmələr:

---

1. M. Orhan Okay, M. Ertuğrul Düzdağ, "Mehmed Akif Ersoy", *D.İ.A.,* İstanbul 2003, c. 28, ss. 439-432.

## Bir gecə

*On dörd əsr əvvəl, yenə bir böylə gecəydi,*
*Qumdan, ayın ön dördü bir öksüz çıkıverdi!*
*Lakin o nə hüsrandı ki, hiss etmədi gözlər,*
*Kaç bin sənədir, halbuki, bəkləşmədələrdi!*
*Nərdən görəcəklər?.. Görəməzlərdi, təbii,*
*Bir kərrə zühur etdiyi çöl ən sapa yerdi,*
*Bir kərrə də məmureyi dünya o zamanlar,*
*Böhranlar içindəydi, bu gündən də betərdi...*
*Sırtlanları keçmişdi bəşər yırtıcılıqda;*
*Dişsizmi bir insan, onu qardaşları yerdi!*
*Fevza bütün afaqını sarmışdı zəminin,*
*Salğındı, bu gün Şərqi yıxan təfriqə dərdi.*
*Derkən, böyümüş, qırxına gəlmişdi ki öksüz,*
*Başlarda gəzən qanlı ayaqlar suya ərdi!*
*Bir nəfxədə insanlığı qurtardı o məsum,*
*Bir həmlədə qeysərləri, kisraları sərdi!*
*Əczin ki, əzilməkdi bütün haqqı, dirildi;*
*Zülmün ki, zəval ağlına gəlməzdi, gəbərdi!*
*Aləmlərə rəhmətdi, əvət, Şər-i mübini,*
*Şəhbalini ədl istəyənin yurduna gərdi.*
*Dünya nəyə sahibsə, onun vergisidir hep,*
*Mədyun ona cəmiyyəti, mədyun ona fərdi.*
*Mədyundur, o məsuma bütün bir bəşəriyyət,*
*Ya Rəbb, bizi məhşərdə bu iqrar ilə həşr et.*[2]

---

2. Məhməd Akif Ərsoy, "Bir Gece" *Safahat, Gölgeler*, haz. M. Ertuğrul Düzdağ, İstanbul 2014, s. 420; kaç bin sənə - neçə min il; öksüz – yetim; sırtlan – kaftar; fevza – anarxiya, qarışıqlıq; afaq - üfüqlər; nəfxə - nəfəs; şəhbal – quş qanadındakı uzun lələk; ədl - ədalət; mədyun – minnətdar

## Gələcək nəsillərə necə təhsil verilməlidir?

Uşaqlarımıza öz tərbiyəmizi verməyə çalışsaq, cinayət işləmiş olarıq. Hikməti birbaşa Hz. Peyğəmbər əleyhissalamdan götürmüş olan Hz. Əli deyir:

*"Övladlarınıza təkcə öz tərbiyənizi vermək üçün dirəşməyin. Bunu yadda saxlayın; onlar sizin yaşadığınız dövrdə deyil, başqa bir dövrdə yaşayacaqlar".*

Təhsil həyatının necə də acınacaqlı bir şəkildə keçib-getdiyini xatırlamayan varmı? Məktəb dövründə öyrəndiyimiz məlumatların nə qədərindən istifadə edə bildik? Düşünürəm ki, səkkiz yaşında əzbərlədiyim bir çox mətnləri ancaq otuz il sonra başa düşmüşəm. Belə getsə, on beş yaşında oxuduqlarımı başa düşməyə heç ömrüm yetməyəcək![3]

## Məscidlərdən düzgün istifadə edə bilmirik

Bir əsr namazı vaxtı Ayasofya meydanından keçirdim. Şadırvan həyətindən bölük-bölük çıxan camaat məndə əvvəla bir xatirə, sonra bir çox xəyal, daha sonra bir çox təmənna, bir çox ümid oyandırdı:

Bir gün mərhum Namiq Kamal dostlarından Nuru bəylə birlikdə elə bu meydandan keçirmiş. Günorta namazını qılıb məscidin müxtəlif qapılarından çıxaraq müxtəlif səmtlərə üz tutan xalqı iman nəzəri ilə diqqətlə süzdükdən sonra deyibmiş:

*"Nuru! Bu millət nə vaxt düzələr, bilirsənmi?"*

*"Xeyr".*

*"Nə vaxt ki bu məscidlərdən gördüyün yamaqlı, kirli paltardakı hamballarla, zənbil daşıyanlarla birlikdə sənin kimi, mənim kimi təmiz yaxalıqlı, əli çəlikli bəylər çıxacaq, o zaman".*

---

3. Məhməd Akif Ərsoy, *Sıratımüstakim,* c. 4, no. 93, İstanbul 1910-dan naklen M. Ertuğrul Düzdağ, İstiklal Şairi Mehmed Akif Ersoy, İstanbul 2014, s. 155.

Nuru bəy bu hadisəni tanışlarından birinə danışmış, mən də o şəxsdən eşitmişdim. Yaxşı düşünsək, görərik ki, bu söz necə də doğru, necə də mənalıdır!

Əlbəttə, mərhum Kamal bəy bu sözləri xalqın o təbəqəsini alçaltmaq, həqir görmək mənasında deməmişdi; o istəyirdi ki, dəstəmazda, namazda, məsciddə, camaat içində necə böyük hikmətlərin, necə qiymətli dəqiqələrin mövcud olduğunu heç kəsdən dinləyib öyrənməyə macalı olmayan bu zavallıların arasında onları irşad edəcək, oyandıracaq, dünyalarını aydınladacaq ziyalı insanlar olsun.

Məscidlər millətin düşüncəsini aydınlatmaq üçün ən münasib yerlərdir!

Danışığı yerində olan bir şəxs kürsüyə çıxıb Quran adına, Hədis adına hansı həqiqəti bəyan edib camaata təlqin edə bilməz ki? Arzu və istəklərinin bir çoxunu məscid qapısının çölündə saxlayaraq təmiz, saf bir qəlb ilə Allahın evinə girən bu minlərlə insandan niyə istifadə olunmur? Niyə onları İslam cəmiyyəti üçün faydalı insanlar halına gətirməyə çalışmayaq?

Təəssüf ki, əlimizdəki nemətlərdən və vasitələrdən düzgün istifadə edə bilmirik. Daha doğrusu, bilərək və ya bilməyərək, bu yolların qarşısını kəsirik.[4]

## Həccə kimlər getməlidir, nə etməlidir?

Hicazın müsəlmanlar üçün bir sərgi olduğunu, belə bir sərginin heç bir xalqda olmadığını, bundan istifadə etməməyin sərsəmlik olduğunu bir çox alimlərimiz, ziyalılarımız dəfələrlə təkrarlamış olsa da, mən yenə də bu fikrin təkrar ifadə edilməsini faydasız iş kimi görmürəm, heç birimiz də görməməlidir. Bu həqiqət hər gün, hər kəs tərəfindən dilə gətirilməlidir.

4. Məhməd Akif Ərsoy, *Sıratımüstakim,* c. 4, no. 95, İstanbul 1910-dan nəqlən M. Ərtuğrul Düzdağ, *e.a.ə.,* s. 155-156.

Məşrutədən, hürriyyətdən yalnız ona-buna qarşı ağız dolusu təhqiredici ifadələr işlətməklə həzz almamalıyıq; edilməsi vacib olduğu halda edilməyən işləri etdirənə qədər səy göstərməliyik.

Hazırda Həcc mövsümü yaxınlaşmaqdadır. Oğul-uşağından, ailəsindən ayrılaraq xeyli pulundan keçən, fədakarlıqlar göstərən, dünyanın bir ucundan o biri ucuna qədər gedən bu saf ürəkli insanlara çox şey anlatmaq, çox şey təlqin etmək olar. Heç olmasa Həccin məqsədinin nə olduğunu öyrənər, bir-birini tanıyarlar... Yoxsa bu nailiyyəti az görürsünüz?

Zənginlərimizin bir qismi həccə getmir, bir qismi öz yerinə başqasını göndərir, bir qismi də on-onbeş nəfərlik özəl qafilə ilə gedir. Yanlarında apardıqları bu qafiləyə kimləri alırlar, bilirsinizmi? Məhəllənin qoca qarovulçusu, mərhum atasının qulluqçusu, təqaüdə çıxmış icra nümayəndəsi kimi, həccin nə olduğunu nəinki dünyada, heç axirətdə də başa düşə bilməyəcək adamlar!..

Ey mübarək! Bunların yerinə iki-üç nəfər savadlı, ağıllı-kamallı adam aparsan, heç olmasa müsəlmanlar arasında bir tanışlıq, birlik-bərabərlik meydana gətirməyə vəsilə olsan olmazmı?

Ərəbcə, farsca, rumca, tatarca konfranslar təşkil etmək, məruzələr oxumaq, Qərbdən, Əqsadan, Hinddən, Çindən, Sibirdən, Əfqanıstandan oralara gedən hacılar ilə tanış etmək, hər bir cəmiyyətin mübtəla olduğu xəstəlikləri təsbit edərək bunlara əl birliyi ilə çarə axtarmaq laqeyd yanaşılacaq bir işdir?

Ola bilsin ki, hökumət bu sahədə bəzi tədbirlər hazırlamış, bəzi şəxsləri bu məqsədlə vəzifələndirmiş olsun. Lakin zəngin şəxslər də öz vəzifələrini icra etməlidirlər. Düzdür, “namaz əhlidir, təqvalıdır, siqaret də çəkmir” deyərək məhəllənin yaşlı qarovulçusuna əlli lira bəxşiş vermək kiçik görüləcək bir iş deyil. Amma madam ki fədakarlıq edilir, barı faydalı olan sahəyə, gələcək naminə faydalı olacaq insana yönləndirilməlidir.

Həyatını İslam aləminin səadətinə həsr etmiş olan məşhur səyyah Əbdürrəşid İbrahim əfəndi həzrətləri keçən ilki həcc haqqında: "Bu ilki nisbətən daha yaxşı oldu, bir az həccə bənzədi..." demişdi. İnşallah, bu mənzərə get-gedə həqiqi mənasını tapar.

Lakin bu arzular birlik diyarına həcc mövsümündə bir az əvvəl bəhs etdiyim insanların getməsi və ya göndərilməsi ilə gerçəkləşə bilər. Yoxsa ki, təkcə: "əfəndim, filan qulluqçunuz da bu il həccə gedir, savabı da sırf özünə aid olacaq" deyiləcək və bunun camaata heç bir xeyri toxunmayacaq.[5]

## Birlikdə iş görmək tərbiyəsi

Görürəm ki, ayrı-ayrılıqda hər birimiz kifayət qədər yaxşı insanlarıq. Bizi mədəniyyət sahəsində dünyalar qədər arxada qoyan millətlərin fərdlərində bizdəki böyük keyfiyyətlər yoxdur. Bir tərəfdən də, baxıram, bir yerə yığışanda bir ictimai birlik qura bilmirik, çünki birlikdə hərəkət etmək qabiliyyətimiz yoxdur, bu yöndə tərbiyəmiz əskikdir. Bizim möhtac olduğumuz əsl tərbiyə elə bu ikincisi, yəni birlikdə iş görmək tərbiyəsidir.[6]

## Avropalıların Şərq siyasəti

Avropalılar zəbt etmək istədikləri məmləkətin əhalisi arasında əvvəla təfriqə salar, milləti illərlə bir-biri ilə didişdirərlər. Sərsəm əhali bu şəkildə əldən düşdükdən sonra gəlib istila edərlər. Bu gün biz də eyni siyasətə məruz qaldıq. Onsuz da hər yerdə eyni siyasətdən istifadə edirlər. Hindistanda, daha əvvəl Əndəlüsdə, sonra Əlcəzairdə, İranda da belə etdilər. Bu siyasət hər yerdə eynidir, heç dəyişməz.[7]

---

5. *e.a.ə.,* s.157-158.
6. Məhməd Akif Ərsoy, *Sıratımüstakim,* c. 4, no. 109, İstanbul 1910-dan nəqlən M. Ərtuğrul Düzdağ, *e.a.ə.,* s. 159.
7. Məhməd Akif Ərsoy, *Sebilürreşad,* c. 9, no. 232, İstanbul 1913 (Bəyazid Camesindki vəzlərdən)– M. Ertuğrul Düzdağ, *e.a.ə.,* s. 159.

## Türkiyənin əhəmiyyəti

Əgər Rusiyadakı müsəlmanlar hələ də dinlərini mühafizə edə bilirsə, əgər fransızların hakimiyyəti altındakı dindaşlarımız hələ də xristianlaşdırılmayıblarsa, əgər İngiltərə hindli qardaşlarımıza hələlik səs çıxartmırsa, bunu yaxşı bilin ki, sınıq-salxaq da olsa, bu hökumət sayəsindədir.

İslamın son pənah yeri bu hökumətdir, dinin son yurdu buradır.

Ya Rəbb, sən o günləri bizə göstərmə? Bu da əldən gedərsə, müsəlmanların halı necə olar?

O zaman nə namaz qıla bilərik, nə məscid qalar, nə namus qalar, nə ailə, nə həcc, nə də Beytullah!

Vallahi, hamısını tapdayar, yandırıb-yaxarlar...[8]

## Ağılın dəyəri

Niyə ağıla bu qədər hörmət göstərilir? Çünki ağıl sahibləri ilə sənin-mənim kimilərinin imanı bir deyil ki!.. Sən, mən atamızdan görüb öyrəndik, yəni hazır olan dini götürdük. Ağıl sahibləri isə belə deyil, hər gün beyinlərində minlərlə düşüncə fırtınası qopur. Şübhələr o zavallıların iman özəyinə dayanmadan hücum çəkir. Çalışıb-çapalayır, birini aşırdır, başqa biri də peyda olur. Onu da aşırdır, üçüncüsü çıxır. Xülasə, biçarənin ömrü mübarizələrlə keçir. Hamısının öhdəsindən gəldiyi zaman isə adam alnının təri ilə "müsəlman" olur. Təbii bir haldır ki, sabah qiyamət günü onun Allah qatındakı, Peyğəmbərimizin yanındakı dərəcəsi səndən-məndən çox yüksək olacaq. Heç mənim imanımla Qəzzalinin imanı bir ola bilərmi? Əlbəttə ki, sabah qiyamət günündə onun Allah qatındakı, Peyğəmbərimizin yanındakı dərəcəsi səndən-məndən daha yüksək olacaq. Heç mənim imanımla, məsələn, Qəzzalinin imanı

8. *e.a.ə.*, s. 160. (Süleymaniyə Camesindəki vəzlərdən)

bir ola bilərmi? Əlbəttə, olmaz! Mən hazıra-nazir inanmışam. O həzrət isə ömrünü mübarizə ilə keçirib.[9]

## Silahımız yoxdursa, dişimizlə vuruşarıq

Ey müsəlmanlar! Sizdə ruhdan, hissiyyatdan əsər-əlamət qalmadımı?! Nə vaxta kimi bu zillətə təhəmmül göstərəcəksiniz?

O zəlil həyata lənət olsun ki, sahibini dünyada səfil, axirətdə rəzil-rüsvay edər. İman demək zillət demək deyildir; iman demək basqınlara, zorakılığa, həqarətə təhəmmül göstərmək, istilaçıların təhəkkümünə boyun əymək deyildir.

İman demək izzətlə yaşamaq, izzətlə ölmək deməkdir. İslamın əsrlərdən bəri düçar olduğu zillətin yazıb-pozmaqla təsvir edilməsi mümkün deyildir.

İslamın istiqlalını və istiqbalını düşünərək bütün səylərimizi bunların təmin edilməsinə həsr etməliyik. Əks təqdirdə nə yerin üstündə, nə də altında bizim üçün sığına biləcəyimiz bir yer yoxdur. Allahın və Peyğəmbərinin qəhredici qəzəbi ilə zəlil bir şəkildə məhv olmayaq. Bizdən əvvəl gəlib-keçən möminlər üzümüzə tüpürməsin. Həyat bizim üçün ar olmasın, şərəf olsun. Ar ilə yaşamaqdansa, şərəflə ölməyə üstünlük verək.

Bu gün İslam aləmi çox böyük bir təhlükə ilə üz-üzədir. Bu bəlanın dəf edilməsi hər bir müsəlmanın boynuna fərz olan bir borcdur. Hər kəs gücünün yetdiyi qədər bu təhlükənin qarşısını almaq üçün səy göstərməli, əsla yorğunluğuna məğlub olmamalıdır. Zillətdən uzaq bir əzmkarlıq içində hər kəs:

*“Bəli, biz dinimizə, hüququmuza qarşı edilən təcavüzə boyun əyməyəcəyik! Üstümüzə axın edənlərə qarşı silahımız yoxdursa, dişimizlə, yumruğumuzla hücuma keçəcəyik!”* fikrini mənimsəməli, Allahın nurunu söndürməyə cürət edən ağızları yumruqları ilə tıxamağa çalışmalıdır.

---

9. *e.a.ə.*, s. 161.

Məhz belə hərəkət etmək Allahın və Peyğəmbərin rizası ilə üst-üstə düşər.[10]

## Qorxaqlar zillət içində ölərlər

Başınıza gələn hər müsibətdən min dərs götürün. Özünüzə gəlin! Hər bəla bir təqsirin nəticəsidir. Beləcə, dünyada baş verən hər bir hadisədən nəticə çıxartmaqda istifadə edin.

Bunu bilin ki, düşmənləri dəf etməkdə zəiflik göstərərək qaçıb getmək, həzimət içində firar edərək ölkəni düşmənə təslim etmək xüsran içində, ar ilə ölməkdir. Şərəfli və heysiyyətli bir həyat isə işğalçıların istilasından uzaq bir milli həyatdır. Buna görə də milli və dini birliyimizi qorumaqda əsla səhlənkar olmamalıyıq![11]

## Təkbaşına heç bir iş görülməz

Bugünkü həyatın, məişət şərtlərinin və ehtiyacların aldığı şəkil etibarilə bir insan təkbaşına heç bir işi görə bilmir. Bütün işlər şirkətlər, idarələr və təşkilatlar tərəfindən həyata keçirilir.

Nə fabriklər, nə dəmiryolları, nə gəmilər, nə limanlar, nə xəstəxanalar, nə məscidlər, nə məktəblər, nə ticarət mərkəzləri, nə də din və vətən müdafiəsi üçün lazım olan toplar, tüfənglər, sursatlar... Xülasə, heç bir şey artıq fərdi təşəbbüslə, yəni təkbaşına iş görməklə əldə oluna bilməz. Bu gün həyat elə bir hal alıb ki, təkbaşına iş görən bir insanın alnından axan tər damcıları eynilə göz yaşları kimi axıb süzülür, sahibinə heç bir xeyir vermir. Nə vaxt ki bir yerə yığışan minlərlə alın eyni anda tərləyər, ancaq o zaman bu əziyyətin yer üzündə bir əsəri, bir izi görülə bilər.[12]

---

10. Məhməd Akif Ərsoy, *Sebilürreşad,* c. 13, no. 313, İstanbul 1914-dən nəqlən M. Ərtuğrul Düzdağ, *e.a.ə.,* s. 161-162.
11. Məhməd Akif Ərsoy, *Sebilürreşad,* c. 16, no. 416, İstanbul 1919-dan nəqlən M. Ərtuğrul Düzdağ, *e.a.ə.*, s. 162.
12. Məhməd Akif Ərsoy, *Sebilürreşad,* c. 18, no. 458, İstanbul 1920-dən nəqlən M. Ərtuğrul Düzdağ, *e.a.ə.,* s. 162-163.

## Qərblilərin təəssübü

Qərblilərin, xüsusilə də müsəlmanlara qarşı elə bir qərəzləri var ki, heç bir şəkildə təskin etmək mümkün deyil. Görünüşdə dinsiz olduqlarını iddia edərlər. Düşüncə azadlığı deyərək kainatı bütün dünyanı aldadırlar. Müsəlmanları, şərqliləri isə təəssübkeşliklə ittiham edirlər.

Əfsus! Dünyada təəssübkeş bir xalq varsa, o da avropalılardır. Əslində, avropalılardan daha təəssübkeş bir xalq var ki, o da amerikalılardır. Təəssübkeşlikdən xəbəri olmayan bir xalq axtarırsınızsa, o, bizik.[13]

## Qərblilərlə əməkdaşlıq necə olmalıdır?

Yeri gələndə avropalılarla müştərək iş görə bilərik. Ancaq bu birləşmə bizə heç vaxt onların bizim əzəli və əbədi düşmənimiz olduğunu, hər fürsətdən istifadə edərək bizi məhv etmək məqsədi güddüklərini unutdurmamalıdır. Yəni vətənimizin, dinimizin mənfəəti, ticarətimizin, sərvətimizin, rifahımızın tərəqqisi naminə zərurət olarsa, mümkün mərtəbə qarşılıqlı, bərabər mənfəətlər əsasında yaxşı götür-qoy edərək müştərək iş qura, əməkdaşlıq edə bilərik.

Lakin belə müzakirələrdə yaxşıca ölçüb-biçmək, diqqətli olmaq lazımdır.[14]

## Həddimi bilirəm, amma hesabımı yox!

"İnsan bir işin ərsəyə gəlməsini qarşısına məqsəd qoyubsa, bütün gücünü həmin mövzuya sərf etməli, ayrı-ayrı məsələlərə parçalamamalıdır".

"Ah, kaş biz şərqlilər üçün vəzifə məsuliyyətini dərk etdirəcək bir peyvənd kəşf olunaydı!.. Hara getdimsə, insanlarımızda

13. Məhməd Akif Ərsoy, *Sebilürreşad,* c. 18, no. 464, İstanbul 1920-dən nəqlən M. Ərtuğrul Düzdağ, *e.a.ə.,* s. 163.
14. *e.a.ə.,* s. 163.

vəzifə məsuliyyəti duyğusunu görə bilmədim. Bu şüurun oyandığı gün Şərq özünü boyunduruq altından qurtarmış olacaq!"

"Yaxşılıq məfhumu bizdə mənfi mənada işlədilir, müsbət deyil. Məsələn, bir nəfər haqqında "yaxşı adamdır" dediyimiz zaman "bunu etməz, onu etməz, heç kimə zərəri toxunmaz" kimi mənaları nəzərdə tuturuq. Yoxsa ki, "bunu edər, onu edər, belə-belə yaxşı işləri var" mənasında demirik".

"İnsan iki şeyi bilməlidir: həddini və hesabını. Mən həddimi bilirəm, amma hesabımı bilmirəm".

"Ehtiyac insanın öz əlləri ilə üstünə çəkdiyi tordur. Heç olmasa torun gözlərini böyük saxlasın ki, özü xilas ola bilməsə də, barı əlləri, ayaqları, başı çöldə qalsın".

"Dindar olmasaydım, gənclik illərimdə əxlaqsız ola bilərdim. Fəzilətin ictimai bir məfhum olduğunun qavranmadığı gənc yaşlarda insanı pis yollardan din saxlayar".[157]

# MƏHƏMMƏD İQBAL

Məhəmməd İqbal bugünkü Pakistanın Siyalkut şəhərində 1877-ci ilin 9 noyabrında dünyaya gəldi. Atasının arzusunu həyata keçirərək ilk əvvəl Quran kursunda oxudu. Sonra ingilis dilində təhsil verən İskoç Misyon liseyindən məzun oldu və ali təhsilinə də bu liseyin davamı sayılan tədris mərkəzində davam etdi. Buna baxmayaraq klassik təhsildən də qopmamış, Mövlana Mir Həsəndən ərəb və fars dillərini öyrənmişdi. İlk şeirlərini həmin illərdə yazmağa başlayan İqbal ali təhsilinə davam etmək üçün Lahor Dövlət İnstitutuna girdi. Qoverment kollecdəki müəllimi Prof. Dr.Tomas Arnoldla yaxın münasibətləri onun Avropaya getməsini və Avropa mədəniyyəti haqda tədqiqatlar aparmasını təmin etdi. Fəlsəfə üzrə doktorantura pilləsini tamamladıqdan sonra Lahorun məşhur Şərq kollecində ərəb dili müəllimi, bir müddət sonra isə İslamiyyə İnstitutunda ingilis dili və fəlsəfə müəllimi təyin edildi. Bu zaman o, artıq hüquq təhsili də almağa başlamışdı.

İngiltərədə (Kembric Universitetində) iki il ərzində hüquq təhsilini tamamlayan İqbal oradan Almaniyaya keçdi və Münhen Universitetində Prof.Hommelin yanında, Kembricdə yazdığı dissertasiyanı müdafiə etdi. “İranda metafizikanın inkişafı” adlı bu elmi işində o vaxta kimi Qərb aləmində çox da tanınmayan bir çox müsəlman mütəfəkkirləri incələdi. İqbalın bu əsəri – müdafiə etdiyi bir çox fikirləri daha sonra tamamilə dəyişdirmiş olsa da – onu bir filosof olaraq tanıdan və həm İslam düşüncə

tarixinə, həm də Qərb fəlsəfəsinə hakim olmasının dərəcəsini göstərən mühüm bir tədqiqat əsəri olmuşdur.

Avropa ilə milliyyətçilik fırtınalarının qopduğu illərdə tanış olan İqbal xüsusilə irqçilik sayəsində kiçik ölkələrin necə əzilib yox edildiyini gördükdən sonra milliyyətçilikdən uzaqlaşaraq bir növ İslam internasionalizmi fikrini mənimsədi. 1908-ci ildən sonra tam bir İslam şairi kimliyi ilə qarşımıza çıxan İqbal təkcə Hindistan müsəlmanlarının deyil, bütün İslam dünyasının məsələləri ilə yaxından maraqlanırdı. 1922-ci ildə ona İngiltərə hökuməti tərəfindən "Ser" titulu verildi və Hindistan müsəlmanlarının mənəvi lideri halına gəldi. Qurtuluş savaşı illərində çətin vəziyyətdəki Pakistan xalqını Türk xalqının milli mübarizəsinə dəstək vermək üçün təşkilatlandırmış, milli mübarizədə istifadə edilməsi üçün Pakistan xalqından 1,5 milyon sterlin toplayaraq Ankara hökumətinə göndərilməsində təşəbbüskar olmuşdur. Uzun sürən xəstəliyin ardından 21 aprel 1938-ci il tarixində vəfat etmişdir.

Türk dilinə tərcümə edilən əsərləri:

"Cavidnamə" (1958), "Yeni gülşəni-raz (Sirr güllərinin bağçası)" (1959), "İslamın ruhu" (1963), "Əsrar və rumuz" (1964), "İslamda dini təfəkkürün yenidən təşəkkülü" (1964), "Cavidə xitab" (1965), "İqbalın hikmətli şeirləri" (1970), "Tür laləsi, rübailər" (1970), "İqbaldan şeirlər" (1971), "İslamda özgürlüyün əhəmiyyəti və Kərbəla" (1985).

### İnsanlıq aləmi bu gün üç şeyə möhtacdır

1. Kainata ruhani məna vermək,

2. Fərdin ruhani quruluşunu təmin etmək,

3. Bəşər cəmiyyətini ruhani əsaslar dairəsində inkişaf etməyə sövq edəcək, cahanşümul mahiyyətə malik əsas prinsipləri tapmaq.

Müasir Avropa bu əsaslar çərçivəsində xəyali sistemlər qurmuş, lakin bunlar həyat aləmində nəfəs ala bilməmişdir. Çünki təkcə ağıl kifayət etmir. Ağıldan bəhrələnən ilhamların insanlara çox az təsir etməsinin səbəbi əsl etiqadların sürətinə və enerjisinə sahib olmamasıdır. Buna müqabil, din isə fərdi daim yüksəltmiş və bütün cəmiyyətləri dəyişdirmişdir. Avropada bəhs edilən idealizm heç vaxt onun həyatında canlı bir amil olmamışdır. Bunun nəticəsi olaraq Avropa bütün işi-gücü kasıbları zənginlərin hesabına istismar etməkdən ibarət olan, bir-birinə qarşı dözümsüz demokratiyalar arasında özünə yol axtaran pozğun bir şəxsiyyət halına gəlmişdir. Əminəm ki, bugünkü Avropa bəşəriyyətin əxlaqi cəhətdən irəliləməsinin qarşısındakı ən böyük maneədir. Digər yandan, müsəlmanlar ilahi vəhyi əsas götürən və başdan-başa həyat demək olan mükəmməl fikirlərə sahibdirlər. Müsəlmana görə, həyatın ruhani əsası etiqad məsələsidir. Və bu etiqad hər kəsin uğrunda sevə-sevə can verəcəyi bir müqəddəslikdir. İslamiyyətdən sonra başqa bir din gəlməyəcəyinə görə, müsəlmanların borcudur ki, yer üzünün ən azad insanları olsunlar. Keçmiş müsəlmanlar İslamdan əvvəlki Asiyanın ruhani əsarətini yıxmış, lakin bu əsas fikrin həqiqi əhəmiyyətini lazımi şəkildə qavraya bilməmişdilər. Bu günün müsəlmanları öz vəziyyətlərini dərk edərək ictimai həyatlarını əsaslı və son prinsiplərin aydınlığı içində qurmalı və İslamın təsis etmək istədiyi ruhani demokratiyanı bir bütün olaraq yaşatmağa çalışmalıdırlar.[1]

## İbadətin həqiqi məqsədinə çatması

İbadətin həqiqi məqsədinə çatmasını istəyiriksə, bunu camaat halında etməliyik, yəni ibadətlər cəm şəkildə yerinə yetirilməlidir. Zatən ibadət səmimiyyətlə və dürüst bir şəkildə edildiyi zaman ictimai mahiyyətə bürünür. Dünyadan əl-ətək çəkib bir kənara çəkilən və inziva həyatı yaşayan müsəlman, əslində, bu yolla Allaha daha çox yaxınlaşa biləcəyini düşünür. Biz də ibadət

1. Məhəmməd İqbal, *İslamın Ruhu,* tərc. E. A., İstanbul 1963, s. 54.

üçün bir yerə yığışdığımız zaman diqqətimizin bir nöqtəyə cəm olmasından və eyni mənəvi güc üçün könlümüzün açılmasından başqa bir məqsəd güdmürük. Bundan başqa, bu psixoloji həqiqəti də unutmamalıyıq ki, camaat halındakı adi bir insanın hissiyyat gücü olduqca yüksək olur. Duyğuları elə şiddətlənər və iradəsi elə hərəkətə keçər ki, həmcinslərindən uzaq qaldığı və tənha olduğu zamanlarda bunlar heç onun ağlına da gəlməz. Elə isə psixoloji bir hal olaraq dua və ibadətin mahiyyəti sirdir. Çünki psixologiya insan kütləsinin xəyal gücü və duyğularını hansı qanun və qaydaların artırdığını hələlik müəyyən edə bilməmişdir. Hər nə olursa olsun, İslam dininin ibadəti ictimailəşdirərək ruhani təcrübə və onun icra edilməsinə qazandırdığı camaat şüuruna xüsusilə diqqət etməliyik. Gündəlik camaat namazlarından hər il Məkkeyi-mükərrəmənin Məscidi-həramında qılınan möhtəşəm camaat namazlarına və digər cəm halda yerinə yetirilən ayinlərinə diqqət yetirsək, İslamın insan topluluğunun birləşməsi, bir yerə yığışması və uzlaşması üçün necə geniş imkanlar verdiyini rahatca görə bilərsiniz.

Bu səbəblə dua və ibadət istər fərdi olsun, istər camaat halında, kainatın dəhşət verici səssizliyi içində insan oğlunun özünə bir cavab tapmaq üçün hiss etdiyi dərin həsrət və şiddətli arzusunun ifadəsidir. Bu elə bir kəşfin bənzərsiz irəliləyişidir ki, onunla həqiqəti axtaran kəs öz zatını inkar etdiyi zaman öz zatını isbat etmiş olar və beləliklə, kainatın həyatında dinamik və hərəkətli bir ünsür olaraq öz dəyərini kəşf edər. İnsan nəfsinin dua və ibadət əsnasında sahib olduğu bu davranış tərzi səbəbilə İslam dini namazda insan şəxsiyyətinin həm rəddinə, həm də isbatına yer vermişdir. Amma bunu da unutmayaq ki, ibadət əslində insanın daxili aləmi və vicdanı ilə əlaqəlidir. Bu mənada onun formaları da müxtəlif cür olmuşdur. Tarix də bizim bu fikrimizi təsdiq etməkdədir. Qurani-Kərimdə belə buyurulur:

“Biz (keçmişdən bəri) hər ümmət üçün bir şəriət müəyyən etdik ki, ona əməl edərlər. Elə isə bu işdə səninlə mübahisə et-

məsinlər. Sən onları öz Rəbbinə dəvət et. Şübhəsiz ki, sən doğru yoldasan. Əgər səninlə mübahisə etsələr, (onlara) belə cavab ver: "Allah sizin nə etdiyinizi daha yaxşı bilir! İxtilafda olduğunuz məsələlər barəsində Allah qiyamət günü aranızda öz hökmünü verəcəkdir!" (Həcc surəsi, 67-69)

Buna görə də ibadətin şəkli mübahisə mövzusu olmamalıdır. Üzünüzü o tərəfə və ya bu tərəfə çevirməyiniz, şübhəsiz ki, ibadətin əsası baxımından heç bir əhəmiyyət daşımır. Qurani-Kərim bu mövzuda çox açıq hökmlər ehtiva edir:

"Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır. Şübhəsiz ki, Allahın rəhməti və nemətі genişdir, O, hər şeyi biləndir!" (Bəqərə surəsi, 115).

"Yaxşı əməl heç də (ibadət vaxtı) üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanan, mal-dövlətini çox sevməsinə baxmayaraq malını (kasıb) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbir edənlərdir. (İmanlarında, sözlərində və əməllərində) doğru olanlardır. Müttəqi olanlar da onlardır!" (Bəqərə surəsi, 177).

Bununla birlikdə, bədənin vəziyyətinin zehin yolunu müəyyən edən amillərdən biri olduğunu da unutmamalıyıq. İslam dini ibadət üçün hansısa bir yön müəyyənləşdiribsə, bunu camaat və ya toplumda eyni fikir və duyğuların ortaya çıxmasını təmin etmək üçün etmişdir. Ümumiyyətlə, ibadət şəkli həm ictimai birlik yaradır və bunu gücləndirir, həm də ibadət edənlər arasındakı vəzifə, mövqe və ya irq üstünlüyü kimi duyğu də fərqlənmələri ortadan qaldırmağa çalışır. Məsələn, düşünün, öz kasta və

soyunun üstünlüyü düşüncəsi ilə yerə-göyə sığmayan, Cənubi Hindistanın məğrur və aristokrat bir Brahmanı, hər gün ibadət əsnasında ən aşağı kastada yer alan, xor baxılan və toxunulmaz deyilən "Pariya" ilə bir yerdə cəmləşməyə başlasa, nə böyük bir inqilab gerçəkləşmiş olar! Bütün insan soyu birdir. Çünki hər şeyə qadir olan, hər şeyə hakim olan, hər "eqo"nu yaradıb bəsləyən və dəstəkləyən varlıq təkdir. Qurani-Kərimə görə, insan nəslinin vətən, millət, qəbilə, din, dil, irq və rəngə görə ayrılmış olmasının səbəbi təkcə bu müxtəlif qrupların təsbit edilməsi və tanınmasıdır. Xülasə, müsəlmanlıqda namaz və ya camaat təkcə elm, irfan və mərifət mənbəyi olaraq görülməməlidir. Bunun dəyəri və əhəmiyyəti daha böyükdür. Namaz və camaat eyni zamanda insanlar arasındakı bütün fərqlilikləri də ortadan qaldırmaq məqsədinə xidmət edir. Yaradılışımızda var olan bu təməl birliyi gündəlik həyatımızda bir həqiqət olaraq ortaya qoymağımız üçün, zənnimcə, ən təsirli yol budur.[2]

## Həyatın davamlılığı məqsədin varlığına bağlıdır

Həyatın davamlılığı hədəf və məqsədin varlığına bağlıdır. Bu karvanın bələdçi səsi hədəf və məqsədlərdir.

Həyat axtarışda gizlidir. Həyatın təməli istəkdir.

Könlündə istək və arzuları canlı saxla; ta ki, sənin bir ovuc torpağın məzar olmasın.

Ətirlər və rənglər dünyasının ruhu arzudur. Hər varlığın fitrətini meydana gətirən istəkdir.

Əgər sinələrdəki könül rəqs edirsə, təmənnası var. Sinələr onun pırıltısıyla aynalaşır.

O, torpağa uçma gücü verir. Ağıl Musasına Xızır olur.

---

2. Məhəmməd İqbal, İs*lamda Dini* Düşüncenin Yeniden Doğuşu, tərc. N. Ahmet Asrar, s. 128-131.

Könül arzuların istiliyində həyata bağlanır. O yaşadıqca haqq olmayan hər şey ölür.

Əgər könül quşunun arzuları olmazsa, qanadı qırılıb uçmağı unudacaqdır. Millətlərin qaydaları, adət və ənənələri nədir? Elmi yeniliklərin sirri nədir?

O sirr özünü yarıb çıxan bir istəkdir. Könüldən fışqırıb çıxdı, şəkilləndi.

Əl, diş, burun, göz, qulaq, fikirdir, xəyaldır, şüurdur, yaddaşdır və zəkadır.

Həyat təbiət savaşında məğlub olmamaq üçün bu alətləri hazırladı. Ey həyat sirrindən xəbərsiz yatan, oyan; hədəflər şərabını iç və sərxoş halda qalx.

Doğan Günəş kimi bir məqsəd seç və onun xaricindəki hər şeyi yandır.

Elə bir məqsəd ki, göylərdən daha uca, könül alan və könül çəkən bir dilbər olsun.

Biz hədəf qoyaraq yaşayırıq. Biz arzuların işığı ilə parıldayırıq.[3]

## Mənliyin təməli eşq və sevgidir

Adı mənlik olan o nur nöqtəsi; bizim torpağımızın altındakı həyat qığılcımıdır.

O, sevgi ilə daha canlı, daha yandırıcı hala gəlir və daha işıl-işıl olaraq əbədiləşir.

Onun gövhəri sevgi ilə alovlanır. İçində var olan imkan sevgi ilə inkişaf edir.

Onun özü eşqdən od alır. Eşq ona dünyanı aydınlatmağı öyrədir.

3. Məhəmməd İqbal, İs*lami Benliğin İç Yüzü*, tərc. Ali Yüksel, İstanbul 1986, s. 32-34.

Eşq qılıncdan və oxdan qorxmaz. Eşqin kökündə nə su var, nə torpaq var, nə də külək...

Eşq kainatda həm müharibədir, həm də sülh. Eşqin qılıncının gövhəri həyat suyudur.

Ən sərt daşlar eşqin bir baxışı ilə yarılar. Haqq eşqi başdan-başa Haqdır.

Aşiq olmağı öyrən və sevilməyin arxasınca düş. Hz. Nuhun gözünü və Hz. Əyyubun ürəyini istə.

Bir ovuc torpaqsan, yoxluğun yolunu tap və kamala çatanların eşiyini öp.

Rumi (Mövlana) kimi öz şamını yandır. Rum diyarını Təbriz alovuyla alışdır.

Könlünün dərinliyində bir sevgili var. Əgər gözün görürsə, gəl, göstərim.

Onun aşiqləri hər gözəldən daha gözəl, daha xoş, daha şirin və daha sevimlidir.

Könül onun eşqi ilə güc tapar. O, çiyin versə, torpaq Süreyya olar.

Nəcd torpaqları onun feyzi ilə bərəkətləndi və vəcdə gəlib səmaya yüksəldi.

Hər müsəlmanın könlündə Mustafa məqamı var. Bizim dəyərimiz Mustafanın (Rəsulullahın) şanındandır.

Onun evinin tozu Tur dağının dalğasıdır. Beytul-həram onun Kəbəsinin bir parçasıdır.

Əbədiyyət Onun zatının kiçik bir parçasıdır. Əbədiyyət Onun zatından çoxalıb artmışdır.

Həsir Onun rahat yuxusundan razıdır. Kisranın tacları ümmətinin ayaqları altında əzilən çınqıldır.

Hirada gecələyərkən xəlvət etdi və o xəlvətdə dövlətlər meydana gətirdi.

İslam ümməti Xosrovların taxtında rahat yatsın deyə gecələr gözləri yuxusuz qaldı.

Qılıncı döyüşdə alov saçardı. Namazda isə gözləri yaş tökərdi.

Onun qılıncı zəfərlərin duasıdır. Onun qılıncı padşahların kökünü qazıyır. Aləmlərə yeni nizam gətirən Odur. Cahiliyyəti kökündən qopardıb atan Odur.

Din açarı ilə dünya qapısını açdı. Dünya anası Onun kimi bir uşaq dünyaya gətirmədi.

Onun gözündə yüksəklik və aşağılıq eyni səviyyədə idi. O, köləsi ilə bir süfrədə otururdu.[4]

## Aslanları tülküyə çevirən ehtiyacdır

Ey aslanlara xərac kəsən, indi ehtiyacından tülküyə çevrilən; sənin yorğunluğun və xəstəliyin yoxsulluğundandır. Sənin xəstəliyinin təməli bu yoxsulluqdur. O, ülvi düşüncələrdən ülviliyi alar. O, dəyərli xəyal şamını söndürər.

İçində mövcud olan güvvət küpündən gül rəngli şərabı iç. Dövrümüzdən sənə düşəni götür.

Ömər kimi dəvədən özün en və çəkin; başqasının minnətindən çəkin.

Nə vaxta kimi məqam və mövqe dilənəcəksən? Nə vaxta kimi uşaqlar kimi çomaq ata minəcəksən?

Göylərə göz dikən hər varlıq aşağılanar və başqasının ehsanına minnətdar olar.

Mənlik, başqasından istəməklə parça-parça dağılar; mənlik simasının xurması meyvəsiz qalar.

4. *e.a.ə.*, s. 35-36.

Başqasından istəməklə müflisdən daha aşağı səviyyəyə düşərsən. Dilənçidən daha dilənçi, yoxsuldan daha yoxsul olarsan.

Öz torpağın bir ovucdursa, ona arxalan. Ay kimi olma və öz ruzini tər tökə-tökə qazan.

Hər nə qədər günün və bəxtin dar olsa da, çəkinmə, bəla sellərinə tullan.

Ruzini başqasının nemətində axtarma. Günəş çeşməsi də olsa, ondan bir udum da dilənmə.

Əgər məhşər günündə Əfəndimizin hüzurunda başı aşağı olmaq istəmirsənsə... (belə etmə)

Ay ruzisini Günəş süfrəsindən aldığı üçün könlü ləkələndi.

Allahın himmətinə arxalan və kainatla mübarizə apar. Bəyza (İslam) millətinin şərəfi ilə oynama.

Kəbəni bütlərin kirindən təmizləyən Rəsulullah: "Qazanan (işləyən) insan Allahın sevimlisidir", - buyurdu.

Başqasının süfrəsində minnət götürənlərə əfsuslar olsun. Başqasının ehsanı qarşısında boyun bükənlərə əfsuslar olsun.[5]

## Kömür və almazın hekayəsi

Mədəndə kömür və almaz mübahisə etməyə başladı. Kömür almaza dedi: "Ey əbədi parıltıların cilvəsi. Bu kainatda bizim özümüz də, kökümüz də birdir. Niyə mən mədəndə qara üzlüyəm, sən isə şahların başında parıldayan tacsan? Mən torpaqdan da dəyərsiz sayılıram, amma sənin parıltını aynalar qısqanır.

Mənim qaranlığımla atəş aydınlanır və sonda külə çevrilirəm. Mən hər kəsin ayağı altında zəliləm. Hər kəsin yandırmaq üçün niyyətləndiyi mənəm. Mənim halıma ağlamaq düşür. Desənə, mən kiməm?

5. *e.a.ə.*, s. 40-41.

Sən bir tüstü dalğasısan, amma işıl-işıl parıldayırsan. Sənin xasiyyətin də üzün kimidir, hər yanından minlərlə ulduz saçırsan. Bəzən Rum qeysərlərinin göz bəbəyi, bəzən qəhrəmanların qılıncının bəzək daşısan".

Almaz dedi: "Ey incə baxışlı dostum, əgər parıldayıramsa, deməli, əsrlərcə bişmişəm. Var gücümlə döyüşmüşəm və daş kimi püxtələşmişəm. Vücudum bişməsəydi heç parıldayardımmı və nişan kimi sinələrə taxılardımmı? Əgər sən alçalmısansa, deməli, bişməmisən. Əgər sən əzilmisənsə, deməli, yumşaq qalmısan".

(Ey almaz kimi olmaq istəyən kömür insan) narahatçılıqdan, kədərdən, qorxudan qurtul. Kömürsənsə, biş və almaz ol.

Ta ki, hər iki dünya səninlə parıldasın. Əgər almaz kimi çalışıb əziyyət çəksən və bişsən, qurtularsan.

Kəbədə milyonlarla müsəlmanın üz sürtdüyü qara daşın əsli daşdır. Hərəmə yaxınlaşmasaydı "Hərəcul-əsvəd" olardımı?

Rütbəsi Turdan daha yüksəyə ucalardımı? Bəyazın, qaranın, sarının, qırmızının öpüləcək daşı olardımı?

Həyatın şərəfi sərtliyində gizlidir. Yumşaqlıq və xamlıq gücsüzlük və aşağılığın mənbəyidir.[6]

## Elm və eşq

Elm mənə dedi ki: "Eşq dəlilikdir".

Eşq isə dedi: "Elm ancaq bir zənn və təxmindən başqa bir şey deyildir". Siz zənn və təxminin cazibəsinə düşməməli, kitab xəstəsi olmamalısınız. Eşq başdan-başa səadət, elm başdan-başa pərdədir.

Kainatın döyüş meydanı eşqin hərarəti ilə meydana gəlmişdir.

Eşq sakitlik və sabitlik olduğu halda aləmin həyat və ölümü ilə əkizdir.

6. *e.a.ə.*, s. 75-76.

Elm açıq sualdır. Eşq isə qizli cavab kimidir.

Gözütoxluğun və dinin səltənəti eşqin möcüzələrindən meydana gəlir. Tac və möhür (hakimiyyət əlaməti) sahibləri eşqin həqir köləlәridir.

Eşq həm məkan, həm də o məkanda oturandır. Həm zəmin, həm də zamandır. Eşq başdan-ayağa yəqin və imandır. Yəqin və iman isə hər müvəffəqiyyəti açandır.

Eşq halında bir yerdə dayanıb gecələmək haramdır. Narahatlıq, pərişanlıq, tufan, dəniz eşq üçün halal, lakin bir sahildə oturub dincəlmək haramdır.

Eşq tənhadır, işdırım və şimşəyi qəbul edər, xırman sahibi olmağı istəmək ona haramdır.

Eşq yalnız məşəqqət və məhrumiyyət içində yaşayır və bütün maddi məqsədlərdən uzaqdır. Elm kitabın oğlu, eşq anasıdır.[7]

## Yardımın iqtisad elmindəki mənası

Yardımsevərlik, əslində, ehtiyacı olanlara deyil, yardımsevər olmayanlara yardım etmək deməkdir. Çünki yardıma ehtiyacı olanlara verilən hər şey, həqiqətdə, yardıma ehtiyacı olanlara heç bir şey verməyənlərə verilməkdədir. Beləliklə, xeyirxah olmayan insan yardım etməməyə davam edər; xeyirxah – yardımsevər isə bunun bədəlini ödəyər. Yardımın iqtisad elmindəki mənası budur.[8]

## Təəssübkeşliyimizdə haqlıyıq

Bütün millətlər bizi təəssübkeşliklə günahlandırır. Mən bu günahlandırmanı qəbul edirəm, hətta təəssübkeşlikdə haqlı olduğumuzu da deyirəm. Biologiya dili ilə ifadə etdiyimiz zaman təəssübkeşlik: fərdi metodun tək fərd yerinə bütün topluluq üzərində

7. Məhəmməd İqbal, *Darbı-Kelam*, tərc. Ali Nihad Tarlan, İstanbul 1968, s. 11.
8. Məhəmməd İqbal, *Yansımalar*, tərc. Halil Toker, İstanbul 2007, s. 23.

təsirli olmasından başqa bir şey deyil. Bu mənada həyatın bütün sahələrində az-çox təəssüb var və insan əgər öz sosial varlığına əhəmiyyət verirsə, təəssübkeş olması zəruridir.

Həqiqətdə bütün millətlər təəssübkeşdir. Bir ingilisin dinini tənqid edin, bu ona heç təsir etməz. Amma bir az mədəniyyətini, milli adət-ənənələrini, ölkəsinin atdığı addımları tənqid edin, o zaman içindəki təəssübkeşliyin necə ortaya çıxdığını görəcəksiniz. Bunun səbəbi onun milləyyətinin dini əsaslara deyil, coğrafi şərtlərə, yəni ölkəsinə əsaslanmasıdır. Buna görə də onun ölkəsini tənqid etdiyiniz zaman haqlı bir reaksiya olaraq təəssübkeşlik duyğusu qabarar.

Halbuki bizim vəziyyətimiz bundan tamamilə fərqlidir. Bizim milli təəssübkeşliyimiz sadə bir təsəvvürdən ibarət olan maddi bir təmələ əsaslanmır. Bizim ortaq məxrəcə gəldiyimiz tək nöqtə müəyyən bir dünya görüşü haqqında bəzi məntiqi uzlaşmalardan ibarətdir. Buna görə də dinimiz tənqid edildiyi zaman təəssübkeşliyimizin qabarmasını, ən azı mədəniyyəti tənqid edilən ingilisinki qədər haqlı görürəm. Bağlandıqları yerlər fərqli olsa da, duğu baxımından hər iki vəziyyət də eynidir.[9]

## Düşmənini sevmək haqqında

Sevgi sehrli iksirdən daha təsirlidir. Deyildiyinə görə, iksir adi mədən məhsullarını qızıla çevirə bilirmiş. Amma sevgi bütün süfli (dəyərsiz, aşağı) duyğuları öz varlığına çevirə bilir. Hz. İsa və Budda sevginin təbiətini düzgün idrak etmişdilər. Lakin əxlaqi idealizm arzusu ilə həyatın gerçəklərini görməzdən gəlmişdilər. İnsanın öz düşmənini sevməsini gözləmək çox böyük haqsızlıqdır.

Bəzi fövqəlbəşər şəxslərin öz həyatlarında belə bir üstün xisləti mənimsəmiş olmaları mümkündür, lakin milli əxlaq qaydası olaraq bunun doğru olmadığı aşkardır. Yaponlar dinlərinə aid olan bu qaydanı tətbiq etsəydilər, Rus-Yapon müharibəsinin

9. *e.a.ə.*, s. 30-31.

nəticələri tamamilə fərqli olardı. 1905-ci ildə Buddist yaponlar rusları çox ağır şəkildə məğlub etmiş və donanmalarını tamamilə məhv etmişdilər.[10]

## Birlik duyğusu

*"Emotion as the Basis of Civilization"* (Mədəniyyətin təməli olaraq duyğu) adlı kitabda yer alan bir paraqraf cəm şəkildə ibadət etmək və həccin İslamda meydana gətirdiyi birlik duyğusundan bəhs edir.

Paraqrafda belə deyilir: Müxtəlif adət-ənənə və dünya görüşlərinə sahib millətlərdən meydana gələn topluluqda hər hansı bir birlik və həmrəylik duyğusu yaratmağın həddən artıq çətin olduğu məlum məsələdir. Bütün tarixçilər İslamın dünyaya hökm etməsindəki heyrətamiz müvəffəqiyyətin toplumdakı heyrət verici ahəng və ya birlik duyğusuna əsaslandığını ifadə edir, lakin belə bir möcüzənin necə gerçəkləşdiyini açıqlamırlar.

Bu sahədə ən təsirli vasitənin namaz olduğu xüsusunda şübhə yeri çox azdır. İnanan insanlar harda olmalarından asılı olmayaraq, istər səhranın ürküdücü tənhalığında, istərsə də izdihamlı şəhərin geniş qələbəlikləri içində beş vaxt namaz qılarkən tək olan Tanrıya inanc və Onun peyğəmbərinə bağlılığı ifadə edən eyni kəlmələri söyləyirlər. Onlar dizləri üstə çöküb Kəbəyə yönələrək namaz qılarkən bunu müşahidə edənlərdə belə böyük bir təsir oyadırsa, müştərək ibadət edən və eyni mənbəyə bağlılıqlarını ifadə edənlərin üstündə bu halın zehinlərini qaynaşdıran psixoloji təsiri, həqiqətən də, çox müəzzəm olacaqdır. Muhammməd (s.ə.s) birləşdirici mədəniyyət olaraq cəm halda ibadətin gücünü dərk edən ilk insan idi və heç şübhəsiz, İslamın gücü böyük miqyasda beş vaxt namazın dəyişməz qaydalarına inamla bağlılıqdan qaynaqlanır.

10. *e.a.ə.*, s. 42.

Kasıblara sədəqə vermək də qardaşlıq duyğularını inkişaf etdirən vasitədir. Eyni şəkildə Məkkəyə həcc yolçuluğu... Ortaq bir məqsədlə və ortaq ibadət və qardaşlıq hissi ilə Məkkədə bir yerə yığışan, hər qəbilə və hər nəsildən insanların birliyində böyük rol oynayan həcc, bu nəticəni meydana gətirməkdən başqa məqsəd güdməməkdədir.[11]

---

11. *e.a.ə.*, s. 88-89.

## Hüseyn Cavid

*Vətən məhəbbətini əmr edibdi peyğəmbər,*
*Xoş ol kəsə ona həmdəm olub vüsali-vətən...*

XX əsrdə Azərbaycanın üstünü qara buludlar aldı.

Bu qara buludlardan yaranan şimşəklər çoxlarının evlərini yandırdı…

Bu qara buludlardan daş kimi yağan dolu yağışlar çoxlarının evində gözlərdən yaş axıtdı…

Bu qara buludlardan doğan qaranlıq çoxlarının evində çıraqları söndürdü…

XX əsrdə Azərbaycanın üstünü alan qara buludlar bu yurdun ən dəyərli sərvətlərini əlindən aldı. Birilərinə bıçaq oldu, birilərinə tüfəng, birilərinə dar ağacı. Zəhər oldu Azərbaycan aydınları üçün XX əsrin 30-ları.

Vətəninə aşiq olan bir şairin obasını, elini vəsf etməsi belə onu dar ağacına aparırdı. İstəyirsən yüzlərlə gözəl əsər yaz, amma onların heç biri bir “traktor” şeirinə dəyməz sovetlərin gözündə.

Gözlərində estetik dəyərdən əsər-əlamət qalmayanların yanında gözəllikdən danışmaq mənasız idi. Rejim əsgərləri, rejim eynəklilər sevgidən, gözəllikdən danışarmı heç…

Gəl sən onu bir də Heseyn Caviddən soruş… Gözəllikdən sənə elə danışsın, elə danışsın ki, əllərini üzünə dayayıb meyxoş

olmuşcasına dinləyərsən. Zamanın axıb keçdiyinin heç fərqində belə olmazsan.

Hüseyn Cavid o qara buludların zəhərini saçaraq bizdən qopardığı Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin dəyərli şəxsiyyətlərindən biridir.

Hüseyn Cavid təkbaşına bir ölkənin bədii-fəlsəfi düşüncəsini yaradan, yönləndirən mütəfəkkirdir.

Orta çağda Məhəmməd Fuzüli nədirsə, XX əsrdə Hüseyn Cavid də odur. Qərb üçün Şekspir, Höte kimdirsə, Şərq və Azərbaycan üçün Hüseyn Cavid də odur.

Onun bir tək ideologiyası vardı. O da sevgi. Sevgi və gözəllikdən feyz alaraq yaşamaq, yaşadığından məmnun olmaq, var olduğun üçün şükür etmək. Hüseyn Cavidin həyat prinsipi bu idi. O eşq şairi idi. Vətənə aşiq, gözəlliyə aşiq, dünyaya aşiq, yaradılana və yaradana aşiq. Bu səbəbdəndir misralarında eşqin gəzişmələri...

*Məhəbbətsiz bütün mənayi-xilqət şübhəsiz hiçdir;*
*Məhəbbətdir, əvət, məqsəd bu pürəfsanə xilqətdən.*

Cavid Azərbaycan ədəbiyyatında yeni yol açdı. Sərt qayaları kürəyinə alaraq, barmaqlarıyla torpağı eşərək, heç nəyə və heç kimə fikir vermədən, min bir əzaba qatlaşaraq nəinki Azərbaycanda, dünya ədəbiyyatında cığırlar açdı.

Cavid "İblis" və "Şeyx Sənan" əsərləri ilə bir tərəfdən Qərbdə, bir tərəfdən də Şərqdə bənzərlərinin fövqündə yerləşir. "Cavid əruzu" və "Cavid teatrı" fəth edilməsi çətin zirvəyə çevrilir. Onun həm Şərq, həm də Qərb ədəbiyyatına bələd olması əsərlərində hər ikisinin də əks olunmasıyla nəticələnir. Əsərlərini oxuyanda yadlıq çəkməmək, tarixin misraların içində vərəqləndiyini görmək, ilk sözdən son sözədək misraların üstündə uçarkən tayı-bərabəri olmayan bir dünyanı seyr etmək məhz bu səbəbdəndir.

*Ruhumda yar üçün yenə sevda calalı var,*
*Hüsnündə gör onun necə Yusif camalı var!*

*Açmışdı qol-qanad yenə şəhbazı təbimin,*
*Eşqin fəzası övcünə uçmaq xəyalı var.*

*Yəqub kimi kor oldu gözüm ağlamaqla, ah,*
*Çün Yusifin fəraqı ucundan məlalı var.*

*Ay üzlü yarımın qədi bir sərvdir səhi,*
*Üzdə - günəş, qaşında gözəl cüt hilalı var.*

Cavid ədəbiyyatı hər nə qədər romantik adlandırılsa da, bir o qədər də qılıncdan daha iti, realizmdən daha realistdir. Cavidi anlayaraq, hər sözünün dərinliyinə enərək o quyuda nə var deyə-deyə oxumaq od-alovun içində oxumağa bənzər. Cavid ədəbiyyatı insanı yandırıb-yaxar. Yandıqca bişirər, xamlığından arındırar. Gözəlliyə, məhəbbətə yaxınlaşdırar.

Cavid ədəbiyyatı başdan-başa həqiqət axtarışıdır. O, nə şair olmaq istəmişdi, nə yazıçı, nə müəllim… O, nə tanınmaq istəmişdi, nə ad-san, nə də şan-şöhrət…

O bircə şey istəmişdi: "Həqiqət istərəm, yalnızca həqiqət".

## Rasizadədən Cavidə

Hüseyn Cavid 1882-ci il oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya gəlir. Atası Hacı Molla Abdulla kəndin sayılıb seçilən, hörmət edilən mollalarından biri idi. Musiqiyə və şeirə yaxşı bələd idi. Həmçinin məlahətli səsinə görə daha çox rövzəxan kimi tanınırdı. Hüseyn Cavidin nəsli Rasizadələr şeirə, ədəbiyyata yaxınlığı ilə seçilirdi. Hətta anası belə bədahətən laylalar deyər, bu da onun yaddaşına hopar və zamanla iki misralıq, bir bəndlik şeirlər deyərdi. Hüseyn ilk təhsilini elə atasından və qardaşından alır. Ailəsindən ərəb və fars dilini, dini elmləri

öyrənir. Hacı Molla Abdulla Hüseynin də bir din alimi olmasını istəyirdi. Ancaq Hüseyn bununla kifayətlənmək istəmirdi. Daha çox oxumaq, daha çox bilmək, yeni çalarlar axtarmaq sevdasındaydı. O zamanlar molla məktəbi olaraq adlandırılan mədrəsədə təhsilini alarkən qane olmayaraq 1894-cü ildən 1898-ci ilə qədərki orta təhsilinə Məhəmməd Tağı Sidqinin yeni üsullu "Məktəbi-tərbiyyə"-sində davam etdirir. Atası əvvəlcə narazı olur, amma Məhəmməd Tağı Sidqinin köməyi sayəsində Hüseyn təhsilinə davam edir. İlk şeirlərini "Gülçin" təxəllüsü ilə yazır. Bir dəfə Məhəmməd Tağı Sidqi Hacı Molla Abdullaha: "Sənin yerində olsam, Qumrinin, Racinin mərsiyyələrini yox, oğlun Gülçinin şeirlərini oxuyaram"-, deyir. Səhhətində narahatlıq sezdiyi üçün ailəsi onu Təbrizə göndərir. Ədəbiyyat və oxumaq istəyi onu o qədər bürüyür ki, burda da təhsilinə davam edir.

1898-1903-cü illərdə Təbrizdəki "Talibiyyə" mədrəsəsində təhsil alır. Şərq ədəbiyyatı, düşüncəsi, fəlsəfəsi və irfanına heyranlığı artıq Hüseynin yolunu çəkmişdi. Kiçik yaşlarından cızmaqaralar edən Hüseyn zaman keçdikcə qələminin itiliyini, sözünün kəsərliliyini artırır, rənglərini daha da çalarlaşdırır. 1903-cü ildə Məmmədağa Şaxtaxtlının "Şərqi-Rus" qəzetində məqalələri nəşr edilir. Təbriz dövründə ərəb və fars ədəbiyyatının sirlərindən agah olmağa başlayar başlamaz klassik ədəbiyyatın təsirə düşür. Ərəb və fars dilində şeirlər yazır. Təbrizdə təhsilini başa vurduqdan sonra 1904-cü ildə Naxçıvana qayıdaraq "Məktəbi-tərbiyyə"-də  türk və fars dili dərsindən müəllimlik edir.

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda maarifçilik xətti oyanmağa başlayır, XX əsrin əvvəllərində isə mədəniyyət və incəsənət parlaq dövrünü yaşayır. İstər siyasi və sosial, istərsə də mədəni baxımdan daha hürr və aydın Azərbaycan xəyalları üçün bütün cəbhələrdə çalışılırdı. Bu ərəfələrdə yazılmayan ayrı bir gizli tarixi proses gedirdi. İsmayıl bəy Qaspıralı Əlibəy Hüseynzadə vasitəsi ilə Rza Tofiqlə görüşür. Nəticədə Azərbaycandan seçilən bir qrup gənc İstanbulda təhsil alacaq, elm-irfan

öyrənəcək və geri qayıdacaqdılar. Onlardan biri Hüseyn Cavid idi. Beləliklə Cavid İstanbula gedir, ilk vaxtlar Rza Tofiqin evində qalır və şəxsən o, Cavidə dərs deyir. Bir müddət yenə onun tövsiyəsiylə İstanbul Darülfünun (Universitetinin) ədəbiyayat fakültəsinə qəbul edilir. Elmin və mədəniyyətin beşiyi İstanbul mühiti onun həyatında xüsusi iz buraxır. Cavid uşaqlığından bəri axtardığını İstanbulda tapır. O, Rza Tofiqdən, Məhməd Akif Ərsoydan, Xalid Ziya Uşaqlıgildən, Cənab Şəhabəddindən dərs alır. Müəllimlərindən Rza Tofiqin ayrı yeri olub Cavidin könlündə. Təsadüfi deyil ki, Cavid üçün ən dəyərli kitablar içində müəlliminin "Rübabı-Şikəstə"si gəlirdi. Gün üzünə çıxmayan, bizim sorağını tuta bilməyəcəyimiz nüanslar baş verib İstanbulda. Rza Tofiq ilə və onun arasındakı bağlar, dərslər və söhbətlər qaranlıq kimi qalır. Qalacağı da görünür. Amma o qaranlıq gecələrdə çırağın işığından bir Günəş parıldayırdı. İstanbul bir tərəfdən onun elmini artırdıqca, bir tərəfdən də irfanı ilə yetişdirirdi. İstanbulda təhsili ilə yanaşı şeirlərinə, yazılarına davam edirdi. Azərbaycanda romantizm janrının təməllərinin atıldığı "Füyuzat" jurnalında yazıları, şeirləri dərc edilir. İstanbulda keçirilən şeir müsabiqələrinin birində "Vərəmli qız" şeiri qalib seçilir.

*Sarı gül! Ey şikəstə, solğun nur!*
*Niçin aludeyi-xəyal oldun?!*
*Çeşmi-nazində başqa rəmz oqunur,*
*Söylə, bir söylə, sən niçin soldun?!*

*Düşünüb durma böylə incə, dərin;*
*İncəlik, ya dərinlik afətdir.*
*Nerdə əvvəlki tatlı cilvələrin?*
*Bu nə halət, nasıl qiyafətdir!?*

## İndi bildim ki, əsl şairsən

Günlərin birində Cavid dərsə gecikdiyini anlayıb evdən tələsə-tələsə çıxır. Gecikəcəyinin narahatlığını çəkərkən köynə-

yinin düyməsini tərs bağlayır. Bunu görən Rza Tofiq ona "İndi bildim ki, əsl şairsən", - deyir. İstanbulda Hüseyn Cavid əls şairə çevrilir və əsl şair kimi Azərbaycana qayıdır.

Türkiyədən əvvəlcə Naxçıvana qayıdır, üç ay burada yaşayır. Azərbaycan ədəbiyyatında ilk mənzum faicəni "Ana" faciəsini yazır. 1910-cu ildə Bakıya gəlir. Bir il İran səfirliyi tərəfindən Bakıda yaşayan iranlılar üçün açılmış "İttihad" məktəbində Ana dili müəllimi işləyir. İşlər qısa müddətli olduğu üçün 1912-ci ildə daimi iş yeri axtarışıyla Gəncəyə gedir və "Mədrəseyi-ruhaniyyədə" dərs deyir. Mətbuatda məqalələri ilə yanaşı "Maral" faciəsini yazır və "İqbal" qəzetində yayımlanır. Ancaq bir neçə aydan sonra yenə şair işsiz qalır.

1912-ci ilin avqustunda Tiflisə köçmək məcburiyyətində qalır. Firudin bəy Köçərlinin dəstəyi ilə iranlıların "İttifaq" məktəbində müəllimlik edir. Tiflisdə teatrla maraqlanır, tamaşaları izləyir və "İbqal" qəzetində onlar barədə fikirlərini bölüşür. 1913-cü ildə "Ana" dramı ilə birlikdə ilk şeir kitabı "Keçmiş günlər" çap edilir. "Ana" dramı barışı, şəfqəti, bağışlamağı gətirir ədəbiyyata. Oğlunun qatilini bağışlayan Səlma xanımın obrazında Cavid zamanın qorxunc burulğanından qurtuluşun formulunu verir.

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Tiflisdə müəllim işlədiyi zamanda Çar Gizli Polis xidməti məktəbə gəlir, onun haqqında məlumatlar toplayır və bir gün Cavid Çar Gizli Polisinə sorğu-sual üçün çağırılır. Cavidin Türkiyədə təhsil alması, şair, yazıçı və ələlxüsus da müəllim işləməsi çarlıq üçün gələcəkdə təhlükə ola bilərdi. Sorğu zamanı onun çarlıq əleyhinə xidməti ilə bağlı hər hansı bir sübut tapılmır, sərbəst buraxılır. Hərçənd Cavidin izlənilməsi davam edirdi. Tiflis onun yaradıcılığının püxtələşməsində böyük pay sahiblərindən birinə çevrilir. Xatirələrdən məlum olur ki, tez-tez Şeyx Sənanın məzarı olaraq tanınan yerə gedər, dərin düşüncələrə dalarmış.

Elə 1914-cü ildə məşhur "Şeyx Sənan" ( Türbəsi önündə) şeirini yazır və "Şeyx Sənan" faciəsinin təməllərini atır.

*Oyan, ey piri-xoşdil! Qalq, ayıl bir xabi-rahətdən!*
*Qiyamətdir, qiyamət!.. Qalq, oyan, zevq al bu fürsətdən.*

*Mələklər göydən enmiş, feyz alırlar xaki-pakindən,*
*Seçilməz şimdi əsla məqbərin gülzari-cənnətdən.*

*Donanmış hər tərəf pürşölə yıldızlarla... caizdir*
*Ki, Tiflis ərş pürəxtərlə dəm vursun rəqabətdən.*

*Ayıl, ey şeyxi-vəcdavər! Ayıl, baq gör nə aləmdir?*
*Cihan sərməst olub rəqs eyliyor şevqi-şətarətdən.*

*Uyub sən bir mələksimayə satdın dini, imanı,*
*Atıb ehkami-Quranı, uzaqlaşdın təriqətdən.*

*Fəqət xoş bir təriqət qoydun, əsla məhv olub getməz,*
*Cihan durduqca parlar, yüksəlir, düşməz təravətdən.*

*Ziyarətgahını gülbusələr təzyin edər hər an,*
*Sən əhli-eşq için bir Kəbə yapdırdın məhəbbətdən.*

*"Nədir mənası eşqin?!" söyləyənlər nerdə? Bir gəlsin,*
*Görüb qüdsiyyəti-Sənanı, lal olsun xəcalətdən.*

1914-cü ildə Cavidin səhhətində problem yaranır və müalicə üçün Tiflisdən ayrılaraq əvvəlcə Kaxeti bölgəsinə, sonra isə Yessentukiyə gedir. Burada müxtəlif işlərdə çalışmaq məcburiyyətinə qalır. 1915-ci ildə yenidən Bakıya qayıdır. Üç il "Səfa" məktəbində müəllim işləyir. 1916-cı ildə "Şeyda" pyesi, bir il sonra "Bahar Salnaməleri" adlı şeir kitabı nəşr edilir.

Cavid inqilab adamı deyildi. O, qırmağın, dağıtmağın, incitməyin, küsdürməyin, əzməyin, alçaltmağın, aşağılamağın və bir

andaca nə bahasına olur olsun hər şeyin üstündən xətt çəkib yeni düzən qurmağın tərəfdarı deyildi. O, inkişafın tərəfdarı idi. Keçmişi arxasına alaraq, yavaş-yavaş çalışaraq, elm-irfanla inkişafın. Ancaq hadisələrin gedişi onun dəst-xəttinin cığırına təsir edir. Əsərlərində müəyyən prizmalarla azadlığa, hürriyyətə səsləyir. Mətbəə işçilərinin həyatından bəhs edən "Şeyda" pyesində onların azadlığının zəruriliyini ön plana çəkirdi. Zamanına görə bu olduqca cürətkar addım idi. Çünki işçi sinfinin mübarizəsini təlqin edərkən işçi sinfini müdafiə edən və özünü bu adla təqdim edən sistemi tənqid edirdi.

Birinci dünya müharibəsi zamanı qardaşlarına (Osmanlı dövlətinə) yardım məqsədi ilə "Qardaş köməyi" təşkilatı yaradılır. Təşkilat üzvləri Osmanlının bəzi bölgələrini qarış-qarış gəzərək maddi ehtiyacı olanları siyahıya alır və yardım edir. Bundan başqa Bakıda Nargin adasında saxlanılan türk əsrgərlərin əsirlikdən xilas olmalarına şərait yaradır. 1917-ci ildə təşkilatın "Qardaş köməyi" adlı dərgisi nəşr edilir. Dərginin satışından əldə edilən gəlirlər Osmanlıdakı qardaşlarına göndərilir. Şair də öz növbəsində dərgiyə təmənnasız yazılar yazır, ədəbi bağlılığıyla yanaşı könül birliyini də ifadə edir.

1918-ci ilin mart ayı…

Bakı yanır, Bakı ağlayır… Bakı qanlar içində…

Bakı bağırtılar, hıçqırıqlar, göz yaşları içində…

Ermənilər insanları öldürür, qaçırdır, işgəncə verir, evlərini yandırır… Heç kəsin gözləmədiyi bir anda gizli qruplaşmış xain erməni quldurları yüzlərlə ata-ananı balasız, balanı ata-anasız, evləri başsız qoyur..

*Yaş zindanlar yuvamız,*
*Fəlakət aşinamız.*

*Ordular yıxan qurşun,*
*Olmuş bizim qidamız.*

*Arkadaş, göz aç, aman,*
*Qalx ölüm uyqusundan.*

*Zülmə çox əydin boyun,*
*Çox əzildin, qalx, oyan!*

*...Arkadaş, ayıl bir an,*
*Haqsıza olma qurban.*
*Yetər, miskinlik yetər,*
*Qalx! Oyan, oyan, oyan!..*

## Erməni əsirliyindən qurtulması

Erməni quldurlarının qaçırdığı insanların içində Hüseyn Cavid də var idi. Təbriz mehmanxanasında yaşayırdı, həmin dövrdə, Cavid. Basqın ediləndə "İblis" əsərinin üzərində çalışırmış. Onunla birlikdə yetmiş nəfər tutulub başqa bir yerə aparılır. Ermənilər qəddarcasına davranırlar. Yol boyu yetmiş nəfərdən sadəcə o sağ qalır. Birdən ermənilərin diqqəti yayınır. Cavid bunu fürsət bilib qaçır. Bakı qarışıq olduğundan Təbrizə gedir. Şeyx Məhəmməd Xiyabaninin "Təcəddüd" qəzetində şeiri dərc edilir. Onun buradakı həyat və fəaliyyəti ilə bağlı bir çox qaranlıq məqamlar var.

Böyük ehtimal ki, İrandakı azadlıq hərəkatına öz dəstəyini verib. Bakıda isə "Bəsirət" qəzetində Cavidin öldüyü ilə bağlı xəbər yayımlanır və tez bir zamanda bütün Bakıya yayılır. "Azərbaycan" qəzeti xəbəri təkzib edir, hətta Təbrizdə məktəb müdiri işlədiyini qeyd edir. İki ay sonra Naxçıvan yolu görünür və "Rüşdiyyə" məktəbində dərs deməyə başlayır. 1918-ci ildə Cavid Müşkinaz xanımla evlənir. Bu evlilikdən sonralar Azərbaycan

mədəniyyətində, tarixində vacib xidmətlər göstərən Ərtoğrul və Turan Cavid dünyaya gəlir.

1918-ci ilin Azərbaycan tarixində xüsusi yeri var. Tarixin 1918-ci il səhifələri səhifələrin ən ağırıdır, ən yaşlısıdır. Bu ağırlıq aydınlarımızın yorğunluqlarının ağırlığı, axıtdıqları tərlərin yaşıdır. Cavid Naxçıvan dövründə istəməsə də siyasi fəaliyyətin içində tapır özünü. Azərbaycandan qoparılmaması üçün yaradılan Araz Türk Respublikasının nümayəndəsi kimi Bakıya da gəlir. O zaman Naxçıvanın ciddi strateji əhəmiyyəti var idi və itirilə bilməzdi. Azərbaycanın hürriyyəti yolunda qardaşlarına kömək məqsədi ilə Osmanlı dövləti tərəfindən Nuru paşa Bakı üçün göndərilmişdisə, Kazım Qarabəkir paşa da Naxçıvan üçün göndərilmişdi. Cavidlə Kazım Qarabəkir paşa qısa müddətdə dostlaşır, ədəbi məclislər təşkil edir, tamaşalar səhnəyə qoyurlar.

Azərbaycan Cümhuriyyəti dövründə Cavid ədəbi əsərlər yazmaqdan daha çox müəllim, aydın kimi çıxış edir. Əvvəlcə Bakı realnısında "türk sinifi"ndə, sonra Azərbaycan Universitetində müəllim işləyir. Abdulla Şaiqlə birlikdə "Ədəbiyyat" dərsliyini hazırlayıb nəşr edirlər. Qeyd edilən ədəbiyyat dərsliyində Cavidin əvəzsiz əməyi və ideyası olub. Cavid sayəsində dərslik Azərbaycan və türk ədəbiyyatının ortaq dərsliyi kimi bir rol oynayıb. Mətbu orqanlarla əməkdaşlıq edir, ədəbi dərnəklərin, ədəbi məclislərin sayı artırdı. Müsavat partiyasına üzv olmadı, amma müsavatçıların ideoloqlarından biri idi. Necə ki, Əli bəy Hüseynzadə pərdənin arxasındakı adam idi, Hüseyn Cavid də siyasi baxımdan səhnənin arxasında idi. Hətta Cümhuriyyət süqut etdikdən sonra Nəriman Nərimanovla söhbətlərinin birində çarənin türkləşməkdə, daha çox və daha sürətli türkləşməkdə olduğunu demişdi. Məhəmməd Əmin Rəsulzadəyə nə qədər yaxın olsa da, müsavatçılarla nə qədər dostluq münasibəti olsa da onların bir təklifini rədd etmişdi. Ondan Cümhuriyyətin himnini yazmağını istəmişdilər. Ancaq o, sifarişlə yaza bilməyəcəyini demişdi vətəni üçün əzablara qatlaşan, bütün xəyalı vətəni olan Cavid əfəndi.

*Olubdu qəlbimə hakim mənim məlali-vətən,*
*Başımda şur ilə məskən salıb xəyali-vətən.*

*Vətən, vətən deyərək hər diyarə səs salıram,*
*Düşərmi bircə dilimdəm mənim məqali-vətən?*

*Vətən məhəbbətini əmr edibdi peyğəmbər,*
*Xoş ol kəsə ona həmdəm olub vüsali-vətən...*

*Neçün şərafətini, fəxrini verib əldən,*
*Bu qədər yurduna biganədir ricali-vətən?*

*Ürək dolubdu nədən, sanki qan piyaləsidir,*
*Tapıbdır əksini qəlbimdə bəlkə hali-vətən?*

*Zəmanə ötsə də möhnətli, qanlı qəlbimdən,*
*Əminəm, heç də silinməz bu ibtizali-vətən.*

*Tərəhhüm eylə mənə hühudi-səba, çatdır,*
*Səlamımı eşidə bəlkə növnəhali-vətən.*

*Gərəkdi əzm ilə, hümmətlə ittihad etmək!*
*Sizinlə bağlıdır iqbalü həm zəvali-vətən.*

*Əgər sual edələr - Salikin xəyalı nədir?*
*Deyin həqiqəti, ancaq olub maali-vətən.*

## Uçurum faciəsi

1919-cu ildə "Uçurum" faciəsini yazır. Əsər vasitəsi ilə dövrün Türkiyəsinə səyahət edirsən. Cəmiyyətin öz tarixi köklərindən və mədəniyyətindən imtina edərək yadlaşmanın törədəcəyi fəsadları görürsən. Cavidin şah əsərinin "İblis" olmasına baxmayaraq "Uçurum" zamanına görə olduqca dəyərlidir. Çünki dəyərlərin tədricən itiriləcəyi müşahidə edilirdi. Qısa müddət sonra isə onun qabaqgörənliyi doğrulanır. 1920-ci ildə Azərbaycan Cüm-

huriyyəti süqut edir. Süqutda azərbaycanlı sosialistlərin də əməyi böyükdür. Cavid əfəndinin diqqət çəkmək istədiyi məqam məhz bu idi.

Azərbaycan Cümhuriyyətinin süqutu təkcə minbir əzab əziyyətlə qurulan hürriyyətin süqutu ilə nəticələnmir. Həmçinin XIX əsrin ortalarından başlayan mədəni dirçəlmənin də qarşısını alır. Sosialistlərin sevinərək gətirdikləri rejim milli ədəbiyyatı, mədəniyyəti qəbul etmir, müxtəlifliyi aradan qaldırır, təkidlə bəsitləşmə, eyniləşmə, dəmirləşmə və daşlaşma ardınca qaçırdı. Təbii ki, bu, Cavid əfəndinin ideyasına tərs idi. Qurulan sovet rejimi yazılara müdaxilə edir, sifarişlə əsərlər yazdırır və bunu qəbul etməyənləri isə sıxışdırırdı. Əvvəlcə Cavidin evi əlindən alınaraq, hökumətə verilir. Sonra qurduqları və ya işləməsində böyük əməyi olduğu dərgi, jurnal və qəzetlərin bağlanması, ədəbi toplantıların gedişinə müdaxilələrin edilməsi, həmçinin bütün addımlarının izlənməsi artıq onun səbrini daşırır.

Şairin mübarizəsi ədəbiyyatı, sözləriylə olar. Cavid əfəndi Cümhuriyyət zamanı vətən, millət deyə bağıran bir çox şairin, bir çox yazıçının sosialist rejim qurulduqdan sonra kimliyini unudaraq onlara xidmət etdiyi dövrdə əsərləri vasitəsi ilə meydan oxuyurdu. 1918-ci ildə yazdığı şah əsəri "İblis" mənzum faciəsi 1920-ci ildə səhnələşdirilir. Birinci dünya müharibəsi, onun törətdiyi fəsadları çatdırmaq üçün yazdığı şah əsərin Cümhuriyyətin süqutundan qısa müddət sonra tamaşaya qoyulması yerinə düşmüşdü.

*İblis!.. O böyük ad nə qədər calibi-heyrət!*
*Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.*
*Hər qülbədə, kaşanədə, viranədə İblis!*
*Hər Kəbədə, bütxanədə, meyxanədə İblis!*
*Hər kəs bəni dinlər, fəqət eylər yenə nifrət,*
*Hər kəs bana aciz qul ikən, bəslər ədavət.*
*Lakin bəni təhqir edən, ey əbləhü miskin!*

*Olduqca müsəllət sana, bil, nəfsi-ləimin,*
*Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,*
*Daim ayaq altında sönüb məhv olacaqsın.*
*Bənsiz də, əmin ol, sizə rəhbərlik edən var:*
*Qan püskürən, atəş savuran kinli krallar,*
*Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər,*
*Altın və qadın düşgünü divanə bəbəklər.*
*Bin hiylə quran tilki siyasilər, o hər an*
*Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;*
*Onlarda bütün fitnəvü şər, zülmü xəyanət,*
*Onlar duruyorkən bəni təhqirə nə hacət?!*
*Onlar, əvət onlar sizi çignətməyə kafi,*
*Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi…*
*Bən tərk edərim sizləri əlan nəmə lazim!*
*Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.*

*İblis nədir?*

*- Cümlə xəyanətlərə bais…*

*Ya hər kəsə xain olan insan nədir?*

*- İblis...*

## Hüseyn Cavid poeziyasının satirikləşməsi

1922-ci ildə “Afət”, “Peyğəmbər” və “Topal Teymur” faciəsi nəşr edilir. “Afət”i İstanbulda oxuyarkən yazmış, lakin gün üzünə çıxarmamışdı. Sonradan dəyişiklik edir və ən uyğun anda nəşr etdirir. “Afət”lə yalançı, saxta elitliyin, kübarlığın, ancaq maddiyyata söykənməyin, meşşanlığın törədə biləcəyi fəsadları təqdim edir. “Peyğəmbər” və “Topal Teymur”la işin içinə tarixi şəxsləri daxil edir və onların simasında od püskürür. İlkində insanın kamilləşməsindən, mənəviyyatını uca tutmasından, bu sayə-

də gözəlləşməsinin əhəmiyyətindən bəhs edərkən, ikincisində isə tiranlığı, insanların hüquq və azadlıqlarının tapdanmasını, əzilməsini, sadə insanların yox kimi görülməsini tənqid edir. Cavid əfəndi bunları sovet rejiminin "Mübariz Allahsızlar Cəmiyyəti" yaradıb dinsizləşdirmə hərəkatını apardığı, məscidləri bağladığı, quranların yandırıldığı, hürriyyətin sadəcə kağız üzərində olduğu, insanlar türk olduğunu dediyi zaman milliyyətçi, Turançı damğası ilə əzab-əziyyətlər verildiyi bir vaxtda hayqırırdı.

Hüseyn Cavidin odlu-alovlu əsərləri rejimi narahat edirdi. Ancaq onun əleyhinə ciddi bir dəlil tapa bilmirlər. Çarə qısa müddətlik Azərbaycandan uzaqlaşdırmaq idi. Cavidin səhhətiylə bağlı problemlər yaşadığını bilirdilər. 1926-cı ildə müalicə almaq adıyla Cavid Almaniyaya göndərilir. Müalicəsi ilə yanaşı şair orada Avropa mədəniyyəti ilə daha yaxından tanış olur və "Azər" əsərini yazır. Sovet hökuməti onun geri çəkiləcəyini düşündüyü halda Cavid əfəndi faciənin əksinə mübariz bir əsər ortaya qoyur. O, Azərbaycanı boğmağa çalışan, balaca hücrəyə qərq edərək elm və mədəniyyətdən uzaq tutmağa çalışanları yenə tənqid edir, oxucularına səslənirdi.

*...Bizlər yeniləşsək belə, daim,*
*Bir əskilik az-çox bizə hakim...*
*...Onlar qoşacaq, çırpışacaqlar,*
*Bir çox uçurumlar aşacaqlar.*
*Lazımsa cəhalətlə güləşmək,*
*Bir çarə var: ancaq yeniləşmək!*
*Onlardakı himmət və mətanət*
*Qırmaclayacaq Şərqi nihayət.*
*Onlardakı qüdrət və məharət,*
*Er-gec verəcək xalqa səadət.*
*...Onlar güləcək güldürəcəklər,*
*Bizdən daha xoş gün görəcəklər!*

Almaniyadan qayıtdıqdan sonra nə Cavid əfəndinin düşüncəsində bir dəyişiklik olmuşdu, nə də sosialist, kommunist quruluşun düşüncəsində. Əksinə, daha da qəddarlaşmış bir hökumət vardı. Mətbu orqanlarda vətənini sevən, yurdunu sevən şair və yazıçılara qarşı qara propaqanda aparılırdı. Ən çox tənqidi yazıların hədəfi isə Hüseyn Cavid idi. Azərbaycanda turançılığın, türkçülüyün ideoloqu hesab edilir, ədəbiyyatında ərəb, fars sözləri bir yana, türk dilindən istifadə etməsini də vətənə xəyanət adıyla qələmə verməyə çalışırdılar. O isə bir-birinin ardınca *"Knyaz"*, *"Səyavuş"*, *"Xəyyam"*, *"İblisin intiqamı"* əsərlərini yazır.

Cavid əfəndinin təslim olmamağı, satılmamağı rejimi ciddi narahat edirdi. Şair gecə səhərə kimi dar, balaca otaqda işləyər, Mişkinaz xanımsa səs düşməsin, o narahat olmasın deyə oturduğu yerdən durmaz, eləcə də yuxulayardı. Bir dəfə yuxusunda zəhərli ilanın ona tərəf gəldiyini görür, tez yuxudan ayılır. Yuxusu çin olmuş, zəhərli ilanlar/rejim polisləri gəlmişdilər və onu aparırdılar.

"Qanlı 37" Hüseyn Cavidi də öz ağuşuna alır. 1937-ci ilin iyununda həbs edilir. Onsuz da əllərində heç bir dəlil yox idi. Sorğudan da bir şey çıxmır. Əlbəttə, belə ola bilməzdi. Sovet polisi çarəni Cavid əfəndiyə yaxın insanlarda tapır və sorğuda onun "yaxınları" yalan izahatlar verir. 1939-cu ilədək Bakı həbsxanalarında saxlanılır və iyul ayında Sibirə sürgün edilir. 1941-ci il dekabr ayının 5-də İrkutsk Vilayətinin Tayşet rayonunun Şevçenko kəndi yaxınlığındakı əlillər evində vəfat edir.

*Məni öldürsələr də mən yaşarım,*
*Tərk edib xalqı xaliqə qoşarım.*
*Əbədiyyət mənim məzarımdır,*
*Çünki sultani-eşq yarımdır.*
*Eşq üçün can nisar edər ərlər,*
*Əbədi bir həyat içində gülər.*
*Məni həp parça-parça doğrasalar,*
*Ruhum ölməz, səmayi-eşqə uçar.*

## Hüseyn Cavidin Mayakovskiyə cavabı

Azərbaycanın bir Cavid əfəndisi vardı və o zamankı Azərbaycan onu qoruya bilmədi.

Rusun qundağı qardaşı qardaşa satdırdı, qardaşı qardaşa asdırdı…

Öz dilini danışan, öz dinindən olan, öz imanından olan, öz yurdundan olanların yaltaqlığı səbəbindən rus dığasının palçıqlı çəkmələri öz yurdu üçün sinəsi yananların sinəsindəki odu söndürdü…

Nizamilər, Füzulilər deyirlər, amma Cavidlər demək olmur artıq.

Cavidi niyə türk dilində, osmanlıca yazırsan deyə elə özümüzünkülər olmazın tənqid etdilər. O isə sonacan dilinə sadiq qaldı. Bilirdi ki, bu dildən imtina ortaq dilin məhvinə aparır. Onun ədəbiyyatı türkün ortaq ədəbiyyatıdır.

Cavid ortaq dil qorunsun, ortaq ədəbiyyat qorunsun, milli kimlik itirilməsin deyə dəfələrlə yamadılmış ayaqqabısında, yuyulmaqdan süzülmüş köynəyində geyinilməkdən didilmiş tək pencəyində başı dik elə şux, elə mətin gəzirdi, qürurlu dayanırdı ki! Başını sadəcə bəzi vaxtlarda aşağı salardı. Vətənini gözünün önündə satanların.

Bir dəfə Azərbaycan ədəbiyyatının nümayəndələri ilə rus şair Mayakovski arasında görüş keçirilir və şəkil çəkdirmək istəyirlər. Hər kəs oturub, hazırdır. Qəfil Mayakovskinin gözü “araq” şüşəsinə sataşır, şüşənin də şəkildə düşməyini istəyir. Fotoqrafa şüşəni verməsini deyir. Bunu eşidən kimi Cavid əfəndi etiraz edərək belə deyir: “Əgər bu araq şüşəsi şəkildə çıxacaqsa, onda mən şəkil çəkdirmək istəmirəm”. Sonra şüşə çiçəklərlə gizlədilir. Cavid əfəndi şəkli şəkdirir, ancaq o, hər kəsin baxdığı tərəfə baxmır, üzünü yan tərəfə çevirir.

Çünki o, Cavid əfəndi idi…

Milli kimliyinə, dilinə, dininə sahib çıxan Cavid əfəndi.

## Əhməd Cavad

*Çoxdandır ayrı düşdüm*
*Üç boyalı bayraqdan.*
*A dostlar, mən yoruldum*
*Gizlicə ağlamaqdan.*

Hərçənd ki, onun təbiətinə ağlamaq yad idi…

Göz yaşı axıtmaqdansa, mübarizə aparardı.

Səsi boğulana kimi,

nəfəsi kəsilənə kimi,

qanının son damlası axana kimi…

Gücü yetdiyi qədər meydanlarda yağılara, yadlara qarşı silahını sinəsinə sıxıb savaşardı.

Silah sinəsində olmayanda isə dilindən marşları atılardı düşmənlərin üstünə misra-misra.

“Bismillah”la, “Tanrı türkə yar olsun”la türk oğullarını namərdlərin üstünə yürüməyə səsləyərdi.

Canını  bu torpağın yolunda qurban vermişdi çünki!

*Toprağına can demişəm,*
*Suyuna mərcan demişəm,*
*Canımı qurban demişəm.*
*Canım-gözüm, gözüm-canım,*

*Azərbaycanım!*
*Can, can, can Azərbaycan!*

### Əhməd Cavad kimdir?

O, saray şairi deyildi…

O, güclü külək əsərkən küləyə tərəf əyilən ağac kimi yaltaq şair deyildi…

Əsgəri soyuqda, ac qarnına düşmənlə savaşarkən isti yorğanın atında yatan şair deyildi...

Üzü-gözü, geyimi-gecimi təmiz, səliqəli, çiçəkli-ləçəkli şair deyildi...

O, səngərlərin, cəbhələrin, əsgərlərin şairi idi…

Yanında fırtınalar qopsa da, burulğanlar çıxsa da, yerindən tərpənməyən, burulğanların içinə ala bilmədiyi şair idi…

İki dəst paltarından birini qardaşlarına verən, bir tikə çörəyini qardaşları ilə bölüşən, Turan ellər var olsun deyə döyüşən şair idi...

O, vətənini işğal etmək itəyən yağı ingilis, erməni qanlı düşmənə qarşı üst-başı yurdunun tozu-torpağına bürülü Əhməd Cavad idi...

Başdan-başa vətən qoxulu Əhməd Cavad...

*Bən kiməm?*
*Soranlara, bən bu yurdun*
*Anlatayım nəsiyəm:*
*Bən çeynənən bir ölkənin*
*"Haqq" bağıran səsiyəm!*

Əhməd Cavad bir zamanlar meydanlarda qopuzla şeir deyərək, cəngi söyləyərək igidləri döyüşə həvəsləyən dədələri

diriltdi. Şeirləri səngərlərdə dildən-dilə dolaşır, yaralara məlhəm olurdu.

Heç kim Cavadı onun-bunun, o tərəfin-bu tərəfin şairi adlandıra bilmir, adlandıra da bilməz. O, istiqlal şairidir.

Əhməd Cavadın poeziyası üç rəngli poeziyadır. Səmalarda günəş kimi parıldayan üç rəngli bayrağın ədibidir Əhməd Cavad.

Gəncədən Bakıya döyüşə-döyüşə gəlib Bakıya bayrağını sancdığı kimi Cümhuriyyət işğal ediləndə Parlament binasından şanlı üç rəngli bayraq rusların əlinə keçməsin deyə götürdüyünə görə, rus işğalından sonra çoxları qələmini pafoslu sosialist, kommunist ağızlarına tərəf döndərdiyi bir vaxtda təzyiqlərə baxmayaraq vətənindən, elindən, obasından yazmağa davam etdiyinə görə üç rəngli bayrağın ədibidir Əhməd Cavad.

Türküstan yelləri öpüb alnını,
Söylüyor dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən,
Ərmağan yollasın yara, bayrağım!

Gedərkən Turana, çıxdın qarşıma
Kölgən dövlət quşu qondu başıma!
İzn ver, gözümdə coşan yaşıma
Dinlətsin dərdini aha, bayrağım!

Qayı xan soyundan aldığın rəngi,
Qocalmış Elxanla müsəlman bəgi.
Elxanın övladı, dinin dirəgi
Gətirdin könlümə səfa, bayrağım!

Köksümdə tufanlar, gəldim irəli
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım!

## Əhməd Cavadın formalaşmasında milli amil

Əhməd Cavad 1892-ci ilin mayında Gəncə qəzasına bağlı Şəmkirin Seyfəli kəndində ziyalı, ruhani ailəsində dünyaya göz açır. Babası Cənubi Azərbaycanda anadan olmuş, Ərəbistanda dini təhsil almış, Gəncəyə gəlib yaşadığı müddətdə hər kəsin hörmət edib ehtiram göstərdiyi müctəhid olmuşdu. Atası Axund Məhəmmədəli el arasında sayılıb-seçilir, anası Yaxşı xanım isə şifahi xalq ədəbiyyatının yaxşı bilicilərindən biri olaraq tanınırdı. Təhsilində ailəsinin böyük təsiri olur. İlk təhsilini üç il müddətində mədrəsədə alır. Burada dini elmlərlə yanaşı ərəb və fars dilini öyrənir. Çar Rusiyasının dini həyata qarşı qadağalarının və oyunlarının şeirlərində aydın seçilməsi uşaqlığında görüb sezdikləri, qarşılaşdığı, yaşadığı problemlər, çətinliklər idi.

*Quran nədir? Anlamazdıq.*
*Vətən nədir? Bilməzdik.*
*Qarşımızda yetimlərin göz yaşını silməzdik.*
*Ağlanacaq bir hal idi, kəndimiz də görürdük,*
*Dilimizin, dinimizin getməsinə gülürdük.*

1906-cı ildə atası vəfat etdikdən sonra anası Əhmədlə birlikdə Gəncəyə köçür. Yaxşı xanımın ədəbiyyata marağı və bayatılarla, şeirlərlə balaca Əhmədi əzizləməsi uşaqlığından ədəbi duyumunun inkişafına təkan verir. Yaşadığı hadisələr gələcək şeirlərinin mövzusuna çevrilir. Elə 1908-ci ildə yazdığı ilk şeirlərindən olan "Gəldim Gəncəyə" şeiri anasıyla Gəncəyə gəlməsindən, çətin keçən günlərindən, yaşadıqlarından bəhs edir.

*Anam işləyər, mən oxuyardım,*
*O, xalı, mən şeir toxuyardım.*
*Günümüz keçərdi ağlı, qaralı,*
*O, ərindən, mən atamdan yaralı.*
*Yadımdan heç çıxmaz, o gəldiyim gün,*
*Başlandı tarixi mənim ömrümün!..*

Ögey qardaşlarının köməyi ilə Gəncə Müsəlman-Ruhani Seminariyasında təhsil almağa başlayır. Qısa müddət sonra Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti tərəfindən təqaüd də verilir. O burda təkcə elm öyrənmir, Azərbaycanı, Turanı öyrənir. Seminariya Əhməd Axundzadəni Əhməd Cavada çevirir. Axı onun müəllimləri sırasında Abdulla Sur, Hüseyn Cavid, İdris Axundzadə, Abdulla Tofiq, Savad Cavad kimi ziyalılar vardı. Əlǝlxüsus Azərbaycandan Hüseyn Cavid, Türkiyədən (Osmanlı) isə Savad Cavad sayəsində Əhməd Cavad ədəbiyyatın, şeirin dərinliklərinə yiyələnir. Elə Cavad təxəllüsünü də müəlliminə ehtiram əlaməti olaraq götürür.

"Fələk dil kabab…" adlı 34 səhifəlik əlyazmasında hələ mədrəsədə oxuduğu vaxtda kiçik yaşlarında yazmağa həvəsinin nə dərəcədə güclü olduğu hiss edilir. Bu müddətdə Əhməd  şeirlərini daha çox ərəb və fars sözləri ilə zəngin əruz vəznində yazırdı. Savad Cavadın və Hüseyn Cavidin onda gövhəri görüb xüsusi məşğul olmaları hesabına Cavadın ədəbi dili sadələşir, aydınlaşır, daha çox türk sözlərindən istifadə edir. Artıq xalqın dilində yazılan şeirlər hər kəs tərəfindən anlaşılan hala gəlir və mətbu orqanlarda dərc edilir. Təhsil aldığı vaxtlardan yazdığı şeirlər müəllimlərinin diqqətini çəkir. Abulla Tofiq dostlarına yazdığı məktublarında onun adını böyük qürurla çəkir, həyəcanla Cavaddan ümidli olduğunu qeyd edirdi. Hüseyn Cavid dərgi və qəzetlərdə nəşr edilən məqalələrində Əhməd Cavaddan bəhs edir, onun şeirlərinə yer ayırırdı.

1912-ci ildə Seminariya təhsilini başa vurur. Bir il sonra Qafqaz Şeyxülislamı Məhəmməd Pişnamazzadəyə imtahan verərək "şərəfli türk və fars dilləri müəllimi" adını qazanır və Gəncədə ilk rəsmi müəllim kimi Qız məktəbində işləyir.

## Çırpınırdı Qara dəniz

Əhməd Cavad bütün varlığı ilə türk dünyasını sevirdi. O, Osmanlı dövlətinin I Dünya müharibəsində iştirak edəcəyi xəbərini

eşidəndə ürəyinin döyüntüsü sinəsini titrətmiş, ürək sevincindən çoşub-daşmışdı. O, Osmanlıya olan sevgisini və onun qələbə çalacağına olan inamını yazdığı və bu gün də milyonların ən sevimli mahnısına çevrilərək sevilə-sevilə oxunaraq türk dünyasının marşlarından birinə çevrilən "Çırpınırdı Qara dəniz" adlı şeiri ilə ifadə etdi. Bu şeir dərhal dillər əzbəri oldu və məhmədcik düşmən üzərinə onu oxuya-oxuya getdi. Bu şeirdə bayraq, vətən sevgisi o qədər böyük məhəbbətlə, o qədər sevgi ilə verilib ki, ondan sonra yazılan yüzlərlə analoji şeir onun kölgəsində qalıb və "Çırpınırdı Qara dəniz" illər keçsə də ruhunu itirməyib. Bu şeiri əslində milyonların Osmanlıya, Anadolu türklərinə olan məhəbbətinin zirvəsi də hesab etmək olar:

*Çırpınırdı Qara dəniz*
*Baxıb Türkün bayrağına!*
*"Ah!..." deyərdim, heç ölməzdim*
*Düşə bilsəm ayağına.*
*Ayrı düşmüş dost elindən,*
*İllər var ki,çarpar sinən!..*
*Vəfalıdır gəldi, gedən,*
*Yol ver Türkün bayrağına!*
*İncilər tök, gəl yoluna,*
*Sırmalar səp sağ, soluna!*
*Fırtınalar dursun yana,*
*Salam Türkün bayrağına!*
*"Həmidiyyə" o Türk qanı!*
*Həç birinin bitməz şanı!*
*"Kazbek" olsun ilk qurbanı!*
*Heyran Türkün bayrağına!*
*Dost elindən əsən yellər,*
*Bana şeir, salam söylər.*

*Olsun bizim bütün ellər*
*Qurban Türkün bayrağına!*
*Yol ver Türkün bayrağına!*

## Osmanlıda könüllü xidməti

Birinci dünya müharibəsi zamanı Osmanlı dövləti bir neçə cəbhədə mübarizə aparırdı. Bunlar bir yana daxili çəkişmələr, kiçik qruplar da dövlət əleyhinə qiyam qaldırmağa çalışır, torpaq iddia edirdilər. Əziyyət çəkənlər isə yoldaşları, qardaşları, ataları cəbhələrdə savaşan qadınlar, qocalar, uşaqlar idi. Bakıda bu məqsədlə "Qardaş Köməyi Xeyriyyə Cəmiyyəti" təşkil edilir. Həm əsgərlərə, həm də Osmanlı dövlətinin şərqindəki Anadolu, Qaradəniz bölgələrindəki insanlara yardım edilir. Əhməd Cavad təkcə cəmiyyətin təşkil etdiyi dərgidə yazısını yayımladıb gəlirləri onlara verməklə kifayətlənmir, qeyd edilən bölgələrə gedərək qapı-qapı dolaşır və ehtiyacı olanları bir-bir qeyd edir, yardım gətirilməsinə çalışır. 1916-cı ildə Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Batumda məktəb açır və müəllim işləyir. İşlədiyi müddətdə gələcəkdə məktəbdə dərs desinlər deyə müəllim yetişdirir, dərsliklər hazırlayır. Eyni ildə Bakıda "Açıq Söz" mətbəəsində "Qoşma" adlı ilk şeir kitabı "Qardaş Köməyi Xeyriyyə Cəmiyyəti"ndə birlikdə çalışdığı dostu doktor  Xosrovbəy Sultanov tərəfindən nəşr edilir. Cavad həmin vaxt Batumda idi və kitabının nəşrindən bir il sonra xəbər tutur.

29 may 1918-ci il...

Azərbaycan uzun müddətdir gözlədiyi hürriyyətinə qovuşur. Tiflisdə Azərbaycan Cümhuriyyəti elan edilir. Ancaq Bakıya ruslar və ingilislər nəzarət edirdi. Bakı azad edilməli idi. Bu dəfə Osmanlı dövləti Azərbaycana yardım əlini uzadır. Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Gəncəyə gəlir. Qafqaz İslam Ordusu Gəncədə Əhməd Cavadın şeirləri və onlara bəstələnmiş nəğmələrlə qarşılanır. Cavada yad deyildi bu geyim. Balkanlarda

al qırmızı sancağın altında bu geyimlə savaşmış, bu əsgərlər üçün onlarla şeir yazmışdı.

*Atıldı dağlardan zəfər topları,*
*Yürüdü iləri əsgər, bismillah!*
*O xan sarayında çiçəkli bir qız*
*Bəkliyor bizləri zəfər, bismillah!*

*Ey hərbin taleyi bizə yol ver, yol!*
*Sən ey gözəl dəniz, gəl türkə ram ol!*
*Sən ey sağa, sola qılıc vuran qol*
*Qollarına qüvvət gələr, bismillah!*

*Ey Bakı, sən qorxma, gəldik, gələli*
*Sənin üçün biz atıldıq iləri,*
*Sağ olan annelərə olur təsəlli*
*Şəhidlərin ruhu gülər, bismillah!*

## Bakının azadlığı və Əhməd Cavad

Bir sıra bölgələrdə döyüşlər gedir və nəhayət sentyabrın 15-də Bakı azad edilir. Azərbaycan Cümhuriyyətinin paytaxtı Gəncədən Bakıya köçürülür. Bakının azad edilməsi uğrunda məhmədciklər canlarından keçdilər. Qardaşları da onları unutmur. Bakıda Qafqaz İslam Ordusunun şərəfinə abidə ucaldılır, Şəhidlər xiyabanı salınır. Abidənin açılışında Əhməd Cavad o qədər kövrəlir ki, bədahətən türk şəhidinin xatirəsinə “Qalx” şeirini deyir

*Qalx, qalx sarmaşıqlı məzar altından*
*Gəlmiş ziyarətə qızlar, gəlinlər.*
*Ey karvan keçidi, yollar üstündə*
*Hər gələn yolçuya yol soran əsgər.*

*Qovduqların sənin yabançı xanlar*
*Qurtardı ölkəmi tökdüyün qanlar.*

*Bax, nasıl öpməkdə tozlar, dumanlar*
*Qərib məzarını, mənlə bərabər.*

Və ardınca bu sözlər süzülür dodaqlarından:

*"Türkiyədən qardaş Azərbaycanın yardımına gələrək türk islam yurdunun azadlığı üçün şirin canından keçən bu qəhrəmanlar olmasaydı, bu Vətən torpağı yenə də düşmən tapdağı altında inləyəcəkdi. Ona görə də bu qəhrəman şəhidləri bağrına basan torpaq da onları alqışlayır və doğma balası kimi qoynunda onları uyudacaq"*

Azərbaycan Cümhuriyyəti qurulduqdan sonra Əhməd Cavad bədii yaradıcılıq və pedaqoji fəaliyyəti ilə yanaşı, siyasi fəaliyyətlə də məşğul olur. Parlamentə üzv və katib seçilir. Həmçinin xarici işlərlə bağlı bir sıra dövlətlərə səfər edir. Ədəbi dərnəklərin təşkil olunmasında, davamlı və faydalı olmasında yaxından iştirak edir. "Azərbaycan" qəzeti başda olmaqla mətbu orqanlarda, məcmuələrdə məqalələri dərc edilir, şeiləri Cümhuriyyətlə bağlı tərtib edilən kitablarda yayımlanır. 1919-cu ildə "Dalğa" adlı ikinci şeir kitabı nəşr edilir.

Müsavatçılar mümkün olan bütün vasitələrdən istifadə edərək Azərbaycan Cümhuriyyətinin daxili və xarici siyasətdə güclənməsinə çalışdıqları halda, təhsil, mədəni və sosial-ictimai sahədə durmadan yeni layihələr hazırlayarkən başqa bir qrup, yəni sosialistlər Cümhuriyyətin Rusiyaya birləşməsini istəyirdilər. Böyük layihə, Sovet Respublikaları, kommunizm onları ağuşuna alıb milli kimlik və dövlətçilik anlayışlarını dağıtmışdı. 1920-ci il aprelin 23-də Cümhuriyyət süqut etdirilir. Bundan sonra isə yurdsevərlər üçün faciəli günlər başlayır.

*"Mən hər gələn bir mayısa pək çox ümidlər bağlaram,*
*Hər gələcək mayıs üçün nisan ağlar, mən ağlaram"*

Eyni ildə Quba qəzasında rus və türk dilləri müəllimi, Quba Xalq Maarif Şöbəsinin müdiri işləyir. 1922-ci ildə Bakıda Ali

Pedaqoji İnstitutun ədəbiyyat və tarix fakültəsində qiyabi təhsil almağa başlayır. Əvvəlki dövrlərə nisbətən daha az şeir yazır. Bunlar isə ya nəzirə, ya da satira və sarkazm yüklü şeirlər olur. Bir neçə ildən sonra isə işlər dəyişməyə başlayır. 1923-cü ildə Cavad ilk həbsini yaşayır. Belə ki, Müsavata üzv olduğu və Mirzəbala Məmmədzadəni ölkədən qaçırmağa kömək etdiyi iddiasına görə həbs edilir. Ancaq istintaq zamanı qorxmur və ittihamlardan yaxa qurtara bilir.

### Sən get, mən gedim, bəs bu binəva Azərbaycanı kimə tapşıraq?

Cavad həbs edilməyə bilərdi; əgər Mirzəbala Məmmədzadənin təklifini qəbul etsəydi. Cavad onun gizlincə qaçmağına yardım edir. Sərhədə yaxınlaşanda Mirzəbala israrla Cavadı razı salmağa çalışır ki, o da getsin. Mirzəbala Cavada belə deyir:

- *Cavad, ailəni, uşaqlarını götür, gəl Türkiyəyə.*

Əhməd Cavad isə Mirzəbalaya belə cavab verir:

- *Sən get, mən gedim, bəs bu binəva Azərbaycanı kimə tapşıraq?*

Təhsil aldığı müddətdə N. Nərimanov adına Pedaqoji Texnikumda türk dili, Azərbaycan Politexnik Universitetində xarici tələbələr üçün Azərbaycan dili müəllimi işləyir. Həmçinin dərsliklərin hazırlanmasında yaxından iştirak edir.

1925-ci ildə "Göygöl" şeiri nəşr edilir. Yenə istər yazılı mətbuat orqanlarında, istərsə də elmi-ədəbi "yığıncaq"larda Cavad tənqid hədəfi seçilir. Nəticədə ömrünün təxminən 6 ayını həbsdə keçirməli olur.

Ancaq adı müsavatçıların siyahısında olduğu, 1928-ci ildə İstanbulda "İstiqlal uğrunda şeirlər"i nəşr edildiyi və inadla yeni rejimi tərənnüm edən yazılar yazmadığı üçün diqqət mərkəzindəydi. Bu vaxtlar o, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda

işləyirdi. 1929-da İnstitut Gəncəyə köçürülür. Cavada Bakıda ehtiyac varkən Gəncəyə getmək məcburiyyətində qalır. Əsl səbəb Bakıdan uzaqda qalması, keçmiş cümhuriyyətçilərin birlikdə olmalarının qarşısını almaq idi. Cavad burada Azərbaycan dili və ədəbiyyatından dərs deyir. Dilçilik kafedrasının rəhbəri, Gəncə Dram Teatrının ədəbi hissə müdiri vəzifələrində işləyir. 1933-cü ildə isə professor adını qazanır və rus dili üzrə professor adını qazanan ilk azərbaycanlı Əhməd Cavad olur.

Əhməd Cavad həmçinin dünya ədəbiyyatından Fransua Rablenin "Qarqantua və Pantaqruel", Vilyam Şekspirin "Otello", "Romeo və Cülyetta", Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərlərini tərcümə etməklə dilimizi zənginləşdirib.

## Həyatının son anında Azərbaycana sədaqəti

30-cu illərin sonlarında qara qanlı günlər Azərbaycanı bürüməyə başlayır. Sovet hökuməti ürəklərində  hürriyyət sevdası, vətən sevdası olanları qorxutmaqdan imtina edib ürəklərini yerindən çıxarmağa qərar vermişdi. Qəzetlərdə əleyhinə "Sübut edə bilərik", "Cavada nifrət", "Cavadın yolu" və s. kimi məqalələr yazılır, beləliklə Əhməd Cavadın rejim agentləri tərəfindən həbs edilməsi üçün dəlillər hazırlanır.

1937-ci ilin iyun ayında Əhməd Cavad həbs edilir. Evi ələk-vələk edilir, nəşr olunmuş kitabları, qəzet və jurnallardakı məqalələri, həmçinin Rəsulzadə və millətçilikdə ittiham edilən digər aydınların kitabları tapılır. Bunlardakı cümhuriyyətçilik, türkçülük, müsavatçılıq və ən əsası Türkiyəyə bağlılıq düşüncələri üstündə müqqəssir hesab edilərək ağır işgəncələr edilir və oktyabr ayının ortalarında öldürülür. Bəzi xatirələrə görə güllələnir, bəzi xatirələrə görə isə işgəncə verilə-verilə öldürülür.

1936-cı ildə Cavadın qayınatası Süleyman bəy arxtara-axtara birtəhər Acarıstandan Gəncəyə gəlir və inadla Azərbaycandan

getməyini, getməzsə sürgünə göndəriləcəyini, hətta öldürüləcəyini deyir.

*"Cavad, oğlum, bilirsən ki, bu Şura hökumətindən qaçanların çoxunun sərhəddən keçməsinə mən kömək eləmişəm. Gəl inad etmə".*

Şair təklifi geri çevirir, getmək istəmədiyini deyir.

Cavad Azərbaycanı qoyub heç yerə gedə bilməzdi.

Azərbaycan qədər Türkiyənin, Türküstanın, Turanın şairidir, o.

"Çırpınırdı Qara dəniz" Azərbaycandırsa, "Yol ver türkün bayrağına" Türkiyədir.

Bəlkə də Türkiyədə onun qədər haqqında yazılan, danışılan, əsərləri oxunan ikinci bir cümhuriyyətçi yoxdur.

Əhməd Cavadın şeirlərində ruhu bədəninə sığışmayan biri var...

O lazım gələndə şeirin içinə girir, lazım gələndə səngərin...

Lazım gələndə güllə kimi zirehləri dəlib deşir, lazım gələndə süngü kimi...

Məhəmməd Əmin Rəsulzadənin dediyi kimi.

*"O, şeirləri ilə türk xalqlarının, doğma Azərbaycanın apardığı istiqlal mübarizəsinə bir ordudan daha çox xidmət göstərdi. Onun qələmi minlərlə süngüyə bərabər idi".*

## Rəsulzadə: "Onun qələmi minlərlə süngüyə bərabər idi"

Əhməd Cavad "Mən kiməm" şeirində özünü, kimliyini dilə gətirir. Fəqət bizim üçün "Əhməd Cavad kimdir?" sualı verilərsə cavabı, yəqin ki, özünün şeiri qədər poetik və uzun olmaz.

Sadəcə və sadəcə bircə kəlmə...

Azərbaycan!

Susmayan Azərbaycan…

Üç rəngiylə səmalarda dalğalanan Azərbaycan…

*Mən bir qulam, yük altında əzilmişəm, qardaşım,*
*Sevinc bilməz bir məhkumam, ahu-zardır sirdaşım.*
*Damğa vurub, zəncirləyib tullamışlar zindana,*
*Qarlı-buzlu cəhənnəmlər məskən olmuşdur bana.*

*Mənə dinmə, sus deyirsən, nə vaxtacan susacam,*
*Böhranların, hicranların, məhbəsində qalacam?*
*Niyə susum, danışmayım, insanlıqda payım var,*
*Mənim ana Vətənimdir talan olan bu diyar.*

*Niyə susum, danışmayım, Türk yurdudur bu torpaq,*
*Oğuzların, elxanların Vətənində kimdir, bax!*
*Bu dünyada azadlığı şan şöhrətdən üstün tut,*
*Alçaqlığı, yaltaqlığı rəzilliyi sən unut!*

*Necə susum, danışmayım, mən eyləyim xəyanət?*
*Hanı sevgi, hanı Vətən, de harda qaldı millət?*
*Mən bir qulam, yerim altın, suyum gümüş, özüm ac,*
*Atam məhkum, anam sail, elim hər şeyə möhtac.*

*Mən bir Türk övladıyam, dərin ağlım, zəkam var,*
*Nə vaxtacan çiynimizdə gəzəcəkdir yağılar?*
*Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam.*
*Zülmə qarşı üsyankaram, əzilsəm də, susmaram!*

## HİLMİ ZİYA ÜLKƏN

1901-ci ildə İstanbulda anadan olub. Atası kimyaçı Məhməd Ziya, anası Müşfiqə xanımdır. Orta təhsilini İstanbul Sultani məktəbində tamamladı. 1921-ci ildə Mülkiyə (dövlət məmurluğu) məktəbindən məzun oldu. Müxtəlif şəhərlərdə müəllim və dövlət məmuru kimi işlədi. 1933-cü ildə yeni açılan İstanbul Universiteti Türk Mədəniyyəti kafedrasına dosent olaraq qəbul edildi. Universitet tərəfindən elmi tədqiqatlar aparmaq üçün Berlinə göndərildi. Geri döndüyü zaman universitetdə Türk təfəkkür tarixi, məntiq, dəyərlər nəzəriyyəsi, İslam fəlsəfəsi, əxlaq, sistematik fəlsəfə və sosiologiya fənlərinin tədrisi ilə məşğul oldu. 1941-ci ildə professor ünvanı aldı.

1949-cu ildə Ankara Universitetinin İlahiyyat fakültəsinə keçdi. Təqaüdə ayrılana qədər bu fakültədə məntiq və sistematik fəlsəfə dərslərini verdi. 1957-ci ildə ordinarius professor ünvanı verildi. 1968-ci ildə açılan Ankara Universiteti Təhsil fakültəsində elmi fəlsəfə dərslərinə başladı. 1971-ci ildə yaş həddinə görə təqaüdə çıxdı. İlahiyyat fakültəsindəki işini isə 1973-cü ilə qədər davam etdirdi. 5 iyun 1974-cü il tarixində İstanbulda vəfat etdi.

Hilmi Ziya Ülkənə görə, fəlsəfənin əsas mövzusu varlıqdır; həqiqət və düşüncə problemləri varlıq problemindən qaynaqlanır. Fenomenologiyanın təsvir metodundan yola çıxan Ülkən hadisələri tək bir kökə bağlamadan, hər birini öz orijinallığı daxilində ələ almaq imkanının fenomenoloji üsulda mövcud olduğu fikrindədir. Beləliklə, varlığı, insanı, insandakı bilik və dəyəri bu yolla izah etməyə çalışır və qarışıq olanı sadələşdirib bəsitləşdir-

məkdən uzaq durur. Ülkən biliyin dəyişkənliyi və düşüncənin kifayətsizliyi qarşısında varlıqların iki qütblü qarışıqlığından yalnız üstün bir varlıq sayəsində qurtulmağın mümkün olduğu, bu üstün varlıqla da yalnız iman yolu ilə əlaqə qurula biləcəyi nəticəsinə gəlir. Hilmi Ziya Ülkənin fəlsəfəsində orijinal sayıla biləcək xüsus budur.

Ülkənin fəlsəfəsində hakim olan fikir düşüncə-materiya ikiliyidir. Ülkən bilmək, düşünmək və inanmaqla əlaqəli fikirlərinin nəticəsi olaraq inancdan başqa bir yolla üstün varlığa nüfuz edilə bilməyəcəyinə inanır. Ona görə Qəzzalinin qəlb gözü, Paskalın qəlb məntiqi və incə görüş, Berqsonun hissiyyat dediyi güvvələr imanın kəskinləşdirdiyi yeni görüş yollarıdır. İnsan öz kimliyi etibarilə sonludur, sonsuz varlığı yaşaya bilməz, ancaq o haqda fikirləşər. Bu düşüncə varlığın öz hüdudlarını aşmaq üçün göstərdiyi ən böyük cəhddir. Sonsuza dair bu düşüncələrə inam deyilir.

Hilmi Ziya Ülkənin 1350-dən çox müəllif və tərcümə kitabları, məqalələri nəşr olunub. Bundan əlavə, hələ nəşr olunmamış əsərləri də mövcuddur. Əsərlərindən bəziləri bunlardır: "Fəlsəfə dərsləri – bilgi və vücud nəzəriyyələri", "Eşq əxlaqı", "Türk filosofları antologiyası", "İyirminci əsr filosofları", "İctimai doktrinalar tarixi", "Yəhudi məsələsi", "İslam düşüncə tarixi – maddəçiliyə rəddiyə", "Dünyada və Türkiyədə sosiologiya təlimi və tədqiqatları", "Siyasi partiyalar və sosializm", "Bilgi və dəyər", "Türkiyədə müasir düşüncə tarixi".[1]

## Təsəvvüf fəlsəfəsi

Burada bizi maraqlandıran "hal əhli" sufilər deyil, bir növ fəlsəfə sayılan təsəvvüfdür. Təsəvvüfü bir əxlaq məktəbi və fəlsəfə anlayışı ilə uzlaşa biləcək bir dünya görüşü kimi görən ilk kəlam alimi filosof Qəzzalidir (1055-1111). Bütün səylərini bu dinin formal hərəkətləri yerinə daxildə yaşanan şəklini izah et-

1. Əyyüp Sanay, "Hilmi Ziya Ülken", *D.İ.A.*, İstanbul 2012, c. 42, s. 291-293.

məyə yönəltmişdi. “Sufilik Allaha yaxın olmaqdır”, - deyirdi. “Mizanu-əməl” əsəri əxlaq yolu olan sufilərin metodlarına əsaslanır. “Ehya” kitabının da böyük bir qismi mistik mövzulardan bəhs edir. Ona görə: “Allaha ancaq arzularından vaz keçərək çata bilərsən”. Qəzzalinin düşüncələrində dünya işləri (müamilat) və mistik hisslər (mükaşifat) bir-birindən ayrılmalıdır. İkincilər bizi salamatlığa aparan mistik vəsfləri bəxş edir.

Qəlbi təmizləyən zöhd ancaq mənəvi həyatın başlanğıcında və hazırlıq mərhələsində lazımdır. Alçaldıcı xüsuslardan təmizlənən nəfs ilə, ancaq o zaman “müraqəbə” və “sevgi” ilə Allahda birliyə (eynül-cəm) aparmalı olduğu yola girə bilər. Bu yol bir çox mərhələlərlə aşıla bilər ki, onlardan hər birinin fərqləndirici vəsfi xilasedici bəzi halların (münacat) əldə edilməsindən ibarətdir. Bu hallar aradan qaldırılan alçaldıcı xüsusların ziddi deyildir. Bunlar daha çox mənəvi yetkinlik dərəcələri, mənəvi məqamlardır ki, nəfs onları keçdikcə dərəcə-dərəcə Allaha tərəf yüksəlir. Qəzzaliyə görə, onlardan hər birində bu üç ünsür təsiredici rol oynayır:

1. Zehin ünsürü: dəqiq məlumatlar əldə edər (əl-yəqin).

2. Həyəcan ünsürü: daxili hissiyyatı hiss edər (əl-hal).

3. Hərəkət ünsürü: ortaya çıxan feil, görülən iş (əl-əməl). Bu sonuncu, ilk ikisinin meyvəsidir.

Birlik (tövhid) həyatını meydana gətirən bu dərəcələrin sayını dəqiq ifadə etmək mümkün deyil. Qəzzali də bütün sufilər kimi, bir çox əsərində bir-birinin eynisi olan açıqlamalar planını təqib etmir və say olaraq da bir sıra məyyənləşdirmir. Yalnız “Eyha” (IV cild) kitabında özünə nümunə götürdüyü Əbu Talib Məkkinin “Kutubul-Qulub”undakı sinifləndirməni qəbul edir. Burada doqquz dərəcədən bəhs edilir:

1. Tövbə, 2. Səbir, 3. Şükür, 4. Xovf (qorxu), 5. Rəca (ümid), 6. Kasıblıq, 7. Zöhd, 8. Təvəkkül, 9. Məhəbbət (sevgi).

Bu doqquz dərəcəyə, axırıncının davamı olaraq, Qəzzali bəzi dərəcələr də əlavə edir: şövq, ünsiyyət, riza. Ən axırda isə Qəzzali bütün bu dərəcələrin zirvəsi olaraq niyyətdəki saflıq və səmimiyyəti göstərən son dərəcəni ifadə edir ki, bu da: ixlas və sidqdir. Birlik məqamına yüksəlməyi rahatlaşdıran mənəvi təlimlər (seyrü-sülük) bunlardan sonra gəlir. Bu təlimlər: müraqəbə, təfəkkür, məvakib və vəcd deyə sıralanır.

Tövbəni belə izah edir: "Tövbə birlik (tövhid) həyatının qapısıdır. Ruhun qurtuluşu yolunda günah ona mane olan, xələl gətirən ünsürdür. Çünki günah onu yeganə sevgi səbəbi olan qayəsindən, yəni Allahdan uzaqlaşdırır. Bu güclü inanc nədamət (peşmanlıq) deyilən bir duyğunu meydana gətirir. Bunun üçün də bəzi hərəkətlərin edilməsi iradəsi ortaya çıxmalıdır. Bu hərəkətlər ya indiki hala aiddir (günahın hazırkı vəziyyətini tərk etmək kimi), ya gələcəyə aiddir (həyatın sonuna qədər günaha sövq edə biləcək bütün təhlükəli məqamlardan qaçınmaq kimi), ya da keçmişə aiddir (edilən pis işin əvəzini ödəmək, xətanı düzəltmək üçün bəzi işlər görmək kimi). Günahın tərsi tövbədir. Tövbə əsla insandan uzaq olmamalı, hər an günahın bizi Allahdan ayırdığı şüurunu xatırlatmalıdır. Bunun bir adı da: "iman"dır. Bu, peyğəmbərlər daxil, bütün insanların borcudur. Uşaq yaşdan etibarən ağıldan əvvəl insanı Allahdan uzaqlaşdıran həvəslər və maraqlar inkişaf etdikcə o meydana çıxar. Güc sahibi olan hər insanda qüsurlar olur; mənəvi qüsurlar və günahlar meydana gəlir. Nəfəs güzgünün səthini bulanıq etdiyi kimi, günah da nəfsin gözəlliyini pozar. İnsanı məğlub edən həvəsi nəfsin parlaqlığını örtən bulud kimidir, onun saflığını pozan ləkə kimidir. Sonrakı yanılmalardan qaçınmaq onu yenidən parlatmaq üçün kifayət etməz. Çünki bu, daha əvvəl ediləni silə bilməz. Nəfsin gözəlliyi yalnız kamil hərəkətlərlə geri verilə bilər. Bu hərəkətlər (tövbə) qaranlığı aradan qaldıran işıq vəzifəsini görər.

"Nurların şamı" (Mişkatül-ənvar) kitabında Qazzali hissiyyat aləminə yönəlir, xarici gözün ziddi olan daxili gözdən, yaxud

"qəlb gözü"ndən bəhs edir. Burada mənəvi aləmə göz atır və orada təbiət elmləri üçün gizli qalan mistik həqiqəti kəşf edir. Bu fikirlərinin özündən sonrakı təsəvvüf cərəyanları və təriqətlər üzərində böyük təsiri olmuşdur. O həm mədrəsə, həm də təkyə tərəfindən eyni anda qəbul edilmiş və hörmətlə qarşılanmış yeganə mistik filosofdur. Lakin Qəzzali kitablarında bəhs etdiyi sufiliyi həyatının hər səfhəsində tətbiq etməmişdir. Fəlsəfi düşüncə onu zaman-zaman "mistik ilhamlar"dan uzaqlaşdırmışdır. Buna görə də elmsiz bir adam bu yola filosofdan daha rahat girə bilər. "Risalətül-lədünniyyə" kitabında insanın ruhundan bəhs edərək belə deyir: "İnsan iki ayrı hissədən meydana gəlir: bədən və ruh. Ruh qida tələb edən bir varlıq deyil. O, xatırlatmaq və düşünməklə qidalanan bir cövhərdir. Quran buna nəfsi-mütməinnə, sufilər "qəlb" deyirlər. Qəzzali Aristotelin "nəfs elmi" dediyi psixologiyasına qarşı "qəlb elmi"ni ortaya qoyur. Ruhun keçəcəyi təlim yolu olaraq Haris Muhasibi kimi "vicdan mühasibəsi"ni qəbul edir. Bildiyimiz adi kimya mədənlərin təhlilini edir, xoşbəxtlik kimyası isə insani ərdəmlərin (vəsflərin) təhlilini edir (Kimyai-səadət). O bizə təsəvvüfi səylər nəticəsində qəlbin alçaldıcı vəsflərdən necə təmizləndiyini göstərir. Qəzzaliyə görə, bu səylər bizə özümüz haqqında məlumatları, qəlb ilə ağılın fərqlənməsini, ruhun təsirlənməsini, qəlbin təhlilini, zikr sayəsində əldə edilə biləcək Allahı tanıma bilgisini öyrədir.[2]

### Din və tarixi imperializm

Marks müxtəlif əsərlərində dinin materialist izahını verməyə çalışır. Eyni gözlə baxaraq meydana çıxma səbəblərini, inkişafını və öz düşüncələrinə görə ortadan qalxmasını izah edir. Ona görə: "Din tiryək kimi xalqın düşünmə qabiliyyətini əlindən alır. Buna görə də hər növ tənqidin ilk şərti olaraq dinin tənqid edilməsini şərt qoşur. Marksa görə, insan dini formalaşdırır, din insanı formalaşdıra bilməz. O, insani varlığın fantastik təzahürüdür.

2. Hilmi Ziya Ülkən, İsl*am Felsefesi*, İstanbul 1967, s. 239-241.

Dinin ortadan qalxması həqiqi səadətin tələbidir. Axirət həqiqəti ortadan qalxdıqdan sonra tarixin ən böyük vəzifəsi yer üzünün həqiqətini qurmaq olacaqdır. Beləliklə, axirətin tənqidi yer üzünün tənqidi ilə nəticələnir. Dinin tənqidi hüququn və siyasətin tənqidinə çevrilir".

"Din insanı ruhən yoxsullaşdırır. Tərsinə, mədəniyyət gücləndikcə din zəifləyir". "Din hakim olan istehsal və inkişaf tərzinə görə izah edilməlidir". "Dini tədqiq etmək üçün mövcud olan yeganə metod materialist metoddur". "Din mənfi iqtisadi əsaslara söykənir". "Din müvazinətsiz insanın tənbəllik şüurudur". (Marks, "Kapital") Çünki şüuru müəyyənləşdirən maddi varlıqdır; iqtisadi zəmin ideoloji üst quruluşun, həmçinin dinin də əsasını təşkil edir.

Marksın və müasiri Engelsin müxtəlif kitablarında din haqqında ifadə etdiyi bu kimi fikirlər onları təqib edənlər tərəfindən daim dinə qarşı əsaslı bir tənqid kimi qəbul edilmiş və etnologiya sahəsindəki məhdud məlumatlar bu iddialar işığında təhlil edilməyə çalışılmışdır. Lakin bu cürətkar iddialar hər iki yazıçı tərəfindən bütün dövrləri və qövmlərin dinlərini əhatə edən dərin bir elmi tədqiqata əsaslanmadığı üçün yalnız qərəzli yanaşma nəticəsində verilən hökm mahiyyətində qalmışdır. Bu iddialar sırf "dinin əleyhində olmaq" və onu pisləmək məqsədi güddüyü üçün obyektiv və elmi qiymətləndirmədən uzaqdır.

Tarixi materialistlərin dindən bəhs etmələri obyektiv və tərəfsiz elm olmaqdan kənardır. Dinin "tiryək" olduğunu deyərkən tarixin hər dövründə bəzi insanların öz mənfəətləri üçün uydurduqları bəzi fikirləri və onunla xalqın zehnini kütləşdirdiklərini nəzərdə tuturlar. Bu iddia hər yöndən yanlışdır:

1) Din təkcə dindarların və teologiya alimlərinin düşüncələrinə görə deyil, bütün etnoqrafların, sosial antropoloq və sosioloqların incələmələrinə görə də, insanlıq tarixi qədər qədim, bütün insan cəmiyyətlərini əhatə edən bir inanc, hissiyyat və idrak

dairəsidir. O, süni olaraq insanlar tərəfindən icad edilə bilməz və onların iddia etdiyi kimi "müəyyən bir məqsədə xidmət edən alət" olaraq adlandırıla bilməz.

2) Dində mərhəmət və ümidin rolu olduğu kimi, şiddət, cəza və qorxunun da öz rolu var. Bütün dinlər hüquqi və əxlaqi normaların icra etdiyi rolu və xidməti ifa etmişdir. Bu baxımdan onların insanları xəyal ilə ovundurduğunu, düşünmə qabiliyyətini əllərindən alıb keyləşdirdiyini iddia etmək doğru deyil.

3) Dinlərin təkid etdiyi mənəvi həqiqət təkcə onlara məxsus bir iddia deyil. Bu nöqtədə din ilə əlaqəsi olmayan bir çox əxlaq sistemləri, fəlsəfələr, elm adamları da öz fikirlərini bildirmişlər. Bunların özlərini laik (dünyəvi), hətta "azad düşüncəli" olaraq ifadə etmələrinə baxmayaraq, onların üstündə mütləq dini ünsürlərin təsirinin olduğunu inadla müdafiə etməyin heç bir elmi dəyəri yoxdur. Bənzər şəkildə əsassız təkidlər və isnadlar qarşı tərəfə də yönləndirilə bilər.

4) Bəzən dinin siyasətçilərin və ya Makiavelli kimilərin əlində alət olaraq işlədildiyi vaxtlar olmuşdur. Buna misal kimi din adına törədilən qətlləri, zülm və qadağaları göstərmək kifayətdir. Amma belə hallar ötəridir. Dünya üzündə hiyləgər və zalım insanlar mövcud olduqca hər bir ideyanı, hər bir ideologiyanı əllərində oyuncaq etmələri mümkündür. Bu vəziyyət təkcə din üçün deyil, əxlaq sistemi və fəlsəfi cərəyanlar üçün də eynidir. Bu müvəqqəti hal səbəbi ilə həmin əxlaq və ya fəlsəfə sistemlərini ittiham etməyi heç kim ağlından keçirmir. Həqiqi laik zehniyyət bunları bir-birindən ayırır və digər ağıl sistemlərində olduğu kimi, dinlərə də sırf dəyərlər mənzuməsi kimi baxır. Kinayəli, qərəzli həcv ifadələri ilə elmi tədqiqatları bir-birinə qarışdırmaq doğru olsaydı, bu sahədə çox şey danışmaq olardı.

İnsanların inancları uğrunda həyatlarını fəda etdikləri, böyük qəhrəmanlıqlar və şücaət göstərdikləri, ən yüksək əxlaqi davranışları ortaya qoyduqları anlar düşünüldüyü zaman dinlərin

“tiryək” kəlməsi ilə ifadə edilməsinin nə qədər səhv və qərəzli yanaşma olduğu açıqca görülər. Hər hərəkətin arxasında maddi bir mənfəət axtaran materialist üçün bütün bu hərəkətlərin də mənfi bir izahı ola bilər. Onlar belə xariqüladə hərəkətləri bəzi hiyləbazların istifadə etdiyi sipər, bəzi axmaqların da içinə düşdüyü tələ kimi təsvir edirlər. Bunu da qeyd etmək lazımdır ki, belə hərəkətlər inanc səviyyəsi yüksək cəmiyyətlərdə kütləvi hala çevrilir. Hətta ön cərgədə irəli atılanlar arasında şəxsən o kütləni idarə edənlər də yer alır. Bir insanın cəmiyyət arasındakı nüfuzu onun fədakarlıq və cəsarəti ilə ölçülməkdədir. Bu hal təkcə dinlərə məxsus deyildir. Milli duyğuların birinci planda yer aldığı bu günün cəmiyyətlərində də eyni qayda qüvvədədir. Xülasə, tarixi materializmin dinlər haqqında etdiyi təhlilin həqiqətlə əlaqəsi yoxdur.

Bəzi tarixi materialistlərə görə, “din burjuaziya sinfinin arxalandığı bir qüvvədir, dinsizlik isə proletariat (fəhlə sinfinin) arasında yayılmışdır. Hər dövrdə burjuaziya, yəni hakim təbəqə dindar, proletar sayılan fəhlə-işçi sinfi dinsiz olmuşdur”. Bu ifadələr də digərləri kimi əsassız və elmdən kənar iddialardır. Paul Lafargue bunu açıqlayarkən burjuaziyanın daim Allahdan tale və qisməti üçün kömək umduğunu, işçilərin isə məyus olmaları səbəbi ilə heç bir gözə görünməyən qüvvədən kömək gözləmədiyini deyir. Əgər din ehtiyacı təkcə yardım istəməklə əlaqəli olsaydı, rifah səviyyəsi daha aşağı olanlar buna daha çox bağlanmalı deyildimi? Burjua adlandırdığı insanların bir qisminin azad düşüncəli, laik, hətta dinsiz olduğunu unudurlar. Eyni zamanda işçilər arasında da dindarlığını buraxmayan bir çox kimsə var. “Xristian sosializmi” deyə bilinən, Qərbdə yayılmış bir çox partiyanın kökü elə bunlara bağlıdır. “Burjua” deyilən sinif arasında yer alan dindarlar isə daha çox köklü ailələrə, adət-ənənəyə bağlı ailələrə mənsub olanlardır. Əgər makina və texnika ilə məşğul olmağın determinizm düşüncəsini (elmi obyektiv baxış) qüclәndirib imanı zəiflətdiyi iddiası doğru olsaydı, bu təsir işçilər qədər digər texnik

və mühəndislər, həmçinin fabrik sahibləri üzərində də görülməli idi. Ümumi olaraq iddia olunur ki, kəndlilər ilə şəhərlilər, xüsusilə də müasir texnika ilə yaxından təmas halında olanlar arasındakı zehniyyət fərqi determinizm şüurundan qaynaqlanır. Məsələn, bir şofer və ya texnik ilə bütün ömrünü torpağa həsr etmiş bir kəndli arasında bu baxımdan düşüncə fərqinin olduğunu deyirlər. Amma bu düşüncə fərqi sərvət fərqindən deyil, təhsil və mədəni vərdişlər fərqindən qaynaqlanır. Necə ki, olduqca zəngin olsa belə, kəndlinin eyni fatalist (bəxtə, qədərə inanan) düşüncədə qalması və sərvətindən asılı olmayaraq zehni inkişaf edən texniki işçinin də determinist olaraq qalması ehtimalı yüksəkdir.

Marksistlərin "din insanı ruhən kasıblaşdırır" iddiası psixoloji və sosioloji mənada əsassızdır. Cəmiyyətlərin ortaya qoyduğu bir çox böyük əsərlər və mənəvi dəyərlər din sayəsində ortaya çıxmışdır. Dini həyat insanların bütün kollektiv ruhunu, üstün mənəvi dəyərlərini qidalandırmaqdadır. Dinin bu inşa edici vəsfini görə bilmək üçün inhisarçı və mücərrəd iqtisadi görüşlərdən sıyrılaraq insanların həyatını geniş bir psixoloji akpektdən incələmək lazımdır. "Din insanı ruhən kasıblaşdırır" cümləsi insanı tamamilə mücərrəd bir zehin makinası kimi görməkdən başqa bir şey deyil. Dinin güclü olduğu dövrlərdə mədəniyyətin çökdüyünü iddia edə bilərikmi? Belə bir iddia, mədəniyyətlərin inkişafından bixəbər olmaq deməkdir. Sənət, hüquq, əxlaq kimi sahələr bir çox mədəniyyətlərdə din sayəsində inkişaf etmədimi? Elm hər zaman dinə düşmən olub? Din xalq üçün tiryək deyil, həm mənəvi, həm də maddi mənada elmi inkişafına təkan vermişdir.

Bu yanılmanın səbəbi dini istək və səmimi inanc ilə sxolastika (elmi məktəb fəlsəfəsi) düşüncəsini bir-birinə qarışdırmaqdan irəli gəlir. Belə ki, bir çox dindar filosoflar da bəziləri tərəfindən din kimi qəbul edilən sxolastik zehniyyətə qarşı çıxmışdır. Təkcə fəlsəfi deyil, sırf sosioloji baxımdan da bu fikirlərin elmi dəyəri yoxdur. Burada məhdud sayda bəzi sosioloqların etdikləri kimi, məqsədi fayda güdmək olan sehr ilə məqsədi heç bir mənfəət

güdməyən düşüncə və mənəvi həyəcan olan dini qarışdırmaqdan qaynaqlanan xəta vardır. Dar çərçivəli iqtisadi görüşlərin dini sehrlə əlaqələndirmək təşəbbüsü nə qədər səhvdirsə, sehri dinə alət etməyə çalışan Durkhaymın görüşü də eyni dərəcədə inhisarçı və xətalıdır.[3]

## Məfhum böhranı

İqtisadi böhran və əxlaq böhranı kimi ifadələri çox eşidirik. Bugünkü dünyada bunların yeri yoxdur demək, həqiqət qarşısında gözlərimizi yummaqdır. Amma bizi daha yaxından maraqlandıran, digərləri qədər dilə gətirməyə və eşitməyə öyrəşmədiyimiz başqa bir ifadə var: məfhum böhranı. Mücərrəd məfhumlar zehnimizin ən həssas və ən təhlükəli oyunlarıdır. İnsanlığın fəxr etdiyi, zehin məhsulu olan məfhumlar ipi boşaldılan şarlar kimi əvvəlcə bizə möhtəşəm genişləmənin və yüksəlişin zövqünü hiss etdirər, sonra da küləyin təsiri ilə məqsədsiz bir şəkildə boşluqda oraya-buraya sovrulub gedər. Əslində, qəbahət məfhumlarda deyil, onları düzgün istifadə edə bilməyənlərdədir. Dünyanı başa düşmək üçün ən güclü silah sayılan mücərrəd məfhumlar onlara hakim olacaq gücümüz olmadığı zaman çox təhlükəli hala gəlir.

Məfhum böhranı iki səbəbdən qaynaqlanır: Birinci səbəb o məfhumların şəxsən yaşanmayan bir həyatdan qaynaqlanaraq ortaya çıxmış olması, idxal edilmiş bir əşya kimi kənardan gəlib həyatımıza girməsidir. İkinci səbəb isə onların ortaya çıxmış olduğu mədəniyyətin ictimai məsələlərinin bütün dərinliyi ilə qavranmamış olmasıdır. Bəzən bu iki səbəbin ikisi də eyni anda mövcud olur. O zaman böhran pik həddə çatır. Bunu ifadə etmək üçün "cəhalət" kəlməsi yetmir. Çünki bir fikrin öz ictimai məsələmizdən qaynaqlanmamış olması bizim onu bilməyimizi zəruri qılmır. Necə ki, bu aləmdə bir ixtisas sahibi olmaq bilikli olmaq mənasına gəldiyi halda, mücərrəd məfhumları layiqli şəkildə qavramaq üçün bu, kifayət etmir.

3. Hilmi Ziya Ülkən, *Tarihi Maddeciliğe Reddiye*, İstanbul 1981, s. 61-79.

Məfhum böhranının nə zərəri var? Yaşanmamış, eşidilməmiş və necə ortaya çıxdığı düzgün öyrənilməmiş kəlmələrin yanlış yerlərdə işlədilməsi insanları qarşı-qarşıya gətirir. Yanlış nəticə çıxartmaq, yanlış hökm vermək səbəbi ilə bəzən ictimai məntiq duyğusal məntiq halına gəlir və cəmiyyət üçün zərərli hərəkətlərə qapı açır. Orta əsrlərdə bir-birinə heç bənzəməyən, yeni qurulan cəmiyyətlər arasında buna bənzər şəkildə, başqa cəmiyyətlərdə ortaya çıxan mücərrəd kəlmələrin nəql edilməsi səbəbi ilə bir çox məzhəb qarşıdurmalarının yaşandığı məlumdur. Bununla birlikdə, heç bir cəmiyyət xaricdən gələn məfhumlar böhrana səbəb olur deyərək bu fikirlərə qarşı qapılarını bağlaya bilməz. Belə bir hərəkət cəmiyyətlərin inkişafını dayandırar, hətta geri getməsinə və məhv olmasına gətirib çıxardar.

Hər hansı bir millət bütün məfhumları özünün icad etdiyini iddia edərsə, bu, həqiqətə tamamilə zidd bir ifadə olar. Vətəndaş haqları, hürriyyət, bərabərlik kimi fikirlər Fransada ortaya atılmış, sonra hər yana yayılmışdır. Romantizm cərəyanı Almaniyada ortaya çıxmış, oradan milli hərəkatlara ruh verən bir düşüncə kimi bütün millətlərə yayılmışdır. Milliyyətçilik fikri də bizə Avropadan gəldi. Xülasə, hər fikrin mütləq hansısa bir ölkənin malı olması doğru deyil. Yetər ki, o fikrin yayıldığı ölkələr onu mənimsəyə biləcək gücə malik olsun və bu mücərrəd kəlmələr ictimai həqiqətdə öz əksini taparaq cəmiyyət onu özününküləşdirsin.

Bu məfhumlardan istifadə edən ziyalılar onları meydana çıxardan səbəbləri dərinləməsinə öyrənməsələr, təkcə boş qəliblər və etiketlər kimi işlətsələr, düşüncələrini ölkənin ehtiyacları ilə tənzimləyə biləcək qədər ətraflı tədqiq edə bilməsələr, bu kəlmələr onların və daha bəsit insanların əlində milli idraka xitab edən fikirlər deyil, qeyri-müəyyən kütlə ruhunu hərəkətə keçirən təhlükəli şüarlar halına gələr.

## Hürriyyətə gedən yollar

Hürriyyət, təbiətin və cəmiyyətin qanunlarına zidd olmamaq şərti ilə insanın vicdanından gələn bir şövq və istəklə, sevərək, istədiyi hərəkəti etməsidir. Bu tərifdən belə çıxır ki, əvvəla təbiətin əksinə getmək xəstəlik və ölüm kimi yollarla insanın hürriyyətinin qarşısını kəsdiyi kimi, cəmiyyətə zidd hərəkət etmək də müxtəlif cəzalar şəklində hürriyyəti məhdudlaşdırır. Əslində, insanın təbiət və cəmiyyətə uyğun olan hər bir hərəkətini hürriyyət adlandırmaq olmaz. Çünki bu hərəkət qorxu, ümid və ya qürur səbəbi ilə də meydana gələ bilər. Belə olan halda hərəkət xarici təsirlərə bağlıdır və təsir altında meydana gələn hərəkətdə hürriyyət yoxdur. Hürriyyət içimizdən gələn bir istəyin əsəridir, amma bu istək bir sövqü-təbii və daxili instinkt deyil, şüur ilə birlikdə gerçəkləşməlidir. Hərəkəti bilərək və istəyərək etməliyik ki, hürriyyət sayılsın.

Hürriyyət insanlığın ən son və ən böyük idealıdır. Bütün demokratiya cərəyanlarının və milli hərəkatların əsası budur. O elə bir qayədir ki, yerinə başqa heç bir hədəf qoyula bilməz. Gediləcək ən son mənzil, çatılacaq ən böyük məqsəddir. Buna görə də dövrümüzün ən mühüm məsələsi ona vasil ola bilmək üçün tutulan yol, bizi azadlığa çatdıracaq üsul məsələsidir.

Birinci yol demaqogiya yoludur. Bu, gediləcək mənzilə bir gündə çatmaq, hürriyyəti kütlənin ayağına gətirmək, min bir məşəqqətlə əldə ediləcək meyvəni bir anda xalqın qucağına atmaq yoludur. Bu, xam bir uşağın əlinə təhlükəli bir silah verməkdir. Yeni ata minmiş bir insanı uçurumun kənarında tək buraxmaqdır. Hürriyyət talonla paylanan çörək deyil ki, hər kəsə paylamaqla əldə edilsin. O ancaq içəridən hiss olunacaq və cəhd edərək, əziyyət çəkə-çəkə əldə ediləcək bir insanlıq abidəsi, zəhmətin bəhrəsidir. “Azad olun!” – deməklə heç kəs azadlığı hiss etməz. “Sizə bərabərlik hüququ verdim”, - deməklə heç kim həqiqi bərabərliyə nail ola bilməz. Demaqogiya ən uzaqda olan

bir idealı ayağımızın altına gətirməklə bütün məşəqqətli arzuların və ağır səylərin tərbiyə yolunu kəsəcəkdir.

İkinci yol sosializm yoludur. Madam ki hürriyyətə qovuşmaq üçün insanın kamala çatması və cəmiyyətin rüşdünü tamamlaması tələb olunur; madam ki eşq əxlaqına çatmaq üçün qorxu əxlaqında və ümid əxlaqında olanın tərbiyə edilməsi tələb olunur, o halda cəmiyyəti həqiqi hürriyyətə sövq edənə qədər nizam-intizamına nəzarət edilməli, nöqsan olanlar rəşid olanların səviyyəsinə çatdırılmalıdır.

Rəşid olanlar kimlərdir? Kim kimi tərbiyə edəcək? Onlar deyir ki: "Sabahın cəmiyyəti yalnız əmək fəaliyyəti üstündə qurulmuşdur. İstiqbalın cəmiyyətində mehvər təkcə iş olacaq və işçilər adət-ənənələrdən xilas olan, keçmişin zəncirlərini qıran insanlardır. Elə isə rüşdünü tamamlayanlar, təşkilatlananlar və həqiqi gücə çevrilənlər yalnız işçilərdir. Bu səbəblə sosializmə görə, cəmiyyəti demokratiyaya və həqiqi hürriyyətə aparan yol işçilərin qurduğu intizam və tərbiyə yoludur. Bizi istiqbalın dövlətsiz və təzyiqsiz cəmiyyətinə aparan vasitə yalnız bu işçi dövləti və onun təzyiqi ilə kütlələrə verilən tərbiyə olacaq. Çünki kamal nöqtəsinə çatmağı ancaq xalqın içindən olanlar istəyər". Bəs yaxşı, görəsən, işçi özü həqiqətən rüşdünü tamamlayıbmı? Kütləni yüksəltməyə, mədəniyyət çarxlarını çevirməyə işçi özü qabildirmi?

Üçüncü yol faşizm yoludur. Madam ki bütün məsələ kütləyə şüur verməkdən, cəmiyyəti hürriyyətə layiq hala gətirmək üçün fikir baxımından yüksəltməkdən ibarətdir, o halda cəmiyyətdə yüksək düşüncəli insanlara müraciət etmək, hakimiyyəti onlara həvalə etmək, sabahkı günün həqiqi hürriyyətinə nail ola bilmək üçün bu günkü düşüncənin nəzarət və təzyiqini qəbul etmək lazımdır. Bugün cəmiyyətdəki böhranın səbəbi iradə ilə düşüncənin fərqli əllərdə olmasıdır. Faşizmə görə, ən doğru yol beyin ilə yumruğu birləşdirmək, fikir adamlarını təşkilatlandıraraq cəmiyyəti bu təşkilatın müəyyən etdiyi qaydalarla idarə etməkdir. Sa-

bahın həqiqi hürriyyətinə aparacaq tərbiyə ancaq düşünən sinfin – məfkurə adamlarının tərbiyəsidir.

Gördüyünüz kimi, bizi hürriyyətə qovuşdurmaq istəyən bu üç yolun üçü də xətalarla doludur. Biri anarxiyaya apararaq, ikincisi cəhalətin təhəkkümünə yol verərək, üçüncüsü də imansız və əxlaqsız elmin zərərlərinə qapı açaraq əsas qayədən uzaqlaşmışlar. Hürriyyətə bu yollardan gedərək nail olmaq, xalqı bu üsullarla şəkilləndirib gələcək cəmiyyətə hazırlamaq imkanı yoxdur. Fransız inqilabı, rus inqilabı və hal-hazırda Avropada davam edən bir çox hərəkatların bu mənada məqsədlərinə çatmasının imkansız olduğu hər gün bir az daha meydana çıxmaqdadır.

Elə isə hürriyyətə çatmaq üçün kütləni nizam-intizam altında tərbiyə etmək – şəkilləndirmək lazımdır. Kütləni tərbiyə etmək üçün də cəmiyyət içində rüşdünü tamamlamış bir sinif meydana gətirmək lazımdır. Sabahın azad cəmiyyətinə çatmaq üçün xalqa əxlaq və şüur vermək, əxlaq və şüur vermək üçün də düşünən sinfə təşkilat və iradə səlahiyyəti vermək, lakin onları təşkilat və həmrəyliyə sövq etmək üçün hər şeydən əvvəl insanları əxlaqi mərtəbələrə ayırmaq və hər mərtəbənin içində əxlaq həmrəyliyi qurmaq lazımdır. Buradan belə çıxır ki, ən başda mərtəbəli əxlaq cəmiyyəti qurulmalıdır. Belə olduğu təqdirdə fikir adamları şəxsi mənfəətinə düşkün və ya başqa birinin əlində alət olmayacaq, sadəcə elmi əxlaqa söykənən peşə həmrəyliyinə qoşulacaqlar. Bundan sonra və ancaq bu yolla kütləyə şüur və tərbiyə verilərək şəkilləndirilir.

Xülasə, hər növ ideologiyadan vaz keçmək, cəmiyyəti əşya kimi görərək ona şəkil verməyə qalxışmamaq, lakin daim canlı və şüurlu insanlardan yola çıxaraq hərəkət etmək lazımdır. İdeal bir ideologiya yoxdur; çünki hər ideologiya digərini rədd edir. Amma hərəkət nöqtəmiz yenə də insandır və hər şeydən əvvəl əxlaq məsələsi həll edilməlidir.[4]

---

4. *e.a.ə.*, s. 101-107.

## Şərq – Qərb

Nə vaxt içindən keçməkdə olduğumuz mədəni dəyişiklikdən söhbət açılsa, ilk növbədə ağıla Şərq ilə Qərbi müqayisə etmək gəlir. Buradakı Şərq və Qərb kompasın iki ucunun göstərdiyi coğrafi istiqamət və ya Günəşin doğduğu və batdığı cəhətlərə nəzərən ifadə edilən yönlər deyil. Xəritə üstündə hər hansı bir istiqamətə doğru getdiyimiz zaman bütün nöqtələrə "şərq" və ya "qərb" deyə bilərik. Bu mənada bizə görə Avropa, Avropaya görə Amerika, Amerikaya görə də Yaponiya "qərb" sayılır. Və ya Fasa nisbətən Almaniya şərqdə yerləşdiyi kimi, Yaponiyaya nisbətən də Koreya qərbdə yerləşir. Şübhəsiz ki, bizim haqqında danışdığımız məna məcazidir, yəni bu, coğrafi istiqamət və ya məkandan tamamilə fərqli bir məna, müəyyən bir məqsədlə istifadə edilən məfhumdur. Lüğət təəssübkeşlərinin narahatlıqla qarşıladıqları bu ifadələrin rəmzi mənalarında o qədər açıq bir bəlağət var ki, onları hər dəfə yenidən tərif etmək və işlətməkdən böyük zövq alıram.

Bəziləri "şərq" deyəndə təkcə İslam mədəniyyətini, "qərb" deyəndə isə xristian aləmini və onun meydana gətirdiyi Avropa mədəniyyətini nəzərdə tuturlar. Bu baxımdan Amerikanı da Avropanın bir uzantısı olaraq eyni məfhuma daxil edirlər. Xaçlı səfərlərindən bu yana davam edən bir mübarizəni təmsil etməsi baxımından bu görüş insana məqbul kimi görünsə də, Uzaq Şərq mədəniyyətini burada görməzdən gəlmək doğru deyildir. Qərbin ziddi olması baxımından "şərq" məfhumuna İslam, Hind və Çin mədəniyyətlərini birgə daxil etmək lazımdır. Çünki hər bir mədəniyyət öz üslubu, əldə etdiyi ictimai dəyərlərin kamilliyi baxımından elə bir üst səviyyəni təmsil edir ki, aralarında nə qədər ixtilaf olmasına baxmayaraq, ona nisbətən nöqsan və kifayətsiz sayılan digər qədim mədəniyyətlər onun qarşısında bir bütünü təşkil edir. Bu "bütün" inkişaf qarşısında geridə qalmışlığın, kamal qarşısında nöqsanın bütünüdür. Məhz Qərb qarşısında Şərqdən bəhs edərkən başa düşməli olduğumuz məqam budur. Bu mə-

nada Qərb ən yüksək şəkildə özündən əvvəlki nöqsan, kifayətsiz mədəniyyətlərə nisbətən güclü, davamlı inkişaf halında olan bir mədəniyyətdir ki, ən mükəmməl ilə natamam şəkillər ona nisbətən qiymət qazanır. Beləliklə o, təkcə coğrafi bir istiqamət və məkan olmaqdan çıxır, eyni zamanda müəyyən bir dövrə məxsus mədəniyyət olmaqla da qalmır. Demək istədiyim budur ki, Qədim Yunan mədəniyyəti özündən əvvəlki mədəniyyətlərə nəzərən "Qərb" idi, İslamiyyət Yunana, Renessans İslamiyyətə və müasir Avropa da Renessansa nisbətən "Qərb" sayılır. Buna görə də Şərqdən Qərbə keçmək, qərbliləşmək demək izafi və qeyri-müəyyən bir dəyişikliyi qəbul etmək deyil, texniki və elmi təkamülü təqib etmək, mədəniyyətin bütöv və dinamik gedişatında, inkişafında ən son sıçrayışı edə bilməkdir.

Bu qədər geniş və simvolik mənada başa düşdüyümüz iki məfhum arasında, heç olmasa, bu gün üçün təsbit edə biləcəyimiz açıq bir fərq olması lazımdır. Çünki əks təqdirdə onları iki zidd istiqamət kimi düşünməyə imkan qalmayacaq. Bizdə də çoxdandır başlayan Şərq və Qərbin müqayisə edilməsi cəhdləri elə bu ehtiyacın nəticəsi olaraq ortaya çıxmışdır. Bəsit mülahizələri bir kənara qoysaq, bir neçə əsaslı fikirlə qarşılaşa bilərik. Birincisinə görə: Şərq keyfiyyət, Qərb kəmiyyət aləmidir. Şərqdə əşyanın keyfiyyət dəyərlərinə qiymət biçilmiş, ifadə etdiyi mənaya, ruha əhəmiyyət verilmiş, lakin forma və qəliblə, kəmiyyət ilə məşğul olunmamışdır. Şərq ölçü və görünüşə diqqət etməmişdir. Hadisələri və zamanı hesablamağa ehtiyac hiss etməmiş, onun bütün genişliyi və bərəkətindən istifadə etmişdir. Min bir səbəblə yozulan bu mühüm fərqin nəticəsi olaraq bir yanda ruhçuluq, qədərçilik inkişaf etmiş, digər yanda üsul və elm əsas kimi görülmüşdür. Şərq ilə Qərbin fərqi banklarda, sığortada, metroda, xülasə, ölçü və dəqiqlikdə, müəyyənlikdədir.

Şübhəsiz ki, bu müqayisə çox cəlbedicidir. Hətta uzun bir müddət insanı başqa bir fərq axtarmaqdan yayındıracaq qədər əsaslıdır. Amma bunu da çox yaxşı bilirik ki, bir şeyi ölçmək üçün

əvvəla onun mövcud olması lazımdır. Kəmiyyət keyfiyyətin təsbit edilməsi üçün əsas alınmışdır. Qərbdə kəmiyyət deyil, kəmiyyətlə hesablanan keyfiyyət var desək, daha doğru olar. Eyni zamanda bunu da unutmayaq ki, Şərqin dəyər verdiyi məna və keyfiyyət ilə Qərbin hesablamağa çalışdığı keyfiyyət bir-birinin eynisi deyil. Hətta bunlar o qədər fərqlidir ki, bunu izah etmək üçün də ayrı bir fərqləndirməyə ehtiyac var.

İkinci görüşə görə, Qərb həqiqətə açıq, Şərq isə həqiqətə qapalı və gözünü təkcə özünə çevirmiş ruhu təmsil edir. Biri təbiət sevgisini və texnikanı, digəri də mistik düşüncələri və iç aləmi meydana gətirmişdir. Beləliklə, fərqlərin ortaya qoyulması üçün daha da dərinə getmiş, daha köklü bir nöqtəyə çatmış olduq. Nəticə olaraq, həqiqətə bağlı olan ruh istər-istəməz ölçüyə, açıqlıq və müəyyənliyə qiymət verəcək; öz içinə qapanmış olan ruh isə sirlər, qeyri-müəyyənlik və qaranlıq içində qalacaqdır. Necə ki, bu müqayisə bir çox fikir adamını cəlb etmiş və müxtəlif ifadələrlə bu günə qədər dəfələrlə təkrar edilərək məqbul hesab edilmişdir.

Hind mistikləri və İslamın sufiləri meydandadır. Çox yaxın bir zamana qədər Şərqin ruhunu ifadə etmək üçün misal çəkilən dərvişləri kim inkar edə bilər? Lakin bunu da unutmamaq lazımdır ki, Şərq aləminin mühüm bir parçasını təşkil edən Çin mədəniyyətində bunlara yer yoxdur. Və xristianlıq elə mistik ruhun özüdür; Qərb mədəniyyətinin iliklərinə qədər işləyərək arteriyalarla yayılan qan kimi hər tərəfə yayılmışdır. Qərbin orta və aşağı kütləsi Şərqdən daha çox mistik və bilinməzlərə inamlıdır. Amma bu da bir gerçəkdir ki, Qərbin hər yana səpələnmiş gücü üst zümrələrin fikri nəzarəti və nüfuzu altındadır, elm onların üstündə bir nizamlayıcı və əyləc kimidir.

Qərbin düşüncəsi sistemlidir. Orada məfhumlar həqiqət ilə əsaslandırılır. Hər yüksələn sütunun təməli zəminə söykənir. Hər bir bəzək-düzək müəyyən bir məqsəd və ehtiyac səbəbi ilə ortaya çıxır. Orada fikirlər bir-birinə zəncir kimi bağlanmış və hamısı ən son nəticəyə qədər tamamlanmışdır. Düşüncə üsulu, üsul elmi və

elm də metodikanı meydana gətirmişdir. Fəlsəfə hikmətə, hikmət əxlaqa və əxlaq da siyasətə çevrilmişdir. Qərbin bu intizamlı, sistemli təfəkkürünün nəticəsində səpələnmiş gücün üzərində mədəniyyət abidəsi ucaldıla bilmişdir.

Bu fikir bizə digərlərindən daha çox cəlbedici və əsaslı kimi görünür. Bununla birlikdə, etiraf edək ki, bu fikir üzərində bir az dayanmaq lazımdır. Nəyə görə bu intizamlı və sistemli təfəkkür əsrlər boyu dövlətlər quran, təşkilatlar meydana gətirən, kütlələri idarə edən Şərqin əsasını deyil, məhz uzun müddət qalalar, başıboş şəhərlər və nəzarətsiz bölgələr halında səpələnmiş güclərdən ibarət Qərbin əsasını təşkil etsin? Bu, insana ilk baxışda çox qəribə və qəribə olduğu üçün də rahat-rahat isinişə bilməyəcəyi bir fikir kimi gəlir.

Əslində doğru olan həm bu fikir, həm də onun qarşısında duyulan şübhə və heyrət hissidir. Çünki hər şeydən əvvəl Qərbi Şərqdən ayıran xüsus sistemli və nizamlı təfəkkürdür. Lakin bu sistem və nizam xaricdən gəlmə və icbari bir qüc deyil, insanın öz-özünə təlqin etdiyi, öz dağınıq xəyal və məfhumlar aləmini məcbur və mükəlləf etdiyi özünəməxsus bir tənzimləmə və ideallar sistemidir. Qərbdə hürriyyət olduğuna görə nizam-intizam var. Qərbdə şəxsiyyət olduğuna görə cəmiyyət var. Qərbdə insan dəruni (qəlbinə aid, iç aləmi) həyatı müstəqil və azad bir seçim kimi gördüyü üçün öz-özünü ictimai mükəlləfiyyət və nizamla məsul tutma məharətini əldə etmişdir. Yoxsa ki, bu, bir sehrbazın çubuğu ilə bir əşyanı dəyişdirməsi kimi, yaxud xaricdən yönləndirilərək bir oyunçunun şahmat fiqurlarını düzdüyü kimi zor və təzyiqlə meydana gətiriləcək bir qüc deyil.

Xülasə, Qərbi Şərqdən ayıran ən mühüm vəsfi "şəxsiyyət" dir. Hürriyyət və nizam-intizamın fərd və cəmiyyətin şüurunda bir sistem halında təzahürü ancaq şəxsiyyətlə gerçəkləşir. Hər sistem insan həqiqəti ilə bağlıdır və ona üz tutan qüvvələr toplusuna meyl edir; hər qüvvələr toplusu da elmi, texnikanı və onların nəticəsi olan şüurlu siyasəti meydana gətirir. Biz kəmiyyəti, həqiqəti,

yaxud sistemi axtarmayaq. Çünki onlar öz-özlüyündə yolumuza çıxacaqdır. Bizim əsl vəzifəmiz şəxsiyyəti və şəxsiyyətlərin meydana gətirilməsini hazırlayan səbəbləri axtarmaqdır.[5]

## Xəyali, siyasi və həqiqi türkçülük

*Turançılıq*: İlk dəfə Əli bəy Hüseynzadə (1864-1940) tərəfindən dilə gətirildi. Əvvəlki təxəllüsü "Əli Turani" idi. Tiflis gimnaziyasında, sonra Sankt-Peterburq Universitetində, sonra da İstanbul Tibb fakültəsində təhsil aldı. Siyasətdə "Osmanlıçı" idi. Osmanlı türkcəsinə və ədəbiyyatına bağlı qaldı. Həyatı boyunca İttihad və Tərəqqi partiyasının qərargah üzvü, Osmanlı siyasətinin sadiq tərəfdarı olmuşdur. "Həyat" və "Füyuzat" adı ilə nəşr etdiyi məcmuələrdə ilk dəfə "türkləşmək, islamlaşmaq, avropalılaşmaq (müasirləşmək)" fikrini müdafiə etdi. Görünüşdə zidd kimi səslənən bu üç fikrin necə bir-birinə uyğunlaşdırıla biləcəyini anlatmağa çalışdı. Sakit təbiəti, sülhsevər və yaradıcı zəkası ilə bütün yazılarında bu işin öhdəsindən gələ bilirdi. Fransızca, rusca, farsca və ingiliscə bilməsi ona Şərq və Qərb humanizmi arasında müqayisə aparmaq imkanı verirdi. O, millətimizin Qərb millətlərindən fərqli olaraq ikili mədəniyyətə əsaslanmasının zəruri olduğu fikrini aşılayırdı. Şərq ilə Qərb arasında körpü mahiyyətində olduğumuz üçün bunun zəruri olduğunu iddia edirdi.

Türkçülüyü ən geniş və xəyali şəkli ilə "Turan" idealı olaraq başa düşürdü. Beləliklə, Turan onda bir reallıq olmasa da, sırf intellektual bir ideal olaraq qalır və əsl reallıq olan Osmanlı dövləti ilə təzad təşkil etmirdi.

Hüseynzadədən bir az sonra İttihaq və Tərəqqiyə qoşulan və qərargah üzvü olan Ziya Gökalp, Hüseynzadənin təlqinləri ilə Türkçülük cərəyanına daxil oldu. "Türkləşmək, islamlaşmaq, müasirləşmək" fikri ilə "Turançılıq məfkurəsi"ni mənimsədi. Bu fikirləri Selanikdə "Gənc qələmlər", İstanbulda "Yeni məcmuə" kimi mətbu orqanlarda məqalələri ilə müdafiə etdi. Hüseynzadə-

5. *e.a.ə.*, s. 116-120.

nin sakit və ədəbi Turançılığı Ziya Gökalpda aktiv və mübarizəçi Turançılığa çevrildi.

1918-ci ildə Osmanlı imperiyasının parçalanması və İstiqlal Savaşının başlamasından sonra Anadoluda Türk dövləti və cümhuriyyəti qurulduğu zaman, çökmə ərəfəsində olan imperiyanın öz qüdrətinə inanmaq və gücünü davam etdirmək ümidi ilə ortaya atdığı "ittihadi-islam", "turan", "milliyyəti-osmaniyyə" kimi məfhumların ideallıq və həqiqətdən nə qədər uzaq, hadisələrdən nə qədər kənar şeylər olduğu öz-özünə anlaşıldı. Və türkçülük nəzərini əsl həqiqət olan öz vətəninə çevirərək bu məfkurənin burada tədqiq ediləcək, nəhayətsiz, sevgi ilə bağlanılacaq sonsuz bir mənbə olduğunu gördü.

Türkçülük cərəyanı ilk dəfə 1908-ci ildə (Məşrutənin başlanğıcında) Əhməd Mithat, Şair Məhməd Əmin, Əhməd Hikmət, Akçora, Aqil Muxtar və digər bəzi şəxslərdən ibarət bir heyət ilə "Türk dərnəyi"ni qurdu. Eyni adla 1911-ci ildə nəşr edilən məcmuə təkcə yeddi nömrə çıxarda bildi və bundan sonra "Türkün yurdu" adı ilə davam etdirildi. 1914-cü ildə daha geniş bir təşəbbüs heyəti ilə "Türk ocağı" quruldu. Həmin ilin sonunda Selanikdən gələn "Gənc qələmlər" heyəti, Gökalp və əməkdaşları bu Ocağa qoşuldular.

Beləliklə, Türk ocaqlarının fəaliyyətində İttihad və Tərəqqi rol oynamağa başladı. Türkçülüyün getdikcə böyüyən bir gücə çevrilməsi onların nəzərindən yayınmadı və Ocağın fikir havası sayəsində gənclik üzərində təsirlərini artırdılar. İttihad və Tərəqqinin türkçülüyə və Türk ocağına daxil olması Hüseynzadə və Gökalp sayəsində olmuşdur. Gökalpın "Üçlü nəzəriyyə"si o dövrdə Osmanlı dövlətində toqquşan üç cərəyanı, yəni Osmanlıçılıq, İslamçılıq və Türkçülüyü bir-birinə uyğunlaşdırır, bu sayədə əsası Türkçülük və Turançılıq olan tərkib ilə dövrün istədiyi birliyi təmin edirdi.

O zamankı Türkçülük də Osmanlıçılıq və İslamçılıq kimi "vətən" məfhumunu dəqiq hüdudları ilə vəsf etmirdi. Namiq Kamal şeirlərində:

*Get, vətən Kəbədə siyaha bürün,*
*Bir əlin rövzeyi-nəbiyə uzat,*
*Bir əlin Kərbəlada məşhədə at,*
*Kainata o heyətinlə görün!..*

– deyərkən necə hüdudsuz (və ya sərhədləri aşan) bir İslam vətəni fikrinə bağlanmışdısa, Gökalp da:

*Vətən nə Türkiyədir, türklərə, nə Türkistan,*
*Vətən böyük və müəbbəd bir ölkədir: Turan!*

– deyərək başqa bir hüdudsuzluğa və bilinməzə yönəlirdi. Bu hüdudsuz, qeyri-müəyyən və həqiqətlə əlaqəsiz "vətən" fikri/idealı reallıqdan tamamilə uzaq idi. Halbuki vətənin sərhədləri müəyyən, həqiqi, tarixi və coğrafi reallığa söykənən bir məfhum olması lazımdır. Həqiqi türkçülük ancaq özünü belə bir vətən fikrinə bağladığı zaman meydana çıxmağa başlamışdır.

*Osmanlı siyasətində türkçülük:* Osmanlı dövləti hər şeydən əvvəl siyasi bütünlüyünü davam etdirməyi düşündüyü üçün hər fikrə bu gözlə baxmağa məcbur idi. "Türkçülük" bu qayəyə xidmət etdiyi nisbətdə məqbul qəbul edilə bilərdi.

İlk dövrlərdə "mədəniyyətdə türkçülük" fikri qədim cərəyanların yanında çox sönük qaldı. Osmanlının şeiri, nəsri, tarixi, təsəvvüfü və kəlamının yanında türkçülüyün elmi və ədəbiyyatı çox zəif göründü. Türkçülər ya alim idilər – hərçənd o dövrdə elmləri müəyyən bir ixtisas sahəsi ilə məhdud idi – ya da ideoloq idilər. O erkən dövrlərdə hələ sənətkarları yeni olduğu üçün qədim Osmanlı və ya Qərb sənətinin qarşısında çox zəif idi. Mövzunu reallıqdan uzaq və mücərrəd bir elmdən aldıqları üçün buludlar içində itib gedirdi. Lakin Türkçülük siyasi bir şəklə büründükdən sonra hadisələrin axışına görə bəzən tərəfdarları

qalib gəldi, bəzən də şiddətli əleyhdarlarla qarşılaşdı. Türkçülüyün dəqiq xətləri ilə tərif edilmiş olmaması və Türkiyəçilik, bütün Türkçülük, Turançılıq kimi müxtəlif formalarının uzun müddət bir-biri ilə qarışdırılması səbəbi ilə güclü bir müxalifətə səbəb olmuşdur. Meydana gətirdiyi bu müxalifət bəzən haqsız, bəzən də haqlı hücumlarla qarşısına çıxmışdır.

İslamçılar və Osmanlıçılar siyasi Türkçülüyü əsaslı bir ayrılıq səbəbi, parçalayıcı bir amil kimi görürdülər. Türkçülər isə İslamçılığı keçmişdə qalmış bir ideal, Osmanlıçılığı içi boş bir mövhumat, bir növ fəlakəti sovuşdurmaq üçün müvəqqəti olaraq əl atılan bir çarə kimi görürdülər. Yusuf Akçura "Üç tərzi-siyasət" əsərində bu üç fikri uyğunlaşdırmaqdan daha çox bunları müqayisə edir və Türkçülüyü (öz ifadəsi ilə: böyük Türkçülüyü) hakim qılmaq istəyirdi. Gökalp da onları açıqlayaraq belə tərtib etmişdi:

1. Elm və texniki mədəniyyətə sahibik: Qərbçiyik

2. Müsəlmanıq və terminlərimizi o dindən götürürük: İslamçıyıq

3. Turan idealımızdır: Türkçüyük

Bu fikirlər onun təmsil etdiyi siyasi gücü (imperiyanı) və içində yer aldığı siyasi partiyanı (İttihad və Tərəqqi) müvəffəqiyyətə apardığı nisbətdə haqlı idi. İmperiya parçalanaraq yerinə həqiqi milli dövlət qurulduğu zaman bu fikrin çox da doğru olmadığı görüldü.

1. Qərbdən təkcə elm və texnika deyil, sənət, fəlsəfə və həyat tərzini də alırdıq.

2. Müsəlman millətlərin bölünməyə doğru getməsi birliyin maddi-mənəvi imkansızlığını göstərdi. Ərəbcə və farscadan gələn bütün terminləri kənarlaşdırmağa başladıq. İkili mədəniyyətə deyil, tək mədəniyyətə keçmək məcburiyyətində olduğumuz meydana çıxdı.

3. Millətin xəyalən qurulmuş hüdudsuz bir vətəndə deyil, kökləri tarixdə olan və ictimai bir tip meydana gətirən həqiqi vətəndə formalaşacağı yaşanmış hadisələrlə anlaşılmış oldu.

*Türkçülüyün həqiqi şəkli:* İdeallar bəzən birbaşa hədəflərinə çatar. Bəzən də böyük dolanbaclardan və ziqzaqlardan keçərək nəhayət həqiqi yolunu tapar. Türkçülük bir mədəniyyət anarxiyası dövrünə çevrilən "tənzimat" dövründə əsl hədəfi olan ana vətəni görmək, bütün gücünü burada cəm etmək yerinə, mücərrəd və xəyali mövzuların axtarışına sapmışdı. Bu arayışların heç də tamamilə faydasız olduğunu deyə bilmərik:

1. Əvvəla mənsub olduğumuz tarixdən gələn təməlləri meydana çıxartdı.

2. Sonra bizə kosmopolit düşüncələrdən sıyrılaraq öz əslimizə dönməyin zərurətini göstərdi.

3. Nəhayət, milliyyətin sifarişlə və ya yamanmaq yoluyla meydana gəlməyəcəyi, ancaq yaşanılan həyatın verdiyi – dildə, fikirdə, işdə bir olan cəmiyyət tipinin qazandırdığı şüur ilə meydana gəldiyi həqiqətini əldə etdi; hərçənd ki, buna həqiqətdən olduqca uzaq, xəyali səyahətlərin mənfi nəticələri sayəsində nail oldu. Çünki Türkçülük adına aparılan bir çox mübarizələr, içində meydana gəldiyi Tənzimat havasının təsirindən kənarda qala bilməmiş, onlar kimi xəyali və mücərrəd məfhumlara söykənmişdi. Halbuki idealları gerçəkləşdirmək üçün idealı reallıq səviyyəsinə çəkmək, gözləri bütün gücü ilə içində yaşadığımız ana vətənin müşəxxəs və canlı həqiqətinə çevirmək lazım idi. Fransız inqilabının fikirlərindən yaxa qurtara bilməyən Tənzimatçılar kimi Türkçülük də buludlarda gəzən bir "ziyalı" təbəqəsinin çox səmimi, lakin mücərrəd fikri olaraq meydana çıxdığı üçün yaşanan və özümüzdən ayrı bir şey olmayan həqiqəti görə bilmədi.

Bu dövrün Türk tarixi tədqiqatlarını iki hissəyə ayırmalıyıq:

a) Xəyali tədqiqatlar: milli qürur hissi və utopik romantizm ilə qidalanan bu qisim tarixi məlumatları incələmək, obyektiv olmaq əsaslarını unudacaq qədər həddi aşmışdır.

b) Elmi tədqiqatlar: türkoloqların tədqiqlərini özlərinə nümunə götürən bu ikinci qismin alimləri müsbət və dəqiq araşdırmaların nəticələrinə əsaslanmış və türk tarixinin ümumi seyrini görməyə çalışmışlar. Bununla birlikdə, onlar da hələ tədqiqatlarının başlanğıcında olduqları üçün türk tarixinə dair qədim mənbələrə bağlı qalmış, türklərlə monqolları bir-birinə qarışdırmışlar.

Bir çox halda Türk tarixinə və dillərinə dair tədqiqatları davam etdirənlər bu iki yolu bir-birinə qarışdırdıqları üçün qədim türkçülər haqqında dəqiq və müsbət bir nəticə əldə edə bilmirdilər. Yenə bu səbəblə elmi tədqiqat yolunu tutanların bəzən xəyali Türkçülük yoluna sapdıqları görülmüşdür.

Turançılığın inkişaf mərhələsində ədəbiyyat da qismən kömək etməkdə idi. Gökalpın “Qızıl alma”sı dövrünün gənc şairləri üçün ilham mənbəyi olmuşdu. Öz şeirlərinin böyük bir qismində də bəzən ölkəsində bilinməyən və ölkəsi ilə əlaqəsi olmayan dastanlara doğru gedir, bəzən də “məfkurə”nin aktiv təzahürləri görünür.

Yusuf Akçuranın “Bütün Türkçülük” əsərinə alman irq nəzəriyyəsinin hakim olduğu görülür. Bununla birlikdə, Gökalp irq, qövm və milləti bir-birindən ayırırdı. “Yeni məcmuə”dəki məqalələrində və “Yeni həyat”dakı şeirlərində açıqca irqin və millətin fərqlərini ortaya qoyur və millətin mədəniyyət ortaqlığına sahib olmasının əsas olduğunu ifadə edirdi.[6]

6. *e.a.ə.,* s. 179-185.

# NƏCİB FAZİL KISAKÜRƏK

25 may 1905-ci ildə İstanbulun Çəmbərlitaş səmtində Cinayət məhkəməsi sədrliyindən təqaüdə çıxan babası Mehmed Hilmi əfəndinin evində dünyaya gəldi. Atası hüquq təhsili almış və bir çox məmurluq vəzifələrində yer almış Abdulbaqi Fazil bəy, anası Mədiha xanımdır. Ata tərəfdən Maraşlı olan Kısakürəkoğulları ailəsinin kökü Dulkadiroğullarına söykənir. Əsl adı Əhməd Nəcib olan Nəcib Fazil oxuma-yazmanı babasından öyrəndi. Müxtəlif məktəblərdə tez-tez yarımçıq qalan çətin bir orta təhsil həyatı yaşadı. Əvvəlcə Gedikpaşada fransız, sonra eyni səmtdə amerikan məktəbində, Böyükdərə Emin əfəndi məktəbində, Böyük Rəşid Paşa Nümunə məktəbində və Vaniköy Rəhbəri-ittihad məktəbində oxuduqdan sonra Heybəliada Nümunə məktəbindən məzun oldu. Həmin il Heybəliada Bəhriyyə məktəbinə daxil oldu. Burada beş il oxudu, lakin diplom ala bilmədən ayrıldı.

1921-ci ildə İstanbul Darulfünun (Ədəbiyyat fk.) Fəlsəfə bölməsinə yazıldı. Bu təhsilini də tamamlaya bilmədən əldə etdiyi dövlət təqaüdü ilə fəlsəfə təhsili üçün Parisə getdi. Lakin Parisdə intizamlı bir tələbə ola bilmədi. Türkiyəyə qayıtdıqdan sonra İstanbul və Anadoluda bəzi banklarda məmurluq və müfəttişlik etdi. Bir fransız məktəbində, Ankara Dövlət Konservatoriyasında, İstanbul İncəsənət Akademiyasında və Robert kollecində müəllim kimi fəaliyyət göstərdi. Fəlsəfə tələbəliyindən bəri tanıdığı nəşriyyat mühitini daha cəlbedici və əsər vermək üçün daha münasib bir mühit kimi gördüyü üçün 1942-ci ildən etibarən məmurluq vəzifələrindən ayrıldı və dolanışığını təmin etmək üçün yazıçılığa

və nəşriyyata başladı. Son illərinə qədər “Büyük Doğu” (Böyük Şərq) jurnalının və Büyük Doğu nəşrlərinin sahibi həm də yazarı olduğu kimi, bəzi gündəlik qəzetlərdə də lətifə və məqalələri nəşr olunurdu. 25 may 1983-cü ildə Ərənköydəki evində vəfat etdi. Hadisələrlə yadda qalan izdihamlı cənazə mərasimindən sonra Eyyub səmtindəki qəbiristanlığa dəfn edildi.

Əsərlərindən bəziləri bunlardır:

Şeirləri: “Hörümçək toru” (1925), “Kaldırımlar (Piyada səkiləri)” (1928), “Mən və ötəsi” (1932), “101 hədis” (1951), “Sonsuzluq karvanı” (Ankara 1955), “Çilə” (1962).

Teatr və ssenari pyesləri: “Toxum” (1935), “Bir adam yaratmaq” (1938), “Künyə” (1938), “Səbir daşı” (1940), “Para” (1942), “Vətən şairi Namiq Kamal” (1944).

Hekayə və roman: “Meşum Yakut” (1928), “Bir neçə hekayə, bir neçə təhlil” (Ankara 1933), “Ruh burxuntularından hekayələr” (1965), “Hekayələrim” (1970), “Aynadakı yalan” (1980), “Kafa kağızı” (1984).

Digər əsərləri: “Halqadan parıltılar” (1948), “O ki, o üzdən varıq” (1961), “İman və aksiyon” (1964), “Hz. Əli” (1964), “Peyğəmbər halqası” (1968), “Çölə enən nur” (1969), “Son dövrün din məzlumları” (1969), “Nur xırmanı” (1970), “Doğru yolun sapqın qolları” (1978), “İman və İslam atlası” (1981), “Qərb təfəkkürü və İslam təsəvvüfü” (1982), “Çərçivə” (1940), “Türkiyənin mənzərəsi” (1968, 1973), “Tanrı qulundan dinlədiklərim” (I-II, 1968), “İdeologiya hörgüsü” (1968), “Mənim gözümlə Menderes” (1970), “Raport” (I-XIII, 1976-1980), “Yolumuz, halımız, çarəmiz” (1977), “İhtilal (Çevriliş)” (1977), “Yeniçəri” (1977).[1]

1. M. Orhan Okay, “Necip Fazıl Kısakürek”, *D.İ.A.*, İstanbul 2002, c. 25, s. 485-488.

## İslam Türkiyədə pozuldu, hər yerdə pozuldu

İslam Türkiyədə pozuldu, hər yerdə pozuldu; Türkiyədə düzəlməlidir ki, hər yerdə düzəlsin!.. Necə? Bir modeldən maketləşərək bütün ərəb aləminə yayılmaqla. İslam aləmi pozulmuşdursa, Türkiyədən çıxacaq yeni modeli tətbiq edərək öz gerçəyinə qayıda bilər. Ondan sonra milyardı aşan İslam aləmi dünyaya öz sözünü deyər.

Gənc adam!

Bu sözlərimin məsul müxatəbi sənsən!

Sözlərimə belə başlamışdım:

"Əziz gənclik və çilə çəkən möminlər dəstəsi!.."

İşıqlar içində, bir yandan da fit səsləri eşidilməkdə ikən, ancaq kapitanların başa düşdüyü mənada gəmi yavaş-yavaş batır və salondakıların fəryadları bir-birinə qarışır: "Batırıq! Xilasedici haradadır!.."

Bunu görən cins bir beyin (Toynbi) deyir ki: "İstiqbal İslamındır!.." Amma hazırkı səfil təmsil heyətindəki İslamın deyil!

Dünyanın halı budur... Biz isə cırtdanlar diyarında, yanğın yerində divarları fil dişindən, şüşələri büllurdan olan saray kimiyik; yeni dünyaya model olacaq bir saray.

Bir də cırtdanın iddiasına baxın!

Xeyr, elə deyil! Zidlər arasındakı ahəngdən bəhs etdim; bu iş gurultulu danışıqlarla, şüarlarla olmur! Bunu kitablıq həcmdə ələ almaq lazımdır. Bu günün gənci elə acınacaqlı haldadır ki, elə öz müəlliminin xüsusiyyətləri tələbəsini iyrəndirməkdədir. Necə itaət edər, necə təslim ola bilər belə müəllimə?

Bu günün gənci özünü küçəyə, qadına, kinoya, ona, buna, həyata qarşı müdafiə edə biləcək bir zirehə bürünmək məcbu-

riyyətindədir. O zirehi də özündən başqa geydirə biləcək kimsə yoxdur.

Təkrar edirəm: Allahın planları əsla bizim hesablarımızla ölçülə bilməz. Əlbəttə, bir gün qapılar açılacaq və hər şeyin vaxtı çatacaq…

*Yol bir dənədir; başqa heç bir yol yoxdur!*
*Yol Onun, varlıq Onun, gerisi hep anqarya,*
*Üzüstü çox süründün, ayağa qalx, Sakarya...*

Bu dirçəlişin mərhələləri bunlardır:

1. İçəridə qaba, fanatik və xam mövhumatçıları təsfiyə etmək…

2. Yenə içəridəki qərb meymunluğu edən nəsilləri qurutmaq…

3. Və yenə içəridə maddə və məna sahəsində kəşflərə yol açan bir nəslin mayasını tutdurmaq…

4. Xaricdə və İslam aləmində tam bir ruh və əl birliyi ilə yekparələşmək həmləsi…

5. İslam millətləri arasında mərkəzi Mədinə olan Böyük İslam Şurasını və bu şuranın maddələrini təsbit etmək…

6. İslam dünyasını fikirdə və maddədə heç bir şeyə möhtac olmayacaq səviyyəyə yüksəltmək. Əşya və hadisələrə hakim olmaq idealını gerçəkləşdirmək…

7. Və öz xaricimizdə, Qərb dünyasında model insan və model cəmiyyəti nümayiş etdirmək, məna silahı ilə boy göstərmək…

8. Qərbə, saysız fikir və məzhəblər yoluyla axtardığı hər nə idisə, əsas və əsillərinin İslamda olduğunu; hansı xəstəlik və bəlaya düçar olmuşsa, qurtuluş və dərmanının da yenə İslamda olduğunu göstərən ideoloji şəbəkəni hazırlamaq…

9. Maksimum və son dərəcə geniş azadlıq adı altında nəfsani və təbəqə əsaslı başıboş azadlıqdan uzaqlaşmağın və həqiqi azadlığı haqq və həqiqətdə axtarmağın sistemi...

Bu mərhələlərin hər biri digərinə aparan yollardır. Cənnətə namizəd olan dünya ancaq bu yolla gerçəkləşə bilər.

Bəzən ən uzaq və ən yaxın bir-birinə bitişik kimi olur. Ac adamın yuxusunda özünü ziyafət süfrəsində görməsi, onun üçün, xəyalını gerçəkləşdirməyə dəvət edən vəd və işarədir. Yetər ki, keçdiyimiz tarix yolunu və öhdəliklərimizi qavrayaq və iç-içə doqquz divarlı həbsxanamızın əngəllərini yıxmağı bacaraq. Haqq köməyimiz olsun və həsrətində olduğumuz gəncliyə yol açsın!..[2]

## Aksiyon ruhu

Aksiyon iş, həmlə və hərəkətlərimizin ruhudur; kökümüzə dair şüarların başında gəlir.

Yeganə, bənzərsiz və mütləq nümunə olan səhabələrə nəzər salaq. Səhabələrdə iki böyük xüsusiyyət var: hikmət və aksiyon ruhu. Yəni fikir və onu işə çevirən hərəkət... Səhabə bu deməkdir.

Fransızların əziz kimi tanıdığı, Sen Fransua Dasis adlı bir adamın belə bir sözü var:

"Əgər indi deyilsə, nə vaxt?"

Bunun daha gözəl ifadəsini həqiqi İslam vəlisi Şeyx Məhəmməd Parisa həzrətləri belə dilə gətirir:

"Qafil xalq yorğun və əldən düşmüş halda deyir: Sabah olsaydı, bir iş görərdim!.. Bilmir ki, bu gün dünənki günün sabahıdır. Bu gün nə iş gördü ki, sabah nə iş görsün?.."

Həqiqi İslam anlayışı ötüb keçən hər saniyənin içinə sığa biləcək işi soruşmaq və axtarmaqdır.[3]

2. N. Fazil Kısakürək, *Dünya Bir İnkılap Bekliyor*, İstanbul 1999, s. 54-56.
3. N. Fazil Kısakürək, Özlediğimiz Nesil, İstanbul 1999, s. 212.

## Nə cür idarə olunmaq istəyirik?

Yüz ildən bəri bir iynə belə düzəltməkdən aciz yaşayan bu milləti radiosunu, avtomobilini, traktorunu, makinasını, onu, bunu öz əlləri ilə düzəltməyə məcbur edəcək bir iradə... "İstəyirsənsə, bunu qutudan düzəlt, amma özün düzəlt!" deyəcək bir iradə...

Türk gömrüklərindən, mühüm dövlət ehtiyacları xaricində, bir dənə də olsun Qərb alətinin keçməsinə icazə verməyəcək bir iradə... Ta ki bu alətlərə rəqabət göstərəcək türk sənaye və istehsal gücü meydana gələnə qədər başqa çıxış yolu görməyən bir iradə...

Bütün qərb aləmini türkün və onun ruhi təsiri altında olan bütün asiyalıların gözünə tilsimli bir xoxan kimi görünməkdən çıxardacaq bir iradə...

Qərb aləmini renessansdan bəri təkcə ağılın gücündən istifadə etmiş və əşyanı təsiri altına salmış müsbət elmlər xariqəsindən ibarət halda göstərəcək bir iradə... Yoxsa Avropanın ruh planında təqlid ediləcək heç bir təqdirəlayiq yanının olmadığını meydana çıxaracaq bir iradə... Və hazırkı qərb məlumatlarını məharətlə əldə edəcək, sonra da onları əhliyyətli bir şəkildə türkün malı halına gətirəcək bir iradə...

Türkiyənin heç bir küncündə çayxanalara icazə verməyəcək, saatda 21 milyon kilovat həcmindəki milli enerjinin hamısından istifadə edəcək bir iradə...

Kinonu, teatrı, ədəbiyyatı, bədii yardıcılığı, hətta elmi yaradıcılığı da mütləq milli şəkildə məhsuldar hala gətirəcək iradə... Bunlar milliləşdikdən sonra onları beynəlxalq səviyyəyə çatdıracaq bir iradə...

Barlara, qumarxanalara və bütün biabırçılıqlara "dur" deyəcək bir iradə...

Ruhumuzu söykədiyimiz müqəddəs meyarların həm düşmənlərinə, həm də dost görünüb bu meyarları anlamayan xam radikal qırıntılarına həyat haqqı verməyəcək bir iradə... CHP mənbəli sağ və sol qanunların bacara bilmədiyi təzad birləşdiriciliyini həm dinsizin, həm də saxta dindarın eyni çuval içində boğulması surətilə meydana gətirəcək bir iradə...

Çorabdan şapkaya, hərfdən binaya, davranış ədəblərindən bütün ifadə şəkillərinə qədər şəxsiyyətin nə demək olduğunu meydana çıxardacaq bir iradə...

Adam öldürəni dərhal öldürəcək, oğurluq edəni bir daha oğurluq edə bilməyəcək hala gətirəcək və bütün ictimai qarışıqlıqlarda fərdə öz evindən daha etibarlı bir sığınacaq təşkil edəcək bir iradə...

Bu yolda xidmət edən kəslərin necə işləyəcəyini müəyyənləşdirəcək; ən böyük göz mütəxəssisini traxoma kimi ən şiddətli göz xəstəliklərinin yayıldığı bölgədə həyatını fəda etməyə məcbur edərkən, ən böyük tərbiyəçinin də ən ucqar kənddə xidmət göstərən polis nəfərindən fərqsiz yaşamasını təmin edəcək bir iradə...

Ölkədə heç bir sahibsiz uşaq, avara, işsiz, dilənçi buraxmayacaq və heç olmasa bunları göz qabağından yığışdıracaq bir iradə...

Və nəhayət, xalqın nəfsaniyyətini deyil, haqqı razı salacaq və qurultay divarına “Hakimiyyət haqqındır!” şüarını qazıyacaq bir iradə...

Səni istəyirik![4]

---

4. N. Fazil Kısakürək, *Başmakalelerim I*, İstanbul 1999, s. 26-27.

## Əl, dil, qəlb

Pis işi uzaqlaşdırmaq və yaxşı işə yaxın durmaq üçün müsəlmanın üç silahı var: əli, dili və qəlbi. Qəlb niyyət və iradə olaraq hər iki təşəbbüsün içində yer aldığına, dil isə heç vaxt əli buraxmayacağına görə, geriyə tək silah qalır: əl. Əl, yəni feil, aksiyon, birbaşa həyata keçirmək vasitəsi...

Müsəlmana hər şeydən əvvəl üç silahı da birləşdirərək əli ilə hərəkət etməsi əmr edilmişdir. Onu edə bilmədiyi, yəni əl-qolunun bağlı olduğu yerdə iş dilə qalmaqda, ağız açmağa belə imkan olmayan yerdə isə pis işi qəlbən rədd etməkdən başqa çarə qalmamaqdadır. Belə ki, əl ola-ola işi dilə həvalə etmək, xüsusilə də özünü kənarda saxlayaraq susma və dözüm göstərmə səciyyəsi ilə yalnız qəlbən etiraz etməklə kifayətlənmək əsla İslam ruhuna uyğun gəlməz! İkinci və üçüncü (şöbə)lər ancaq məcburi hal qarşısında fəaliyyətə keçəcək. Bunu da yaxşı qavramaq lazımdır ki, qiymət cəhətindən marşal rütbəsində olan əlin qarşısında digərlərini çavuş və ya sıravi əsgər belə saymaq çətindir. Üstəlik, etibarlı bir bəhanələri olsa da, yenə də məqbul sayılmazlar. Xüsusilə də açıq bir zor gücü və əlin fəaliyyətinə mane olacaq ciddi bir səbəb olmadığı halda sırf sözdən və ürəkdəki gizli duyğudan ibarət qalmaq müsəlmanı küfrün eşiyinə qədər sürükləyəcək bir iman və əxlaq zəfinə səbəb ola bilər.

Əyrinin kölgəsi də əyri olar... Bunun kimi, küfrə riza göstərmək də küfr sayılır... Pis işi təkcə qəlbən rədd etmək, içində küfrə riza olmasa da, riza göstərməyə qapı açacaq xüsusiyyət daşıyır və bu hal nəticədə "hər kəs nə edirsə etsin, mənə nə?" deməklə, bir növ riza göstərməklə nəticələnər.

Hər fərd öz evində, iş yerində, hər cür şəxsi fəaliyyət sahələrində bir növ rəhbər sayılmırmı? Müsəlman öz rəsmi dövlətinə sahib olmadığı hallarda belə şəxsi və xüsusi idarəetmə qabiliyyətini göstərmək və tabe olduğu dövlətin qanunlarına tam və həqiqi

riayət ölçüsü daxilində qanunun verdiyi icazə nisbətində əlini işlətmək məsuliyyəti daşıyır.

Bizi həbs etdikləri məscidlərdə bardaş quraraq, əllərimizi möhtac olduğumuz dərgaha açaraq can-könüldən dua edirik:

“- Ya Rəbb! Bu vətəni kafirlərdən xilas et! Ya Rəbb! Hər gün bir az daha çox sükut edən əxlaqımızı düzəlt! Ya Rəbb! Gəncliyimizə sənin və sevgilinin eşqini ilham et! Ya Rəbb! Əsrlərdir gözümüzü boyayan Qərb təqlidçisi saxta qəhrəmanların kələyini meydana çıxart! Ya Rəbb! Sevgilinin ümmətinə hikmət və hərəkət, elm və əşyaya hökm etməyi nəsib et!..”

Bu duanı etdikdən sonra ordakı diləklərdən heç birində pay sahibi olmadan məscid qapısında ayaqqabısını geyinmək və sonra da izdihamın içində qarışıb yoxa çıxmaq qədər çirkin və utanılacaq bir hərəkət təsəvvür edilə bilməz! Sən Allahdan istədiklərindən hansı biri üçün cəhd edib təşəbbüs göstərmisən ki, bu əziz duanı ağzına ala biləcək cəsarəti göstərirsən?!

Neçə-neçə “marka müsəlman”ın duası Allahdan corabını geydirməsini istəyəcək səviyyəyə qədər düşmüş ruhi boşluq içindədir.

Aldığımız hər nəfəsdə bizə nəfəs alma qüdrəti verməsi üçün Allaha dua etmirikmi? Halbuki bu feilin özü də duaya möhtacdır və bütün kainat dua üstündə qaimdir. Amma duanın sirrindəki ən incə hikmət nöqtəsi onu icra sahəsində, yəni bu məqsədlə həyata keçirdiyin fəaliyyətlərdə axtarmaqdır.

Müsəlman!

Güzgünün qarşısına keç və alnındakı “müsəlman” yazısına hər an xəyanət edib-etmədiyini fikirləş!

Və duanı icra etdiyin hərəkətlərdə axtar![5]

5. N. Fazil Kısakürək, *Baş Makalelerim III*, İstanbul 1999, s. 213-215.

## Dünən və bu gün

Dünənə qədər came yox idi.

Camenin cəsədi var idi.

Dünənə qədər camedə səf yox idi.

Birlik şüurunu itirmiş fərdlərin xətkeşlə düzləşdirilən kül yığınına bənzər, bir-biri ilə əlaqəsiz düzülüş xətti var idi.

Dünənə qədər "İbadətinizə qarışan var?" deyərək söz atanların başa düşdüyü din hürriyyəti bu idi.

Bir nəfər çıxıb "Xeyr, bu, başına azadlıq tacı taxaraq işgəncə masasına yatdırılmaq kimi, əsarətlərin ən dözülməzidir!" – deyə bilmirdi.

Heç kim çıxıb deyə bilmirdi ki: "Sizin sərbəstlik verdiyiniz məkan came deyil, anbar və ya zindandır! Nə çölün mənası içəri girə bilir, nə də içərinin ruhunu çölə çıxarda bilirik!"

Dünənə qədər müsəlmanların sayı ancaq əhalinin qeydə alınmasında və səsvermə bülletenlərində şişirdilən, həqiqətdə təkcə saylardan ibarət, altına yekun xətti çəkilməsi qadağan olan və toplamı imkansız sayılan bir kəmiyyət sayılırdı.

Biri çıxıb "Ey Muhamməd ümməti, müsəlman olmağın xüsusiyyət işi olduğunu və bir keyfiyyət adı olduğunu nə vaxt başa düşəcəksən?" deyə hayqıra bilməzdi.

Bəs indi?

İndi əvvəllər olmayanların bir çoxu var, amma olmalı olanlardan heç biri yoxdur!..

Yox olan nədir?

Yox olan başımızdakı əvvəlki basqı və bizik?

Əfsuslar olsun ki, basqı çəkici qalxdıqdan sonra altından çıxan baş əzilib yastılanmış kəllədir.

Bir az özünə gəlsin, ondan sonra görərsiniz başına yenidən enən çəkici!..[6]

## Faşist

Günümüzün iyrənc, mənasız, boş və izahsız ifadələrindən biri də budur!.. Birinə "faşist!" deyildiyi zaman sanki ona "quduz it!" diaqnozu qoyaraq kimliyini təsbit etdiklərini və o çirkin diaqnozun ruhlara verdiyi nifrətlə təhqir edərək alçaltdıqlarını zənn edirlər.

"Faşizm" Qədim Romanın dünya hakimiyyəti idealına bağlı bir irəliləyiş məqsədi uğrunda eyni soydan gələnlərin ən sərt, qatı və kobud güc yollarına əl atan işləmə metodudur və bu işə xidmət edən vasitədən başqa bir şey deyildir.

Qayəsi haqq olan bir yolda əmin olanlar arasında sırf metod olaraq (faşist) kimi hərəkət edənlər ola bilər. Hər hansı bir iddia, haqq və ya batil olmasından asılı olmayaraq, ona məxsus olan əsas xüsusiyyətlərinə görə təhlil edilə bilər, lakin məqsədinə nail olmaq üçün istifadə etdiyi metoda görə tənqid etmək düzgün deyil. Məqsədin haqq olduqdan sonra istifadə etdiyin metodda faşist və ya bir dərəcə fərq ilə maşist olmağın əhəmiyyəti yoxdur. Batil olduğu açıq olan hər bir hərəkətin qaba gücü eyni metodla əzilib təsirsizləşdirilməlidir! Bu mənada faşist olmaq doğrudurmu?

Daha çox Qərb demokratiyalarının yatalaq halına qarşı ortaya çıxan faşizmi belə başa düşmək lazımdır. Yoxsa ki, hər qaba və cəsur hərəkətə faşist deyə damğa vurmaq düzgün deyil. Əgər bu aləmdə batil yolların ən böyüyünün əl atdığı faşist hərəkətlərin ən sərt misallarını görmək istəyirsinizsə Rusiyadakı (Sovet dövlətindəki) kommunist üsullarına baxın!

Bizim hər işimizdə olduğu kimi, faşizmin də mənasını dəyişdiriblər və onu adi küçə söyüşü halına gətiriblər. Bir yerdə kiçik bir tərpəniş və həyəcan, hərarət və hərəkət həmləsi gördüklə-

6. N. Fazil Kısakürək, Çerçeve IV, İstanbul 1998, s. 39-40.

ri an dərhal "bura gəl, faşist!" deyərək müdaxilə edirlər. Bunu deyənlər isə faşizmin ən pis və kirli nümayəndələridir...

Haqqa inandıqdan və onu sağlam bir şəkildə mənimsədikdən sonra, dostlar, səy göstərin, təşəbbüs göstərin, yəni sizə "faşist" deyənlərin ürkdüyü hərəkətlər sizi qorxutmasın.

Unutmayın ki, "hövl və qüvvət yalnız Allahındır".[7]

## Anadolu gəncliyi sən ol, biz də rahat ölək

Anadolu gənci!

Böyük Şərq idealının ruhları bəzəyən müşəxxəs naxışı sayılan aşağıdakı 9 maddəlik idrak səviyyəsinə yüksəldiyin an hər şey tamamlanmış olar:

1. Tarixini Qərbə qarşı təərrüz, müdafiə və mənəvi təslimiyyət deyə üç dövrə ayır və hər dövrdə mövqeyini müəyyənləşdir. Birinci dövrdə bəxtiyar, ikincidə yetim, üçüncüdə isə kölənən!

2. Dininin saflığını və bütün zamanlar və məkanlar üstündəki hakimiyyətini dərin bir vəcd içində şüurlaşdır və onu xam təəssübkeşlərə və düşüncəsiz sofulara qarşı, həm də eyni yolun əks yöndəki təmsilçisi olan axmaq kafirlərə qarşı qorumağın yolunu öyrən!

3. Son əsrlərin şüursuz, səthi təqlid səylərinə ən həqiqi qiyməti ver və Rumeli yolu ilə gələn siyonist, kosmopolit və imperialist təsirləri əlinlə tuturmuş kimi dəqiqləşdirib müəyyənləşdir! Artıq səndə yaxın əsrlərin şişirdilən irticaçılıq, tərəqqipərvərlik kimi nağıllarına aldanacaq səfehlik qalmasın!

4. Siyasətdə, idarəçilikdə, ədəbiyyatda və düşüncə dünyasındakı saxta qəhrəmanlarla həqiqi olanları ayırmağı bacar. Bunların həqiqi olanlarını sənə unutdurmaq və saxtaları ilə əvəz etmək üçün uydurma elmə əl atıldığını kəşf et!

---

7. N. Fazil Kısakürək, *Rapor 7/9*, İstanbul 1999, s. 91-92.

5. Milliyyətçiliyi təkcə müəyyən bir ruh halının zərfi kimi başa düş, məzruf (izah edilən) dura-dura zərfi məfkurəyə çevirmə. Zərfin açıqladığı məkan olaraq Anadolunu qəbul et. Anadolulu olmaqla kifayətlənmə, bu ölçü çərçivəsində Anadoluçu ol!

6. Özünü ən mərhəmətsiz nəfs mühakiməsinə tabe tut, zəif cəhətlərinlə güclü cəhətlərini yaxşı təsbit et və türk gənci deyərək qarşına çıxacaq olan tipləri maddələrindən ruhlarına qədər əzə biləcək bir heybət sahibi olmağa çalış. Onlar bütün fani dünyaları ilə sadəcə nəfsin, sən isə ruhun müxatəbisən. Onların yolu olduqca rahat, səninki isə çox çətindir!

7. Eşq, vəcd, həyəcan səciyyəsi…

8. Həmlə, təşəbbüs, təərrüz psixologiyası…

9. Ev sahibliyi tərzi və hakimiyyət ədası…

Anadolu gənci!

Artıq sən, sən ol! Ol ki, biz də rahat ölək![8]

## İslam təsəvvüfü

Böyüklərin təriflərini qısaca xülasə edək:

Cüneyd:

"Təsəvvüf: Allahın səni səndə öldürməsi və özü ilə diriltməsidir…".

"Ondan qeyrisindən əlaqəni kəsərək Allah ilə olmaqdır…".

"Yığışaraq zikr, eşidərək vəcd, tabe olaraq əməldir…".

"Şəriətin qadağan etdiyi şeylərə və pis əxlaqa qarşı davamlı mübarizə aparmaqdır…".

Muhamməd ibn Əliyyül-qəssab:

8. N. Fazil Kısakürək, *Tanrı Kulundan Dinlediklerim*, İstanbul 1968, s. 234-235.

“Kərəmli zamanda, kərəmli topluluq içində, kərəmli insanda, kərəmli əxlaqdır...”. Bu əxlaq hər kəsin çox yaxşı bildiyini zənn etdiyi ümumi və orta səviyyəli əxlaq deyil. Bu, əxlaqın əxlaqıdır...

Əbu Muhamməd Cəriri:

“Bütün halında yaxşı əxlaqa sahib olub pis əxlaqdan çəkinməkdir...”.

“Halların müraqibəsi (bir-birinə nəzər salması) və ədəbin mühafizəsidir...”. Buradakı ədəb də dərinliyinə sonsuz dərəcədə incə bir məfhumdur. Bilinən sadə ədəblərdən deyil.

Məruf Kərhi:

“Həqiqəti mənbəyindən almaq və xalqdan əlini üzməkdir...”.

Şibli:

“Fasiləsiz Allah ilə olmaqdır...”.

“Xalqdan kəsilib Haqqa bağlanmaqdır...”.

“Yandırıcı şimşəkdir...”.

Bu nə cür tərifdir? Təriflərin tərifi... Bu, üstünə dağlar aşan bir insanın birbaşa məruz qaldığı halı izah edə bilən ən gözəl tərifdir... Yandırıcı şimşək!..

Əbu Əli Ruzibari:

“Uzaqlığın kədərindən sonra yaxınlığın səfasıdır...”.

Əbu Turab:

“Heç bir şeydə kədərə düşməmək və hər şeydə səfa tapmaq...”.

Saluqi:

“Şəri qadağalar xaricində çəkinməkdən və qarşı çıxmaqdan əl çəkmək, hər şeyə boyun əyməyi və etirazı tərk etmək...”

Və Mənsur (Həllac Mənsur), asılacağı məqamda ondan soruşurlar:

"- Təsəvvüf nədir?"

"- Ən aşağısı məndə gördüyünüz bu haldır!"

"- Bəs ən yuxarısı?"

"- Onu görmək üçün sizə yol yoxdur!"

Bir də mənim bütün bu tərifləri öyrəndiyim mürşidim və xilaskarım Arvasi həzrətləri var ki, bütün bu tərifləri nəql etdikdən sonra, dünyanın ən quru ifadəsi ilə, ən böyük həqiqəti anlamış olaraq belə deyir:

"Təsəvvüf bəşəri sifətlərdən çıxıb mələki sifətlər və ilahi əxlaq ilə vəsflənməyə məxsus bir haldır...".[9]

## Siyasət nədir və nə deyildir?

Fərddən cəmiyyətə, cəmiyyətdən dövlətə qədər tək və cəm haldakı adamların öz aralarında, özlərini müdafiə etmək və zidd olanları gözdən salmaq üçün apardıqları elm qarışıq mübarizə sənətidir.

Lakin bu, siyasəti müstəqil və tabe olunan bir vücud kimi qəbul etmək üçün kifayət etmir. Onun öz vücudu ilə bərabər təkamül edə bilməsi üçün mütləq daha üstün və həqiqi bir tabe olunan vücuda ehtiyac var. Məhz hünər bu vücudu tapa bilmək və siyasət hünərini qaba mənfəət oyunu olmaqdan çıxartmaqdadır.

İşin içinə qaba mənfəət, sadəcə mənfəət üçün mənfəət girdiyi zaman arxasınca miskin hiylə də işə qarışar. Buna görə də siyasət məfkurəsiz dünyalarda bəsit hiyləgərlərin peşəsi kimi tanınır və bu səbəblə tülkü xasiyyətli insanların monopoliyası altındadır. Aslanlar bu məqama tənəzzül etməz. Əgər siyasət öz qabına sığmayan, ətrafa yayılan qaz kimi bütün iman sisteminin içini

9. N. Fazil Kısakürək, *Batı Tefekkürü ve İslam Tasavvufu*, İstanbul 2013, s. 95-97.

doldurmaq üçün xidmət göstərən bir fəaliyyət halına gələrsə, o zaman bu, aslanın işi olar. Halbuki adi və ümumi mənası ilə peşə halına gətirilən siyasət və siyasətçinin məqsədi Günəşin doğması ilə batması arasındakı qısa zaman kəsiyini istismar etməyə çalışmaqdan o yana keçə bilməz.

Peşə olaraq siyasətlə məşğul olan insanda "sabah qorxusu" yoxdur. Əbədiyyət qapısına bağlı cəmiyyət nizamlarının fatehləri əsrləri ovlamaq üçün qan və hıçqırıq içində can çəkişməkdə ikən, peşə siyasətçiləri fani saatları və günləri boyunduruğuna keçirmiş halda zövq və qəhqəhə içində canına qulluq edər. Məhz gündəlik siyasət məfhumunun sadə, alçaq, iyrənc, lakin əhatəli peşə sirrini bu nöqtədə axtarmaq lazımdır. Bu nöqteyi-nəzərdən baxdığımız zaman əgər ictimai təfəkkür sistemini maşın kimi saysaq, onun mühəndisi böyük təfəkkür adamı olan sahib, şoferi isə siyasətçidir.

Həqiqət budur ki, hiyləgərlik zəka sayılmadığı kimi, siyasət də təfəkkür deyildir.

Xüsusilə də bu günün dünya siyasəti bütün bəşəri etiqad və etimad əsaslarını yıxacaq və bütün ictimai sistemi sərsəmlədəcək qədər hiyləgərlik zirvəsinə yüksəlmişdir. Yeni zamanın dünya siyasətinə görə, artıq heç bir əli sıxmaq olmaz, heç bir vədə etibar edilməz, heç bir hesaba bel bağlana bilməz.

Beləliklə, siyasət kor-koranə əmrində xidmət göstərəcəyi insani qütb yerinə şeytani mərkəzdən diplom aldığı gündən bu yana özbaşına, ayrı bir peşəyə çevrildi. "Ən böyük hiylə hiyləni tərk etməkdir!" hikmətindən qafil qalan siyasət peşəsi gündəlik həyatın qaçdı-tutdu əyləncəsindən ibarət həzin və əbədi bir itkidən ibarət oldu.[10]

---

10. N. Fazil Kısakürək, *Tanrı Kulundan Dinlediklerim*, İstanbul 1968, s. 224-225.

**Düşmənlərimizə...**

Çatlayırsan, partlayırsan, hiddətlənirsən, təpinirsən! Çünki bizim şəxsiyyətimiz var, sənin isə yoxdur!

Buna görə də bizim öhdəmizdən necə gələcəyini, hansı ləkəni atacağını və ya necə palçıq yaxacağını bilmirsən!

Allah, şəxsiyyət deyilən böyük gövhərin haqqını onu şəxsiyyətsizlik vasitəsilə, yəni sənin vasitənlə küf, ləkə və pislik ilə boğduraraq elə dəyərli etdi ki!.. Allahın şəxsən öz mütləq iradəsi ilə mömin könüllərdəki nuruna müsəllət etdiyi Şeytanı fikirləş!

Şəxsiyyət bir qübbədirsə, şəxsiyyətsizlik onun yolunu kəsməyə çalışan hörümçək olar. Şəxsiyyət bir tarla olsa, şəxsiyyətsizlik onu məhv etməyə çalışan tarla siçanına çevrilər. Şəxsiyyət bir şam ağacı olsun. Bəs qurdlar, onlar kimdir? Yox, yox, şəxsiyyət ən nadir ağacdan ən incə işçiliklə yonulmuş nəhəng bir taxt olsun! Şəxsiyyətsizlik dərhal kiçilər, kiçilər, nöqtə boyda bir qurd olar və mövsümlər boyunca ritmik nəğmələrlə ən nadir ağacın ən həssas əməklərlə yonulmuş naxışlarını yeyər.

Ən gözəl atların belə milçəyi, gəlin qamətli gəmilərin molyuskası, qızıl rəngli saçların kəpəyi və başqa nələrin nələri var!..

Əgər şəxsiyyət qələm, söz, fikir və mübarizə yolu şəklində heykəlləşəcək olsa, şəxsiyyətsizliyin onu istifadə edilməz vəziyyətə salmaq üçün insan cildinə girərək hansı səfil və alçaq vəsflərə bürünəcəyini düşünmək lazımdır.

Lakin şəxsiyyətsizliyin şəxsiyyətin mütləq mənası üzərindəki təxribatı olsa-olsa şeytanın Allahı məğlub etməyə çalışması qədər nəticə verər. Sən istədiyini et, hesab və cəza günü bizimdir!

Çatlayırsan, partlayırsan, hiddətlənirsən, təpinirsən! Çünki bizim şəxsiyyətimiz var, sənin isə yoxdur!

Çatla, partla, hiddətlən, təpin! Çünki sən bu gün qalib gəlsən də, biz mütləq sabahı fəth edəcəyik![11]

## Böyük Şərq

Tənzimatdan bəri davam edən saxta inqilablar və bu inqilabların törətdiyi saxta qəhrəmanlar mübarizə yolumuzun müşəxxəs mənada əsas məsələsi sayılır.

Öz daxilimizdə və öz cibimizdə itirdiyimiz, sonra korlar kimi əllərimizin köməyi ilə başa düşməyə çalışaraq öz xaricimizdə və xarici mühitlərdə axtardığımız, axtardıqca itirdiyimiz, itirdikcə tapdığımızı zənn etdiyimiz, tapdığımızı zənn etdikcə itkimizi daha da dərinləşdirdiyimiz açarın qum üstündəki yuvasıdır "Böyük Şərq". O həm məna, həm maddə, həm zaman, həm də məkan adı və müəyyən bir ruhun özü ilə bərabər bütün insanlığa nümunə olaraq təqdim edəcəyi Şərq aləminin rəmzidir.

Bu ruh, sistem və ad daim bağlı olduğu iman mərkəzindən asılıdır. Və bu ruh, sistem və ad ancaq rəhbər imanın hər iradəsini yeni insan və yeni dünya üzərində zərrə-zərrə nəqş edən buyruq quludur.

Böyük Şərq İslamiyyətin əmrində buyruq quludur. Böyük Şərq İslam içində nə yeni bir məzhəb, nə də yeni bir ictihad qapısıdır. Sadəcə "Sünnə və camaat əhli" ifadəsinin formalaşdırdığı mütləq və mübahisəsiz çərçivə daxilində, bütün saflıq və əsaləti ilə İslamiyyətə yol açmaq cəhdi və çoxdan bəri itirilmiş bu saflıq və əsaləti iyirmi birinci əsrin eşiyində əşya və hadisələrə tətbiq etmə işidir. Deyəsən, işlərin də ən dəyərlisi və bahalısıdır…[12]

---

11. N. Fazil Kısakürək, *Hücum ve Polemik*, İstanbul 1998, s. 98-99.
12. N. Fazil Kısakürək, *İdeolocya Örgüsü*, İstanbul 1998, s. 12.

## Tək kəlmə ilə qurtuluş yolu

Əvvəla özünü, sonra bütün Şərq aləmini qurtarması, sonra da bütün insanlığı içinə alan bir qurtuluş yoluna çata bilməsi üçün türk millətinin tək yolu var.

Bu, indiki görünüşü ilə türk millətindən bunu istəmək kimidir: Qaf dağının təpəsindəki kiçik bir qar dənəciyi öz ətrafında dönə-dönə böyüyəcək, dağın bütün qar mövcudu qədər şişəcək, nəhayət, nəhəng Qaf dağına diz çökdürəcək bir əzəmətə qovuşacaq...

Halbuki həqiqətlər arasında ən kamil və zərif cəhətləri ilə yer alan belə bir həqiqət də var: türk milləti bütün tarix boyunca qədərindəki kələ-kötür, məşəqqətli yolları ilə birlikdə, ya əlindən gəldiyi zaman hər şey olmağa, ya da gücü çatmadığı zaman heç bir şey olmamağa layiq görülmüş, belə bir ülvi və çətin bir nəsiblə üz-üzə gəlmişdir. Və bu şanlı nəsibin sərt hökmü olaraq türk millətinə aslanın ətrafında dolanan qaraqulaqlardan (tülkü, çaqqal, kaftar və s.) biri olmaq kimi ikisi arasında yer tutan bir mövqe verilməmişdir. O ya həqiqətən aslan kimi meşənin hakimi olacaq, ya da qəfəsə məhkum olacaq; birinci halda qaraqulaqlar onun himayəsi altına girəcək, ona sığınacaq, ikinci halda da o, qaraqulaqların məsxərəsi kimi yaşayacaq.

Deməli, bizim öz-özümüzü bu dar və məhdud çərçivəmizin içindən xilas edə bilməyimiz üçün bağlı olduğumuz dünya parçasını da özümüzlə birlikdə qurtaracaq və o dünya parçasının bütün yer üzünə üstünlüyünü göstərəcək bir gücə çatmağımız lazımdır. Yəni dünya səviyyəsində xilaskar ola bilmədən, o səviyyədə bir həmlə və hazırlığa sahib olmadan hazırkı kiçik varlığımızla qurtula bilmərik.

Əvvəla şəxsini, sonra bütün Şərq aləmini, bundan sonra da bütün yer üzünü xilas edəcək bir qurtuluş imkanına nail ola bilməsi üçün türk millətinin ehtiyacı olan yol: ən dolaşıq, ən məhrəm və ən dərin qavranışı ilə birlikdə İslamiyyətdir.

Gerçək və böyük ifadəsi ilə 600 ildən çox davam edən dövlətimizin ilk yarısında tam və sağlam bir aslan, sonrakı yarısının ilk yarısında dişləri və pəncələri iltihab içində bir aslan, bunun son yarısında isə nə dişi, nə də pəncəsi qalmış, qəfəsə salınmış bir aslan həyatı yaşayan millətimizə düşən ən sağlam, yeni və gələcəyə yönəlik vəzifə, xüsusilə də son əsrin saxta və məğlubiyyətə səbəb olan bir neçə davranışından sonra, həqiqəti başa düşərək, şüur ruhunun rentgen nəticəsini hansı zibilliyə atmışdısa, onu tapıb gətirmək və haqqında qoyulan səhv diaqnozu nəzərə alaraq İyirminci əsrin günəşində işığa tutub yenidən qiymətləndirməkdir.

İslamın vəcd və imanının ana südündən daha bəyaz və daha təmiz dəsmalının üstünə İyirminci əsrin dünyasına aid şəfalı və zəhərli nə qədər meyvə varsa, hamısını silkələdikdən sonra bizdən olan hər şeyi çəkib götürən və bizdən olmayanı kənarlaşdıran əsas üslub ilə, sağ əlimizdə Allahın insan əli qarışmamış yeganə kitabı və sol əlimizdə insan oğlunun bütün fikir və iş kitabxanası olmaqla, ani bir həmlə ilə şahə qalxaraq özümüzə gəlməliyik!.. Qurtuluşumuzun və dünya səviyyəsində qurtarıcı olmağımızın resepti budur; bu reseptin təməl ünsürü də İslamiyyətdir. Məhz bu gündən etibarən özümüzü əhatə etməyi borc bildiyimiz möhtəşəm və açıq, açıq olduğu qədər də məhrəm olan həqiqət budur![13]

## İslam və dövlət

İslam dövlətə, ruhun bədənə yapışmış olması kimi möhkəm bağlıdır, əsla ayrılmaz və onsuz bədən düşünülə bilməz. Bütün kainatı qucaqlayan İslamın insan toplumlarının maddi və mənəvi yekunu, ictimai iradənin forması sayılan dövləti hüdudlarından kənarda tutması düşünülə bilərmi?

İslamda xalq haqqın zahiri, eyni zamanda haqq da xalqın batini olduğuna görə, islami dövlətin tək meyarı haqdır və yeganə hakimiyyət ona məxsusdur. Yəni xalqın deyil, haqqın hakimiyyəti...

13. *e.a.ə*, s. 92-94.

İslamda xalq haqq və həqiqətin əsiri (təslim olmuşu) sifəti ilə həqiqi və mükəmməl olaraq hüdudsuz azadlığa sahib, yenə eyni baxımdan həqiqi və mükəmməl olaraq hüdudsuz bağlıdır.

Elə isə İslam ən saf və mükəmməl qavrama prizması ilə ən irəli səviyyədə dövlətçiliyin və ən irəli səviyyədə azadlığın eyni zaman və məkanda birləşdiricisidir.

İslamda dövlət Haqqın fərdlərə bəxş etdiyi haqları bölüşdürmək baxımından kölələrin ən zəifi, yenə Haqqın fərd üzərindəki haqqını tələb etmək baxımından da sultanların ən güclüsüdür.

İslamda idarə şəkli yoxdur, idarə ruhu var. Ülvi və münəzzəh İslamiyyətin səltənət, cümhuriyyət və s. kimi torpaq səviyyəsində qalan bəsit və ibtidai seçimlərlə hər hansı bir əlaqəsi yoxdur. O, Haqqa əsir olan fərdlərin hökmranlığını başıboşluğa məhkum olan hürriyyətdən üstün tutar, lakin ən seçkin cəmiyyət təmsilçilərinin məşvərət idarəsini hamısından üstün görər.

Bəli, idarə əsasının mücərrəd ruhu nöqtəsində İslamiyyətin ana prinsipi bütün cəmiyyət və millətin seçdiyi, mənimsədiyi və başçı təyin etdiyi böyük və mərkəzi şəxsin ətrafında, imam və arxasındakı camaat kimi ən nizamlı quruluşdur. İslamiyyətdə "ülul-əmr" deyə bəhs edilən bu şəxsin rəhbərliyi altındakı dövlət zaman və məkana görə dövlət və idarəetmə üsullarının ən üstün və irəli səviyyəsini müəyyən edəcək, mövcud üsullar arasında nəfsani səltənətə ən yad olanı olacaqdır.

Dövlətin rəhbəri o cəmiyyətdə ən kamil və irəli səviyyədəki müsəlman şəxsiyyət olacaq, onun arxasında aləmlərin əfəndisi olan sevgilisi, onun da arxasında mütləq əmrləri və iradəsi ilə Allah...[14]

---

14. *e.a.ə*, s. 119-121.

## İslam və siyasət

İslamın saysız qollara ayrılan siyasəti tək gövdədə birləşir: bütün insanlığın İslama təslim olmasını təmin edəcək yol… Təslim olmaqda əmin-amanlığa çıxmaq, əmin-amanlığa çıxmaqda İslama nail olmaq, İslama nail olmaqda da sonsuz qurtuluşu əldə etmək var. Beləliklə, İslam siyasətinin əsas hədəfi İslam ölkələrinin daxilində və xaricində yer alan bütün insanlığı səadətə çatdırmaqdır.

Siyasətin bu əsas hədəfi yolunda İslam iki təməl vasitədən istifadə edir: qılınc və qələm. Qılınc maddəni, qələm isə ruhu fəth etməyin bütün vasitə və alətlərini təmsil edən iki rəmzdir.

İslam bütünlüklə maddə və bütünlüklə ruh sahəsində həqiqi fatehliyi əmr edir və həqiqi fatehlərin ülvi iş çərçivəsini müəyyən edir. Buna görə də İslam siyasətinin əsas sütunu maddə və ruh fatehliklərinin saysız iş və fikir məhsulunu özündə düyümləyən yekun xəttidir.

İslamın maddə fatehliyindəki aləti olan qılıncın timsalına oraq, sapand, qazma, çəkic, makina, motor, bütün inşaat alətləri və bütün texniki vasitələr daxil ikən, ruh fatehliyindəki aləti olan qələmə də kitab, kürsü, səs, xətt, intonasiya, ifadə və bütün təlqin vasitələri də daxildir. Bunlarla və bu cinsdən olan hər şeylə müqəddəs qayəni aşılamaq üçün nə qədər yol, çarə, şərt və üsul varsa, hamısına ən xoş və mükəmməl nəzəri ilə baxılacaq və bunların hamısına birdən əl atılacaq. Təki Allahın və Peyğəmbərinin əmrləri həyata keçsin…

Fərddən cəmiyyətə və bütün dünyaya qədər İslam siyasətinin ruhu ataya, anaya, övlada, qardaşa, dosta, ətraf mühitə, cəmiyyətə, yad insanlara və millətlərə həqiqi qurtuluş yolunu maddi və mənəvi hər vasitə ilə göstərmək, açıqlamaq, mənimsətmək və sevdirməkdir. İslamın məhəbbət təlqini dühası özünü sevdirmək istəyən bir qadının davranış və hərəkət dühasını ötüb keçməlidir. Bu çətin işdə fərdlərin və cəmiyyətlərin imkan və istedadlarını

son dərəcə diqqətlə müəyyənləşdirmək və həssas alətləri təmir edərkən və ya işə hazırlayarkən göstərilən diqqət səviyyəsində incə və zərif hala gətirmək mühümdür.

İslam siyasətində üsul: qılınc yolunda hüdudsuz bir düzgünlük və ədalət, qələm yolunda da hüdudsuz gözəllik və zərafətdir. Hər iki yolun qayəsi "asanlaşdırın, çətinləşdirməyin; müjdələyin, nifrət etdirməyin!" mənasındakı hədisin əmrinə tam uyğundur. Nəticədə hər yolda əldən gəldiyi qədər səy göstəriləcək, fəqət inandırılacaq və sevdiriləcək.

İslam gündəlik mənfəətlər güdən, istismarçı, miskin, xəsis, təkcə aldatmaq məqsədi güdən hiyləgər siyasətdən nifrət edir və öz vəcd və eşq xəmirinin tərkibində buna yer vermir.

İslam siyasətində 24 saatlıq həyata hakim olmaq məqsədi güdən cırtdan acgözlüklərdən heç birinə yer yoxdur! Əbədi həyatda nailiyyət əldə etməyin dünya və cəmiyyət planındakı yollarını axtaran böyük və möhtəşəm zəkaya isə baş üstündə yer var. Bu zəkanın rəqib və düşmən millət və dünyalara qarşı siyasəti də İslamın daxili və xarici varlığına mane olacaq halları aradan qaldırmaqdır. Yeri gələndə güc, yeri gələndə hiylə, yeri gələndə rəhbərlik... "Hərb hiylədir!" əmrinin öz yeri var.

Bütün bu yönləri ilə ən çətin, ən dolaşıq, ən açıq, ən sadə, ən mürəkkəb, ən adi, ən saf, ən hiyləgər, ən qəhrəman, ən sərt, ən yumşaq və əşya və hadisələrə hər an baş əydirmə məfkurəsi altında əşya və hadisələrin hər an tələblərini nəzərə alan, incələrin ən incəsi və dərinlərin ən dərini olan siyasət İslamdadır.[15]

## İslam və ordu

İslam ordu və əsgərlik məsələsini möhkəm tutur.

15. *e.a.ə*, s. 125-127.

Qədim türklərin “Altın ordu” və almanların “Böyük ordu” məfkurələri onların malik ola bilmədiyi həqiqət və ruha əsaslanmış halda İslamda mövcuddur.

İslam “hər kəs nə edirsə etsin, mən öz işimə baxım!” deyən fərdi və passiv bir müəssisə olmadığı, hər fərdi tək-tək və bütün insanlığı bütöv halda xilas etməklə məsul yeganə və aktiv ruhu təmsil etdiyi üçün heç bir fərdi, heç bir cəmiyyəti və heç bir dünyanı öz halına tərk edə bilməz; mütləq xilas etmək və əbədi səadətə çatdırmaq istəyər. Buna görə də fikir və ruh ordusunun önündə və arxasında yer alan hər üzvü fikir və məna ilə dolu olan maddi güc ordusunu formalaşdırır. Fərz olan cihadın İslam dövlətinə yüklədiyi vəzifə budur.

İslam düşmənlərinin anlaya bilmədikləri və anlaya bilməyəcəkləri şey budur ki, İslam ordusunun əlindəki qılınc bir cərrahın əlindəki neştər kimi, yalnız mərhəmətin, ən üst səviyyədəki lütf və xeyirxahlığın alətidir. Əməliyyat olunmamaq üçün çırpınan bir ölüm xəstəsindən fərqsiz olanların nə qədər çırpınmalarına, təpinmələrinə baxmayaraq onları xilas edəcək, həm də zorla xilas edəcəkdir.

İslamın könül və iman tərəfində zor tətbiqinə yer yoxdur; dində ikrahın (məcburiyyətin) olmaması Allahın əmridir. Lakin axırıncı mərhələdə işi qəlbin son hökmünə həvalə edən İslam ilk mərhələdə qəlbi qaraldan bütün pasları təmizləyəcək və onu bütün mənfi təsirlərin xaricində öz qərarları ilə baş-başa buraxacaq maddi tədbirləri almaqla mükəlləfdir. Əməliyyatdan sonra səadətə qovuşan xəstənin həkimə minnətdarlığını təsəvvür edin!..

İslamın əsl qılıncı mərhəmətdir. Xristianlıqdakı kimi süni mərhəmət deyil, həqiqi mərhəmət...

Ölümsüzlüyü vəd edən İslam zəfərdən sağ qayıdanlar ilə qanını döyüş meydanlarına içirib Allah uğrunda ölənlərə məxsus olaraq, ordusu üçün iki bənzərsiz ölümsüzlük rütbəsi vermişdir: qazi və şəhid. Heç bir ordu məfkurəsi mübarizə və aksiyon yolun-

da səy göstərən insan oğlunun ayaqlarını bundan daha möhkəm iki təmələ söykəyə bilməz.

İslam ordusunun məqsədi "Allahın adını ucaltmaqdır". Belə bir əbədilik bulağından su içən ordunun bəşəri ağıl və elmlə təchiz edilmiş ən inkişafetmiş və ən işıltılı nizamı əks etdirməsi, bu nizamın insan və alət vahidləri ilə yoğrulmuş, şeirdən üstün xarici memarlıq sənətini və fövqəlbəşər daxili ruhu əks etdirməsi şərtdir.[16]

## İslam və qadın

Hər maddə, hər məna və hər şey kimi qadının da bütün vücud və hikməti, keyfiyyət və mövqeyi İslamdadır.

İslamda qadın sevgiyə layiq görülən varlıqdır, lakin ona çatmaq üçün şəriət şərtdir. Yer üzünün əfəndisi və peyğəmbərlər peyğəmbəri (s.ə.s) buyurmuşdur: "Mənə dünyanızdan üç şey sevdirilmişdir: qadın, gözəl ətir və namaz..."

Bunu bilmək lazımdır ki, məşru üsul və hədlər daxilində qadına bağlılıq Yer üzünün əfəndisi və peyğəmbərlər peyğəmbərinin məzacına uyğunluq baxımından İslami və məqbul bir hadisədir. İslamın zahiri və batini çərçivələrinin bütün qəhrəmanları bu üsul və hədlər daxilində qadına bağlı qalmışlar. Rahibə bənzər yaşayış tərzini xoş qarşılamayan İslam batini mərifət yolunda nəfsi tərbiyə etməyin yollarından biri olaraq qadından uzaq dayanmağı qəbul etmir. Əksinə, böyük mərifət yolunda məşru üsul və hədlər daxilində qadın ilə əlaqəli davranışlar şərtdir.

İslamda qadın, hər şeydən əvvəl, dərin bir həya mövzusudur və bütün məhrəm səmtləri ilə birlikdə əhatələnmiş divarlar içində yüksələn saray kimi, ədəb, ismət və gizlilik divarları ilə qorunmuşdur.

Müqəddəs İslam şəriəti qadını hər nöqtəsi ilə ərinin nəzərlərinə halal olaraq təslim etdikdən sonra onun cəmiyyət həyatını

16. *e.a.ə*, s. 132-134.

məhrəmi olduğu və ya olmadığı insanlara qarşı ayrı-ayrı görünüş şəkilləri ilə və son dərəcə aydın bir şəkildə tənzimləmişdir. İslam cəmiyyəti və ölkəsinin böyük meydanında və bütün baxışlar qarşısında qadın: üzündən, əl və ayaqlarından başqa heç bir nöqtəsini çılpaq olaraq göstərə bilməyəcək dərəcədə həya və hicab deməkdir. Saçının bir tək telinin belə daxil olduğu bu həya və hicab şərtləri yerinə yetirildikdən sonra qadın eyni İslam cəmiyyəti və ölkəsinin eyni meydanında fəal və vəzifəli bir ünsür ola bilər.

Qadını qəfəs içinə və ya hərəmlərə həbs etmək, heç kimin qarşısına çıxartmamaq və təpədən-dırnağa qara bir torbanın içinə salıb eləcə bir anlıq cəmiyyətin koridorundan keçirtmək İslami ölçü və tələblərin əmr etdiyi iş deyil. Hər yönü ilə mükəmməl olan dinə nəsə əlavə etmək və ya ondan nəsə əskiltmək dini başa düşməməyə və nəhayət, xam və kobud təəssübkeşliyə və ya dərrakəsiz bir anlayışa yol açacağına görə, əsrlər boyu türk cəmiyyətində qadının məruz qaldığı halı dini vəcd və idrakdan məhrum xam və kobud təəssübkeşlərin əsəri deyə qiymətləndirmək, İslamiyyəti bu davranışdan tənzih etmək lazımdır. Şəri ölçülərə bürünmüş olan qadın İslam cəmiyyəti və ölkəsinin böyük meydanında hər növ iş və fəaliyyət sahəsində bütün nəzərlərə açıq bir ədəb və ismət heykəlidir.

Bundan başqa, qadın, mücərrəd qadın olaraq mücərrəd gözəllik ölçüsü ilə ancaq İslam şəriətinin gizli qalma sərhəddi və görünmə şərtləri daxilində yer alır ki, bununla da təsir və qiymətinin ən uca zirvəsinə yüksəlmiş olur. Qəssab mağazasında quyruğuna qədər dəridən üzülüb çılpaq halda sərgilənən ətin vəhşətini köləlik tilsimi ilə əlaqələndirən örtünmə sirri özünəxas (estetik) baxış bucağı ilə birlikdə yalnız İslamda yer alır.

İslamda qadın ictimai vəzifələr arasında yalnız iki dənəsinin əhliyyətinə malik deyildir: biri imamlıq, digəri isə hakimlik. Bu mövzuda da son dərəcə incə bir xilqət sirrini güdən İslamiyyət hər şeydən əvvəl hissi davranışlardan və himayəyə möhtaclıqdan uzaq bir kişi xərəyi tələb edən bu iki işdən başqa qadına heç bir

ictimai vəzifəni qadağan etməmiş, lakin qadının ən yüksək və ülvi mövqeyini onun və ərinin yuvası olaraq göstərmişdir.

Qadın anadır, tibb bacısıdır, zövcədir... Qadın gözəllik baxımından da, ictimai vəzifə baxımından da xilqət sirrinin maddi və mənəvi bütün təzahür etmə şəkillərini İslamda axtarsın və yalnız onunla öyünsün![17]

## Həqiqi və dərin müsəlman

İslam inqilabını fikir müstəvisində yalnız həqiqi və dərin müsəlman təmsil edə bilər.

Həqiqi və dərin müsəlmanın üç mübarizə sahəsi var: şəriət, təsəvvüf və bunların hikmətinə nüfuz edə bilən öz ruhu və ağlı.

Bu mübarizə sahələrini hazırda bir bütünlük içində mütaliə edəcək olsaq, belə deyə bilərik: Başda mütləq və sabit ölçülər mənzuməsi olan şəriət olmaqla, hər şey, altdakı üstdəkinə tabe olaraq, bu üç həqiqət planını yerinə yetirməkdən ibarətdir.

Deməli, həqiqi və dərin müsəlman sadə riyazi ifadə möhtəvasında bütün sonsuz və dibsiz sirlərin işarəsi və cəmiyyət-həqiqət ölçülərinin anası və mizanı olan şəriəti bu mübarizə və qayənin ruhu, onun batini yönü olan təsəvvüfü isə aləmin və insanlığın kamilliyə çatma sirrini hifz edən xəzinə sayacaq və onları ruhunda çalxalayıb mayonezin yumurta, zeytun yağı və limondan ibarət üç ünsürü kimi tam bir ahəng içində qoruyacaqdır.

Belə ki, başdan-başa əşya və hadisələr planına hakim və yer üzünü maddi və mənəvi bütün mövcudları ilə xəlbirin içində ələyən bir qüdrətə sahib olan həqiqi və dərin müsəlman hikmət və həqiqətin stratosferinə yüksələrkən şəriət və təsəvvüfdən ibarət sağ və sol qanadları ilə, bu qanadların ortasında irəliyə doğru uzanmış bir idrak və aydınlaşdırma cihazı funksiyasını icra edən beynindən ibarətdir. Lakin uçurdan, yüksəldən və məqsədə

---

17. *e.a.ə.*, s. 139-141.

çatdıran vasitələr bir-birini tamamlayan və gerçəkləşdirən şəriətlə təsəvvüf; uçurdulan, yüksəldilən və məqsədə çatdırılan isə şəxsi ruh və ağıldır.

Həqiqi və dərin müsəlman dünya və insan mövcudunun bütün iş və fikir mühasibəsini müvazinətləşdirmiş, alacaq və verəcək sütunlarını tam bir doğruluq və razılıq tarazlığına uyğunlaşdırmış, ediləcək və edilməyəcək hər şeyi təsbit etmiş, bütün istiqamətləri kəşf etmiş və müəyyənləşdirmiş, bu həyatın yaşanması üçün zəhmət çəkməyə dəyən bütün qiymətli yönlərini tablolaşdırmış, ən uzaq buğda sünbülünün ucundakı dəndən Günəşin mərkəzinə qədər hər nöqtəyə nəbz tutan alətləri yerləşdirmiş və hər ünsürün məqsəd və mükəlləfiyyət sirrinə vaqif olmuş, yer üzünə və maddə aləminə insan təhəkkümünü və bunun müəzzəm cihazını ən üst səviyyədə istismar etməyi öyrənmiş, idrak və ifadələrin çiləsini ən üst səviyyədə həssasiyyətlə doldurmuş, kamil vəcd, zərafət, könül rahatlığı və sükunətə nail olmuş, xülasə, insan başını ilbiz başından ayıran xüsusiyyəti ilə varlıq sirrinin bütün hissələrini qəhrəmancasına qucaqlamış, planlaşdırmış və bunu insan cəmiyyətində təşkilatlandırmış kamil insan modelidir.[18]

18. *e.a.ə.*, s. 182-184.

# Məhəmmədhüseyn Şəhriyar

*Könlüm quşu qanad çalmaz,*
*sənsiz bir an, Azərbaycan*

## O tayı bu taya birləşdirən şair

Biz şərqlilər şeirlə, ədəbiyyatla böyümüşük…

Xəmirimiz sözlə yoğrulub bizim…

Laylalarla yatdırılıb, əzizləmələrlə oyadılmışıq…

Bizim mədəniyyətimiz söz mədəniyyətidir, söz ülvidir bu torpaqlarda…

Vətəninin şanına yağdırılan ən gözəl təriflər sözlərlə olar…

Bir söz, bir misra, bir bənd sahibinin içindəki ruhun sevincdənmi, qürurdanmı, kədərdənmi titrədiyini, ağladığını, güldüyünü göstərər…

Misralarıyla ağlayar Məhəmmədhüseyn Şəhriyar. Vətəni üçün, vətən həsrəti üçün. Yurduna, anasına, babasına qovuşa bilməməsinin qəlbinə vurduğu zərbələrdir, Şəhriyarı silkələyən.

Məhəmmədhüseyn Şəhriyar bizə ana sevgisini öyrədir. Vətən, yurd sevgisini öyrədir. Onun gözlərindən axan yaşla kəkələyə-kəkələyə dilindən süzülən sözlər azadlığa çıxırdı. Şəhriyar hər misrasında özünün azadlıqda olmadığını bildiyi üçün ürəyindən gələn hər sözü hürriyyətə qovuşurmuş kimi çıxardırdı. Hər misrasına göyərçintək səmalarda süzülüb həsrətini çəkdiyi Azərbaycana qovuşsun deyə nəfəsiylə təkan verirdi…

Onun şeirləri o tayla bu tayı birləşdirirdi. Qovuşa bilməyən qardaşla bacını, anayla oğulu sərhədlərin tikanlı tellərini aşaraq qovuşdururdu. Şəhriyar dili, həsrət qoxan türki dili bir torpağı, bir yurdu, bir obanı amansızca ayıran simləri qırırdı. O özünü dərk edəndən, nənəsindən bayatılar eşidəndən, Heydərbaba dağında oynayıb axşamlar qocaların, ağsaqqalların türk dastanlarını eşidib gözləri heyran-heyran baxandan canını/ruhunu bədənində görmədi. Canını sərhədin o tayında, viran qalmış bədənini isə bu tayında gördü.

Şəhriyarın sevgisi misilsizdir. Qələmimiz nə qədər iti, nə qədər kəskin olsa da, hislərimizi ən mükəmməl formada ifadə etməyi bacarsaq da, onun sevgisini göstərə bilmərik. Yazdıqlarımız ustadın yazdıqlarının yanında gecələr səmadakı hər tərəfi aydınlandıran Ay və yanındakı ulduz kimidir. Heç vətən sevgisini demirəm. Məhəmmədhüseyn Şəriyar bir örnəkdir bizlər üçün. Sərhədləri aşıb, simləri qırıb qardaşın qardaşla əl-ələ verməsinin, qucaqlaşmasının, birləşməsinin...

Məhəmmədhüseyn Şəhriyar XX əsr türk dünyasına bəxş edilmiş əvəzedilməz qəhrəmandır. Şeirləri ilə savaşan, savaşaraq dünyasını dəyişən, son nəfəsinə qədər vətənindən, dilindən imtina etməyən qəhrəman. Böyük məclislərdə, farsların ölkəsində türk dilini bütün dillərdən üstün tutaraq, bəh-bəhlə türk dilini tərifləyən, ucaldan qəhrəman...

*Qırx ildir ki, dustağam mən,*
*Qaralar içrə ağam mən.*

### Təbrizli Məhəmmədhüseyndən Şəhriyara

Məhəmmədhüseyn Şəhriyar 1906-ci ildə əsrlər boyu Azərbaycanın mədəniyyət mərkəzi olan Təbrizdə dünyaya göz açır. Şəhriyarın dünyaya gəldiyi dövrdə İranda Məşrutə hərəkatı davam edirdi. Atası Hacı Mir Ağa kimi məşhur olan Seyid İsmayıl Musəvi Şəhriyarı qorumaq üçün doğma kəndlərinə Xoşginaba nənəsinin yanına aparır. Uşaqlığında atasının şeirə və musiqiyə

bağlılığı, anası Kövkəb xanımın bayatılar oxuması qəlbinin dərinliyində ədəbiyyatın, incəsənətin xüsusi bir yer tutmasına təkan verir. İlk təhsilini elə Xoşginab kəndində alır. Kəndin saflığı, insanların səmimiliyi, təbiiliyi onun üzünə, müəllimi Molla İbrahimin sevə-sevə öyrətdiyi əlifba yaddaşına hopar və böyüdükdən sonra kəndindən uzaqda da olsa şeirlərindən bir-bir qopar, Xoşginaba uçar. Dörd yaşından başlayar kiçik həcmli, iki misralı, bir bəndli şeirlər süzülməyə. Quranı və Hafizi uşaqkən əzbərləməsi onun həyatında və şeirində bu ikisinin izini bariz şəkildə göstərir. Daha sonra ibtidai və orta təhsilini Təbrizdə "Müttəhidə" və "Füyuzat" məktəblərində bitirir. "Talibiyyə"də ərəb ədəbiyyatı üzrə təhsil almaqla yanaşı, bu dövrlərdə həmçinin fransız dilini də öyrənir. Zaman keçdikcə sözlər itilənib çıxır, səhifələr artır. Təbrizdə şairlərlə dostluq etməyə başlayır, ədəbi məclislərdə iştirak edir. "Ədəb" jurnalında "Behcət" təxəllüsü ilə şeirləri nəşr edilir. Şəhriyar ədəbiyyatla yanaşı, həmçinin musiqi ilə yaxından maraqlanır, musiqişünaslarla dostluq edir. Şair yaxşı tar ifa edirdi. Təbrizin ən yaxşı musiqişünasları ilə tanışlıq və dostluq ədəbi məclislərdə onun adının tez-tez çəkilməsinə və axtarılmasına gətirib çıxarır.

1920-ci ildə Təbrizdən Tehrana gedir. Doğma şəhərində natamam orta təhsil alan gənc ölkənin əsas şəhərində tam orta təhsil verən "Darülfünun" adlı məktəbə daxil olur. Üç il xüsusi təhsildən sonra 1924-ci ildə Tehran Universitetinin Tibb fakültəsinə qəbul olur. Təbrizdə olduğu kimi Tehranda da ədəbi məclislərdə iştirak edir. Şairlər təxəllüs seçməli idi. Şəhriyar onun öz adı deyildi. Əsl adı Seyid Məhəmmədhüseyn Behcəti Təbrizi idi. Hafizin divanı ilə çərx açmaq İranda adət idi. Şəhriyar da uşaqkən Hafizlə böyümüşdü və Hafizi ədəbiyyatın, şeiriyyatın zirvəsi sayırdı. O da çərx açır və bu misra qarşısına çıxır:

*Çərxi-fələk sikkəni şəhriyarların adına döydürdü,*
*Mən də öz şəhrimə gedib, öz Şəhriyarım olmalıyam.*

Bununla da Seyid Məhəmmədhüseyn Behcəti Təbrizi Şəhriyar təxəllüsünü seçir və qısa müddət sonra Tehran Şəhriyardan, onun şeirlərindən danışmağa başlayır. 1929-cu ildə ilk göz ağrısı, ilk şeir kitabı çap edilir. Ədəbiyyatla birlikdə dərsləri də uğurla davam edir. "Sipəh" xəstəxanasında təcrübə keçməyə başlayır. Ancaq Şəhriyar təhsilini sonadək davam etdirə bilmir.

## Şəhriyarı şair edən eşq

Tələbəlik illərində Süreyya adlı bir qıza aşiq olur. Rza şahın əmisi oğlu da Süreyyaya aşiq olduğu üçün onların sevgisini qısqanır. O, Şəhriyarla Süreyyanın qovuşmasına mane olmaq üçün əlindən gələn hər şeyi edir. Şəhriyar gəncliyinin ən xoş çağlarında zindana atdırılır. Ailəsi zindanda çayına zəhər qatılaraq öldürülmək istədiklərini bildiyi üçün min bir əziyyətlə Şəhriyarı zindandan çıxara bilir. Ancaq bir şərtlə ki, o, Tehranda qalmamalı, Nişapura sürgün edilməli idi. Şəhriyar sona qədər eşqindən keçmir. Süreyya ilə birlikdə Tehrandan gizlincə qaçmaq istəyir. Gecə birlikdə Tehrandan qaçıb xoşbəxt yaşayacaqlarını düşünən Şəhriyar nə qədər gözləsə də, Süreyya gəlib çıxmır. Şəhriyarın bağrı yana-yana bu misralar süzülür dilindən:

*Ulduz sayaraq gözləmişəm hər gecə yarı*
*Gec gəlmədədir yar, yenə olmuş gecə yarı*
*Gözlər asılı, yox nə qaraltı, nə də bir səs*
*Batmış qulağım, gör nə düşürməktədi darı*
*Yatmış hamı, bir Allah oyaqdır, daha bir mən*
*Məndən aşağı kimsə yox, ondan da yuxarı*
*Gəlməz tanıram bəxtimi indi ağarar sübh*
*Qaş belə ağardıqca daha baş da ağarı*
*Eşqi varıdı Şəhriyarın güllü-çiçəkli*
*Əfsus qara yel əsdi xəzan oldu baharı*

Şəhriyar Tehranı tərk etmək məcburiyyətində olduğu üçün heç nə edə bilmir. Nişapura sürgün edilir. Süreyyanın ailəsi qaçacağından xəbər tutub mane olmuşdu. Şəhriyar Tehranı tərk

etdikdən sonra o, şahın əmisioğlu ilə evləndirilir. Ancaq aşiqləri ayıran şahın əmisioğlunun həyatı heç də xoş güzəran keçmir. Belə ki, Rza şah bir neçə ay sonra öz əmisioğlunu zəhərlətdirərək öldürtdürür. Nişapurda heç kəsi olmayan, sevdiyi əlindən alınan Şəhriyarın qısa zaman kəsiyində ətrafında onlarla tələbə toplanır. Həm öz şeirlərini, həm də onun dilindən Hafizin şeirlərini dinləmək üçün. Şəhriyarın yanıq səsi və kədəri sözlərlə birləşəndə adamı valeh edərdi. Onun şeirləri nəşr edilir, dildən-dilə, ağızdan -ağıza dolaşır.

1934-cü ildə atası Hacı Mirağa vəfat edir. Bu xəbəri aldıqdan sonra Şəhriyar üçün Nişapur zindandan çox qəbir olur, nəfəsi kəsilir sanki hər keçən dəqiqə. Təbrizə qayıtmalı idi. Çox sevdiyi atasının Təbrizinə. Axı o atasının son arzusunu, həkim olmaq arzusunu yerinə yetirə bilməmişdi. Son günlərində yanında ola bilməmişdi. Dostları Şəhriyarı Nişapurdan çıxartmaq üçün bütün vasitələrdən istifadə edir. Nəhayət, Təbrizə qayıda bilir.

Amma nə Təbriz əvvəlki Təbriz idi, nə də Şəhriyar əvvəlki Şəhriyar. Dünyalar qədər sevdiyi atasını və Sürəyyanı itirmişdi. Şəhriyar Təbrizdən qısa müddət sonra Tehrana getməli olur. Burda bir sıra məmur vəzifələrdə çalışaraq dolanışığını təmin edir. Tehranda bir zamanlar bir kənarda oturan və söz demək üçün sırasını gözləyən Şəhriyar artıq özü ədəbi məclislər təşkil etməyə başlayır. Onun geri qayıtmağı bu dəfə Sürəyyanın qohumlarını narahat edir. Sürəyyanın qohumları ədəbi məclisdə şairlərə çay, qəhvə və s. verən xidmətçinin əli ilə Şəhriyarı zəhərləmək istəyirlər. Qəhvələrinə zəhər töküldüyü üçün Şəhriyarın iki yaxın dostu zəhərlənərək ölür. Şəhriyar hər kəsdən və hər şeydən uzaqlaşıb tərki-dünyalığa qarışır.

Nə şeir, nə də musiqi…

Nə oxuyarkən özünü başqa dünyalarda hiss etdiyi Hafiz, nə də gözlərini yumub varlığını barmaqlarının ucunda hiss edərək ifa etdiyi tar…

Tərki-dünyalıq Şəhriyarı haldan salır, onsuz da arıq canı əriməyə başlayır, getdikcə o uca, şux bədən cılızlaşır. Özünə baxmır və əldən düşmüş bədəni xəstələnir. Anası Tehrana qayıdır və ana qayğısı Şəhriyarı ayağa qaldırır. Yenidən ədəbi məclislərdə görünməyə başlayır. Şeirləri və poemalarının yanı sıra 1949-cu ildə divanı çap edilir. Şəhriyar imzası Tehranı, Təbrizi keçərək bütün İrana yayılır. Şairin həyatı və sağlamlığı normal hala düşmüşdü deyərkən bu dəfə 1952-ci ildə anası dünyasını dəyişir. Beləliklə, şair Tehranı tərk edərək Təbrizə gedir.

*Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa*
*Qaçmışsa o Təbrizə, qoy yaxşı-yaman bəllənsin*

Təbriz onun pənah yeri idi, nəfəsi, canı orda idi. Rahatlığına Təbrizdə qovuşurdu. Anasının vəfatından sonra Şəhriyar yalnız qalmışdı bu dünyada. Özünün dediyi kimi, Allahından başqa heç kimi qalmamışdı. Təbriz onun uşaqlığı, saflığı və keçmişi idi. Heç bir dərdi, heç bir qəmi olmayan uşaqlığının şəhəri Təbrizdə xatirələri canlanır. Beləcə nəinki Azərbaycan ədəbiyyatının, İran ədbiyyatının şah əsərlərindən biri sayılan "Heydərbabaya salam" poeması yazılır. Qohumlarının xahişləri ilə 1953-cü ildə Əzizə xanımla evlənir. Onların Şəhrizad və Məryəm adında iki qızı, Əbülhəsən və Hadi adında iki oğlu olur. Lakin oğullarından Əbülhəsən doğulduqdan az sonra vəfat edir. 1954-cü ildə doğma kəndinə Xoşginaba gedir. Xatirələrin üstünə yeni xatirələr qonur, zaman donur və keçmiş oyanır. "Heydərbabaya salam" poemasının ikinci hissəsi də beləcə yazılır.

## "Heydərbabaya salam" poemasının məşhurluğu

1954-cü ildə Təbrizdə nəşr edilən poema qısa zamanda bütün İranda dillər əzbərinə çevrilir. Əlli yaşlarındakı bir şairin qələmindən çıxanlar sanki balaca uşağın dilindən çıxırdı. Şəhriyarın uşaqkən yaşadığı xatirələr böyüdükdən sonra da yaddaşından o əvvəlki canlılığı ilə qoparaq vərəqlərə tökülürdü. Şəhriyar

“Heydərbabaya salam”da bütün dərdlərindən və yaşadıqlarından qurtulub uşaqlığına, saflığına qayıtdı. Bu saflıq kəndin saflığına qarışaraq böyük bir şah əsər meydana çıxartdı. Qısa müddətdə təkcə İranda deyil, Orta Asiyada, Yaxın və Orta Şərqdə, Misirdə, Hindistanda, Pakistanda və xüsusi ilə İraqda yayılır. Əsər barədə tədqiqatlar aparılır, nəzirələr yazılır. “Heydərbabaya salam” Təbrizdə nəşr olunduqdan dərhal sonra Şəhriyarın səsinə səs verən, nəfəsinə nəfəs qatan qardaş Türkiyədə mühacirətdə yaşayan Məhəmməd Əmin Rəsulzadə olur. Məhəmməd Əmin Türkiyədə nəşr olunan “Azərbaycan” dərgisində poemadan bir hissə dərc etməklə yanaşı “Ədəbi bir hadisə” adlı uzaqgörən bir məqalə yazır və bununla əsər Türk ədəbiyyatına daxil olur. “Heydərbabaya salam” qardaş Türkiyədə sadəcə oxucular tərəfindən sevilmir. İrandakı Şəhriyar məktəbi sərhədləri aşaraq Türkiyədə özünə tələbələr toplayır. Gün işığına çıxmamış onlarca nəzirələr yazılır.

Dr. Yusif Gədikli “Şehriyar ve Bütün Türkçe Şiirleri” kitabında bunların bir neçəsinin adlarını qeyd edir. Bunlar Esat Kabaklının “Göllübağa selam”, Fırat Kızıltuğun “Bayburt şikesteleri”, Ekrem Kaftanın “Evran dağına selam”, Ali Akarın “Yıldız dağına selam”, Yasin Hatiboğlunun “Haydar Babaya rapor”, Lütfi Şahsuvaroğlunun “Cemal amca” adlı nəzirələridir. Canani Dökməçinin Elazığ və Harput bölgələrinə “Bizim dildən bizim köy”, Xeyrəddin Dökdəmirin Kocabey kəndinə ərməğan etdiyi “Kocabey”, Zeynalabdin Makasın “Xoş xatirələr” və Fəxri Unanın “Çiçəkliyə salam”, Muhammet Nur Doğanın “Ağrı dağına salam” əsərləri Şəhriyar məktəbinin Türkiyəyə və qardaşlarına bəxş etdiyi poema-nəzirələrdir. Şəhriyarın Türkiyəyə təsirini qavramaq üçün sadəcə prof.dr. Namiq Açıqgözün sözlərinə diqqət yetirmək kifayət edər. O, belə deyir: “Günümüzdə ən çox nəzirə yazılan şeir məşhur Azəri şairi Məhəmməd Hüseyn Şəhriyarın (1907-18 sentyabr 1988, Tehran) təxminən bütün türk dünyasında bilinən, hətta lirizm və mövzu baxımından hardasa bir “Bayraq şeir” halına gətirilən “Heydərbabaya salam” olsa gərəkdir”.

Güney Azərbaycanlı qardaşları ilə kəsilən bağ Şəhriyarla bərpa olunmuşdu. Bəlkə sərhədləri aşıb keçə bilmirdilər, ancaq ədəbiyyat, mədəniyyət sərhəd tanımır. Qırıb keçir bütün maneələri, yıxıb aşırır bütün sərhədləri. Şəhriyar  məcbur qardaş Türkiyəyə şeirləri ilə qonaq olur, qardaş Türkiyə isə nəşr edilən şeirləri ilə qonaq edir. Şəhriyar qardaşlarının məclisində sadəcə cismani olaraq iştirak edə bilmir, şeirləri vasitəsiylə ruhi olaraq o məclislərdə baş tərəfdə yer alır.

*Gəlmişəm nazlı Hilal ölkəsinə,*
*Fikrətin incə xəyal ölkəsinə.*
*Akifin marşı yaşardıb gözümü.*
*Baxıram Yəhya Kamal ölkəsinə.*
*Mən də Azər balası, Türk oğlu,*
*Qonağam doğma qarındaşlarıma.*

Sovet hakimiyyəti zamanı Güney Azərbaycanla əlaqələrin yaranmasına Moskva əlindən gəldiyi qədər mane olmağa çalışırdı. Gediş-gəlişlərə icazənin verilməməsi bir yana, o taydan bu taya xəbərlər də gec gəlib çıxırdı. “Heydərbabaya salam” 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Quzey Azərbaycanda tanınmağa başlanır. Buna kimi Şəhriyarın adı Quzey Azərbaycanda çox da bilinmirdi. “Heydərbabaya salam”dan sonra Şəhriyar Quzeylə Güneyi birləşdirən şair olaraq tanınır. Şəhriyar Quzeylilərin Güneydəki ümid yerinə çevrilir. Güneyə gedə bilməyənlər, gözləri ilə görə bilməyənlər onun şeirləri ilə sanki doğma torpaqlarında, Təbrizdə gəzirmiş kimi hiss edir, əvvəllər görənlərin xatirələri canlanırdı. Ata-analar uşaqlarına Güneyi onun şeirləri ilə təsvir edirdilər. 1968-ci ildə hətta onun şərəfinə Opera və Balet Teatrında təşkil olunan təntənəli yubiley münasibətilə keçirilən konfransa Şəhriyarı dəvət edirlər və ona dəvətnamə göndərirlər. Ancaq Sovet rejimi dəvətnaməni ləngidir. Bu azmış kimi, şah rejimi də bu gecikmiş dəvətnaməni Şəhriyar soylu başqa birinə verir. Beləcə, çox istəsə də, Şəhriyar Azərbaycana gələ bilmir. Ancaq məktublaşmalar, telefon danışıqları vasitəsi ilə Azərbaycandan

şair və yazıçılar onunla əlaqə saxlaya bilir. Quzeylilər günlərlə radiodan Şəhriyarın öz səsi ilə şeirlərini dinləmək üçün gözləyir, səbrləri tükənəndə isə təsəlli üçün şeilərini oxuyurlar.

*Səsin mənə nəfəs oldu,*
*Qəbir yenə qəfəs oldu.*
*Bir balaca həvəs oldu,*
*Dedim yenə durum yazım,*
*Özümə bir qəbir qazım.*
*Qardaşların gözündən öp,*
*Bəxtiyarın üzündən öp,*
*Səmədin də sözündən öp,*
*Mən də təkəm sizə qurban,*
*Tək canım hammıza qurban.*

## İranın şeir günü Şəhriyar təyin etdi

İran artıq Məhəmmədhüseyn Şəhriyardan danışırdı. Qısa müddətdə İranda baş verən inqilablar onun ədəbiyyatına da ciddi təsir edir, yeni ədəbi nümunələr, formalar yaranır. Bir zamanlar əli qələm tutmağa çalışan, kəkələyə-kəkələyə şeir deməyə çalışanlar Hafizlə hesablaşmalı olurdusa indi Şəhriyarla hesablaşmalı olur. Şəhriyarın əsərləri böyük tirajla nəşr edilir. Şərəfinə böyük ədəbi məclislər təşkil edilir, əvvəllər işlədiyi yerlər kitablarını nəşr etdirir, Təbriz Universiteti "Fəxri Ustad" dərəcəsi verir, yubileyləri keçirilir. İran Şəhriyara bürünmüşdü. Amma onu daha bir ağır gün gözləyirdi. 70-ci illərin əvvəllərində Tehran şeir ab-havasında bəzənmişdi. Dostları onu Tehranda gözləyir, dəvətlər göndərirdi. Şəhriyarın ürəyi Tehran üçün döyünürdü. Dostları, şeir məclisləri orada idi və onlar Şəhriyarı səsləyirdilər. Həyat yoldaşı Əzizə xanım getmək istəmir, Tehranı heç sevmirdi. Şəhriyarın gözü yolda qalmasın deyə getməyə qərar verir. O getməsəydi, Şəhriyar da getməzdi. Əzizə xanım Şəhriyara görə Tehrana getməyə razılıq verir. Tehran yenə Şəhriyarı gözü yaşlı edir, ondan ömür gün yol-

daşını, Əzizə xanımı alır. Əzizə xanım vəfat edir. Tehran Şəhriyara düşmən olmuşdu. Yaxınlarını bir-bir ondan qopardı, Tehran.

Təbrizə qaydır Şəhriyar. Balaca evində təkliyə çəkilir. Sadəcə ailəsi və yaxın dostları. Zaman keçdikcə bədəni halsızlaşır və xəstələnir. Əvvəlcə Təbrizdə müalicə olunur, ardınca Tehranın Mehr xəstəxanasına aparılır. Müalicələr kar etmir. Tehran sonda onun özünü də apardı. 1988-ci ilin 18 sentyabrında ustad Məhəmmədhüseyn Şəhriyar dünyasını dəyişir, sevdiklərinə qovuşur. Son anında yanında olan İranın lideri Xomeyni Şəhriyardan son arzusunu soruşur. Şəhriyarın son istəyi isə Xoşginab kəndi ilə bağlı olur. Xoşginaba yol çəkilməsi ilə bağlı. Şəhriyar yəqin ki, hər kəsin Heydərbabanı görməsini istəmişdi…

Qəribədir. Şəhriyarın vəfatından sonra 18 sentyabr İranda şeir günü kimi qeyd olunur. Azərbaycanda isə musiqi günü kimi…Şəhriyarın çox sevdiyi şeir və musiqi…

Xoşginablılar da şairi onun sevdiyi dağ ilə bir anırdılar. Hedərbaba dağı ilə. Amma artıq o dağ Heydərbaba dağı deyildi. O, Şəhriyar dağı idi…

Şəhriyar çox ağır günlər keçirdi, amma bircə gün şikayət etmədi. Gözlərindən yaşlar axsa da, namazından-niyazından ayrılmadı, Allahından qopmadı. Əksinə, zaman keçdikcə daha çox yaxınlaşırdı Yarına. Dostları ondan Sürəyya haqqında, eşqindən imtina etsəydi nə olardı deyə soruşanda Şəhriyar onlara təxminən belə cavab verirdi: *"Onda doktor Məhəmmədhüseyn Behcəti Təbrizi olacaqdım. Daha indiki Şəhriyar yox"*. Onun yaxşı xətti vardı və dostları, yaxınları üçün sevə-sevə Qurandan ayələr yazar, onlara hədiyyə edərdi. Şəhriyarın hədiyyəsi vətən, şeir və Allah sevgisi idi.

*Sızlayır əhvalıma sübhə qədər tanrım mənim,*
*Təkcə tanrımdır qara günlərdə dildarım mənim.*

## Milyonların içində sadə həyat

Şəhriyar olduqca sadə insan idi. Bir otaqda yaşayır, 20 illik paltarı ilə kifayətlənir, özünün zəhməti olmayan pul almırdı. Hər kəs ona yardım etmək istəyərkən o imtina edirdi. Hətta bir dəfə Xomeyni Şəhriyara həyatını təmin etmək üçün kifayət qədər böyük məbləğdə pul verərək yardım etmək istəyir. Şəhriyar pulu ondan götürür, amma heç bir qəpiyinə belə toxunmadan əsgərlərə bağışlayır.

Şəhriyar qorxmaz insan idi. İstər dövlət dairələrində, istərsə də meydanlarda çəkinmədən vətənini, dilini müdafiə edirdi. Ona qarşı çoxlu sui-qəsd təşkil olunur. Amma heç biri uğurlu olmur. Hətta bir dəfə meydanda ana dili ilə bağlı çıxış edəcəyini bilən rejim əvvəlcədən meydana adamlarını yerləşdirir. Şəhriyar odlu-alovlu çıxış edərkən sıxışdırmağa başlayırlar. Son anda bir nəfər onu oradan çəkib xilas edə bilir.

Şəhriyar İranda inqilabların edə bilmədiyini etmişdi. "Heydərbabaya salam" şeiri İrandakı türklərin himninə çevrilmişdi. İranda türk dilini öryənmək istəyənlər "Heydərbabaya salam"ı oxuyaraq öryənirdilər. Bundan sonra İranda türk dilində məktəblər açılmağa, dərslər keçirilməyə başlanır.

Şəhriyar türk dilini zirvələrə qaldırdı. Böyük yığıncaqlarda, konfranslarda, ədəbi məclislərdə iranlı, fars şair və yazıçıların yanında, dövlət məmurlarının, hətta rəhbərlərinin gözlərinin içinə baxa-baxa türk dilinin qüdrətini, ucalığını göstərdi. Türkün dili o dar, balaca məkanları dağıdıb keçdi, sərhədləri aşdı.

*Türkün dili tək sevgili, istəkli dil olmaz,*
*Özgə dilə qatsan, bu əsil dil əsil olmaz.*

*Öz şerini farsa, ərəbə qatmasa şair,*
*Şeri eşidənlər, oxuyanlar kəsil olmaz.*

*Fars şairi çox sözlərini bizdən aparmış,*
*Sabir kimi bir süfrəli şair pəxil olmaz.*

*Türkün məsəli, folkloru dünyada təkdir,*
*Xan yorğanı, kənd içrə məsəldir, mitil olmaz.*

**Vətənə həsrət qalmaq...**

Şəhriyar son nəfəsinədək vətəni düşünən, vətəni üçün çalışan, yazan, vuruşan adam idi. Şəhriyarın "Şəhriyar" olması elə onun şair olmamışdan öncə adam olmağında idi. Xoşginabda nənəsinin yanında, el adət-ənənəsini görməsində, dadmağında.

Şəhriyar həsrət adamı idi. Vətəninə həsrət. Görmək istədiyi doğma torpağı, qucaqlamaq istədiyi dostları və bağrına basmaq istədiyi Azərbaycana həsrət…

*Könlüm quşu qanad çalmaz, sənsiz bir an, Azərbaycan!*
*Xoş günlərin getməz müdam xəyalımdan, Azərbaycan!*

*Səndən uzaq düşsəm də mən, eşqin ilə yaşayıram,*
*Yaralanmış qəlbim kimi, qəlbi viran Azərbaycan!*

*Bütün dünya bilir sənin qüdrətinlə, dövlətinlə*
*Abad olub, azad olub, mülkü-İran, Azərbaycan*

*Bisütuni-İnqilabda Şirin-vətən üçün Fərhad*
*Külüng vurmuş öz başına zaman-zaman, Azərbaycan!*

*Vətən eşqi məktəbində can verməyi öyrənmişik*
*Ustadımız demiş, "heçdir vətənsiz can", Azərbaycan!*

*Qurtarmaqçün zalımların əlindən Rey şümşadını*
*Öz şümşadın başdan-başa olub al-qan, Azərbaycan!*

*Ya rəbb, nədir bir bu qədər ürəkləri qan etməyin?*
*Qolubağlı qalacaqdır nə vaxtacan, Azərbaycan?*

*İgidlərin İran üçün şəhid olmuş, əvəzində*
*Dərd almısan, qəm almısan sən İrandan, Azərbaycan!*

*Övladların nə vaxtadək tərki-Vətən olacaqdır*
*Əl-ələ ver! Üsyan eylə! Oyan! Oyan! Azərbaycan!*

*Yetər fəraq odlarından kül ələndi başımıza*
*Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!*

*Şəhriyarın ürəyi də səninki tək yaralıdır*
*Azadlıqdır sənə məlhəm, mənə dərman, Azərbaycan!*

## Almas İldırım

*Aç qoynunu, uzaqdan gəlmişəm, çox yaslıyam*
*Eli, yurdu çalınmış bir qərib Qafqazlıyam.*

Deyərək sığınır qardaşlarının qoynuna, qərib şair…

Vətənindən didərgin edilmiş, səsi kəsdirilməyə, nəfəsi boğdurulmağa çalışılmış Almas İldırım…

Qələmindən axan mürəkkəbdən daha çox gözlərdən axan yaşlar qaralırdı vərəqlərdə…

Ürəyinin tab gətirib yazdıqlarından, yaza bildiklərindən daha çox axan göz yaşlarına qarışmış, göz yaşlarıyla islanmış şeirləri var Almas İldırımın…

Onları bir gölcük bilir, bir də o tənha, səssiz və kimsəsiz gecələr…

Almas İldırım doğrudan da Azərbaycan ədəbiyyatına, Türk ədəbiyyat və dünyasına bəxş edilmiş ən dəyərli almazlardan da dəyərlidir. Qiymətli yox, dəyərli…

Biri dünyada yazılmış ən gözəl şeirləri, ən möhtəşəm romanları yaza bilər, oxuyanda tükləri biz-biz edən tərənnümlər seçə bilər, bir göz qırpımında oxuya biləcəyiniz hadisələr ardıcıllığı qura bilər. Amma içində yaşadığı torpağa sevgi yoxdursa və o sevgidən yanıb tutuşmursa nə çarə…

Sözlər dildən çıxarkən ürək silkələnmirsə, yerində sakitcə durursa, partlamağa çalışmırsa…

Sözlər dildən çıxarkən gözlər qızarmırsa, qaralmırsa, yaşarmırsa və o damcılar gözün içində axmağa çabalamırsa…

Sözlər dildən çıxarkən “daha sürətli əs ey külək, daha sürətli qovuşum torpağıma, qovuşum yurduma, qovuşum anama”,- demirsə…

Sözlər dildən çıxarkən ayaqlar yerdə sabit, sakit dayanırsa, o sözlərin nəriltisindən əsmirsə…

Sözlər dildən çıxarkən o bədən, o sözlər çıxan vücud titrəmirsə…

Nə fayda…

Məhz vətən həsrətiylə qovrulan Almas İldırımın şeirləri beləydi.

Almas İldırım balaca uşaq kimiydi…

Anasından bir az uzaq qalanda bağrı yarılan, ana deyə-deyə zar-zar ağlayan bir uşaq kimi…

Almas İldırımın böyüklüyü, Almas İldırımın dəyərliliyi onun yazdığı şeirlərində, misralarında, sözlərində deyildi.

Almas İldırımın böyüklüyü, Almas İldırımın dəyərliliyi onun balaca bir uşaq kimi anasını, vətənini sevməsindədir.

Sevgisindən məcnuna dönməsində, yol verin, yol verin yurduma gedim deyə-deyə məcnuna dönməsindədir.

*Toxunma, toxunma, dərdlidir başım,*
*Burax, öz yarama dərman edəm mən.*
*Uzaqda qaldıqca torpağım, daşım,*
*Cənnət olsa bu dünyayı nedəm mən?..*
*Mənim imanım bir, eşqim, özüm bir,*
*Bir çeşmədən axdım, qaynar gözüm bir,*
*Türk oğlu Türkəm mən, mərdəm, sözüm bir,*
*Yol ver, yol ver, öz yurduma gedəm mən.*

## İldırım təxəllüsünü necə seçdi?

Almas İldırım 1907-ci il mart ayının 25-də Bakının Qala kəndində Əbdülməhəmməd və Nisə xanımın ilk övladları olaraq dünyaya göz açır. Ondan sonra Sona və Ziba adlı iki bacısı, Əbdüləli, Məhəmmədəli və Heydər adlı iki qardaşı da doğulur. Hansı ki, heç bir günahları olmadığı halda sadəcə Almas İldırımın qohumu, qardaşı, bacısı olduqlarına görə təhqir ediləcək, alçaldılacaq, işgəncələr görəcək, sürgün ediləcəkdilər. Almas İldırımın adı Əbülhəsən qoyulur. Bu onun babasının adı idi. Gənclik çağlarında ədəbi çevrələrə, xüsusən Ədəbiyyat Cəmiyyətinə daxil olarkən adını İldırım, soyadını isə Almaszadə kimi yazdırır. O dünyaya göz açarkən Bakıda güclü külək əsir, bərk yağış yağır, şiddətli ildırım çaxırdı. Əbülhəsən də dünyaya gəlişinin xəbərçisi olan ildırımı elə ad olaraq seçir. Türkiyəyə mühacirət edərkən adını Yıldırım, soyadını Elmas kimi yazdırır. Elazığda qeydiyyat sənədlərində ad və soyadı Elmas Yıldırım, atasının adı isə Mehmet kimi qeyd edilir. Azərbaycanda nəşr edilən kitabında adı Almazsadə Yıldırım, Türkiyədə nəşr edilən kitabında isə Elmas Yıldırım olaraq göstərilir.

Almas İldırımın ailəsi dövrünə görə zəngin hesab olunurdu. Qala kəndində böyük tarlaları, mal-qara, qoyun sürüləri, Çəmbərəkənddə müxtəlif iş yerləri, Şüvəlanda bağ-bağçaları, ticarətxanaları və ən əsası Almasın çox sevdiyi, həyatında xüsusi yeri olan Xəzər dənizinin sahilində yük gəmiləri vardı. 1913-cü ildə atası Əbdülməhəmməd Bakının yaxınlığına Şüvəlana, daha sonra isə Çəmbərəkəndə (indiki Lermontov küçəsi) köçür.

İlk təhsilini ailəsindən alır. Ailənin ilk göz ağrısı, böyük övladı olduğu üçün onlara kömək edərkən kəndin əziyyətlərini, kəndlinin zəhmətini görməklə yanaşı, saflığı, təmizliyi, ülviliyi, səmimiliyi, təbiiliyi, mehribanlığı görür. Kəndin bir ucundan o biri ucuna qaçarkən, əllərini açıb qışqırarkən, dərindən nəfəs alarkən azadlığın qoxusunu hiss edir.

Ailəsindən ədəb-ərkan, kəndindən insanlıq dərsi davam edərkən artıq elmi-nəzəri biliklərə yiyələnməyə başlamağın vaxtı gəlir. Burada da olduqca diqqəti cəlb edən bir hadisə var. Belə ki, Almas 1914-1915-ci illərdə Cənubi Azərbaycandan Bakıda işləməyə gələn fəhlələrin övladlarının dərs aldığı "İttihad" məktəbində oxumağa başlayır. Sanki zaman irəlilədikcə həyat ona ağrıları göstərməyə çalışır. "İttihad" məktəbində fars dilini öyrənir. İlk şeirini - "Qaldı" rədifli qoşmasını burada oxuyarkən yazır.

*Səndən ayrılalı tutuldum yasa,*
*Bu xəstə könlümdə nalələr qaldı.*
*Gözlərim yaşardı buludlar kimi,*
*Sarışın çöhrəmdə jalələr qaldı.*

*Fələk varlığımı gənc ikən əzdi,*
*Qəlbimdə ələmlər, acılar gəzdi,*
*Əməl qönçəsini yad əllər üzdü,*
*Yerində yıpranmış lalələr qaldı.*

## Əhməd Cavad və Hüseyn Cavidin təsiri

XIX əsrin ortalarından etibarən Azərbaycanda ədəbiyyat çiçəklənməyə, klassik dövrünü yenidən yaşamağa başlayır. XX əsrin ortalarına qədər davam edən prosesdə böyük məktəblər yaranır, nəsrimiz bar verərkən, poeziyamız yenidən qızıl dövrünü yaşamağa başlayır. Almas İldırımın uşaqlığı məhz bu məktəblərdə, bu ədəbi dərnəklərdə, ocaqlarda keçir. 1919-cu ildə Seyid Hüseynin qurduğu "Yaşıl qələmlər" dərnəyinə qoşulur, fəal üzvlərindən birinə çevrilir. Dərnəyin divar qəzeti olan "Yaşıl yarpaq"da şeirləri çap edilir. Almas İldırım burda özünə Mikayıl Müşfiq kimi dost və yoldaş da qazanır. 1922-ci ildə Əhməd Cavad və Hüseyn Cavidin səyləri nəticəsində yaradılan, Azərbaycan Cümhuriyyəti süqut etdikdən sonra sosialistlər tərəfindən təqib edildiyi, izlənildiyi üçün gizli fəaliyyət göstərən "Yaşıl yarpaq" dərnəklərinə qoşulur, fəal üzvlərindən birinə çevrilir. "İttihad"ı

bitirdikdən sonra isə 1925-ci ildə Abdulla Şaiqin "Nümunə" məktəbində təhsilinə davam edir. Abdulla Şaiq, Qafur Əfəndiyev, Qantəmir, Seyid Hüseyn Tağızadə kimi Azərbaycan nəsr və nəzminin ustalarından dərs alır.

1927-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqsünaslıq fakültəsinin ədəbiyyat ixtisasına qəbul olunur. Tələbə vaxtlarında Azərbaycan Ədəbiyyatı Cəmiyyətinə, sonra isə Kitab Dostları Cəmiyyətinə daxil olur. Mirzə Ələkbər Sabir adına Dövlət Kitabxanasında tez-tez ədəbi məclislər təşkil edilir, müzakirələr aparılır. Bu cəmiyyətlər Almas İldırımın püxtələşməsində, ələlxüsus kimin yanında durmağına qərar verməsində əhəmiyyət kəsb edirdi. Belə ki, Süleyman Rüstəm, Məmməd Rahim, Seyid Hüseyn, Zərbəli Hafiz, Hüseyn Namiq, Mikayıl Müşfiq və bir çox şair və yazıçıların iştirak etdiyi dərnəklərdə milliyyətçilər, turançılar, kommunistlər, sosialistlər qrupları yaranırdı. 1928-ci ildə Sovetlər ayrı-ayrılıqda cəmiyyətlərə nəzarət çətin olduğuna görə bu cəmiyyətləri daha asan idarə etmək üçün birləşdirir və Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti yaradılır. Əgər əvvəlki cəmiyyət və dərnəklər şairlər, yazıçılar, ədəbiyyat nümayəndələri, ictimai xadimlər tərəfindən yaradılır və idarə olunurdusa, Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti Sovetin məqsədli şəkildə hazırladığı, xüsusi seçdiyi insanlar tərəfindən idarə edilirdi. Təşkilat ədəbi müstəvidən daha çox siyasi sferaya hədəflənmişdi, siyasi məqsədlər güdürdü. Yazıçılara qarşı senzura tətbiq edilir, sifarişlə rejimi tərənnüm edən yazılar tələb edilirdi. Əbədiyyatla əlaqəsi olan hər kəs məcbur üzv edilirdi. Almas İldırım da özü istəməsə də, cəmiyyətə üzv olmaq məcburiyyətində qalır.

### Əyyubi: *"Almas kimilərinin başları sovet çəkici ilə əzilməlidir".*

Ancaq Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti onun həyatını, demək olar ki, alt-üst edir. Özünün də dediyi kimi, demək olar ki, hər sözü incələnir, fərqli mənalar çıxarılmağa çalışılır. Al-

mas İldırımın adı qara siyahıya salınır. O, rejimi tərənnüm edən şeirlər yazmır, Hüseyn Cavid və Əhməd Cavad başda olmaqla millətçi adlandırılan şair və yazıçılarla dostluq edir, tez-tez qardaş Türkiyəni örnək göstərir, ordakı şairlərlə sıx münasibəti, onlara şeir həsr etməsi Almasın casuslar tərəfindən izlənməsinə, daimi nəzarətdə qalmasına gətirib çıxardır. Məsələn, Almas İldırım cəmiyyətdə çıxış edərkən Türkiyəni örnək verərək latın əlifbasına keçmənin zəruriliyini, həmçinin latın əlifbasına keçilməməsinin gələcəkdə fəsad törədəcəyini vurğulayır. Azərbaycan Ali Sovetinin sədri Səməd Ağamalıoğlunun dil islahatı haqqında pafoslu və ərəb əlifbasını tənqidi çıxışından sonra Almas İldırım ona qarşı şərt şəkildə çıxış edir: *"Bunun dediklərinə qulaq asmayın, aldanmayın. Bu, sizi kiril əlifbasına, rus əlifbasına aparır. Əvvəlcə keçici olaraq latın və sonra həmişəlik rus. Qulaq asmayın buna!".* Təbii ki, Almas təqib edildiyini bilirdi. Ancaq o türk dövlətlərinin hər birinin ayrı əlifbasının olmasını, bir-birilərinin yazdıqlarını oxuya bilməməsini həzm edə bilməzdi.

*Xəzan pəncərəsindən saralan güllər,*
*Şübhəsiz, şənlənib güləcək yarın.*
*Həsrətlə çırpınan xəstə könüllər,*
*Pək dadlı nəşələr sürəcək yarın.*

*Qırılacaq kirli, dəmir qəfəslər,*
*Daha gəlməyəcək o yanıq səslər,*
*Qaranlıqlardakı inləyən kəslər*
*Yaşlı gözlərini siləcək yarın.*

*Şərqə hökm edərkən qabarlı əllər*
*Xonçalar verəcək soluq əməllər,*
*Bir şənlik görməyən o ıssız ellər*
*Səadət nə imiş biləcək yarın.*

Almas İldırımın cəsarətli çıxışları artıq rejimi narahat etməyə başlayır. Mətbu orqanlarda, elmi-ədəbi məclislərdə ona qarşı

çıxışlar hazırlanır. Proletar şair və yazıçılar Alması hər fürsətdə tənqid edirlər. Onun hətta “Vahid Türküstan”, “Vahid Cağatay” adlı dövlət qurmaq istədiyi ilə bağlı fikirlər səsləndirir, müsavatçılıqda ittihan edərək sürgün ərmini yazdırırdılar. İstanbulda “Həyat” dərgisində “A dağlar” şeirinin nəşr edilməsi Almasın Türkiyə sevdasını ifşa üçün dəlil göstərilir.

Əkbər Ruhi: *“Yazıçılar arasında müsavatçılara aşiq və Türkiyə çavuşlarının həqiqi şagirdi bulunanlar arasında Almas İldırımın da olması meydana çıxmışdır. Bunlar Əhməd Cavad və Hüseyn Cavidin yolçularıdır. Milli ədəbiyyat yaratmaq məqsədiylə qəmli mərsiyələr yazan bu kimi gənc şairlərdən ədəbiyyatımızı təmizləməliyik”.*

Əsəd Əyyubi: *“Almas kimilərinin başları sovet çəkici ilə əzilməlidir.”*

## Almas İldırım vətənindən sürgün edilməlidir

Bununla da qəlbi Azərbaycan deyə döyünən şair 1929-cu ildə Dərbəndə sürgün edilir. O isə sürgündə olduğu müddətdə də yazmaqdan çəkinmir. Doğrudur, mətnlərində açıq-aşkar siyasi fikirlər görünməsə də sözlərinə diqqətlə nəzər yetirəndə soveti tənqidi və vətəninə olan bağlılığı, onu azad, hürr görmə istəyi sezilir. Almas İldırım Azərbaycandakı kimi burda da izlənilirdi. Məcbur olaraq Dağıstan Proletar Yazıçılar Cəmiyyətinə üzv olur. Xoşbəxtlikdən burda “Dağıstan füqərası” qəzetinin redaktoru Məhəmmədkazım Ələkbərli ilə dostluq münasibəti qurur və onun köməyi ilə qəzetin müxbiri işləyir. Həmçinin qəzetdə şeirlərini nəşr etdirir. İşlədiyi müddətdə müxtəlif bölgələrə səfər edir, oraların adət-ənənələri ilə tanış olur, yerlilərlə dostluq münasibəti qurur. Qısa zamanda Almas İldırımın xüsusilə gənclər tərəfindən sevilməsi sovet rəhbərlərini narahat edir və Bakıya gətirdilir. Məhəmməd Səid Ordubadi 1930-cu ildə onun “Dağlar səslənirkən” adlı şeir kitabını Bakıda nəşr etdirir. Kitabın nəşrindən sonra tənqidi fikirlər daha da alovlanır. Dağlardan, təpələrdən, bir sözlə yurdundan yazdığına görə günahlandırılır

və kitab qadağan edilərək satışdan yığışdırılır. Bundan sonra Almasın Aşqabada sürgün edilməsinə qərar verilir. Sürgünlərin davam edəcəyini, çətin, ağrılı-əzablı həyatın onu gözlədiyini bilir, amma taleyindən şikayətlənmirdi. Aşqabada gedərkən yola salmağa gələn dostlarından Mikayıl Müşfiqə belə deyir: *"Bunların məqsədi mənə indi aydın olur. Yəqin hər dəfə bir türk məmləkətinə göndərməklə Böyük Türküstanımızı mənə qarış-qarış gəzdirmək istəyirlər"*. Və Almas Azərbaycanla, Bakıyla, Xəzərlə vidalaşır. Bir daha torpağının, yurdunun havasını içinə çəkməmək üzrə vidalaşır.

Aşqabadda Türküstandan və Azərbaycandan sürgün edilənlərin uşaqlarının oxuduğu məktəbdə müəllim işləməklə yanaşı, "Zəhmət" qəzetiylə də əməkdaşlıq edir. Şeirləri "Zəhmət qəzetində" yayınlanır, Aşqabad radiosunda səsləndirilir. 1932-ci ildə ailəsi Şamaxıdan sürgün edilən Zivər xanımla evlənir. Almasın şeirləri Aşqabadda böyük rəğbət görür. Sürgün edildiyi hər yerdə sevilməsi Moskvanı narahat edir və onun fəaliyyətini izləmək, mərkəzə birbaşa məlumat vermək üçün Əkbər Ruhi göndərilir. O, əvvəlcə Aşqabad Dövlət Pedaqoji İnstitutunda müəllim kimi işləməyə başlayır. Beləliklə, həm Aşqabadda nüfuz qazanmaq, həm də ədəbi mühitlə qaynaşmaq istəyir. Daha sonra isə Almasın da əsərlərini nəşr etdirdiyi "Zəhmət" qəzeti və Aşqabad radiosunda tənqidi yazılarla çıxışlar edir. O, "Almas İldırımın yaradıcılığı" başlıqlı məqaləsində yazır:

*"Almas, … Müsavat Firqəsinin ən irəlidə olan və bizə dəfələrlə Müsavat cəbhəsindən hücuma keçən əks-inqilabçı şairdir. Cavadçı , müsavatçı gənc şair kimi tanınmış və son günlərə qədər də "Gənc İşçi" qəzetində söyülməkdədir… O istəsə və keçmişindən əl çəkərsə, gələcəkdə bizimlə birlikdə işləyə biləcəkdir. Əks halda zərbələrimizə dözməlidir. Almas son və qəti sözünü mətbuat vasitəsi ilə bizə deməlidir… Almasın eli haradır? Bu el Müsavatdır. Bu el Kamalçılar Türkiyəsidir".*

## “Sovet casusu” adlandırılması

Getdikcə basqılar artırdı. Almas İldırım rejimi tərənnüm edən şeirlər yazmalıydı. Əks halda yeni sürgün yolu görünəcəkdi. Bu yol böyük ehtimalla Sibir yolu olacaqdı. Ancaq o, fərqli bir yol seçir. Sibirdə həsrət çəkməkdənsə, orda ölməkdənsə Türkiyəyə mühacirət etməyə qərar verir. Həmçinin Əhməd Cavad da Almasa məktub yazaraq Aşqabadda qalarsa həbs ediləcəyini demişdi. Vətən həsrəti çəkib gözləri yaşaranda qardaşları əlini çiyninə qoyub ürək-dirək verər, şeirlərini bəzəyən o Qafqaz dağlarını, sahilində dərdlərini danışaraq misralarını yazdıran Xəzəri xatırladan, yurdu qədər sevdiyi torpaqda bir balaca təpəyə, bil balaca gölə baxaraq təsəlli tapar deyə düşünür. Yol uzun və əzablı olsa da, tutulma, işgəncələrə məruz qalma ehtimalı olsa da qərarı qəti olur. 1933-cü ilin iyununda yenicə dünyaya gələn körpə Azəri də qoyunlarına alaraq, Qafqaz havasını sonuncu dəfə qoxulayaraq, gözlərini sonuncu dəfə ətrafa gəzdirərək, o gözəlliyi sonuncu dəfə hafizələrinə həkk edərək bir dəvə karvanı ilə yola düşürlər. Bir neçə gündən sonra karvandan ayrılırlar. Yolun əzabı, ağrısı, dərdi başlayır, günlərlə yeməyə, içməyə bir şey tapmırlar. Talelərinin necə olacağını bilmədikləri üçün bir anlıq ən azından Azər yaşasın deyə yola onsuz davam etmək istəyirlər, lakin bir neçə addımdan sonra qayıdaraq Azəri götürürlər. Çölün ortasında tək başlarına qalmışdılar. Heç kimə güvənmək olmazdı, yoxsa ya işgəncələr edilərək öldürüləcək, ya da yenidən hər biri ayrı-ayrı yerlərə sürgün ediləcəkdilər.

Ancaq yol boyu möcüzəvi bir hadisə baş verir. Zivər xanım o anları belə xatırlayır:

*“Səhrada azmışdıq. Ancaq ümid edirdik ki, kimsə bizi bu səhrada xilas edəcək. Lap əldən düşmüşdük, təpələrin birinin üstündə ağ parıltılı, qoca bir atlı göründü. O, bizə doğrudan da yol göstərdi. Hara getməli olduğumuzu başa saldı, sonra da gözdən itdi”.*

Birtəhər İran sərhədinə keçirlər. Rahat olacaqlarını fikirləşirlər, amma sərhəd məmurları sərhədi keçdiklərinə görə onları həbs edir. Almasın casus olduğunu düşünürlər və ona “Stalinin adamı, Sovet casusu” deyə 25 gün ağır işgəncə verilir, günlərlə soyuq suda saxlanılır. Stalini, soveti tərənnüm etməmək üçün yurdundan çıxmağa məcbur olan Alması, verilən işgəncədən çox sovet casusu ittihamı incidirdi. Verilən işgəncələr sağlamlığında ciddi problemlər yaradır və ömrünə sonunacan onu narahat edir. Casus olmadığı xəbəri Tehrandan gəldikdən sonra Alması sərbəst buraxırlar. İranda heç kimi tanımırdı. Gedəcəyi, döyəcəyi qapı yox idi. Bir müddət fəhlə işləyərək ailəsinə baxır. Daha sonra Məşhədə gedirlər. Burdan Türkiyəyə keçməyin yollarını axtararkən yeddi aya qədər İranda yaşayırlar. Məşhəddə xoşbəxtlikdən Türküstandan bir mühacir kişi Almasa yardım edir. Səhhəti yaxşılaşır, ailə xərcləri qarşılanır.

1934-cü ildə Türkiyənin Van şəhərinə sığınaraq rahat nəfəs ala bilirlər. Bir neçə gün Vanda qaldıqdan sonra Elazığa köçür. Elə bir il, 1935-ci ilə qədər Palu qəsəbəsinə bağlı Karaca Bucağı (Karacabağ) ibtidai məktəbində müəllim işləyir. 1936-cı ildə Palunun Karaçor nahiyəsində müəllim, 1940-cı ildə Karabeg nahiyəsində müdir, 1946-cı ilə kimi isə Elazığın mərkəzində və bölgələrində müxtəlif vəzifələrdə, 1951-ci ildən Tuncelinin Nazimiyə qəsəbəsində, daha sonra isə ömrünün sonunadək Malatyanın Qala bucağı müdirliyində işləyir. Elazığ Almasın ikinci vətəni, ikinci Bakısı olur. Yaddaşındakı Bakının surətini Elazığa köçürür. Ədəbi fəaliyyətinə davam edir. 1936-cı ildə İstanbulda “Boğulmayan bir səs” adlı kitabı yayımlanır. Yazıları “Çinaraltı”, “Orxun”, “Gökbörü”, “Bozqurd”, “Kommunizmlə mücadilə”, Berlində fəaliyyət göstərən “Kurtuluş” və bir sıra qəzet və dərgilərdə dərc edilir. 1947-ci ildə Almas İldırım Azərbaycanda eşitdiyi, duyduğu bayatıları bir-bir toplayaraq “Azerbaycan manileri” adı altında nəşr etdirir. Eyni il isə kitab “Bayatılar” adı ilə çap edilir.

Yaşadığı sıxıntılar Almasın Türkiyədə də mübarizəsinə davam etməsinə mane olmur. Əksinə, daha çox çalışır. Məhəmməd Əmin Rəsulzadənin tərəfində yer alır, onun ideya və planlarını dəstəkləyir. Elazığda olmasına baxmayaraq, daim müsavatçılarla, xüsusilə Mirzə Bala Məmmədzadəylə məktublaşır. Onun gözləri yolda, qulaqları səsdə idi. Ankaradan gələcək bir səs, bir soraq. Necə ki, ikinci dünya müharibəsi zamanı SSRİ-nin dağılacağını gözlədiyini kimi. Hətta ailəsini Ramiz Ardaya əmanət qoyub gedəcəyi, Rusiya parçalansa və Azərbaycan müstəqilliyinə qovuşsa mülkünün yarısını ona verəcəyini deyir.

*“Rusiya parçalanır. Almaniyada, İstanbulda, İranda olan Azərbaycan türkləri hərəkətə keçdilər, hamımız birlikdə Rusiyaya sızaraq yurdumuza gedəcəyik. Almanların hərəkətlərini tətbiq edəcək və daxildən çalışaraq müstəqil Türk yurdları qurularkən işin başında olacağıq. Mən bu gün-sabah İstanbuldakı təşkilatımızdan bir məktub gözləyirəm”.*

Almasla Zivər xanımın Türkiyədə Aras, Odkan, Bakühan adlı üç oğlu, Eldəgəz və Yurdavər adlı iki qızı dünyaya gəlir. Övladlarının adlarına nəzər yetirəndə onun vətən sevgisi, yurd həsrəti adamı qəhərləndirir. Şair əkiz qızları Eldəgəz və Yurdavəri bir gündəcə itirir, bu azmış kimi Bakıdan da yaxşı xəbərlər gəlmirdi. 1939-cu ildə anası vəfat edir. Ailəsi Almasla məktublaşdığına görə işgəncələrə məruz qalır. 1941-ci ildə bütün ailə üzvləri altmış gün Nargin adasına sürgün edilir. Bacısı Sona xanım bir yolla şairə məktub yazaraq ailə üzvlərinin öldürüldüyünü, heç kiminin qalmadığını, məktub yazmağa davam edərsə sovet casuslarının əllərinə keçəcəyini və geridə qalanların da öldürüləcəyini deyir. Təhqir edilən, alçaldılmağa çalışılan təkcə Almas deyildi, ailəsi də hər fürsətdə təhqir edilirdi. Bir nəfərin küçələrin birində Sona xanıma “satqının bacısı” deməsi onu sarsır və ömrünün sonunacan əsəbdən keçirdiyi narahatlıq səbəbiylə xəstə halda yaşayır. Yurduna bu qədər aşiq olan, Tükiyədə yaşadığı müddətdə bir yerdə oturmayan, vətəni üçün bir şeylər etməyə çabalayan

Almas İldırıma, Tükiyədə Azərbaycandan köçmüş nənə-babaları bir-bir dinləyərək bayatıları toplayan, bir kitab halına gətirərək gələcək nəsillərə ötürməyə çalışan Almas İldırıma satqın deyilməsi nə qədər acıdır. Təəssüf…

*Əzizim vətən sarı,*
*Yol gedər vətən sarı,*
*Çıxaydım dağ başına,*
*Baxaydım vətən sarı…*

*"…bayatıları toplayarkən qürbətin qəhri üzündən saçları ağarmış, zavallı bir azəri anasının yaşlı gözlərini məchul bir nöqtəyə dikərək söylədiyi bir bayatını yazdıqdan sonra o da, mən də susdum. Susmaq da başqa bir cür fəryaddır…"*

## Türkiyədə bəzi yerlərin adını Azərbaycanla bağlı adlandırması

Almas İldırım hər zaman vətənini düşünür, vətənini dərd edirdi. Müdir və idarə işlərində çalışsa da, onun kövrəkliyi həm həmkarları, həm də şagirdlər tərəfindən sezilir, təəccübə səbəb olurdu. Almasın kövrəkliyi yurdundan ayrı düşməsi idi. Oğlu Azər Almas atasının kədərini dindirməsi üçün çabalarını belə xatırlayır:

*"…1940-cı illərdə atama çoxlu təhdidlər gəlirdi. Amma o, heç vaxt geri çəkilmədi. Elazığ dağına, daşına "Azərbaycan" yazırdı. Elazığda Gölcük adlı bir göl vardı. Atam daha sonra Mustafa Kamal Atatürkə məktub yazdı və gölün adını dəyişib Xəzər qoydular. Elazığda "Xan köyü" adlı bir kənd vardı. Oranın adını dəyişdirib, Xankəndi qoydurdu. Həmişə Azərbaycanı düşünürdü. Ona görə də Türkiyədə atamı sevib hörmət edirdilər. Bizim indi Türkiyədə həm Xankəndimiz, həm də Xəzərimiz var… Atamın danışdığını, güldüyünü heç vaxt görmədim. O, susmuş heykəl kmi bir adam idi… Daimi gözlərini bir yerə zilləyib, nəsə fikirləşirdi".*

## Həsrətli köçüş

Almas İldırım təkcə Azərbaycan şairi olmadı. Turanın, Türküstanın, Türkiyənin şairi oldu. Elağızın, Malatyanın şairi…

Azərbaycanın, Bakının Qalasında dünyaya göz açan Almas Türkiyənin, Malatyanın Qalasında gözlərini yumur.

Dilimizdə "bağrı yanmaq", "bağrı yarılmaq" deyimləri var. Bunlar sanki Almas İldırım üçün yaranıb. Dildən çıxıb Almasın üstünə hopub.

Almasın Azərbaycandan didərgin salınanda bağrı yandı. Sürgünlərdə yanan bağrı hər gün bir az-bir az yarıldı. Dinmədi, sönmədi. Həsrətin külləri indi Azərbaycan üstündə o yana-bu yana tələsə-tələsə şütüyür.

Almasın miras qoyduğu misralar Azərbaycanı tərənnümləri ilə bəzəyir. Onun vurduğu saf bəzəklər heç bir ləkə götürməz. Sevgiyə yapışmayan ləkə kimi…

Almas İldırımın Azərbaycan sevgisi bax budur!..

# NURƏDDİN TOPÇU

Nurəddin Topçu 7 noyabr 1909-cu ildə İstanbulun Süleymaniyə səmtində, ərzurumlu bir ailədə dünyaya gəldi. İlkin qeydiyyatlarda adı "Osman Nuri" deyə keçirdi. Babası Osman əfəndi Ərzurumun ruslar tərəfindən işğalı vaxtı orduda topçu idi. Buna görə də onlara "Topçuzadələr" deyirdilər. Ailədən İstanbula ilk məskunlaşan atası Əhməd əfəndi vaxtilə Ərzurumda taxıl alqı-satqısı və heyvan ticarəti ilə məşğul olmuş, İstanbula gələndə Çəmbərlitaşda qəssab dükanı açmışdı. Anası Fatma xanım Eğinli (indiki Kəmaliyə) idi. Nurəddinin uşaqlıq illəri Süleymaniyədə və I Dünya Müharibəsi illərində köçdükləri Çəmbərlitaşda keçdi. Böyük Rəşid Paşa Nümunə məktəbini 1922-ci ildə bitirdi. O illərdə kiçik bir sandığa kitab və qəzet nümunələri yığmağa maraq salmışdı. Məhməd Akifin bəzi şeirlərini tələbələrinə əzbərlədən türkcə müəllimi Nafiz bəy Nurəddin Topçuya həyatı boyunca davam edəcək Akif sevgisini aşıladı. Orta təhsilinə Vəfa İbadi məktəbində davam etdi. Birinci sinifdə ikən atasını itirdi. Məktəb təhsilinə davam edərkən İstanbul liseyində fəlsəfə ilə dərindən maraqlandı. 1928-ci ildə bu məktəbdən məzun oldu.

Avropada təhsil almaq məqsədi ilə girdiyi imtahanı keçərək Həmdi Akverdi, Vəhbi Eralp, Ziya Somar, Ənvər Ziya Karal kimi şəxsiyyətlərlə birlikdə Fransaya getdi. İlk əvvəl fransızca öyrənmək üçün Aix liseyinə alındı. Görüşlərini mənimsəyəcəyi və uzun müddət məktublaşacağı aksiyon (hərəkət) fəlsəfəsinin qurucusu Maurice Blondeli ilə burada tanış oldu. Bir müddət Aix fakültə-

sinə davam etdi. İki il sonra Strasburq Universitetinə keçərək fəlsəfə təhsili aldı, əxlaq kurslarını bitirdi, sənət tarixində magistr təhsili aldı. 1930-1933-cü illər arasında aldığı sertifikatlar belə qeyd olunur: psixologiya və gözəl sənətlər, ümumi fəlsəfə və məntiq, müasir sənət tarixi, ictimai əxlaq, ibtidai sənət və arxeologiya.

Strasburqda əxlaq fəlsəfəsi ilə əlaqəli hazırladığı elmi işi Sorbon Universitetinə gedərək müdafiə etdi və müfəvvəqiyyət qazandı (2 iyul 1934). Təhsil məqsədi ilə Avropaya gedən türklər arasında əxlaq sahəsinə yönələn ilk tələbə və Sorbonda fəlsəfə üzrə elmlər namizədi ünvanı alan ilk türk Nurəddin Topçudur. Elmi işini bitirdikdən sonra Fransada qalması təklif olunsa da, bunu qəbul etməyib 1934-cü ilin yayında Türkiyəyə qayıtdı və Qalatasaray liseyində fəlsəfə müəllimi kimi işə başladı (29 sentyabr 1934), sosiologiya dərsləri verdi. Həmin illərdə ata dostu Hüseyin Avni Ulaşın qızı Fəthiyə xanımla evləndi, lakin bu evlilik iki il davam etdi. Liseyin müdiri Behçet Gücerin bəzi tələbələrə qiymət yazması tələbini rədd etdiyi üçün toy günündə işinə son verildi və təyinatı dəyişdirilərək İzmir liseyinə fəlsəfə müəllimi göndərildi.

İzmirdə işlədiyi illərdə "Hərəkət" adlı jurnalı nəşr etməyə başladı (fevral 1939). Jurnalın 4-cü nömrəsində nəşr edilən və cümhuriyyəti quran heyəti tənqid etdiyi iddia edilən "Çalğıçılar" adlı yazısı səbəbi ilə bir daha təyinatı dəyişdirildi və İstanbul Vəfa liseyinə göndərildi (29 sentyabr 1939). Burada dörd il işlədikdən sonra Dənizli İnönü liseyinə göndərildi (20 oktyabr 1943). Nəhayət, 4 oktyabr 1944-cü il tarixində İstanbul Erkek liseyinə nəql edilməsi ilə on illik sürgün həyatına son verildi. Bundan sonra Vəfa və Haydarpaşa liseylərindəki əlavə dərsləri xaric, təqaüdə çıxana qədər on səkkiz il burada işlədi. Bunun yanında, Berqsonla əlaqəli dissertasiyası ilə "fəlsəfə dossenti" ünvanını alsa da, İstanbul Universitetinin Ədəbiyyat fakültəsi öz qaydalarını əsas göstərərək onu müəllim heyətinə qəbul etmədi. Təkcə bir müddət Hilmi Ziya

Ülkənin kürsüsündə əxlaq dərsləri verdi. Bundan başqa, Robert kollecində tarix (1946-1961), İstanbul imam-xətib məktəbində psixologiya, fəlsəfə, din psixologiyası və dinlər tarixi (1955-1960) dərslərinə girdi. 1960-cı ildə baş verən hərbi çevrilişdən sonra bu əlavə dərslərinə son verildi. 20 noyabr 1974-cü ildə təqaüdə ayrıldı. Qısa müddətli xəstəliyindən sonra 10 iyul 1975-ci il tarixində vəfat etdi. Ertəsi gün Fateh camesində cənazə namazı qılındı və Topqapı Kozlu qəbiristanlığında dəfn edildi.

Fransadan qayıtdıqdan sonra uşaqlıq dostu Sırrı Tüzeer vasitəsi ilə Nəqşi şeyxi Hasib əfəndi və Əbdüləziz Bekkine əfəndi ilə tanış olan Topçu, həyatı boyunca təsirlənəcəyi Əbdüləziz əfəndiyə intisab etmişdi (mənəvi tələbəsi oldu). Nurəddin Topçunun coğrafiya olaraq Anadolunu, tarix və mədəniyyət olaraq Səlcuqlu-Osmanlı təcrübəsini əsas alan, buradan hərəkət edərək geniş və müəyyənedici dairə olan İslama və xüsusilə də təsəvvüfə yönələn, Qərb dünyasına və insanlıq təcrübəsinə uzanan hərtərəfli bir düşüncə dünyası vardır. Məsələlərə əxlaq perspektivindən yanaşır. Cümhuriyyət dövrünün türk fəlsəfəçiləri və ziyalıları arasında əxlaq mövzusunda ən çox yazı qələmə alan və bu sahədəki vurğularını həyatı boyunca davam etdirən müəllif Nurəddin Topçudur, yəqin ki. Özündən əvvəl başlamış olan Anadolu milliyyətçiliyini İslam əsasları ilə izah etməyə çalışmış, Turançılığı, irqçiliyi və İslamçılığı tənqid etmiş, modernizmin qatı mülahizələrinə boyun əymədən Qərb, Şərq və İslam mədəniyyətlərini müqayisəli bir şəkildə ələ almağa səy götərmişdir. Kapitalizm, kommunizm, sosializm, adət-ənənə və mədəniyyət, sənayeləşmə, güc və texnologiya məsələlərini böyük ölçüdə dövrünün yanaşmalarından fərqli bir üslub və möhtəva çərçivəsində müzakirə etmişdir. Türkiyənin kapitalist iqtisadi sistemə və əxlaq anlayışına, bunun sayəsində də Amerika heyranlığına doğru sürüklənməyə başladığı Demokrat Partiya iqtidarının ilk illərindən etibarən İslam/Anadolu sosializmi fikrini müdafiə etmiş, maarif, məktəb və din təhsili mövzularına

xüsusilə əhəmiyyət vermiş, bir hərəkət sevdalısı kimi yaşama zövqünü kənara ataraq yaşatma həyəcanına könül vermiş, həyatını səbirli, əzimli, göstərişdən uzaq, ruh cəbhəsinin "mədən işçiləri" sayılan idealist bir nəsil yetişdirməyə həsr etmişdir.

Əsərlərindən bəziləri bunlardır: "Türkiyənin maarif məsələsi" (1960, 1997), "Əxlaq nizamı" (1961, 1997), "Sabahın Türkiyəsi" (1961, 1997), "Böyük fəth" (1962, 1998), "Var olmaq" (1965, 1997), "İradə məsələsi" (1968), "Dövlət və demokratiya" (1969, 1998), "Kültür və mədəniyyət" (1970, 1998), "Məhməd Akif" (1970, 1998), "Milliyyətçiliyimizin əsasları" (1978), "Üsyan əxlaqı" (dissertasiya işi)[1].

## İş əxlaqı

Kimə namuslu adam deyirik? Namuslu adam namussuzluq etməyəndir? Namus insanın harasındadır, harada axtarmaq lazımdır? Pislik etməmək namuslu adam olmaq üçün kifayət deyil. Bunun üçün çəkinilməli işlərdən daha çox edilməli olan işlər var. Namusumuz hərəkətsizliyimizdə deyil, əksinə, bəzi hərəkətlərimizdə, hətta bütün hərəkətlərimizdə və hər şeydən əvvəl də hərəkət prinsipimizdə, davranış tərzimizdə axtarılmalıdır. Biz namuslu adamı hərətəklərindəki bu vəsflərlə tanıya bilərik:

1. Namuslu adam əlinin və iradəsinin yetdiyi qədər geniş sahədə hərəkət etməyi özünə vəzifə bilər. Hərəkətsizliyin günah olduğuna inanar.

2. Namuslu adam hərəkətinin öz daxilindəki dar çərçivəyə qısılıb qalmayacağına, bütün aləmə yayılaraq aləmin nizamını dəyişdirə biləcəyinə inanar.

3. Namuslu adam işi iş olduğu üçün sevər; əsərinin həyatını bir ağac kimi görər, bu həyatı özü yaşasa da, meyvələrini başqalarına verməkdən zövq alar.

1. İsmail Kara, "Nurettin Topçu", *D.İ.A.*, İstanbul 2012, c. 41, s. 248-253.

4. Namuslu adam hərəkətinin qayəsini təsbit etmədən əvvəl fikirləşər, çalışar və hərəkətə keçər.

5. Namuslu adam hərəkətlərinin indiki və gələcəkdəki bütün məsuliyyətlərini boynuna götürməkdən zövq alar; insan kimi yaşamağın daim daha ağır məsuliyyət altına girərək yaşamaq olduğuna inanar.

6. Namuslu adam öz hərəkətlərinin feyzinə inandığı üçün əxlaqın da bir gün mütləq zəfər qazanacağına inanar.

7. Namuslu adam fərdi həyatını bir ömürlük hərəkətlər silsiləsinin təcrübə mərhələsi olaraq qəbul edər; "çalışdım və həyatımı yaxşı işə sərf etdim" deyən fəzilətli insan kimi dünyaya gözlərini yumar.

Namuskarlığımızın ən böyük düşmənləri olan şöhrət və sərvəti, ehtiras və iqtidarı aciz buraxacaq, bu cəlbedici müsibətlər qarşısında diz çökdürəcək qüvvət ilahi mənbədən gələn bir hərəkət əxlaqının cəmiyyət nizamı halına gətirilməsi, əxlaq ilə iqtisadi həyatın şahanə bir ahəng içində yaşadılmasıdır.

Hərəkət əxlaqının təlqinlərindən və sonsuzluğa aparacaq hərəkətin sevgisindən uzaq yaşayan bir cəmiyyət işsizlərin cəmiyyətidir. Belə bir cəmiyyətdə insanlar istər ordu ilə fəth etsinlər və ya sərvətləri ilə dünyaya hakim olsunlar, yenə də səfil və bədbəxt bir şəkildə qayəsiz yaşamış olarlar. Zalımın zülmü öz ruhunu xilas edə bilmədiyi kimi, hərəkət sahəmizin kəmiyyət baxımından genişliyi də dünyamıza ən kiçik bir xeyir gətirə bilməz. Ünvanı sətirlərə sığmayan professor və ya saray adamı, sərkərdə, hüzurunda hər kəsin qorxub əyildiyi kabus adam, hətta bir dinin bütün əmr və qadağalarını beyninin hüceyrələrinə tək-tək həkk edərək gəzdirən, cənnət və cəhənnəm carçısı olan din adamı, bunların heç biri varlığının sirrinə vaqif olaraq ruhunun qurtuluşunu əldə etmiş deyildir. Ruhun qurtuluşu, həyatın qayəsi və əbədi nizamın

sirri hərəkətin kamal nöqtəsi olan bir an içində yaşanar və onun xaricində heç bir yerdə əldə edilə bilməz.[2]

## Keçmiş bitərsə, millət bitər

Şəxsiyyət insanın öz mənliyinin fərqində olması və ona bağlı bütün hərəkətlər üzərində hürriyyətə sahib olmasıdır. Mənliyimizin bağlı olduğu hərəkətlər, kökü o mənliyə bağlı olduğu halda, onu getdikcə genişləyən dairələr şəklində əhatə edən ailəyə, millətə, insanlığa və sonsuzluğa doğru qol-budaq atmışdır. Mənliyimizin əslini təşkil edən bu ruhi ünsürlər hal-hazırda yaşadıqlarımızdan ibarət deyil. Bizim xarakterimizi formalaşdıran və mənliyimizi meydana gətirən faktorlar hazırda yaşadığımız ruhi şəraitdən daha çox keçmişimizi meydana gətirən və hər tərəfdən gələrək bizim şəxsi tariximizə bağlanan keçmişimizə aid ruhi ünsürlərdir. Keçmişdən gələrək bugünkü halımızı hərəkətə keçirən bu ruh gücü malik olduğu sürət və təsir gücü nisbətində gələcəyimizi formalaşdırır. Ötən dövrdən gələrək gələcək üfüqlərə doğru nəhəng bir çay kimi axan keçmiş, bizim istiqbalımızın yaradıcısı olur.

Keçmiş dediyimiz bu ötən dövr bizim xarakterimizin sənətkarı, hətta şüurumuzun yaradıcısıdır. Keçmişin bitdiyi yerdə millət bitər, insan bitər, idrak bitər, sona çatar. Millət öz tarixindən ibarətdir. Onu tarixindən qoparsanız, yerində insan sürüsü qalar. İnsan həm özünün, həm millətinin, həm də bütün insanlığın tarixini əks etdirir. Fərdin özündə əks etdirdiyi və mənliyində yaşatdığı tarix nə qədər genişdirsə, onun şəxsiyyəti o qədər böyük, o nisbətdə güclü olar. Mənimsədiyi tarix nə qədər dardırsa, şəxsiyyəti də o qədər kiçik və zəif olar. Buna görə də, keçmiş zamana aid xatirələrlə bağlılığı olmayan heyvanlarda, daim indiki halı yaşayan uşaqlarda şəxsiyyət axtarılmır. Xülasə, varlığımız tariximizdir. Yaddaşın insan şüurunun şərti olduğunu bilirik.

2. Nurəddin Topçu, *Yarınki Türkiye*, İstanbul 2011, s. 32-33.

Yaddaşımız olmasaydı, keçmişi xatırlamaq qabiliyyətini itirsəydik, heyvanlardan bir fərqimiz qalmazdı. Bundan təkrarın nəticəsi olan vərdişləri və daxili instinktləri də çıxartsaq ağaclar, otlar kimi olardıq. Şüurumuz bizim üçün keçmiş zamanın xəzinəsidir. Görəsən, bitkilər aləmində keçmişin tamamilə tərk edilməsi, tam və qəti yenilik varmı? Xeyr, onları da idarə edən qüvvə əvvəlki varlıqlarının təkamül qanununa uyğun şəkildə müəyyən bir nizam içində dəyişməsi, daha əvvəlki qücləri ilə yeniyə həyat verməsidir. Keçmişin bizə ötürdüyü ünsürlərin bolluğu, zənginliyi nisbətində, meydana gələn yeni əsər canlı və davamlı olur. Keçmişdən heç nə almadan yeni əsər inşa etməyə təşəbbüs göstərənlər yalnız ölü varlıqlar əldə edərlər. Bunların cəmiyyətləri ölü, davaları ölü, vicdanları ölü, özləri də canlı ölülərdir.[3]

## İnsan və daxili müşahidəsi

Daxili müşahidə öz içimizə nəzər salıb nəfsimizlə baş-başa qalmaq, daxili müsahibə aparmaqdır. Bu, hər şeydən əvvəl, psixoloji metoddur. Lakin daxili müşahidə təkcə insanın iç dünyasını araşdıran bir elmi metod olaraq qalmır; yaşayan hər bir insanın özünü tanıması və buna əsasən hərəkət etməsi, içindəki aləmi xaricinə də yansıda bilməsi üçün istifadə edəcəyi metod, tutacağı yoldur. İnsan öz daxili müşahidəsindən uzaqlaşdığı nisbətdə avtomatik və təqlidçi olmağa məhkumdur. İçindəki aləmə var gücü ilə dalmayan, onu tanımayan insan ətrafındakıları təqlid edər, ümumi axıma qapılar, hər kəs kimi olar.

Daxili müşahidə bizim ən böyük mürşidimiz, həqiqi xilaskarımızdır. Hələ kiçik yaşdan etibarən uşaqlarımıza hər dövrün bütləşdirdiyi siyasət adamını göstərərək: “Bizi filankəs xilas etdi, filan paşa qurtardı...” deyə tərifləmək və yaltaqlıq etmək yerinə nəfsi ilə qarşılaşmasını öyrətsəydik, belə olmazdıq. Təhsilin qayəsi öz daxili aləmindən uzaqlaşdırmaq yerinə ona yaxınlaşdırmaq

3. *e.a.ə.*, s. 214-215.

və özünü öyrənmək olsaydı, bizim də Molla Xosrov, Molla Gürani kimi ziyalılarımız, Həzrət Ömər və Nizamülmülk kimi, Zəmbilli Əli və Sinan Paşa kimi dövlət adamlarımız olardı. Bu gün ibtidai sinifdən etibarən təhsilin bütün pillələrində istifadə olunan müşəxxəs əşyanı tanıma və təkcə təcrübəyə əsaslanma metodu nəticəsizdir, səmərəsizdir; bu halı ilə tamamən dəyərsizdir. Təcrübə yalnız bizi həqiqətə yaxınlaşdırdığı üçün əhəmiyyət daşıyır. Xaricimizdəki həqiqətin dəyərini təyin edəcək və qiymətlər silsiləsində onun yerini müəyyən edəcək olan daxili varlığımızın ölçüləridir. Aləmin həqiqi və yaradıcı məlumatlarını verəcək olan tədris sistemində üç mərhələ qət etmək lazımdır:

1. Xaricimizdəki kainatın düzgün öyrənilməsini təmin edən xarici təcrübə. Burada əşya ilə təmasın mükəmməlliyi araşdırılır. Hazırda bizim tədris sistemimiz bu mərhələ ilə məhdud qalır. Halbuki bizə təcrübə zənginliyi təmin edəcək olan əşya ilə bu müşəxxəs təmas sadəcə bir şərt və başlanğıcdır. Təkcə bununla kifayətləndiyimiz təqdirdə insan avtomatikləşməyə doğru gedir.

2. Xarici dünyaya dair təcrübələrin zənginliyi ilə öz daxilimizə dalmaq və iç dünyamızda dərinləşmək. Sənət kimi, ibadət kimi daxilimizə yönəlməyin bütün imkanlarını yox edən məktəb tədrisi, nəticədə, öz dəyərlərini əldə edə bilməyən, düşüncəsiz, imansız bir gənclik yetişdirir.

3. Üçüncü və son mərhələ daxilindəki ibadəti tamam olan, xaricindəki bütün varlıqları və hadisələri mütəmadi olaraq dərinləşdiyi öz iç dünyasının hökmləri ilə dəyərləndirən, aləmi nəfsi ilə, nəfsini də aləmlə qarşılaşdırmaqdan yorulmayan insanın bu görüş ilə kamilləşən düşüncəsini hər zaman özündə daşıya bilməsi və aləmi bu gözlə görə bilməsidir.

Biz bundan sonra edəcəyimiz dəyişikliyə ruh cəbhəsindən başlayacağıq və bu dəyişiklikdə nəsillərin ruhunu belə bir tədris ilə yoğuracağıq. Yeddi yaşındakı uşağın beynini şəxsiyyətə

təəssüb təlqinləri ilə çürütməyə çalışan, bütün bir gəncliyin beyin alovunu riyaziyyat və fizika formulları ilə söndürən və bunların yanında bir nağıl tarixi, fərəzi inqilab fəlsəfəsi və sərxoşluq beytləri ilə iradəsiz, gücsüz və çaşqın hala salan bu tərbiyə üslubu ilə vidalaşmalıyıq. Bu, bütün ölkənin problemidir. Əsl dəyişiklik elə buradan başlayacaqdır.[4]

## Zülm və düşmən

Zülm insanın bilərək və istəyərək başqasının ruh və bədəninə əziyyət verməsidir. Zülm mərhəmətsiz qəlblərdə inkişaf edir. Mənbəyi isə ehtiras, həsəd, kin və mənəfəət duyğusu kimi bütün heyvani arzulardır. İnsanlıq tarixində böyük zalımların minlərlə ürpərdici tabloları yer alır. Ancaq zülmü təkcə böyük güc və dövlət sahiblərinin varlığına aid etmək özümüzü aldatmaq olar. Həqiqətdə hər birimizin ətrafında halqa-halqa zülm və zalımlar yer alır. Təkcə Neron zalım deyil, imperator atadan qalan mirasın hamısını ələ keçirməyə çalışan və bu məqsədlə tələ quran qardaş da zalımdır. İsa peyğəmbərə xəyanət edib romalılara xəbər çatdıran Yəhuda qədər, bəlkə də ondan daha çox, günahsız könülləri hər gün zəhərləyən verilişlər, qəzetlər, radio və televizorlar da zalımdır. Bizi yaxından əhatə edən bu zalımlar insanlığın tarixini saran məşhur və böyük zalımlardan yüz qat daha təhlükəli və daha çox zərərlidir. Bədənə verilən əziyyətə vəhşət və işgəncə deyilsə də, əslində ruha yönəlmiş təzyiqlərə, onu qaraldıb diz çökdürən və ondakı sevgi ilə rahatlığı yox edən şiddətlərə zülm demək daha doğrudur. Bizi ən yaxından çevrələyib ruhumuzun dərinliklərinə saplanan zülmlər bizə dostun, övladın və qardaş dediklərinin etdikləridir. Ruhumuzun dərinliklərində bizim də fərqində olmadan öz-özümüzə etdiyimiz zülm isə yaxa qurtara bilmədiyimiz həsəddən, qəlbimizi parça-parça edən fitnədən, ağlımızı sanki zəhərli bir fırtına ilə bizdən uzaqlaşdıran ehtiras-

---

4. Nurəddin Topçu, İsl*am ve İnsan Mevlana ve Tasavvuf,* İstanbul 2013, s. 38-41.

lardan qaynaqlanır. Evimizdə zülm, şəhərimizdə zülm, dünyamızın hər yanında zülm doludur. Sanki bu aləm heç dinməyən zülm yağışına tutulub. Həyatı təhəmmül edilə bilməyəcək hala gətirən də elə budur. Əvvəllər bəzən bir atanın övladına zülm etdiyini eşidərdik. İndi isə övladlar ömür boyu böyüklərini zülm altında inlədirlər. Həyat yolunda əlinə güc və fürsət keçən hər kəs ətrafındakılara zülm etməyə çalışır. Son əsrlərdəki işçi-sahibkar münasibətləri zülm əsasında qurulmuşdur. Sahibkarlar işçilərinə zülm edirdi. Zənginlər kasıblara zülm edirdi. İşləyən əllər zülm halqasına girmiş olurdu.

Zülmü yaradan sevgisizlikdir. Sevməyən insan hər zaman canavarlaşa bilən zalım bir varlıqdır. Eşqin meyvəsi isə aləmləri doldurub daşmaq istəyən mərhəmətdir. Eşqi olmayan kəs varlığa düşməndir. Dünyamızı narahat, həyatı çəkilməz edənlər bu düşmənlərdir. Düşmən hər yerdədir. Evimizdə, ətrafımızda, böyüklərimiz qədər kiçiklərimizin də arasında, hətta məbədlərimizdə belə düşmənlər doludur. Mədəniyyət qılınc düşmənliyini mənfəət alış-verişi ilə maskalamış haldadır. Bu sonuncusu, əvvəlkindən fərqli olaraq riyakarlıq və saxtakarlıqla pərdələnir. Sevgiyə əsaslanmayan ailə bir müsibət olduğu kimi, sevgisiz işləmək də dözülməz bəladır. Sənaye işçisi ilə sahibkar arasındakı münasibət mərhəmət və sevginin təməllərinə söykənmədikcə bu iki sinfin bir-birinə qarşı düşmənçiliyi, hər cür rifah imkanlarına rəğmən, dayanmadan artacaq və hər zaman sinif düşmənçiliyi davası əsasında hərəkət edən kommunizm dayanmadan güc qazanacaqdır. Bu güc, nəticədə, düşmənçiliyin ən şiddətli mübarizə forması olan şiddət çatışmaları ilə yekunlaşacaqdır.

Sevgi ilə idarə edə bilməyən sahibkar və idarəçi də idarə etdiyi insanların həyatına zəhər saçaraq əvvəl-axır nifrət çuxurunda boğulmağa məhkumdur. Yer üzünün həqiqi fatehləri ürəkləri fəth edənlərdir.[5]

---

5. Nurəddin Topçu, *Var Olmak*, İstanbul 2011, s. 48-50.

## Əsl günah heyvanlaşmaqdır

Yer üzü günahkarların vətənidir. Günahsız olanlar dünyaya heç gəlməyənlərdir. Əslində, Rəbbimizin hüzuruna günahsızlıq ilə deyil, günahlarımızdan təmizlənə-təmizlənə gedirik. Fəzilət dünyaya günahsız gəlib buradan da günahsız getmək deyil; əslində, fəzilət günahları təmizləyə bilməkdir. Əbədiliyi fəth edən qəhrəmanlar günahlardan təmizlənməyin ən ülvi, ən möhtəşəm vasitələrini işlədənlərdir; günahdan savaba, şərlərdən xeyirə bir qəhrəman sıçrayışı ilə adlaya bilən cəsur ruhlardır.

Günah nədir? Kimi Günəşə sitayiş etməyin adını günah qoyur, kimi də səcdə etməməyin... Kimində günah düşmən qanı tökməməkdir, kimində isə heyvan əti yemək... Kimi qurban kəsməməyə günah deyir, kimi də bir qarışqanı incitməyə günah kimi baxır. Kimində təkəbbür günahdır, kimində də təkəbbürün heykəli olan bir varlığa sitayiş etməmək...

Bunların əsli nədir? Bütün bu təzadlı inancların iç üzünü görə bilsək, təzaddan qurtula bilərik. Çünki bütün bu günah ünsürlərinin hər biri yoldur, vasitədir, üsuldur. Günahın özü isə bunların ötəsində, qayəsi naminə pusquda gözləməkdədir. Bəs yaxşı, günah özü nədir?

Əsl günah, bütün bu çirkin vasitələrin qayəsi olan günah, heyvan sayılan bədən qəfəsindən sıyrılaraq insanlığa doğru can atan varlığımızın insanlıqdan heyvanlığa dönmək istəyidir. Dünya həyatı bir yolçuluqdur. İnsan ruh sahibi olması sayəsində heyvani bədəni üstündə hakimiyyət qurmuşdur və bədənin ehtiraslarına hökm edir. Ruhun da öz qayəsi var. O, Allaha doğru yolçuluqdadır. Ruhun Allaha yolçuluğu zəfərlərlə, əbədiyyət ölkəsindəki fəthlərlə davam edir. Bu yolçuluqda hər büdrəmə, hər geriyə dönüş, hətta bəzən uzun müddət davam edən hərəkətsizlik də günah sayılır.

Beləliklə, günah, istiqamətimizi ruhdan bədənə, maddəyə doğru çevirən hərəkətin vəsfidir.[6]

## İztirabın mənası

İnsan həyatındakı ən sürəkli hadisə iztirabdır. Bu mənada insanın bütün hərəkətləri iztirabdan qorunmaq üçün edilən həmlələrdir. Halbuki iztirab insanın ən dərinlərindən çıxıb gələn bir duyğudur. O, ruhi quruluşunun ən dərin təbəqələrini sarsacaq qədər şiddətli zərbələrin məhsuludur. İnsan öz daxili quruluşunu tanımaqdan, şəxsən özü ilə üz-üzə gəlməkdən qorxur; həyatının hər səfhəsində müxtəlif bəhanələrlə özündən qaçır.

İztirab insanda qəlbin varlığının ilk əlamətlərindəndir və onun dost kimi qəbul edilməsi qəlbin şah əsəridir. Ən böyük qazancını hər şeyi itirməkdə axtaran qəlb, beləliklə, böyük muradına ərmiş olur. Çünki "sevilən itirildiyi zaman ruh göylərə yüksəlir". İztirabın bizdəki bütün yad ünsürləri fəda edə bilmək gücü insanı insanlığın fövqündə bir məqama yüksəldir. Hər növ fədakarlıq bircə bağışlayıcı gülümsəmədən artıq bir şey deyil. Bu həm də ən böyük cəsarətdir. Dənizin ortasında qaldığı halda altındakı qayığı və küräklərini, kim olursa olsun, dərhal bağışlamaqda tərəddüd göstərməyən insanın fədakarlığı həqiqətdə ağılın qəbul edə bilməyəcəyi bir cəsarətdir. Lakin bu, iztirabın ən kiçik sədəqəsidir. İnsan tələbədir, iztirab isə onun müəllimi. Heç kim iztirab çəkmədən özünü tanıya bilməz.

İnsanlığın böyük həmlələrini ortaya çıxardan əsas ünsür iztirabdır. Dinlərin və digər məfkurələrin, tarixin şahid olduğu bütün parlaq mədəniyyətlərin hamısı iztirabın şah əsərləridir. Peyğəmbərlər ümmətlərinin iztirabını daşıyaraq Allahdan qurtuluş vədini gətirən böyük iztirab sahibləridir. Tanıdığımız böyük sənətkarlar da dünyamızın bəxtiyar insanları deyildilər. Yunusdan Akifə, Füzulidən Dostoyevskiyə kimi fövqəlbəşər dahilərin sahib olduğu

---

6. *e.a.ə.*, s. 48-50.

böyük və sanki ilahi imtiyaz sayılan xüsusiyyətləri əslində onların böyük iztirabları idi.

İnsanların bir çoxu onlara ilahi lütf kimi verilən iztirabı düzgün qiymətləndirməyərək özlərindən kənara itdilər və əl uzatdıqları fani həzlərlə zəhərləndilər. Müvəqqəti ləzzətlər onları boğdu, lakin yenə də öz qatillərini daxillərində axtarmaq yerinə kənarda axtardılar. Mütləq və əbədi olandan üz çevirmək üçün cəmiyyətin bəzəyərək insanlar arasında yaşatdığı uydurma və qiymət biçdiyi dəyərlərə bağlandılar. Ən çox həsrət çəkdiyi sevdiyinə qovuşurmuş kimi iztirablarına sarılaraq onu müqəddəsləşdirə bilənlər əbədi həyatlarına dünyada ikən başlamış olanlardır. Bu yolda gedənlərdən Yunus din övliyası, Füzuli eşq qəhrəmanı, Namiq Kamal və Məhməd Akif millətin baş tacı oldular. İztirabdan qaçaraq həyatının hər anında həzzə üz tutmaq istəyən xalq belə onlara heyrandır. Çünki fərqində olsa da, olmasa da, insanın əsl mayası iztirabdır. İztirab qəbul olunan dəruni dualarımızın dilidir; bütün həqiqi ibadətlərin üslubudur. İnsanı insan edən məhz qəhrəmanca qaşılanmış iztirablardır.[7]

## İztirabın Allaha yolu

Məşəqqətlərdən, acılardan bezmişəm demə. Bunu bil ki, iztirabı sevməyən kəs bədbəxtdir. Öz mənliyindən sıyrılaraq tikanların arasında gül yığırmış kimi acılar bağçasında özünü axtarmayanlar qafil olmadıqlarını zənn edirlər? Halbuki əsl qafil elə onlar özləridir. Deyirsən ki, günlərimiz gözəl keçsin. Gündüzün gecədən, yaxşının pisdən sıyrılıb gəldiyini görmürsənmi? Elə isə dayanmadan iradənlə cihada davam et və bu cihad əsnasında tez-tez öl ki, yenə tez-tez dirilə biləsən.

Zövq bədəndən, acı isə ruhdan xəbər verir. Bil ki, bədən quyusu qazılmadan, bədən baltalanmadan ruh dənizinə gedib çıxmaq mümkün deyil. Həzlərimlə bədənimin xoşbəxtliyini ta-

7. *e.a.ə.*, s. 75-78.

mamlayım deyə fikirləşsən, ruhun yolunu tıxamış olarsan. Bədəninə qat-qat divar kimi sədd çəkən şöhrət, sərvət və gündəlik əyləncələrdən əl çək. O divarları yıxmadan ruh qalasını fəth edə bilməzsən. Qoy hər kəs etsin, sən etmə; aləm şad olsun, sən olma; dünya gülsün, sən ağla!

Bunu yaxşı bil ki, qəhqəhə çəkmək həqiqətən xoşbəxtliyin əlaməti deyil. Bu, ruhsuz cəsədin qoxumuş qaranlıqlarından yüksələn qara bir dumandır. İzdihamın toplaşdığı kulislərdə sənin nə işin var? Tək yaşamağı öyrən ki, Tək olana dost olasan. Bunu bacarsan, nə qələbəliyin töhmətindən, nə təhqirindən, nə də kinindən qorxarsan. Bircə ondan qorx ki, anlayışsızlığın davam edərsə, bir gün varlıq yükünü daşımaqdan da qorxarsan. İztirabın həqiqi mürşid və ən böyük ustad olduğunu bilən kəslər heç bir şeydən, Allahdan və onun yolundan azmaqdan başqa heç bir şeydən qorxmazlar. Xalqın qorxduğu şeyləri sevən kəs xalqın fövqünə yüksələr. Yer üzünü Günəş kimi aydınladan böyük ruhların hamısı məşəqqətdən, işgəncəyə məruz qalmaqdan, zülm görməkdən, yaşamaqdan və ölməkdən, təklikdən və Bütün ilə bir olmaqdan qorxmayanlardır.

Allaha aparan yol iztirabın yoludur.[8]

## Damcılar

Aləm üç ünsürün birləşməsindən meydana gəlmişdir: varlıq, düşüncə və hərəkət.

Bunların hamısını şəxsində cəm edən insan bu üç məqsədin arxasınca getmək üçün yaradılmışdır: həqiqət, xeyir və gözəllik.

İnsanın ruhunda bu üç məqsədə aparan üç qabiliyyət var: zəka, duyğu və iradə.

Zəka üç yerdə istifadə olunar: qalibiyyət, hiylə və elm.

---

8. *e.a.ə.*, s. 123-124.

Duyğunun üç dünyası var: sənət, yuxu və sevda.

İradə üç aləmə sığınma gücüdür: həmcinsinə, öz səmimiyyətinə və Allaha.

Bu üç qabiliyyətin birlikdə və ahəng içində yerləşdiyi qəlb üç xüsusu mühafizə edər: eşqi, ümidi və imanı.

Üç şeyi sevməyən ruh ölüm otaqları kimi qaranlıqdır: uşağı, təbiəti və zalım ilə güc sahibindən başqasına itaəti.

Üç nəfərə yazığınız gəlsin: zənginlikdən sonra kasıblaşana, şərəfli ikən zəlil olana və cahillər arasında qalan alimə.

Bu üç şeydən hər daim uzaq durmalıyıq: yersiz şiddətdən, aclığa yer buraxmayan doymaqdan və özümüzə çevrilməyən təhdiddən.

Üç nəfərdən qorxun: mərhəmətsizdən, ikiüzlüdən və rüşvətxordan.

Üç müsibətdən uzaqlaşın: zülmdən, zəlzələdən və bildiyini iddia edən cahildən.

Üç nəfərə əl uzadın: xəstəyə, qərib kimsəyə və mühitinə öyrəşə bilməyən bədbəxtə (Bu səbəblə izdihamın arasında tənha yaşayana).

Üç növ davranış kobud və saxtadır: özünü açığa vuran sənət, göstəriş məqsədli əxlaq və özünə arxayın dindarlıq.

Üç şey səadətin sirridir: təvazökarlıq, qənaət və ölümün eşiyində tez-tez dincəlmək zövqü.

Dünya üç şeylə cənnət olar: əldən, dildən və könüldən verməklə, Allahın qullarını danlamadan əfv etməklə və zalıma zülm etməyib hidayət yolunu göstərməklə.

Üç nəfər qaranlıqda qalmışdır: eşqindən daha çox səlis danışığına arxalanan, imanında iddialı olan və ağılın meyvəsindən ləzzət ala bilməyən kəs.

Üç hakimin hökmündə xəta axtarılmaz: qəlbin, qədərin və ölümün.

Üç yerdə insan özünü tanıyar: tövbədə, zalımın zülmü altında və son nəfəsində.

Həyatın mənası üç yerdə tam mənası ilə anlaşılar: eşq ilə birləşən ümiddə, vəcd ilə edilən ibadətdə və yeri-yurdu unutduran səyahətdə.

Üç yerdə göz yaşının ləzzətinə doymaq olmaz: vüslətdə, məğfirətdə və mərhəmətdə.

Üç yerdə insan Allah ilə ünsiyyət halındadır: izdihamdan narahat olmayan təklikdə, bir ümidsizin üzünü ümidlə güldürdüyü yerdə və zalımın zülmünə baxmayaraq şükrə qərq olduğu an.

İnsanlar arasında özünü dərk edənlər bu üç qisim insanlardır: küləyi belə incitməyənlər, öz adlarını dilə gətirməkdən utananlar və Allahın əmanəti sayılan insanlara tərs-tərs baxmayanlar.

Üç növ insan Allahdan uzaqdır: rahatını düşünərək xidmətdən qaçanlar (xidmət əhli olmayanlar), hissiyyat sahibi olduğunu iddia etdiyi halda acı mənzərələrdən kənar duranlar və səfil ruhlardan feyz umanlar.

Üç növ insana Allahı görə bilmək müjdəsi verilmişdir: saf qəlblər, gecənin qaranlığında günəşi tapanlar (gecəni əhya edənlər) və ölümü həyatda ikən bütün hərəkətləri ilə birləşdirmiş olanlar.

İnsan üç şeyin hüdudunda özünü saxlamağı bacarmalıdır: istəklərin, ağılın və həyatın.

Üç şeydən ayrılacağı zaman da digər üç şeyə keçməyə tələsməlidir: insanlardan ayrılarkən ibadətə, hərəkətdən ayrılarkən dincəlməyə və dünya işlərindən ayrılarkən axirətlik işlərə.[9]

## Düşüncələr

Eşitdiyi hər sözə tabe olan, cəmiyyətə ayaq uyduran yaxşı adamlar! Siz nəfsinizin, ərzin, qeyrinin köləsi olmusunuz!.. Hər dövrün yaxşı adamı halından razı, dünyadan razı, başqalarından razı olanlardır. Bunlar Allahın vəd verdiyi saf qəlblər deyillər. Bu yaxşı adamlar rəngsiz yaşayırlar; heç kimin işinə qarışmırlar, öz işlərini də başqalarına gördürmək üçün hər cildə girirlər. Bu yaxşı adamlar həyatlarına ləkə salmadan yaşamış olduqları üçün bərraq görünən, lakin zorbanın əli altında kirlədilməyə etiraz edə bilməyənlərdir.

Fərdi olaraq yaşamağı bilən insan üsyana aşiq olar; haqqın tapdandığı yerdə hayqırmaq istəyər. İnsanlar arasında sevimli görünməyə çalışan zalıma qarşı dik dayanmaq onun üçün həqiqi cihaddır. O, haqsızlığa qarşı dirəndikcə Allaha yaxınlaşdığını hiss edər. Mənliyində ilahi bir təmasın varlığını duyar. Həyati mənfəətlər, təkəbbür və acgözlük səbəbi ilə deyil, məhz haqqın zədələnməsi səbəbi ilə içimizdən Allaha doğru istiqamət alan bu üsyan əxlaq gerçəyini ortaya çıxardar.

Onlar ölənə qədər eyni fikir və düşüncəyə sahib olarlar. Dövrün təzyiqlərinə nifrət etmək və qarşı gəlmək əksər hallarda o asiləri dar ağacına, çarmıxa və ya zindan həyatına məhkum etmişdir. Onlar bu aqibəti ilahi qayənin zövqü ilə birləşdirmişlər. Zatən onlar bütün həyatlarını ümmətin rifahı uğrunda fəda olmaqdan ibarət bir şəhidlik mərtəbəsi olaraq görərlər.

Yüksək vəzifələrdə yer tutmaq onların sadəcə xidmət etmək və daha yüksək şəhidlik mərtəbəsinə nail olmaq məqsədi ilə, çox

---

9. *e.a.ə.*, s. 132-134.

nadir hallarda görüldüyü yerlərdir. Onlar əksər hallarda səfalətə yaxın, xalqın rəğbətindən uzaq yerlərdə, zülm altında yaşayarlar. İnsanı qüruruna əsir edən yüksək vəzifələrdən uzaq durar, hətta düşmən kəsilərlər.

Onlar xidmətlərinə qarşılıq olaraq xalqdan nemət istəməz, alqış gözləməzlər. Dayanmadan xalqın həyatına töhfə vermək, özlərindən nəsə qatmaq əzmindədirlər. Adlarına heykəl qoyulmasını istəməzlər. Onlardan bizə qalan xatirə, qarşısında əyiləcəyimiz daş abidələr deyil, ruhumuza qida olacaq ölməz ayələrdir.

Həqiqi qurtuluş qurtarmaqdır (başqasını xilas etməkdir). Xilaskar insan dar fərdiyyətçiliyin və onun hamisi olan cəmiyyətin fövqündə, ötəsindədir; fərdiyyətçiliyə və cəmiyyətə cəbhə açmışdır. Aramızda meydana gəlməsini istədiyimiz insan elə bu insandır.

Bizə lütf kimi səadət bəxş edən deyil, bizdə məsuliyyət şüurunu oyadan insan lazımdır. Səadət bizdəki iradənin yaratdığı dəruni bir aydınlıq olmalıdır. Bizə kin atəşi içində gücü sayəsində haqqı qazanan deyil, həqiqət eşqi ilə haqqını yaşadan insan lazımdır. Bizə Firdövsi-əladan və bu sevdalardan vaz keçmiş haqq aşiqləri lazımdır. Həqiqi səadət və haqq başqasının əlindən alına bilən məhsul deyildir. Bizə min bir səadətdən üz çevirən İslam Peyğəmbəri Həzrət Muhamməd (əleyhissalam) kimi "Günəşi sağ tərəfimə, ayı sol tərəfimə qoysanız da, bu yoldan dönmərəm" deyən məsuliyyət daşıyıcıları lazımdır.[10]

## İki fəth

İki fəthdən bəhs edəcəyik. Çünki insanın iki dünyası var: dünyəvi ehtirasları uğrunda sürünən bədəni və eşq üçün yaradılmış ruhu. Ruha uzanan körpü və ya eşqə aparan yol ola bilməyən bədən, öz varlığımıza sarılmış müsibətdən başqa bir şey

10. *e.a.ə.*, s. 135-136.

deyil. Onun ilahi hərəkətə sadəcə bir vasitə olduğu dərk edilmədikdən sonra ən sadə bir misal kimi Günəşə belə doymadan əzab içində yaşamağa məhkum olarıq.

Fəthin iki cəbhəsi var: Maddədən ibarət olan torpağın və sərvətin fəthindən aydınlıq aləmi olan ruh dünyasının fəthinə yüksəlmədikdən sonra bu dünyanın səninlə mənim aramda bölüşülməsinin nə faydası var? İnsanların qana susamış ehtirası qılınclara sarılan ölüm dalğalarını qayə bilərək ölkələr ələ keçirməkdən ibarət olan düşüncəsiz iştahaya bağlı qaldıqca insanlığın üzü heç bir zaman gülməyəcəkdir. İsgəndərin istilaları, Monqolların ölkələri məhv edən yürüşləri və ya Teymurun millətimizi qanına qəltan edən zəfərləri!.. Bədənə qürur bəxş edən, zülmü ideallaşdıran bu zəfərlər insanlığın ruhi istiqamətdə yüksəlişinə badalaq vurdular.

İkinci fəth ruhun fəthidir. Birinci buna nail olmaq yolunda vəsilə olarsa, bu, daha mənalı və dəyərli olar, Peyğəmbər dili ilə müjdələnməyə layiq olar. Fateh Sultan Mehmed bu ikili fəthə nail olmuş böyük bir insan idi. Onun fikri və ruhi qabiliyyəti bu müəzzəm işi gerçəkləşdirməyə münasib idi. İstanbul təkcə üstünə Türk bayrağı asmaq üçün fəth olunmadı. Fəthin məqsədi bu sayədə böyük ruhların ülvi məqamlara yüksəlməsi idi. O dövlətin başçısı renessans meydana gətirəcək və reformlar gerçəkləşdirəcək böyük ruhlara öndərlik edə biləcək gücdə idi.[11]

## İradənin şikayəti

Eşq ilə ölüm qütbləri arasında axıb gedən həyatımızı idarə edən fikirlərimiz deyil, iradəmizdir. İradə təbiət və cəmiyyətdən əldə etdiyimiz təsirlərin bizdə meydana gətirdiyi daxili gücdən istifadə edərək xaricimizdəki dünya ilə apardığımız mübarizədir.

11. Nurəddin Topçu, *Büyük Fetih*, İstanbul 2012, s. 36-37.

İradənin haqqı tələb etməsi daha çox iradələrin zəiflədiyi dövrlərdə müşahidə edilir. Bu gün bizim həyatımızda iradə nə qədər rol oynayır? Bunu nəyə əsaslanaraq deyə bilərik?

Həyat tərzimizdəki qərarsızlığa, müvazinətsizliyə, əmniyyətsizliyə, fədakarlıqların yoxluğuna, böyük mədəniyyət əsərləri meydana gətirə bilməməyimizə, ziyalılarımız daxil hər kəsin xəsis mənfəətlər dalınca düşməsinə baxaraq bunu deyə bilərik. Demək olar ki, hər bir sahədəki zəifliyimiz meydandadır. Fransız, alman və ya ingilis uşağı öz vətəndaşlarının əsərləri ilə səmimi bir şəkildə öyünə bilir. Bizdə isə ən səmimi olanlar işlərin düzgün getmədiyindən şübhə edə bilənlərdir. Bu şikayətlər və şübhələr bütün mənliyimizi sardı. Artıq ruhumuza qiymət biçə bilməyəcək hala gəldik.

Qərar verməyə gücümüz yetmir, verilmiş qərarları alırıq; öz daxilimizdə ideal yaradacaq gücü tapa bilmirik, xarici ideallara əl açırıq. Öz inanclarımızı camaat içində dilə gətirməyə cəsarətimiz çatmır, xarici inancları hayqırır və xariciləri alqışlayırıq. Bu halda iradənin bizi şikayət etməsi yersiz deyildir. Bəziləri iradəni azğın sərsərilərin macəra həvəsi kimi təqdim etdilər. Bu səbəblə İsgəndər, Napoleon kimi macərapərəstlər böyük iradə adamı və ya böyük adam deyə əsrlər boyu alqışlandılar. Biz bu aldanışın doğru olmadığını və bu aldanışın insanlığa çox baha başa gəldiyini anlatmaq istəyirik. Əvvəla iradənin həqiqi quruluşunu öyrənməyə çalışaq.

Duyğularımız təbiət və cəmiyyətin bizdə əks edən təsirləridir. İradə isə xaricimizdəki dünyaya qarşı mübarizə apardığımız daxili gücümüzdür. Duyğuları almaq xüsusunda əli-qolu bağlı halda gülləyə düzülənlər kimi təsirsiz və gücsüz olan insan, aldığı bu təsirləri özündə cəm edərək gücə çevirir və iradə adlanan bu güc sayəsində ətrafındakılarla əks mübarizə aparır. Lakin xaricdən, təbiət və cəmiyyətdən duyğu halında bizə gələn təsirlərə qarşı

dərhal əks həmlə ilə müqavimət göstərməmək, onları günlərlə, illərlə, bəzən bütün ömür boyu daxilimizdə cəmləyərək, üst-üstə yığaraq, dərinləşdirərək, daxilimizdə çoxala bilən, yeniliklərə qapı açan hala gətirmək, nəyahət, bir gün insanda xariqüladə deyə biləcəyimiz böyük iradələrin meydana gəlməsinə səbəb olar. Sifətinə yumruq dəyən bir insanın dərhal qarşısındakını yumruqlaması və ya təhqiramiz söz deyilən birinin dərhal əks həmlə edib cavab qaytarması ilə Həllacı-Mənsurun və ya Qandinin qəflət və zülmün pəncəsindəki insanı vəcdə gətirən təhəmmüllərinin yaratmış olduğu əngin iradə qüdrəti, əlbəttə, eyni ola bilməz. Quruluş baxımından o da iradə sayılır, lakin birincisi, insanın mexaniki refleksi kimi görünür. Düzdür, bir təsirə qarşı əks təsir göstərmək də iradədir. Lakin iradə eyni zamanda xaricimizdəki dünyadan dərəcə-dərəcə gələn yüksək dəyərləri müxtəlif duyğular halında bədənimizə həkk edən, hər bir zərrəsinə işləyən, sanki maddi təsirlərin meydana gətirdiyi həmlələrlə Allaha qədər yüksəlmək istəyən mistik bir gücə də çevrilə bilər.[12]

## Əxlaqlı olmağın birinci şərti hörmətdir

Əxlaqlı olmağın birinci şərti, təməl əsası insanın hər şeydən daha dəyərli, hörmətə layiq olduğunu qəbul etməkdir. İnsan insanlığa düşmən kəsilmədikcə bu dəyərini qoruyar. İnsanı təhqir etmək, azadlığına müdaxilə etmək doğru deyil. Acı söz köpəyə deyilər. Baxıb əylənmək meymuna yaraşır. Əgər hiddət haqq və ədalət tələbini aşarsa, bu zaman elə özü haqsızlıq olar, təhqir olar. İnsan təhəkküm altına, əsarət altına alınmaz. İnsana zülm edilməz, istismar edilməz; çəkişdirmək olmaz; alçaltmaq olmaz; təqiblə zorakılıq edilməz... Bunların hamısı zülm, haqsızlıq və əxlaqsızlıqdır. İnsanın bu ülvi dəyərini Həllacı-Mənsurun son sözlərini xatırlayıb düşünək. Həllacı-Mənsur çarmıxa çəkilən bədənini daşa tutan insanları səssizcə seyr edirdi. Bu zaman

---

12. Nurəddin Topçu, İradenin Davası Devlet ve Demokrasi, İstanbul 2012, s. 19-21.

yeganə dostu Həmd ona daş yerinə gül atdı. Həllacı-Mənsur üzünü Həmdə tutaraq göz yaşları içində bu sözləri söylədi: "Mənə daş atan bu xalq nə etdiyini bilmir. Onların zülmündən əzab-əziyyət hiss etmirəm. Lakin sən bilməli idin ki, bu bədənə heç gül də atmaq olmaz!".

İnsana qiymət verən kəs onun vaxtına və rahatlığına da hörmət göstərər. Bir insanı bezdirdikdən sonra digərlərinə üz tutan insanın hörmət göstərdiyini necə deyə bilərik? Bu zaman digərləri onun üçün oyun-oyuncaq hesab edilməzmi?

Eşqin və dinin olduğu yerdə insan çox böyük bir varlıqdır. Nə şüursuz ittihamların hədəfi ola bilər, nə də hər fürsətdə əzaba, cəhənnəmə və sərsəmliyə sürüklənə bilər.[13]

## Adam olmaq

Ətrafımızda zənginlikdə paşa, şöhrətdə paşa, elmi ünvanlarda paşa, güc-qüvvətdə paşa olan neçə-neçə insanlar peyda oldu. Niyə bunların heç birində "adam olmaq" – dinin müjdəçisi, vəlisi və ya bir həvarisi olmaq kimi xüsusiyyət görülmür? Çünki adamlığa aparacaq olan yolu itirdik. O yol öz daxilimizə doğru uzanırdı. Düşüncə dediyimiz, bizdəki gerçək varlığa doğru uzanan bu yolun adı "daxili müşahidə"dir.

Daxili müşahidə hər şeyin əks etdiyi "kiçik aləm" sayılan ruhi varlığımızın böyük aləm olan kainat içində öz yatağını meydana gətirən çay kimi axaraq müqəddəratına doğru irəliləməsində ona qoşulmağımız, qulaq verməyimiz, tam diqqətlə ona yönəlməyimiz və bütün imkanlarımız ilə ona yaxınlaşmağımız deməkdir. Saçdığı işıqlarla təmas edən gənc ruhları xülyalara və sevdalara qərq edən, aləmə dahilər saçan mədəniyyətlər yaradan, həyatımıza sevinc, ruhumuza ideal eşqi gətirən iç dünyamızdakı bu hərəkətlər həqiqət sevgisi, Allah sevgisi, əxlaq sevgisi, sənət

---

13. Nurəddin Topçu, *Kültür ve Medeniyet*, İstanbul 2010, s. 41-42.

sevgisi deyə adlandırılan mənəvi rahatlıq və xüşudan ibarət olan ibadətlərdir. İndi bunların hər birinin yerini yalançı təkəbbür zəbt edir və biz xəstəyik; etiraf edək ki, böyük-kiçik, hamımız xəstəyik; hətta xəstəliyimizi öz-özümüzə etiraf edə bilməyəcək dərəcədə ümidsiz xəstə. Din əvəzinə ümid bağladığımız iqtisadiyyat xəstəliyimizi müalicə edə bilmir. İnsanlıq öz varlığını axtarır. Məktəbə gedən məktəbdə, məbədə gedən məbəddə, sərvətə gedən sərvətdə, şöhrətə gedən şöhrətdə axtardığı şəfanı tapa bilmir və buna görə də ruhuna qarşı daha çox düşmən, müqəddəratına qarşı daha çox üsyankar olmağa davam edir. Niyə, bu səfalətin səbəbi nədir?

Bunun səbəbi iç dünyamızı itirməyimizdir; daxili müşahidə tərbiyəsindən ayrılaraq daim xaricimizdəki əşyaya üz tutmağımız, mənliyimizdən sıyrılıb əşyaya sığınmağımızdır. Beləliklə, səbəb ruhani varlıq olmaqdan uzaqlaşaraq iqtisadi varlıq halına gəlmək istəməyimizdir.[14]

## Gözlənilən gənclik

Gənclik gələcəyin toxumudur. Bu toxumun özəyinə baxaraq gələcəyimiz haqda danışmaq çətin deyil. Hər dövrün gəncliyi öz enerjisini sərf edə biləcəyi aləmdə yaşayır. Qədim Misirin gəncləri təbiətə qarşı çətin mübarizə səhnələrində, Şumer gəncləri məbədlərdə, Yunan gəncləri olimpiadalarda, Roma gəncləri isə forumlarda özlərini nümayiş etdirirdilər.

İlk İslam dünyasının meydana gətirdiyi gənclik insanlığa xeyir və xidmət yarışında ikən Çingiz və Monqol gənclərinin kəsdikləri başlardan qüllə ucaltmaq yarışına girdiklərini görürük.

Səhabələrin yaşadığı dövr İslamın ilk gənclik dövrüdür. Osmanlılar əsrlər boyu yaşlanmış olan bu eşq və iman ağacına yenidən gənclik peyvəndi etdilər. Yavuz Səlim sanki Xəttabın oğlu

14. *e.a.ə.*, s. 117.

Ömərin təkrarlanan gəncliyidir. Hər dövrün gəncliyi ayrı bir fəxarətlə yaşamışdır. Fəxr, yəni daxildən gələn bu məmnunluq hissi dövrün dəyər verdiyi hökmlərdən qidalanaraq formalaşır, mövzusu cəmiyyətlə bağlıdır, gənc ruhlarda bu mövzu ilə bağlı alovlu bir inanc halına gəlir. Bu inanc həyati enerji ilə yüklənmiş olan gəncin hərəkətlərinin mənbəyi olar. Gənclik imanın onun daxili aləminə nüfuz etməsi və dərinliyi nisbətində dəyərli və məhsuldar olar, təqdirəlayiq səviyyə qazanar. Gəncliyin varlığı o millətin bütün həyatının içində yer almaqdadır. Tarixin sətirləri altında hər dövrün gəncliyinin simasını sezmək mümkündür.[15]

## Nəyi öyrənib nəyi öyrənməməliyik?

İnsan hər şeyi öyrənmək məcburiyyətindədirmi? Hər şeyi bilənlər, hər şeyi bilməyə həvəsli olanlar və bu halları ilə öyünənlər özlərindən qaçaraq aləmə can atanlardır. Özlərini tanımaq üçün aləm ilə öz varlıqlarının təmas nöqtələrinə diqqət yetirən, bildiklərini bu sahəyə cəm edənlər isə həqiqəti bilənlərdir. Bizim öyrəndiklərimizin Allahdan əşyanın zərrələrinə doğru pillə-pillə uzanan həqiqətlər səhnəsi olduğunu dərk etməyərək necə gəldi hər şeyi öyrənməyə həvəs salan kəs qızdırmalı halda özünü itirmiş çaşqın kimidir.

Əvvəla öyrənəcəyimiz şeylər şəxsiyyətimizi ifadə edən aləmlə əlaqədar olmalıdır. Bundan sonra şəxsiyyətimizin var olması üçün labüd olan məlumatları əldə etməliyik. Lakin varlığımızın dərinliklərinə yerləşdirəcəyimiz məlumat şəxsiyyətimizin özü ilə əlaqəli olacaqdır. Əldə etdiyi məlumatları seçməyib hər görübeşitdiyini öyrənən insanın bütün bilgisi faydasız və dəyərsizdir. İnsan hər daim qarşılaşdığı hadisələrlə bağlı təəssüratları, onlar hələ zehninə tam oturmamış ikən süzgəcdən keçirib ayırmağı, təsfiyə etməyi bacarmalıdır.

15. Nurəddin Topçu, *Türkiyenin Maarif Davası*, İstanbul 2011, s. 19-20.

Bu təsfiyə düşüncənin fəaliyyətidir. Nəyi bilib, nəyi bilməməli olduğunu təyin etmək düşüncənin ilk işidir. Ancaq bu senzuradan keçdikdən sonra düşüncə dəyər qazanır, istifadəyə yararlı və məqsədli hala gəlir; bizə yük olmaqdan çıxır, məqsədimizə xidmət edən makina olur. Xalq necə gəldi hər şeyi öyrənə bilər. Alim və mütəfəkkir isə ancaq özünə lazım olan, özünü maraqlandıran şeyləri öyrənər. Bildiyi şeylərlə öyünən yaddaş hambalları həyatda heç bir baltaya sap ola bilməyən, heç bir işə yaramayanlardır. Dənizlərin səthində nə qədər gəzsək də, bircə dəfə də olsa onun dibinə dalmasaq, ondakı həyat haqqında məlumat sahibi ola bilmərik. Hansı bacarıq olursa olsun, test metodu ilə öyrənilməsi insandan məlumat çoxluğunu tələb etdiyi üçün şüurun həqiqi dərəcəsini müəyyən etməkdə kifayətsiz və xətalı bir yoldur.

Uşağa hər şeyi öyrətməyə çalışan məktəb, onu necə də düşüncəsiz hala gətirə bilir! Hələ ibtidai sinifdə ikən bütün əşyanı öyrətməyə çalışan, sonrakı təhsilində dünya tarixini dünya coğrafiyası ilə birlikdə gənc beyinlərə köçürməyə çalışan bugünkü məktəb təhsili çox acınacaqlı haldadır. Bu təhsil metodu ruhlara istiqamət verə bilməkdən uzaqdır. Məktəbin pərişan etdiyi şüurları həyat insafsız pəncəsinə keçirərək neçə-neçə lazımsız, cani biliklərlə doldurmaqda, onlara məşəqqət dövrü yaşatmaqdadır.

Bu günün gənci idmançılarla müğənnilərin, aktyorların adını əzbərləməlidir? Siyasətin məşhur simalarını öyrənməlidir? Amerika etiketi ilə məşhurlaşan müəyyən əşyaları bilməlidir? Yoxsa məktəbdəki dərslərin rəngarəng səhifələri ilə üzləşməlidir? Bütün bunların hamısını etmək məcburi hal aldığı zaman şəxsiyyətin birliyi pozulacaq, bu birliyin gücü və enerjisi çəkiləcək, yerini isə təsəvvürlərdəki çoxluğun başıboş həvəsləri dolduracaqdır.

Tənbəl tələbə bütün müəllimlərinin adlarını, hətta yaşadıqları ünvanları da bilər. Yaxşı tələbə, mükəmməl və metodla yetişən gənc isə dövrün dövlət adamlarını belə tam olaraq hamısını bilməz.

Çünki şüurunu ancaq özünə məxsus işlərə həsr etmişdir, aləmin xidmətinə deyil. Zəmanəmizin getdikcə zənginləşən həyat hadisələri ilə genişlənən elmlərin hamısını birdən beyninə sığdıra biləcək bir insanı təsəvvür etmək mümkün deyil. Belə bir cəhd həm israf olar, həm də şəxsiyyəti kütləşdirmək və şəxsiyyətdən uzaqlaşmaqla nəticələnər. Buna görə də dövrümüzün cəmiyyətlərində ixtisas həm kəmiyyət, həm də keyfiyyət cəhətdən zəruri hala gəlmişdir.

Bunu da vurğulamaq lazımdır ki, əxlaq qaydaları da hər şeyi öyrənməyin doğru olmadığını ifadə edir. Belə ki, pis işləri öyrənmək və öyrətmək insanların pis nəticələrlə qarşılaşmasına səbəb ola bilər. Çünki insan müəyyən həddə qədər öz öyrəndiklərinin əsiri sayılır. Fərqində olsun və ya olmasın, yaxşını bilən yaxşı olmaq istəyir, pisi bilən isə pis olmağa həvəslənir. Çünki biliyin hər növündə cazibədarlıq var. Bilmək o işi həyata keçirməyə hazırlaşmaqdır. Pis işləri öyrəndikdən sonra ondan qorunmaq, yəni özünü pis iş görməkdən saxlamaq üçün əlavə olaraq müqavimət gücünə ehtiyac duyulur. Bu isə insanı yorar, əldən salar. Bununla birlikdə, pis işi bildiyi halda ona qarşı müqavimət göstərə bilməyin özünün də xüsusi olaraq təqdirəlayiq qabiliyyət olduğunu ifadə etmək lazımdır. Pis işlərdən qorunmaq üçün pislik barədə kifayət qədər məlumata sahib olmaq məcburiyyəti isə təhlükəli bir makinanın əlinizi kəsməməsi üçün zəruri olan məlumat kimidir, bundan artığı deyil.[16]

## Gənclər! Millət öz məktəbi ilə millət olur!

Hər millət öz məktəbi ilə var olur. Millət öz məktəbində yüksəlir. Məktəbin böyüklüyünü görmək istəyirsinizmi? Məktəbin həyətinə daxil olun, koridorlarında gəzin, sıralarına nəzər yetirin, gəncliyinin alnındakı nəcib parıltıya baxın. Hər birinin üzündə ilahi nəzərdən nişanə olaraq işıldayan, həya mənbəyindən qaynaqlanan sevimli mənanı seyr edin.

16. *e.a.ə.*, s. 53-55.

Bilin ki, bu xalqın ən təmiz ünsürləri sizlərsiniz! Bir milləti böyük edən, içində yer aldığı mədəniyyət aləmində bayraq edən onun məktəblərinin qan deyil, məhz beyin şirəsi sərf edən sinəsidir. İnkişaf etmiş sivilizasiya karvanına yol göstərən bələdçi maarifdir, mədəniyyətdir. Qədim dövrlərdə gördüyünüz Şumer, Misir və Çin dünyalarının, Yunan dünyasının böyük sivilizasiyaları mədəniyyət və maarif təməli əsasında qurulmuşdur. İslam böyük bir elm renessansı ilə aləmə yayılan günəş oldu. Bizim Anadoludakı milli tariximiz min il əvvəldən başlayır. Səlcuqlu vəziri Nizamülmülkün Bağdadda açdığı Nizamiyyə mədrəsəsi Türk-İslam dünyasının bütün böyük ruhlarını öz ətrafına topladı. Bundan sonrakı inkişafın tətikləyicisi oldular. İstanbulu alan böyük atamız Fatehin fəthidən daha böyük əsəri Fateh külliyəsi (kompleks tədris mərkəzi), Qanuninin Mohaç və Hind səfərlərindən daha böyük əsəri Süleymaniyə külliyəsi olmuşdur. Bizdə həqiqətən bizim olan nə varsa, hamısı məktəblə bağlıdır. Bundan savayı qalan hər şey ya mədəmizlə iştahımızın, ya da vərdişlərimizin başımıza gətirdiyi çaşqınlıqlardır. Bu hikməti çox yaxşı başa düşən Böyük İsgəndərin müəllimi Aristotelə dediyi minnət dolu bu sözlər sizin üçün də ibrət olmalıdır: "Atam məni göydən yerə endirdi, müəllimim məni yerdən göyə çıxartdı".

Həyat və dünya görüşlərinizdə sizi xilas edən, öz daxilinizdə sizə əmniyyət təşkil edən nə varsa, müəllimlərinizin, yəni məktəbin verdikləridir. Bunu da unutmayın ki, bilmədiklərinizi təmin edəcək, zəkanızın üfüqləri arasındakı boşluqları dolduracaq, aclığınızı doyuracaq bütün qida ehtiyatı insanlığın müəzzəm ruh yükünü çiyinlərində daşıyan və bu vaxta kimi də daşımış olan müəllimlərinizin beyinlərində yer alır. Onlar sizi hər ilin başında böyük bir ruh aclığı ilə qarşıladılar. Bu sizin gənclik illərinizin ən böyük səadətidir.

Filosof Sokratın bu sözü hikmətin son pilləsi olan sirrə vasil olmağın yolunu göstərir: "Mən bircə şey bilirəm; o da heç bir şey bilmədiyimi bilməkdir".

Heç bir şey bilmədiyimizi biləcək qədər çox bilik, dərin bilik, ilahi bilik əldə etmək istəyirsiniz? Elə isə hər şeyi və bütün varlığı sevməyi öyrənin. Bu ülvi sevginin şərti hər an bir vəzifənin əmri altında olduğunu bilmək, hər an özündən bir fədakarlıq tələb oluna biləcəyini gözə almaq, hər gün yeni bir xidmətə hazır olmaqdır. Heç bir xidmətə söz vermədən, başıboş, öz zənnincə azad yaşadığını söyləyən insan həqiqətdə əsirdir; daxili instinktlərinin və hər günkü xəsis mənfəətləri daxilindəki vərdişlərini hərəkətə keçirən qüvvənin əsiridir. Vəzifəsiz, itaətsiz insan vəzifəni və itaət iradəsini içdən təpərək özündən uzaqlaşdıran daxilimizdəki heyvanın əsiridir. Azad insan azadlığıyla sahib olduğu daxili gücün varlığı sayəsində boynuna bəzi məsuliyyətlər götürər.

Bizim işimiz sizin zəkalarınızı hərəkətə keçirməklə yekunlaşmır. Biz həm də sizin qəlblərinizi yoğurmaqla məsuluq. Siz təkcə müəyyən dərsləri öyrənən zəka makinaları deyilsiniz.

Şəxsiyyət və xarakteriniz bizim hünərimizin həqiqi əsərləridir. Kamilləşən xarakter və yüksəldilən bir ruh ən möhtəşəm əsərdən daha böyük bir əsərdir, bir aləmin yaradılması kimidir. Bizdən: "Siz nə işlə məşğulsunuz, vəzifəniz nədir?" – deyə soruşanlara böyük bir sevinc və məmnuniyyətlə bu cavabı veririk: "Bizim vəzifəmiz xarakter və şəxsiyyət meydana gətirməkdir".

Məktəb koridorları həqiqi fəthlərin yeridir. Müharibə cəbhəsindən daha dərin və dramatik duyğu mübarizəsinin yaşandığı möhtəşəm və ilahi səhnədir. Burada özü üçün irşad aydınlığı axtaran gənclik, eyni zamanda özünə təqdim edilən irşad işığını əllərində daşıdığı üçün irşadçısına mürşid də ola bilər. Bu günə kimi vəzifəsini yerinə yetirən mən, sabahın mürşidləri isə siz olacaqsınız.[17]

17. *e.a.ə.*, s. 201-203.

# CƏMİL MERİÇ

12 dekabr 1916-cı ildə Hatayın Reyhanlı qəsəbəsində anadan oldu. Tam adı Hüseyin Cəmildir. Bank müdürlüyü də etmiş olan atası hakim Mahmud Niyazi bəyin vəzifəsi səbəbi ilə yeddi yaşına qədər Antakyada yaşadı. 1923-cü ildə Reyhaniyyə Rüşdiyəsində başladığı orta təhsilinə 1928-ci ildə Antakya Sultanisində (Lyce d'Antioche) davam etdi. 1935-ci ildə orta təhsilini bitirməli olduğu halda Fransanın mandatı altındakı Antakyada həmin il məktəblər on bir ildən on iki ilə çıxardıldığı üçün məzun ola bilmədi. Milliyyətçi fikirlərinin yoğun olduğu orta məktəbin son sinfində müəllimlərinə ünvanladığı tənqidlər səbəbi ilə buraxılış imtahanlarına on beş gün qalmış məktəbdən ayrılmaq məcburiyyətində qaldı. 1936-cı ildə İstanbula getdi və Pertevniyal liseyində on ikinci sinfə davam etdi. Bu zaman Nazim Hikmət və Kərim Sədi başda olmaqla dövrün bir çox solçu ziyalıları ilə tanış oldu.

Məişət çətinlikləri səbəbi ilə 1936-cı ilin may ayında Antakyaya qayıtdı və orta təhsilini fransız məktəblərinin proqramını tətbiq edən Antakya Sultanisində tamamladı. Doqquz aya yaxın İskəndəruna bağlı bir kənd məktəbində müəllimlik etdikdən sonra İskəndərun Tərcümə Bürosunda müdir müavini təyin olundu. Qısa müddətli də olsa, nahiyə müdirliyi, Türk Hava Kurumunda sekretar və bələdiyyədə katiblik kimi vəzifələrdə işlədi. 1939-cu ilin aprel ayında polis tərəfindən saxlanılaraq Antakyaya aparıldı. 1938-ci ildə qurulan və 1939-cu ildə Türkiyəyə ilhaq edilən müstəqil Hatay hökumətini yıxmağa təşəbbüs göstərməklə təq-

sirləndirildi; edam tələbi ilə mühakimə olundu, lakin bəraət qazandı.

1940-cı ildə yenidən İstanbula getdi və iki il Xarici Dillər Yüksək Okulunda oxudu, 1942-ci ildə məzun oldu. Elazığ liseyinə fransızca müəllimi olaraq təyinat aldı. İki il həmin məktəbdə müəllim işlədi. Lakin şəxsi həyatında və iş həyatındakı müxtəlif problemlər səbəbi ilə İstanbula qayıtmaq məcburiyyətində qaldı (1945). 1946-cı ilin dekabr ayında İstanbul Universitetinin Ədəbiyyat fakültəsində fransız dili müəllimi oldu. 1974-cü ildə təqaüdə çıxana kimi bu işə davam etdi. Kiçikliyindən bəri onda görmə zəifliyi var idi. Bu zəifliyin artması səbəbi ilə 1954-cü ildə keçirdiyi əməliyyat, həmçinin 1955-ci ildə getdiyi Parisdə keçirdiyi əməliyyat uğursuz alındıqdan sonra həyatının qalan hissəsini görmə qabiliyyətini itirmiş olaraq keçirdi. Fikir həyatına ailəsi, dostları və sevənlərinin yardımları ilə, oxuduqları və danışdıqlarını qeyd etməsi ilə davam etdi. 1984-cü ildə beyin qanaması və ona bağlı olaraq fəlc keçirdi, ağır keçən xəstəlik dövründən sonra 13 iyun 1987-ci il tarixində İstanbulda vəfat etdi. Karacaahmet qəbiristanlığında dəfn edildi.

Əsərlərində türkcənin sürətlə qan itirməsi və keçmiş ilə arasındakı çatlağın getdikcə böyüməsinə, bunun türk toplumunun bu günü və sabahı üzərində meydana gətirəcəyi dağıdıcı təsirlərə diqqət çəkmişdir. Özünü “həqiqət axtarışçısı” və “həqiqət aşiqi” olaraq tərif edən, siyasi görüşlərdən və düşüncəni daraldan ideologiyalardan uzaq durmağa çalışan Cəmil Meriçə, müxtəlif fikir, siyasət və ideologiya mənsubları, özlərinə yaxın gördükləri fikirlərini ön plana çıxardaraq sahib çıxmağa çalışmışlar.

Əsərlərindən bəziləri: “Hind Ədəbiyyatı” (İstanbul 1964; genişlədilmiş ikinci nəşr, “Bir dünyanın eşiyində”, İstanbul, 1976), “Saint-Simon: ilk sosioloq – ilk sosialist” (İstanbul 1967), “Bu ölkə” (İstanbul 1974), “Ümrandan uyqarlığa” (İstanbul 1974), “Mağaradakılar” (İstanbul 1978), “Qırx anbar” (İstanbul

1980), "İşıq Şərqdən gəlir" (İstanbul 1984), "Kültürdən irfana" (İstanbul 1985), "Jurnal I-II" (İstanbul 1992-1993).[1]

## Sağ ilə Sol

Fikir həyatımız məfhumların gah gülünc, gah da qorxunc maskalarla rəqsə çıxdığı bir karnaval şənliyi kimidir. Onları tanımırıq, haradan gəldiklərini bilən yoxdur. Fironlara bənzəyirlər, camaata üzünü göstərməyən fironlara. Və ziyalılarımız o məchul xəyali məfhumlar üçün ehramlara daş daşıyan qullara çevriliblər.

Artıq mübarizə insan ilə qədər arasında deyil, insan ilə kəlmə arasında gedir. Röyaları bayraqlaşdıran odur. Kütlələr onun üçün yaşayır, onun üçün döyüşür, onun üçün ölür. Müqəddəslərin rənginə boyanan buqələmun kəlmə sanki səmavi kitabların şeytanıdır. Bunların ən təhlükəliləri də torpağımızda doğulmayanlardır.

"Sol" və "sağ" bu qaranlıq qafilənin qabaqcıllarından ikisidir.

Sol latınca uğursuz, qədim almanca isə əyri deməkdir. Cəhənnəmə enən nərdivan həmişə sola bükülür. Sağ isə kübar və imtiyazlıdır; Rəbbin sevimli qulları sağında oturacaqlar, - deyir, Tövrat.

Sol ilə sağın yeni bir mahiyyətlə siyasətə sıçraması Fransa inqilabı ilə yaşıddır.

Napoleonun orduları inqilabın ideologiyasını dünyanın dörd bir yanına daşıdı; ideologiyasını, yəni kəlmələrini.

Avropa Fransanın mirasını həvəslə mənimsədi. Eyni mənəvi iqlim, eyni ictimai mühit. İlk əvvəl sol burjuaziyanın bayrağı idi, sonra dördüncü sinfin... Hürriyyət, tərəqqi, müsavat... Sağa isə türbədarlıq etmək düşdü; türbədarlıq, yəni əzəli dəyərlərin mühafizəçiliyi.

Hansı əzəli dəyərlərin? İnqilab istibdadın (despotizmin) yıxılması demək idi; müjdə idi, ümid idi, gələcək idi. Sağ hər

1. Mustafa Armağan, "Cemil Meriç" *D.İ.A.*, İstanbul 2004, c. 29, s. 190-191.

daim utancaq, daim qorxaq, daim sevimsizdir. Utancaqdır, çünki keçmişi təmsil edir; keçmişi, yəni özbaşınalığı, qanunsuzluğu. Qorxaqdır, çünki qanlı imtiyazların və qaranlıq istismarların mirasçısıdır. Sevimsizdir, hansı qəbiristanlığı ürpərmədən seyr edə bilərsiniz? Avropanın son iki yüz illik tarixi solun zəfərləri, sağın məğlubiyyətləri tarixidir.

Bizə gələndə... Sərhədlərimizdən içəri epidemik bir xəstəlik kimi girdi sol, əlamətləri məchul olan bir xəstəlik. Solçu ifadəsi ittihamların ən qorxuncu oldu. Cadudan daha uğursuz, bədduadan daha ağır bir kəlmə. Sağ isə nazlı, utancaq bir qonaq kimidir. Nə vaxt gəldi, bilən yoxdur. Türk ədaləti heç kim tərəfindən mənimsənməyən bu solğun və şəxsiyyətsiz kəlməni çox da ciddi qəbul etmir. Dörddəbir əsrdir, sağ, sanki nəbati həyat yaşayır.

Demokratiyanın zəfərindən sonra sol, Avropada yeni bir paklanma əldə etdi, günahlarından təmizləndi. Bizdə də qəsidələr döşəndi o nazəninə. Avropa bütün cinayətlərini sağın üstünə yıxdı. Sağ yaxın tarixin "günahkar keçisi" oldu; sağ kilsədir, cahillikdir, faşizmdir. Qərbin ən "mürtəce" partiyaları bu mənfur vəsfdən qurtulmağa can atarkən bizdə "sağ" müqəddəsatçıların (mühafizəkarların) bayrağı oldu. Budur, türkün alicənablığı... Həqiqətən də, dünyada bu kirli və qaranlıq kəlmənin bizdən başqa şəfaətçisi, bizdən başqa əlindən tutanı qalmamışdır.

Sol-sağ... Çılğın sevgilərin və şüursuz kinlərin bəslədiyi iki ifrit. Cəmiyyətimizin quruluşu ilə hər hansı bir əlaqəsi olmayan iki yad məfhum. Solun xalqın vicdanında yaratdığı xatırlatma: casusluq, dar ağacları, Moskva; sağınkı isə: qeyrimüəyyən, sevimsiz, hiyləgər bir-iki xəyal. Xristian Avropanın bu çirkin kəlmələrinin bizə nə dəxli var? Bu maskalı quldurları yaddaşlarımızdan qovmaq və öz həqiqətimizi öz kəlmələrimizlə anlayıb anlatmaq hər bir namuslu yazıçının vicdan borcudur.[2]

2. Cəmil Meriç, *Bu Ülke,* İstanbul 2010, s. 79-81.

## İrticaçı kimdir?

Canavarlarla dolu bir meşədəyik. Yolumuzu kabuslar kəsir. Bu, tanımadığımız bir dünyadır; idxal mal olan məfhumların etibarsız və qaranlıq dünyası. Həqiqət kəlmələrin arxasında itib gedib.

Necə də gözəl bir tərifdir: "İrticaçı – cəmiyyətin inkişafını təmin edəcək heç bir yeniliyi istəməyən, hər yönü ilə keçmişi arzulayan və keçmiş sistemi geri gətirməyə çalışan kimsədir" (Meydan-Larousse). Bu tərifin tək əskik cəhəti bu kabusun hansı dövrdə, hansı ölkədə yaşadığını söyləməməsidir.

Murdar bir haldan möhtəşəm bir keçmişə qanad açmaq irticadırsa, hər namuslu insan irticaçı sayılır.

IV Murada "Süleymanın dövrünə dön!" deyə hayqıran Koçi bəydən Rəşid paşaya qədər Osmanlı dövlətinin bütün islahatçıları irticaçıdır. Dante yaşadığı dövrdən iyrənirdi. Dostoyevski keçmişə aşiq idi. Dante irticaçı, Balzak irticaçı, Dostoyevski irticaçı! Mürtəce, mütərəqqi... Düşüncə hürriyyəti bu çirkin kəlmələrin əsarətindən qurtulmaqla başlayır; düşüncə hürriyyəti və düşüncə namusu.[3]

## Qamus bir millətin namusudur

Qamus bir millətin yaddaşı, yəni özüdür; həyəcanı ilə, həssasiyyətləri ilə, şüuru ilə onu əks etdirir. Qamusa uzanan əl namusa uzanmış olur. Fransa inqilabı bütün müqəddəsləri yıxdığı halda tək müqəddəsə hörmət göstərdi: Qamusa.

Köhnə lüğətə qızıl fəs taxdığını deyən Hüqo heç kəlmə uydurmayıb; simvolizm cərəyanının üç muşketyoru da həmçinin. Amma istifadə etdikləri hər bir kəlmə yenidir. Təəssüf! Qərbdə sərsəmlik də tərbiyəlidir.[4]

3. *e.a.ə.*, s. 82-83.
4. *e.a.ə.*, s. 88.

## Şüar ibtidai ideologiyadır

Qaranlıqda döyüşmək olmaz. İdeologiyalar uçurumlara işıq salan oğru fənərləridir, istəməsək də, onlara möhtacıq. Xaosu böyüdən insan zəkası öz təcrübələrini ideologiyalarla ortaya qoydu. İdeologiyalara düşmən kəsilmək tək “izm”ə təslim olmaq deməkdir. İdeologiyalar siyasət dünyasının xəritələridir. Xəritəsiz dənizə açılmaq olarmı? Amma təhlükəli bir səfərdə xəritə təkbaşına bələdçilik edə bilməz. Kompas da lazım olar. Kompas şüurdur; tarix şüuru, millət şüuru, şəxsiyyət şüuru. İdeologiyaların arxasınca kortəbii gedənlər kompassızdırlar. Gəmi ya qayaya çırpılacaq, ya da bataqlığa saplanacaq. İdeologiyaların işığına göz yumanları şüarlar idarə edər. Qaranlıq kinlərin bir-birinin üstünə saldığı çılğın sürülərin döyüş nərəsidir, şüar; axmaqların, tutuquşularının ideologiyasıdır bu. Düşüncə ilə nərə çəkmək bir-biri ilə uyğunlaşmır. Şüurun səsi nərə deyil. Vəhşi olan qışqırar, mədəni insan isə danışar. Bu uşaqlara illərlə imkan vermədik ki, danışsınlar. İndi qəzəblərini üç-beş kəlmə ilə üzümüzə tüpürürlər. İdeologiyaları qadağan etdiyimiz üçün qəzəblərinə tuş gəldik. Demokratiyanın azad düşüncə və şüurlanma imkanı olduğunu heç kim düşünmədi. Zəifliyin hürriyyətpərvərliyi yalanların ən namussuzudur. Bəxş edilən hürriyyət ölmək və öldürmək hürriyyəti oldu.

Torpaq sarsılır!.. Hamımız birdən əsfəli-safilinə yuvarlanmaq istəmiriksə, gözlərimizi açmalıyıq. İnsan şüarla idarə edilməz. Düşüncəyə azadlıq, sonsuz azadlıq verilməlidir. Kitabdan deyil, kitabsızlıqdan qorxmalıyıq. Bütün ideologiyalara qapı açmaq, hamısını tanımaq, hamısını müzakirə etmək və Türkiyənin gələcəyini onların aydınlığında, lakin tariximizin böyük mirasına söykənərək inşa etmək lazımdır. Ən doğru yol budur.[5]

---

5. *e.a.ə.*, s. 95-96.

## Sən geridə qalmısan

Qitələri ipək parça kimi kəsib biçərdik. Qılınclarımızdan kəllələr damcılayardı. Bir biz var idik cahanda, bir də küffar…

Zəfər səhərlərini qovdu məğlubiyyət axşamları; qoca əjdaha keçmişdəki ehtişamından utanan hala gəldi. Sonra bu utanma yerini unutqanlığa buraxdı, “mən avropalıyam” deməyə başladı, “asiya xəstələr diyarıdır” dedi.

Avropalı dostları acıyaraq baxdılar qocaya və qulağına əyilib: “Xeyir, cavan oğlan, - deyə fısıldadılar. – Sən geridə qalmısan”.

Və Xristian Qərbin sinəmizə taxdığı bu edam damğasını bir “zəfər nişanı” kimi fəxrlə mənimsədi, ziyalılarımız.

## Avropadan yeni bir ixrac mal

Qərbliləşmə sevdası köhnəldiyi zaman səhnəyə yeni bir yalan çıxdı. Daha doğrusu, eyni nazənin yeni bir makiyajla yenidən təqdim edildi.

Əslində, ziyalılarımızın şərəfinə şampan şüşələri partlatdığı bu söz Tənzimatdan bəri tanıdığımız “avropalılaşma”nın elə özüdür.

“Müasirləşmək” – Avropanın yeni bir ixrac malı, kokain kimi… Şüuru iflic edən zəhər… “Müasirlikdən uzaq” ittihamı iftiraların ən alçaqcası, ən böyüyüdür. Halbuki eyni əsrdə müxtəlif mərhələlər yaşana bilər. Niyə müasirləşmək təkcə Xristian Qərbin bütlərinə sitayiş etməklə olsun?

Bu, öz dərisindən çıxmaq, öz müqəddəslərini inkar etmək və bəri başdan köləliyə razı olmaq deyilmi? Biz ayrı bir mədəniyyətin uşaqlarıyıq; ona zidd mədəniyyətin, başqa ölçüləri olan, daha qədim, daha əsil, daha çox insani bir mədəniyyətin.

Müasirləşməyin xalqın vicdanındakı yeri indiki dövrlə ayaqlaşmaq, yəni məsxərəyə qoşulmaq, eyniləşmək, qeyri-müsəlman-

laşmaqdır. Halbuki türkün sağlam ağıl sahibləri üçün bədahətən deyilən bir ifadəsi var: "Qırx illik "qane"dən "yəni" olmaz".

## Jurnal: azad təfəkkürün qalası

Şöhrəti fəthə yürüş edən ziyalılar ordusudur. Kimisi yarı yolda qalacaq, kimisi yol dəyişdirəcək, bəlkə, bu axınçıların. Bəlkə də, heç biri çata bilməyəcək hədəfinə. Gənc düşüncələr jurnalların səhifələrində qanad çırpar. Qadağan olunmuş bölgə tanımayan diqqətli bir araşdırma; tanımayan, daha doğrusu, tanımaq istəməyən. Ən çatıq qaşlısında belə "özünəinam", dünyanın özündən başladığını düşündürən saflıq var. Tumurcuqların ümidverici qüruru...

Bir şəhərin ara küçələri kimi məhrəm və səmimidirlər. Dövrün makiyajsız çöhrəsini onlarda görə bilərsiniz. Muzeydən daha çox antikvar dükanı kimidirlər, ehmal olunmuş, laqeyd yanaşılmış.

Kitab gələcəyə yollanan məktub kimidir. Kostyum geyinmiş həyəcan, mumyalanan təfəkkür... Kitab və qəzet... Biri zamanın xaricindədir, o birisi isə həmin anın özüdür. Kitab sizinlə birlikdə yaşayar, sizinlə birlikdə böyüyər. Qəzet isə oxunan kimi bitər.

Kitab çox ciddidir, qəzet məsuliyyətsiz. Jurnal isə azad təfəkkürün qalasıdır. Bəlkə sərsəridir, amma isti-isti, təzə, yeni bir təfəkkürdür. Əksər hallarda kitab tək insanın əsəri olur, tək düşüncəni yansıdır. Jurnal isə zəkalar topluluğunun əsəridir. Jurnal bir nəslin nəsiyyətnaməsi, daha doğrusu, mesajıdır. Bağlanan hər jurnal itirilən bir fürsət, məğlubiyyətlə nəticələnən döyüş və ya intihardır.

Bizdə jurnalların çox həzin aqibətləri var; çoxu bircə mövsüm yaşayır, çiçəklər kimi. Ən çox bəxti gətirənlər isə bir nəslə xitab edir. Köhnə jurnallar ziyarətçisi qalmayan məzarlıq kimidir. Yaxud açarı itmiş siyirmə kimi. Səhifələrinə hansı xatirələr yazıl-

mışdı, hansı ümidlər, hansı həyəcanlar hopmuşdu, maraqlanan yoxdur.[6]

## Kitablar dünyası

Bizə hər an qollarını açan böyük bir dostlar topluluğundan xəbərsiz yaşayırıq. Aralarında hökmdarlar da var, dövlət adamları da. Günlərlə şikayət etmədən iltifatlarımızı gözləyirlər. Ağızlarını açmağa icazə vermirik. Əslində, seçmə hürriyyətimizin hüdudsuz olduğu tək dünya: kitablar dünyasıdır.

Ruskin kitabları iki hissəyə bölür: müvəqqəti olanlar və daimi olanlar. Müvəqqəti olanlar faydalı və ya xoş bir söhbət kimidir: səyahətnamələr, xatirələr... Bunlar kitabdan daha çox bir növ məktub və ya qəzet kimidir. Daimi kitab isə söhbət deyil, yazıdır. Bir neçə səhifəyə sığdırılmağa çalışılan bütün bir həyatdır. Əbədiyyətə yollanan mesajdır. Heç kimin söyləmədiyi və söyləyə bilməyəcəyi həqiqətlərdir. Yazıçı dünyaya həmin bir neçə səhifəni qələmə almaq üçün gəlmişdir. Mümkün olsa, fikirlərini qazıyıb daşa yazar.

Kitabxana bütün dövrlərin, bütün ölkələrin ölümsüzləri ilə doludur. Bu ulular məclisinə qəbul edilməyin tək şərti ləyaqətdir. Dirilər zərifdir, ölümsüzlər həssas. Həqiqətən sevsəniz, sizinlə danışarlar. Bir kitabı oxuyarkən "nə gözəl kitabdır, - deyərik, - yazıçı eynilə mənim kimi düşünürmüş". Xeyr, əslində, belə deməliydik: "Bunu daha əvvəl heç düşünməmişdim, amma, deyəsən, doğrudur". Yaxud: "Bəlkə də, indi başa düşmürəm, bir müddət sonra başa düşərəm". Əvvəlcə təslimiyyət, anlamağa cəhd göstərmək, sonra hökm vermək. Müəllifin həqiqətən dəyəri varsa, düşüncəsini bir həmlədə qavramaya bilərsiniz. Yazıçı demək istədiyi hər şeyi deyə bilməz, yazar. Demək də istəməz. Gizlədər, istixarə edər.

6. *e.a.ə.*, s. 102-103.

Böyük yazıçı daxilindən gələn səsi olduğu kimi hayqırandır. Kəlmələri işlədərkən başqalarının xoşuna gəlib-gəlməyəcəyini düşünməz. Dərin düşüncəni dərk etmək o düşüncəni qavradığınız anda dərin bir düşüncəyə sahib olmaqdır. Bu, bir növ öz daxilinə, öz qəlbinə enməkdir. Əşyaları buludların arxasından görürük. Düşünmək bu sis-dumanı udaraq aydınlığa çıxmaqdır.

Yazıçı öz düşüncəsini kiməsə yardım məqsədi ilə təqdim etməz. Bu bir mükafatdır. Layiqsiniz, yoxsa yox? Dərk etmək lazımdır. Təbiət də belə deyilmi? Qızıl mədənləri niyə torpağın dərinliklərindədir? Oxuyarkən araşdırmağa başlayacağınız mədən: müəllifin düşüncəsi və ya niyyətidir. Vasitələriniz: zəka və bilik. Qayaları parçalayıb mədəni əridəcəksiniz. Əvvəlcə kəlməni fəth edəcəksiniz, sonra hecaları, hərfləri...

İngilis rahatına düşkündür, eqoistdir, həyəcansızdır. Bir millət deyil, böyük bir kütlədir. Kütləni aldatmaq rahatdır, duyğularının heç bir əsası yoxdur. Kütlə düşünməz, məruz qalar. Qripə tutulurmuş kimi tutular bir fikrə. Qızdırması yüksəldikcə aslana dönər, tutması keçdiyi zaman bütün müqəddəs dəyərlərini unudar. Böyük bir millətin duyğuları isə ölçülü, nizamlı və davamlıdır.

Oxumaqdan danışmağa haqqımız varmı? Oxuma tərbiyəsindən əvvəl daha mühüm, daha təxirəsalınmaz nizam-intizama möhtacıq. Belə bir əhvali-ruhiyyə içindəki insanlar necə, nəyi oxuya bilərlər? Bu olmadan böyük bir yazıçının bir sətrini belə dərk etmək imkansızdır.

Özünü kütlə yığını halına gətirən millət ayaqda qala bilməz. Tək məqsədi pul olan bir kütlə yaşaya bilməz. Düşüncəni kiçik görürük. Kitabı sevənlərə kitab dəlisi deyirik. Amma heç kimə at dəlisi demirik. Kitab səbəbi ilə səfil günə düşən görülməyib. Amma at uğrunda iflas edənlərin sayı-hesabı yoxdur. Ən gözəl kitab balıq qiymətinədir. Alan varmı? Ümumi kitabxanalar rəsmi ziyafətlər kimi çox xərc tələb etsəydi, şübhəsiz, hökumət tərəfindən daha çox iltifata nail olardı. Kitabların qiyməti qızıl

bilərziklərin onda biri qədər olsaydı, bəlkə də, oğlan və qızlarımız hərdənbir oxumaq həvəsinə düşərdilər. Bir çox insan kitabı ucuz olduğu üçün almır. Düşünmür ki, kitabın əsl dəyəri onun oxunmasındadır. Bircə dəfə deyil, dəfələrlə oxunmasında, altının cızılmasında, tanınmasındadır.

Fəlakətimizin səbəbi oxuma mədəniyyətimizin olmamasıdır. Bizi məhv edən şey nə əxlaqsızlıq, nə eqoistlik, nə də başımızın işləməməsidir. Sanki tələbə laqeydliyi yaşayırıq. Müəllimləri tanımadığımız üçün kömək görməyimiz də mümkün deyil. Həyatı dərk etmədən keçib gedirik. Kamilləşmək qəlbin daha həssas, qanın daha isti, zəkanın daha işlək, ruhun daha rahat olması deməkdir. Daxilən belə bir canlılıq, belə bir həyat eşqi duyanlar dünyanın tək hakimləridir. Digər bütün hökmdarlıqlar bu səltənətin maddiləşməsi, kasadlaşmasıdır.[7]

## Ziyalıların dini: "izm"

"İzm"lər idrakımıza geyindirilən dəli köynəkləridir. Mənşə etibarilə təqdir görürlər. Hamısı avropalıdır.[8]

İrfan – düşüncənin bütün qütblərini qucaqlayan bir kəlmədir. Araşdırmaları maddə dünyası ilə məhdudlaşdırmayan, zəkanı zirvələrə qanadlandıran, bəşəri olanı ilahi ilə müqəddəsləşdirən, uzun və əziyyətli bir nəfs tərbiyəsidir. İslam insanları parçalamır. İrfan kamilliyə açılan qapı, əməllə taclanan elmdir. Qərb mədəniyyətində bu zənginlik, bu ehtişam, həyata bu şəkildə yön vermək yoxdur. İrfan Allah vergisidir. Səy göstərməklə inkişaf edən bir vergi. Mədəniyyət isə qatı, kasad və təkyönlü bir ifadədir. İrfan insanı insan edən vəsflərin bütünüdür. Mədəniyyət isə rasional düşüncənin qanlı istilalarını gizlətməyə xidmət edən bir şaldır. İrfan "dini" və "dünyəvi" deyərək iki yerə bölməz, yəni hər bütöv kimi, parçalanmağı qəbul etməz.

7. *e.a.ə.,* s. 109-112.
8. *e.a.ə.,* s. 92.

Mədəniyyət etibarsızlığı, qeyri-müəyyənliyi və dəyişkənliyi ilə birlikdə Avropadır. Tam mənası ilə tərif edilə bilməyən bir kəlmədir. Gah suda, gah da quruda yaşayan qəribə varlıq kimidir. Alman üçün başqadır, fransız üçün başqa. Bəzən ictimai həyatın tamamını ifadə edir, bəzən bir vərdişi, bəzən də əldə edilmiş qabiliyyətləri. İndi həyatın özüdür, parlaq göstərən cilası.

Avropanın hadisələri dəridən-qabıqdan çıxaraq təhlil edən dərin zəkası elmi dünyəvi və dini deyərək iki hissəyə bölür. Onlara görə dini mədəniyyətlə qeyri-dini mədəniyyət ayrı məfhumlardır. Dünyəvi mədəniyyət nə deməkdir? Mədəniyyəti torpağa zəncirləyən bu anlayış da bir ideologiya, yəni insan ağlının uydurması deyilmi?

Din əsrlərdən bəri yaşayan və nəsilləri mənəvi rahatlığa qovuşduran, təcrübədən keçmiş bir inanclar toplusudur; isti, dost, köklü. Qərbin dünyəvi dediyi mədəniyyət isə hakimiyyətin təhəkküm məqsədi ilə düşmən ölkələrə ixrac etdiyi səfil bir ideologiyadır. Bu hücumun məqsədi Səlib yürüşlərindən bəri aydındır: qılıncla əldə edilə bilməyən zəfəri yalanla əldə etmək. Təxrib etməyə səy göstərdikləri imanın yerinə qoymaq üçün uydurduqları əvəzləyici isə ideologiyalardır. Başqa bir ifadə ilə desək, rəmzləri, mərasimləri və kilsələri ilə birlikdə dövrün tələblərinə görə uyğunlaşdırılmış bir inanc mənzuməsi. Rüşdünü tamamlamamış, yetkinlik çağına çatmamış nəsillərə elm adı ilə qəbul etdirilən, qapağı elm, möhtəvası isə nağıllardan ibarət olan bulamac.

Avropa Tənzimatdan bəri eyni məqsədin arxasınca gedir: türk ziyalısında müqəddəsi öldürmək. Müqəddəsi, yəni İslamı. Bu müqəddəsin yerinə öz müqəddəsini aşılaya bilməzdi. Çünki missionerin hədəfi Dövləti-Aliyyəni xristianlığa daxil etmək, yəni Dövləti-Aliyyə ilə bütünləşmək deyil, əzəli düşmənini "etnik" bir toz yığını halına gətirmək idi; istədiyi qəlibə sala biləcəyi şüursuz və iradəsiz bir toz yığını. Qaldı ki, Avropanın İslama təklif edəcəyi bir müqəddəsi də yox idi. Təxribat fəaliyyəti, heç olmasa, ziyalılar sahəsində tam müvəffəqiyyət qazandı. Qərbin

təhrif olunmuş xristianlığa ünvanladığı tənqidlərin bizim dinimizə də aid olduğunu zənn etdik. Avropa üçün "yenilənmək" yeganə məbəd sayılırdı. Bu bir növ üsyan idi; təəssübkeşliyə, irticaya qarşı ağılın mübarizəsi idi. Tənəzzülün məsuliyyətini imana yükləyən bizim zavallı ziyalılarımız bir əsr əvvəlki fransız ziyalılarının kilsəyə qarşı mübarizəsini təkrarlayan şüursuz aktyorlar oldular. Zəhərli təlqinləri ilə müqavimət qalalarını məhv etdilər. İmansız və idealsız nəsillər yetişdirdik. Pusquda gözləyən xarici ideologiyalar sədləri uçurulmuş çaylar kimi ölkəyə yayıldı. Bunları üç qrupa ayıra bilərik:

1. Heç bir dünya görüşünə bağlı olmayan və sırf ixrac məqsədi ilə uydurulmuş fosil təlqinlər. Bunlar bizim üçün uydurulduğuna görə, onları milli deyə səciyyələndirdik. Bu dağıdıcı təlqinlərin fərqləndirici xüsusiyyəti tarixə düşmənçilik idi. Tarixə, yəni milli birliyin, milli şüurun yeganə memarına. Guya Osmanlı barbardır, İslamiyyət geridəqalmışlıqdır, biz Hititlərin, Şumerlərin nəsilləriyik və s.

2. Bir növ nasional-sosializm. Əslində, nasional-sosializm alman millətinə məxsusdur və idxal edilə bilməz. Ancaq bənzər şəkli, yəni təhrif olunmuş halı ilə nasional-sosializm türkləşdirilə bilər. Heyvani olanı, yəni bioloji olanı ilahlaşdıran bir inancın bütün qövmlərə qucaq açmış bir cəmiyyət tərəfindən müsbət qarşılanmasını gözləmək ağlasığmaz idi.

3. Sosializm. Başqa ölkələrin təzadlarını ortadan qaldırmaq və Xristian Qərb mədəniyyətinin qarşılaşdığı maneələri aradan götürmək üçün hazırlanan sosialist düşüncələr bizə tarixi çərçivələrindən sökülərək, ictimai mövtəvasından təcrid edilərək, əzəli və əbədi təkzibolunmaz sübut kimi təqdim edildi.

Üç qrupda cəm etdiyimiz bu həzm edilməmiş və həzm edilməsi mümkün olmayan inanc mənzumələrinin hamısı mahiyyəti etibarilə eynidir; üçü də dini inanc kimidir. Çünki üçünün də el-

mihal kitabları, rahibləri, rəmzləri var. Üçü də şüura deyil, şüuraltına xitab edir. Tənqid və münaqişəyə təhəmmülləri yoxdur.

Geniş xalq kütlələri əcdadından nəql olunan imanlarına möhkəm bağlıdır. Rasional və irrasional kimi yeni çıxan təfriqə məfhumlarından xəbərsizdirlər. İslamiyyəti bütöv mənimsəyirlər. İdxal mal olan ideologiyalar isə ziyalılarımızın monopoliyasındadır; qarşısına çıxan çətinlikləri onlar həll edər, bütün məchulları onlar aydınladar. İslam xalq təbəqələrinin "mədəniyyət"idir, sözdə dünyəvi mədəniyyət isə ziyalıların dini...[9]

## İnananlar qardaşdır

Bu ölkənin bütün irqlərini tək irq, tək ürək, tək insan halına gətirən İslamiyyət olmuşdur. Bu, bioloji vəhdət deyil. Nə qanla əlaqəsi var, nə də kəllə sümüyü ilə. Bu, vəhdətlərin ən böyüyü, ən müqəddəsidir. İstər qara dərili, istər sarı... inananlar qardaşdır. Eyni şeyləri sevmək, eyni şeylər üçün yaşamaq və ölmək. Türkü, ərəbi, hər birini toya tələsirmiş kimi irşad mübarizəsinə ruhlandıran bir inanc. Altı əsr birlikdə ağlayıb birlikdə gülmək. Sonra bu möhtəşəm röyanı qorxunc bir kabusa çevirən talesiz epidemiya: maddəçilik. Nəticədə tarixin və həyatın xaricinə çıxan Anadolu... Təəssüf, bu tənəzzüldə qiyamətin ehtişamı da yoxdur, şeirsiz, şikayətsiz...[10]

## Bizim dünya görüşümüz nə idi?

Bizim dünya görüşümüz nə idi? Avropanın dünya görüşləri sinifli bir dünyada şəkillənmişdir. İslamiyyət bütün insanlığa xitab edən yeganə dünya görüşüdür. Təməli vəhdət, sevgi və ədalətdir. Bütün insanlar yaradılış etibarilə bərabərdir. Fərd İslamı qəbul etdikdən sonra bu bərabərlik tamamlanmış olur. İslamın insanı Allahın xəlifəsi kimi qəbul etməsinin səbəbi insan olmasıdır. İslam Avropanın xəyallarını aşan bir röya, bir fikir memarlığıdır. Bəra-

9. *e.a.ə.*, s. 175-178.
10. *e.a.ə.*, s. 181.

bərlik dünyaya gəlməsi etibarilə hər insanın əldə etdiyi haqdır. Təməli ədalətdir. Azadlıq üçün səy göstərməyə ehtiyac yoxdur. Necə ki, azadlıq (hürriyyət) kəlməsi çox gec dövrlərdə dilimizə yerləşib. Çünki Türk-İslam hər zaman azad olub. Bu mənada bizim dünya görüşümüz ən az üç millətin əl-ələ hazırladığı bir sistemdir. İslam insanı dəyişkən halı ilə ələ alır. Həqiqətlər insanın zəkası ilə böyüyür. Qurani-Kərimin ifşa etdiyi həqiqətlərin həddi-hüdudu yoxdur. Ərəblər, türklər və iranlılar bu əzəli həqiqətin formalaşmasında elmi ilə, sənəti ilə əl-ələ vermişlər. İslamiyyət rəng fərqini, nəsil fərqini qəbul etmir.

Avropanın tolerantlıq fikrini İslam olduqca təbii qarşılayır; müsəlmanlar yeri gələndə məcusiləri belə qorumaqda tərəddüd göstərməmişdir. Həm dünyanı, həm də axirəti qucaqlayan həqiqi dünya görüşü budur. İslamiyyətdə sinif fərqi yoxdur. Türkü maddə və mənada dünyanın əfəndisi edən bu dünya görüşü müxatəbi ilə birlikdə inkişaf edir. Biz vüqarlı və fədakar bir insan topluluğu ikən Avropada ortaya çıxan burjuaziya bizə diz çökdürmək üçün əlindən gələni etməli idi. Bu, dünyanın üçdəbiri üçün qalan üçdəikisini yıxıb-dağıdan, əxlaq anlayışını siyasətdən kənarlaşdıran bir tülkü mədəniyyətidir. Aslan mədəniyyəti tülkü mədəniyyətinə məğlub oldu. Nökərlərin və qadınların zəfəri. Burjuaziya bizə nüfuz etmək üçün mürəbbiyələri, aktrisaları, müğənniləri göndərdi, yaltaqlana-yaltaqlana içimizə sızdı. Gəmirdi və yıxdı. Tənzimatdan sonra öz qabığına çəkilən alimlər sinfi bu yəcuc-məcuc zümrəsinin zəfəri qarşısında özünü itirdi. Və tarix səhnəsindən çəkildi. Onsuz da, artıq təbii müttəfiqləri də qalmamışdı.

Dövləti-Aliyyənin təhrif olunmuş xristianlıqdan öyrənə biləcəyi heç nə yox idi. Keşiş orduları xəbis mənfəətlər ardınca gəlirdi. Buna görə də layiqli cavabını verib geri yollayırdı.

Avropa heç bir qərblini bizə, boğazımıza sarılaraq zorla tanıda bilməzdi. Buna görə də öz içimizdən müttəfiqlər tapdı. Bir qismimizi bir qismimizə qarşı əfsunladı və səfərbər etdi. Ziyalılarımız Avropanın yarımçıq həqiqətlərinə inandı. Öz xəzinələrini

xor gördü. İslamiyyət yekparəliyini itirdi. Ziyalılarımızın yerinə getdikcə fransızlaşan bir zümrə gəldi. Amma xarabalıqda əbədiyyən qalmaq olmaz. İtirdiyi günəşin yerinə heç olmasa bir şam yandırmaq lazım idi. Avropanın ideologiyalarına qarşı dünya görüşü deyərək müqavimət göstərdi. Bu vaxta kimi tək kitaba inanırdı. Halbuki indi qarşısında saysız kitablar dayanmışdı. Avropanın dilini də düz-əməlli bilmirdi. Ümumi dil tapmadan, bir konsensus olmadan nə sənət meydana gələr, nə də düşüncə. Bunların hamısı dünya görüşündən bəhrələnir. Dünya görüşü olmadan təfəkkür olmaz, sənət olmaz. Lakin düşüncə qurudu, sənət korlandı. 1960-cı illərə qədər Türkiyədə özümüzə məxsus olan heç bir sənət və düşüncə məhsulu görə bilmərik. Cəmiyyət eyni dəyərlərə inanmamaqdadır. Anomiya (qaydaların tənəzzülü nəticəsində çıxan böhran) XIX əsrdə sənaye inqilabından sonra ortaya çıxmışdı. Bu, anarxiyadan daha əhatəli bir ifadədir. Toz halına gəlmişik, palçığa dönmüşük. İctimai dəyərlər mənzuməsi qurula bilməzsə, istiqbalımızın aydınlıq olacağı iddia edilə bilməz. Dostluğun cücərməsi üçün cəmiyyətin müştərək dəyərlərə inanması şərtdir.

Bu gün bütün dünya avropalılaşmışdır. Əlbəttə, Avropanı tanımalıyıq. İrfan insanlığın müştərək malıdır. Amma bilik özümüzdən başlayır. Özünü bilən Rəbbini də bilər. Öz dəyərlərimizi bilmək, cəmiyyəti tək vücud halında yaşadan, tarixi bir musiqi halına gətirən əcdadımızı öyrənmək lazımdır. İdeologiyalara qarşı sonuna kimi mübarizə aparmaq lazımdır.[11]

## Modernləşmək meyarları

Modernləşmək ümumi olaraq "az inkişaf etmiş ölkələrə inkişaf etmiş ölkələrin vəsflərini qazandıran sosial dəyişmə periodu" deyə açıqlanır. Az inkişaf etmək, çox inkişaf etmək nə deməkdir? Bu sosial dəyişmə periodu öz-özünə irəliləyir, yoxsa xarici müdaxilələrlə? Müasir mədəniyyətin təmsilçiləri məğlub olanlara

11. Cəmil Meriç, *Sosyoloji Notları ve Konferanslar*, İstanbul 2011, s. 299-301.

əvvəlcə özlərini nümunə göstərirlər, sonra isə mənsub olduqları quruluşu, yəni Avropanı. İkinci Dünya müharibəsi Avropa dövlətlərinin zəifləməsinə və Amerikanın nüfuzunun artmasına şahid oldu. Qərb dilləri yeni bir termin ilə zənginləşdi: amerikalılaşmaq. Artıq Avropanın amerikalılaşmasından söz gedir. Amma dünyanın qalan bölgələrindən söz gedərkən, onlar üçün istifadə olunan ifadə qərbliləşmək idi. Müharibədən sonrakı illərdə yenicə ortaya çıxan bu ifadənin çərçivəsinin olduqca dar olduğu qənaəti ortaya çıxdı. Daha əhatəli bir ifadəyə ehtiyac var idi. Bu ehtiyacı qarşılamaq üçün "modernləşmək" kəlməsi uyduruldu. Modernləşmək istər bütün modernləşmiş ölkələrin, Avropa və Şimali Amerika kimi qərbləşmiş ölkələrin, istərsə də Sovet İttifaqı və Yaponiya kimi Şərqə yayılan ölkələrin inkişafdakı bənzərliklərini, həmçinin modernləşməkdə olan toplumların, harada olmasından və hansı mədəniyyətə mənsub olmasından asılı olmayaraq, məqsədlərindəki bənzərliyi tək kəlmə ilə ifadə edirdi. Bu bənzərliyin əsası iqtisadi inkişaf idi. Artıq toplumlar iqtisadi nailiyyətləri nəzərə alınaraq sinifləndirilir, qarşılaşdırılır və dəyərləndirilirdi, yeganə sağlam ölçü bu idi.

Sosial elmlərlə məşğul olanların isə hələlik həmfikir olduqları bir modernləşmə meyarı yoxdur. Bununla birlikdə, xüsusilə investisiya və resursların istifadə olunması ilə əlaqəli mövzularda alınacaq qərarlarda əhali artımı, şəhərləşmə nisbətləri, ailə quruluşu, gənclərin cəmiyyətə qazandırılması, təhsil və xəbərləşmə kimi iqtisadiyyat xarici faktorların da hesaba qatılması mövzusunda elm adamları getdikcə ortaq məxrəcə yönəlməkdədir. Həqiqətən də modernləşmə ümumi bir planlamanın xaricində tutula bilməz. Dolayısilə elm adamları da modern cəmiyyətin ortaq vəsfləri mövzusunda müəyyən bir müştərək zəmin tapmaq məcburiyyətindədirlər. Modern cəmiyyətin ortaq vəsflərinin ən çox gözə çarpan xüsusiyyətlərini belə xülasə edə bilərik:

1. İqtisadiyyat sahəsində özünü ayaqda tuta bilən, heç olmasa həm istehsal, həm də istehlakını nizamlı olaraq artıran bir böyümə,

2. Siyasi sahədə xalqın hakimiyyətə qatılmasını təmin edəcək bir üsul, heç olmasa siyasi alternativləri müəyyən etməkdə və seçməkdə demokratik təmsil,

3. Mədəniyyət sahəsində universal və rasional normalar,

4. Bütün bunlara paralel olaraq şəxsiyyətin formalaşması, bunun üçün də fərdlərin müəyyən bir toplum içində təsiredici rol oynayacaq şəkildə iş görməyə hazırlanması və bu şəxsiyyət dəyişikliyinin içində heç olmasa bir mücadilə əzminin, müvəffəqiyyət ehtiyacının yer alması.[12]

## Demokratiya və İslamiyyət

İki əsr əvvəl nəşr olunmuş ikonalarla bağlı bir kitabda demokratiya qadın olaraq təsvir edilmişdi: alnında asma yarpaqlarından bir tac, əynində qaba geyimlər, bir əlində nar, bir əlində isə ilan. Hər dövr öz röyalarını, öz əməllərini kəlmələrlə dilə gətirmişdir, hər demaqoq da öz yalanlarını. Uğrunda sellər kimi qan axıdılan bu demokratiya nədir?

Volter deyir: “Saf demokratiya aşağı təbəqənin despotizmidir”. Monteskyo: “Demokratiyanın əsası fəzilətdir”, - deyir, De Maistre isə: “ehtiraslı həvəs”, - deyir. Vakherota görə, “demokratiya ədalətin təməlidir”. Prudona görə, “demokratiya ruhani və cismani bütün iqtidarların sonudur”. Terriyə görə isə “demokratik cümhuriyyətlərin sonu əxlaqi tənəzzüldür”.

Bu günə gələk: Veberçi sosioloqa görə, demokratiyanı digər siyasi rejimlərdən ayıran ilkin xüsusiyyət azadlıqdır. Azadlıq demokratiyanın başlanğıcından etibarən mövcud olur. Bu, dərəcə qəbul etməyən, qeydsiz-şərtsiz bir sərbəstlikdir.

12. Cəmil Meriç, *Kırk Ambar II,* İstanbul 2011, s. 44- 47.

Müasir avropanın demokratiya anlayışını qısaca olaraq bu şəkildə xülasə etdik. İndi də İslamiyyətin dövlətə münasibətinə göz ataq:

İnsanlar dünyaya gəldikləri andan etibarən bərabərdirlər: qulluqda və fanilikdə eynidirlər. Amma bu, mənfi dərəcədəki bir bərabərlikdir. Sonra iman sayəsində yeni bir bərabərlik əldə edirlər, qardaş olurlar. Rəbbin lütflərindən eyni ölçüdə faydalanacaqlar. Bu isə hüquqi və müsbət bərabərlikdir.

İnsanın bütün mənliyi mömin olmasına bağlıdır. Mömin olduğu zaman hüquqi mahiyyət qazanır; dilənçi ilə xəlifəni eyni tutan bir mahiyyət.

İslam nəzərində azadlıq fəlsəfi deyil, hüquqi bir məfhumdur. Bunun təməlində ictimai sahədəki bütün fərdlər arasında həqiqi bir haqq bərabərliyinin olduğu inancı var.

Hökm sahibi Allahdır, bu hakimiyyət başqasına həvalə edilə bilməz. Allah hər bir ulül-əmrin (hakimiyyəti idarə edən əmr sahibinin) nüfuzunu birbaşa təmin edir. Əmir (və ya sultan) seçimlə gəlsə də, bu gerçək dəyişmir. Allahdan savayı başqa bir nüfuz sahibi yoxdur. Var demək, Allaha şərik qoşmaq sayılır. Ulül-əmr sadəcə Allahın əmrini icra edən vasitəsidir. İslamda hər cür özbaşınalığa, Quran əhkamının xaricinə çıxan hər növ zülm və keyfiliyə qarşı mübarizə aparmaq üçün müxtəlif yollar vardır.

Kitab sahibi olan qövmlər İslamın üstünlüyünü qəbul etmək və ona ciyzə ödəmək şərti ilə məhdud, lakin zəmanətli bir haqq ilə təmin olunurlar. Bu himayə ümmətin mərdliyindən, səxavətliliyindən qaynaqlanır. Bu bir növ müsafirpərvərlik kimidir. Himayə edilənlərin vəzifələri, borcları az olduğu üçün haqları da azdır. İbadətlərinə davam edə bilər, öz qanunlarını tətbiq edə bilərlər.

Bütpərəstlərin isə bu cəmiyyətdə yeri yoxdur. Amma müsəlmanlar müəyyən vaxtlarda onları da himayələrinə götürmüşdür. Hər kafir və ya bütpərəst İslamiyyəti qəbul etdiyi andan ümumi

müqaviləyə daxil olmuş olur. İslam bütün dünyaya, bütün insanlara xitab edir. Qərəzlilik də yoxdur. Həqiqi müsəlmanın nəzərində sosial sinif deyə bir məfhum yoxdur. Sərvət və ya vəzifə fərqinə görə insanları ayırmaz; müsəlman müsəlmana bərabərdir.

Əmr Quranındır. Dini hökmlər bütün müsəlmanlara aiddir. Möminlər Quranı oxuyar, əzbərləyər və hərəkətlərini ona görə müəyyən edərlər. Həm mülki, həm də dini hökmlərin icra gücü var. Hökm yalnız Allahındır. Vasitəçi (ulül-əmr) tərəfindən icra edilir. Ulül-əmrin özbaşına şəriəti dəyişmək, hökm qoymaq səlahiyyəti yoxdur.

Vətəndaşlığı meydana gətirən qan və ya torpaq deyil, inancdır. “Ümmət” ifadəsinin qarşılığı Avropada yoxdur. Bu, siyasi və dini bağlılıqdır. Quran həm ibadət kitabı, həm də konstitusiyadır. Xitab etdiyi kütlə isə bütün insanlıqdır.

Deməli, İslamın təməl məfhumu bərabərlikdir. Bu bir məqsəd deyil, haqdır. Azadlıq bərabərliyin başqa bir adı və ya görünüşüdür. Sinifləri qəbul etməyən, heç kəsə imtiyaz verməyən bir dində kim kimə qarşı azadlıq mübarizəsi apara bilər? Qərb azadlığı xəta etmə haqqı kimi görür. Müsəlmanın belə bir haqqı yoxdur. Çünki o, əbədi həqiqətin, yeganə həqiqətin, bütün cahanı əhatə edən həqiqətin əmrindədir.

İslamiyyət qanun və nizam-intizam hakimiyyətidir. Qərbin gerçəkləşdirməyə çalışdığı azadlığı İslam çoxdan təmin etmişdir. Fikir azadlığını insanı insana düşmən edən bir təhrik silahı olaraq deyil, bir xəbərdarlıq və irşad vasitəsi olaraq qəbul etmişdir. Əsl demokratiya elə İslamdadır. “Ana Qərb”dəkindən olduqca fərqli bir ruh iqlimində inkişaf edən, tamamilə fərqli istinad yerlərinə söykənən bir demokratiya.[13]

---

13. Cəmil Meriç, *Bu Ülke,* İstanbul 2010, s. 171-174.

## İntelligent

Hər ölkənin, hər dövrün, hər sinfin, hər ideologiyanın intellekual anlayışı fərqlidir. Dünya miqyasında qəbul edilmiş bir intellekt meyarı yoxdur desək, yanılmarıq.

Sağın nümayəndələrinə görə, intelligent ya qarışıqlıq yaratmaqdan xoşlanan, tündxasiyyət, çoxbilmiş, hər kəsin vəkilliyini etməyə çalışan boşboğaz, ya da daxili həyəcandan məhrum, xeyrə-şərə qarışmayan, hansısa bir sahədə elm mütəxəssisidir. Sol isə bəzən ziyalılara dost olur, bəzən düşmən. Daha doğrusu, əgər intelligent kimi gördükləri şəxs öz sıralarından biridirsə, alqışlanmağa layiq görərlər. Sağın intelligenti isə onlar üçün çoban iti kimidir. Onlara görə intellektin sağı ola bilməz; çünki intellekt yüksələn bir sinfin (işçi sinfinin) şüurudur ki, o da mütləq inqilabçı olmalıdır. Fərqləndirici xüsusiyyəti isə tənqiddir.

Əslində intelligent mövzusunu belə ümumiləşdirə bilərik:

1. İntelligent öz dövrünün ifranına sahib olmalıdır. Ölkəsinin dilini, ədəbiyyatını, tarixini bilməli, dünyadakı müəyyən aparıcı cərəyanlar haqda məlumata sahib olmalıdır.

2. Mühakiməsiz hökmlərə etibar etməməli, hadisələri öz düşüncələri ilə ölçüb-biçməlidir.

Başlıca xüsusiyyətləri  dürüst, gözüaçıq və cəsur olmaqdır. Yəni o, təkcə biliyi daşıyan hambal deyildir. Həqiqət uğrunda hər döyüşə atılmağa qabil müstəqil bir mücahiddir. İntelligent təriflərin möhtəvası içində həbs edilə bilməz. Bu məfhumu dəyişkən ölçüləri ilə qavramaq üçün tarixə müraciət etmək lazımdır.[14]

## Qadın niyə başqası üçün yaşayır

Qadının başqası üçün yaşaması və ya əsas məqsədinin özü xaricində olması ona kişi qarşısında mənəvi üstünlük verməz. Qadının həyat mərkəzinin özünün xaricində olması, əslində,

14. Cəmil Meriç, *Mağaradakiler*, İstanbul 2012, s. 24.

kökləri çox dərinlərdə olan daxili instinktdir: nəslin davam etməsi instinkti. Bu instinkti dişi heyvanlarda və bitkilərdə də müşahidə edə bilərik; onlar da nəslin davam etməsi üçün özlərini fəda etməyə razı olurlar. Bu istək uğrunda çiçəklər ləçəklərini fəda edər, kəpənəklər həyatını. Dişinin həyat mərkəzinin özü xaricində olması nəslin davamı üçün bir zərurət təşkil edir. Dişi fədakarlıq etməsəydi, həyat bir həmlədə sona çatardı.

Qadınlarda mövcud olan bu instinkt daha ümumi və daha dərinlərdə kök salmış başqa bir instinktə bağlıdır: tamamilə yox olmamaq istəyi. Tamamilə yox olmamaq, yəni heç olmasa bir könüldə, bir kitabda, yaxud mərmər daşın üstündə yaşamağa davam etmək qadın-kişi bütün insanların müştərək məqsədidir.

Bu məqsədə nail olmaq üçün təbiət insanların əmrinə iki güc verib: eşq və ehtiras. Vücudumuzdan başqa bir vücud yaratmaq, gələcəyə aparmaq, adımızı yaşatmaq üçün eşq. Öz fikrimizdən yeni bir dünya yaratmaq, sonsuza qədər möhrümüzü vurmaq üçün ehtiras.

Ana öz övladı üçün hər cür fədakarlığa razı olar. Kişi isə öz əsəri üçün. Bu onlar üçün acı bir şəhvət olar. Batan gəmidən uşaqlarını xilas edən qadın gülərək can verər. Sənətkar heykəlini, kitabını, bəstəsini tamamlamaq üçün kainata, aclığa, hətta ölümə meydan oxuyar. Hansısa bir əsərdə gerçəkləşmək, bir əsərdə yaşamaq arzusu həm kişini qanadlandırar, həm də qadını.

Eşqdə əbədiləşmək isə kişidən daha çox qadının imtiyazıdır. Ancaq uşağına həyat verən ana ölümsüzlüyü bütün dərinliyi ilə hiss edə bilər.

Qadın bunun üçün eşqə susayar, özünü sevgiyə və sevgiliyə həsr edər. Başqa biri üçün yaşamaq, onu sezmək, anlamaq daha çox qadının imtiyazıdır. Qadın buna görə daha çox hissiyyatlı, daha çox duyğuludur. Buna görə də həyat mərkəzi özünün xaricindədir.

Kişi baxımından bu vəziyyət fərqlidir. Kişi öz vücudundan uşaq çıxarda bilməz. Onu əbədiyyətə aparan körpü uşağı deyildir. O, öz əbədiyyətini başı ilə, ürəyi ilə və ya əli ilə yaratmaq məcburiyyətindədir. Buna görə də həyat mərkəzi elə özüdür. Bələdçisi isə ağlı və mənfəətləridir. Kişi yeri gəlsə həyatını fəda edər, amma ehtirasından vaz keçməz. Təkcə qadınların başqaları üçün yaşadığını, yaxud bütün kişilərin eqoist olduğunu iddia etmirəm. Bu mənada bir çox qadın kişi kimidir, bir çox kişi də qadın kimi.

Kişi ilə qadın arasındakı bu fərqlər kəskin xətlərlə dəqiqlik ifadə etmir, əlbəttə. Bir çox kişidə qadına xas olan fəzilət və ya qüsurlarla qarşılaşdığımız kimi, bir çox qadında da kişiyə xas olan fəzilət və ya qüsurlarla qarşılaşmaq mümkündür. Hər kişinin içində müəyyən ölçüdə canıyananlıq hissi olduğu kimi, hər bir qadında da müəyyən ölçüdə eqoistlik hissi vardır.

Demək istədiyim budur: kişilərin böyük əksəriyyətinin şəxsiyyətini formalaşdıran eqoizm, qadınların isə böyük əksəriyyətinin qədərini təyin edən canıyananlıq, şəfqət duyğularıdır. Kişinin həyat mərkəzi adətən öz daxilində, qadınınkı isə özünün xaricindədir.[15]

## Niyə Osmanlının düşüncəyə ehtiyacı yox idi?

Osmanlı imperiyasından böyük bir mütəfəkkir çıxmadı. Çünki düşüncəyə ehtiyacı yox idi. Düşüncə bir fəlakətdir; məcbur qalmadan, çətinə düşmədən insan düşünməz. Osmanlı imperiyasının Avropa qarşısında məğlub olması industrial cəmiyyətin əsgər cəmiyyətinə qalib gəlməsidir. Qılınc tarixin əmrindədir. Hakim sinfin ideologiyası hakim ideologiyadır. Bu mənada Avropada hakim sinif olan burjuaziya hərbi döyüşə ehtiyac duymadan bir ovuc ziyalımızı əmrinə müntəzir hala gətirdi. Osmanlı imperiyasının çökməyə davam etdi. Düşüncə tarixində də, hiss dünyasında da iki cür zəfər var:

15. Cəmil Meriç, *Kırk Ambar II*, İstanbul 2011, s. 529-530.

1. Pirusvari zəfər. Qalib gəlib, lakin bu zəfərin məğlubiyyətdən çox da fərqi yoxdur. Olduqca çox itkilər verilib, təkcə adı zəfər olan böyük bir zərərdir.

2. Pironvari zəfər. Düşməni yox fərz edərək qazanılan, antitezi yox sayaraq əldə edilən zəfər. Antitezi axtarmayan, onunla görüşməyən, qarşılaşmayan və hətta onun qarşısında güclənməyə çalışmayan düşüncə məğlubiyyətə məhkumdur. Pironvari zəfərlər Pirusvari zəfərlərdən daha təhlükəlidir.

Osmanlı imperatorluğunda düşüncəyə ehtiyac yox idi, Quran hər şeyə kifayət edirdi. Avropa öz göstəriş və səs-küyü ilə şüurumuzu fəth etdi. 1917-ci ilə qədər təkcə Qərbin təsiri var idi, ondan sonra Rusiyadan gələn bəzi düşüncə cərəyanları işi daha qarışıq hala gətirdi. Lakin bunların sintezini apara bilən mütəfəkkirlərimiz yox idi.

Türk ziyalısı düşüncə olaraq daha çox Fransanın təsirindədir. İctimai tarix baxımından da Fransa bizə daha yaxındır. Bundan sonra daha çox İngiltərəni deyil, Amerikanı tanıdı.

Qərb imperializmi Türk insanını tanımaq üçün səy göstərdi. Bu təşəbbüsləri Avstriya və Rusiyada başladı. Avstriyada ilk olaraq Onomastika (xüsusi adların siyahısı) yazıldı. İlk türk ədəbiyyatı tarixini yazan isə italyandır: Abba Toderini. Sonra İngiltərə də Redhousla bu karvana qatıldı. Bölgədəki erməniləri Rusiyanın təsirinə qapdırmaq istəməyən Amerika dərhal Robert kollecini açdı. Onlar tanımaq istədilər Türkiyəni. Bu, təktərəfli bir istək idi. Qərb tarixinin sosial strukturu təkcə Fransa ilə izah edilə bilməz. Halbuki Tənzimatdan bu günə qədərki Türk mütəfəkkirlərinin tarixi, fransızca bilənlərin siyahısıdır desək, yanılmarıq.

Avropanın bəxti onda gətirib ki, onlar tək insan kimidir, bir-birinin mirasçısı olublar. Xristian avropalı düşüncə və mədəniyyəti əl-ələ verərək qurmuşdur. Tək dil var: latınca. Əslində, Şərqdə də eyni tək dil imtiyazı var idi: ərəbcə. Lakin İbn Xəldun-

dan sonra İslam düşüncəsi dayandı. Bundan sonra sanki düşüncə yoxdur, qəlibləşmiş fikirlər var.

Hobbs İngiltərədən Fransaya gəldi, Dekartı tanıdı, İtaliyada Qalileyi tanıdı. İngiltərədə Bekon və Harveyi tanıdı. Yəni Qərbdə işlər qrup halında olur. Hobbs, Lokk və ya Melbrans Dekartı tanımasaydı, yarımçıq qalardılar. Volter Lokku tanımasaydı, Volter ola bilməzdi. Didronu materialist edən Hobbsdur. Osmanlı imperiyası isə… Həm dinimiz, həm dilimiz, həm də mədəniyyətimizlə biz bu dünyanın tamamilə xaricində idik. Tənzimatda Qərb düşüncəsi gəlməsəydi, 1818-ci ildə Avropa kapitalizmi gəlməsəydi, Osmanlı imperiyası daha uzun müddət davam edərdi. İmperiyanın bütün yükünü türklər daşıyırdı, 1839-cu ilə qədər. Həm maddi, həm də fikri yöndən iri addımlarla inkişaf edən Qərbin qarşısında öz yatağına çəkilən sel kimi dayanmış Osmanlı imperiyası var idi. Biz yalnız çökən mədəniyyətlərin mirasına yiyələndik. Bizans sifilis xəstəliyindən qırılıb gedirdi. İran, hətta Ərəbistan da sağlam ölkələr deyildi. Biz onların tarlamıza atdığı toxumu, gənc bir millət olaraq bacardığımız yerə kimi gətirdik. Amma sonra Qərb gəldi və Osmanlı imperiyası süqut etdi.[16]

## Əsl türk hərfləri ərəb hərfləridir

Kənd yerinə bircə kitab girə bilmişdi: Quran. Və xəyalı cənnətə qanadlandıran bir neçə risalə. Torpaq insanı ancaq cəhənnəmdən qurtulmaq üçün oxuyar. Kitab cənnətin açarıdır. Öyrətmən (müəllim) imamın yerini tuta bilmədi, tuta da bilməyəcək. Öyrətmən kəndə nə gətirir? Səmimiyyətsizliyi, köksüzlüyü və pafoslu danışmağı. Kənd onun üçün sanki qürbət və sürgün ölkəsidir. O da kənd üçün yad bir maddə, bir düşmən, yaxud casus kimidir. Kəndli oxuyub nə qazanacaq? Rifahında, həyat şəraitində bir dəyişiklik olacaqmı? Xeyr. Kitab onun üçün heç bir qapı açmayacaq.

16. Cəmil Meriç, *Sosyoloji Notları ve Konferanslar*, İstanbul 2011, s. 220-223.

Bir dövlət ki, bütün kəndin məhəbbətini qazanmış olan yaşlı din adamını ərəbcə əzan oxuduğu üçün həbs edəcək qədər şüursuz və axmaq olsun. Bilmir ki, bütün xristian dünyası heç bir kəlməsinin mənasını bilmədiyi halda hələ də latın dilində dua etməyə davam edir. Bir dövlət ki, icra nümayəndəsi aydınlanmaqdan qorxduğu üçün imamı tutdursun. Bir dövlət ki, topuna, tüfənginə, universitetlərinə, mətbuatına rəğmən kitabdan və hərfdən qorxsun...

Kəndlini insan edən dinidir. Dinsiz kəndli yabanılaşar, vəhşiləşər. Təkcə bizdə? Xeyr, bütün dünyada bu belədir? Kəndli oxumaq istəyər, qadağan edərlər. Bu ölkədə hazırda insanlarımızın 70%-i oxuyub-yaza bilmir. Mən əminəm ki, həqiqi türk hərfləri ərəb hərfləridir. Əgər dəyişdirilməsəydi, indi oxuyub-yaza bilənlərin sayı 70%-i keçərdi.[17]

17. Cəmil Meriç, *Jurnal I*, İstanbul 2012, s. 379-380.

# Bəxtiyar Vahabzadə

Qorxuram dünyada bir zaman gələ,
İnsanlar yaşaya, insanlıq ölə.

## Şair necə yetişər?

Bəxtiyar Vahabzadədən "Şair necə yetişər?" - deyə soruşduqda belə cavab vermişdi:

"Ən sevdiyini əlindən alacaqsan. Mənim vətənimi əlimdən aldılar".

Şair olmaq asan deyil, söz yox ki, çətindir.

Söz dəyərini, söz qədrini bilənlər üçün sözün yoxluğu təsəvvür edilməzdir. Yoxluqdan danışmaq yol verilməzdir. Şairin mümkün dünyaların içindəki o balaca mümkün dünyası sayrışan işıqlara bənzəyir.

Şairin dünyası kimi halları da sayrışır. Dəyişən hər ruhi qat bir sözün yerinə düşür.

Şair olmaqdan daha çətini isə adam olmaqdır. Sözün həqiqi mənasında "adam".

"Ad"-dan gəlmə yox, "Adəm"-dən gəlmə adam…

Bəxtiyar Vahabzadə "şair adam" oldu. Şairliyi özü şeçməsə də, Allaha qul olub adam olmağı özü seçdi. Bu səbəblə ağrılı-acılı günlər, yollar keçdi. Ayağının altından yollar çəkildi, yurdunun daşları üstünə yağdırıldı. Bəxtiyarsa bəxtindən, taleyindən dönmədi.

Düşmənlərinin yanında mətin dayandı, təklikdə göz yaşlarına azadlıq verdi. Azadlıq arzusu ilə yanıb tutuşan Bəxtiyar odunu göz yaşlarıyla söndürməyə çalışdı.

Ağladı.

Yurdunun yadlaşmasına, yaddaşın daşlaşmasına…

O daşların çox baş yarmasına, çox can almasına…

Bəxtiyarın da başı yarıldı. Qanlar damcı-damcı arxarkən əlini başına qoyub sarğı dalınca qaçmadı. Onu ağrıdan başının yarığı yox, daşı atanın qardaşı olmasıydı. Necə ki, Hz. Yusifi qardaşları quyuya atdılar və qaçdılar. Quyuda iki il qaldı. “Dərsini alsın”, - dedilər. Quyuda təklik onu yetişdirdi və Günəş kimi parıldatdı. Onu quyuya atanlar özləri quyuya düşdülər, amma Hz. Yusif onları və cəmiyyəti quyudan çıxartdı. Bənzər həyatı şair də yaşadı.

Bəxiyar Vahabzadə üşüyənləri, üstünə yorğan çəkib yatanları yataqlarından qaldırdı. Azadlığa doğru gedən yolda geridə qalanları, yıxılanları bədəninə bağlayıb qaldırdı.

Bəxtiyar Vahabzadənin qələmi o qədər də allı-şallı, bəzəkli deyil. Uzun-uzadı, xaotik misralar yoxdur poeziyasında. Dili düzdür, itidir, açıqdır. O yana, bu yana qaçmağı yoxdur. Başının üstündə barmağı tətikdə çiyni ulduzlarla dolu sovet polisi ona “qatıq qaradır” dedirdə bilməz. Heç qara rəngli qələminə dur deyə bilmədiyi kimi…

### Şəki üsyanının şairin həyatına təsiri?

Bəxtiyar Vahabzadə 1925-ci il avqust ayının 16-da Şəki şəhərində anadan oldu. Balaca Bəxtiyar dünyaya göz açar açmaz anasının qoynundan alınaraq ögey qardaşının övladı olmadığına görə onun qoynuna qoyulur. Ögey qardaşını ata, yoldaşını ana bilir. Ancaq bu ögeylik o qədər şirin, o qədər doğma olur ki, ürəyin incə tellərini sızıldadan ana şeirlərinin səbəbinə çevrilir.

Dünya Bəxtiyarı odla-alovla salamlayır. XX əsrin birinci yarısı Azərbaycanın şanlı tarixi olduğu qədər də qanlı tarixi oldu. 1918-ci il 28 mayda qurulan Azərbaycan Cümhuriyyəti azadlığını sadəcə 23 ay yaşaya bildi. Ruslar Azərbaycanı yenidən işğal etdi və ağır günlər başladı. Bakı işğal edilmişdi, amma mərkəzdən uzaq şəhər və rayonlar rus əsarətinə razı ola bilmirdi. Bu yerlərdən biri də Şəki idi. Yerli camaat bütün imkanlardan istifadə edərək ruslara qarşı mübarizə aparırdı. 70 yaşlı gücdən düşmüş qocalar əlində qurumuş ağac budağı əli silahlı rus əsgərinin üstünə şığıyır, qarşısını kəsirdi. Bu şəhərə girə bilməzsən deyə-deyə...

Azərbaycanın demək olar ki, hər bölgəsindəki cəhdlərə baxmayaraq üsyanlar yatırılır. Evlərə, kəndlinin məhsuluna, mal-qarasına od vurulur. Üsyanda iştirak edənlər cəzalandırılır. Bəxtiyarın ailəsinə də üsyanda iştirakına görə cəza verilir. Bəxtiyar doğma diyarına ayaq basa bilməmişdi, yurdu yanırdı. Yanmağı, yanmaqdan qorxmağı onda anladı. Özünün də dediyi kimi: “Yanmasan qorxmazsan, mən yandım, qorxdum”. Hərçənd ki, bu qorxu onu yetişdirdi. Ayaqları yanmış, ürəyinə od atılmış Bəxtiyar üsyanı ruhuna sığışdırdı və ömrü boyu güllə kimi düşmənlərinin üstünə saçdı.

Uşaqlığı Şəkidə keçir. İlk təhsilini orada alır. Ən əsası yaddaşının alt qatlarını hələ manqurtlaşdırılmamış elindən qazanır. Tarixini, mədəniyyətini, adət-ənənəsini və dəyərlərini dəyişdirilmədən, ilk ağızlardan nənəsindən, babasından, ailəsindən, hələ sözü keçən kəndin ağsaqqallarından alır. Nağıllar, hekayələr, dastanlar, xüsusilə şeirlərlə yetişir.

Bir də Şəkinin təbiəti... Füsunkar təbiət Bəxtiyarı valeh etmişdi. Qələmin nazik ucundan böyük təsvirlərin çıxması, ətirsiz, qoxusuz kağızlardan təbiət qoxusunun gəlməsi uşaqlığının kənddə keçməsindən qaynaqlanırdı.

O, Azərbaycanın parçalandığı bir vaxtda böyüyürdü. Qardaşı qardaşa düşmən etdirən bir rejimdə... Bir dəfə ona belə

deyirlər: "Özünüz şəkili olduğunuz halda, hələ Şəkiyə bir şeir həsr etməmisiniz". Bəxtiyar Vahabzadə irada şeirlə cavab verir. Yazdıqlarında həmişə müəyyən bir sistem və məqsəd olduğu kimi pərdə arxasında şiddətli sarkazm yatır. İrada qarşı cavab olaraq yazdığı şeirə nəzər salanda elə ilk bəndindəcə, necə deyərlər, "məsələni həll edir".

*Bir nəğmə qoşmadım hələ mən sənə,*
*Dağlar bunu mənə kəsir sanmasın.*
*Mən dedim, vurğunam Azərbaycana,*
*Deyirəm, heç zaman xırdalanmasın.*

*Mən sənə borcluyam öz balan kimi,*
*Çox da ki şerimdə görünmür adın.*
*Mənim oxuduğum nəğmələrimi,*
*Mənim qulağıma sən pıçıldadın.*

*Şerimin mayası – bu qaynar nəfəs*
*Sənin öz çiçəyin, sənin öz barın.*
*Şerimdə dil açıb danışırmı bəs,*
*Sənin bulaqların, göy çinarların?*

*Mən həm bakılıyam, həm lənkəranlı,*
*Gəncəli, qubalı, həm naxçıvanlı.*
*Şəkili, şirvanlı, qarabağlıyam,*
*Bütöv Vətənimə bütöv bağlıyam.*

*Mən sənin qoynunda gəldim cahana,*
*Məni bəxş elədin Azərbaycana.*
*Həmişə mən sənin həndəvərində*
*Uçan bir quşam.*
*Bir eldə doğulub,*
*xoşbəxtəm ki, mən*
*Böyük bir Vətənə oğul olmuşam.*

1934-cü ildə ailəsi ilə birlikdə Bakıya köçür. Bəxtiyar Bakıya ayaq basdığı dövr də ürəkaçan deyildi. Sovet rejimi güclənmiş,

mərkəzləşdirilmiş sistemi yerli-yerinə oturmuş, ayrı-ayrı respublikaların, demək olar ki, bütün qurumlarına “gizli əməkdaş”larını yerləşdirmişdi. Bir sözlə, rejimdən xəbərsiz quş da uça bilmirdi. Dövrün aydınlarının, xüsusən də söz ustalarının qələmindən çıxan şeirlər artıq Moskvanı narahat edirdi. Vətən, millət, yurd sözləri keçən şeirlər belə həbs etmələrinə kifayət edirdi.

### Məktəbdə zorla rus dilində danışmağa məcbur edilməsi

Bəxtiyar Vahabzadə Bakıya köçəndə doğma vətənində, yurdunda yadlıq çəkir. Onun göz açdığı yerdə ənənəsini qoruyan kəndli uşaq doğma, şirin dilində danışırdı. Bakı isə yadlaşmışdı. Bakının bağrını qoparmışdılar. Daşlaşan kitabələr dağıdılmış, yerinə yeniləşmiş rus ağılı oturdulmuşdu. Nə dil həmin dil idi, nə din həmin din…

Orta təhsilinə Bakıda davam edir. Bəxtiyar şirin-şirin doğma dilində danışır, təzəcə Bakıya gəldiyi üçün ləhcəsi seçilirdi. Müəlliməsi ona rus dilində danışmağını deyir. O isə rus dilini bilmirdi. Müəlliməsi təkidlə rus dilini öyrənməsini tələb edir. Tərbiyə ocağı məktəbdə Bəxtiyar ana dilinə qarşı ilk tərbiyəsizliklə qarşılaşır. Vətən dərdindən sonra ürəyinə dil dərdi də düşür. Rus dilini öyrənir. Elə öyrənir ki, rus ədəbiyyatından poetik tərcümələr edəcək dərəcədə. Artıq Bəxtiyarın daha bir dərdi vardı. Ana dili dərdi…

*Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.*
*Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi.*
*Bu dil, - əcdadımızın bizə qoyub getdiyi*
*Ən qiymətli mirasdır, onu gözlərimiz tək*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək.*

*Ana dilim, səndədir xalqın əqli, hikməti,*
*Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.*
*Ürəklərə yol açan Füzulinin sənəti,*

*Ey dilim, qüdrətinlə dünyalara yol açmış.*
*Səndə mənim xalqımın qəhrəmanlıqla dolu*
*Tarixi varaqlanır,*
*Səndə neçə min illik mənim mədəniyyətim,*
*Şan-şöhrətim saxlanır.*
*Mənim adım, sanımsan,*
*Namusum, vicdanımsan.*

*Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi,*
*Bu dil, - əcdadımızın bizə qoyub getdiyi*
*Ən qiymətli mirasdır, onu gözlərimiz tək*
*Qoruyub nəsillərə biz də hədiyyə verək.*

*Ey öz doğma dilində danışmağı ar bilən,*
*Bunu iftixar bilən*
*Modalı ədəbazlar*
*Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.*
*Qoy bunlar mənim olsun.*
*Ancaq Vətən çörəyi,*
*Bir də ana ürəyi*
*Sizlərə qənim olsun.*

Bəxtiyar Vahabzadə orta məktəb dövrünü ağrılı-acılı keçirir.

İllər keçdikcə sovet ideologiyasının beyinlərə zorla yerdilməsinin şahidi olur...

Doğma dilinin alçaldılıb əvəzində rus dilinin qaldırılıb dağın başına qoyulmasının, digər millətlərdən olanlar bir yana, Azərbaycan türklərinin az qala evində öz dilini unudub rus dilində danışmasının şahidi olur…

Beş-on il əvvəl azadlığını əlindən alan, boğazını sıxıb nəfəsini kəsən, yurdunu tar-mar edən, yandırıb-yaxanları kimlərinsə bağrına basdığı, qucaqladığının şahidi olur…

Qardaşın qardaşı satmağının şahidi olur…

Azərbaycanı satmayan, yoldaşını, qardaşını satmayan, güllə önünə atmayan, Stalinə təriflər, sovetlərə tərənnüm yazmayan Almas İldırım kimi onlarla şairin, yazıçının, Azərbaycanın azad olması uğrunda illərlə mübarizə aparan, bu yolda canını, malını, hətta ailəsini qurban verən Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov kimi onlarla aydının fəda olduqlarının, yurdlarından didərgin salınmalarının şahidi olur...

Vətənini, yurdunu, dilini, millətini sevdiyi üçün Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin və yüzlərlə Azərbaycan ziyalısının respressiyaya məruz qalmasının, döyülərək, silah önünə düzdürülərək öldürülmələrinin şahidi olur…

Azərbaycanda öldürülən, sürgün edilən aydınların həyat yoldaşlarının evlərinin əlindən alınmasının, işlərindən çıxarılmasının,  küçələrə atılmasının, mərğur türk qadınının sürgün edilməsinin şahidi olur…

Azərbaycanın getdikcə iflic olmasının, məhvə doğru aparıldığının, oda atıldığının, qol-qanadının kəsildiyinin şahidi olur…

Körpəliyindən laylalarla, bayatılarla, nağıllarla böyüyən və uşaqlığında sözünün, qələminin yetdiyi qədər şeirlər yazan Bəxtiyar Vahabzadə ədəbiyyatın repressiyasının, ədəbiyyatın stuluna təpik vurularaq ayağının altından çəkildiyinin, güllələrin ədəbiyyatı deşib keçməsinin şahidi olur…

*İki yolun ayrıcında dayanıb,*
*Gah o yandan, gah bu yandan qorxuram.*
*Divdən deyil, milçək qədər gücüylə*
*Mən özünü div sayandan qorxuram.*

*Haqq evində haqq divanı qurulmuş,*
*Hər qazancın öz bahası sorulmuş.*
*Təmənnasız boynumuza yük olmuş*
*Bağışlanan şərəf-şandan qorxuram.*

*Bu dünyadan umacağım mizandır,*
*Qorxduğum kəs bu mizanı pozandır.*
*Tox gədanın qudurması yamandır*
*Acandan yox, mən doyandan qorxuram.*

*Uyuruqsa nəfs adlanan elçiyə,*
*Tüpürürük vicdan kəsən ölçüyə.*
*Odur verən düz qiyməti hər şeyə*
*Vicdanından qorxmayandan qorxuram.*

Qərarını verir. Film yaradacaqdı. Çəkəcək yox, yaradacaq. Gördüyü, eşitdiyi hadisələri zehninə yerləşdirir, obrazları, səhnələri, keçidləri, kulminasiyası, bir sözlə hər şeyi zehnində ekranlaşdırır. Bəxtiyar Vahabzadənin filmi trilogiya olacaqdı. Vətən, Dil və Azadlıq.

1942-ci ildə Azərbaycan Dövlət Universititenin Filologiya fakültəsində təhsil almağa başlayır. Filologiya həmin dövr üçün olduqca əhəmiyyətli sahə idi. SSRİ üçün vacib iki sahə var idi: mühəndislik və dil-ədəbiyyat. Birincisi "qarın doyurmaq", ikincisi "göz boyamaq" üçün. Gənc Bəxtiyar filologiya fakültəsində oxumaqla üç məsələni həll edir: Hakimiyyətin təbliğat aparatı ədəbi cəmiyyətin içərisində yer almağı, sovet ideologiyasının qurbanı olmuş və bu ideologiyaya təriflər yağdıran "şəxs"lərin qarşısında yer almağı, xalqı mümkün olduğu qədər sovet düşüncə minalarından təmizləyərək, milli düşüncəni bərpa etməyi.

Filologiya fakültəsinin dövrünə görə daha bir əhəmiyyəti onda idi ki, şair və yazıçıların əksəriyyəti bu fakültələrdə müəyyən mövqelərə sahib idi. Ən başlıcası onlar müəllim olmaqla yanaşı, həmçinin mətbu orqanlarda ciddi fiqurlar idi. Sənə dərs deyən müəllim həm şair idi, həm çox yaxşı dil və ədəbiyyat mütəxəssisi idi, həm mətbuata əli çatırdı, həm də təfəkkürü şəkilləndirən Azərbaycan Yazıçılar Birliyinin ya üzvü idi, ya da rəhbər vəzifələrində işləyirdi. Dolayısı ilə hakimiyyətin əllərindən biri idi.

1943-cü ildə ilk şeiri nəşr edilir. "Ana və şəkil" şeiri Bəxtiyar filminin ilk fraqmenti kimi yeni nəfəs gətirir, ümid işıqlarını yandırır. Azərbaycan ədəbiyyatındakı milli məktəbin üstündəki qara buludları dağıdıb Günəşin parıltısını aşağılara salır. "Ana və şəkil" fraqmenti Bəxtiyar trilogiyasını gizlətmir, əksinə, bütün çılpaqlığıyla növbəti fraqmentlər haqqında təəssüratlar oyadır.

Şeiri yayılıb, məşhurlaşdırılıb oxunmağa ehtiyac yox idi, özü-özünü oxudurdu çünki…

Bəxtiyar Vahabzadə imzasında sözlər yeni danışmağa başlamış uşağın dilindən çıxır sanki. Uşaq kimi heç nəyi gizlətmir. Nə varsa ortadadır. Gülüşü də, ağlamağı da. Sevgisi də, nifrəti də…

Sadə, axıcı, şirin. Hər kəsin başa düşəcəyi dildə yazır Bəxtiyar Vahabzadə…

Xalqın dilində…

Şəhərdəki beyni ağır terminologiyalarla doldurulmamış uşaqların da, kənddəki qoca nənə və babaların da başa düşəcəyi dildə…

### Səməd Vurğunu ziyarətdə nə baş verdi?

Bəxtiyarı ilk anlayanlardan biri olan Səməd Vurğunun səyi ilə 1945-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilir. 1949-cu ildə "Mənim dostlarım" adlı ilk şeir kitabı nəşr edilir. Səməd Vurğun Bəxtiyarda öz dəst-xəttini görürdü. Hərçənd ki, Bəxtiyar Vahabzadə və Səməd Vurğunun ədəbi-siyasi istiqamətləri fərqli tərəflərə yönəlmişdi. Səməd Vurğun ömrünün son vaxtlarına yaxın aralarında maraqlı bir dialoq yaşanır. Səməd Vurğun xəstə olduğuna görə adətən evində olur, yatırdı. Bir gün Bəxtiyar Vahabzadə Fəvvarələr meydanından keçərkən şair Osman Sarıvəlliylə rastlaşır və Sarıvəlli ona deyir ki, gedirəm Səmədgilə, vaxtın varsa gedək. Razı olur və Səməd Vurğunun yanına gedirlər. Osman Sarıvəlliylə Səməd Vurğunun münasibətləri çox yaxın olduğundan belə deyir:

"Ayə, çoxmu yatassan, qalx, millət səndən yeni şeirlər gözləyir. Al, budur ey, üççildliyin birinci cildi çıxıb". Yataqda xəstə olduğu halda bir qədər özünü toxtayıb yeni oyuncaq alınmış uşaq kimi sevincək halda kitabını vərəqləməyə başlayır. Rəhbərə salam, rəhbərin şineli, rəhbər, rəhbər, partiya, komsomol və s. rejimi tərənnüm edən pafoslu şeirlərinin sıralandığını görür və əsəbi halda kitabı bağlayıb evin ortasına fırladır. "Ə, bunu nəyə gətirmisən, mən ölməmiş mənim yaradıcılığım ölüb ki!"

Bəxtiyr Vahabzadə zamanında hakim dairələrdə ən çox sözü keçən şairin sonda fikri dəyişikliyini görüb ancaq və ancaq şad ola bilərdi. Axı, o, Vurğunun şeiriyyatına dəyər verirdi. Onun üçün Vurğunun şeirləri olduqca sadə idi və bu sadəlik də şeirləri oluqca zəngin edirdi. Buna görə o, elmi araşdırmalarını Səməd Vurğuna yönəltmişdi. 1951-ci ildə "Səməd Vurğunun lirikası", 1965-ci ildə "S.Vurğunun həyatı və yaradıcılıq yolu" mövzularında namizədlik dissertasiyalarını yazmış, 1956-cı ildə "Xalq şairi Səməd Vurğun", 1968-ci ildə "Səməd Vurğun" adlı monoqrafiyasını nəşr etdirmişdi. Sözsüz, Azərbaycan dilinin saflığı, duruluğu, rəngarəngliyi baxımından Səməd Vurğun onun üçün ideal obrazlardan biri idi. Kəsişdikləri düşüncə tərzində Vahabzadə Vurğunun yanlış tərəfdə olduğunu başa düşməsinə sevinir. Digər yöndən mübarizəsində ruh yüksəkliyi yaranır.

## Azərbaycan ədəbiyyatının Gülüstanı

Təsadüfi deyil ki, yaşanan hadisədən bir neçə il sonra 1958-ci ildə "Gülüstan poeması"nı nəşr etdirir. Sovet hökumətinin mərkəzi bölgələri, xüsusən Bakını ciddi nəzarətdə saxladığını bildiyinə görə poemanı Şəkidə  nəşr etdirir. Bundan əvvəl "Gülüstan"ın əlyazması Azərbaycan Dövlət Universitetinin tələbələri trəfindən oxunmağa, üzü köçürülərək yayılmağa başlamışdı. Gündüzlər tələbələr belə kitabları oxuya bilmədikləri üçün yataqxaların içində gizli kitabxana yaradılır. Bəxtiyar Vahabzadənin Gülüstanı kitabxanaya daxil olan ilk kitablardan biri olur və ge-

cələr tələbələr arasında əl-əl dolaşır. Kitab əvvəlcə rejimin gözündən yayınsa da, sonradan böyük rezonansa səbəb olduğu üçün qısa müddətdə aşkarlanır. Hər sözü, hər kəlməni istədikləri kimi yozan "rejim eynəklilər"i tərəfindən oxutdurulur. Gördüklərini Moskvaya çatdırırlar və mərkəz Bəxtiyar Vahabzadəni daha ciddi araşdırmağa başlayır. Öncə onu ədəbiyyatdan, elmi mühitdən uzaqlaşdırmağı qərara alırlar. Lakin gənclərin, xüsusən tələbələrin onu sevməsi Moskvanı fikrindən daşındırır. Nə öldürtdürə bilirlər, nə də ki, sürgün edə. Bəxtiyar Vahabzadəni elmi-ictimai-siyasi mühitdən uzaqlaşdırmaq üçün ən uyğun variantın onu elmi məzuniyyətə göndərmək olduğunu qərarlaşdırırlar. Doktorluq elmi işini tamamlamaq adı ilə 1960-ci ildən 1962-ci ilə qədər Bəxtiyar auditoriyalardan kənarlaşdırılır. Bütün bunlara rəğmən Vahabzadə istəyinə nail olur, ilk göz ağrısı böyük səs-küyə səbəb olur. Bəxtiyar filmi eynəklərin tozunu təmizləyib yenidən baxılmağına/görülməyinə məcbur etdi.

"Gülüstan" bir yurdun, bir millətin iki bölünməyini göstərdi...

"Gülüstan" iki caninin, iki quldurun, bir diyarı iki etməyini göstərdi...

"Gülüstan" sərhədlərin, simlərdən çəkilmiş hasarların necə faciə yaratdığını, ananın övadının tellərinə həsrətini, o tellərin arasından qardaşın qardaş əllərinə toxunub qucaqlaya bilmədiyini, barmaqların o simlərdə yaralandığını, qanadığını, göz yaşlarının selə dönüb evlər yıxdığını göstərdi...

Bəxtiyarın "Gülüstan" poeması 30-lardan sonra ilk dəfə sözlərin kameranı üstələyib təkbaşına film ola biləcəyini göstərdi və ilk dəfə Moskvanın silahı özünə tərəf yönəldi. Sovet ya filmlər vasitəsi ilə insanları manqurtlaşdırır, ya aydın təbəqəni müxtəlif üsullarla cəmiyyətdən uzaqlaşdırır, ya da rejimin hazırladığı eynəkləri taxmış biri gətirilir və göz boyanırdı. "Gülüstan" nə qədər sürgün, nə qədər repressiya olsa da Türk-İslam coğrafiyasında sözün, səsin, avazın kəsilməyəcəyini bir daha

dünyaya car çəkdi…

*Necə ayırdınız dırnağı ətdən-*
*Ürəyi bədəndən, canı cəsəddən?*
*Axı, kim bu haqqı vermişdir Sizə,*
*Sizi kim çağırmış Vətənimizə?*
*Neçə vaxt səngərdə hey ulaşdılar,*
*Gülüstan kəndində sövdalaşdılar.*
*Bir ölkə ikiyə*
*Ayrılsın deyə!..*
*Göy də guruldamış deyirlər o gün,*
*Çölləri, düzləri buludlar sarmış.*
*O göy gurultusu ulu Babəkin*
*Ruhuymuş, hönkürüb fəryad qoparmış.*
*Gülüstan kəndinin gül-çiçəkləri*
*Bir günün içində soldu-saraldı.*
*"Gülüstan" bağlandı, o gündən bəri,*
*Bu kəndin alnında bir ləkə qaldı.*

30-ların qanlı repressiyasından sonra Moskva artıq insanların gözlərinin qorxduğunu və bir daha yerli/milli səslərin çıxmayacağını düşünürdü. Bəzilərinin başını bir az yuxarı qaldıran zaman əllərinə od basan kimi qorxub səssiz-səmirsiz oturduqlarını görürdü. Bəxtiyarda da eyni metodun işləyəcəyinə ümid edirdilər. Amma Bəxtiyar doğma diyar uğruna özünü çoxdan oda atmışdı. Geri addım atmaq ağlının ucundan belə keçmir, əksinə elmi tədqiqatı ilə yanaşı şeirlərini yazır, sandıqda toplayırdı.

Bəxtiyar Vahabzadə ilə Azərbaycanda mübarizə ruhu yenidən oyanır. Altmışların oyanışı "Gülüstan"la başlayır. 1962-ci ildə Bəxtiyar Vahabzadə elmi mühitə yenidən qayıdır, daha doğrusu, mərkəzi rejim onun qarşısını almağın başqa çarəsini tapa bilmir. Yaddaşındakı qaralamaları kağızlara köçürməyə başlayır. Bir-birinin ardınca şeirləri, poemaları nəşr edilir. Əsərləri səhnələşdirilir, tamaşaya qoyulur. "Ağlar-güləyən", "Təzadlar", "Qiymət", "Muğam", "Atılmışlar", "İki qorxu" poemaları ilə san-

ki udulmuş zəhəri sovetin üzünə tüpürür. O, açıq-aşkar rejimi hədəf alırdı. Daha sonra poemasını yazdığı xalq "İstiqlal" deyə bağırarkən Moskva sakitcə kreslosunda oturur, səsini çıxartmır. Bununla yanaşı o, Sovet dövrünün, demək olar ki, bütün titullarını qazanır. 1974 Azərbaycanın Əməkdar incəsənət xadimi, 1976 Azərbaycan Dövlət mükafatı laureatı, 1984 Azərbaycanın xalq şairi, SSRİ Dövlət mükafatı laureatı, 1988 M.F.Axundov adına ədəbi mükafatı laureatına layiq görülür.

## Özümüzü kəsən qılınc

"İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" kimi pyesləri ilə tənqid hədəfini Sovet dövrü və sonrasında öz dilində danışdığı, eyni geni daşıdığı insanlara yönəldir. Vahabzadə bu dəfə qələmini məkəzdən çəkib ətrafa çevirir. Ən məşhur əsərlərindən olan "Özümüzü kəsən qılınc"da türk dövlətlərinin başlarının bir-biriylə mübarizəsinə/müharibəsinə qarışmağını, güclərini bir-biriləri ilə döyüşərək tükətməyini, əvəzində isə başqa güclərin/imperiyaların bu zəiflikdən istifadə etməyini göstərir. Atdığı güllələr hədəfə dəyir, bədənləri yarıb keçir, laxtalanmış qanlar axır, yeri milli düşüncəylə dolur. Şeirləri balaca uşaqlardan ömrünün son anlarını yaşayan dədələrə, nənələrədək hər kəsin dilinə düşür. Bəxtiyar Vahabzadə qaranlıqda əlində fənərlə çıxaraq bir-bir hamını oyatmağa çalışır, çığırları böyüdür və yolu keçməyə çalışır.

Əgər Çar Rusiyası işğal etdiyi yerlərdə insanların dini inanclarına qarışmır, ibadətlərinə icazə verirdisə SSRİ qurulduqdan sonra yerli əhalinin dini həsaslığı nəzərə alınmayaraq məscidlər bağlanır, əvəzinə ateizm cəmiyyətləri yaradılır. Şair və yazıçılara dini mövhumat, geridəqalmışlıq, insanlar arasında çaxnaşma yaradan ideologiya kimi göstərən, əvəzində ateizmi və sosializmi tərifləyən əsərlər yazdırılır. Daha sonra həmin əsərlər teatr səhnələrində oynadılır, film çəkilir, məktəblərdə dərsliklərə salınaraq

uşaqlara öyrədilir. "Allahsızlıq cəmiyyəti" quraraq Allah sözünü belə işlətməyə mane olunur. Bəxtiyar Vahabzadə isə Allahın kəlamı ilə yaşayır, heç vaxt inancından, imanından əl çəkmir və hislərini ifadə edə biləcəyi qədər kağızlara köçürür. Onu silkələyən səbəb isə Türkiyə səfəri olmuşdu. Yetmişinci illərin sonlarında elmi konfrans üçün İstanbula gedir. Bəxtiyar bunu çoxdan gözləyirdi. Türk dövlətlərinin, demək olar ki, çoxunu görmüş, gəzmiş, həmhal olmuşdu. Bircə Türkiyə həsrəti var idi. Yanında, yaxınında olasan, amma görə bilməyəsən. Eyni Güney Azərbaycan kimi. Bəxtiyar Vahabzadə gecənin səssizliyində azan səsini eşidir və keçmişi, tarixi, milli kimliyi gözünün qabağından film kimi keçir, yaddaşı oyanır.

*Allaha ucalan ulu bir yolun*
*İlkin pilləsidir Allahu-Əkbər.*
*Haqqı dananların üzünə dəymiş,*
*Haqqın şilləsidir Allahu-Əkbər.*

*Məkana, zamana, dövrə o, soltan!*
*Odur həqiqətə qapılar açan.*
*Möminlik yolunda qəlbə nur saçan*
*İman şöləsidir Allahu-Əkbər.*

*Dünyanın əzəli borcludur ona,*
*O bir pəncərədir əvvəldən sona.*
*Görünməz dünyanın var olduğuna*
*İman müjdəsidir Allahu-Əkbər.*

*Odur əyriliyə düzün həmləsi*
*Rəhmin ilk nidası, axır cümləsi!*
*Allahın səsidir vicdanın səsi,*
*Vicdanın səsidir Allahu-Əkbər.*

Bəxtiyar Vahabzadənin məharəti onda idi ki, o harda, nə və necə yazmaq lazımdır bilirdi. Əsərlərində xəyali bir ölkə yaradır,

o ölkəni istədiyi kimi tənqid edirdi. Yazdıqları Moskvaya göndərilir, Moskva oxuyur, donub qalır, yasaq etmək istəyir, amma edə bilmir. Çünki Bəxtiyar söz ustalığıyla açıq şəkildə SSRİ-ni yox, filan dövləti hədəf alırdı. Əksinə, bəzən mərkəzin xoşuna gəlirdi. Bəxtiyar obraz seçimində mövqeyini yaxşı tuturdu. Məsələn, onun aktyoru olan Nəsimi SSRİ-nin Allahsızlıq üçün istifadə etdiyi silahlardan birinə çevrilmişdi. Bəxtiyarsa o silahı yenidən eşqə yönəldir. "Fəryad" pyesində Nəsimini danışdırır. "Allah" deyən Nəsiminin özünə qayıdışı ilə Bəxtiyar da Azərbaycanın yaddaşını qaytarmaq istəyir.

*İdraka yol açmış gecədən gündüzə Allah!*
*Güldürməsən öz könlünü gülməz üzə Allah!*
*Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş.*
*Qəlbin gözü yanmazsa görünməz gözə Allah!*

*ALLAH bilirik cismi deyil, bəs nədir Allah?*
*Ən yüksək olan haqda həqiqətdir Allah!*
*Dondunsa təkamülcə gözəllik qabağında.*
*Dərk et, bu təəccübdə, bu heyrətdədir Allah.*

*Cahil enər alçaqlığa öz qəddini yenməz.*
*Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.*
*Zülmətdə, cəhalətdə, ədavətdə görünməz.*
*İlqarda, sədaqətdə, məhəbbətdədir Allah!*

## Azadlıq hərəkatının qəhrəmanlarından biri kimi

Sovet dominantlığı qoruyub saxlamağın tək yolunun durmadan ideologiyasını yedirtmək olduğunu anlayırdı. Nə yesən "o"-san. 1918-ci ildə Azərbaycan Cümhuriyyətini quran nəslin kökünü kəsmişdi. Yeni dünyaya uşaq gözlərini açanda qırmızı parça, çəkic və oraq görürdü. İlk gördüyü beyninə həkk olunur, sonra o qırmızı boynundan asılır, sonra ürəyininin üstündən, sonra beynindən...

Azərbaycanın bəxti onda gətirir ki, Bəxtiyar bu diyarın yarı olur. Addım-addım azadlıq arzusunun arxasınca gedir. Qaçmır, tələsmir. Bilirdi ki, bu yol tək gedilməz. Xalqı oyandırmaq, bir olmaq, yumruq zərbəsiylə sarsıtmaq lazımdır düşməni. Elə də olur. Bəxtiyar Vahabzadə uzun illər çəkdiyi cəfanın bəhrə verdiyini görür. Səksəninci illərin sonlarında meydanlarda " Azadlıq, Azadlıq" sədaları eşidilməyə başlanılır. Ancaq azadlığı qazanmaq qansız başa gəlmir.

1990-cı ilin 20 yanvarında SSRİ-nin "XI Qızıl Ordu"-su Bakıda azadlıq eşqiylə yanıb tutuşanları qanla söndürür. Havada mərmilər uçuşarkən Bəxtiyar Vahabzadə poeziya havasına qapılıb, xəyallara qərq olub "istiqlal…istiqlal…", - deyə misralarını qafiyələndirmir. Sinəsini qabağa çəkib göz yaşlarına hakim ola bilməsə də, gah meydanlarda, gah məclisdə, gah da televiziya efirində dünyaya bu facıəni çatdırmağa, orda-burda yatan millət-vətən qədrini bilməyən millət vəkillərini məclisə toplamağa çalışır.

Bəxtiyar Vahabzadə əlinə silah alıb rus əsgərinə doğru tuta, atəş aça bilmir, ancaq rus əsgərinin üstünə şığıyır, özünü qabağa verib şair nəzaktini soyunub sərt şəkildə təhqir edir, general Dubinyakın (eht. Ovçinnikov) üzünə tüpürür. O isə Bəxtiyara heç nə etmir, Bəxtiyara silahını qaldırmış rus əsgərinə də qışqırır ki, silahı endirsin. Onlar özləri etiraf edirlər ki, Bəxtiyar vurulsaydı, tək Azərbaycan yox, bütün dünya ayağa qalxardı.

*Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,*
*Haqsızlığın üstündən haqqa körpü saldılar.*
*Vətəni sevmək üstdə günahkar sayıldılar,*
*Vətəni sevmək niyə günah olmuş, ay Allah?*

*Çəliyə möhtac ikən, mən özgəyə çəliyəm,*
*Min gülləyə tuş olan bir ceyranam, əliyəm.*
*Özgə nə əmr eyləsə mən boyun əyməliyəm,*
*Neçin mənə özgəsi "allah" olmuş, ay Allah?*

*Bu gün qula dönmüşəm, dünən mən bir şah ikən,*
*Yoxmuş məni bir doğan, yoxmuş məni bir əkən.*
*Bu torpağa düşmüşəm haradansa mən dünən,*
*Min-minillik tarixim unudulmuş, ay Allah!*

*Özgənin əlindədir xeyirimiz, şərimiz,*
*Sərvətimiz daşındı, hey soyuldu dərimiz.*
*Gözümüz üfüqdədir, açılmır səhərimiz,*
*Bizə düşən səmada gün tutulmuş, ay Allah!*

*İllərlə məhkumluğun keşiyində dayandıq,*
*Özümüzə biz bunu, yoxsa, şərəfmi sandıq?*
*Xoşbəxt olduğumuza inandıq, çox inandıq,*
*Düz yalana, haqq zora, demə, qulmuş, ay Allah!*

*Gözümüzdə qalsa da muradımız, kamımız,*
*Görünənə deyil, yox, bir nəfər tək hamımız*
*Deyilənə inandıq... Bizim bu inamımız,*
*Demə, qul olmamıza kəsə yolmuş, ay Allah!*

*Bir qırıq işıq görüb zülməti yamanladıq,*
*Sübhün açıldığını zənn edib gümanladıq.*
*Biz də dönüb Sabirə bircə ağız banladıq,*
*Bizim banlamağımız günah olmuş, ay Allah!*
*Neçin mənə özgəsi "allah" olmuş, ay Allah?*

Bəxtiyar Vahabzadə bu dünyanı, bu dünyada onu 83 il daşıya bilir. 83 il Bəxtiyar onu qoynunda daşıyan bu dünyaya neçə 83-ləri görəcək xəzinə qoyur və 2009-cu ildə fevral ayının 13-də Bakıda dünyasını dəyişir.

90-cı illərin sonunda Bakıdakı Amerika Universitetində Azərbaycanşünaslıq adlı mühazirəyə Bəxtiyar Vahabzadə dəvət edilir. Universitetdə oxuyan tələbələrin əksəriyyəti öz aralarında ingilis dilində danışırlar. Bəxtiyar müəllim onların yanından

keçərkən zalın yerini soruşur. Tələbələr ingilis dilində danışmağa ara verib suala rus dilində cavab verirlər. Elə o andaca sanki Bəxtiyar Vahabzadənin başından qaynar su tökürlər. Əsəbindən qıpqırmızı qızarır, əl-ayağı əsməyə başlayır və "niyə öz ana dilinizi bəyənmirsiniz, nəyə görə Azərbaycan dilinə belə alçaldıcı münasibət bəsləyirsiniz", - deyə onları azarlayır.

Bir gün Oljas Süleymanov və Çingiz Aytmatov birlikdə həmişəki kimi ədəbiyyatdan, sözün mistik gücündən, ecazkarlığından danışarkən birdən Bəxtiyar Vahabzadə onlara baxıb heyfsilənir. Deyir ki, üçümüz də türkük, amma üçümüz də rus dilində danışırıq. Olmazmı ki, elə öz dilimizdə danışaq…

Bəxtiyar Vahabzadə heç vaxt ana dili mübarizəsindən əl çəkmədi. Nə SSRİ dövründə, nə də azadlıq əldə etdikdən sonra.

Bəxtiyar Vahabzadə Azərbaycan dilini refleks halına gətirmişdi. Azərbaycan dili ilə bağlı nəsə olarsa Bəxtiyar Vahabzadə tamamiylə fərqli auraya qapılır, ruh halı dəyişir, səngərdəki son əsgər kimi barmağı tətiyin ucunda gözləyirdi.

Azərbaycanın bəxti Bəxtiyarın ona yar deməyində gətirdi. Arını, pirini itirmədi. Əksinə, yarı üçün yarının hər tərəfini bürümüş irini təmizlədi. Əlini tez-tez cibinə salmadı, ürəyinin üstünə apardı. Cibdəkilər bu gün var, sabah yoxdur. Ora hamı girib-çıxır.

Ürəyə isə sevgi toxumu səpənlər…

Bəxtiyar Vahabzadənin səpdiyi kimi…

*İki yanağı var, amma bir üzü,*
*Türk öz anasından belə doğulmuş.*

*Anlaya bilmirəm, niyə "türk" sözü*
*Kiminsə başına düşən daş olmuş.*

# Aliya İzzetbeqoviç

1925-ci ildə Bosniya və Herseqovinanın Samaç bölgəsində anadan olub. Nənəsi üsküdarlı bir türk qızıdır. İki yaşında ikən ailəsi ilə birlikdə həyatının ən mühüm hissəsinin keçəcəyi Sarayevoya (Saraybosna) köçdü. Sarayevoda hüquq təhsili aldı və vəkil kimi işlədi.

Aliya İzzetbeqoviç gənc yaşlarından etibarən siyasi məsələlərlə məşğul olmağa, İslam dünyasının problemləri ilə yaxından maraqlanmağa başladı. Gənc müsəlmanlar təşkilatının üzvü olduğu üçün 1946-cı ildə üç il həbsə məhkum edildi. Bundan sonrakı illərdə intellektual səviyyəsini artırmaq və islami təhsil almaq üçün elmi çalışmalara başladı. 1970-ci ildə bütün dünyada böyük əks-sədaya səbəb olan "İslam manifesti" əsərini yazdı. Bir çox qəzet və jurnallarda yazıları nəşr edildi. 1983-cü ildə fikirləri səbəbi ilə 14 il həbsə məhkum edildi. Beynəlxalq ictimaiyyətin təzyiqi ilə 1989-cu ildə həbsdən azad edildi. Yuqoslaviyanın parçalanma mərhələsində olduğu dövrdə Demokratik Hərəkat Partiyasını (Stranka Demokratske Aksiye, "SDA") qurdu və yekdilliklə partiyanın sədri seçildi (Aliya İzzetbeqoviç vəfat edənə qədər bu vəzifədə qalmışdır).

Kommunist sistemin iflas etməsindən sonra keçirilən ilk azad seçkilərdə (1992) Bosniya-Herseqovina Federativ Respublikasının ilk prezidenti seçildi. Serb və Xorvat hücumlarına qarşı aparılan müstəqillik mübarizəsinə başçılıq etdi. Serblərin silahlı hücumları bir çox bölgələrdə ağır qətliamlara yol açdı. 1995-ci ildə müharibəni sonlandıran "Dayton" sülh sazişi imzalandı.

1996-cı ildə keçirilən seçkilərdə A.İzzetbeqoviç üç nəfərdən ibarət rəhbərlik şurasına seçildi. Beynəlxalq təzyiqlərə qarşı daim müqavimət göstərdi. 2000-ci ildə xəstəliyi səbəbi ilə rəhbər vəzifəsindən istefa verdi. A.İzzetbeqoviç 19 oktyabr 2003-cü il tarixində vəfat etdi.

A.İzzetbeqoviç intellektual, təşkilatçı, siyasətçi, azadlıq döyüşçüsü və mütəfəkkir kimliyi ilə xalqına rəhbərlik etmiş bir isimdir. Bu xüsusiyyətləri ilə İslam dünyasında yeni bir lider tipinin qabaqcıl siması sayılır. İzzetbeqoviçin "Şərq və Qərb arasında İslam", "Tarixə şahidliyim", "Nitqlər" və "Azadlığa qaçışım – zindandan qeydlər" adlı əsərləri türk dilinə tərcümə olunmuşdur.[1]

## Əsərlərindən seçmələr

### Qərb öz prinsiplərinə xəyanət etdi

Təkcə məni deyil, bütün Bosniya-Herseqovina müsəlmanlarını dərindən sarsan ən dəhşətli hadisə 1995-ci ilin iyul ayında bir neçə gün ərzində 7-8 min insanımızı itirdiyimiz Srebrenitsa qətliamıdır. Bu eyni zamanda II Dünya müharibəsindən bu yana yaşanmış olan, mülki əhaliyə qarşı törədilmiş ən irimiqyaslı qətliamdır.

Şübhəsiz ki, həyatımda iz buraxan xatirələrim çoxdur. Təxminən 700 mindən çox ağır silah mərmisinin düşdüyü Sarayevoda 1200 gün mühasirə şəraitində yaşadım. Belə bir mühitdə yaşanmış olan hər gün başlı-başına bir xatirədir.

Tarixi Mostar körpüsünün dağıdılması, unudulması imkansız olan ayrı bir xatirədir. Bu, bizim müharibədə yaşadığımız ən çətin an idi. Hər tərəfdən mühasirəyə alınmışdıq və müharibənin üçüncü qışına girirdik. 1993-cü ilin noyabr ayında Mostar körpüsünün bombalandığını mənə kimin xəbər verdiyini, həmin

1. Aliya İzzetbeqoviç, "Özgürlüğe Kaçışım Zindandan Notlar", tərc. Hasan Tuncay Başoğlu, İstanbul 2006, s. 5.

anda nə cür ruhi vəziyyət içində olduğumu bu gün də çox yaxşı xatırlayıram.

Amma bu müharibədə əsla unudulmayacaq, daim yaddaşlarda qalacaq ən əsas şey xalqımızın ortaya qoyduğu müqavimət idi. Bu mübarizə *Bosniya-Herseqovina müqaviməti möcüzəsi* olaraq daim xatırlanacaq.

Biz burada Avropanın ən təchizatlı dörd böyük ordusunu dayandırmağı bacardıq. Müstəqil torpaqlarımızın böyük əksəriyyətini, böyük şəhərlərin çoxunu qorumağı bacardıq. 65 hərbi zavodda silah emal etdik. Silah embarqosuna baxmayaraq, böyük bir qismi İslam ölkələrindən olmaqla, silah təmin etməyə müvəffəq olduq.

Qısacası, biri məndən müharibə əsnasında məni ən çox təsirləndirən hadisənin nə olduğunu soruşsa, mən cavab olaraq ortaya qoyulan müqaviməti deyərdim. Bu müqavimətə bütün dünya heyran qaldı. Biz müharibədə mühasirə altında atəşlə imtahanı zəfərlə bitirən bir xalq olduğumuzu nümayiş etdirdik.

Təkcə Sarayevoda 10 mindən çox insan öldürüldü. Bunun 1300-ü uşaq idi. Ölülərimizi dəfn edəcək qəbiristanlıq qalmadığı üçün parklarımızı da qəbiristanlığa çevirdik.

Bu bir həqiqətdir ki, İslam dünyası Bosniyaya kömək etmək xüsusunda birləşdiyi qədər heç bir məsələdə birləşməmişdir. İslam dünyası böyük, müxtəlif xalqlardan, fərqli rejimlərdən meydana gələn, fərqli siyasi təsirlərə məruz qalan geniş bir dünyadır.

Bu qədər fərqliliklərə baxmayaraq, müsəlman aləmi Bosniya mövzusunda birlik olmağı bacarmışdır. Bu həqiqəti təsbit edən Huntington bir əsərində İslam dünyasının Bosniya məsələsində birləşib yardım göstərdiyinə diqqət çəkir. Bu yardım hərtərəfli - əsgər, silah-sursat, təlim və mənəvi dəstək mənasında özünü göstərdi. Türkiyə də İslam dünyasında Bosniyaya yardım üçün ən ön sırada yer alan ölkələrdən biridir. Türkiyə bizə çox kömək-

lik göstərdi. Bu yardımların mahiyyətini bu gün belə tamamilə açıqlaya bilmərəm. Bu mənada türk xalqına yardımları üçün minnətdaram.

Qərb dünyasına gələndə, məncə, onlar öz prinsiplərinə xəyanət etdilər. Qərblilərin hazırladığı soyqırımı önləyən deklarasiyaya görə, bir bölgədə soyqırımı yaşanırsa, oraya dərhal müdaxilə edilməlidir. Bosniya və Herseqovinada əsl mənası ilə soyqırımı gerçəkləşdi. Qərb dünyası bu qətliamı üç il boyunca görməzdən gəldi. Avropanın göbəyində gerçəkləşən qoyqırımına mane olmaq üçün nə qədər hazırlıqsız olduqları meydana çıxdı.

Gec də olsa, nəhayət, Qərb ölkələrinin müdaxiləsi baş tutdu. NATO qüvvələri 1995-ci ilin avqust ayının sonlarında serblərin mövqelərini bombaladı və qısa bir müddət sonra müharibə dayandı. Avqust müdaxiləsindən sonra noyabr ayında Dayton sülh müqaviləsi imzalandı. Əslində bu, tamamilə Qərbin, xüsusilə də Amerikanın himayədarlığı altında gerçəkləşən, ədalətsiz bir müqavilə idi. Bütün bunlara baxmayaraq, nəticədə sülhü təmin edən bir müqavilə idi.

Təəssüf ki, Dayton müqaviləsi Bosniya və Herseqovina problemini həll etməmişdir. Daytonun gətirdiyi bir çox şərtlər səbəbi ilə dövlətin fəaliyyətində çox ciddi problemlər yarandı.

Qərb ölkələrinin funksiyası burada sona çatmışdı. Bunu da ifadə etməliyəm ki, Qərb ölkələri bizim üçün çox əhəmiyyət kəsb edən mültəci məsələsində qapılarını açaraq kömək göstərmişdilər. BM, Qaçqınlar üzrə Ali Komissarlığı vasitəsilə yardım fəaliyyətlərində təşkilatçılıq etmiş, kültəvi halda aclıqdan ölümlərin qarşısını almışdır.[2]

2. Aliya İzzetbeqoviç, "*Konuşmalar*", tərc. Fatmanur Altun, Rıfat Ahmetoğlu, İstanbul 2005, s. 251-253.

## Demokratiya haqqında

Demokratiya kəlməsi qədər ziddiyyətli fikirlərə qapı açmış, səhv mənada işlədilmiş kəlmə sayı olduqca azdır. Bu mənada, tarix boyunca, bəlkə də təkcə "din" kəlməsi eyni qədərə məhkum olmuşdur. Zalım liderlərin heç biri özünü diktator olaraq adlandırmamışdır. Onlara görə, özləri həqiqi demokratdır və hər kəsin də bunu belə qəbul etməsini, belə düşünərək, belə xatırlamasını istəmişlər. Belə mübahisəli məsələlər səbəbi ilə, səhv etmirəmsə, 1950-ci illərdə Birləşmiş Millətlər "Gərginlik dünyasında demokratiya" adlı bir kitab nəşr etmişdi. Bu kitab dünya miqyasında demokratiyanın necə də səhv başa düşüldüyünü ortaya qoyurdu. Bu səbəblə, mən də bu haqda öz fikirlərimi açıqlamaq ehtiyacı hiss edirəm.

Tanrının insanları azad və bərabər yaratdığına, hər hansı bir irq digərindən üstün olmadığı kimi, hər hansı bir millətin də digərindən yaxşı və ya pis olmadığına inanıram. İnsanların başqasına təhvil verilməyəcək haqlarla birlikdə dünyaya gəldiyinə, hər hansı bir gücün insanları bu haqlardan məhrum etməyə haqqının olmadığına inanıram. Çoxluğun məhdudiyyətsiz gücünə isə inanmıram. Çünki çoxluq despotizminin başqa despotizmlərdən fərqi yoxdur. Azadlığın ölçüsü azlıqlara qarşı münasibətlə təyin olunur və insanların fərqli düşünə bilmək azadlığından əvvəl düşüncə azadlığına malik olması lazımdır. Bu, mənim demokratiya anlayışımın qısa xülasəsidir.[3]

## Tolerantlıq haqqında

Artıq bitməsi lazım olduğuna görə bu əsrin adına "şiddət əsri" deyirik. Qarşımızda yeni bir əsr, yeni bir minillik və əlbəttə, yeni imkanlar və risklər dayanır.

---

3. Aliya İzzetbeqoviç, "*Tarihe Tanıklığım*", tərc. Alev Erkilet, Ahmet Demirhan, Hanife Öz, İstanbul 2003, s. 545.

Bu əsrin görünüşü müəyyən ölçüdə bizdən, bizim nə öyrədəcəyimizdən və gələcək nəsillərə necə nümunə olacağımızdan asılıdır. Mən inanıram ki, gələcək nəsillər bizim qədər keçmişin məngənəsində olmayacaq, özlərini gələcəyə həsr edəcəklər. Onların yepyeni bir iradə ilə, yepyeni bir yoldan gedərək bizim inandığımız ideallara yetişəcəklərinə ümid edirəm.

Bizdən onlara qalacaq ən gözəl mesaj, ən yaxşı öyüd tolerantlıqdır. Allah hamımızın tək bir millət olmasını istəsəydi, elə də edərdi. Amma o, belə bir şey istəməmişdir. Bizi qəbilələrə, millətlərə ayırmış, bir-birimizə qarşı hörmətlə yanaşmağımızı əmr etmiş, bir-birimizə zərər verməyimizi qadağan etmişdir. Allahın özümüzdən fərqli olana qarşı hörmətlə baxmağımız və tolerant yanaşmağımız xüsusundakı çağırışı mədəni (müasir) dünyanın uyduğu ən uca insani çağırışdır. Bu çağırış Bosniyanın da ən mühüm qanunu olmalıdır, çünki Bosniyada onsuz həyat düşünülə bilməz.

Bu mesajı bizim içimizdəki bütün xalqlara və bütün dünyaya ünvanlayıram. Hamımızın bir-birimizi bu yolda təşviq etməsini diləyir, hər bizinizə sayğılarımı və ən gözəl diləklərimi ərz edirəm.[4]

## Milliyyətçilik haqqında

Savadsız insanların zehnlərini bulandırmaq üçün istifadə olunacaq ilk və ən təsirli yol milli olanla milliyyətçi olan arasındakı fərqi itirməkdir. Əslində bu fərq bəzən sevgi ilə nifrət arasındakı qədər böyük ola bilər.

Milli duyğuları olan bir insan öz xalqını sevər, onların xətalarını və fəzilətlərini öz üstünə götürər, o xalqa aid olduğunu hiss edər. Milliyyətçi isə öz xalqını sevməkdən daha çox başqalarından nifrət edər. Bundan daha da dəhşətlisi, başqalarının mülkünü ələ keçirməyə çalışar; başqalarına aid fərqlilikləri boğar, dözüm-

4. *e.a.ə.*, s. 546-547.

süzlük göstərər, fiziki təzyiq tətbiq edər. Özünə aid olanı müdafiə etmək yerinə özünə aid olmayanı əldə etmək istəyər. Qatı milliyyətçiliyin təməlində tanrıya inanc yoxdur. Dünyanın bütün böyük dinləri bu sadə həqiqəti öyrətməyə çalışır (və bütün böyük həqiqətlər bu sadə qaydaya əsaslanır): Sənə qarşı edilməsini istəmədiyin şeyi sən də başqasına etmə. Ya da elə hərəkət et ki, davranışların hər kəs üçün eyni olsun; nə sənə görə dəyişsin, nə də bir başqasına görə.[5]

## Allaha təslimiyyət xaricində heç bir yerdə əxlaq yoxdur

Əxlaq mənfəətlərimiz naminə deyil, məsuliyyətimizin tələbi olaraq hərəkət etməkdir. Əgər bir kimsə bu həyatın xaricində və sonrasında başqa bir həyat olduğuna inanmırsa, niyə mənfəətinə zidd hərəkət etsin? Yaxşılıq etmək fikri təkcə məntiq ilə açıqlana bilməz. Kant heç bir əməlin sırf ağıl ilə düşünülərək icra edilməyəcəyini riyazi olaraq isbat etmişdir. Mənim bildiyim qədərilə bu vaxta kimi heç kim bu nəzəriyyəni çürüdəcək bir iddia ilə ortaya çıxa bilməmişdir. Çünki yaxşılıq etməyin hər zaman hansısa qarşılığı ola bilməz. Əgər belə olsaydı, işə yaramaz adamlar da yaxşılıq etmək üçün can atar, sonra da mərifət nümunəsi olardı. Bizim heyranlıq duyduğumuz insanları düşünün – bunlar həqiqi insanlar da ola bilər, ədəbi qəhrəmanlar da – Sokrat, Antigone, İsa və s. hər biri acı çəkmiş insanlardır. Yəni əgər yaşadığımızdan savayı başqa bir həyat yoxdursa, Tanrı yoxdursa, o zaman bu insanlar qəhrəman deyil, sadəcə uduzmağa məhkum kimsələr idi; etdiyi işlərin də, fədakarlıqların da heç bir qədir-qiyməti yoxdur.

Cavanlığımda bir filmə baxmışdım, orada bir nəfər döyüş yoldaşlarını satmağı rədd etdiyi üçün həyatını itirirdi. Filmdən sonra içimdəki təzadları götür-qoy etdim. Film boyunca mən qəhrəmanın tərəfini tutmuşdum, yəni onun edam dəstəsi ilə üzüzə gəlməsini istəmişdim. Qəhrəman ölüm ilə xəyanət arasında

5. *e.a.ə.*, s. 550-551.

qaldığı zaman xəyanətin daha pis bir seçim olduğunu düşünmüşdüm. Axı niyə? Bunun ən məntiqli cavabı budur: Çünki burada həyatın özündən daha dəyərli bir şey var. Tanrısız bir kainatda bu insanın etdiyi hərəkət tamamilə ağılsızlıqdır. Amma bunun belə olmadığı açıqdır; bunu hər birimiz içimizdə hiss edə bilirik.

Problem tutarlı olmaq, daha doğrusu, tutarsız olmaqdır. İnanan insanlar məsuliyyət şüuruyla, inanmayanlar isə mənfəətləri istiqamətində hərəkət edərlər. Verəcəyimiz ən məntiqli açıqlama budur. Amma bu, hər zaman belə olmaz. Bəzən insanlar bir şey söyləyər, amma başqa cür hərəkət edərlər. Yəni inanclı, amma əxlaqsız bir çox insan olduğu kimi, əxlaqlı, amma ateist insanların da sayı az deyil. Bütün bunlara baxmayaraq, dəqiq olan bir şey var: tanrı inancı olmadan heç bir əxlaq sistemini qurmaq mümkün deyil. Həyatın və mənfəətlərin fövqündə bir şeyə sığınmağımız labüddür. Bildiyimiz bu həyatın xaricində bir şeyə sığınmaq da bir növ tanrı inancı, yaxud dindir. Qərbin ən böyük doqmalarından biri halına gələn insan haqlarının mənbəyi də, zənn edildiyinin əksinə, inqilab deyil, xristian təlimidir. İnsan bərabərliyi dini bir məfhumdur; insanlar hamısı bərabərdir və tək dəyərləri də tanrı tərəfindən yaradılmış olmaqdan qaynaqlanır. Yoxsa insanlar bir təbiət məhsulu olaraq, var olduqları şəkildə heç bir zaman bərabər ola bilməzdilər, "insan həyatının müqəddəsliyi" bir əhəmiyyət kəsb etməzdi. Belə olduğu təqdirdə Stalinin "doktrina"sı da tamamilə məntiqli hala gələrdi. Məsələn, Engelsə görə əxlaq, əlinin altındakı işçiləri aldatmaq üçün burjuaziya tərəfindən uydurulmuş bir neçə fırıldaqdan başqa bir şey deyil (Kommunist Manifestində belə yazır). Engels tutarlı bir mütəfəkkirdir; "əxlaq işçi sinfinin mənfəətləri arasında yer alır" deyə yazır. Belə bir əxlaqın nəticəsini isə hamımız bilirik. Cavabımın çox uzandığının fərqindəyəm. Belə yekunlaşdırım; əxlaqlı ateistlər var, amma bir təlim, bir həyat tərzi olaraq ateizmin əxlaqla heç bir əlaqəsi yoxdur. Əlbəttə, bu, mənim qənaətimdir.[6]

6. *e.a.ə.*, s. 552-553.

## Müharibədə ədalət, ədalətsizlik və ləyaqət haqqında

Müharibə əsnasında çox yaddaqalıcı xatirələrimiz də, çətin anlarımız da oldu, amma, əlbəttə ki, çətin anlar daha çox idi. Xatirələr yavaş-yavaş solur. Amma çəkdiyimiz acıları hələ uzun bir müddət xatırlayacağıq. Mənə ən çox təsir edən iki hadisə var: Birincisi 1993-cü ilin ortalarında yaşanmışdı. Olovo yaxınlarında imkansızlığı və cəsarəti haqqında eşitdiyimiz bir dəstə ilə görüş keçirmişdik. Alışılmış danışıqlardan sonra əsgərlərdən biri qabağa çıxıb mənə belə bir sual verdi: "Sülh gəldikdən sonra heç ədalətsizlik olacaqmı?". Bu sual mənə təəccüblü gəlsə də, belə cavab verdim: "Bəli, təəssüf ki, yenə də ədalətsizlik olacaq. Amma siz də ona qarşı, eynilə indi düşmənə qarşı vuruşduğunuz kimi vuruşmalı olacaqsınız". Daha çox təsir edən başqa bir hadisə isə Vozucada cəbhə xəttinə getdiyimiz zaman yaşanmışdı. Soyuq bir gün idi, buz kimi soyuq yağış yağırdı. 1994-cü ilin payız sonu idi. Günbatana yaxın gedib meşənin ortalarındakı səngərlərə çatdıq. Hər yer palçıq içində idi, bir neçə koma var idi. Ara-sıra yaxınlıqdan atəş səsi eşidilirdi. Görüşməni gerçəkləşdirdikdən sonra cangüdənimlə mən ara yollarla bizi Kakan şəhərinə aparacaq olan maşına mindik. İkimiz də başdan-ayağa palçığa bulaşmışdıq, yorğun idik, amma nəhayət, isti bir yer tapıb axşam yeməyimizi yedik. Əsgərlər isə hələ də meşədə idilər. Gecə boyunca yağış daha da şiddətləndi. İndi "müharibə qaçqınları" deyəndə hər zaman yaddaşımda bu mənzərə canlanır. Müharibədə ədalət, ədalətsizlik, ləyaqət kimi mövzular haqqında nə fikirləşdiyimi, yəqin ki, dediklərimdən anlaya bilərsiniz. Hər zaman "niyə belə oldu?" - deyə öz-özümə sual verirəm, "bunu dəyişə bilərəmmi?" – deyirəm.[7]

---

7. *e.a.ə.*, s. 559-560.

## Əxlaqlı və ya əxlaqsız olan fərddir, xalq deyil!

Hegel zəncilərə, hindlilərə və çinlilərə dair olduqca çirkin bir təsvir yaradır. Məsələn, belə deyir: "Zəncilərin təbiətində insanlığa bənzər heç bir şey yoxdur (...) İnsani dəyərlərin yoxluğu inanılmaz dərəcədədir, zorakılıq ədalətsizlik olaraq görülməz, adamyeyənlərə də pis baxmazlar, belələrinə hər yerdə rast gəlmək mümkündür". Yaxud belə deyir: "Çinlilər şərəf hissinin nə olduğunu bilməzlər (...) Çünki orada heç şərəf yoxdur (...) Onlara hakim olan duyğu rahatlıqla səfehliyə çevrilə bilən köləlik duyğusudur. Çinlilərin ölümsüzlüyü də bu səfehliklə bağlıdır. Onlar harada olursa olsun, aldatmaqla məşğuldurlar. Dost dostunu aldadar, əgər aldatdığı ortaya çıxarsa da, bunu ayıb saymazlar". Hindliləri isə belə təsvir edir: "Hiyləgərlik və kələkbazlıq hindlilərin əsas xüsusiyyətidir. Hindli onun üstündə hakimiyyət qurana, ona ağalıq edənə baş əyib alçalar, hiyləgərlik edər; amma məğlub edilənə və təslim olana qarşı tamamilə rəhmsiz və zalımdır (Hegel, "Tarix fəlsəfəsi"). Mülahizəm: Bu ifadələrdə açıqca irqçilik, ya da ən azı Avropa-mərkəzçilik yer alır. Əgər əxlaq hissi sadəcə bəzi irqlərin və ya xalqların imtiyazı olsaydı, əxlaq, həqiqətdə olduğu şey olmazdı. Əxlaqlı (və ya əxlaqsız) olan fərddir, xalq deyil; dolayısilə hər hansı bir ümumiləşdirmə etmək doğru deyil.[8]

## Propaqanda təlqini

Propaqanda və ideya təlqini şərtli refleks psixologiyasına, yəni heyvan psixikasına əsaslanır və bu, şüuraltı "bir-biri ilə əlaqələndirilmiş cütlüklər" meydana gətirmək məqsədi güdür. Məsələn, ateist propoqandada "din" məfhumu təkidlə "geridəqalmışlıq" və "xurafat" məfhumları ilə əlaqələndirilir. Bu irtibat məktəbin ilk günündən başlayaraq uşaqlara təlqin edilir. Belə bir süzgəcdən keçmiş insanın yanında "din" kəlməsinin tələffüz edilməsi, təbii olaraq, digər mənfi şeyləri beynində istər-istəməz

---

8. Aliya İzzetbeqoviç, "Özgürlüğe Kaçışım Zindandan Notlar", tərc. Hasan Tuncay Başoğlu, İstanbul 2006, s. 1-2.

canlandırır. Belə qərəzli yanaşmalar şüuraltında elə dərin bir kök salar ki, bəzən son dərəcə yanlış olduğu açıq olan məsələlər də bu şüurla müdafiə olunmağa davam edər. Beyni yuyularaq dinin axmaqlıq olduğuna inandırılmış bir tanışım var idi. Buna baxmayaraq Lev Tolstoyu da çox sevər və ən çox bəyəndiyi yazıçı olduğunu deyərdi. Bir-birinə təzad təşkil edən bu ziddiyyəti necə eyni anda daşıdığını heç cür başa düşə bilmədim. Bəlkə də o, bu ziddiyyətin heç fərqində deyildi. Həqiqətən də o, "şərtləndirilmiş refleks", yəni bir-biri ilə əlaqələndirilmiş din-xurafat cütlüyünün qurbanı idi.[9]

## Bir milləti və bir dövrü tanımaq

Bir milləti və ya bir dövrü tanımaq üçün onun haqqında yazılmış tarixi qeydləri oxumaq əsla kifayət etməz. Balzakın romanlarını oxumadan on cildlik Faransa tarixini oxusan da, fransız cəmiyyətinin həyatını təsvir edən açıq bir tablo görə bilməzsən. Ancaq onlarla birlikdə XIX əsrin Fransa cəmiyyətinin həyatı haqqında məlumat sahibi olduğunuzu deyə bilərsiniz.

Tarix bizə hadisələr haqqında məlumat verər. Romanlar, şeirlər, dastanlar, hekayələr, əfsanələr və nağıllar isə həqiqətən var olmuş bir şeydən, bir insanın – fərdin həyatından xəbər verər. Biri xarici, digəri isə daxili tarixdir. Xarici tarix daha kifayətsizdir, çünki o, əksər hallarda imperatorlardan, krallardan, saray və ətrafındakı məhdud sayda bir qrupu maraqlandıran hadisələrdən bəhs edər. Bir millətin imperatorlarını, girdiyi müharibələri, zəfər qazandığı, yaxud məğlub olduğu bütün yerləri öyrəndiyim zaman o millətin tarixini bildiyimi iddia edə bilmərəm. Hətta qayda-qanunlarını və mədəniyyətini öyrənsəm də, yenə də o milləti tanıdığımı deyə bilmərəm. Əslində, bir fərdin evində necə yaşadığını, xanımı, uşaqları, xidmətçiləri və rəhbərlik ilə münasibətinin necə olduğunu bilməliyəm. Yalnız bu tabloların hər ikisini də, yəni həm daxili, həm də xarici tabloları birləşdirdikdən sonra o

9. *e.a.ə.*, s. 132.

milləti və onun keçmişini müəyyən ölçüdə öyrəndiyimi - əlbəttə, oxuduğum yazıçılar və onların əsərləri ilə bağlı deyilməli olan bütün təfərrüat və etirazları da diqqətə alaraq - deyə bilərəm.[10]

## Həyat paradokslarla doludur

Prinsip olaraq digər insanları sevən və onlara hörmət göstərən həqiqi bir insan öz vicdanına əsasən hərəkət edər və başqalarının tərif və qınamalarına çox da əhəmiyyət verməz. Əksinə, xam adam isə ümumiyyətlə başqalarını kiçik görsə də, altdan-altdan onların düşüncələrini öyrənər və kiçik gördüyü insanların düşüncələrini əsas alaraq hərəkət edər. Bu vəziyyəti adətən diktatorlarda və zalım təbiətli insanlarda müşahidə edirik. Stalinin öz ətrafındakıları acımasız bir şəkildə alçaltdığı deyilir. O, xüsusilə də şair və ziyalıları xor görərdi (Osip Mandelstam adlı bir şair Stalin haqqında yazdığı sərbəst bir şeir səbəbi ilə həyatını itirmişdi). Buradakı məntiq sualı budur: Onlar özlərindən aşağı gördükləri, kiçimsədikləri insanların düşüncələrindən niyə təsirlənirlər?[11]

## Kompüter zəkası axmaqlıqdır

Kompüter haqqında çox da geniş məlumatım yoxdur, amma bunu dəqiq deyə bilərəm ki, kopüterlərin zəkası axmaqlıqdan ibarətdir, yaxud ən yaxşı halda zəkanın təqlididir. Bu təqlid sonsuza qədər irəliləyə bilər, amma o sehrli xətti keçə bilməz, öz-özünü idarə edən və gerçək zəka ola bilməz. Canlı ilə cansız arasındakı sonsuz dərəcədə böyük fərqi (və ya sonsuz dərəcədə kiçik fərqi) təmsil edən həqiqət də elə budur. Heç bir bəşər məhsulu bu eşiyi aşa bilməz. Təkcə Allah buna qadirdir. “Allah ağcaqanadı və ya ondan daha böyüyünü misal gətirməkdən çəkinməz” (Bəqərə surəsi, 26). Biliyimiz nə qədər çox olursa olsun, bəzən onu şişirtmirikmi? Dünyanın bütün kitabxanalarında mövcud olan bütün

10. *e.a.ə.*, s. 75-76.
11. *e.a.ə.*, s. 24.

məlumatlar bir xəyali kompüterdə birləşdirilsə, bunun yanında dünyanın bütün böyük elm adamları da eyni müəssisədə, yaxud laboratoriyada toplansa və onlara istədikləri qədər vaxt və imkan verilsəydi, onlar bircə dənə bataqlıq ağcaqanadını belə istehsal edə bilməzdilər. Ağcaqanad haqqındakı ayənin mesajı budur.[12]

## Ey təslimiyyət, sənin adın İslamdır!

Qədərə təslimiyyət qaçınılmaz böyük insani iztiraba çox təsirli bir cavabdır. Bu, həyatı olduğu kimi idrak etmək və hər şeyə səbir və təhəmmül göstərməyə şüurlu bir şəkildə qərar verməkdir. Bu nöqtədə İslam Avropa fəlsəfəsinin dayaz optimizmindən və dünyanı "mümkün olan bütün dünyaların ən yaxşısı" kimi göstərən safdil hekayələrindən əsaslı bir şəkildə fərqlənməkdədir. Təslimiyyət pessimistlikdən uzaq sonsuzluqlardan gələn bir nurdur.

Gücsüzlük və etimadsızlıq hisslərinin nəticəsi olaraq ortaya çıxan təslimiyyətin özü, yeni bir qüc və yeni bir etimad mənbəyi olur. Allaha və onun təqdirinə inanc bizə elə bir əmniyyət hissi verir ki, başqa heç bir şey onun yerinə keçə bilməz. Emerson: "Bütün qəhrəman irqlər qədərə inanmışdılar", - deyə iddia edir. Həqiqətən də, təslimiyyət bir çoxlarının tamamilə yanlış zənn etdiyi kimi, əsla passivlik demək deyil. Buradakı təslimiyyətimiz "hər hərəkətimizdə qədərə təslim olmaq" kimi anlaşılmamalıdır. Çünki qədərlə əlaqəli fikirlərimiz bizim üçün yalnız əxlaqi dəyər ifadə edir. Təslimiyyət bir bütün olaraq dünyaya və öz fəaliyyətinin nəticələrinə qarşı insanın daxili yanaşmasıdır. Allahın iradəsinə təslim olmaq insanların iradələrinə qarşı azadlıq deməkdir. Allaha itaət insana itaəti qəbul etməz. Bu, insan ilə Allah arasında, dolayısilə insan ilə insan arasında fərqli bir münasibət meydana gətirir. Buna görə də qədəri qəbul etmək insanın özünü böyük ölçüdə azad, sərbəst hiss etməsi deməkdir. Bu elə bir azadlıqdır ki, qədəri yerinə yetirməklə, onunla ahəng təşkil etməklə əldə

12. *e.a.ə.*, s. 26.

edilir. Mübarizəmizi insani və məqbul hiss etdirən, ona sakitlik və dinclik damğası vuran səbəb, hər şeyin aqibətinin bizim əlimizdə olmadığı düşüncəsidir. Bizim borcumuz səy göstərmək, çalışmaqdır; nəticə isə Allahın əlindədir.

Buna görə də bu dünyadakı həyatımızı həqiqi mənada idrak etmək; hər şeyi əhatə etmək və hər şeyə hakim olmaq həvəsinə düşmədən səy göstərmək və dünyaya gəldiyimiz yer və zamanı, yəni qədərimiz və Allahın iradəsi olan yer və zamanı qəbul etməyə hazır olmaq deməkdir. Təslimiyyət – həyatın məchulluğu və mənasızlığından qurtulmaq üçün yeganə insani və şəxsiyyətli çıxış yoludur; üsyandan, ümidsizlikdən, nihilizmdən (bütün mənəvi-əxlaqi dəyərləri inkarçılıqdan), intihardan uzaq tək çarə... Təslimiyyət – həyatın istər-istəməz qarşısına çıxartdığı məşəqqətlər qarşısında sadə bir insanın özünü qəhrəman kimi hiss etməsi və ya vəzifəsini yerinə yetirmiş və qədərinə razı olmuş bir şəhidin zehniyyətidir.

İslam, qayda-qanunlarına, əmr və qadağalarına, bədən və ruhdan tələb etdiyi vəzifələrə görə deyil, bunların hamısını əhatə edən, hətta aşan bir şeyə görə, idrakın bir anına, ruhun zamanla yarışma gücünə, var olmağın gətirə biləcəyi hər şeyə təhəmmül etməyə, riza göstərməyə, yəni tək kəlmə ilə: Allaha təslimiyyətin həqiqətinə görə belə adlandırılmışdır. Ey təslimiyyət, sənin adın İslamdır![13]

13. Aliya İzzetbeqoviç, "*Doğu ve Batı Arasında İslam*", tərc. Salih Şaban, İstanbul 1993, s. 311-312.

# Çingiz Aytmatov

*Əslində hər insan bir roman və bir qəhrəmandır.*
*Gün gələr, başa düşər ki, sərf etdiyi*
*tək şey xəyalları yox, zamanıdır.*

## İnsan üçün ən çətin şey hər gün insan qalmaqdır

Əsr var günə bərabər. Hətta saata, hətta dəqiqəyə…

Əsri saniyələr ərzində bir neçə cümləyə sığışdırırsan. Və yığışdırıb bağlayırsan bir əsrlik dövrü.

İnsanın dünyaya göz açandan gözlərini bu dünyada sonuncu dəfə bağladığı anadək keçirdiyi günlərini bəzən bir sözlə də ifadə edirsən.

Hər şey o bir cümlədə, bir sözdə yatır. Bir sözə min illik tarixi, düşüncəni sığışdırmaq hardasa mümkün görünə bilər. Ancaq bir sözdə yüz ilin ağrı-acısını, faciəsini, göz yaşını, fəryadını təsəvvür etmək olduqca çətindir.

Mahir söz ustası olmaq kifayət etmir. Gərək o fəryadı çəkəsən, göz yaşlarını dadasan. Sözün əsl mənasında hadisələr gözünün qarşısında baş verirmişcəsinə yaşayasan. Yanaqlarında təbəssüm yox, göz yaşı olsun. Çingiz Aytmatov kimi…

Çingiz göz yaşının dadını uşaqlığında dadmışdı. Balaca otağında fəryad qoparıb divarları titrətmişdi acısından.

Bir uşaq üçün ən böyük qəhrəman onun atasıdır. Başqa heç kim, heç kim yox. Ancaq və ancaq onun atası. Onun atası hamıdan güclüdür, hamıdan. O qəhrəmandır. Çingiz uşaqkən itirir qəhrəmanını. Ən çox ehtiyacı olduğu vaxtında köməksiz qalır. Atası ilə fəxr etdiyi çağında dilindən "atam xalq düşmənidir" sözləri çıxardılır.

Daxili dünyasında baş verən xaosu yatırmağı necə bacarıb, təəccüblüdür.

Çingiz Aytmatov türk mifik düşüncəsini yenidən oyatdı.

Ulu obasında yanıb sönmüş, kömürə dönmüş ağac budaqlarını, çırpılarını eşələyib tapdı. Onlara yeni nəfəs verdi və qədim türk mifologiyasındakı ana ağacı diriltdi.

Onun qələmi sehrli çubuğa bənzəyir. Hər hərəkətində sehrli dünya yaradır.

Çingiz Aytmatovun əsərlərini oxuyanda gah donub qalırsan, gah da zamandan zamana tullanırsan. Qələmindən Osires, Manitu, Afina, Axilles, Heraklit, Prometey, Mitra, Hörmüz, Poseydon, buynuzlu at, cırtdanlar kimi qədim və "zaman maşını" kimi gələcəyin mifik obrazları çıxmır. Onun obrazları milli, yerli və həyatın içindəndir. O mifik obrazları zamanlararası səyahətə çıxartmır. Dünya yaranmamışdan əvvəl və sonrakı çağdakı fikri qəhrəmanlaşdırır. Bir sözlə, Aytmatovun qəhrəmanları fiqurlar deyil, fikirlərdir.

Çingiz Aytmatov əsərlərində əxlaq dərsi keçir. Amma o filosof deyil. Heç mütəfəkkir, alim, aydın da deyil. O, şamandır. Nağıl danışır. Danışdıqları ilə ətrafına toplaşanları sağaltmağa çalışır. Kənara çəkilənləri səsi və aurasıyla yanına çağırır.

Aytmatovun oxucuları yoxdur, onun dinləyiciləri var. Böyüklü-kiçikli hər kəs çadırlarından çıxıb, meydanda tonqal qalanıb, dairəvi formada oturulub. Şaman Aytmatov meydana girir. Hamı gözlərini yumur və şaman danışmağa başlayır. Pərdənin açılıb bağlanmağına qədər vaxtın necə keçdiyini hiss etmirsən.

Harda olduğunu bilmirsən, ancaq sanki doğma məkandasan. Rahat hiss edirsən özünü. Buna baxmayaraq bir narahatlıq da bürüyür bədənini. Qəribə bir naharatlıq…

Çingiz Aytmatov qışqırmır, bağırmır. Həlim, təmkinli, sakitdir. Dövrə vuraraq elə hey danışır. Sözlərin arasından bir söz gəlib sənin çiyinlərinə qonar və özünükəşf başlayar. Özünükəşf meydandakı atəşin bədənini isitdiyi kimi ruhunu da isidər.

O, sənə sevgidən danışar. O, sənə ucqar bir kənddən danışar. O, sənə bir ailənin dənizdə sağ qalmaq uğrunda mübarizəsindən danışar. Elə gözəl danışar ki, məst olarsan. Sanki səmada uçursan və bütün dərdlərindən arınmısan. Sehrli çubuğunu, yəni qələmini elə oynadar ki, sən qanad açmış havada süzülən quştək süzülərsən. Lakin Çingiz Aytmatov bununla yanaşı sənə şüuraltı əxlaq fəlsəfəsini aşılayar. Ümumbəşəri, heç zaman dəyərini itirməyən bir əxlaq nəzəriyyəsi.

Çingiz Aytmatovun əsərləri üst qatlarından ana laylasına oxşayır. Halbuki dərinlərdə birilərinə sərt şillə var. Qulaqlarının dibində qaya daşlarının üstündə daşları bir-birinə vururaq səs çıxardır. Oyanış səsidir həmin səs. Dirçəliş səsidir həmin səs.

Roman və hekayələrində diqqət çəkən maraqlı bir nüans var. Hekayənin sonlarına yaxın bir rəssam peyda olur. Hekayənin görüntüsünü çəkən rəssam məhz Aytmatovdur. O uşaq kimi mətnə daxil olur və dramatik gerçəkliyi göz önünə gətirir. Uzun-uzadı oxunanları, geridə qalanların hamısını bir araya toplayır və rəsmə baxmağa məcbur edir.

"***İnsan üçün ən çətin şey hər gün insan qalmaqdır***", - deyir Aytmatov.

### Repressiyanın təsiri

Çingiz Aytmatov 1928-ci il dekabr ayının 12-də Qırğızıstanın Talas əyalətində sayılıb-seçilən, Qırğızıstanda hörmət bəs-

lənən bir ailədə dünyaya gəlir. Atası Torekul Aytmatov tanınmış dövlət xadimi, anası Nagima Aytmatova isə aktrisa idi. Torekul Aytmatov sosializmə və kommunizmə səmimi-qəlbdən inanmış, aparılan mübarizədə kommunist cəmiyyətin qurulması üçün çalışmış, hətta varlıların torpaqlarının kasıblara paylanmasında işləmişdi. Yoldaşı Nagima xanım isə əyalətdə qadın dərnəkləri təşkil edirdi. Çingizin uşaqlığı olduqca ağır dövrə təsadüf edir. Stalin totalitar rejimini qurması uğrunda hər kəsi qurban verir. Az da olsa təhlükəli hesab etdiyi kəndində balaca torpağını əkib becərən kəndlidən tutmuş aydınları, onunla birlikdə mübarizə aparan yoldaşlarını belə həbs etdirir, sügünə göndərir, öldürtdürür. Torekul Aytmatov 30-cu illərin sonlarında Sovetin həyata keçirdiyi qanlı repressiyanın qurbanı olur. 1937-ci ildə həbs edilir və bir il sonra güllələnir.Təbii ki, atasının öldürülməsindən xəbəri olmur. Bir ümid həbsdən çıxacağını, azad olacağını düşünür. Atasının xalq düşməni adlandırılması Çingizin keçid mərhələlərindən biridir. Təhsil aldığı məktəbdə məcburən atasının xalq düşməni olduğunu qəbul edir, müəllimləri ilə razılaşır. Ancaq məktəbdən qayıtdıqdan sonra saatlarca ağlayır: “Mənim atam xalq düşməni deyil, qəhrəmandır”.

Atasından sonra ailəsi ilə birgə əmisinin himayəsində yaşayırlar. Ancaq qısa müddət sonra əmisi də repressiya qurbanı olur. Balaca Çingizin gözləri qarşısında atası və əmisi rejim quldurları tərəfindən aparılır və geri qayıtmırlar. Gözləri yolda, qulağı səsdə qalır. Zaman keçdikcə, yaşa dolduqca arxiv sənədləri açılır. Bundan sonra atasının ölümünü qəbul edir və bəraət alması üçün çalışır. Anası Nagima xanımın gözləri isə son nəfəsinədək atasının getdiyi yolda qalır.

Çingiz uşaqlığını nənəsi Ayımxan ana ilə keçirir. Kəndə qayıdır, dağlarda, meşələrdə, ovalarda, yaylaqlarda yaşayır. Ayımxan ananın yanında nağılları, dastanları, hekayələri öyrənir. Təbiətin qoynunda ənənələrini, tarixi yaddaşını oyadır, həqiqət yaddaşına həkk olunur.

Ernest Heminuquey deyir ki, yazıçı olmaq üçün ağır, acılı, kədərli uşaqlıq keçirməlisən. Heminuqueyin deyimi sanki Çingizin uşaqlığının təsviridir. Orta məktəbdə oxuduğu vaxtlarda müxtəlif işlərdə işləyir. O gah əkin zamanı kənd təsərrüfatı maşınlarının sayımında, gah vergilərin yığımında görünür, gah da rus dilini bildiyinə görə ən ali peşələrdən olan müəllim işləyir. Çətinliklər onun mənəvi dünyasını qabarlaşdırır, hər qatında bir xatirə yığılıb qalır.

1941-1945-ci illərdə baş verən II Dünya müharibəsi Çingiz Aytmatov üçün bir tərəfdən əzablı, sarsıdıcı keçir, bir tərəfdən də roman, povest və hekayələrinin mövzusunun təməlini hazırlayır. Bütün dünyanı ağuşuna alıb əzişdirən müharibə milyonlarla insanın canını alır, milyonlarla insanı yarıcan buraxır, milyonlarla uşağı ata-anasız, milyonlarla ata-ananı övladsız qoyur. Gənc Çingiz oxuma-yazma bildiyi üçün qara xəbəri, müharibədə ölənlərin, yaralananların xəbərlərini çatdırmaq ona həvalə edilir. Qapı-qapı dolaşıb ailələri ziyarət edən Çingiz bu ailələrin yaşadıqlarını yaddaşına köçürür. Zehnində hardasa bir yerdə hekayələrini cızmaqara edir.

Səkkizinci sinfi bitirdikdən sonra Cambul zootexnikumuna daxil olur. Buranı əla qiymətlərlə oxuduğu üçün 1948-ci ildə Bişkek Kənd Təsərrüfatı Universitetinə qəbul edilir. Ali təhsilini bitirdikdən sonra üç il Qırğızıstan SSRİ-in Maldarlıq Elmi-Tədqiqat institutunda işləyir. Onun taleyi elə gətirir ki, kəndlərdə işləyir, yerli insanlarla ünsiyyətdə olub onların həyat hekayələrini dinləyir. Hər bir insan, hər bir yerli/kəndli Qırğızıstandır Çingiz Aytmatov üçün.

Cəmilə də, Daniyar da, Düyşen də bu kəndin insanlarıdır. Aytmatovun əsərlərini bəzəyən məhz bu yerli obrazlardır. Onların sevgisi, onların əzabları, onların kədərləri, onların xoşbəxtlikləridir. Sanki Allah Aytmatova ağrılı günlərini qırğız həyatını öyrənməsi və yazıb yaratması üçün veribmiş. Elə onun geniş oxucu kütləsi qazanması, sevilməsi də obrazlarının real həyatla bağlı

olmasındandır. Oxucu onun əsərlərini oxuyarkən öz kəndini və ya yaxınlıqdakı kəndlərin birindən bir nəfəri, ya da tanışını sezir. Süjet xəttinin yaxın vaxtlarda baş verdiyini, hadisənin şahidi olduğunu hiss edir.

## Yaradıcılıq fəaliyyəti və ən yaxşı sevgi hekayəsi

İşlədiyi vaxtdan etibarən rastlaşdığı insanları, qarşılaşdığı hadisələrı yazmağa başlayır. Zaman keçdikcə cızmaqaralarının artdığını görür və hekayələşdirmə mərhələsinə keçir. Universitetdə oxuduğu dövrdə, 1952-ci ildə  qırğız dilində “Qəzetçi Dzyüdo”, bir il sonra isə “Atəş” adlı hekayəsi qəzetlərdə dərc olunur. Sadə dil, qısa cümlələr və axıcı üslubla yazdığı hekayələri ucqar kənddəkilər də, şəhərin intellektualları da qavrayır. Qələmindən süzülənlərin sevildiyini görən Aytmatovun yazıçılıq şövqü artır. Ancaq o nə filoloq idi, nə də ədəbiyyatçı. SSRİ Moskvada Yaradıcılıq kursu təşkil edirdi. İttifaqa daxil olan ölkələrin şair və yazıçıları Yaradıcılıq kursu nəzdində toplanır, ədəbi gecələr təşkil edir, müzakirələr aparırdı. Gənc yazıçılar üçün bu kurs xüsusi əhəmiyyət kəsb edirdi. Hər ölkənin yeni söz ovçuları adının siyahıya salınması üçün dəridən-qabıqdan çıxırdılar ki, kursda ustalarından söz sənətinin sirlərinə yiyələnsinlər.

Gənc Aytmatov Moskva Yaradıcılıq kursunda iştirak üçün müraciətlər edir, lakin bir fayda vermir. Atası Torekul xalq düşməni olduğu üçün maneə törədilir. Ümumiyyətlə, Çingizin, qardaşı və bacısının təhsilində də rejim əngəllər törədirdi. KQB-nin göz-qulağı daim onların üstündəydi. Bir neçə il səbir etdikdən sonra Aytmatov komitəyə məktub yazır. Məktubda atasının xalq düşməni olmadığını, dövlət məmuru kimi işləyərkən evindən aparıldığını, sağ ya ölü olduğu ilə bağlı hələ də xəbər ala bilmədiklərindən, atasının xalq düşməni olaraq adlandırıldıqdan sonra təhsil almalarına törədilən əngəllərdən, bacısının universitetə qəbul olduğu halda oxumaması üçün çıxarılan problemlərdən yazır.

Atasının artıq bəraət almasını və onlara qarşı yaradılan maneələrin götürülməsini istəyir. Dayanmadan bu tipli məktublar göndərir. Nəhayət, 1956-cı ildə atası bəraət alır və yaradıcılıq kursunda iştirak haqqını qazanır.

1956-1958-ci illər ərzində Moskvada Qorki Ədəbiyyat İnstitutunda yazıçılıq bacarıqlarını artırmaq üçün təhsil alır. Yaradıcılıq kursunda iştirak həmçinin yazıçı statusunu təsdiqləyirdi. Çingiz yerli qırğız dilində yazdığı üçün usta yazıçılar ondan xəbərdar deyildi. Onlarınsa təsdiqi olmadan heç bir yazıçı SSRİ müstəvisinə qalxa bilməzdi. Aytmatov kursu uğurla başa vurur. Oranı bitirdiyi il "Üz-üzə" hekayəsi rus dilinə tərcümə edilərək nəşr olunur. Nəhayət, onun üçün yaşıl işıq yanmış, bağlı qapılar açılmışdı. Moskva ondan təhlükə gözləmir. Hekayələrini vərəqləyəndə elə öz ideyalarını, kəndi, əkin-biçini, işləməyi, əl əməyini və bunların ucaldılmasını görürlər. Aytmatov hekayələriylə yanaşı qələmi paslanmasın deyə mətbu orqanlarda işləməyə başlayır. Əvvəlcə Qırğızıstan daxilində, sonra isə SSRİ-nin məşhur qəzet və jurnallarında işləyir. Məsələn, "Pravda" qəzetinin Qırğızıstan üzrə xüsusi müxbiri, "Qırğızıstan ədəbiyyatı", "Xarici ədəbiyyat" və bir neçə jurnalların baş redaktoru kimi fəaliyyət göstərir.

1958-ci ildə Aytmatovu məşhurlaşdıran "Cəmilə" hekayəsi "Yeni gün" qəzetində nəşr edilir. Yazıçı ilk dəfə roman yüklü bir mövzunu hekayə formasında oxucularına təqdim edir. Cəmilədə həm özünü, həm müharibəni, həm də eşqi göstərir. Təsadüfi deyil ki, hekayəni fransız dilinə tərcümə edən yazıçı Lui Araqon onu "ən yaxşı sevgi hekayəsi" adlandırır. Onun tərcüməsindən və təriflərindən sonra hekayə daha da məşhurlaşmağa başlayır. Eyni ildə Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsinə qəbul olunur. 1958-ci ilin sonlarında Xruşovun anti-stalinist siyasəti nəticəsində Sovet Kommunist Partiyasına qoşulur. Partiya sıralarına qoşulmaq Çingiz Aytmatova rahat nəfəs almağa şərait yaradır. Ardınca Sovet Yazıçılar Birliyinə üzv seçilir və ədəbi

sferada qəbul edilməyə, qazandığı uğurların bəhrəsini görməyə başlayır.

1963-cü ildə "Cəmilə", "İlk müəllim", "Dəvə gözü", "Qırmızı şal" kimi hekayələrinin yer aldığı "Dağlar və steplərdən nağıllar" kitabı Lenin ədəbi mükafatını qazanır. Daha sonra 1968, 1977 və 1983 illərdə isə Sovet ədəbi mükafatına layiq görülür. O, sadəcə Qırğızıstanın və SSRİ-nin ədəbi mükafatlarına yox, dünyanın bir sıra nüfuzlu ədəbi mükafatlarına layiq görülür. Tarix və mədəniyyətə dəyər verdiyi, sahib çıxdığı üçün müxtəlif dövlətlərin təşkilatları tərəfindən yüksək qiymətləndirilərək mükafatlandırılır.

Onun qələmindən çıxan ədəbi nümunələrdə qadın ucaldılır, zirvəyə qaldırılır, baş tacı edilir. Çingiz Aytmatov uşaqlığını qadınların içərisində keçirir. Məlum olduğu kimi, II Dünya müharibəsində kəndlərdə sadəcə qadınlar qalır və yazıçı onların nələr yaşadığını yaxşı müşahidə edə bilir. Çingiz Aytmatov deyir ki, yazıçı olmasaydım, heykəltəraş olub o məğrur qadınlara heykəllər qoyardım.

## İlk müəllim

"İlk müəllim" hekayəsində bir müəllimin öz vəzifəsini necə şərəfli, ləyaqətli, vicdanlı yerinə yetirməsindən və bir qızın oxumağı üçün mübarizəsindən bəhs olunur. Romanın qəhrəmanı müəllim Düyşendir. O, uşaqları məktəbə təşviq edir. Sovet hökuməti yeni qurulduğu üçün kəndlərə kömək göndərə bilmir. Düyşen əlindəki bütün imkanları istifadə edir, məktəb qurur, dərslik hazırlayır. O, qırğız uşaqları oxusunlar deyə hər şey edir. Ancaq məktəbə gələnlərin sayı olduqca azdır. Həmişə gələn və oxumaq eşqi olan sadəcə 14-15 yaşında Altınay adlı bir qızdır. Ata və anası vəfat etdiyinə görə qohumları ilə birgə qalır. Qohumları ona baxdıqları üçün bir müddətdən sonra oxumağına razı olmur, üstəlik evləndirmək istəyirlər. Düyşen bundan xəbər tutur. Canını fəda etmək bahasına olsa da Altınayın zorla evləndirilməsinə

mane olur və onu təhsil alması üçün şəhərə göndərir. İllər keçir, Altınay yaxşı təhsil alıb nüfuzlu professor olur. Düyşen isə yaşlandığı üçün artıq müəllim işləmir, həyatının son dövrlərində də fayda versin deyə poçatlyon işləyir. Düyşenlə Altınayın yolunun yeni məktəb açılışında kəsişmə imkanı yaranır. Ancaq Düyşenin o yaşda işinə bağlılığı, məktubları tez çatdırmasa çalışmağı yeni məktəbin açılışını qaçırmasına səbəb olur. Həmçinin kəndlilər artıq yaşlı Düyşenlə zarafatlaşır, ona baxıb gülürlər.

*Bir zamanlar məktəb açmağına qarşı olan kəndlilər...*
*Bir zamanlar tövlədən məktəb yaradan Düyşenə...*

Altınay da müəlliminə qarşı edilən bu hərəkətlərə dözməyib oradan uzaqlaşır. Düyşen gözləri ilə Altunayın uğurunu, o balaca uşağın böyüyüb professor olmağını, əziyyətinin bəhrəsini görə bilmir.

Qeyd edildiyi kimi, Çingiz Aytmatovun ustalığı həm öz travmalarını, həm də qarşılaşdığı travmaları sadə və axıcı tərzdə hekayələşdirməsidir. Real hadisələrə mifik və mədəni rənglər qataraq yaddaşı, hadisələrn baş verdiyi regionun coğrafiyasını işləyərək təsəvvürün formalaşmasını məharətlə bacarır. Bütün bunları edərkən dilinin estetikliyini, çalarlılığını qoruyub saxlayır.

Onun dəst-xətti dünyanın ən usta yazıçılarına bənzəyir. Gah Dostoyevski, gah Tolstoy, gah da həm Dostoyevski, həm də Tolstoy olaraq tarix və mədəniyyət yükü ilə bərabər fəlsəfi, psixoloji və əxlaqi motivləri bir-birinə keçmiş tərzdə çıxa bilər qarşımıza.

İkinci dünya müharibəsindən qaçan İsmayılın oğurluğu haqqında olan “Üz-üzə” hekayəsini nümunə kimi göstərə bilərik. Hekayə Aytmatovun uşaqlığında baş vermiş gerçək hadisələr əsasında yazılır. Hekayə Səidə və İsmayılın bir-birini sevməsi və evlənmələri ilə başlayır, II Dünya müharibəsinə kəndin əli silah tuta bilən bütün kişilərinin aparılması ilə davam edir. İsmayıl müharibəyə getdikdən sonra qayınansı ilə tək qalan Səidə həyatda qalmaq üçün işləmək məcburiyyətində qalır. Bütün kənd acına-

caqlı vəziyyətdədir. Kişilər olmadığı üçün əkin-biçin işlərinin yaxşı getməməsi bir yana, heyvanlar da süddən kəsilir. Aclıq hökm sürərkən kəndlilərdən birinin inəyinin "boğaz" olduğu bilinir və kənd süd olacağına sevinir. Bir gün İsmayıl kəndə qayıdır. Onun tərxis olduğunu düşünən Səidə sevinir, ancaq İsmayıl ona qaçdığını, həbs olunmamaq üçün gizlənməyə ehtiyacı olduğunu deyir. İsmayıla dəli kimi aşiq olan Səidə çətin şəraitdə yaşamağına baxmayaraq ona kömək edir. İsmayıl hər yerdə axtarıldığına görə mağarada gizlənir, Səidə ona yemək aparır. Mağarada yaşadıqca İsmayılın davranışları dəyişməyə başlayır. Bir müddət sonra isə bəd xəbər yayılır. İnək oğurlanır. İnəyi oğurlayansa İsmayıldır. Aytmatov İsmayılın obrazında insanın heyvanlaşmağını gözlər önünə sərir. Müharibədən "dünyanı mənmi xilas edəcəyəm" deyə qaçan İsmayılın, "heyvanlar nəyi dişləyə bilirlərsə yeyirlər, mən də yeyərəm" deməyi insanın əxlaq pərdəsinin yırtılmağından sonrakı acınacaqlı gerçəkliyi göstərir.

## Əsgər uşağı

"Əsgər uşağı" hekayəsində atasını müharibədə itirmiş bir uşağın ata həsrəti acınacaqlı şəkildə tədqim olunur. Anası ilə yaşayan uşaq müharibə mövzusunda filmə baxmaq üçün kinoteatra gedir. Kino başladıqdan sonra anası əsgərlərdən birini göstərib "bax, sənin atan odur", - deyir. Bundan sonra uşaq filmə diqqətlə baxır, atası çıxan səhnələrdə coşur, sevincdən qışqırır. Filmin sonunda həmin əsgər öldürülür və uşaq "atamı öldürdülər, atamı öldürdülər", - deyə bağıraraq ağlayır. Digər izləyicilər baxdığının sadəcə film, ölənin aktyor olduğunu desə də fayda vermir. Övladının göz yaşlarının dinmədiyini görən anası isə "o sənin atandır", - deyir və uşağı bağrına basıb salondan çıxır.

Çingiz Aytmatovun mətnlərində balaca Çingizi, yetimliyini, ata həsrətini, anasını, nənəsini, bibisini, kəndlisini görürsən. Sovet rejimi dövründə yaşayan insanlar onun hekayələrində özlərini görür, hadisə və obrazlarla özlərini eyniləşdirirlər.

"Torpaq ana", "Əlvida Gülsarı","Çingiz xana küsən bulud" kimi əsərlərində ata və anasını yada salır. "Torpaq ana" romanının girişində belə yazır: "*Atam Torekul Aytmatov, bilmirəm məzarın haradadır. Bunu sənə ithaf edirəm. Anam Nagima Aytmatova, biz dörd bacı-qardaşı sən böyütdün. Bunu sənə ithaf edirəm*". "Torpaq ana" romanı fədakar Tolqonayın müharibəyə gedən yoldaşı və oğullarının ölüm xəbəri gəldikdən sonra ailəsinə sahib çıxmağından, ənənəvi olaraq müharibənin gətirdiyi fəlakətlərdən, gəlininin simasında adət-ənənədən uzaq düşməyin törədəcəyi sarsıntılardan bəhs edir.

## Əlvida Gülsarı

"Əlvida Gülsarı" romanını müəyyən qədər atasının avtobioqrafiyası saymaq olar. Əsərlərində təbiət və heyvan fiqurlarına olduqca böyük əhəmiyyət verən Aytmatov burada da qəhrəman obrazını Gülsarı adlı ata ayırır. "Əlvida Gülsarı" romanı müharibə və kommunizmin yaratdığı problemləri, insanların şəhərə can atmasını, ənənənin zaman keçdikcə necə əriyib yoxa çıxdığını göstərir.

Tanabay II Dünya müharibəsindən sonra kəndinə qayıdır və evlənir. Tanabay cavanlığında kommunizmə inanır və onun yolunda dayanmadan çalışır. Hətta qardaşının torpağını da kasıblara, torpağı az olanlara paylayır. Kolxozun inkişafı üçün dostu Çora ilə birlikdə hər şey etməyə hazırdır. Onlar nə qədər çalışsalar da, artıq cavanlar kənddə işləməkdən imtina edir, şəhərə qaçırlar. Heyvanlara baxacaq, işləyəcək heç kim qalmır. Çobanlıq Tanabaya qalır. Bundan sonra o, Gülsarını tanıyır. Gülsarı gözəlliyi və çəldliyi ilə seçilir. Demək olar ki, hər kəsin gözü onun üstündədir. Tanabay Gülsarıya xüsusi qayğı ilə yanaşır, onun ən yaxın dostu olur. Gülsarı zaman keçdikcə böyüyür, daha da güclənir və yarışlarda qalib gəlməyə başlayır. Rejim Gülsarını onlardan almağa qərar verir. Tanabay onu saxlamaq üçün nə qədər cəhd etsə də, Gülsarını rejimə verməli olur. Həmçinin Tanabay

partiyadan xaric edilir, işlərdən uzaqlaşdırılır. Gülsarı getdiyi yerdə xoşbəxt olmur, əvvəlki yerini-azadlığı, təbiəti istəyir. Qaçmağa cəhd edir, amma alınmır. Cəza olaraq rejim onu xədim edir. Öz yeri üçün darıxan Gülsarı gücdən düşür, əvvəlki kimi yarışlarda qalib gəlmir. Artıq rejimin işinə yaramayan Gülsarı tərk edilir və Tanabayın qollarında can verir.

Tanabay Torekul Aytmatov kimi rejimə inanır, ömrünü rejimə həsr edir. Bu yolda dayanmadan gecə-gündüz işləyənlər elə rejimin qurbanları olurlar. Bununla yanaşı, Gülsarının istifadə edilib sonra atılmağı və xədim olunmağı ilə Çingiz Aytmatov sosializm, kommunizm uğrunda başqalarının mal-mülkünü, canını alanların sonda öz mal-mülklərinin, canlarının alındığına diqqət çəkir. Özünü rejimə qurban verənlər xədim olunmağa məhkumdur. Xədim kimlik yaradıcılığını itirir, onun gələcəyi yoxdur. Yaddaş qırılır. Yerdə qalansa qırıntılardır. Zaman axdıqca qırıntılar sadəcə ayaqların altında gəzər.

Çingiz Aytmatovun üç əsərini sıralamaq lazım gələrsə, insanların çoxu "Cəmilə", "Əlvida Gülsarı" və "Gün var əsrə bərabər" əsərlərini seçərlər. "Gün var əsrə bərabər" sözsüz ki, onun şah əsəri, şedevridir. Hər nə qədər dünya ədəbiyyatının pasportu Cəmilə olsa da, "Gün var əsrə bərabər" Aytmatovun bütün əsərlərinin bütünüdür, onun qırğız xalqına verdiyi hesabatıdır. Romanda hadisələr iç-içədir. Keçmiş və indiki zaman növbəylə bir-birinin yerini dəyişir. Aytmatov üçüncü gələcək zaman təsəvvürünü keçmiş və indiki zamanla (əsər daxilində) formalaşdırmağa, oxucunu gələcəkdəki yeri və halı ilə bağlı xəyal qurmağa məcbur edir. Əsər daxilində elə ədəbi gedişlər edir ki, sən eyni məkanda ola-ola müxtəlif zamanlarda baş verən acı reallıqla barışır və gələcəkdə eyni hadisənin gerçəkləşmə ehtimalının narahatlığını çəkirsən. Təsadüfi deyil ki, yazdıqlarıyla yaşadığı zamana tənqidlər yönəltməyinə baxmayaraq rejimlə arasında hər hansı bir problem yaranmır. Ancaq adı çəkilən roman böyük səs-küyə səbəb olur. SSRİ-də rezonans doğurur.

## Gün var əsrə bərabər

Çingiz Aytmatov "Gün var əsrə bərabər" romanı ilə manqurt sözünü yenidən oyatdı və onu terminologiyaya daxil etdi. İtib batmağa məcbur edilmiş Manas dastanına, genetik və mədəni yaddaşına can verdi. Ona görə də əsər daha çox manqurt adıyla yadda qalır. Əsərdə dəmiryolçu Yedigeyin ölən dostu Qazanqapın vəsiyyəti üzərinə doğma yurdu Sarı Özəyə dəfn edilməsi üçün Sarı Özəyə getməyi və bu yolda başına gələn hadisələr, keçmiş zamanda isə Sarı Özək ərazisində yaşayan Naymanların torpaqlarına juanjuanlar tərəfindən tez-tez basqın edilməsi və gənclərini kölə kimi aparmaları təsvir edilir. Juanjuanlar həmin gənclərin saçlarını qazıyır, başlarına nəm dəvə dərisi keçirir və günün altında bağlı saxlayırlar. Dəvə dərisi onların başına bitişdikcə dəhşətli ağrılar verir və bütün yaddaş itib-batır. Gənclər heç nə xatırlamır. Kim olduqlarını, haradan gəldiklərini, adlarını, yaşlarını, bir sözlə hər şeyi unudub manqurt olurlar. Onlar təkcə juanjuanların dediklərini edirlər. Sahibləri onlardır, sahiblərinin silahı isə başlarındakı dərini çıxartmaqdır. Bu isə manqurtlar üçün ən böyük cəzadır. Nayman ana və Donenbayın oğlu Joleman əsir götürülərək manqurtlaşdırılır. Nayman ana oğlunu tapsa da, ona oğlu olduğunu, adının Joleman, atasının adının Donenbay olduğunu sübut edə bilmir. Joleman manqurtlaşmışdır və heç nə xatırlamır. Juanjuanlardan biri Nayman ananı görür və Jolemana əgər onu öldürməzsə başındakı dəvə dərisini çıxardacağını deyir. Bundan qorxan Joleman doğma anasını - Nayman ananı öldürür.

Boranlı Yedigeyin zamanı heç də Manas dastanındakı kimi manqurtlaşdırılmaqdan geri qalmır. Məsələn, növbə başında gözləyən bir qırğız əsgərin digər bir qırğızla ana dilində danışmaq icazəsinin olmaması, ancaq rus dilində danışma ixtiyarının olduğu problemi gözlər önünə sərilir. Sovet rejimi hər şeyi dəyişib. İnsanlar əlli il öncəki yer adlarını, coğrafiyasını, el-obasını bilmir. Rejim səni elə manqurtlaşdırıb ki, sənin yerin, yurdun, dinin, dilin, kimliyin yoxdur. Sən rejimin mülküsən, ona məxsussan. Dü-

şünmə qabiliyyətlərini əlindən alıb. Pozuntuları düzəltmək üçün imkanlar yox edilib. Çarxın içində dövr edirsən. Elə bilirsən ki, azadsan və hər şeyi şüurlu edirsən. Fəqət sən robotsan. Proqramı və idarə etməsi başqalarının əlində olan robot. Qurtuluşsa Nayman anaların özlərini qurban verməleridir.

Rejim yıxılına kimi... hürriyyətə qovuşana kimi...öz dininə inanana, öz dilində danışana, öz yurdunda rahat nəfəs alana kimi...

Yaradıcılığının son mərhələlərində usta yazıçı zamanın axarına uyğun hekayə qurmağa başlayır. Mətnlərində daim bir mesajın, bir ağrının olmasını qarşısına məqsəd qoyan Aytmatov 1996-cı ildə "Kassandra damğası" adlı romanını gün üzünə çıxardır. "Kassandra damğası"-nda müəllif yenə mətnin içindədir. O kosmik rahib Filofeyindir. Aytmatov xəyali, utopik cəmiyyət qurur. Kosmik rahib Yer kürəsindəki Roma papasına açıq məktub yazaraq nüfuzlu qəzetlərdən birinə göndərir. Filofeyin obrazında Aytmatov Yer kürəsində baş verən haqsızlıqlara, müharibələrə, bəşəri problemlərə qarşı etiraz, üsyan edir. Problemi daha qabarıq şəkildə göstərmək üçün nəzəri həyatdakı insanlardan başqa dünyaya gəlməmiş canlıları nümunə göstərir. Ana bətnlərindəki embrionlar belə bir dünyaya gəlməkdən imtina edirlər. Kosmik rahib Filofeyinin məktubu dünyada baş verənlərin sancısını çəkən qoca Aytmatovun hələ də dünyanı xilas etmək üçün yalvarışıdır.

Aytmatov heç zaman başladığı nöqtədən uzaqlaşmır. Yaradıcı mərkəzi, ocağı mifik düşüncədir. Ona müxtəlif çalarlar, formalar qataraq fərqli donlar geyindirir. 2006-cı ildə "Əbədi gəlin" və ya "Dağlar çökəndə" romanı ilə yenidən heyvan və təbiət kultuna qayıdır, ənənə və müasirləşmə kontekstində insan həyatını analiz edir. Aytmatov yenilikçi adam idi. Vaxtı ilə Qorbaçova yenidənqurma təkliflərini vermişdi, amma Qorbaçov və komandası işi uğursuz idarə etdi. Təsadüfi deyil ki, əsərin baş qəhrəmanı Arsen Samançin Qorbaçovla eyni qatarda səyahət edir, yenidənqurmanın sonrakı dövründə yaşayır və Aydananın tim-

salında sonrakı dövrü tənqid edir. Samançin elə Aytmatovdur. O yenə haray çəkir. Samançinin obrazında Aydanaya. Opera müğənnisi Aydanaya aşiq olur. Ancaq Aydana dövrlə ayaqlaşaraq kapitalizmə sığınır. İstedadlı opera sənətçisi bir andaca özünü bahalı restoranlarda görür. Sənətini pula və məşhurluğa qurban verərək kimliyindən uzaqlaşır. Digər məsələ isə nəsli kəsilməkdə olan qar bəbiri Cabbarın ov qurbanı olmasıdır. Sürüdən ayrı düşən Cabbar dağların zirvəsində yaşayır. Aytmatov Cabbara insan prizmasından yanaşır, empatiya qurmağa çağırır. Qırğızıstan dağları artıq əvvəlki dağlar deyil. Bu dağlar turizm obyektlərinə çevrilib. Zəngin insanlar, xüsusilə də Birləşmiş Ərəb Əmirliklərindən gələn varlı ərəblər bu dağlarda ovçuluq edirlər. Bir zamanlar vəhşi olan təbiət vəhşilərin əlinə düşərək xədimləşib. Samançin nə qədər mübarizə aparsa da, istəyinə çata bilmir, əksinə, Cabbarla birlikdə mağarada can verir.

Daha əvvəl yazdığı “Ağ gəmi” və “Dişi qurdun yuxuları” romanları “Kassandra damğası” və “Dağlar çökəndə” əsərləriylə səsləşir. “Ağ gəmi” xəyali bir məkan və zamanda gerçəkləşir. Çingiz Aytmatov əsərində qırğız mifologiyasını öz düşüncəsi ilə harmonik formada bəzəyir. Mömin dədə yaddaşı, ənənəni təmsil edir. İki qızından biri yoldaşından boşandıqdan sonra oğlunu ona verib ikinci dəfə evlənir. Mömin dədə isə həmin uşağına baxır. Digər qızı isə Orozqulla evlidir, ancaq uşaqları olmur və buna görə də yoldaşını günahkar hesab edərək onu döyür. Orozqul yaşadıqları yerdə hər kəsdən üstündür, onun hökmü keçir, onun dediyi edilir. Adət-ənənəsindən, tarixindən, keçmişindən hətta dilindən utanır. Əvəzində rus dilində danışmağa özənir, içki içir, qumar oynayır, özünü şəhərli kimi aparır. Onun üçün dəyər və əxlaq anlayışları nisbidir. Nə faydalıdırsa onu etmək lazımdır. Mömin dədənin bir də yoldaşı var. Balaca uşağın ögey nənəsi onu sevmir. Orozqul kimi kənd həyatına nifrət edir, daim şəhər həyatına, rahatlığa can atır.

Digər iki obraz isə Ağ gəmi və Maral anadır. Mömin dədə balaca uşağın təhsili üçün çanta alır, at belində məktəbə aparıb gətirir. O, nəvəsinə durbin alır ki, Gözəlçi dağından Ağ gəmini seyr etsin. Ağ gəmiyə baxmaqla uşağın atasına qovuşmağı və dədənin dərdini başqa insanlara danışmaq istəyi yatır. Uşağa nağıllar, hekayələr, əfsanələr danışır. O məşhur əfsanələrdən birii elə Maral anadır. Maral ana azadlığı, xoşbəxtliyi, bərəkəti təmsil edir. O, qoruyucudur. Qırğız xalqı varlığını ona borcludur. Qədim zamanlarda qırğız xalqının nəsli tükənərkən Maral ana iki qırğız uşağı qoruyub saxlayır və qırğızlar həyatda qalaraq mövcudluqlarını qoruyub saxlaya bilirlər. Ancaq zaman keçdikcə qırğızlar maralları ovlamağa başlayırlar. Bunu görən Maral ana da maralları götürüb oradan uzaqlaşır. Uşaq əfsanəyə səmimi qəlbdən inanır və onu gerçək hesab edir. Hətta xalası üçün buynuzlarında ona uşaq gətirməsini arzulayır. Orozqul isə ərazidəki meşədən hər kəsə rüşvət qarşılığında pay verir. İnsanlar haqlarını istəməyə başlayanda Orozqul marallardan xəbər tutur. Maralları ovlamaq işini isə Mömin dədəyə tapşırır. Mömin dədə marallara ilahi məna yükləsə də, onları vurmaq məcburiyyətində qalır. Evə qayıdarkən maral başını görən uşaq onu Maral anaya bənzədir və dədəsi tərəfindən öldürüldüyünü eşidəndə dünyası alt-üst olur, ümidləri puç olur. Balaca uşaq əfsanədəki Maral ana kimi oranı tərk edib uzaqlaşır.

### Dişi qurdun yuxuları

"Dişi qurdun yuxuları" romanı bir-birinə bağlı 4 əsas hekayədən qurdların, Abdiasın, Hz. İsanın və çoban Bostonun hekayəsindən ibarətdir. Meşədə öz halında yaşayan Əkbər adlı dişi qurd və onun yoldaşı Daşçaynarın üç balası olur. Ölkəni inkişaf etdirəcək beş illik planın üç ayının keçməyinə baxmayaraq bir fayda vermədiyini görən hökumət meşələrdəki heyvanları helikopterdən atəş açmaqla öldürmək qərarına gəlir. Atılan atəşlərin ucbatından onlarla canlıyla yanaşı, Əkbərin üç balası da ölür və onlar

ərazini tərk edirlər. Hökumət təkcə helikopterlə kifayətlənmir və heyvanların öldürülməsi üçün dəstə yığır. Dəstə üzvlərindən biri Abdias olur.

Abdias digərlərindən seçilir. O, uşaqlıqda anasını itirir, öz həyatını dinə həsr edir. Daha sonra jurnalist olur, narkotika tacirlərinə qarşı mübarizə aparır və onların izinə düşür. Bu yolda onun başına onlarla hadisə gəlir. Məsələn, meşədə gəzərkən üç qurd balası ilə qarşılaşır, amma əlini başının arxasına qoyaraq çökməsi onun həyatını qurtarır. Qatarda qaçaqmalçılarla mübahisə edərkən döyülür və qatardan atılır. Yuxusunda özünü Qüdsdə çarmıxa çəkilən Hz. İsa olaraq görür. Dini düşüncəsi və peyğəmbərlik iddiasından imtina etməsi üçün Roma valisi Hz. İsayla danışır. Ancaq Hz. İsa razılaşmır və çarmıxa çəkilmək üçün Qolqaf çölünə aparılır. Yuxu Abdiasın narahatlığının ifadəsidir. Maddi və maddələşən düşüncələrin dini sıradan, insan həyatından çıxartdığını düşünür. Abdiasın həyatı elə gətirir ki, pul üçün qrupa daxil olmaq məcburiyyətində qalır.

Abdias əslində heyvanların öldürülməsinə qarşıdır. Onun gördüyü iş öldürülən heyvanların cəsədlərini toplamaqdır. Digər dəstə üzvlərinə dindən, ədalətdən, vicdandan, mərhəmətdən danışır, lakin xeyri olmur. Çox zaman sərxoş halda olan cəsəd toplayanlar üçün bunlar faydasız şeylərdir. Onlar Abdiasın danışıqlarından bezib onu döyür, əl-qolunu bağlayır və heyvan cəsədlərinin toplandığı kamaza atırlar. İçki qabları maşın silkələndikcə qırılır, Abdiasın bədəni kəsik-kəsik olur. Sonra ağacdan asırlar və dözə bilməyib can verir.

Əkbər və Daşçaynarın getdikləri digər yerdə balaları doğulur. Ancaq əyyaş çoban Bazarbay meşədə bala qurdlara rast gəlir. Bazarbay qurd balalarını yaxşı qiymətə satacağını düşünüb özüylə aparır. Gecəni Bostonun yanında keçirməli olur. Əkbər və Daşçaynar bunları görür. Boston hadisədən xəbər tutanda qurd balalarını götürüb meşəyə buraxır ki, ailəsi gəlib aparsın. Ancaq Əkbər və Daşçaynar onları tapa bilmir. Əvəzində qurdlar

vəhşiləşir və əsəbini insanlardan, onların qoyunlarından çıxmağa başlayırlar. Boston tələ qurur. Əkbər qurtula bilsə də, Daşçaynar ölür. Əkbər təkbaşına qalır və yaşamaq istəyi azalır. Bir müddət keçdikdən sonra Əkbər Bostonun oğlu ilə qarşılaşır. Onunla dostluq etsin deyə özüylə aparır. Bunu bilən Boston silahını götürüb arxalarınca düşür. Əkbəri vurmağa cəhd edir. Atəş açır... Atəş təkcə Əkbəri yox, Kençeni də öldürür. Boston çox peşman olur. Hər şeyin səbəbini Bazarbayda görür və onu öldürür. Polisə təslim olmaq istəyir. Ancaq yolda gedərkən dözməyib gölə girərək intihar edir.

Çingiz Aytmatov bu hekayələrlə yenidən heyvan haqları, təbiətin insanlar tərəfindən məhvi, yaxşılıq və pisliyin mübarizəsi, ədalət kimi mövzulardan danışır. Demək olar ki, Aytmatov elə "haqq"dan danışır. Danışmağa isə haqqı çatır. Bir yerli və milli kimi...

Çingiz Aytmatov üçün insan, onun taleyi, onun həyatı, azadlığı, duyğuları olduqca əhəmiyyətlidir. İnsan müəyyən məkan və zaman çərçivəsində mövcuddur. Məkan və zaman vücudu formalaşdırdığı kimi daxili aləmini, sosial-psixoloji və mənəvi halını da formalaşdırır. Çingiz Aytmatov insanın məkan və zamana hökm etmə cəhdindən şikayət edir. Kəndli təbiətlə mübarizə aparmağına baxmayaraq həyatının təbiətdən asılı olduğunu dərk edir. Özünü dərk edən kəndli hansı ağacı kəsəcəyini, hansı heyvanı ovlayacağını yaxşı bilir. O, təbiətin, təbiət də onun ömrünü uzadır. Çingiz Aytmatov insan arzularının vəhşiliyi nəticəsində zaman və məkanın deformasiyaya uğramasından narahatlığını dilə gətirir. O, şikayət edərək çəkilib bir kənarda gözləmir, problemə diqqət çəkir, nəticəni və həll yollarını göstərir.

Özünün də dediyi kimi "incəsənət insanları nikbinliyə, xoşbəxtliyə çağırmalıdır. Ancaq haqqı tapdalandığı zaman kədər hissini yaşatmalı və bu yolda mübarizəyə köklənməlidir."

Qırğızıstan onunla təkcə yazıçı qazanmadı. Mədəniyyətinin təkan verici qüvvələrindən birini qazandı. Çingiz Aytmatovun qələmindən çıxanlar teatr səhnələrində oynanılır, ekranlaşdırılaraq dünyanın müxtəlif ölkələrində nümayiş etdirilir. Əsərlərinin motivləri əsasında bir sıra ölkələr filmlər çəkir. Məsələn; Türkiyədə çox sevilən və kult filmlərdən birinə çevrilən "Selvi boylum, al yazmalım"ın hekayəsi Çingiz Aytmatova məxsusdur. Qırğız dilində "Dilbərim" olaraq nəşr edilən əsərin adını yazıçı film uğur qazandıqdan və Türkiyə tərəfindən çox sevildikdən sonra əsərin növbəti nəşrlərində filmdə olduğu kimi dəyişdirir. Həmçinin gənc qırğız resjissorlar özlərini Aytmatov filmlərini çəkərək təkmilləşdirirlər. Roman, povest və hekayələri Qırğızıstanda Çingiz Aytmatov kino məktəbini yaradır.

## Mədə beyindən daha ağıllıdır

Çingiz Aytmatov sayəsində insanların çoxu, xüsusilə avropalılar Qırğızıstanı tanıdılar. Tanrı dağlarını, İssık-Kulu, Manas dastanını, qırğız qəhrəmanlarını, təbiətini, mədəniyyətini tanıdılar. Onun yaratdığı obrazlarla avropalılar Daniyarı, Cəmiləni, Aysel, Tolunay adlı türkləri tanıdılar, övladlarına bu adları verdilər. Cəmiləylə ən gözəl eşqi, Gülsarıyla ən dostcanlı atı, Düyşenlə əsl müəllimi tanıdılar. Bayraqdar olub qırğız mədəniyyətini dünyaya tanıtdı.

2008-ci ilin mayında Kazan şəhərində romanı əsasında film çəkilişi prosesində halı pisləşir, Böyrək çatışmazlığı diaqnozu ilə əvvəlcə Tatarıstan, daha sonra Almaniyaya aparılır. Lakin yorğun bədəni tab gətirə bilmir və 10 iyunda Almaniyanın Nürnberq şəhərində bu dünyaya sonuncu dəfə gözlərini yumur.

Qırğızıstan deyiləndə 3 şey yada düşür: Manas dastanı, İssık-Kul gölü və Çingiz Aytmatov. Çingiz Aytmatov həm İssık-Kula, həm də Manas dastanına yenidən can verdi. Üçünü birləşdirdi. Bir olan Manqurt adıyla yeni termin kimi ortaya çıxdı.

Çingiz Aytmatov mübarizə obyektini düzgün müəyyən etmişdi. Həkim kimi xəstəsinin yarası üstündə apardığı analiz doğru idi.

Çingiz Aytmatov: "Mədə beyindən daha ağıllıdır! Çünki ən azından mədə bulanaraq qaytara bilir, beyin isə hər zibili qəbul edir".

O, zehin savaşına girdi və oradan qalib çıxdı. Özü ilə birlikdə minlərlə insanı qurtardı. Beyinlərinin içindən zəhəri çəkib çıxartdı. Doğrudur, onun istəyi tam olaraq reallaşmadı, hələ də reallaşmayıb. Bəlkə nə vaxtsa həyata keçər və sözləriylə dövrünün, millətinin rəsmini çəkən rəssam uşağın - Aytmatovun üzü gülər.

Yazıçının niyyəti açıqdır, onun mətnlərində.

Qaçıb gizlənmir. Xəttinin coğrafiyası Türküstandır, Turandır.

Kimlərinsə dəyərlərini aşılamır. Bir zamanlar sıxışdırılıb kənarlaşdırılan, üstü örtülən öz dəyərlərini əlləri ilə torpağı eşələyərək açır, gün üzünə çıxardır.

Ədəbiyyatın mərkəzinə getmir, əksinə, ədəbiyyatın mərkəzini Şərqə, Turana, Türküstana çəkir. Dünyaya buradan baxır, buradan səslənir. Buna görə Aytmatova Qərbin nüfuzlu ədəbi mükafatları verilmədi. Gerçək Qərb, daha doğrusu, insanları onu oxudular və sevdilər. Əsərləri 150-dən çox dilə çevrildi və kitabları 60 milyondan çox insana çatdı. Hələ gələcəkdə də onun hekayələri insanların evindən içəri girəcək, kimlərinsə qəlbini oxşayacaq, kimlərinsə qəlbini titrədəcəkdir.

# SƏZAİ KARAKOÇ

Səzai Karakoç 1933-cü ildə Diyarbakırın Erqani bölgəsində dünyaya gəldi. Orta təhsilini Maraş orta məktəbi və Qaziantep liseyində ödənişsiz yatılı olaraq tamamladı (1950). Atası onun ilahiyyatçı olmasını istəyirdi, özü isə fəlsəfə oxumaq. Amma yatılı oxumaq imkanı verdiyi üçün Siyasal Bilgilər fakültəsinə daxil oldu və buradan məzun oldu (1954). Maliyyə Nazirliyində müfəttiş müavini (1956-1959), Gəlirlər Genəl Müdirliyi nəzarətçisi (1959-1965) vəzifələrində işlədikdən sonra 1965-ci ildə öz istəyi ilə dövlət məmurluğundan ayrıldı. 1971-1974-cü illər arasında yenidən Maliyyə Nazirliyində işə qəbul edildi. Yenə istefa verdi və bundan sonra bir daha məmurluğa qayıtmadı.

Səzai Karakoç şeirləri ilə nəşr dünyasına girdi. "Hisar" (1951-54), "Mülkiyə" (1953-54), "İstanbul" (1953-57), "Şeir sənəti" (1955), "Pazar postası" (1957-58), "Soyut" (1965), "Diriliş" (1966 sonrası) kimi jurnallarda şeirləri nəşr olundu. "Böyük Doğu" məcmuəsində ədəbiyyat səhifəsini tərtib etdi. "Şeir sənəti", "Böyük Doğu" və "Pazar Postası" jurnallarında ədəbiyyat və sənətlə bağlı məqalələri dərc olundu.

1966-cı ildə "Diriliş" jurnalını yenidən nəşr etməyə başladı. (Jurnal ilk dəfə 1960-cı ildə nəşrə başlamış, iki nömrə sonra nəşri dayandırılmışdı. Nəşr edən: Hüsnü Gündüz). Demokrat və müsəlman kütləyə xitab edən yeni şeirin, yeni ədəbiyyat anlayışlarının qapılarını açan "Diriliş" sırf ədəbiyyat jurnalı olaraq qalmamış, xüsusilə Səzai Karakoçun yazıları ilə fikir müstəvisində

də güclü və təsirli olmuşdur. 1990-cı ildə Diriliş partiyasını quran Səzai Karakoç hal-hazırda da bu partiyanın sədridir.

Əsərlərindən bəziləri: "Şeir: Körfəz" (1959), "Şahdamar" (1962), "Xızırla qırx saat" (1967), "Səslər" (1968).

Düşüncə/fikir əsərləri: "İslamın dirilişi" (1967), "İslam toplumunun ekonomik strukturu" (1967), "Dirilişin çevrəsində" (1967), "İslam" (1967), "Qiyamət aşısı" (1968), "Mağara və işıq" (1969), "Allaha inanmaq və insanlıq" (1970), "Ölümdən sonra qalxış" (1970), "Ruhun dirilişi" (1974), "Çağ və ilham I" (1974), "Diriliş nəslinin aməntusu" (1976), "İtik cənnət" (1976), "Çağ və ilham II" (1977), "İnsanlığın dirilişi" (1977), "Gündönümü" (1977), "Çağ və ilham III" (1980), "Makamda" (1980), "Diriliş muştusu" (1980), "Çağ və ilham IV" (1986).[1]

## Aksiyonda diriliş

İnsan üçün tayı-bərabəri olmayan bu dünya və o biri dünya görüşü, bir həyat tərzi, bir mədəniyyət təqdim edən İslamın bu gün yenidən ayağa qalxmasında, inanc, düşüncə və sənət təməlləri bir dəmir-beton hörgüsü kimi, bir çinar ağacının kökü kimi min bir qıvrımı ilə İslam xalqlarının və bütün insanlığın dərinliklərini möhkəmcə qavradıqdan sonra aksiyon dövrü gələcək, aksiyon meyvələri budaqları əyən gilasın, ildə yeddi dəfə məhsul verən üzümün məhsuldarlığı ilə aşılanacaqdır. Ən məhsuldar meyvə həqiqətin meyvəsidir. Çünki həqiqətin əkilməsi ilə dünyanın artım qanunlarının ən təsirli və yüksək nəticəlisi ilə birlikdə bərəkət dediyimiz mənəvi artım qanununun da ən kəskini və ən comərdi qüvvədə olacaqdır. İslam aksiyonunda təkcə insana bəxş edilmiş olan güc deyil, kosmik qüdrəti nəzarətində saxlayan mələk də ayrıca vəzifə götürəcək, işləyəcəkdir. Şəhid namizədlərinin atdığı hər addımda basdığı yerə ərş enər və orada ərşin qanunları həyata keçər. Bədr döyüşü bu mənada əbədi modeldir. İnanc tam, etimad tam, səbir tam, cihad tam olduğu an

1. İsmail Kara, *Türkiyede İslamcılık Düşüncesi 3*, İstanbul 1998, s. 379-380.

zəfər də tam olar. Uhud Bədrin fotoqrafiya sənətindəki neqativi kimidir; ağın qarası. Bu əsas elementlərdən biri bir az əskik olarsa (məsələn, səbir kifayət qədər deyilsə), zəfərlərin ən açıq olanı da məğlubiyyətin ən acınacaqlısına çevrilə bilər. Tarix boyunca yaşadığımız bütün qələbələrimizdə Bədrin ətri, bütün məğlubiyyətlərimizdə də Uhudun ətri var. Yəni Bədr də, Uhud da daimi modellərdir. Nə Bədr qurtarıb, nə də Uhud. Bütün zəfərlərimiz Bədrin, məğlubiyyətlərimiz də Uhudun davamıdır. Bədr və Uhud tarixin içinə girdikdən sonra əsrlər boyunca irəliləməyə davam etməkdə və arxalarında dərin iz buraxmaqdadır. Xəndək döyüşü isə Bədr ilə Uhud arasında körpüdür. Tək yönə keçidi olan, Bədr istiqamətinə salınmış körpü.

Dövrümüzün İslam mübarizi də ya Bədr, ya Uhud, ya da Xəndəyi yaşayacaq. Dini aksiyon bu mübarizələrdən birindən keçmək məcburiyyətindədir. İslam, ilahi buyruqlara münasib olaraq, bu üç döyüş modelinin xaricində hərb nizamı tanımır. Əgər bunun xaricində bir hal yaşanırsa, demək ki, ya İslam müharibə şəraitində deyil, ya da tamamilə yox olub. Bir neçə əsrdir Uhud modelinə bənzər döyüşlər yaşayırıq. Döyüşlərimiz qısa müddətli ixlaslarımız sayəsində Bədr şəklinə bürünsə də, dərhal arxasınca Uhudun qalın bir lava örtüyü gəlib onun üstünü örtür. Uhud döyüşlərini keçə-keçə Xəndək modelinə yaxınlaşdıq. Bu gün dünyanın dörd bir yanında İslam inancı yavaş-yavaş qığılcımlanan bir Xəndək döyüşünün ilkin tərpənişlərini yaşayır. Bu səfər Bədr ən başda deyil, ən sonda yer alacaq. Hər yandan düşmən xəndəkləri sanki ətrafımızı sarıb və bu, onlara görə həlledici döyüşdür. Bizə görə isə artıq bir daha inkar edə bilməyəcəkləri qədər açıq bir şəkildə həyata keçirəcəyimiz isbat mübarizəsidir. Bədr bir tezis, Uhud antitezis, Xəndək isə sintezdir. Bu, başlanğıcın təbii sonluğudur. Antitezisin hücumundan (Uhud silsiləsi) sonra sintezin, yəni varlığımızın müdafiəsi (Xəndək silsiləsi – hazırda həmin mərhələdəyik), sonra da tezisin zəfəri (Bədrin dirilişi) gələcək. Revanş Bədrin olacaq ki, ondan sonra zəfər əbədi olsun.

Bütün İslam ölkələrində İslam var olmaq mübarizəsi aparır. Bu mübarizə əsl Xəndək mühitini əks etdirir. Klassik modelə uyğun olaraq hərdən səflərimiz arasından çıxan bir qəhrəman döyüşçü xəndəyin o biri tayına keçərək dastan yazır və bu yolda can qoyur. Məsələn, Seyyid Kutub kimi şəxsiyyətlər buna nümunədir. Amerikada, Afrikada, yaxud Asiyada xəndəyi keçənlər, bəlkə də, geri qayıtmırlar, amma İslamın varlığını qanlarının ən tünd rəngi ilə tarixə qeyd edirlər. Qan izi dəmirə də hopur və əsla çıxmır. Şəhid qanının izini isə dünyanın heç bir rəndəsi yonub təmizləyə bilməz. Dünya kağızı bu yazını ölənə qədər üstündə daşıyacaqdır.

Aksiyondakı əskik cəhətimiz hələ bu tərpənişin arxa planını və zəminini təşkil edən inanc, düşüncə və hissiyyat dirilişimizi tamamlaya bilməmiş olmağımızdan qaynaqlanır. Şübhəsiz ki, İslam aksiyonu düşüncə, hissiyyat və inancdan ayrıla bilməz. Onların başladığı yerdə aksiyon da başlayar. Amma burada haqqında danışılan məsələ teorem-praktika, doktrina-aksiyon birləşməsində hər səfhədə hansının hakim olmasıdır. Məkkə və Mədinə dövrlərinin sırası da bizə onu göstərir ki, aksiyonun yüzdə əllidən çox-çox üstə çıxdığı mərhələ son mərhələdir. Zatən bu da ruha əhəmiyyət və üstünlük verən İslam inancına uyğundur. Bununla birlikdə, inancın düzgün formalaşdırılması dövründə də aksiyonun yoxluğu fərz edilməməlidir. Sadəcə olaraq birinci mərhələdə düşüncə və inanc aksiyonu, ikinci mərhələdə də, onlar bir yandan qat-qat artmağa davam edərkən, davranış aksiyonu başlayacaqdır.

Düşüncə, inanc və hissiyyat, diriliş və aksiyonlarımız tamamlandıqdan sonra davranış aksiyonumuz başlayacaq, zəfərin və mücadilənin metodu müəyyənləşəcək, arxalanacaq bir torpaq və bir kütlə ortaya çıxacaq və bütün inananlar bir Baş ətrafında toplanacaqlar. İndi bütün gecəmiz və gündüzümüz bu istiqamətə çevrilməlidir.

İslam aksiyonu bütün ehtişamı ilə başladığı zaman saxta aksiyon sərxoşu olan kapitalizm, xristianlıq, kommunizm və irqçilik

aslan görmüş heyvan sürüləri kimi yuvalarına çəkiləcəklər. Ordusuz müharibə, başçısız ordu, səbirsiz zəfər olmaz. Aksiyon bütün qolları ilə meydana gəlmədən ağ günə çıxmaz. Meşəni lərzəyə gətirən bir aslan kükrəməsi üçün illər tələb olunur.

Kapitalizmin aksiyonu əzmək, kommunizmin aksiyonu qandallamaq, xristianlığın aksiyonu işığı söndürüb qaranlığın ovsununda süstləşdirmək, bütpərəstliyin aksiyonu isə insanlığı kainat şərabı ilə qızışdırıb uçuruma doğru itməkdir. Yunan mədəniyyətinin aksiyonu bütpərəstlik aksiyonunun, Roma aksiyonu da kapitalizm aksiyonunun antik modelləridir. İslam aksiyonu isə Yaradan-insan-kainat arasındakı münasibətləri tənzimləmək və həyatı mərhəmət qanadının altına almaq, mənanın ən dolğun sevincini aşılamaq məqsədi güdür.

Quran "Oxu!" deyərək başlayır, amma bütün surələrində daxili qayğılarla birlikdə aksiyona təşviq var. Quranın həqiqəti təkcə teorem bir anlayış ifadə etmir. Burada aksiyonla birlikdə elm, sənət, tarix, həqiqət və əzmkar tərpəniş bir-birindən ayrılmayacaq şəkildə qarışmış və vəhy dediyimiz möcüzəvi ifadəyə çevrilmişdir.

İnsan öz varlığını aksiyonla büruzə verir. Tor hörmək hörümçək üçün aksiyon sayılırsa, ən üstün varlıq olduğunu ifadə edəcək abidəni daxilində və xaricində ucaltmaq da insanın aksiyonudur. Tarix demək, bu abidəni inşa etmək deməkdir. O abidə isə İslamdır.

Dövrümüzdə İslamın mədəniyyət və azadlıq mübarizəsindən daha güclü və daha haqlı bir aksiyon yoxdur. Benzin tökərək özünə qəsd edən bir buddistin intiharı belə əsil bir aksiyon kimi qiymətləndirilən günümüzdə özünü müsəlman sayan bir insan İslamın aksiyonu olan, ərdəm, mələk, müqəddəslik, bilik və qurtuluş çağlayan, insanın ən böyük müəllimi və rəhbəri olan dini mübarizədən necə yayına bilər?[2]

---

2. Səzai Karakoç, *İslamın Dirilişi,* İstanbul 2005, s. 47-52.

## Dövrümüz mədəniyyət və ideologiyalar müharibəsi dövrüdür

İki əsrdir başımıza gələnləri düşünə-düşünə, dəyərləndirə-dəyərləndirə ümumi bir nəticənin çıxış nöqtəsini tapa bilərik. Həqiqət budur ki, keçmiş zamanı dəyərləndirmədən gələcək zamana işıq tutmaq mümkün deyil.

Tənzimat və islahat dövrü Qərbin ümumi renessans təsiridir. Bütün Şərq və İslam dünyasını yavaş-yavaş əhatə edən Qərb, bizə də, düşüncə və dövlət müstəvisində təsir etməyə başlamışdır. Bizdə ilkin mərhələdəki dəyişikliyi belə xülasə edə bilərik: "Qərbə qarşı qərbliləşmək". Yəni Qərbə baxışımız aktiv ruhumuzun alovlu müşahidələri nəticəsində deyil, xarici təsirlər qarşısında müəyyən passivlik nəticəsində özünü hadisələrin axarına təslim edən ümidsizlik halımızla formalaşdı. Beləliklə, maddi mənada Avropanı dirildən Renessans təsiri bizdə maddəmizlə birlikdə ruhumuzun da əsir düşməsinə yol açdı. Fateh və Babur renessanslarını yavaşlatmadan, Qərbə istiqamətlənmiş aktiv, tənqidedici, yaxşı yönlərini əxz edərkən pis yönlərini ayırd edərək kənarlaşdıran bir ruhla yönələ bilsəydik, onun mədəniyyət məngənəsindən rahatlıqla qurtula bilərdik.

Məşrutiyyətə qədər davam edərək renessans təsiri altındakı ruh və düşüncə dümyamıza girən qərbçilik məşrutə və cümhuriyyət dövrlərində bir tək axımın – pozitivizmin hegemoniyasına düşərək davam etdi. Pozitivizm isə inqilab ruhu kimi müəssisələrin təməlini atdı. On il amerikan praqmatizmi ilə mübarizədən sonra yerini marksizmə buraxacaq həddə gəldi.

1960-cı il hərbi çevrilişindən sonra gün üzünə çıxan marksizm pozitivizmin yerini tutmağa çalışır. Pozitivist inqilabçı ruh bəzən marksizmlə əl-ələ verib yerli mədəniyyətlə mübarizə aparır, bir çox hallarda da yerini və təsir sahəsini marksizmə buraxır. Hər gün marksizm pozitivizmlə kök birliyinə, yəni materialist təməl birliyinə əsaslanaraq onun təsir sahəsini işğal edir, müəs-

sisələrini marksist rəngə bürüyür. Beləliklə, ümumi bir renessans təsiri şəklində başlayan qərbçilik ideyası bu gün türk ruhunu ortadan qaldırmağa çalışan marksist fəaliyyətə çevrilmiş haldadır.

Marksizm bu günə qədər Qərbin zəiflətdiyi bir ruha son zərbəni endirmək ərəfəsində ikən bir neçə avantaja da sahibdir. Birinci avantaj bu günə qədərki Qərb anlayışının ona hazırladığı geniş və rahat təsir sahəsidir. İkinci avantajı budur ki, bu günə qədərki Qərb sistemləri daha çox məlumat sistemi və ümumi dünya görüşü şəklində özlərini təqdim edərkən, marksizm bir ictimai sistem şəklində və sosial ədalət maskası arxasında gizlənərək ortaya çıxmışdır. Üçüncü avantajı isə kökü etibarilə tam bir Qərb sistemi olmasına baxmayaraq, sanki bir Şərq sistemi kimi Qərbin bu günə qədər törətdiyi bütün dağıdıcı təsirlərdən özünü təmizə çıxartmağı, məsuliyyətdən yayınmağı bacarması, hətta Qərbə qarşı duyulan nifrət hissini istismar edə bilməsidir.

Var olma imtahanının ən çətin günlərini yaşayan İslam ruhu, bəlkə də son çırpınışda, ya tamamilə var olmaq və ya tamamilə yox olmaq mücadiləsi içində yenidən oyanmağa başlamışdır. Şübhəsiz ki, İslam yer üzündə qiyamət gününə qədər qalmağa davam edəcəkdir. Bu, Allahın vədidir. Ancaq layiq olmayan qövmlər və ölkələr bu ilahi nemətdən öz xətaları ucbatından məhrum ola bilərlər.

Məhz bu şərtlər altında dövrümüz böyük bir mədəniyyət və ideologiyalar müharibəsi dövrüdür. İslam intellektualları haradan gəlib haraya getməkdə olduğumuzu, bugünkü vəziyyətimizi, nə cür bir ruh və düşüncə müharibəsi içində yer aldığımızı, güclü və zəif yönlərimizi yaxşıca ölçüb-biçmək, ən qatı tənqidləri etmək, həddi aşan və rahat ümidlərə qapılmamaq, qurtuluşsuz ümidsizliklərə saplanmamaq, böyük bir mədəniyyət müharibəsi içində ən böyük fədakarlıqları edərək gecə-gündüz çalışmaq və özlərini öz mədəniyyətimizin yenidən dirçəlişinə həsr etmək məcburiyyətindədirlər. Bu belə olarsa, nəticədə bir Qərb axımı olaraq

ruhumuza yad olan marksizm bütün avantajlarına baxmayaraq, əvvəl-axır, istinin qarşısında əriyən qar kimi əriyəcəkdir.

Qarşımızdakı dövr bütün İslam dünyasında İslamla marksizmin müharibə dövrüdür. Biz bu mübarizədə bütün səmimiyyətimizlə, bütün imkanlarımızla səbir və səbat göstərsək, Allahın yardımı və izni ilə müvəffəqiyyətə çatmamağımız üçün heç bir səbəb yoxdur.[3]

## İslamın yerliliyi

Mənfi təbliğatlardan biri də İslamın ərəb mədəniyyətinə məxsus olduğu iddiasıdır. Burada məqsəd İslamı yadlaşdırmaqdır. Halbuki İslam bizim üçün yüzdə yüz yerli mədəniyyətdir. Hətta yeganə yerli mədəniyyətimiz İslamdır. Yerli mədəniyyətimizin əsası İslamdır. Digər ünsürlər isə ancaq onunla uyğunlaşa bildiyi nisbətdə mənəvi və maddi mədəniyyətimizə daxil ola bilmişdir. Hətta Qərb mədəniyyətinin, bütün yoğun səylərə baxmayaraq, ölkəmizdəki müvəffəqiyyətsizliyinin səbəbi onun İslam mədəniyyətinin hakimiyyətinə boyun əymək istəməməsi, tabe olmamasıdır. İslam mədəniyyətinə uyğun gələn Qərb mədəniyyət ünsürləri rahatlıqla qəbul edildiyi halda, onunla uyğunlaşmayanları yalnız qanun zoru ilə və dövlət himayəsində qəbul etdirilmişdir.

Zatən tarixi baxımdan da İslamı təkcə ərəb mədəniyyəti olaraq qəbul etmək mümkün deyil. İslamın mədəniyyət və adət-ənənələrinin təməli vəhydir. Yəni mənbəyi ilahi vəhy olan İslam mədəniyyəti bütün insanlığın mədəniyyətidir. Necə ki, xristianlıq sami bir irqin ortasında meydana çıxmasına baxmayaraq latın, german və anqlosaks dünyası tərəfindən mənimsənmişdir, İslam da Ərəbistanda ortaya çıxmasına baxmayaraq bütün türk, əcəm, hind və afrikalı xalqların malı halına gəlmişdir. Birinci dərəcədə bütün insanlığın malı olan İslam ikinci dərəcəli olaraq da Orta Şərqin orijinal mədəniyyətini təşkil edir. O dövrün xarici mədəniyyəti olan Roma mədəniyyətinə qarşı Orta Şərqin yerli

3. Səzai Karakoç, *Günlük Yazılar II Sütun*, İstanbul 1999, s. 326-328.

mədəniyyəti olaraq ortaya çıxmış və özünə yad olan mədəniyyəti kənarlaşdırmışdır. Beləliklə, xarici mədəniyyətin istilasına qarşı ilk döyüşü başladan və zəfər əldə edən, dövrümüzün mədəniyyət müharibələrinə ilk nümunə olan elə İslamdır.

Mədəniyyət bir yoğurma ruhudur. İslam ruhunu mənimsəyən ərəblər, türklər, əcəmlər, hindlilər, misirlilər və şimali afrikalılar öz irqi qabiliyyətləri ilə birlikdə müştərək bir mədəniyyət mirasını meydana gətirmişlər. Təməl dəyişməməklə birlikdə, öz xüsusiyyətlərindən də bəzi rənglər qatmışlar. Beləliklə, bir Hind-İslam mədəniyyəti, Türk-İslam mədəniyyəti kimi eyni mədəniyyətin budaqları olan nüanslar törəmişdir. Hətta bu mədəniyyət budaqlarının da bir çox qolları olmuşdur. Mavəraunnəhr mədəniyyəti, Səlcuqlu mədəniyyəti, Osmanlı mədəniyyəti və s. Deməli, hansı tərəfdən baxmağımızdan asılı olmayaraq, İslam mədəniyyətini təkcə ərəb mədəniyyəti kimi görmək səhv və qərəzli niyyətin məhsulu olacaqdır. İslam mədəniyyəti ərəbin olduğu qədər türkün də, müsəlman hindlinin də mədəniyyətidir.

Məsələyə təkcə Anadolu bucağından baxsaq, nəticə yenə də dəyişməz, hətta qüvvətlənər. Min ildən bəridir ki, İslam Anadolunun rəqibsiz mədəniyyətidir. Cəmiyyətin hər bir müəssisəsinə İslamın ruhu hopmuşdur. İslam məktəb və mədrəsələri, təkyələri qurmuş, doğuşdan ölümə qədər həyatın bütün sferalarında, istər fərd, istərsə də cəmiyyət olaraq, ruhu və qaydaları ilə, hikməti və qanunları ilə hakim olmuşdur. Ancaq əlli ildir ki, Qərb mədəniyyəti onun yerinə qoyulmaq istənməkdədir. Lakin Qərb mədəniyyəti bu gün üçün sadəcə sınaq mərhələsindəki bir mədəniyyətdir; əlli il zərfində müvəffəqiyyətsizliyin bütün əlamətlərini göstərmiş olan bir sınaq mədəniyyəti. Halbuki bir mədəniyyətin yerliləşməsi üçün ən az onun yerləşməsinin üstündən beş yüz il keçməlidir. İslam mədəniyyətinin yerləşməsinin üstündən iki dəfə beş yüz illik bir müddət keçdiyi halda Qərb mədəniyyətinin ölkəmizə bütünü ilə girmək istədiyi dövr sadəcə əlli ili əhatə edir.

Min il cəmiyyət həyatında əbədilik ölçüsüdür. "Əbədi dövlət" deyə ifadə edilən müddət zərfində də bir dövlətin min il yaşaması ölçü olaraq qəbul edilmişdir. Bir yerdə min il ayaqda qalan mədəniyyət oraya tamamilə yerləşmiş olaraq qəbul edilir.

İnsanlığın mədəniyyəti olaraq da, Orta Şərqin mədəniyyəti olaraq da, Anadolunun öz mədəniyyəti olaraq da İslam, tərk edilməsi mümkün olmayan mədəniyyətimizdir. Ruhuna xarici mədəniyyət aşılanmış olanlar bunu beləcə bilsin, yaxşıca dərk etsinlər.[4]

## Bilmək mənliyə və ruha nəqş etməkdir

İslam dünyasında müsəlmanların dirçəlişlərini gerçəkləşdirə bilmələri üçün tələb olunan bir səfərbərlik də mədəniyyət səfərbərliyidir; bilik səfərbərliyi.

Keçmiş və indiki zamana aid elmi məlumatları, öz mədəniyyətimizin gizli xəzinələri sayılan kitabxanalarımızın tozlu rəflərində tərk etdiyimiz könül və elm dühalarını ortaya çıxardacaq, Şərqi və Qərbi meydana gətirən inanc, düşüncə və davranış vericilərini bilmək üçün başladılacaq bir mücadilədən danışırıq.

Bilmək deyəndə əzbərləməyi və xaricdən öyrənməyi deyil, mənliyinə və ruhuna hopdurmağı nəzərdə tuturam.

Bilmək səfərbərliyi oxumaq-yazmaq öyrədən ibtidai təhsil səfərbərliyi kimi deyildir. Bu, aşağıdan yuxarı deyil, yuxarıdan aşağı gələn, yəni universitet səviyyəsindən aşağı doğru inkişaf edən, yayılan bir mədəniyyət mübarizəsi olmalıdır.

Bizdəki ibtidai təhsil səfərbərliyi mədəni anlayışımıza o dərəcə hakim vəziyyətə gəlib ki, nəticədə universitet təhsili də ibtidai təhsil səviyyəsinə enmişdir.

Uşaqdakı maraq, diqqət, incələmək, birləşdirmək, əlaqələndirmək bacarıqlarını yox edən, zəkanı kütləşdirən, mahiyyətini dəyərsizləşdirən, ürəyi qaraldan ölü məlumatların bombardma-

4. *e.a.ə.*, s. 339-341.

nından, qərəzli hökmləri tutuquşu kimi təkrarlayan təqlidçi əzbərçilikdən xilas edəcək bir mədəniyyət səfərbərliyi olarsa, İslam dünyasında şüur oyanışının və ruhi arınmanın yanında yer tutacaq üçüncü böyük qurtuluş həmləsi gerçəkləşmiş olacaqdır.

Orta əsrlərə şamil etdiklərinin tam əksinə, əslində bu gün İslam dünyasında həyatla, ictimai həqiqətlərlə, reallıqlarla əlaqəsiz bir çox ölü məlumatlar verilərək uşağın zəkası məşğul edilməkdə, məhv edilməkdədir.

Bu gün Türkiyədə neçə-neçə tanınmış şairlər var ki, ən böyük şairlərimizin divanlarını oxumayıblar, hətta daha da dəhşətlisi, oxuma gərəkliliyini başa düşməmiş, hiss etməmişlər. Belələrinin bir çoxu Süleymaniyə məscidinin yanından keçərkən adi, hər hansı bir insanın hiss edə biləcəyi qədər belə estetik həyəcan duymamaqdadır.

Memarlığımız memarlarımıza, tariximiz tarixçilərimizə, şeirimiz şairlərimizə, musiqimiz musiqişünaslarımıza heç nə deməyən, heç nə ifadə etməyən hala gəlib. Düşdüyümüz haldan da musiqimizi, şeirimizi, memarlığımızı məsul tuturlar! Müasir düşüncə, sənət və ədəbiyyat fəaliyyətimiz keçmişlə əlaqəsini bu şəkildə qopartdıqdan sonra hər şeyin günahı da onun üstünə yıxılıb.

Dünyanın ən orijinal mədəniyyətlərindən birinin sahiblərinin övladları olan bizlər bu gün o mədəniyyətə bütün dünyada ən yad qalmış topluluq halına gəldiyimizin ürpərişini də hiss etməkdən aciz vəziyyətə gəlmişik.

Bütün İslam dünyası öz mədəniyyətinə qarşı kor və kar hala gətirilib. Üstəlik, biz öz yazımızı da tərk etmişik. O mədəniyyətlə əlaqəni təmin edən yazı ortadan qalxdıqdan, yəni məktəblərdən, dövlət dairələrindən və mətbuatdan uzaqlaşdırıldıqdan sonra keçmişi və gələcəyi olmayan, indiki zaman içində beyni yuyulmuş, ölçmə, biçmə, qarşılaşdırma, çəkmə, dəyərləndirmə kimi vəsflərdən məhrum, təkərləmələri və ya partiya şüarlarını fəlsəfə və ya din kimi mənimsəmiş bir nəsil törədildi.

Hər şeyi yerbəyer edəcək, bütün keçmişi yenidən dəyərləndirəcək, beyinlərə və ruhlara doldurulan bütləri yıxacaq, tarixi, ədəbiyyatı, şeiri, musiqini, memarlığı əhya edəcək, fizika, riyaziyyat, kimya, astronomiya, coğrafiya, arxeologiya, antropologiya, psixologiya, sosiologiya, xülasə, bütün elm sahələrində həqiqəti axtarmaqdan başqa məqsəd güdməyən, həqiqətdən başqa şərt tanımayan həqiqi elm xadimlərini ortaya çıxaracaq, hər şeyi bilməyə, öyrənməyə, incələməyə maraq salan, bütün bunlar üçün səbirlə təchiz olunmuş, təvazökar, hörmətkar, dindar, xeyirxah bir nəsil, diriliş nəsli, İslam dünyasının üfqündə ancaq yeni və əsaslı bir mədəniyyət səfərbərliyinin hazırlıqları içində meydana gələcəkdir.

Renessans xaricə yönəlmiş bir arayışın nəticəsi olaraq ortaya çıxdı. Xristianlar müsəlmanların üstünlüklərini və keçmiş mədəniyyətlərin xariqülədə yönlərini gördülər və bütün bunların həqiqətini axtarmağa başladılar. Dünyanın hər tərəfinə səyahətlər tərtib etdilər. Hər yanı gəzib gördülər. Müxtəlif xalqlar, adət və ənənələrlə qarşılaşdılar. İqlimlərə, irqlərə və mədəniyyətlərə dair yeni məlumatlar əldə etdilər. Bu, onların üfüqünü genişlətdi. Onlara yeni bir ümid və nikbinlik qazandırdı. Bu ümid və nikbinlik səbirli bir çalışma ilə yeni bir mədəniyyət həmləsinə çevrildi.

Ayağa qalxaraq çiyinlərindən ölüm tozlarını silkələmək istəyən İslam dünyası içə və xaricə, keçmişə və gələcəyə yönəlik bilmək - öyrənmək şövqünü təzələmək məcburiyyətindədir.[5]

## Böhranın qaynağı

XIX əsrdə teoriyadakı renessans əsaslarına görə son nöqtənin də ötəsinə keçildi. Qərb ruhunun nizamlandığı səviyyə aşıldı. Hərçənd ki, bu aşma yeni bir metafizik təmələ nail olmaq mənasında və iqtidarında deyildi. Zatən elə olsaydı, Qərbdə yeni bir quruluş başlayardı ki, bu da insanlığın yeni bir çıxış yolu tapdığı mənasına gələrdi. Amma belə olmadı. Mövcud olan insanı aşan,

5. Səzai Karakoç, *Sur*, İstanbul 1975, s. 68-70

lakin yeni bir insan formalaşdırma gücündən də yoxsun olan metafizik dalğası insanlığı bir müddət böhran burulğanına saldı. Beləliklə, praktikada qədər, insanlığı və dünyanı zəncirə vurub qəlbinin günahına bədəl ödəmə yönündə sürükləməyə başladı. Qərb ruhuna uyğun olaraq praktika teoriyaya qalib gəldi.

Dağıntının səbəbini bu günlərdə axtarmamalıyıq. Bu dağıntının kökü renessansdadır. Daha doğrusu, Qərb, renessans hæmləsində enerjinin tükəndiyi son həddə çatmış vəziyyətdədir.

Renessansın təməlində iki əskik cəhət var. Bunlardan birincisi, hər bir yeni quruluşda var olması labüd olan orijinal özün olmaması idi. Yəni yeni bir insan meydana gətirərkən böyük yenilik vüqarı və ya təzəliyi renessans axımında mövcud deyildi. İkincisi isə, renessansın İslamı düzgün qiymətləndirə bilməməsidir. İslama olan marağın zəifliyi renessans axımının metafizik təməlinin zəif qalmasına səbəb oldu və insanı dünyaya dair düzgün baxış tərzindən məhrum etdi. Bu ilahi və insani özdən məhrumluğu insanlıq bu günə qədər hiss etməmişdi. Çünki Avropa sivilizasiya olaraq ancaq Avropa sərhədlərinin daxilində qalırdı. Xaricə daşa bilmirdi. Xaricə daşması yalnız istila məqsədi ilə olurdu. Asiya və Afrika Avropanı bir sivilizasiya kimi deyil, bir düşmən, hətta bəzən təbii fəlakət kimi qəbul edirdi. Lakin XX əsrdə iki dünya müharibəsi ard-arda Qərbi bürüdükdən sonra Asiya və Afrika ölkələri ilk dəfə nəfəs dərməyə fürsət tapdılar. İlk dəfə yenidən özünü tapmaq, özünə qayıtmaq ehtiyacını hiss etdilər. Buna görə də özlərini əzən gücün nə olduğunu araşdırmaq məcburiyyəti qarşısında qaldılar. Bir yandan bu ölkələr Qərbi bir sivilizasiya kimi qəbul etmək meylinə düşmüşkən, Qərb də öz növbəsində içinə düşmüş olduğu münaqişələr səbəbi ilə bu günə kimi müstəmləkə olaraq əzdiyi ölkələrə möhtac hala gəlməyin iztirabı içində qıvranmaqdadır. Bu həqiqəti qəbul etməkdə çətinlik çəkir. Amma reallıq budur. Qərb problemin ağırlığını zehnində daim əvvəlki vərdişlərinə, siyasi və iqtisadi plana çəkir. Görünüşdə bu doğru kimi görünsə də, yəni ilk baxışda Qərbin və insanlığın problemləri

siyasi və iqtisadi səbəblərlə bağlı görünməklə birlikdə, həqiqətdə renessansdan gəlib bu günə kimi sürüklənən, yəni müvəffəqiyyət maskası altında gizlənən metafizik problem – sivilizasiya problemi ortaya çıxmış olur.

Problemin bir Qərb baxımından, bir də Asiya və Afrika ölkələri baxımından görünüşü var. Qərb öz mədəniyyəti xaricində başqa bir mədəniyyəti mənimsəməməkdə olsa da, bəzən qədim Asiya sivilizasiyasının təzyiqlərini hiss etməkdədir. Bunun yanında, öz mədəniyyətini də inkişaf edən dünya və insanlıq şərtlərinə uğunlaşdırmaq məcburiyyətindədir. Qərb xaricindəki dünya isə bir tərəfdən Qərb sivilizasiyasını mənimsəmək ehtiyacı hiss edərkən, bir tərəfdən də öz dünyasının yavaş-yavaş Qərbə üz tutduğunu acı-acı görməkdədir. Nə Qərb, nə də digərləri yavaş-yavaş içinə çəkildikləri böhranı tam olaraq dərk etməkdədir. Sanki hər kəs özünü laqeyd, məsuliyyətdən kənar bir şəkildə ümumi axıma təslim etmiş haldadır. Amma tarix və zaman öz qanunlarının ən kəskin hökmlərini icra etməyə davam etməkdədir. Vaxtaşırı bu yığılmalar partlayışlara çevrilməkdə və insanlıq getdikcə vahiməli hala gələn bir böhrana tərəf sürüklənməkdədir.

Orta əsrlərə qarşı çıxırmış kimi görünərək İslamın yolunu kəsmək istəyən və onun yerini almağa çalışan renessans bu gün yavaş-yavaş sönməyə üz tutmuşdur. İndiyə qədər ayaqda qalmasının səbəbi Qərbin xaricinə çıxmamış olması idi. İndi sanki insanlıq tərəfindən talan edilmə təhlükəsi ilə üz-üzə qalıb. Görünüşdə sivilizasiya olaraq bütün insanlığa yayılmaqda, həqiqətdə isə çox yayılma səbəbi ilə təsirini, eyni zamanda ona etiraz edən və müqavimət göstərən qüvvələrə qarşı təzyiq gücünü və etimadını itirməkdədir. Bir baxıma Qərb mədəniyyəti sanki bütün insanlıq tərəfindən əmilməkdə, udulmaqda, həzm edilməkdə və beləliklə, insanlığın böyük kəmiyyəti və öz potensialı içində əriyib yox olmaqdadır. O, görünüşdə bütün dünyanı tutmaqda olsa da, həqiqətdə dünya və insanlıq artıq sanki sağalmağın mümkün olmadığını anladığı və ya yarasının ağrısını hiss etdiyi üçün bir

damla da olsa Qərb qədəhindəki suyu başına çəkməkdədir. Fəqət bu su duzlu su imiş, asit imiş deyilsə də, dünya qulaqlarını tıxayıb. İnsanlıq Qərbi içir.[6]

## Düşüncədən həyat doğular

Həyat düşüncəni meydana gətirir; düşüncədən həyat meydana gəlir. Bu, yaradılış möcüzəsidir. İnsan həyatla düşüncəni eynilədirən, düşəncəyə həyat sahəsi quran, həyat düşüncəsini yaşayan və düşüncədə həyat axtaran varlıqdır.

Düşüncə çoxyönlü açılma xüsusiyyətinə malikdir. Bir yönü ilə cəzbəyə, bir yönü ilə də duyğuya, hisslərə açılır. İnsanın qabiliyyətlərinin tam orta nöqtəsində dayanan, hər birinə açıq və hamısının da bir-biri ilə əlaqəsini təmin edən bir qabiliyyətdir. Orbit də, mehvər də bu qabiliyyətdir. Düşüncənin mərkəzində isə elm nüvəsi yer alır. Düşüncə elmi meydana gətirən və eyni zamanda onun ətrafında bir halqa kimi dayanan zehin meyvəsidir.

Düşüncə də vəhy gerçəyinin işığında həyat tapır; ondan törəyir, ondan bəslənir və onunla yaşayır.

Bu səbəblə də Qurani-Kərim insanlığı daim düşünməyə dəvət edir, düşüncəyə çağırır.

Düşüncə həyatın səviyyəsini yüksəldir.

Düşüncə daxili instinktlərimizin fövqünə çıxa bilməyimiz üçün göylərdən gələn bir çağrıdır.

Təqliddən qurtulmağın yolu düşüncədir.

Cəzbə və vəcd halı yalnız düşüncə təməlinə əsasən meydana çıxdığı zaman sağlam olur.

İslam mədəniyyəti eyni zamanda düşüncə mədəniyyətidir.

Diriliş düşüncəyə dəyər vermək, düşüncəni gündəmə gətirmək deməkdir.

6. Səzai Karakoç, İnsanlığın Dirilişi, İstanbul 1987, s. 15-18.

Hadisələri düşünmək, tarixi düşünmək, sənəti düşünmək, həyatı düşünmək, ölümü düşünmək... Yeni insanlıq nəslinə düşən vəzifə bu olacaqdır.

Ancaq bu yolla insanlıq bəzi çıxılmaz saplantılardan qurtula biləcəkdir. Aktual tragediyasını meydana gətirən bütün çıxılmazlardan...[7]

## Əmanət şüuru

Uca Allah müqəddəs kitabında "Əmanəti əhlinə verin" buyurur. Bu eyni zamanda "Mən, əmanəti əhlinə verərəm" deməkdir.

Əmanətin əhli kimdir? Tək kəlmə ilə cavab versək: insandır. Buna görə də Allah müqəddəs əmanəti insana verdi. O əmanət ki, dağ ona tab gətirməyib külə döndü. Mələklər əmanətin verildiyi məxluqlar deyillər; bəlkə də, onun mühafizəçiləri, köməkçiləri, nəzarətçiləri ola bilərlər. Şeytan isə, ona əmanətin verilməsi bir yana, əmanətin veriləcəyi vəzifəliyə kömək göstərməkdən də boyun qaçırdı. Beləliklə, ona daim qarşı çıxmaq, əmanətə mane olmaq vəzifəsi verilmiş oldu.

Hər kəs, istəsə də, istəməsə də, əmanətin əhlinə çatmasına xidmət göstərir. Bunun fərqində olsun və ya olmasın, şüurunda olsun və ya olmasın, bu həqiqət dəyişmir. Ona kömək edən də, mane olan da vəzifəyə xidmət edir.

Belə bir sual verilə bilər: "Əmanətin əhlinə getməsinə mane olan insanlar, necə olur ki, onun öz yerinə çatmasına xidmət göstərmiş olurlar?"

Onların xidməti dolayı yolla gerçəkləşir. Rahat yoldan, heç bir çətinliyə və maneəyə rast gəlmədən əmanəti götürən şəxs o ağırlığın altında əzilər, onun haqqını verə bilməz. Əmanətin tələblərini haqqı ilə yerinə yetirə bilməsi o əmanəti böyük bir

7. Səzai Karakoç, *Günlük Yazılar IV Gün Saati*, İstanbul 1999, s. 21-22.

mücadilə ilə əldə etməsinə bağlıdır. Vuruşa-vuruşa onu əldə etməlidir ki, bir daha əlindən çıxmaması üçün ayıq-sayıq olsun.

Allah, əvvəl-axır  əmanəti əhlinə verəcəkdir. Layiq olmadığı halda ona sahib çıxmağa çalışanların əlindən çıxacaq, dönüb-dolaşıb əhil olanı tapacaqdır.

Hər kəs "əmanət" qarşısında öz yerini tutmalıdır. Fərqində olaraq və ya olmayaraq, ona doğru qaçan da, ondan qaçan da öz mövqeyini seçir. Bilərək və ya bilməyərək əmanəti götürməkdə və ya götürməməkdə, əmanəti layiq olaraq və ya olmayaraq götürənlərə kömək etməkdə və ya etməməkdə də hər kəsin öz mövqeyi, öz məsuliyyəti var. Layiq olmadığını görərək tərəddüd göstərən də, layiq olduğunu düşünərək qürura qapılıb onu itirən də məsuliyyət altındadır, mükafata və ya cəzaya layiqdir. Əmanətə xəyanət edən də, etməyən də bunun qarşılığını alar. Əvvəl-axır bu qarşılıq gəlib onu tapar.

Hər şey bizim üçün əmanətdir. Xarici dünyadan daxili dünyaya, maddədən ruha kimi hər şey. Əmanəti əhlinə vermək də bir əmanətdir. Haqqını vermək də əmanətdir.

Allah istəyənə istədiyini verir. Lakin əmanət olaraq verir. Bu əmanətə layiq olmayandan onu geri alır. Çünki O: "Əmanəti əhlinə verin!" – buyurur.

Kapitalistlər maddəyə - dünyaya hakim olmaq istədilər. Allah onların istədiyini özlərinə verdi. Amma onlar bunun əmanət olduğunu anlamadılar. Özlərini Allahın yerinə qoyaraq malın həqiqi maliki olduqlarını zənn etdilər. Əmanətə xəyanət etdilər. Allah da onlara kommunistləri ürcah elədi. Təkcə onlara deyil, əmanətə nalayiq olanlara qarşı çıxmayan hər kəsə.

Kommunistlər iqtidarı istədilər. Allah onlara bunu verdi və verməyə də davam edir. İndi növbə onların imtahanındadır. Kapitalistlər yoxsulları istismar edərək əmanətə xəyanət etdilər. Kommunistlər də özlərindən başqa heç kəsə haqq və azadlıq ver-

mədiklərinə, terror və dəhşət saçdıqlarına görə bir gün iqtidarları əllərindən çıxacaq. Çünki onlar da Allahı tanımırlar. İqtidarı onlara verəni bilmirlər. Görünüşə aldanırlar. Onu öz biləklərinin gücü ilə əldə etdiklərini zənn edirlər. Allahın kapitalistləri cəzalandırmaq üçün biləklərinə güc verdiyini düşünə bilmirlər. Onlar da kapitalistlər kimi bir gün cəzalarını çəkəcəklər.

Biz müsəlmanlar "əmanət şüuru"nu daşıdığımız müddətcə Allah bizə şərəfsizlik, alçalma, çöküş əzabını, zərrə qədər də olsa, daddırmadı. İki dünya səadətini və ondan daha mühümü olan iki dünya ucalığını lütf etdi. Sonra biz də əmanəti əhli olanlara verməməyə başladıq və bu ucalığı əldən verdik. Bu gün bir baxıma alçalışın ən alt səviyyələrinə düşdük. Bəzi baxımlardan hələ də rahat yaşayır və layiq olduğumuz şəkildə cəzalandırılmırıqsa, bəlkə bu, əmanətə layiq olan babalarımızın, yəni şanlı ölülərimizin xətrinə ola bilər. Və yaxud, bəlkə də, gələcəkdə yenidən əmanətə layiq olacaq və əmanətləri əhlinə təslim edəcək uşaqlarımızın, yəni Diriliş Nəslinin xətrinə.

Əmanətə layiq olmaq, əmanətin tələblərini yerinə yetirmək, əmanəti əhlinə təslim etmək, haqqını vermək hər bir müsəlmanın, yəni hər bir həqiqi insanın borcudur. Bu borcu yerinə yetirməyənlər əllərində olan əmanətlərin geri alınmasına, qədər və tarixinin qaçılmaz "həcz"inə (müsadirə olunmasına) hazır olsunlar![8]

## Könül yolçuluğu

Kəbə mömin qəlbin simvoludur. Dindarlığın əsas prinsiplərindən birinin onu ziyarət etmək olmasının hikməti burada gizlidir. Bu səbəbdən də İslamın ruhu ilə diri qalmış qələmlər daim könül ilə Kəbə arasında bir bənzərlik qurmuşlar. Kəbədən bütləri təmizləmək – bu aksiyonla İslam tarixi konkretlik mərhələsinə keçmişdi – könülə yerləşən inkar və şübhə toxumlarını təmizləməyin xarici görünüşdəki zəfəri ilə üst-üstə düşmüşdü. Bu tə-

8. Səzai Karakoç, *Gündönümü*, İstanbul 1979, s. 48-50.

mizləmə fərddən cəmiyyətə, şəxsi həyatdan tarixə uzanan İslam diriliyinin köklü məhsuldar fəaliyyəti olmuşdur.

Təmizlənmiş mömin könüllərdən Kəbəyə doğru görünməyən iplər uzanır, sanki. Oraya çatanlar öz könüllərini bu ipliklərlə şəlaləleşən inanc irmağında yuyub təmizləyər. Nə qədər az kirlə gedilsə, təmizlənmə işi o qədər rahat olar. Kəbə hər dövrdə müsəlmanların döyünən qəlbi, vuran nəbzi oldu. Müsəlman ruhların qan dövranını tənzimləyən ürək odur.

İslam ölkələrində Kəbənin elçisi olaraq peyğəmbər və vəli məqamları yer alır. Bu məqamlar möminlərin gözündə peyğəmbər və ya vəlilərin xüsusiyyətlərinə, vəzifələrinə qəlbin diqqətini yönləndirən işarə daşlarıdır. Hamısı könüllərini Kəbəyə, Kəbənin ruhuna və mənasına çevirirlər. Ölümü xatırladan türbələr könüllərdəki fanilərin səltənətini alt-üst edər.

Bəli, həccin də öz ruhu var. Bu ruha qovuşmaq üçün mömin həcc səfərinə çıxar. Beləliklə, həcc yolçuluğu eyni zamanda mömin kimsənin könlündən mömin topluluğun könlünə doğru bir səfər mənası daşıyır. Könüllər könlünə, tarixi-metafizik könülə yolçuluq.

Bu yolçuluq yurd səfəridir (səfər dər vətən), çünki ora könüllər yurdudur.

Könül yolçuluğunun öz mədəniyyəti var. Bu mədəniyyət öldüyü və quruduğu zaman həcc yolçuluğunun vücudu qovrulmuş, ruhu uçmuş, sadəcə qacımış skeleti qalmış olar. Hər sahədə olduğu kimi, bu sahədəki diriliş də mədəniyyəti yenidən oyandırmaq, canlandırmaq və inkişaf etdirmək davranışlarını əhatə edir.

Həcc yolçuluğundan qayıdanlar yurdlarına muştuluq gətirərlər. Hər il, eşidə bilənlər üçün, Kəbənin bir xəbəri və bu xəbərin özəyindəki muştuluğu vardır. Bir xəbərdarlıq, sevinc və irəliləyiş muştuluğu.

Namaz, oruc, zəkat bu mədəniyyətin qübbəsini ayaqda saxlayan sütunlardır.

Könül yolçuluğunu diriltmək ancaq dövrümüzün müsəlmanlarının, yəni diriliş ərlərinin ruhlara aşılayacaqları dinamizmlə mümkün olacaqdır.

Ruha maraq iqtisadi və siyasi əlaqələrin inkişafı, könül yaxınlaşmaları, könüllərin Ana Könüldə birləşmə ətrini daşımaları nisbətində İslamın Dirilişindən bir parça daşıyar və ya meydana gətirər. Əks təqdirdə yanıldıcı görünüşü ilə məqsədə gedən yolda həqiqi irəliləyişə mane olan tərpənişlər olaraq qalar; karvanı çaşdıran və ya yubadan təqlid yığını olmaqdan ibarət olar.

Nə içi inkar et, nə çölü; nə ucalığa laqeyd yanaş, nə dərinləşməyə; nə genişləmə və yayılmağı ehmal et, nə də qatılaşma və durulmağı. Diriliş belə bir çoxşaxəli inkişaf üçün sərf edilən bitməz-tükənməz səylərdən sonra əldə edilən ilahi ərməğandır. Bu ərməğana layiq olmağa çalış, ey mömin könlü! Ey diriliş aşılı, qiyamət naxışlı, məhşər atılımlı mömin könlü!..

Könül yolçuluğunun istədiyi səbri orucla təmin et. Gecələr yolu aydınladacaq məşəli namaz tutuşduracaq və sönməyə qoymayacaqdır. Və öndərlərin ayaq izləri yoldan sapmamağın üçün sənə ərməğan olunmuş abidəvi bəlgələrdir. Oruc və namaz qat-qat yığılıb üstünə qapanmış qürbət dünyasını, yadlıq aləmini dost bağçasına çevirən dostları və qardaşlarıdır, ruhunun. Onlar hər an qırılıb tökülməyə hazır olan könlün büllur sarayını vaxt itirmədən təmir edən ilahi memarlardır. Ruhu bir məscid kimi aydınladan memarlar... Sən bu memarları hər daim yanında gəzdir ki, inanc qalasında açılacaq hər hansı bir yarıq dərhal bağlana bilsin, qala divarının aşan qismi dərhal yenidən düzəlsin, dağılan hər bir bürcün yerinə yenisi ucaldılsın. Onlar olmadan əskiksən, ey yaradılmışların ən üstünü olaraq yaradılan insan!

Yer üzünün ən ziyalı və gümrah insanları olmalı olan müsəlmanlar oruc, namaz və həclərini keyfiyyət baxımından ən üst

səviyyədə yerinə yetirməlidirlər. Və onları təkbaşına fəaliyyətlər olaraq deyil, bütünlə birlikdə, bir-biri ilə yaxın əlaqəli mədəniyyət və sivilizasiya variasiyaları olaraq sevgi və bağlılıqla mənimsəmək lazımdır. Qıldan incə dümdüz yolu keçmək əzmində olan inanmış kəslərin yolçuluğu belə olmalıdır.

Siyasət bu inanc və davranış şəkillərinin vasitəçisi olmalıdır. İslamda siyasət ərdəmə xidmət edən vasitələrdən biridir. Onun vasitə olmaqdan çıxaraq məqsəd olduğu gün fitnə meydana çıxar. Fitnə, yəni qarmaqarışıqlıq, xarab olmaq və aşıb dağılmağa səbəb olan qurd... Bu qurd İslam cəmiyyətinin ürəyinə girməyə yol tapdıqdan sonra etimadsızlıq, şübhə və inkar toxumlarını cücərdən, onları bəsləyib böyüdən gübrə vəzifəsini görməyə başlayar. Könülü daim silkələmək və bu silkələnmə ilə yad cisimləri ondan kənara atmağa çalışmaq lazımdır.

Könülün ulu yolçuluğu və vüsalı; yerində dayandığı halda yolçuluğunu, yəni meracını tamamlaması, yad mədəniyyət və strategiyalarla daim mücadilə etməsi və ölümü gömərək dirilişə nail olması bu həyatı yaşanmağa dəyər hala gətirən müqəddəs tövsiyələr və borclardır.[9]

## Qürur qraniti

Qürur – insan oğlunun ilişdiyi, asılı qaldığı ən təhlükəli uçurumdur.

Qürur – ruhun iflic olması deməkdir.

Qürur – ruhu dondurar və qatı hala gətirər.

Qürur – ruhu və qəlbi daşlaşdırar.

Qürur – insanın öz-özünü bütləşdirməsidir. İnsan oğlunun Allaha rəqib olmaq cəhdinin gülünc halıdır, qürur.

Qürur – şeytanın insan oğluna mirasıdır. İnsanın yaradılışına qarşı baş göstərən üsyanın mirası.

9. Səzai Karakoç, *Makamda*, İstanbul 2005, s. 23-26.

Əslində şeytan insan yaradılmasın deyə qürura sarıldı. Amma nəticədə məğlub oldu. Məğlub olduğu an qüruru da alçalmağa çevrildi; qiyamətə qədər davam edəcək bir alçalmağa.

Deməli, şeytan ruhunun qrafikində mələklikdən qürura, qürurdan da alçalmağa doğru gedən bir seyr meydana gəldi.

İnsan isə bunun tam tərsinə, təvazökar bir yaradılışdan yüksələrək ən uca kamilliyə nail ola bilər. Torpaqdan yaradılması da bunu təmsil etməkdədir.

Xarici görünüşlə həqiqət bir-birinin tam ziddidir. Təvazökar olan insan məxluqatın əldə edə biləcəyi ən uca məqama yüksələcəyindən əmindir. Amma qürur heykəlinə çevrilən şeytan isə həqiqətdə alçalmışlıq duyğusu içində qıvranmaqdadır.

Şeytan bilir ki, nə edirsə etsin, hansı hiyləyə baş vurursa vursun, insanı ötüb keçə bilməyəcək. Bunu bilməyin acısı onda alçalma duyğusuna çevrilməkdədir. Bütün alçaqlıqlarını da bu səbəblə etməkdədir.

Pis xasiyyətli bir çox insan şeytana tələbə olmaq yolunu seçmiş, onun üsullarını işlətmişdir. Belələri hətta hiylə olaraq təvazökar kimi görünməkdən də istifadə edərlər. Əslində isə bu, təvazökarlıq dəllallığıdır. Təvazö peşəkarları var; təvazö tacirləri. Bu, təvazökarlıq deyil, təvazönün bir məqsədə alət edilməsidir ki, bu da şeytana yaraşan bir təşəbbüsdür. Hər yalançı təşəbbüs kimi bunun da rəğbəti müvəqqətidir, əvvəl-axır ortaya çıxar və təsirini itirər.

Yaltaqlar da hər zaman dövlət adamlarının qürur damarından tutmağa çalışırlar. Bilirlər ki, bu damardan yaxalanan insanın bir daha qurtulması heç də rahat olmayacaq.

Qüruruna məğlub olan insan hadisələri müstəqil olaraq öz şərtləri daxilində ələ ala bilməz, fərqində belə olmadan hər işin özü ilə əlaqəli olduğunu düşünər. Bütün hadisələrə təkcə öz prizmasından baxar. Getdikcə cəmiyyət ilə arasındakı ruhi

əlaqə kəsilməyə başlayar. Hadisələr zəncirinin məntiqini itirər. Daim gələcəyi təxmin etmək və imkanlarını ona görə dəyərləndirərək plan qurmaq mənasına gələn idarəçilik qabiliyyətində səndələməyə başlayar. Və bir gün yersiz bir hərəkəti səbəbi ilə burnu üstə yıxılıb gedər.

Məhz bu qürur istilasına qarşı ən böyük sədd inancdır. İslam əxlaqında qürurun qoruyucu vaksini təvazökarlıqdır. Vaxtında bununla təchiz olunmuş insan qürurun yoluxucu hal aldığı bir dövrdə özünü, ruhunu bu pas xəstəliyindən qorumağa müvəffəq olar.

İnsanın könlü həqiqətlərin əks olunduğu bir güzgüdür; lakin onu qürur pası kirlətmədiyi, örtmədiyi müddətdə.

Hələ bir də toplumun məsuliyyətini çiyinlərinə götürmüş, hər gün minlərlə acı problemlə üzləşən və bunların bir çoxu qarşısında insan olması etibarilə aciz qalan insan qürura meyl edirsə, belə insan ancaq canavar ruhlu ola bilər.

Həzrət Mövlana təvazökarlıq üçün Cudi dağını misal göstərir: "Bütün dağlar Nuhun gəmisi özlərinə qonsun deyə yüksəldilər. Təkcə Cudi dağı təvazökarlığından kiçildi, büzüldü, alçaldı. Allah da buna görə Nuhun gəmisini onun üstünə endirdi".

Muhyiddin Ərəbi həzrətləri də nəfsə nəzarət mənasında belə deyir: "Mənim bir şeyxim var idi. Gündüz etdiyi işləri gecə yazar, oturub üstündə fikirləşərdi. Mən isə təkcə etdiklərimi deyil, etmədiklərimi də, yəni ağlımdan keçənləri də yazdım və onları da fikirləşdim". Böyük şeyx bunu bizim üçün söyləyir. Bilək və öyrənək ki, özünütənqid (nəfsini ölçmək, özünü hesaba çəkmək) necə olmalıdır.

Xoşbəxt dövrlərimizdə belə öyrədildi, belə edildi.

İndiki dövr isə qürur qranitindən öz bütünü yonanların dövrüdür.

Bu daxili büt qırılmadıqca ruh daşın həbsxanasından qurtulub dirilişini tamamlaya bilməz.[10]

## İslam ziyalısı olmaq

Öz ölkəsini Şərqin və Qərbin hücumundan müdafiə edəcək olan İslam ziyalısı hər şeydən əvvəl özünü tanımalıdır. Özünü tanımaq, yəni İslami mənbələrdəki ən saf halı ilə tanımaq, İslamdan uzaqlaşma səbəblərini araşdırmaq, bu gün bu dünya və o biri dünya qarşısında hansı mövqedə yer aldığımızı düşünmək, İslam ruhunu yenidən canlandırmağın məşəqqətinə qatlanmaq. Dövrün güzgüsündə görünən öz əksini görmək, özünü hesabların ən incəsi ilə hesaba çəkmək. Keçmiş zamanı tanımaq, təqliddən yaxa qurtarmaq, vərdiş yerinə həqiqi inancı qəlbə yerləşdirmək. Gələcək zaman adına könüldə şiddətli bir ideal hədəfini alovlamaq. Həyat ilə ölüm arasındakı sirri dərd bilmək.

Bəli, müsəlman ziyalının birinci vəzifəsi özünü, özümüzü bilməkdir.

İkinci vəzifə Şərqi tanımaqdır. Üçüncü vəzifə isə Qərbi tanımaq. İslam içi və İslam xarici Şərqin bu gün çəkdiyi əzabı hiss etmək. Məğlubiyyətin qaynağını aydınlatmaq. Açıq qalan çıxış qapılarını axtarmaq və göstərmək. Qərbin düşüncə və ədəbiyyatını, güclü və zəif nöqtələrinə qədər dərinləməsinə öyrənmək. Qərbdən gələn şiddətli küləyin, dəmirin, uranın gücünü tarazlayacaq maddi və ruhi gücə sahib olmaq üçün Şərqin və Qərbin üfüqi və şaquli mədəniyyət qatlarını açmaq lazımdır.

İslam ziyalılar dinidir. Buna görə də öyrənmək müsəlmanın birinci vəzifəsidir: Bilməkdən qorxmamaq, tənbəlliyin təlqin edəcəyi hər növ cəhalət saplantısından xilas olmaq… “Oxu!” deyə başlayan Qurandan başlayaraq İslam alimlərinin bütün klassik şəxsiyyətlərini, elm mənbələrini oxumaq. Qaranlığa gömülmüş olanları işığa, gün üzünə çıxartmaq. Yarım qalmış düşüncələri

---

10. Səzai Karakoç, *Sur*, İstanbul 1975, s. 107-109.

inkişaf etdirmək. Daha dərinə getməyə çalışmaq, nə qədər qıvrım varsa, açmaq. Toxum halında olan düşüncə və bilikləri əkmək. Toxumu ağac halına gətirməyə çalışmaq. İmam Rəbbanilər, Muhyiddin Ərəbilər, Cəlaləddin Rumilər, İmam Qəzzalilər ilə birlikdə kitab səhifələrində də olsa, axşamlamaq və sabahlamaq…

Sonra kitab səhifələrindən gələn və ruhun biliyə susuzluğunu, hər müşkülünü həll edən bu ab-həyat badi-səbasını (həyat mehini) ruha doldurmaq. Alnında namazdan bir aydınlıq daşımaq. Üzdə oruclardan bir nur. Könüldə mərhəmətdən bir yumşaqlıq. Davranışlarda bir ölçü və qərarlılıq, tarazlıq. Quran əxlaqı ilə əxlaqlanmaq səyi…

Əvvəl-axır İslam ziyalısı təkcə öz ölkəsini xilas etməklə kifayətlənməyəcək, bütün insanlığa da aydınlıq yol açacaqdır. Damarlarında dövrün acılarını hiss edən bir qan axacaq, əzələləri dövrün və insanlığın qurtuluşu üçün gəriləcəkdir.

Müsəlman ziyalılar, əzələlərinizi gərin, bilik və dövrün qurtuluşu naminə səy göstərin!

Fədakarlığa hazır olun.

Kağızdan, səsdən və görünüşdən ibarət olan birbaşa hökm divarlarını aşın. Poladdan, dəmirdən, sementdən, urandan quraşdırılmış maneələri keçin. Düşüncədən, xəyaldan, duyğudan və maddədən düzəlmiş bütləri yıxıb aşırın.

İnanc sahibi ulu babalarımızda bir olduğumuz halda bu gün inkar bataqlığında çırpınan qardaşlarınızı xilas edin. Onlara əl uzadın. Sizi çağıran dəvətə onları da dəvət edin.

Bütün dünyanı bürüyən bu böyük yanğından bir can da siz xilas edin.

İslamın əbədiyyətə qədər açıq olan qapısını dərhal bağlamağa, örtməyə çalışmayın.

Digər insanlarla aramızı kəsən, səs keçirməyən, iki tərəfi də bir-birinə qarşı dilsiz işarələri edən karlara çevirən zorbalıq və inkar şüşələrini sındırın. O şüşələr xrustaldan da olsa, qırın.

İslamın insana yönəlmiş dəvətini hər bir uşağa çatdırın.

Sabah öləcək - mənasını itirəcək mövzularla vaxt itirməyin. Ölməyəcək olan mövzuların xaricindəkiləri tərk edin.

Özümüzü müstəşriklərin (avropalı şərqşünasların) gözü ilə tanımaqdan bizi xilas edəcək olan dərman aksiyondur. Qurtuluşumuz aksiyonumuzu təkcə marksizmə qarşı bir reaksiya olmaqdan da irəli aparacaq bir davranış tərzindədir.[11]

## Düşüncədə diriliş

İslam xalqlarının yenidən özlərini kəşf etmələri üçün hər şeydən əvvəl "İslam ziyalısı" ortaya çıxmalıdır. Bunun üçün də düşüncə dirilişi şərtdir.

Düşüncədə diriliş olmadan inancda diriliş ola bilməz. İnancda diriliş olmadan da hissiyyatda, həssaslıqda, yəni sənət və ədəbiyyatda diriliş başlaya bilməz.

Düşünmək... İnsan oğlunun ən dəyərli xüsusiyyətlərindən biri olan qabiliyyətini inkişaf etdirmək... Məhz bu tarixi dövrdə İslam ziyalısına düşən böyük vəzifə budur. İslam düşünməyi insanın daimi vəzifəsi olaraq təlqin etmişdir. Quran yüzlərlə ayədə bu vəzifəyə diqqət çəkir. Düşünməyə dəvət edir. İşığa can atan kəpənəyin halını, gecəni, dalğaları yarırmış kimi radarla hərəkət edən yarasanı, baharda birdən-birə açılan gülü, payızda bütün təbiətin ölməsini, böyük bir kəfən kimi dünyanı saran qışı, peyğəmbərlərinə qulaq asmadığı üçün zamanın qılıncı ilə toza və ya külə çevrilən mədəniyyətləri, ölümü və sonrasını, məzarı, dünyaya gəlişimizi, uşağı və yerin altındakılardan ayın üstündəki qızılı tozlara qədər hər şeyi düşünmək insana Yaradan tərə-

11. Səzai Karakoç, *Günlük Yazılar II Sütun*, İstanbul 1999, s. 398-400.

findən bəxş edilən ən üstün qabiliyyət deyilmi? İslam heç vaxt düşünməyin yolunu kəsməmişdir. Əslində, biz düşünməməyə başladığımız zaman İslamla əlaqəmiz zəiflədi, hətta qopmağa başladı. İslama məhəbbətimizi itirdik. Zəkamızı kütləşdirən bir əzbərçilik bataqlığına saplandıq. Dəyərlərimizi bir misyonerin məntiqinə təslim etdik. Klassik mədəniyyətimizi müstəşriklərin yorumuna həvalə etdik. Yaddaşın məqsədi tarixin mirasını canlı saxlamaq ikən, biz onu Qərb mədəniyyətinin qarışıq qeyri-müəyyənlikləri ilə doldurduq. Universitetlər müstəqil düşüncə və öz mədəniyyətimizi araşdırma və qurma mərkəzi olmaq yerinə xaricdən qonaq qələn professorların daim mühazirə və seminar verdiyi müəssisələr halına gəldi. Bir müddət sonra qonaq gəlib bura yerləşdi, evin sahibi oldu. Evin əsl sahibi isə uzun bir səfərə çıxdı. Görəsən, nə vaxt qayıdacaq?[12]

## İnancda diriliş

Keçən əsrin sonu və bu əsrin əvvəllərində İslam mütəfəkkirləri Qərbə qarşı daha çox din elmləri möhtəvasında İslamı müdafiə etməkdə və müstəşriklərin təsirini neytrallaşdırmaq üçün müstəşriklərin sahəsində təkcə ixtisas dili ilə danışaraq mübarizə aparmaqda idi. Bu bir növ müdafiə mahiyyəti daşıyırdı. Fərid Vəcdi, Rəşid Rza, Muhammməd Abduh, Cəmaləddin Əfqani, cüzi bir fərqlə Muhammməd İqbal və Məhməd Akif dağılmaqda olan bu sistemi qorumaq üçün, xüsusilə Qərbə qarşı, klassik İslam alimlərinin də bilikləri ilə təchiz olmuş halda, daha çox möhtəva ilə və münazirə üslubu ilə düşüncə sahəsində mübarizə apardılar. İqbal və Akif buna şeirin gücünü də əlavə etməyə çalışdılar. Bundan başqa, İqbal fəlsəfə və təsəvvüfün imkanlarından da müəyyən ölçüdə faydalandı. Müstəqillik və qurtuluş mübarizələrinin İqbal və Akif üçün duyğu dünyasının qapılarını açdığını deyə bilərik; şeirin və təsəvvüfün qapısını… Birinci Dünya müharibəsindən əvvəl və sonrakı illərdə İslam düşüncəsi, demək olar ki, kiçik bir istisna,

12. Səzai Karakoç, İsl*amın Dirilişi*, İstanbul 2005, s. 24-33.

daha doğrusu, artıqlıqla, ətrafındakı ədəbiyyat halqası ilə birlikdə, daha çox akademik planda təmsil olunurdu.

İkinci Dünya müharibəsindən bu günə qədər davam edən müddətdə İslam düşüncəsi müstəşriklərin təyin etdiyi orbitdən - akademik plan, müdafiə və münazirə, rəddiyyə tərtibi şəklindən çıxaraq tam bir daxili nizam, sülh və müharibə qaydaları, dünya və o biri dünyada yaşama tərzinin araşdırılması, tarixi, sosial, iqtisadi və sosial sahədə İslama xas dünya görüşü və sistem təşəbbüsləri dövrünə, yəni ideoloji plana keçdi. Türkiyədə Nəcib Fazil Kısakürək, Misirdə Seyyid Qütb və tərəfdarları, Pakistanda Mövdudi, Nədvi və tərəfdarları, Şimali Afrikada Malik bin Nəbi və başqa bir çox yazıçı, mütəfəkkir və şair bu dövrün ikinci İslam düşüncəsi hərəkatını təşkil etdilər və İslam insanının mədəniyyət, siyasət və iqtisadiyyatda Qərb köləliyindən qurtulması üçün bir düşüncə cihadına yol açdılar.

Yenə həmin bu ikinci dövrdə düşüncədəki canlanmaya paralel və bəlkə də, ondan daha əhəmiyyətli olaraq inancda da diriliş müşahidə edildi. İslam ölkələrinin üstündə qərblilərin və qərbçilərin təzyiqi azaldıqca xalqda üstüqapalı bir şəkildə həyatını davam etdirən inanclar gün işığına çıxdı. İnanc duyğusu oyanmağa başladı.

Qədim Yunan, Roma, Bizans və xristianlıq mədəniyyətinin daş qalıqları, həm də dövlət əli ilə yer altından çıxardılaraq həyata qaytarılmağa çalışılmaqda ikən İslam xalqları tarixin heç bir dövründə görülməmiş bir şəkildə məscidləri təmir etməkdə, yenilərini inşa etməkdə, Quran təhsilinə əhəmiyyət verməkdədir. Bunlar inanc müqavimətinin ən canlı və mübahisəsiz sosioloji və tarixi şahidləridir. Bütün imkansızlıqlara rəğmən belə bir xariqəni gerçəkləşdirməyi bacaran xalqın bu canlanması Qərb aləmini heyrətə gətirmişdir.

İslam inancı elə bir canlanma dövrünə girmişdir ki, yalnız öz ölkəsini aydınlatmaqla qalmamış, bir yandan Amerikaya, bir

yandan Avropaya qol-qanad açmış, Afrikadakı inkişafı isə bir qitənin qısa bir zamanda müsəlmanlaşması və müstəqilləşməsi ilə nəticələnmişdir. Belə bir müvəffəqiyyətin onda birini xristianlıq gerçəkləşdirə bilsəydi, avropalı mütəfəkkirlər bunu dövrün, hətta yeni zamanların ən böyük hadisəsi kimi salamlayardılar. Amma müvəffəqiyyət İslama aid olduğu zaman ölüm səssizliyi çökür. Bilə-bilə danışmayan bir insanın danışığını itirməsi kimi, səmimi olmayan bu susqunluq Avropa düşüncəsini qısırlaşmağa, hətta batmağa doğru apara bilər. Xristianlığın fəaliyyətləri hiylə, aldatma və cəlbedici hərəkətlərə, lakin köklü olaraq bağlanıla bilməyən bir əsasa söykənir. Xarici imkanları hüdudsuzdur, lakin missionerlərin çalışmaları möhtəvadan məhrum bir hərəkətdən ibarət qalır. İslam isə xarici imkanlardan məhrum olmasına baxmayaraq, özündə var olan həqiqət və möhtəşəmliyi ilə insanları səssiz və təvazökar bir şəkildə özünə çəkir və yenidən doğulurmuş kimi təptəzə bir işıqla aydınladır. Bu, hər zaman dipdiri olan Quranın həyat bəxş edən nurudur.

Uşaq, ürəyi inanc işığı ilə aydınlanmış halda Qurana doğru addımlayır. O, avropalı və kommunistdən ayrı və fərqlidir. O, tamamilə başqa bir inanc möhtəvasına sahibdir. O, ötəyə, görünməyən aləmə, öldükdən sonra yenidən diriləcəyinə inanır. Digərlərinin xəbərsiz olduğu görünməyən aləmin gücləri ilə, vasitələri ilə təchiz olunmuşdur. Nə özünü, nə də vasitələrini tanıdıqları bu gənci kim yolundan döndərə bilər?[13]

## İslamın insanlıq mesajı

Sənə imanın qapılarını açan küləyə qapını örtmə! Günəşin çıxmasından dərhal sonra əsən, yüngül, ipəkdən yumşaq o mehə könlünü təslim et. Müqavimət göstərmə, tabe ol. Ruhunun bütün pəncərələrini və jalüzlərini aç. Sinəni o gül bağçalarının ətri ilə saflaşmış, bəzənmiş həyat nəfəsi ilə doldur. O, üfüqlərin küləyidir. Səhraları samur kürkü ilə qaplayan səsin titrəyişi, əbədi üzüm

13. *e.a.ə.*, s. 33-40.

salxımlarının yellənməsi, Muhamməd bağçanın tənəklərinin sallanan budaqları və qıvrımlı uclarının uzanışı, ürpərməsidir...

Sən ruhunu İslama aç. O İslam ki, nə Uzaq Şərqin boğucu büt əsarətindən bir iz buraxıb, nə də Qərbin təvazö görkəmli qürurundan bir zərrə. Vəhdaniyyətə geyindirilən üçkünc paqan şapkasının altında yer alan səmimiyyətsizlik küpünü aşırıb nəfsaniyyət şərabını torpağa tökən o İslam ki, sənin ruhunun partlayış nöqtəsinə gəlib çatan ölüm-dirim ehtiyacını tam qarşılamaqdadır. O İslam ki, mənəvi rahatlıq şəhərlərinin memarı; leylələkləri evlərin damında, pişikləri evlərin pəncərələrində xoşbəxt yaşayan, yalnız müsəlmanlara məxsus bir şəhərin memarı. O İslam ki, var olmaq, hər işdə keyfiyyət deməkdir. Onun mədəniyyətində ruh keyfiyyət daşıyır, maddə keyfiyyət daşıyır. Mis ləyənindən xalçaya, geyimindən kağıza, memarlığından musiqiyə, məzarlığındakı sadəlikdən evin içindəki sükut, dərinlik, ciddiyyət, təmkin və səmimiyyətə, dindarındakı xalisliyə, ixlasa, bəli, kəramətlərin kəraməti sayılan təslimiyyətdəki sadəliyə qədər necə də geniş bir ucalıq, üstünlük, doğruluq, yaxşılıq və gözəllik daşıyır...

Sən əsla ətrafı bürüyən gurultu səbəbi ilə kefini pozma. Səbat göstər, döz. Gülərək, fikir verməyərək ötüşdür bu mənasız səs-küyü. Bunlar insanın önündə əyilən, yəni Allaha üsyan edənlərin qaçışarkən çıxardıqları səslər, alçalmanın əks-sədalarıdır. Əgər ruhları həqiqi bir inanc və güvənc içində olsaydı, bu tanrısızlar, tanrıbilməzlər belə haray-həşir sala bilməzdilər. Özündən arxayın olan kimsənin səs-küy salmağa ehtiyacı yoxdur. O, dağlar kimi sakit, vüqarlı dayanar. Quru gurultu digərlərinə qalar. İnkarçılar əsla özlərinə arxayın olmadıqlarına görə beləcə hay-küy salırlar. Çünki bu yolla özlərindən arxayın olduqlarını göstərmək istəyirlər. Daha doğrusu, öz inamsızlıqlarını gizlətmək istəyirlər. Əgər belə hay-küylə öz əskik cəhətlərinin üstünü örtməsələr, aralarındakı etimadsızlığın açıqca meydana çıxacağından çəkinirlər.

Əvvəl-axır bir gün qorxduqları şey başlarına gələcək. Və onlar bir gün çılpaq halları ilə, ruhlarının bütün səfaləti ilə Allahın

hüzurunda dayanacaqlar. Əhəmiyyət vermədikləri, yox saydıqları o gün olduqca dəhşətli, yandırıcı bir alovun bürüdüyü, zamanın keçmək bilmədiyi qırılmayan bir zəncir kimi onları saracaq, həmin günün həqiqətini görərək öyrənəcəklər. Allahın şiddət günündən, şiddətli görünüşündən daha şiddətli nə ola bilər? Yaradılmış olduğunun fərqində olmayan, yaradılmış olduğunu unudan ruh üçün Allah qarşısında əşyadan sıyrılaraq çılpaq dayanmaqdan daha acı nə ola bilər!

Amma sən, ey qardaş, ruhunu İslama bütün genişliyi ilə, bütün möhtəvası ilə aç ki, o dəhşət günündə Allahın sənə görünüşü mülayim olsun, Allah sənə mülayim üzünü göstərsin; rəhmət və mərhəmət üzünü.

Allah o qüdrətdir ki, sənə bir milyard ili bir anda yaşada, bir anı bir milyard il qədər uzada bilər. Bu, ölümdən əvvəl də, ölümdən sonra da, həyatda ikən də, ölü ikən də ola bilər. Ən mütləq olaraq bildiyimiz zaman belə Onun üçün nisbidir. Sən zamanda qalib olmaq istəyirsənsə, bu zamanın və "o" zamanın şiddət və dəhşətindən qorunmaq istəyirsənsə, zamanı və zamanları həqiqətən idarə edə bilənə, onları əyib-bükənə, əzib qıvıra bilənə müraciət et, ona sığın. Yoxsa zamanın idarə edəcəyi insan, əşya və məfhumlara deyil. Bəli, sən zamanın həqiqi sahibinə üz tut və təslim ol.

Ah, ey dost, ey yoldaş! Bu dövrdə, həqiqətlərin gizləndiyi, örtüldüyü bu dövrdə İslam sənə gəldi, sən niyə ondan qaçırsan? Bu imtiyaz sənə verildi, sən niyə o yana – bu yana göz atırsan, qaçmaq istəyirsən? O İslam ki, necə dahilər belə ondan məhrum qaldı, amma sənə nəsib oldu, bu sənin üçün nə böyük xoşbəxtlikdir? Sən öz əlinlə belə bir fürsəti necə təpə bilərsən? Bu rəhmani və məşru olan taleh oyunu sənin üzünə gülmüş ikən sən necə ona haram olanla, qumar olanla bir yanaşa bilərsən?

Onlar ki, avropalıdırlar, ağ irqi digərlərindən üstün tutarlar; əvvəlcə afinalı olaraq özlərini üstün gördülər, özlərindən başqa-

sını heç insan belə saymadılar, barbar dedilər özlərindən savayı hər kəsə. Sonra romalı olaraq üstünlük iddia etdilər, sonra da "avropalı ağ" olaraq. İndi də qərbli olaraq yenə eyni üstünlük iddiasını davam etdirirlər. Heç dinləri də bu psixologiyalarını ortadan qaldıra bilmədi. Dini hər zaman bir bəzək kimi saxladılar, ondan daim peşmançılıq imkanı, təsəlli qapısı kimi faydalandılar. Dini həyat tərzi kimi mənimsəyə bilmədilər. Onların gözündə din təkcə həyatın kəffarəsi kimi yer aldı. Altı günü öz həyatlarına, bir günü də həyatlarının kəffarəsinə ayırdılar. Hər zaman bərabərlikdən, insan haqlarından, insan sevgisindən dəm vurdular, insana hörmətdən bəhs etdilər. Xeyr, əsla onların bütün insanlar üçün belə bir sevgi, hörmət və bərabərlik duyğusu bəslədiklərini zənn etmə. Onlar bir-biri ilə toqquşub, itələşib aralarında bərabərliyi təmin etdilər. Bu bərabərlik quldurların arasındakı bərabərlikdən fərqli deyil. İnsanların arasındakı həqiqi bərabərlik bu deyil. Onlar bəzi siniflər arasındakı fərqi uçuruma çevirdilər. Bərabərlik adına qurulan nizamda da min cür bərabərsizlik hökm sürür. Onlar insanları sevmədilər. Daim ölümlərə yol açdılar. Əsrlər boyu hər yerdə saysız qətliamlar törətdilər. Sən bunları oxu və öyrən. İslam əsla qətliama rəvac vermədi. Müsəlmanlar müharibə xaricində insan öldürmək kimi faciələrdən daim uzaq dayandılar. Həqiqi bərabərliyi İslam gətirdi. Bu bərabərliyi nə sərvət, nə də sinif fərqi poza bilər. İslam əsla insanlar arasında irq, əsil-nəcabət, rəng fərqi səbəbi ilə üstünlük iddia etməyi qəbul etmədi.

İslam üstünlük üçün tək qaydanı qəbul etdi: Allah yolunda yarışda irəlidə olmaq üstünlüyü. Zənciyə də, ağ olana da açıq olan bir yol. Ancaq çalışaraq üstünlük əldə edə bilərsən. Ən üstün olduğun an isə ən təvazökar olduğun andır. O zaman başa düşərsən ki, dünya bir köpükdən, çör-çöpdən başqa bir şey deyil. Bütün bu zənginliklər və həyat əslində bir imtahandan ibarətdir. Allahın önündə əyilərsən və belə deyərsən: Allahım, sən çox ucasan! Allahım, sən əzəli və əbədisən! Allahım, biz zəif, nöqsanlı və faniyik, bizi xətalardan hifz et, əskikliklərdən, üsyan-

lardan, alçalma və yoldan çıxmalardan, pis yola düşməkdən, iradəsizlikdən qoru! Allahım, bizə güc ver ki, sənin yoluna hücum çəkənlərə qarşı sabitqədəm dayana bilək! Bu dövrdə düşmənlər çox güclüdür. Bu saxta, yalançı, müvəqqəti gücü məğlub edəcək güc ver, zəif qollarımıza! Səndən daha güclü kimsə yoxdur! Səndən güclü yoxdur![14]

## Rahata qaçmaq

İslam aləmini bugünkü vəziyyətə salan, xəstəlik dərəcəsinə çatan psixoloji təzyiq düşməsinin bir təzahürü də hər işdə rahata qaçmaqdır.

Heç bir məsələni təfərrüatı ilə tam incələmək istəmirik. Yolların ən rahatını seçməyə meyl edən bir xasiyyətin qurbanı oluruq. Hətta bu rahata qaçma psixologiyası "yol" olmayan, sadəcə ilk baxışda bir həll yolu kimi görünən təklifi də dərhal alternativlərdən biri kimi qəbul etməyimizə səbəb olur.

Zəhmətdən qaçmaq insan psixologiyasının nəticəsidir. Amma bu qaçış daimi hala gələrsə, insan oğlunun yalnız əmək sərf edərək bir əsərə, müvəffəqiyyətə nail ola biləcəyi həqiqətinə zidd olan həddə çatar. İnsan istər maddi sahədə, istərsə də mənəvi sahədə yalnız əməyinin, zəhmətinin qarşılığını ala bilər. Daimi məhsuldarlıq əməyin nəticəsidir. Bunun xaricindəkilər yox olmağa məhkumdur.

Əmək və çalışmaların da başdansovdu olmaması lazımdır. İnsan işlədiyi sahəni yaxşı öyrənməlidir ki, müəyyən miqdar əməklə daha çox məhsul, və ya müəyyən bir məhsulu daha az əməklə əldə edə bilsin. Öz sahəsinə hakim olmayan işçinin əməyinin çoxu boşa gedə bilər. Eynilə yarısı tarlanı sulayarkən, yarısı da kənara axıb gedən su kimi.

Mövzunu yaxşı öyrənmək təhsil və təlimlə gerçəkləşir. Bu bir həqiqətdir ki, yaxşı bir əsərin meydana gəlməsi üçün yaxşı bir iş

14. Səzai Karakoç, *Fizikötesi Açısından Ufuklar ve Daha Ötesi I*, İstanbul 1998, s. 18-22.

nizamı, güclü bir təhsil və təlim görmüş, kifayət qədər qabiliyyətli kadrlar şərtdir. Amma bu da kifayət etmir. Bu kadrların əxlaqı və yaxşı niyyəti də şərtdir. Yoxsa bütün qabiliyyət və biliklərə rəğmən pis niyyət daşıyan kadrlar yaxşı bir təşkilat içində yer alsa da, iş və məqsədin məhsuldarlığının düşməsinə yol aça bilər.

Bir işin görülməsi və əsərin meydana gəlməsi üçün tələb olunan bu qaydalar təşkilatdan təşkilata yayılaraq bütün mədəniyyətin səviyyəsini təyin edər.

Rahata qaçma psixologiyası bütün bu qaydaların tələb etdiyi əmək və zəhməti gözə almamaqdan qaynaqlanır. Bu da yoluxucu xəstəlik kimi təşkilatlar arasında yayılaraq bütün cəmiyyəti yavaşlamağa, məhsuldarlığın düşməsinə, keyfiyyətsizliyə sürükləyər.

Keyfiyyətsizlik İslam aləminin ən böyük xəstəliklərindən biri halına gəlmişdir.

Kiməsə hayan durmaq, havadarlıq etmək, kiminsə xətrinə işi əhli olmayana həvalə etmək, bunların hamısı bu keyfiyyətsizliyin və rahata qaçmağın nəticələridir.

Keyfiyyətin tələblərinə boyun əyməmək, müəyyən bir müddətdə ərsəyə gələcək olanı dərhal əldə etməyi istəmək, tələskənlik ucbatından lazım olanları vaxtında yerinə yetirməmək səbəbi ilə ortaya çıxan arzuolunmaz gecikmə də rahata qaçmaq üçün əlverişli zəmin hazırlayan şər ünsürlərdəndir.

İslam aləminin yenidən doğuşu hər şeydən əvvəl bu rahata qaçış psixologiyasından ciddiyyətlə uzaqlaşmaqla başlaya bilər. Ruh tənbəlliyimizin nəticələri ilə üzləşmək həqiqi təvəkkül deyil. Təvəkkül və qədərə riza göstərmək əldən gələni etdikdən sonra başlayır.

İslam aləminin hər yanında qurtuluş hərəkatının davam etdiyi bir həqiqətdir. Amma bütün bu hərəkatların bir-birindən qopuq halda olmaları səbəbi ilə müvəffəqiyyətlə nəticələnməsi şübhəlidir. Hərəkatların keyfiyyəti aşağıdır. Bütün cəhdlərdə rahata qaçma

psixologiyası özünü göstərir. Bu şərtlər altında olduqca planlı və şüurlu, bilikli və istəkli olan qərblilər necə məğlub edilə bilər?

Bəs yaxşı, bu vəziyyət bizi ümidsizliyə sövq etməlidir? Əsla! Ümidsizliyə deyil, əskiklərimizi dərk etməyə və özümüzü ölçməyə, özümüzü anlamağa, özümüzü və qarşımızdakını yaxşı tanıdıqdan sonra bir çıxış yolu axtarmağa sövq etməlidir.

Köklü, əsaslı bir diriliş hərəkatı başladılsa və ortaya çıxacaq fürsətlər də yaxşı dəyərləndirilsə, ümid günəşi niyə yenidən üfqümüzdə doğmasın?

Parça-parça olan hərəkətləri bütünləşdirəcək köklü bir hərəkat yayılarsa, qərblilərin işi çətin olacaq. Öz aralarında zaman-zaman baş verən ixtilaflar da bəzən fövqəladə fürsətlərə çevrilə bilər. İkinci Dünya müharibəsi bu mənada böyük bir fürsət idi. Lakin İslam aləmi buna hazır olmadığı üçün bu fürsətdən istifadə edə bilmədi.

Gələcəkdə ortaya çıxacaq fürsətlərin də göz görə-görə əldən çıxmaması üçün İslam dünyasının hazırlaşması, ruh tənbəlliyindən sıyrılması, rahata qaçış psixologiyasından qurtulması lazımdır.[15]

## Ruhun dirilişi

Ruh yenidən diriləcək. Dövrümüzdə yenidən diriləcək. Ölüm tələsindən qurtulacaq. İnkar bataqlığından çıxacaq. Bütlərə sitayiş mərasimini pozacaq. Mənlik sərgisini yığışdıracaq. Maddənin ödünü qopardacaq. Düha torpağını vəhyin işığı ilə yenidən yoğuracaq. Nəfs girdabından xilas olmuş xoruz kimi köhnə kitabların vərəqlərini eşələyəcək. Tarixin dəniz dibi iqlimində qızarmış süngərləri aralayaraq itmiş incisini axtaracaq. İslamın hər səhər dünyamızı ziyarət edən sübhündə diriliş ilhamını tapacaq. Hər bahar yenidən bir Xızır olacaq ona. Üstündən tökülən ölüm yarpaqlarını hər payızın tabutuna yerləşdirərək göməcək. Müsbət

15. Səzai Karakoç, *Sur*, İstanbul 1975, s. 170-172.

bilikləri Harut və Marutun sehrindən təmizləyəcək. Eşq silahı ilə təchiz olacaq. Şeytanın metafizikasını alt-üst edəcək.

Tarix Qurandan gələn kövsərlə, abi-həyatla yuyulacaq və diriləcək.

İnsanlığın üstündə ruhun diriliş lampası yenidən yanmağa başlayacaq.[16]

## Adət-ənənə mədəniyyətin fiziologiyasıdır

Mədəniyyəti irqlə açıqlayan (rasist) teoriyalar olsa da, bunları qəbul etmək mümkün deyil. Çünki mədəniyyət öz tərifi etibarilə bütün insanlığa xitab edən tarixi məfhumdur. Fərdə və ya cəmiyyətə yönəlmiş tərəfi ilə mədəniyyət insanın təkcə fiziki və ya fizioloji ehtiyaclarına cavab verən sistem olmaqla qalmaz, eyni zamanda mənəvi - əxlaqi, metafizik və adət-ənənələrlə bağlı münasibətlərini də təmin edir. Mədəniyyət insanı bütün yönləri ilə ələ alır. Hər nə qədər bəzi mədəniyyətlərdə maddi ehtiyaclar, bəzi mədəniyyətlərdə isə mənəvi ehtiyaclar ön plana çıxsa da, hər mədəniyyətdə, az və ya çox, bunların hər ikisi üçün də müəyyən təkliflər yer almaqdadır. Bütün ruhi fəaliyyəti maddə ilə ölçən və onun təsiri kimi görən və ya ondan ayrı dəyərləndirə bilməyən materializmi və xüsusilə də tarixi materializmi, bir də hər cür mənəvi dəyəri "qan" bağı ilə açıqlayan irqçi görüşləri bir yana qoysaq, mədəniyyət gerçəyinin içində ruhi və maddi fəaliyyətlərin əsərlərinin hər birini görmək mümkündür. Bu həqiqət qəbul edildikdən sonra insanların, bir az da dövrün təsirində qalaraq, maddi və ya ruhi faktorlar arasında birinə təyinedici olaraq üstünlük verdiyini söyləyə bilərik.

Biz insan həqiqətində, marksizm və hər növ materializmin əksinə, ruhi faktoru başlıca əsas, infrastruktur olaraq qəbul edirik. Maddi – iqtisadi fəaliyyətlər isə bunun nəticəsi və əks olunmuş surəti, nəticə etibarilə onun üstündə qurulmuş konstruksi-

16. Səzai Karakoç, *Ruhun Dirilişi*, İstanbul 1977, s. 12.

yanı təşkil edir. Eyni iqlimdə mədəniyyət baxımından yüksəliş və tənəzzüllərin yaşanması başqa cür izah oluna bilməz.

Bizim fikrimizə görə, mədəniyyət müəyyən bir idealı olan insanların böyük fədakarlıqlarla gerçəkləşdirdikləri bir fəaliyyətdir. "İdeal" və "fədakarlıq" isə maddi faktorlara zidd və tərs terminlərdir. "Fayda" faktoru mədəniyyətdə məqsəd deyil, vasitədir. İnsanların "yaxşı yaşamaq" istəyi nəzərə alınsa, bu, məqsəd deyil, əsl məqsədi təmin edəcək vasitədir. Amma məqsədə bitişik vasitə olduğu üçün yanılma nəticəsində insanlara məqsəd kimi görünə bilər.

Bilirəm, bu gün materializm, tarixi materializm, digər adları ilə marksizm və kommunizm teoriyaları davam edən çalışmalar nəticəsində daha qarışıq hala gətirilmişdir. Bəzi qaranlıq ifadələrlə onun əsas sxemi gizlənməyə çalışılır və əksər hallarda da buna nail olurlar. Amma kəlmələrin üstünü açaraq düşüncənin əslinə getdiyiniz zaman qarşınıza çıxacaq skelet: Tanrının, ruhun, mənəviyyatın, dinin, fövqəltəbii olanların inkar edilməsidir. Bizim vasitə kimi gördüyümüzü materialistlər məqsəd olaraq görürlər. Bundan başqa, marksizm bu məqsədə müəyyən bir üsul ilə nail olmağı şərt qoyur.

Maddi faktorların hər hansı bir səbəblə ön plana çıxması bir müddət əsl məqsədin unudulmasına və ya gecikməsinə səbəb ola bilər. Amma bu, müvəqqəti haldır. İstək təmin edildikdən sonra insan yenə öz axtarışına qayıdar və əsl məqsədi tapana qədər axtarmağa davam edər.

Mədəniyyət insan oğlunun əsl məqsədini gerçəkləşdirmək üçün apardığı çalışmalardan, ona nail olma axtarışlarından, onu əldə etmişsə, itirməmək cəhdlərindən, onu bəzəyib gözəlləşdirməsindən, o yöndəki duyğu və düşüncələrini ifadə etmə istəyindən qaynaqlanan və bəslənən niyyət və fəaliyyətlərinin, teoriya və praktikasının, plan və əsərlərinin, real və potensial güclərinin

hamısını ifadə edir. Adət mədəniyyəti deyil, mədəniyyət adəti içinə alır. Adət-ənənələr mədəniyyətin fiziologiyası kimidir.

Mədəniyyət isə təkcə anatomiya deyil. Canlı orqanizm kimi anatomiya yönü ilə, fizioloji yönü ilə böyük bir bütündür. Bu nöqtədə Ziya Gökalpın mədəniyyət və adət təriflərindən ayrılırıq. O, adətləri milli, mədəniyyəti isə millətlərarası qəbul edir. Onun düşüncəsində mədəniyyət bir qrup millətlərin müştərək ortaya qoyduğu əsərlərdir. Halbuki bizim görüşümüzə görə, hər mədəniyyət ilə onun adət-ənənələri də üst-üstə düşür. İslam mədəniyyətindən bəhs ediriksə, İslam adət-ənənələrini də deməliyik. İslam adətləri İslam mədəniyyətinin ünsürüdür; hətta o, bir çox başqa ünsürün də mənbəyi olan bir ünsürdür. İrqlərin istər adətlərə, istərsə də mədəniyyətə qatqısı xarakter qatqısıdır. Yoxsa bütün adətləri irqlərə bağlayaraq mədəniyyəti irqlərarası müştərək xüsusiyyət səviyyəsinə endirmək mümkün deyildir. Bu, mədəniyyət məfhumunu daraltmaq, həddən artıq obyektivləşdirmək, dolayısilə materialistləşdirmək mənasına gəlir.

Mədəniyyətə tərif vermək üçün onu insanlığın fövqəltəbii məqsədinə nail olmaq üçün qurduğu həyat tərzi və ortaya qoyduğu mühit olaraq da açıqlaya bilərik. Mədəniyyətin bir psixi-fiziki həqiqəti vardır. Yoxsa bu həqiqətin psixi yönünə adət-ənənə, fiziki yönünə də mədəniyyət demək doğru deyildir. Bəlkə də, mədəniyyətin həyata keçirilən formasına adət-ənənələr demək mümkündür. Meydana gəlməsini tamamlamış əsərlər də, hələ meydana gəlmə ərəfəsində olanlar da mədəniyyətə daxildir. Mədəniyyət ilə adət-ənənə o qədər iç-içədir ki, əksər hallarda eyni mənada istifadə edilməkdədir.

İnsanın idealı və məqsədi ilahi mənbəyə bağlıdır. Mədəniyyət də insanın bu məqsədini ən üstün planda gerçəkləşdirməsi, onu daimi hala gətirməsi üçün səy göstərməsi və bunun abidələşməsi, müəssisələşməsi, qalıcı hala gətirilməsidir. Buna görə də biz mədəniyyətin həqiqi mənasını və mənbəyini vəhydə görürük; digər mədəniyyət növlərindən ayırmaq üçün buna vəhy mədə-

niyyəti, həqiqət mədəniyyəti deyirik. Digər mədəniyyətlər buna yaxınlaşdığı nisbətdə mədəniyyətin əsl məqsədinə yaxınlaşmış, bundan uzaqlaşdığı nisbətdə də uzaqlaşmış olur.

Həqiqi mədəniyyətin inkişaf pillələrində son və ən üstün mərhələ olan İslam mədəniyyəti həm mənəvi və ənənəvi, həm də maddi-fiziki baxımdan mədəniyyəti bütün ölçüləri ilə gerçəkləşdirmiş, ən dərin, ən yüksək, ən geniş əhatəli mədəniyyət olmuşdur.

İslam mədəniyyətini bəzi irqi adət-ənənələrin müştərək əsərlər tablosu kimi görmək səhvdir. İrqlər bu mədəniyyətə qatılıblar və öz xarakterləri ilə onun potensial gücünü hərəkətə keçiriblər. Yəni onun yeni açılımlar etməsi və həmlələrini gerçəkləşdirməsində xarakterlərinin təsiri olmuşdur. Məsələn, ərəbin məzacı elm və düşüncəyə yatqın olduğu üçün İslam mədəniyyətinin elm və düşüncə yönünü inkişaf etdirmişdir. Əcəm məzacı daha çox İslamın sənət və ədəbiyyat yönünü, türk məzacı da idarəetmə və təşkilatlanma yönünü, sosial yönünü inkişaf etdirmişdir. Yəni bu irqlərin qədim adət-ənənələri və mədəniyyətləri İslamla qarşılaşaraq və hesablaşaraq İslama uyğun gələn yönləri ümumi bütünə qarışaraq ərimiş, öz ilə qaynaşaraq yoxa çıxmışdır.[17]

## Çanaqqalada niyə vuruşduğumuzu unutduq

Toplum üçün ən pis həyat kəsik-kəsik yaşamaqdır. Ruhi həyat baxımından qopuqluqlar şüuraltında qaranlıq qalıqların meydana gəlməsinə səbəb olur. Toplumda gözlənilmədən ortaya çıxan partlamalar bu cür şüuraltı yığılmaların nəticəsidir. 1970-1980-ci illər arasında Türkiyədə yaşanan anarxiya və terror fırtınasının mənbəyi də toplumun tarix şüurunun kifayət qədər coşqun və kəsiksiz olmaması idi. Tərəddüd və şübhə çör-çöpünü sürükləyərək atacaq tarixi şüur çayı mənbəyindən çıxdığı kimi

17. Səzai Karakoç, *Düşünceler Kavramlar I*, İstanbul 2005, s. 7-11.

tərtəmiz və dupduru axa bilməlidir ki, millətin həyatı möhtac olduğu yüksək mənəvi keyfiyyəti qoruyub saxlaya bilsin.

Amma unutqanlıq, zalım unutqanlıq zaman-zaman mərhəmətsiz oyununu oynamaqdan dala qalmaz. Toplum dara düşdüyü məqamda geri çevrilib düşünə bilsə, keçmişdəki həyat və təcrübələrinə baxaraq neçə-neçə həll yolu və alternativ yollar tapa bilər. Toplumu sərbəst buraxmırlar ki! Xaricdən gələn və dayanmadan ruhları məşğul edən görüntü, səs, söz və düşüncə axımları insanın sakit bir şəkildə özünü tapmasına və özünü yaşamasına mane olur.

Unutduq. Pleveni, Çanaqqalanı, niyə vuruşduğumuzu, İstiqlal hərbini, nəhəng bir dövlətə sahib olduğumuzu, hər şeyi, hər şeyi unutduq. Sözdə müstəqilliyimizi əldə etdikdən sonra ruhən Qərbə təslim olmamaq üçün bütün millət olaraq necə içə qapanıb müqavimət göstərdiyimizi, necə qorxular və əzab-əziyyətlər çəkdiyimizi, necə mistik ümidlər və xəyallar içində çırpındığımızı, bir gün bu təzyiqlərdən qurtulsaq, müqəddəs dəyərlərimizə dörd əllə sarılmağı necə həsrətlə gözlədiyimizi, bütün bunları unutduq.

1950-ci ildən sonra başlayan nisbi azadlıq şəraitində dərin-dərin düşünüb əsaslı bir planla, otuz-qırx illik planla, əvvəlcə düşüncə, mədəniyyət, ədəbiyyat sahəsində yeni köklər salmağa, daha sonra metafizik planda dirilməyə, ən sonda da sosial-siyasi bir bütünləşməyə doğru getməyimiz lazım ikən bir yandan sadəcə nifrət qusan bir dil sahibi olmaq, bir yandan qərbçilərlə uzlaşan bir riyakarlığa gömülmək, bir yandan da içə qapanıb xaricə ölmüş görüntüsü verərək öz-özünə səhnədən çəkilmək kimi təzadlı bölünmüşlüyə məhkum olan panika cəmiyyəti halına gəlməyimiz çox həzin bir aqibət oldu.

Sağa-sola əyilə-əyilə qaldıq, bir o tərəfə yırğalandıq, bir bu tərəfə. Bütün şoklara baxmayaraq itirdiyimiz mənliyimizi yenidən tapmağın sirrinə çata bilmədik.

1960 çevrilişi bir daha bütün dəyərlərimizi itirmiş olmağın narahatlığı içində ruhumuzu alt-üst etdi. Kommunizm toruna

düşmüş ziyalıların saçdığı dəhşətlə çalxalandıq, həyəcan fırtınaları içində üzdük. Elə an oldu ki, artıq qurtuluş asfaltına çıxdığımızı zənn etdik. Halbuki bu, incə cığırları asfalt zənn etmə yanılması idi.

On illər keçdi, köhnədən qalanlar çürüyüb məhv olarkən torpağa yeni toxumlar saçdıq. Amma bu toxumlar heç cür inkişaf etmədi. İlk boy atan filizlər yabanı alaq otları arasında boğulub qaldı.

Sonra cəmiyyətimizi intihardan daha betər bir terror və anarxiya dalğası bürüdü. Küçə çıxılmaz, çayxana oturulmaz, məktəb oxunmaz və həyat yaşanmaz hala gəldi. Sanki toplum keçmişi unutma divinin pəncəsində əcəl təri tökməyə məhkum olmuşdu.

Hər on ildən bir toplum havasını dəyişdirən qara bir küləyin istisində qovrulduq. Neçə-neçə boş adamların arxasınca sürükləndi kütlələr. Siyasət bu aldatma və unutdurma planının həyata keçirilmə strategiyasına çevrilərək cəmiyyəti süstləşdirdi.

İndi sanki keçmişsiz, gələcəksiz, hətta indiki zamansız bir cəmiyyət kimi anı yaşayan insan yığınına çevrilmiş vəziyyətdəyik.

O ehtişamlı duyğuların, zəngin iç dünyanın xariqüladə aləmini necə xatırlada bilərik?

İtib-batmış xatirələrimizin gövhərini, almazını və incisini unutqanlıq dəryasının dərinliklərindən necə çəkib çıxarda bilərik?

Ruhu qatılaşdıran, kirəc qayalıqlarla saran hissiyyatsızlıq iflicinin istila etdiyi vücudu bir zəlzələ misalı necə sarsa bilərik?

Ən dərin kabus yuxusuna sürüklənmiş ruhu necə oyandıra bilərik?

İçimizdə bayraqlarla yol alan mənəvi ordu millətini necə dirildə bilərik?[18]

---

18. Səzai Karakoç, *Unutuş ve Hatırlayış,* İstanbul 1998, s. 36-38.

# RASİM ÖZDƏNÖRƏN

1940-cı ildə Maraşda anadan oldu. İbtidai və orta təhsilini Maraş, Malatya, Tunceli kimi Türkiyənin cənub-şərq şəhərlərində tamamladı. İstanbul Universitetinin Hüquq fakültəsini və Jurnalistika İnstitutunu bitirdi. Dövlət Planlama Təşkilatında mütəxəssis kimi işlədi. 1970-1971-ci illər arasında elmi tədqiqatlarla bağlı ABŞ-ın müxtəlif əyalətlərində iki il qaldı. 1975-ci ildə Mədəniyyət Nazirliyində müşavir vəzifəsinə təyin edildi. Eyni nazirlikdə bir il müfəttişlik də etdi.

1978-ci ildə istefa verib dövlət məmurluğundan ayrılsa da, bir müddət sonra (1980) Dövlət Planlama Təşkilatında işə düzələrək yenidən məmurluğa qayıtmış oldu. Müxtəlif vəzifələrdə işlədi. 2005-ci ildə dövlət məmurluğuna son nöqtəni qoyaraq, öz ifadəsi ilə, azadlığına qovuşdu.

Türk hekayə və esse yazıçılığının gəlmiş-keçmiş ən mahir qələmlərindən biri olaraq seçilməyə başladı.

Türk Dil Qurumu, Mədəniyyət və Turizm Nazirliyi, RTÜK-ün iştirakı ilə təşkil edilən Karaman Türk Dili Mükafatlarında “Türkcədən gözəl və düzgün istifadə edən ədəbiyyatçı” mükafatı Rasim Özdənörənə təqdim edilmişdir (2008). 2009-cu ildə isə TBMM “Üstün xidmət” mükafatına layiq görülmüşdür.

Əsərlərindən bəziləri bunlardır:

Hekayələr və romanlar: “Xəstələr və işıqlar” (1967), “Gül yetişdirən adam” (1979), “Çözülmə” (1973), “Çox səsli bir ölüm” (1974), “Çarpılmışlar” (1977).

Esselər: “Eşikdə dayanan insan” (2000), “İki dünya” (1977), “Yaşadığımız günlər” (1985), “Ruhun malzəmələri” (1986), “Müsəlmanca düşünmə üzərinə dənəmələr” (1985), “Baş qarışdıran kəlmələr” (1987), “Yumurtanı hansı ucundan qırmalı” (1987), “Çarpaz ilişkilər” (1987).

## Bilik və şüur

İslama uyğun həyat tərzi, İslama uyğun düşüncə kimi xüsusiyyətlər təkcə din haqqında bəzi “maddi” məlumatları öyrənməklə əldə edilə bilməz. İslamın əsaslarına uyğun düşünə bilmək onun haqqında bəzi materialları tədris etməkdən daha böyük bir məziyyətdir.

İslam haqqında məlumatı olan hər kəsin İslami əsaslara görə düşünə bildiyini qəbul edə bilmərik. Burada mühüm olan xüsus beyini bəzi məlumatlarla doldurmaq deyil, İslamın tələb etdiyi “nosyon” (düşüncə çərçivəsi) içində düşünə bilmək qabiliyyətidir.

Bu baxımdan burada biliyi iki hissəyə ayıra bilərik: biri “kazuistik” (qaydalara əsaslanan) bilikdir. Yəni tək-tək məfhumlara dair məlumatların əldə edilməsi ilə toplanmış bilik. Buna ensiklopedik bilgi də demək olar. Burada əldə edilmiş məlumatlar arasında daxili münasibət qurula bilmədiyi kimi, bu tək-tək məlumatlardan meydana gəlmiş bilik yığını o insana İslami baxış tərzi də qazandırmaz. Hər bir məlumat özünə dair hadisələrlə birlikdə təkbaşına qalar. Digər bilik növü isə prinsipial məlumatlardır. Prinsiplərin biliyini əldə edən şəxs üçün “kazuistik” bilik o qədər də əhəmiyyət daşımır. O, daha sonra ona lazım ola biləcək məlumatları haradan, necə əldə edə biləcəyini bildiyi kimi, içində yer aldığı şərtləri nəzərə alaraq o an hansı biliyə ehtiyacı olduğunu da bilir.

Burada vurğuladığımız bilik baxımından müsəlmanları ən az iki kateqoriyada ələ almaq mümkündür. Bunlardan bir qismi İslam haqqında olduqca geniş məlumata malik olanlardır. Buna baxmayaraq, İslamın tələb etdiyi normativlərə uyğun düşünə bil-

mirlər. Çünki İslam haqqında əldə etdikləri elmin bir müstəşrikin elmindən fərqi yoxdur. Düzdür, maddi olaraq bir çox məlumatlara malikdir, lakin bu elmi onu İslamın ruhuna münasib yola düşməyə sövq etmir. Bu qrupun içində yer aldığını deyə biləcəyimiz bəzi müsəlmanlar isə mövcud olan ictimai və siyasi şərtlər səbəbi ilə sahib olduqları elmi işlədə bilmirlər. İslam haqqında sahib olduqları bilik xəzinəsinin genişliyinə baxmayaraq içində yer aldıqları mühitin fərqində deyillər.

Deməli, İslam haqqında məlumata malik olmaq kifayət etmir. Bu məlumatın əldə edilməsi labüddür, lakin prinsiplərinə yiyələnmək təkcə quru məlumatlarla gerçəkləşə biləcək bir xüsus deyil. İslamın tələb etdiyi normativlərə görə düşünə bilmək üçün İslamın ruhunu anlamış olmaq lazımdır.

İslama görə həyat tərzi deyəndə bu həyatı təkcə hərəkətlərimizdən ibarət bir fəaliyyət kimi nəzərdə tutmuruq. Burada həmçinin ətrafımızdakılarla münasibətlərimiz və dünyanın gedişatına dair düşüncələrimizin də İslama görə şəkillənməsinin lazım olduğunu deyirik. Yəni fikir dünyamız da İslami əsaslara uyğun bir seyr içində olmalıdır. Bu da prinsiplərin tələb etdiyi normativlərə uyğun bir düşüncə dünyasına malik olmaqdan asılıdır.

Bu gün bir müsəlmana "şüurlu" deyə bilmək üçün təkcə onun ibadətlərinə baxmaq kifayət etmir. Bir insanın namaz qılıb-qılmadığına, oruc tutub-tutmadığına, zəkat verib-vermədiyinə, imkan tapdıqca həccə gedib-getmədiyinə baxaraq onun haqqında hökm vermək bizi düzgün nəticələrə aparmaya bilər.

Şüurlu müsəlman dünyada kiminsə təlqinlərinə görə şəkil almaz. Başqalarının oyuncağı kimi oyunlara alət edilməsinə, istismar edilməsinə göz yummaz. Ən əsası da, harada, necə istismar edildiyini və edilə biləcəyini bilər. Haqsızlığa qarşı əli ilə, dili ilə, qəlbi ilə müqavimət göstərər. Allahın düşmənlərinə elə Allahın rizası xatirinə büğz edər. Müasir lüks imkanlarının onun şüurunu kütləşdirməyə xidmət edən tələlər olduğunu qavrayar və

yer üzündə işğal olunmuş bir məkan varsa, bu məkanın Allahın düşmənləri tərəfindən bir lütf olaraq verilməyəcəyini, dolayısilə işğal edilən məkanı qorumağın onun boynunun borcu olan məsuliyyətlər arasında yer aldığını bilər və ruzi əndişəsi ilə kafirlərlə iş birliyinə girməyi rədd edər.

Allahdan qorxan kimsənin qəlbində Allah qorxusundan başqa heç bir qorxunun yer almayacağını bilərək qula qul olmaz, təkcə Allaha qulluq edər. Allahdan başqasından qorxmağın, xüsusilə də insandan qorxmağın şəxsiyyəti alçaldan bir şey olduğunu dərk edər. Xeyrin və şərin Allahdan gəldiyinə iman edər. Pisliyin əşyadan deyil, əşyanın əmrinə tabe olmaqdan qaynaqlandığını bildiyi üçün əşyanı öz əmri altında saxlamağın yollarını axtarar. Onun üçün zülmün mənası təkcə bədənə qarşı işgəncə və zorakılıq deyil. Yəni zülm onun üçün təkcə fiziki bir hadisədən ibarət deyil. Onun nəzərində zülm Allahın hökmlərinə tabe olmamaqdır.[1]

## Elmin ardındakı niyyət

Bu gün "elm" deyərək mənimsədilməyə çalışılan şey, əslində, xristian Qərb dünyasında dinə qarşı mübarizə aparmaq üçün ortaya çıxardılan, təməlində dini aradan qaldırmaq niyyəti daşıyan bir sıra düşüncələr zənciridir. Təəssüf ki, indiki insanların əksəriyyəti elmin bu xüsusiyyəti daşıyan əsas məqsədini unutduğu üçün həmin elm tərəfindən ortaya atılan iddiaların hamısına həqiqət imiş kimi baxır, hətta doqmatizmlə (ehkamçılıq) mübarizə apardığını zənn etdiyi elmin özündə yeni bir doqmatizmə bel bağlamalı olur.

Ədəbiyyat elə bir hala gətirilib ki, ancaq insanın süfli (alçalmış) tərəfini ortaya qomağa xidmət göstərir. Sanki insan öz zəifliyini, süfliliyini, bacarıqsızlığını görməkdən zövq alan bir xəstə düşüncəyə tutulub.

1. Rasim Özdənörən, *Müslümanca Düşünme Üzerine Denemeler*, İstanbul 2008, s. 21-26.

Həqiqətdə elm və sənət adına söylənən şeylərin nə dərəcədə elm və ya sənət olduğu müzakirə edilə bilməlidir. Amma bu gün bu ad altında təqdim edilən hər şey insanlara rahatlıqla qəbul etdirilə bilməkdədir. Bircə dəfə tərəfsiz, obyektiv və universal bir məfhum  olduğu deyildikdən sonra bunun hər yerdə, hər zaman qüvvədə olan ümumi bir qayda olduğu və hər kəs tərəfindən qəbul edilməsinin məcburi olduğu fikri, bu fikri ortaya atanın "niyyəti" araşdırılmadan, heç araşdırmağa ehtiyac da duymadan qəbul edilməkdədir.

Halbuki iddia edilən tərifə uyğun olması tələb olunan fizika, kimya, biologiya kimi dəqiq elmlər belə XVII əsrdən etibarən, xüsusilə də keçən əsrdə şiddətini artıraraq müəyyən "niyyətlərin" həyata keçirilməsi məqsədinə alət edilmişdir. Fəlsəfədə olduğu kimi, elm sahəsində də bir-biri ardınca gələn düşüncələr, görüşlər bir-birinin yalanını ortaya çıxartmağa davam edərkən hələ də insanların elmi bütləşdirməsi qəribə bir hadisədir. İndi bəziləri "elmin də yanıla biləcəyi əsas olaraq qəbul edilməkdədir" deyə etiraz edə bilərlər. Lakin elmin bacara biləcəklərinin qəbul edilməsi ilə elmin gerçəkləşdirmək istədiyi niyyəti bir-birinə qarışdırmamaq lazımdır. Bu gün Qərb dünyasında elm deyilən məfhumun gerçəkləşdirmək istədiyi niyyət, bu niyyətin daşıdığı zehniyyət böyük miqyasda dəyişmədən davam etməkdədir.

Bu niyyətin mahiyyətini bir neçə kəlmə ilə xülasə etmək mümkündür. Ölümsüzlük iksirini tapmağa çalışan, bəziləri tərəfindən bugünkü elmin ataları deyə tərif edilən ilk simyaçılardan etibarən yaxın dövrlərə və günümüzə qədər davam edən bu gedişatın daşıdığı əsas niyyət Allahın hökmlərini yalançı çıxartmaq səylərinə yönəlmişdir. Simyaçılar ölüm iksirini taparaq bütün canlıların öləcəyi həqiqətini etibarsızlaşdırmaq istəyirdi. İndiki elm əhli isə bundan törəmə bir fikir olaraq insanın yaradılışı ilə əlaqəli bir hökmü yalanlamaq cəhdinə düşmüşdür. Bəziləri artıq bugünkü elmin bu fantaziyalarla məşğul olmaqdan əl çəkdiyini, hətta bu fantaziyaların insan oğlunun xeyrinə bir çox kəşflərin

edilməsinə yol açdığını irəli sürərək müdafiəyə keçə bilər. Lakin bu niyyət bir çox zehinlərin bulanmasına səbəb olmuşdur. Həm də ki, bugünkü elmin böyük ölçüdə eyni məqsədlərə xidmət etməsində şübhə yoxdur. Bu əsnada deyilən bəzi həqiqətlər olsa da, onlardan da təməldə var olan sapqınlığın möhkəmlənməsi üçün istifadə edilməkdədir.[2]

## İlk yola çıxan mən olacağam

Hər birimizin tək-tək təsiredici bir müsəlman olması, şübhəsiz, arzulanan bir şeydir. Bəs bu təsir gücünü necə təmin edəcəyik?

Hz. Peyğəmbərin Bədr döyüşündə etdiyi bu duanı xatırlatmaq istəyirəm; bildiyiniz kimi, bu döyüş həm müsəlmanların ilk meydan müharibəsi idi, həm də o döyüşdə iştirak edənlər o günkü müsəlman dünyasının ilk və son qafiləsini təşkil edirdilər. Rəsulullah əleyhissalam duasında məhz bu xüsusiyyəti dilə gətirmişdi: “Ya Rəbb! Sən möminlərə yardım et! Onlar tamamilə məhv olsalar, artıq sənə ibadət edən kim qalacaq!..” Bu duanı eşidən hər bir mömin yer üzündə qalan son və tək müsəlmanın göstərəcəyi cəhd və mübarizəyə sarıldı.

Deyə bilərlər ki, bu bir döyüş psixologiyasıdır.

Səhv etmirəmsə, bu söz Nitsşeyə aiddir: “Yaddaşım bir şeyi etdiyimi deyir, vicdanım isə etmədiyimi; yaddaşım vicdanıma məğlub olmağı qəbul edir”.

Bu sözdən, keçmişdə etdiklərimizi və hazırda etməkdə olduqlarımızı qiymətləndirə bilmək üçün bir məhək daşı kimi istifadə edə bilərik. Həqiqətən nəsə edirik, yoxsa edirmiş kimi görünürük? Özümüzü aldatmaq istəmiriksə, verəcəyimiz cavabda mümkün olan hər ehtimal daxilində edə biləcəyimiz şeyləri də nəzərə almalıyıq. Yoxsa “şərtlər” deyərək hər hadisənin içindən özümüz üçün münasib bəhanələr çıxarda bilərik.

---

2. Rasim Özdənörən, *Kafa Karıştıran Kelimeler*, İstanbul 1988, s. 84-86.

Bir də belə bir həqiqət var: təsirli müsəlmandan bəhs edirik; yəni mövcud olan şərtlərə müdaxilə etməyi, onları İslami istiqamətdə dəyişdirməyi və istiqamətləndirməyi özünə borc bilən müsəlmandan. Bu müsəlman şərtlərin tələb etdiyi tədbirləri görmək xüsusunda lazımi elastikliyi göstərə biləcək bəsirətə sahibdir, amma onun elastikliyi əsla şərtlərə təslim olmaq mənasına gəlmir.

Son anın kritik vəziyyəti içində hərəkət etmək, cəhd etmək şüuru içində olmaq eyni zamanda Allahdan başqa söykənəcək dayaq qəbul etməməyi də ehtiva edir. O zaman başqa heç bir kimsənin yardımını gözləmədən yola düşməyin cəsarətindən söz açmaq lazımdır. Yəni bu yola ilk çıxan mən olacağam və məndən başqa heç kəs yoxdur! Təsirli olmağın hüdudları bu şüurla genişlənə bilər.[3]

## Dil mövzusu siyasidir

Dil mövzusu milliyyətçiliyi ön planda tutanlar üçün müzakirə obyektinə çevrilməli olan mühüm mövzu kimi görünə bilər. Lakin biz, digər bir çox mövzuda olduğu kimi, bu mövzunu da müzakirələrimizin xaricində tutmaq istəyirik. Bu gün mənim üçün əsas məsələ hansı kəlməni işlədib hansını işlətməyəcəyim deyil, səsləndiyim şəxslərə yaxınlaşa bilmək iqtidarında olub-olmamağımdır. Bir yazıçı olaraq, əlbəttə, dilimə də sahib çıxıram. Lakin bu sahiblənməkdə məqsədim "nasionalist" istəklər deyil.

Bu gün dil mövzusunu özü üçün böyük bir problemə çevirmiş olanlar fərqli niyyətlərin arxasınca düşüblər. Bu niyyətlərin arasında dilin öz məzmunu içində elmi bir yanaşma təmin etmək çox az yer verilən xüsuslardandır. Hətta bu məsələ o qədər bariz bir hala gəlmişdir ki, əslində elmi deyilərək ələ alınan tərz də güdülən siyasi niyyətlərin bir vasitəsi olaraq işlədilməkdədir. Öztürkcəni tənqid edənlərin elmi deyərək iddia etdikləri həqiqətlər qarşı tərəfin irəli sürdüklərindən daha güclü faktlara malik deyil. Bu-

3. Rasim Özdənörən, *Müslümanca Yaşamak*, İstanbul 1994, s. 75-76.

nun tərsi də doğrudur. Yəni öztürkcəni müdafiə etmək istəyənlər də daha etibarlı elmi həqiqətlərlə çıxış edə bilmirlər. Qısacası, elmi mənada irəli sürülən həqiqətlərin, heç olmasa, müzakirə edilə biləcək bir möhtəvaya malik olması lazımdır. Bu mənada hər iki tərəfin təqib etdiyi iz azdırıcı metodu da görməzdən gələ bilmərik. Məsələn, öztürkcəyə qarşı olanların "imambayıldı" yerinə "huşunu itirmiş dindar adam", yaxud "stüardessa" yerinə "göydə xidmət göstərən arvad" kimi uydurma söz birləşmələri təklif etdikləri şəklində iddialar məqsəddən yayındırmağa xidmət göstərən sapdırmalardır.

Bu gün müzakirə edilən dil mövzusunun arxasında dil uğrunda göstərilən səylərdən daha çox tərəflərin siyasi niyyətləri yer almaqdadır. Bilindiyi kimi, Kamalist inqilabların çatmaq istədiyi son hədəf Qərb mədəniyyəti ilə siyasi mənada bütünləşmiş bir Türkiyə meydana gətirməkdir. Dil inqilabı deyilən hadisə də bu hədəfin vasitələrindən biri olaraq düşünülmüşdür. Qərbdən alınacaq yeni məfhumları, hər hansı bir səhv anlamaya yol verməmək üçün, yeni kəlmələrlə ifadə etmək bu "inqilabın" əsas prinsipini meydana gətirir. Bu anlayış dil vasitəsilə mədəniyyət və adət-ənənələri yıxmaq və ya ən azı onlarla əlaqəni kəsmək mənasını da öz-özlüyündə möhtəvasında daşımaqdadır. Ənənəvi görüşə malik olanların və ya mühafizəkarların etirazlarının əsas səbəbi də bu nöqtədə formalaşır. "Bu qədəri də həddi aşmaqdır" deyərkən əsl düşündükləri xüsus ənənəvi mövzulardakı mühafizəkar qayğılarıdır.

Lakin əsl heyrətamiz xüsus budur: hələ də bəzi kəlmələrə qarşı "uydurma" deyərək etiraz edən şəxslər vaxtilə eyni etirazla rədd etdikləri bir çox kəlməni bu gün fərqində belə olmadan işlətməkdədirlər. Dil sahəsində mühafizəkar olduğunu iddia edənlərin, demək olar ki, hamısı bu gün "uydurma" dedikləri kəlmələrə yazılarında, nitqlərində bol-bol yer verməkdən çəkinmir, onları işlətməkdə problem görmürlər. Bu faktların daşıdığı məna düzgün qiymətləndirilməlidir.

Bir daha ifadə etməliyəm ki, biz bu gün Türkiyədə aparılan dil müzakirələrinin xaricində yer alırıq. Mübahisələrdə tərəf kimi yer alanların bir mövzunu müzakirəyə açarkən daşıdıqları niyyətlər bir az əvvəl toxunduğumuz mənada bizim maraq və çalışma sahəmizin kənarında qalır. Bizim işlətdiyimiz dilə sahib çıxmaqdan başqa mövqeyimiz yoxdur.

Bu mövzuda fikirlərimizi belə xülasə etmək olar: Mühüm olan hansı dili işlətmək deyil, o dil ilə nəyin söyləndiyidir. Ərəbcə ilə, Omanlıca ilə, yaxud sadə dillə qeyri-müsəlmançılıq edilə bilməz deyə bir qayda yoxdur. Eyni zamanda bu iddianın əksini sübut edəcək bir qayda da yoxdur. Unutmayın, Əbu Cəhl də Allah Rəsulunun (s.ə.s) danışdığı dildə danışırdı.[4]

## Elm yoldan çıxardarmı?

“Necə alimlər var ki, onları elm yoldan çıxartmışdır”.

“Elm”i bu qədər təşviq edən, alimlərin mürəkkəbi ilə şəhidlərin qanını bir tutan, alimləri peyğəmbərlərin varisləri hökmündə dəyərləndirən bir din, necə ola bilər ki, elmin eyni zamanda sapdıran, yoldan çıxardan bir səbəb ola biləcəyini deyir?

İslamda zidlər arasında ahəngin qurulmasındakı dialektikadan xəbərsiz olanlar bu hadisəni anlamaqda çətinlik çəkəcəklər.

İslam bir yandan dini tərifləyir, onu təşviq edir, bir yandan da elmin səbəb ola biləcəyi təhlükələrə diqqət çəkir.

Mücərrəd halda elmin özündə pis bir cəhət yoxdur. Lakin onu əldə edən və ya etməyə çalışan insanlardakı bir “qabiliyyət” bu pozulmaya yol aça bilər. Əgər elm “həzm” edilərək öyrənilməzsə, o elm insanı pozar, yoldan çıxardır.

Elmin həzm edilməsi nə deməkdir? İlkin mərhələdə o elmin bütün möhtəvası ilə qavranması deməkdir. Həmin elmin əsl məqsədinin nə olduğunu, o elmlə nə edilə biləcəyini öyrənmək,

4. Rasim Özdənörən, *Ruhun Malzemeleri*, İstanbul 2013, s. 296-300.

yəni o elmin faydasını qavramaq, elmlə düzgün nəticə çıxartmağı bacaracaq bir qabiliyyət əldə etmək deməkdir.

İkincisi, elmi səbəbi ilə təkəbbürə, qürura düşməməkdir. Yəni aradan nəfsaniyyəti çəkmək, elmin içində əriyib heç olmağı bacarmaq. Elmi artdıqca bilmədiklərinin daha çox olduğunu anlamaq. Və ən əsası da Allahın lütfü olmadan heç bir şeyi öyrənməyin mümkün olmadığını dərk etmək.

Yunus Əmrənin gözəl bir misrası var: "Elm özünü bilməkdir". "Özünü bilmək" deyəndə nəzərdə tutulan nədir? Özünü bilməyi bir həkimin öz bədənini tanıması kimi anlasaq, yəni insanın anatomiyasını, fiziologiyasını bilmək şəklində məna versək, əsl ünsürü kənarda qoymuş olarıq. Şübhəsiz ki, həkimin elmi də o sahə ilə əlaqəli olaraq faydalıdır. Amma "özünü bilmək" deyəndə nəzərdə tutulan əsas məqsəd insanın "qul" olduğunu dərk etməsidir.

Əslində, elm deyilən sahənin mücərrəd məqsədi insanın öz nəfsini bəyənməsinə mane olmaq, elmdə dərinləşdikcə öz heçliyini, zəifliyini daha dərindən hiss etməsinə yol açmaqdır.

Qərb aləmində inkişaf etdirilən elmlərlə İslami mənadakı elmin ayrıldığı əsas nöqtə qarşıya qoyulan məqsədin fərqli olmasıdır. Qərb elminin məqsədi əsas etibarilə insanla başlayıb insanda sonlanır, yəni məqsəd insandan ibarətdir, nəticə olaraq insan "ilahlaşdırılmağa" çalışılır. İslami elmlərin məqsədi isə insanın "qul" olduğunu ona hiss etdirmək və insanın təslimiyyətinə yol açmaqdır. Bunun xaricindəki texniki məsələlərdə istifadə edilən maddi bilik baxımından hər zaman aralarında fərq olmaya bilər.

Buna görə də alimlər niyyətlərinə bağlı olaraq ya yoldan çıxar və ya qurtuluşa nail olarlar.[5]

---

5. Rasim Özdənörən, *Müslümanca Yaşamak*, İstanbul 1994, s. 86-88.

## İnsanın missiyası

Bu nə özünübəyənmişlikdir!

Deyirlər ki, mən dünyaya bir missiya üçün göndərildim. Filan, filan işləri görmək üçün göndərildim. Yaradılışımın, var olmağımın məqsədi bu misyonu gerçəkləşdirməkdir.

Heç bir irfan sahibinin ağzından belə sözlər eşidə bilməzsiniz. Amma özünü bəyənən insanlar tez-tez belə sözləri dilə gətirirlər.

Hamınız bilirsiniz, Dostoyevskinin bir roman qəhrəmanı var: Raskolnikov. O da dünyaya nizam gətirmək üçün gəldiyini zənn edir. Özünü Napoleona bənzədir, daha doğrusu, bənzəməyə çalışır. Deyir ki, Napoleon yüz minlərlə insanın qanına bais olduğu zaman onu haqlı sayırlar, mən heç bit boyda da heysiyyəti olmayan bir qoca qarını öldümüşəmsə, nə ziyanı var? Belə fikirləşir və nəticədə edəcəyi tək şey cinayət işləmək olur.

XIX əsrin avropalısının beyni "üstün insan" xülyası ilə doludur. İtaliyanın hansısa bir bölgəsindən çıxmış, Fransaya imperator olmuş, Avropanı alt-üst etmiş, az qala Moskvanı zəbt etməyə belə nail olacaq Napoleon XIX əsr Avropasında "üstün insan" xəyallarının ən başlıca ilham qaynaqlarından biri idi. Hər kəsdə Napoleon olma sevdası yaranmışdı. Bəzi mütəfəkkirlərin belə XIX əsrin ortalarına qədər aktual sensasiyasını davam etdirən Napoleondan ilham aldıqlarını söyləməklə, məncə, məsələni çox şişirtmiş sayılmarıq. Görəsən, Nitsşenin "üstün insan" fikrində Napoleondan sızan təsirlər yoxdur ki?

XX əsrdə də irqçilik əsasına söykənən bəzi siyasi görüşlər XIX əsrin "üstün insan" anlayışının fərqli bir təzahürü sayıla bilməzmi?

Bu gün bəzi beyinlərə bu üstün insan fikri altdan-altdan yeridilməkdədir. Bunların mütləq hansısa siyasi irqçilik məqsədi güdməsi şərt deyil. Bir çoxu fərdi planda üstün olduğunu fikirləşir. Bəlkə "təvazökarlıq" səbəbi ilə üstün olduqlarını açıqca dilə

gətirmirlər, amma bunu dolayı yollarla hiss etdirməkdən də geri durmurlar.

Üstün insan nəzəriyyəsinin müsəlmanlara da dolayı yollarla təsiri olmuşdur. Amma İslami həyata da bulaşan bu dolayı təsirlərin nə qədər sapdırıcı bir nəticəsinin olduğunu görməmək mümkün deyil. Bəzi müsəlmanların hər şeyin özləri sayəsində ayaqda qaldığını, özləri olmasa, yol göstərməsə insanların rahatca yoldan azacaqlarını düşünməsi, hətta İslamın anlaşılmasının belə təkcə öz yüksək mövqelərinin hörmətinə mümkün ola biləcəyi xüsusunda bir təəssürat meydana gətirmək istəmələri bu sapqın üstün insan motivinin izlərini daşımırmı?

Üstün insan nəzəriyyəsinin insanın nəfsaniyyətini təhrik etməkdə, ona mənliyini xatırlatmaqda, "mən də mənəm" deməsində, qısacası, formalaşmış bir təkəbbür abidəsi halına gəlməsində şeytani təsirinin olduğu şübhəsizdir. "Seçilmiş" olan özüdür, qalanları ya bitdir, ya da gənə.

Dünyaya hansısa bir missiya ilə göndərildiyinə inanan insan, beyninə yerləşdirdiyi "missiya"nı davamlı xatırlamaq üçün səy göstərərkən, çox qəribə və acınacaqlı haldır ki, mühüm bir xüsusu yaddan çıxardır: qul olduğunu.

Müsəlmanlar şeytanın qurğusu olan "üstün insan" sevdasını bir kənara ataraq, insanın bu dünyaya göndərilməsi ilə mükəlləf hala gəldiyi yeganə missiyanın qul olmaq olduğunu xatırlayıb onun tələblərini yerinə yetirməyə çalışarsa, "üstün insan" olmaq cəhdinin insan üçün nə qədər alçaldıcı bir şey olduğunu daha yaxşı başa düşərlər.[6]

### Materialist şərtlənmə: aclıq qorxusu

Bu günün insanı üçün iqtisadi həyatdan daha ciddi, üstündə baş sındırmağa dəyəcək daha mühüm bir hadisə qalmayıb, sanki.

---

6. *e.a.ə.*,s. 41-42.

Beyinlər dolanacaq təşvişi ilə elə doldurulub ki, artıq "hər şey" əmtəə kimi, alınıb-satıla biləcək mal kimi qiymətləndirilir.

Qısaca desək, gündəlik həyatımızın hər anında materialist bir tablo ilə qarşı-qarşıyayıq. Belə bir həyatın içində Allah rizası, köməkləşmək, o biri dünya düşüncəsi insanları çox da maraqlandırmır. "Sabah" deyərək nəzərdə tutduğumuz şeylər artıq bir çoxumuz üçün axirət ilə əlaqəli olmaqdan uzaqdır. Artıq "sabah" ifadəsi əksər insanlar üçün tətil hazırlığını xatırladır.

Şübhəsiz ki, sabah üçün hazırlıq görmək ağıllı məxluqa (insana) xas bir hərəkətdir. Heç bir heyvan sabahkı gün üçün tədarük görməz. İndi arıları və qarışqaları misal çəkərək onlar da sabahkı günə hazırlaşır deyənlər ola bilər. Halbuki arılar və qarışqalar sabahkı gündən duyduqları təlaş səbəbi ilə məhsul toplamır. Yəni onlarda belə bir narahatlıq şüuru yoxdur. İnsan nəfəs alarkən bunu nə qədər düşünərək şüurlu şəkildə edirsə, arılar və qarışqalar da məhsul yığarkən bu işi o dərəcədə şüurla edirlər.

Nəyə görəsə, insan narahatlıq duyduğu düşüncələri daha çox ciddi qəbul edir. Aclıq təhlükəsindən bəhs edənlərin, neft ehtiyatlarının quruyacağından, əhalinin çoxalması səbəbi ilə meydana gələcək problemlərdən və s. danışanların daha çox ciddi şəkildə rəğbət görməsinin səbəbi də, məncə, elə budur.

İnsan öz beyin hesablamaları ilə baxdığı gələcəkdə bəzi "parlaq" müvəffəqiyyətlərin yanında aclıq kimi heç də qulağa xoş gəlməyən bir çox mənfi mənzərələri də təxmin edir. İstər müsbət, istərsə də mənfi təxminlər olsun, bu cür təxminlərin, demək olar ki, hamısı bugünkü məlumatlar əsasında proqnozlaşdırılır. Başqa bir ifadə ilə desək, indiki mövcud şərtlər dəyişmədən qalarsa, dünya əhalisinin yeddi milyardı keçəcəyi təxmin edilir. Bu da yenə materialist düşüncə quruluşunun hesablamalarına görə, panika yaradacaq bir mənzərə kimi qəbul edilir.

Bir qüdsi hədisdə bildirildiyinə görə, xristianların və yəhudilərin həyat qarşısındakı davranışları: etmədikləri şeyləri söyləmək,

çəkinmədikləri şeyləri başqalarına da əmr etmək və yemədikləri şeyləri yığmaqdır. Bu sonuncu davranış (yemədikləri halda toplamaq) müsəlman cəmiyyətlərin iqtisadi davranışları ilə xristian və yəhudi cəmiyyətlərin davranışlarını fərqləndirən vəsflərin başında yer alır. İstehlak təmayülü deyə ifadə edilən bu xüsusiyyət günümüzün israfa yönəlik kapitalist iqtisadiyyatının aparıcı faktoruna çevrilmişdir.

İnsanların istehlak (xərcləmə) təmayülləri təşviq edilməkdə, onların, bəlkə də, üst-üstə bir neçə ömür yaşasalar da, əsla əridə bilməyəcəkləri, işlədib bitirə bilməyəcəkləri mallara sahib olmaları üçün şərait yaradılmaqdadır. Kapitalist iqtisadiyyatın qaydalarına görə işləyən bu iqtisadi quruluş xərcləmə və istifadə etmə (israf) mexanizmini elə təbii hala gətirmişdir ki, indi belə bir cəmiyyətin mənsubu olan hər hansı bir şəxsə xərcləmələrin azaldılması məsləhət görülərsə, sizə belə bir addımın iqtisadi həyatı bütövlüklə batıra biləcəyi şəklində cavab verəcəkdir. Həqiqətən də, istehlak (israf) iqtisadiyyatları ancaq israf gedişatının davam etdirilməsi ilə ayaqda qala bilməkdədir.

Qərb mədəniyyəti deyilən və əslində xristian-yəhudi insanının indi toxunduğumuz "yemədiyi şeyləri yığmaq" ifadəsi ilə xülasə edilə biləcək davranış və arzusu hal-hazırda eyni mədəniyyətin vasitələri ilə bütün dünyada yayğınlaşdırılmağa çalışılmaqdadır.[7]

## Müsəlman demokrat ola bilərmi?

Demokratiyanın təkcə şəkildən ibarət olmadığını deyərkən onun eyni zamanda bir zehniyyət məsələsi olduğunu da qəbul etmiş oluruq.

Məhz buradakı "zehniyyət" məfhumu üzərində həssasiyyətlə dayanmaq lazımdır. Türkiyənin son 150 illik avropalılaşma səyləri eyni zamanda onun demoktarikləşmə (və lakin onu bacara bilməmək) səyləri olaraq da qiymətləndirilə bilər. Şayəd bu

7. Rasim Özdənörən, *Müslümanca Düşünme Üzerine Denemeler*, İstanbul 2008, s. 21-26.

mövzudakı müvəffəqiyyətsizliyi izah etməkdə çətinlik çəkilirsə, hadisənin zehniyyətlə əlaqəli tərəfinə nəzər salmaq lazımdır. Müvəffəqiyyətsizliyin əsas səbəbini keçmişində İslamı yaşamış olan bu ölkə insanlarının "secular" (dünyəvi) və "profane" (dini olmayan) bir zehniyyətə qarşı yad davranışlarını davam etdirmiş olmasında tapa bilərik.

Demokratiya hakimiyyətin mənbəyini xalqda (insanda) görən xüsusiyyəti ilə "profane" (dini dəyərlərindən uzaqlaşdırılmış) bir zehniyyətə sahib olmağı gərəkli bilir. Halbuki müsəlmanlar müsəlman olmağın gətirdiyi təbii nəticə olaraq hakimiyyətin mənbəyini vəhyə (ilahi qanuna) əsaslandırırlar. Bu iki fərqli zehniyyət bir-biri ilə üst-üstə düşə bilməz. Yəni bir müsəlmanın öz mahiyyətinin gərəyi olaraq eyni zamanda demokrat olması məntiqli deyil.

Bu müddəa müsəlmanın fikir və vicdan azadlığına qarşı olduğu, insan haqları və ədalət məfhumlarını tanımadığı tərzindəki yorumlara yol vermədən, düzgün anlaşılmalıdır. Burada mühüm olan xüsus hakimiyyətin mənbəyi insanda (xalq və ya millət), yoxsa vəhydə olmalıdır sualına verilən cavabdır. Demokratiya bu sualın cavabını hakimiyyətin mənbəyinin insan olduğunu deyərək verir.

İndi bu xüsusa aydınlıq gətirmək lazımdır: "secular" və "profane" bir zehniyyətlə hərəkət edərək qəbul etmək istədiyim hər qanun öz müqəddəs mahiyyətindən uzaqlaşmış və boşaldılmış olaraq hazırlanmış olacaq. Məhz müsəlmanlar üçün demokratiya məsələsinin kritik nöqtəsi burada ortaya çıxır. Belə ki, bu zehniyyətlə birlikdə mən dini hökmləri də tətbiq olunması üçün qüvvəyə mindirsəm, bu hökmlər onun vəhylə gələn dəyərindən uzaqlaşmış olacaq. Çünki onun tətbiq edilməsini münasib bilən mənəm, mənim iradəmdir. Mən o hökmü tətbiq etməyi münasib bildiyim kimi, ləğv etmək haqqını və səlahiyyətini də əlimdə saxlamaqda olduğumu ifadə edirəm. Burada hakimiyyətin mənbəyinin insan (xalq və ya millət) olması xüsusu önə çıxır.

Qərbdə kilsənin qanunları qüvvədə olmasına baxmayaraq, eyni zamanda demokratiyanın da var olmasının, lakin İslam dünyasında İslamın hökmləri ilə demokratiyanın bir yerdə ola bilməməsinin səbəbi ancaq hakimiyyətin mənbəyi məsələsinə aydınlıq gətirilərək ortaya qoyula biləcəkdir. Qərbdə qüvvədə olan qanunlar xristianlığın qanunları olsa da, bu qanunları qüvvəyə mindirən güc insanın iradəsinə həvalə edilmişdir.

Bu məsələ bəzilərinin zənn etdiyi kimi, müsəlmanın demokratik bir mühitdən istifadə etməsinin düzgün olub-olmaması və ya ondan necə istifadə edəcəyi məsələsi deyildir. Yəni müsəlmanların cavab axtardığı sual bu deyil. Cavab axtarılan sual demokratik platformda müsəlmanın iradəsinin təsirinin olub-olmayacağıdır. Bu sualın praktikadakı ifadəsi isə demokratik mübarizə nəticəsində İslama varmaq xüsusunda nəticənin nə olacağıdır.

Bu xüsusların düzgün anlaşılması lazımdır:

1. Hakimiyyətin mənbəyini insanda (millətdə) görmək istəyən zehniyyətin təklif etdiyi qanun ilahi bir qanun olsa belə, bu, onu münasib görən iradə belə qərar verdiyi üçün qəbul edilmiş olacaq. Yəni artıq onun ilahi vəsfinin əhəmiyyəti qalmır, çünki onu münasib bilən iradə bu seçimini ləğv etmək haqqını və səlahiyyətini öz əlində saxlayır.

2. Demokratik şəraitdə müsəlmanlar nəyin mübarizəsini aparmaq üçün ortaya çıxacaqlar: iqtidar mübarizəsinin? Demokratiyada əsas qayda millətin hakimiyyəti olduğuna görə, bunu qəbul edərək edilən hər cür dini tərcih də nəticədə "profane" mahiyyət daşıyacaq deməkdir. Başqa bir ifadə ilə desək, demokratik mübarizə aparmaq üçün yola çıxmış olanlar dinin hökmlərindən vaz keçməyin mümkünlüyünü qəbul etmiş, hələ yolun başından etibarən bu niyyətlə yola çıxmış qəribə müsəlmanlar olaraq ortaya çıxacaqlar.[8]

---

8. Rasim Özdenören, *Yeni Dünya Düzeninin Sefaleti*, İstanbul 1996, s. 45-48.

## İslami düşüncənin fərqi

İslami düşüncə tərzi ilə Qərb düşüncə tərzi arasındakı əsas fərqliliklərdən biri qayda (nəzəriyyə, teoriya) ilə hərəkət (əməl, praktika) arasındakı münasibətlərdə cəmlənir.

Qərb düşüncəsində qayda, ona bağlı olan hərəkətin xaricində dəyərləndirilir. Başqa bir ifadə ilə, qaydalardan ibarət olan düşüncənin həyata keçirilməsi (ya da hərəkətlə əlaqələndirilməsi) qayğısı Qərb düşüncəsində vazkeçilməz deyildir. Necə ki, bütün fəlsəfə tarixi bu xüsusun əsaslı bir nümunəsi kimi göstərilə bilər. Fəlsəfə tarixində yer alan görüşlər, bəlkə də, insan beyninin üfüqlərini göstərməsi baxımından əhəmiyyət daşıya bilər. Lakin buradakı görüşlər, ümumi olaraq, təkcə qaydalarla əlaqəlidir. Burada görüşlərin teorik dəyəri ön planda yer tutur.

İslami düşüncə tərzində, adətən, görüşlərin praktikada həyata keçirilməsi məqsədi güdülmüşdür. Gerçəkləşməsi mümkünsüz olan xüsuslarda, yəni həyata keçirilmə ehtimalı olmayan xüsuslarda fərziyyələr yaratmaqdan uzaq durulmuşdur.

İslami düşüncə tərzində həyat ilə, tətbiq etməklə, praktika ilə əlaqəsini kəsmiş olan görüşlərə rast gələ bilmərik. Bütün görüşlər o və ya bu yolla müsəlmanın gündəlik həyatı ilə əlaqəlidir.

Bir hədisi-qüdsidə xristian və yəhudilər haqqında, onların etmədikləri şeyi söylədikləri, yaxud söylədikləri şeyi etmədikləri ifadə edilərək müsəlmanların belə bir hala düşməkdən çəkinmələri tövsiyə olunur. Bu əsas prinsip müsəlmanları edə bilməyəcəkləri şeyi söyləməkdən və ya söylənən şeyin həyata keçirilə bilməyəcək mahiyyət daşımasından qorumuşdur.

Bu sözlərimiz İslam düşüncə həyatının nəzəri sahəyə qapalı olduğu mənasında anlaşılmamalıdır. Əslində bu cür görüşlər də həqiqətdə var olan bir ehtiyacın nəticəsi olaraq ortaya çıxmışdır. Necə ki, cəbr elmi müsəlmanların kəşfidir. Amma cəbr bir adamın oturub rəqəmlərlə oyun oynaması, vaxt keçirməsi səbəbi

ilə ortaya çıxmamışdır. Cəbr praktikada var olan miras bölgüsünü asanlaşdırmaq məqsədi ilə düşünülən metodların nəticəsidir. Praktikadakı zərurət teoriyanı tətikləmiş, teoriya isə yenə qayıdaraq praktikaya çevrilmişdir. Yoxsa cəbr bəzilərinin zənn etdiyi kimi zehni fantaziyaların məhsulu olaraq kəşf edilməmişdir.

İslam düşüncə tarixini gözdən keçirmədən yuxarıda söylədiyimiz sözlər bəziləri tərəfindən yenə də əskik və səhv kimi anlaşıla bilər. Belə bir zənn yarana bilər ki, dediyimiz xüsusiyyətlər səbəbi ilə İslami düşüncə həyatı qısırdır. Lakin tətbiq sahəsinə baxdığımız zaman bu sahənin həqiqətən geniş qaynaqlarla dolu olduğunu görürük.

İslami düşüncə tərzi ilə Qərb düşüncə tərzini müqayisə etmək istəyənlər bu mühüm yanaşma fərqini diqqətə almalıdır. Müsəlmanlar söylədikləri ilə hərəkətlərinin üst-üstə düşməsinə əhəmiyyət verirlər. Qərblilərin isə söylədikləri ilə hərəkətlərinin üst-üstə düşməməsinin onları narahat etmədiyini iddia edə bilərik. Bu yanaşma fərqini hər iki mədəniyyətə mənsub insanların gündəlik həyatlarında müşahidə etmək çətin deyil.[9]

## Necə oxumalıyıq?

Bir gün əlimdə xarici ölkələrdən bir yazıçının kitabını görən biri: “Necə olur ki, sən həm bu kitabları oxuyursan, həm də dinə inana bilirsən?” – deyə soruşmuşdu.

Belə bir sualı verə bilən insanın beynində, zənnimcə, kitab yalnız bir məqsədlə oxuna bilər: oxuduqlarını olduğu kimi mənimsəmək. Yəni onun düşüncəsinə görə, insan oxuduqlarını öz beynində analiz etmədən, onları süzgəcdən keçirib yenidən dəyərləndirmədən, orada yazılanlara yeni bir məna vermədən, nə deyilirsə, onu qəbul etmək üçün oxuyur. Oxumanın mənasını belə başa düşdüyü üçün də, mənim halımı, izahı mümkünsüz bir qəribəlik kimi qarşılayırdı.

9. Rasim Özdenören, *Müslümanca Düşünme Üzerine Denemeler*, İstanbul 2008, s. 77-79.

Bunu da qeyd edim ki, o şəxsin əlimdə gördüyü kitabın müəllifi dinsiz biri idi. 1960-cı ildən əvvəl bəzi məqalələri, bəzi romanları türkcəyə tərcümə edilmiş, müəyyən təbəqələrdə xeyli təsir yaratmışdı. Buna baxmayaraq, o yazıçının məni maraqlandıran bəzi yönləri var idi. İkinci Dünya müharibəsinin dağıntılarına şahid olmuş, müharibənin ağrı-acısını yaşamış olan o yazıçı bugünkü Avropa sivilizasiyası haqqında bəzi məqamlardan bəhs edirdi. Bir mənada əsərində Qərbin Qərbə baxışını əks etdirirdi. Məsələlərə baxış bucağı hər nə qədər kökündə tənqid mahiyyəti daşımasa da, hətta öz "qısır" yanaşmasının da fərqində olmasına baxmayaraq, söylədiyi şeylər yenə özlərinin dəyər ölçüləri çərçivəsində incələndiyi zaman bu gün "Qərb böhranı" deyilən məsələnin bir tərəfinə işıq tuturdu. Bundan başqa, onun: "Avropa ya yeni bir sivilizasiya seçəcək, ya da bütöv halda batmağı gözə alacaq", - deməsi məni maraqlandırırdı. Bu müəllif haqqında günümüzün mütəfəkkirlərindən biri: "Özü də bilmədən İslamı axtaranlardan biridir", - deyə diaqnoz qoymuşdu.

Mövzumuz birbaşa həmin yazıçı ilə əlaqəli olmadığı üçün adını çəkməyə ehtiyac yoxdur. O yazıçının dediyi şeylərin çoxunda da onunla həmfikir deyiləm. Məni maraqlandıran əsas xüsus Avropanın aparıcı mütəfəkkirlərinin bugünkü Avropa sivilizasiyasına necə baxdıqları idi. Belə demək doğrudursa, bu xüsusda minimal məlumat sahibi ola bilmək üçün adına Avropanın əhəmiyyət verdiyi mütəfəkkirlərin düşüncələrini öz ağızlarından dinləmək lazım idi. Çünki bu zümrəyə daxil olan mütəfəkkirlər öz ölkələrinin hazırkı vəziyyətinə qərbliləşmiş şərqlilər qədər etimad göstərmirdilər.

Düzdür, bu adamları tamamilə sxemləşmiş çərçivələrə ayıraraq oxuduğumu deyə bilmərəm, belə bir iddia da səhv olar. Lakin bu növ oxumaların fərqli bir sferada mənim sivilizasiya haqqındakı bəzi düşüncələrimin möhkəmlənməsinə, çoxalmasına kömək etdiyini deyə bilərəm.

Bütün məsələ oxuduğunuz şeyə haradan, necə yanaşmağınız xüsusunda bir şüura sahib olmağınızla əlaqəlidir. Bu yaxınlarda gənclərdən biri özünə, oxumaq üçün kitab siyahısı yazmağımı istədi. Düşündüm, ölçdüm, biçdim, bircə kitab adı belə deyə bilmədim. Mənim oxuduğum kitabların adını öyrənmək istədi. O kitablardan bir neçəsinin adını verdim, lakin o kitablardan faydalana bilib-bilməyəcəyindən əmin  olmadığımı da əlavə etdim. Həmin gənc məni necə başa düşdü, bilmirəm. Əgər oxumağın nə olduğu bilinməzsə, mənim işimə yarayan bəzi kitablar o gənci heç istənməyən yerlərə çəkə bilər. Bir də kitablardan resept kimi bəzi nəticələr çıxartmaq istəyən insanlar var ki, elələri o kitablardan heç faydalanmaya bilərlər. Roman nədir bilməyən birinə mən hansı romanı oxumasını tövsiyə edə bilərəm? Mənim oxuduğum kitabların bir qismi bəziləri üçün sapdırıcı ola bilər. Bu nöqteyi-nəzərdən hər kəs öz seçimini özü boynuna götürməlidir.[10]

## Şəxsi həyat

"Şəxsi həyat" deyimi, yəqin ki, Qərbə məxsus bir ifadədir. Bu deyim ilə insanın ictimaiyyətə açıq həyatı ilə özünə məxsus sayılan özəl həyatı arasında bir fərqləndirmə məqsədi güdülür. Bəsit bir ifadə ilə desək, insanın evinin içindəki həyatı ilə küçədəki həyatı arasında müəyyən fərqlərin olduğu qəbul edilir. Bunun qaçılmaz nəticəsi olaraq, əlbəttə, insanın ev daxilində ayrı, küçədə ayrı adam olması, evin içində başqa əxlaqa, küçədə başqa əxlaqa görə hərəkət etməsi normal qarşılanır. Bu, qərbçi anlayışın hər sahəyə yayılmış bölməli düşüncəsinin tipik görüntüsüdür.

Deyilə bilər ki, bəs yaxşı, indi "qanunlar" evimizin içinə daxil olacaq? Əgər qanunların həyatın xaricində formalaşan bəzi qaydalardan ibarət olduğunu düşünürsünüzsə, bu qaydaların evinizin içinə qədər girməsinə razı olmayacaqsınız. Dini qaydalar ilə qanunlar, həmçinin dini qaydalar ilə "elmi düşüncə" arasın-

10. Rasim Özdənörən, *Ruhun Malzemeleri*, İstanbul 2013, s. 314-316.

da fərq qoymağa başlasanız, evinizin içi ilə çölü arasında da, bu fərqlənmənin nəticəsi kimi, ayrı-ayrı davranışlar ortaya qoymalı olarsınız. Kilsədə dindar, laboratoriyada elm adamı, evində "ailə başçısı" olan şəxs toplumun onun üçün müəyyənləşdirdiyi bu statuslar miqdarında kimliklərə bölünəcəkdir. Beləliklə, bir insanın vətəndaş olaraq təkcə bir üzü deyil, bir çox üzləri meydana çıxacaq. Sonra təsnifat qabiliyyətinizlə bu bir çox sifəti iki qrupa ayıracaqsınız və birinə "ictimai", digərinə "şəxsi" həyat damğası vuraraq rahatlaşacaqsınız. Qanunları evinizin içinə qoymayacaqsınız. Tanrının nəzarəti sizdən uzaqda, kilsənin dörd divarı arasında qalmışdır; sizə çata bilməz. Rahatsınız. Əxlaq isə... Onsuz da, əxlaq fərdlərin bir-biri ilə aralarındakı münasibətləri müəyyən bir qaydaya salmağa xidmət göstərdiyinə görə, evimin içində, öz otağımda mənim nə etdiyimə kim qarışa bilər ki?! Russelin hamamda örtünən rahibənin hərəkətinə bir məna verə bilməməsini burada bir daha yada salmaq lazımdır.

Deyirəm ki, Qərb insanı şəxsi həyatı ilə ictimai mühitə aid həyatı arasında belə bir ayırma etdiyinə görə, "əxlaq"dan məhrumdur. O, həqiqətdə, əxlaqsızlığı qayda halına gətirmişdir, ya da, daha doğrusu, əxlaqsızlığı qaydalara bağlamışdır. Əxlaqsızlıq qayda halına qəldikdən sonra, yəni hər kəsin qəbul etdiyi obyektiv bir kimliyə qovuşduqdan sonra davranışlardakı nöqsanlıqlar da məşru hala gələcəkdir. Buna görə kim kimi günahlandıra bilər? Çünki artıq bu yerdə əxlaqsızlığa riayət etmək də "əxlaq" halına gəlmişdir. Bu nöqtədə dövlət də cəmiyyət içində yaşayan həmin qaydalara uyğun qanunlar çıxardacaqdır.

M. Duvergerə görə, Qərb demokratiyaları idarəçilərin özlərini şəxsi həyat barəsində məhdudlaşdırması nəticəsində ortaya çıxmışdır. Yəni idarə edənlər şəxsi həyatlarının böyük bir qismini dövlət nəzarətinin xaricində tutduqları, bu yöndən özlərini məhdudlaşdırdıqları üçün demokratik həyat başlamışdır. Bu fikrin sahibinə belə bir sual verilə bilər: Dövlət və ya idarə edənlər belə bir məhdudlaşdırmaya getməyə bilərdimi? Şəxsi həyata müdaxilə

etmək istəsəydi, bunu bacara bilərdimi? Sistem, əslində, özü özünü meydana gətirmişdir.

Şəxsi həyata müdaxilə edən sistemlərə Qərb terminologiyasında "totalitar rejimlər" deyilir. Görəsən, totalitar rejim və ya diktatorluq olmadan bir siyasi rejimin şəxsi həyata, lazım olduğu ölçüdə, müdaxilə etməsi mümkündürmü? Bu sualı İslami qaydalar çərçivəsində düşünmək faydalı olar.[11]

## İslam və ənənəvilik

Müsəlman Qərb mənasında ənənəçi deyil. Onun ənənəçiliyini Qərb ölçüləri ilə dəyərləndirə bilmərik. Qərb təfəkküründə ənənəçilik sosioloji olaraq mövcud olan dəyərlərin qorunması, müdafiə edilməsi mənasını daşıyır. Başqa bir ifadə ilə, Qərbdə ənənəvilik var olan statusu qorumaq şəklində başa düşülür. Bunun altında öz rahatını pozmamaq instinkti var. Şəxs, mövcud olan şərtlər dəyişərsə, yeni vərdişlər əldə etmək məcburiyyətində qalacaq. Qərbdəki ənənəçilər məhz bunu gözə almadıqları üçün ənənəçi olurlar. Qərb təfəkküründə bəzən elə bu səbəbdən də ənənəçiliyi qınayanlar olur. Çünki bu mənada ənənəçilik daim yeni həmlələrin qarşısını kəsmiş, bir baxıma "irəliləməyə" mane olan bir zehniyyətin simvoluna çevrilmişdir.

İslamda isə bu mənada ənənəviliyə yer yoxdur. Müsəlman bidət halına gəlmiş ənənələrin mühafizəçisi ola bilməz. Bu mənada ənənəçi deyildir. Onun məqsədi mövcud statusu qorumaq deyildir, tam əksinə, bu statusu dəyişdirməyə səy göstərir. Qərbin "statuco"çu məntiqinə qarşı, İslamda "statusquoante" düşüncəsi var. Yəni Qərb ənənəçiliyində ən son gəlinən nöqtəni mühafizə etmək, saxlamaq üçün səy göstərilir, amma müsəlmanların tək hədəfi ancaq və ancaq Əsri-səadət, yəni yaşamaq üçün ən ideal səviyyəyə çatmaqdır. Bunun xaricində yer alan statik vəziyyəti qoruyub saxlamağa çalışmaz. Bütün bu bənzərliklərə baxmayaraq, yenə də İslam düşüncəsini Qərbin mühafizəkarlığı ilə qarış-

11. Rasim Özdənörən, *Yumurtayı Hangi Ucundan Kırmalı*, İstanbul 1999, s. 60-62.

dırmamaq lazımdır. Əsri-səadəti istəmək, ona maraq salmaq, o dövrün müsəlmanları kimi yaşamağı arzulamaq əslində ruhi bir iştiyaq tələb edir. Bu, dinamik bir duyğudur. Buna görə də Qərb mənasında mühafizəkar olmaq bəsit bir həssasiyyətin ifadəsidir, İslamdakı Əsri-səadəti yenidən yaşamaq arzusu isə dinamik bir prosesdir. Bu həssasiyyəti Qərb burjuaziyasının əsəbiyyət bağlılığı ilə qarışdırmamaq lazımdır.

Qərbdə ənənəvilik sadə bir psixologiyadan qaynaqlanır. Bu, mövcud olan sistemin dəyişməsi səbəbi ilə rahatının pozulacağını fikirləşən, yeni vərdişlərə sahib olmağa "xeyr" deyən insanın psixologiyasıdır. Buna görə də gözüyaşlıdır. Gözüyaşlı olmaq isə bu cür mühafizəkarları tarix boyunca məğlubiyyətdən xilas etməmişdir. Bu ənənəçilər bir növ mövcud xatirələrinin əllərindən alınacağından qorxurlar. Halbuki müsəlman üçün mövcud olan həyat tərzi, bəzi hallarda, müsəlman kimi yaşamağı təmin etmədiyi üçün, bir çox hallarda isə tam əksinə, İslamın ziddinə bir həyat tərzini diqtə etdiyi üçün müsəlmanlar tərəfindən xoş qarşılanmır. Müsəlman bu etirazında qərbli mühafizəkar kimi miskin bir "xatirə zövqü" naminə bunu etmir. Əksinə, həyatına yerləşmiş olan miskin bidətləri uzaqlaşdırmaq üçün mübarizə aparmağa başlayar. Çünki əgər bir xatirə ona miskin bir zövq yaşadırsa, o zövqdən xilas olmaq üçün mücadilə aparmaq lazımdır.

Bu mənada müsəlman üçün mədəniyyət də ənənə olaraq deyil, müsəlman həyatının minimum ehtiyaclarını təmin edən yaşama tərzi olaraq formalaşır. Müsəlman öz mədəniyyətinə mücərrəd olaraq ondan xoşlandığı, ondan zövq aldığı üçün deyil, öz həyatını ancaq bu mədəniyyətlə yaşaya biləcəyi üçün bağlanır. Buna görə də qərbli burjuanın dəyər anlayışı, mədəniyyətə baxış tərzi müsəlmanın mədəniyyətə baxışından fərqlidir. Qərbli hər nə bahasına olursa olsun, öz mədəniyyətinin qorunub saxlanmasını istəyir. Müsəlman isə hər nə bahasına olursa deyil, lazım olduğu ölçüdə keçmiş mədəniyyətinə sahib çıxar, lazım olduğu təqdirdə isə keçmişini rədd etməkdə tərəddüd göstərməz. Çünki onun

əsl məqsədi keçmişdəki parlaq günlərinə arxayın olmaq deyil, müsəlmana yaraşan şəkildə həyatını davam etdirməkdir. Belə bir həyatı davam etdirməyə xidmət edən mədəniyyət məqbuldur, yoxsa ki, onun üçün mühüm olan məsələ atalarının bu mədəniyyəti yaşamış olması deyil. Ataları yaşamış olsa da, müsəlman o yaşayışın səhv olduğunu öyrənərsə, o mədəniyyəti rədd etməkdən çəkinməz. Çünki onun yeganə qayəsi boynuna götürdüyü əmanətin şüuruna uyğun yaşamaqdır.[12]

## Xarici terminlərlə İslama baxış

İslami normalara uyğun düşünə bilməmək zənn ediləndən daha dərin və yayğın bir gerçəkdir. Bunun əlamətlərini görmək üçün çox uzağa getməyə, dərin tədqiqatlar aparmağa ehtiyac yoxdur. Ağızdan çıxan bir söz, bəzən istəmədən çıxmış olsa belə, diqqətli bir dinləyici üçün bu xüsusda ipucu verə bilər.

Gün keçdikcə dilimizə yerləşməkdə olan “din adamı” sözü artıq, demək olar ki, hər kəs tərəfindən qəribsənmədən işlədilə bilməkdədir. Müsəlmanlar tərəfindən belə bir söz birləşməsinin artıq bir qəribəlik hiss etmədən işlədilməsi, göründüyündən və zənn edildiyindən daha mühüm bir mənanın ifadəsidir. Bu sözlər müsəlmanların fərqində olmadan başqa bir mədəniyyətin dili ilə danışmağa başladığının, öz terminlərini başqa mədəniyyətin terminləri ilə əvəzləməyə başladığının göstəricisidir.

Din kəlməsi daha fərqli sifətlər verilərək də işlədilməkdədir. Məsələn “dini ibadətlərimiz” və ya “dini günlər” və s. ifadələrə rast gəlirik. İlk baxışda səhv olduğu düşünülməyəcək qədər örtülü olan bu ifadələrin altında da dini dünya işlərindən və ya dünyadan ayrı görən bir düşüncənin yatdığı bilinməlidir.

Müsəlmanlığını olduqca səmimi bir şəkildə yaşamağa səy göstərən kimsələrdə belə, İslamı kapitalizmlə və ya sosializmlə birgə düşünmək meyllərinin epidemiya kimi yayıldığı bu zaman-

12. Rasim Özdənörən, *Müslümanca Düşünme Üzerine Denemeler*, İstanbul 2008, s. 157-159.

da onu "izm"lərdən biri ilə tərkib hissə kimi düşünmək, demək olar ki, moda halına gəlmişdir. Belə bir halda İslamı sadəcə və sadəcə öz mənası içində düşünərək ona təslim olmaq təmayülünə mühüm bir hadisə kimi əhəmiyyət verilməlidir.

Bir müsahibəsində Garaudy belə deyir: "Qərb renessansı müsəlmanlardan təkcə təcrübi metod əsasında texnikasını mənimsədi. Onun Allaha aparan və insanlığa xidməti əsas götürən yönünü isə bir kənara qoydu".

Çox sadə görünən bu cümlə öz sadəliyi içində Qərb təfəkkür tərzi ilə İslami təfəkkür tərzi arasındakı mühüm fərqliliyə işarə edir.

Bəhs etdiyimiz bu niyyət fərqliliyi o qədər mühümdür ki, bu fərqi qavramadıqca İslamın, Qərbin və Şərqin meydana gətirdiyi mədəniyyətlər arasındakı fərqliliklərin layiqli şəkildə dəyərləndirilə biləcəyinə ehtimal vermirəm. İslamın təməl mesajlarından biri olan kainatın yaradılmış (məxluq) olması xüsusiyyəti müsəlman alimlərin onunla məxluq kimi (başqa bir yönü ilə əmanət kimi) rəftar etmələrinə yol açarkən və bu anlayış öz istiqamətində bir elm və təfəkkür tərzini ortaya çıxardarkən; kainatın (və dolayısilə təbiətin) məxluq olduğu inancından məhrum olan düşüncə isə eyni təbiətə qarşı, müasir müsəlman mütəfəkkirlərindən S.H.Nasrın da dediyi kimi, məsuliyyətsiz şəkildə davranmalarına yol açmaqdadır. Buna görə də Qərb texnologiyası hələ də əlində dünyanı bir neçə dəfə məhv edə biləcək nüvə gücünü saxlamaqdadır.

İslamın elm anlayışı ilə Qərbin elm anlayışındakı fərqlilik, beləliklə, sırf mücərrəd və nəzəri, spekulyativ dəyər ifadə etmir. Daha da mühüm olanı isə bu anlayış fərqinin praktikadakı nəticələridir.[13]

13. *e.a.ə.*,s. 64-68.

## Reform və yeniləmə

İslami mənada təcdid (yeniləmə) məfhumu ilə Qərb dünyasında işlədilən reform məfhumu bir-birindən fərqlidir. Bu iki məfhum arasındakı fərqin gözdən qaçırılması əksər hallarda içindən çıxılmayan qarışıqlıqlara, səhv anlaşılmalara yol açmaqdıdır.

Qərb təhsil sistemindən keçmiş və Qərbə aid məfhumlarla düşünməyə başlamış kimsələrin İslamiyyəti də bu məfhumlar daxilində dəyərləndirməyə çalışmaları halında ortaya çox ağır bir "məfhum qarışıqlığı" çıxmaqda, zehinləri bulandırmaqdadır. Xüsusilə də bir-birinə çox yaxın məna daşıyan məfhumlar sahəsində vəziyyət daha da acınacaqlı hala gəlməkdədir.

"Renew" (yeniləmə, təcdid) məfhumu ilə "reform" (islah, yaxşılaşdırma və bu mənada təmir, yenilik) məfhumları arasındakı bənzərlik səbəbi ilə, İslamiyyət ilə xristianlıq arasındakı fərqlər nəzərə alınmadan istifadə olunduğu hallarda, bu məfhumların sahəsi və möhtəvası bir-birinə qarışdırılmaqda, məqsədin nə olduğu qeyri-müəyyənləşməkdədir.

Xristianlıqda istifadə olunan mənası ilə reform dinin islahı, yenilənməsi, yaxşılaşdırılması məqsədinə xidmət edən fəaliyyətləri ifadə edir. Burada dinin meydana çıxan yeni şərtlərə görə yenidən şəkilləndirilməsi, hətta lazım gələrsə, bəzi hökmlərinin dəyişdirilməsi, beləliklə, onun yeni şərtlərə uyğunlaşdırılmasının təmin edilməsi əsas məqsəddir. Məsələn, iqtisadi sistemdəki kapitalist inkişaf faiz mexanizmini fəaliyyətə keçiribsə, xristianlıqdakı faiz qadağasına rəğmən, dinin bu xüsusdakı qəti əmrini dəyişdirmək üçün aparılan fəaliyyətlər reform sayılır. Burada dinin hökmlərinin yeni iqtisadi və ictimai şərtlərə uğunlaşdırılması məqsədi ilə dəyişdirilməsindən bəhs edirik. Bu mənada dinin yenilənməsi və ya islahı, əslində, yeni bir din meydana gətirməkdən başqa bir şey deyil. Reforma məruz qalan din artıq əvvəlki, orijinal din olmaqdan uzaqlaşmış, onun yerinə "mevzu" (insan tərəfindən uydurulmuş) din gətirilmiş olur.

İslami mənadakı təcdid (yeniləmə) məfhumunun indi bəhs etdiyimiz xristianlıqdakı mənada reformla əlaqəsi yoxdur. İslami mənadakı yeniləmə məfhumu İslamın əslindən sapdırılaraq səhv başa düşülməsinin və yanlış məna verilməsinin qarşısını alaraq onun əslinə uyğun şəkildə necə başa düşülməli olduğunu ifadə edən bir fəaliyyətdir. Yəni xristian reform anlayışında olduğu kimi, meydana çıxan yeni ictimai və iqtisadi şərtlərə görə dinin dəyişdirilməsi fəaliyyəti İslami mənadakı yeniləmə məfhumunun xaricindədir və bu mənada yeniləmə reforma qarşıdır. Reformda dinin özünə düzəliş edilir, amma yeniləmədə din haqqındakı yanlış mülahizələrə düzəliş edilir.

Aradakı bu mühüm fərq diqqətdən kənarda qalarsa, yeniləyənlər (mücəddidlər) ilə reformçular arasındakı yanaşma fərqinin qavranması da mümkün olmaz.

Son yüz, yüz əlli il ərzində Qərbin təsirindəki "müsəlman mütəfəkkirlər"in davranış tərzi yeniləyici olmaqdan daha çox reformçu olmuşdur. Bu təmayüldə sosiologiyanın təsirini görmək mümkündür. Çünki sosiologiya mədəniyyətlə bağlı dəyişikliklər barəsində insanın dəyişən mədəniyyətə ayaq uydurmasını tövsiyə edir. Sosiologiya nəzərində dinə də hər hansı sosial təşəkkül kimi baxılır. Dolayısilə laik və profan (dindən kənar) Qərb düşüncəsi ilə baxıldığı zaman reform hərəkəti təbii görünür. Yəni insanın dinin hökmlərinə görə özünü dəyişdirməsi deyil, dinin hökmlərini "özünə görə" dəyişdirməsi ön plana çıxır.

Halbuki İslamda müsəlmanlar dinin hökmlərinə görə yaşayaraq özlərini dəyişdirirlər. Başqa bir ifadə ilə desək, yenilənən insandır, din deyil.[14]

---

14. Rasim Özdənörən, *Kafa Karıştıran Kelimeler*, İstanbul 1988, s. 120-122.

# İSMƏT ÖZƏL

İsmət Özəl 1944-cü ildə Kayseridə dünyaya gəldi. Kastamonu Abdulhakhamit ibtidai məktəbini (1955), Çankırıda orta təhsilini və Ankara Qazi liseyində tam orta təhsilini bitirdi (1962). Siyasal Bilgilər fakültəsinə daxil olsa da, oradan məzun olmadan ayrıldı. Sonra Hacəttəpə Universitetinin Fransız dili və ədəbiyyatı bölməsinə daxil oldu və buradan məzun oldu (1977).

"Türkiyə mühəndislik xəbərləri" jurnalında (1970-1972) və Ticarət Nazirliyində (1976-1977) işlədi. "Yeni dövr" və "Milli qəzet"də yazarlıq etdi. 1980-ci ildən etibarən Mimar Sinan Universiteti Dövlət Konservatoriyasında fransızca müəllimliyi etdi. Hazırda fəaliyyətinə qurucusu olduğu İstiqlal Marşı dərnəyində davam etməkdədir.

İsmət Özəl ilk şeirini 1963-cü ildə nəşr etdirdi. Bunun arxasınca digər şeirləri və şeir kitabları gəldi. 1970-ci ildə Ataol Bəhramoğlu ilə birlikdə "inqilabçı sənət"i müdafiə edən "Xalqın dostları" jurnalını dərc etdi. 12 mart 1971 hərbi çevrilişindən sonra sosialist dünya görüşünü və fikirlərini yenidən gözdən keçirdi. Daha əvvəldən müsəlman olsa da, "Diriliş" jurnalında nəşr olunan "Aməntu" şeiri ilə müsəlmanlığını açıqca ifadə etmiş oldu (1974).

"Düşüncə" jurnalında nəşr olunan "Teknik üzərinə", "Bir mədəniyyət qurmaq" və "Ziyandakı insanın yabancılaşma vəhmi" başlıqlı yazıları onu, xüsusilə müsəlmanlar arasında, şairliyindən daha çox fikir adamı kimi tanıtdı. Həqiqətən də, bu məqalələrdə

və qəzetlərdə çıxan gündəlik yazılarında müsəlmanların, mühafizəkar insanların və türk mədəniyyətinin adət etmədiyi fikirləri müdafiə etməkdə, müzakirəyə açmaqda idi. Daha sonra birbaşa şeir dili ilə yazdığı mətnlər də eyni təsiri oyandırdı.

Əsərlərindən bəziləri bunlardır:

Şeir: "Gecəleyin bir koşu" (1966), "Evet üsyan" (1969), "Cinayətlər kitabı" (1975), "Şeirlər" (1980), "Cəlladıma gülümsəyərkən çəkdirdiyim son rəsmin arxasındakı sətirlər" (1984), "Ərbəin" (1987).

Esse: "Üç məsələ" (1978), "Zor zamanda konuşmak - Çətin dövrdə danışmaq" (1984), "Daşları yemək yasaqdır" (1985), "Baxanlar və görənlər" (1985), "Faydasız yazılar" (1986), "İrtica əldən gedir" (1986), "Surat asmak hakkımız – Qaşqabaq tökmək haqqımızdır" (1987), "Təhdid deyil, təklif" (1987).[1]

### İnsan yetişdirmək

Olduqca çirkin, görkəmsiz bir adamın gecənin yarısı oğlu dünyaya gəlir. Adam böyük bir iztirab, narahatlıq və təşviş içində fənəri yandırır və tez oğlunun üzünə baxmaq istəyir. Görəsən, oğlu kimə bənzəyir? Özünə, yoxsa başqasına?

Onu çıxılmaz vəziyyətə salan məsələ məhz çirkin olmasıdır. Əgər gözəl bir oğlunun olmasını istəyirsə, özünə bənzəməməlidir. Yox əgər özünə bənzəyən bir oğul gözləyirsə, onun çirkin olacağına şübhə yoxdur. Hər ata öz nəslinin gələcəyini oğlunda görür, görmək istəyir. Bu duyğunun məntiqli bir açıqlaması yoxdur, nəslin davam etməsi dediyimiz qeyri-iradi, sövq-təbii bir təmayülün sirlərindən biridir. Amma insanda öz əskiklərindən qaçmaq, öz çirkin və pis yönlərindən qurtulmaq duyğusu da var. Bu iki zidd fikir hər nəslin doğuşunda təkrar-təkrar vacib bir məsələ kimi gündəmə gələcəkdir.

1. İsmail Kara, *Türkiyede İslamcılık Düşüncesi 3*, İstanbul 1998, s. 597-598.

Sultan II Mahmud böyük oğlu Abdulməcidi Qərb təhsil sistemində yetişdirdi. Abdulməcid operadan xoşlanır, qərbli iş intizamını sevir və insan münasibətlərində qərblilərə qarşı təmayül göstərirdi. İkinci Mahmudun digər oğlu Abdulaziz isə Səmərqəndli xocaların öhdəsinə verilmişdi. Onun təhsili də, zövqləri də şərq atmosferi içində şəkillənmişdi. Ata minməyi, güləşməyi sevir, qərb tərzində insan münasibətlərindən uzaq dayanırdı. Sultan Mahmuda görə, dövləti bu iki yoldan biri ilə xilas edə bilərdi. O, bir baxıma, uşaqlarına verdiyi təhsil ilə öz qərarsızlığını dilə gətirmiş olurdu.

Aradan bir əsrdən çox zaman keçməsinə və müəyyən istiqamətdə dərin və köklü dəyişilmələr yaşanmasına baxmayaraq türk cəmiyyəti hələ də başlanğıcdakı qərarsızlığını aşa bilmiş, iki yoldan birində tam olaraq qərar tuta bilmiş deyil. Bu cəmiyyətin insanı olan bizlər özümüzə aid olan xüsusiyyətlərdən vaz keçə bilmirik və bunu etməmiz mümkün də deyil. Çünki “biz”ə aid olanı yox etsək, özümüz də ortadan qalxarıq. Digər yandan, “başqa” olan bir şeyi təmin edə bilməsək, müvəffəqiyyətdən kənarda qalacağımızı düşünürük. Eynilə gecə yarısı oğlu doğulan çirkin adam kimiyik. Fənəri yandırıb oğlumuzun üzünə hər dəfə baxdığımız zaman narahatlıq, iztirab və qorxu içində qalırıq. Bu uşaq bizimdirsə çirkindir, gözəldirsə artıq bizdən başqasıdır.

Türkiyə öz-özünü qiymətləndirərkən hansı meyarlardan istifadə edir? Onun gözəl və ya çirkin olması özündən doğan, təbii kimliyindən qaynaqlanan göstəriciləri ilə təsbit edilib? Yoxsa özündən başqalarının qoyduğu ölçülərə əsaslanaraq gözəl və ya çirkin sayılır? Qərbliləşmə prosesinə girdiyimiz vaxtdan bu yana bu cəmiyyətin insanları olan bizlər öz həyatımıza ümumdünya burjuaziya mədəniyyətinin dəyərləri ilə baxmağa başladıq. Özümüzü bu dəyər ölçülərinə əsasən “çirkin” saydıq. Yetişdirdiyimiz hər nəsil bizim olduğu nisbətdə çirkin, gözəl olduğu nisbətdə də avropalı oldu.

Deməli, bizi çirkin sayan meyarları dəyişdirə bilsək, həm öz uşağımızın bizim olan yönlərini narahatlıq keçirmədən mənimsəyər, həm də ondan bizim xaricimizdəkilər tərəfindən dəyərli sayılan bir gözəllik gözləmərik. Yəni özümüzün olanla gözəl olan birləşmiş olar.

Bununla birlikdə, "insan yetişdirmək" ifadəsinin bünyəsində bir ziddiyyət mövcuddur. Çünki insanın insan tərəfindən yetişdirilməsi bitkilərin və ya heyvanların baxımından fərqli bir şeydir. Əgər yeni bir nəslin müəyyən xüsusiyyətlərlə təchiz olunmuş halda yetişməsini, kamilləşməsini istəyiriksə, o nəslin təhsili ilə məşğul olanların da eyni xüsusiyyətlərə malik olması şərtdir. Bu olmazsa, bütün səylər təkcə müəyyən həvəslərin, arzuların və gözləntilərin aşılanmasından ibarət qalacaq ki, belə halda uşaqların "gecə yarısı" dünyaya gələcəyindən şübhə etməmək lazımdır. Hər dəfə fənəri üzlərinə tutub baxdığımız zaman nəticə bizi məyus edəcəkdir.

Dünya toplumları arasında mühüm bir yer tutma iddiasında olan ölkələrdə hər zaman "atalar və oğullar" məsələsi aktual qalacaqdır. Çünki bu toplumlarda hər zaman təyin ediləcək yeni hədəflər, gənc nəsillər üzərində sınaqdan keçiriləcək metodlar olacaqdır. Atalar çirkinliklərindən heç vaz keçməyəcək, uşaqlar həmişə gecə yarısı dünyaya gələcək, onların üzünə həmişə fənər tutulacaq, bu görünüşdən duyulan narahatlıq hər zaman var olacaqdır. Bu belə davam edəcək, atalar çirkin olduqlarını düşünməkdən əl çəkənə qədər.[2]

## Nəyi axtarmalıyıq?

*"Niyə beşikdən çıxıb məzara getdiyimizi bilsəydik*, - Moris Meterlink deyir, - *bu yol boyunca eynilə məktəbdən buraxılan uşaqlar kimi mahnı oxuya-oxuya gedərdik"*.

---

2. İsmət Özəl, *Zor Zamanda Konuşmak*, İstanbul 2011, s. 196-198.

Bir müsəlman kimi bizi vaxtaşırı narahat edən, tərlədən, əsəbiləşdirən və hövsələdən çıxardan xüsus, özümüzün haqlılığımızı, inancımızın doğru olduğunu isbat etmək, tutduğumuz yolun başqalarını da çağırmaq üçün necə də dəyərli olduğunu göstərmək təlaşıdır. Bu təlaş bəzi həqiqətləri öz-özümüzə qəbul etdirməyə yönəldiyimizin əlamətidir. Sağlam bir düşüncə içində olmaqdan uzaqlaşmamaq üçün səy göstəririk. Əgər belə olmasaydı, yəni öz haqlılığımızda şübhəsiz bir əminlik sahibi olsaydıq, inancımızın düzgünlüyü həyatımızla üst-üstə düşsəydi, davranışlarımızda diqqət çəkmək üçün səy göstərdiyimiz heç bir əlavə hərəkətə ehtiyac qalmayacaqdı. Rəqiblərimizin qarşısında əsəbiləşməyəcək, dava-dalaş bənzəri hərəkətləri davranış tərzimizdən kənarda tutacaqdıq. İnsan tutduğu yolu başqasına sevdirməyə çalışarkən bir az da öz doğruluğunu konkret nümunələrlə yaşamaq istəməkdədir.

Bunu da deyim ki, saydığım davranış tərzləri heç də qınanmalı hərəkətlər deyil. Çünki dünyaya gəlməklə birlikdə bir bilməcənin içinə düşmüş vəziyyətdəyik. Müsəlman olduğumuz zaman isə bu bilməcənin hansı yol ilə gedərək həllinin tapılacağına dair bir işarə əldə etmiş oluruq. Buna görə də narahat olmaq, dərdli görünmək heç də heyrət ediləcək, qınanacaq bir şey deyil.

Yaradılmış olmaq insanın təməl bilməcəsidir. Bu bilməcənin fərqində olduqdan sonra Yaradıcı ilə insan arasındakı asılılıq əlaqələrinin məsələləri başlayır. Bunların hər biri başlı-başına bir insan ömrünü əhatə etməyə yetər.

Niyə beşikdən məzara getdiyimizi bilmək *"iki qapılı karvansarada"* öz mənamızı dərk etmək deməkdir ki, bu mənanı hansı səviyyədə dərk ediriksə edək, fərd olaraq güvənlik içində olmağımıza yetər. Bizi qeyri-müsəlmanlara qarşı qatı, qapalı hala gətirən duyğu özümüzü yaradılmış olmanın bilməcəsi içində qapalı qalmış kimi saymaqdan qaynaqlanır. Şübhəsiz ki, bu bilməcənin yollarını axtarmalıyıq. Hətta özümüzü bu bilməcənin içində qapalı qalmış kimi düşünmək belə həll yolunda mühüm bir məsafə

qət etmək deməkdir. Hələ özüm yaradılış bilməcəsinin içində qapalı halda ikən başqasının bu bilməcənin varlığından xəbərsiz olmasına necə qəzəblənə bilərəm?

Müsəlman olmaq, yən Haqqa təslimiyyət mənə yaradılmış olma bilməcəsinin əvvəla həll edilə biləcəyini, sonra da həlli yolunun Quran və Sünnə yolundan keçdiyini öyrədir. Bu nöqtədə heç bir şübhəm yoxdursa, bilməcənin həllində başqa bir əlavə vasitəyə əl atma arzusu daşımıramsa, bu yolun məni sağ-salamat etibarlı iman bölgəsinə aparacağına inanıramsa, bundan belə başqalarına qarşı nigarançılıq içində olmaqdan, müsəlman olmayanlar arasındakı düşüncə dalğalanmalarından, öz davranışlarımda necə də haqlı olduğumu başqasına isbat etmə təlaşından arınmış olaram. Çünki niyə getdiyimdən əminəm və bu əminlik mənim qədər başqalarına da özlərini əmin hiss etdirməyə başlayar. Mənim güvənsizliyim mənim dairəmə girən hər kəsi güvənsizliyə itəcəkdir. Bunun əksi olduğu təqdirdə, yəni mən özümü güvənli hiss etdiyim zaman başqaları da bu güvənlik sahəsini tanıma və hiss etmə imkanına sahib olacaqdır.

Axtarmalı olduğumuz şey başqalarını inandırmağın yolları deyil, özümüzün inandırıcı olmasıdır. Əgər müsəlman niyə beşikdən məzara getdiyini bilərsə, bu biliyini bər-bəzək vuraraq başqası üçün cəlbedici hala gətirməsinə ehtiyac qalmaz. Çünki bu mövzudakı rahat və əmin davranışları başqaları üçün cazibə mənbəyi olacaqdır. O zaman bir növ azadlıq yaşayacağımızı və bu azad halımızın başqalarını da cəzb edəcəyini düşünə bilərik. Yəni beşikdən məzara gedən yolda öz-özümüzə təmin etdiyimiz güvən, başqalarına da təqdim edə biləcəyimiz güvənin mənbəyidir. Dövrümüzün təbliğat, beyin yuma və şərtləndirmə metodları insanın özünün inanmadığı şeylərə başqalarını inandırmağın yollarıdır. Müsəlmanların *"razısalma metodu"* axtarmaları özlərini, öz etiqadlarını adi bir doktrina səviyyəsinə alçaltmaları deməkdir

ki, bu, İslama məxsus olan bilikdən uzaqlaşdıqlarının dəlili ola bilər.[3]

## Elmdən büt olarmı?

XX əsrin dövlət adamlarını, iqtisadiyyatı, texnologiyanı ilahlaşdırdığını qəbul etmək çətin deyil. Cahiliyyə dövründə xurmadan belə büt düzəldildiyini düşünəndə bunu heç də heyrətlə qarşılamırıq. Çünki bilirik ki, iki yüz il boyunca dünyanın çöhrəsi çox dəyişdi, ortaya çıxan yeni həyat tərzlərinin yeni azğınlıqlara da yol açmasını başa düşürük. Amma söhbət elmdən gedirsə, insanlıq tarixi qədər qədim, Çində də olsa axtarmalı olduğumuz, beşikdən məzara qədər öyrənməli olduğumuz elm, o da insanın bütlərindən biri olub haqqa və həqiqətə tərs olan bir yön göstərə bilərmi? Elm İslami cəmiyyətdə bu qədər rəğbət və hörmətlə qarşılanan insani bir fəaliyyət ikən, son inkişafını Qərb cəmiyyətinin arasında gerçəkləşdirdiyi üçün insanın zərərinə bir fəaliyyət sahəsi halına gələ bilərmi? Hər cür biliyi elm sahəsi içinə daxil edə bilərikmi? Neçə cür elm var? Hansına bel bağlayıb, hansından uzaq durmalıyıq? Əgər elm insanların xeyrinə xidmət edəcək bilik mənbəyidirsə, qurucu vəsfini davam etdirir, yoxsa yıxıb-dağıdır?

Elm və büt kəlmələrini ard-arda dediyimiz zaman ilk əvvəl bunun fərqində olmalıyıq: XX əsrin bütpərəstliyini meydana çıxardıb bəsləyən qüvvə sadəcə insanların bütpərəstliyə olan meyilləridir. Bütpərəstlik öz gücünü bütlərdən deyil, bütə aid edilən üstünlükdən alır. Xristian cəmiyyətin bütpərəstliyə qarşı əsaslı bir mübarizə aparmamış olması, onu ancaq görünüşdə ortadan qaldırmış olması kilsənin zəiflədiyi ilk andan etibarən bütpərəstliyin ateizm qılıfına bürünərək üzə çıxmasının başlıca səbəblərindəndir. Kilsə xristianlığı Avropa torpaqlarına hakim etmək üçün Romanın bütün ilah və ilahələrinin məbəd və ziyarətgahlarını mühafizə etmiş və təkcə onları xristian keşiş və rahibələrin istifadəsinə vermişdir. Dolayısilə Avropada ortaya çıxan makinalı mədəniy-

3. *e.a.ə.*, s. 55-57.

yətin xristianlığa bağlılığı zəifləyən kimi bütpərəst köklərinə geri qayıtmışdır.

Kilsənin ilk başda elmə qarşı mənfi münasibət içində olduğunu bilməyən yoxdur. Qərb mədəniyyətinin XVI əsrdən bu yana kilsə ilə elm adamları arasında böyük bir mübarizə yaşadığı bir gerçəkdir. Avropa zaman-zaman kilsənin batili, küfrün isə gerçəyi (həqiqəti yox) təmsil etdiyi qəribə hadisələrə səhnə olmuşdur. Kilsənin biliyə və elmə qarşı təşkilatlı şəkildə müqavimət göstərməsi elm adamlarının da ona qarşı təşkilatlı şəkildə müqavimətini meydana gətirmişdir. Necə ki, XVIII əsrdə ensiklopedistlər qrup halında, elmi müdafiə adı altında xristianlığa qarşı düşməncə fəaliyyət aparmışdılar. Uzum müddət sonra elmə etiraz etməyən kilsənin ortaya çıxdığını və dinsizliyin filosof rahiblərə malik olduğunu deyə bilərik.

Beləliklə, dinin yerini elmin tuta biləcəyi qorxusu məhz Qərbdə yaşanan bu təzadlı hadisələrin nəticəsi idi. Halbuki elm quruluşu və işləməsi etibarilə dinin qarşısına qoyula bilməzdi. Çünki dinə zidd bir fəaliyyət icra etsə belə, elm əşya ilə əşyanın münasibətlərini incələyərkən yaxşı və pisi ayıracaq, gözəl ilə çirkini təyin edəcək, xeyir və şər haqqında hökm verəcək bir quruluşa malik deyildi. Bu gün ağlı başında olan hər kəs bilir ki, elm və din bir-birinə ziddiyyət təşkil etmir. Elmin özü üçün müəyyən etdiyi sahə, aşağı-yuxarı elə İslamın ona münasib bildiyi sahədir.

Bütün yeniliklərə baxmayaraq, bu gün elmin hər şeyi açıqlaya biləcəyinə inanan insanların sayı heç də az deyil. Bu zənn elmi büt halına gətirməklə qalmır, bir çox inanc sahibi elm adamını da keçmişdə kəlam alimlərinin etdiklərini təkrarlamaq məcburiyyətində qoyur. Yəni elmi məlumatlarla dinə qarşı müddəa irəli sürənlərə qarşı elmin məlumatları ilə dindən yana müddəalar ortaya qoyan - xüsusilə də Qərbdə - yazıçılar yorulmaq bilmədən işləyirlər. Halbuki atomların riyaziyyat qanunlarına uyğun gəlib-gəlməməsi, termodinamikanın ikinci qanununun yaradılışa o və ya bu yorumu gətirməsi, inanc baxımından diqqət yetirsək,

boş sözlərdən ibarətdir. İmanı öz qaynaqlarının xaricində axtarmaq, məncə, həddini bilməzlikdən başqa bir şey deyil. Əgər elm bir insan üçün büt halına gəlmiş, elmin mütləq bilik olduğu əqidəsi onun inancına saplanmışdırsa, o insanı biliyindən daha irəli getməyə, biliyində dərinləşməyə təşviq etməliyik. Yalnız o zaman elmin büt olmaqda əskik cəhətləri, zəif yönləri ortaya çıxacaqdır.[4]

## İnsan dünyaya göndərilib, dünyaya atılmayıb

Həva və həvəs. Nədir həva və həvəs? Zövq və şəhvətlər... Din insanın zövq və şəhvətlərinin diqtəsi altına girməməsini, həva və həvəsinə uymamasını tövsiyə edir. Eyni din insanın kor və kar kimi olmasını qınayır. Duyğularını işlətməlisən, lakin zövqlərinə qapılmayacaqsan. Bu necə olacaq? Görəsən, xoşlanmalı olduğum və nifrət etməli olduğum şeylər bir-birindən ayrıdır? Heç də belə görünmür. Haqsızlıq qarşısında susmağım nə qədər pisdirsə, gözəllik qarşısında laqeyd davranmağım da o qədər pisdir. Ədalət axtarmağım, qisas tələb etməyim nə qədər yaxşıdırsa, mənasız işləri ortadan qaldırmağa çalışmağım, yalanı ifşa etmə cəhdim də o qədər yaxşıdır. İnsan olaraq əlaqədə olduğum əşyanın vəsflərinə baxaraq yaxşı ilə pisi ayırd edə bilmirəm. Hansı hadisənin lehimə, hansının əleyhimə baş verdiyini müəyyən edəcək bir təchizatım yoxdur. Əşyanı da, hadisələri də özüm istədiyim kimi qiymətləndirə bilirəm. Yaşadığım dünya hərəkət halındadır, mən də hərəkət edirəm. Zövq və şəhvətlərimə tabe olaraq hər iki hərəkət arasında bir tarazlıq qurmağa çalışsam, hər doyum nöqtəsi bir son, yəni korluq və karlıq hadisəsinə çevriləcək.

Həva və həvəsimə tabe olmadan duyğularımı hərəkətə keçirərək sonuna qədər gedə biləcəyim bir tək yol var qarşımda. Bu yol, almadan əvvəl ödəmə yoludur. Yağmalamaq yoxdur, qazandığını ye deyənlər haqlıdır. Qənimət qan bahasınadır. Beləliklə,

4. İsmət Özəl, Üç Mesele, İstanbul 1998, s. 145-148.

insanın dünyaya atılmış bəlalı heyvanlar deyil, qulluq vəzifəsi ilə dünyaya göndərilmiş məxluqlar olduğu anlaşıla bilər.[5]

## Orta əsrlərdə yaşayırıq

Məktəblərdə renessansla yüksəlməyə başlayan kapitalist mədəniyyəti tərifləmək üçün daim "orta əsrlər" dedikləri bir dövrü pisləyirlər. Sanki orta əsrlərdə düşüncə, elm, texnika inkişafdan dayanmışdı və renessansla başlayan yeni dövrdə bütün bunlar açılıb inkişaf etməyə başladı. Halbuki həyatın olduğu yerdə heç bir şeyin dayanması mümkün deyil. Bəlkə geriləmə ola bilər, yəni istiqaməti arzuolunmaz bir inkişaf ola bilər, lakin yenə də hərəkət davam edər, heç nə yerində donub qalmaz. İnsan oğlu ya səadətinə doğru gedər, ya da fəlakətinə.

Orta əsrləri pisləyənlərin sevmədikləri məsələ o dövrdəki nizam və qaydalardır. Feodal cəmiyyət həyatında hər insanın yerinin mümkün mərtəbə sabit olması, zadəganların, kəndlilərin, feodalların hər birinin haqq və funksiyalarının müəyyən edilmiş olması orta əsrlərin pislənməsi üçün kifayət bir səbəbdir. İqtisadi gücü əlində tutan burjuaziyanın bu nizamı pozduğunu söyləmək yanlışdır. Düzdür, ipləri mavi qanlı zadəganların əlindən alarkən aranı xeyli qarışdırmış oldu, amma sanki bəyənmirmiş kimi göstərdiyi o nizamı özü də qoruyub saxladı. Burjuaziya hər şeyin olduğu kimi qalması üçün hər şeyi dəyişdirdi. Son üç yüz il ərzində edilən bütün dəyişikliklər hər şeyin olduğu kimi qalmasına xidmət etdi. Hər şeyi elə gözəl tərtib etdilər ki, dünyanın kapitalist nizamı sosialist nizamla yer dəyişdirsə, əsli etibarilə heç sevilməyən həmin feodal həyat tərzi üçün daha münasib bir nizama keçildiyi ortaya çıxacaqdır.

Bütün bu dəyişikliklərə rəğmən bütün yer kürəsini təsiri altına alan Qərb dünyasında dəyişməyən şey nədir? İnsanın insana qulluğu. Orta əsrlərdə kilsə və aristokratların ittifaqı bu məqsədə necə xidmət edirdisə, kapitalist (sərmayəçi) sinfin hakimiyyəti

5. İsmət Özəl, *Tahrir Vazifeleri*, İstanbul 1999, s. 61-62.

də insanın insana qulluğunu laik və dünyəvi hala gətirməkdən başqa bir məqsəd güdmədi. Bu günün dünyasında sərmayəçi-siyasətçi-bürokrat üçlüsünün xidmət göstərdiyi nizam da dünyanın harasında olmasından, hansı cildə girməsindən asılı olmayaraq, insanın qulluğunun insana yönəlməsinin ən yaxşı şəkildə həyata keçirilməsi üçün göstərilən səylərdən ibarətdir. İnsanın insana qulluğu orta əsrlərdə istər kilsə, istərsə də feodal bəylərin timsalında müşəxxəs hala gətirilmişdi. Qərb cəmiyyət həyatının nüvəsi deyə biləcəyimiz bu həyat tərzi içində yerdə və göydə Allahın iqtidarının bu siniflərin mənsublarına həvalə edildiyi zənninin açıq bir sapqınlığı müşahidə edilirdi. Lakin bu hal dünyanın müəyyən bir hissəsi üçün keçərli idi; düzgün yolu seçənlərin rahatca öz həyatlarına davam edə bildikləri, yəni onların xaricindəki dünya da eyni anda mövcud idi.

Bu günün dünyasında insanın insana qul olmasının burjuaziya və ya bürokratiya (kapitalist-sosialist) formaları bu məsələni elə qarışıq hala gətirdilər ki, nizamın bəzi xüsusiyyətləri yalnız fəlsəfə, iqtisadiyyat və ya hansısa başqa insani qaydalar nöqteyi-nəzərindən diqqətlə baxıldığı zaman anlaşıla bilir. İnsanlıq çox müxtəlif ovunma və mistifikasiya vasitələri ilə sarılmış haldadır. Belə deyə bilərik ki, insan, insana qulluq etsin deyə cürbəcür üsullarla sərxoş edilir.

Həyat sehrlər, sehrbazlar, fallar, falçılar tərəfindən istila edilmiş vəziyyətdədir. Halal və haramı bir-birindən ayıra biləcək ölçüdən istifadə etmək qabiliyyəti insanların əlindən alınmışdır. İnsan zəka məhsulu adı altında ona təqdim edilən bir çox mənasız məhsullarla başını qatmaqda, getdikcə axmaqlaşmaqdadır. Bəli, bu gün biz orta əsrləri yaşayırıq. Həm də elə bir orta əsr ki, daha əvvəlkindən də aşağı səviyyədədir.

Birinci orta əsrlərdən çıxarkən Avropa düşüncəsinin irəli sürdüyü bütün fərziyyələr iflas etmişdi. İnsanın üstün insana çevrilməsi bir yana, adəm oğlu mövcud olan səviyyəsini belə qoruya bilməyəcək hala düşmüş, toplumlar yeni və haqqaniyyətə əsasla-

nan bir nizamlamaya qovuşmaq yerinə getdikcə siyasət-bürokrat despotluğuna boyun əyəcək hala gətirilmişdi. İçində yer aldığımız orta əsrlərin bariz xüsusiyyəti xəyal qırıqlığı və insan ruhunun çıxmazlarıdır.[6]

## İdris peyğəmbər və Prometey

Şərq ilə Qərb ayırımını nəyə əsaslanaraq etməliyik? Quran Şərq mədəniyyətinin, Tövrat və İncil Qərb mədəniyyətinin əsaslandığı kitablardır demək düzgündürmü? Yoxsa iki mədəniyyət arasındakı fərqi adət-ənənələri, düşüncələri və adət-ənənə ilə düşüncə tərzlərinin şəkilləndirdiyi cəmiyyət formaları ilə əsaslandırmalıyıq? Bunlar uzun teorik təhlillərə qapı açan suallardır. Qərb mədəniyyəti bu gün dünyanı diqtəsi altında saxladığı üçün bu mədəniyyətin mənbələri haqqında çox danışılmış, Yunan, Roma, yəhudu və xristian adət-ənənələrinin mozaikası sayılan Qərbin saydığımız bu mənbələrdən hansına nə qədər bağlı qaldığı müzakirə predmeti olmuşdur. Bəs yaxşı, Şərq mədəniyyəti də bəzi təsirlərə məruz qalmamışdımı? Məsələn, Yunan fəlsəfəsinin İslam düşüncəsindəki yeri heç də diqqətə alınmayacaq qədər az deyil. Avropa Yunan fəlsəfəsini müsəlmanlar vasitəsilə öyrəndi, lakin bu, onlarda çox fərqli nəticələr meydana gətirdi.

Deməli, Şərq ilə Qərbi bir-birindən ayıran köklü anlayış fərqləri vardır. İndi bu anlayış fərqlərindən birinə, bəlkə də, ən mühüm olanına diqqət çəkmək istəyirəm.

Prometey Yunan mifologiyasında titanların nəslindən gələn bir tanrı olduğu halda insanların tərəfini tutmuş, odu Olimpusdan oğurlayaraq insanlara vermişdir. Ona veriləcək cəzanı bilə-bilə bu işi edir. Prometey ağıl gücünə sahib və gələcəyi görən biridir.

Qərb mədəniyyəti özünü Prometey kimi görən ziyalıların əsəridir desək, zənnimcə, böyük bir səhv etmiş olmarıq. Qərb insanı irəli getməyin yolunu hər zaman qarşıdurmada görmüş,

6. *e.a.ə.*, s. 42-44.

qarşısına alacağı Zeus axtarmışdır. O hücum etməli, dağıtmalı və cəzasını almalıdır. Tanrı düşmənçiliyi qaynağını öz tanrılığından və öz əli ilə qurduğu tanrılaşdırmalardan alır. Qərb fəlsəfəsi Prometeyçi xüsusiyyət daşıyır. Elmi də *"od oğurluğu"* kimi başa düşür.

İslami anlayışda isə insanlara faydalı olmaq düşüncəsinin necə şəkilləndiyini başa düşmək üçün İdris peyğəmbər nümunəsinə baxmaq kifayət edir. İlk dəfə qələmlə yazı yazan və paltar tikən şəxs İdris peyğəmbərdir. İdris əleyhissalama göylərin sirləri açılmışdı. Nəhayət, Haqq-təala onu diri ikən göyə yüksəltdi. Peyğəmbər qissələrində yer alan bu çox qısa açıqlama içində belə İslam dairəsində insan ilə fövqəlbəşərin irəliləmək üçün qarşıdurmaya deyil, ehsan və yaxşılıq etmək duyğusuna əsaslanan bir münasibətlər zənciri qurduğunu görə bilərik.

İnsanın zənginləşməsini odu oğurlamağa bağlayan baxış bucağı ilə həmin zənginliyi qələmlə yazmağa bağlayan baxış bucağının bir-biri ilə uyğunlaşa biləcəyini fərz etmək mümkün deyil. Bir peyğəmbər üçün göylərin sirlərinin açılması heyrət ediləcək bir xüsus deyil. Amma Prometeyin ağıl sahibi olması onun göy ilə əsas qarşıdurmasının başlanğıcıdır. Birinə ehsan edilən şüur və ağıl, digərində qarşıdurmanın mərkəzi olur. İdris peyğəmbər qissəsində qələm ilə yazı yazma motivinin yanında paltar tikmə motivini də görürük. Bu iki xüsusiyyətin eyni şəxsdə cəmləşməsi də Şərq mədəniyyətində maddi zənginliklərlə zehni inkişafın bir-biri ilə mütənasib və tarazlıq içində meydana çıxmasının əlamətidir. Buradan hərəkətlə sabahın İslam cəmiyyətində meydana çıxacaq texniki inkişafın toplumdakı intellektual səviyyə ilə başabaş aparılmasının labüd olduğu nəticəsini çıxarda bilərik.

İdris peyğəmbərin qissəsi ilə Prometey hekayəsinin nəticələrinin fərqli olduğuna diqqət etmək lazımdır. Prometey insanların tərəfini tutduğu üçün Qafqazda qayalıqlara zəncirlənir və hər gün bir qartal gəlib onun ciyərini yeyir, gecə ciyər yenidən bərpa olunur. Bitməyən bir əzab. Nə vaxta kimi? Zeus taxtından salınana kimi.

İndi siz fikirləşin, Qərb düşüncəsi ilə Şərq düşüncəsinin fərqini. İsa əleyhissalamdan əvvəl göyə yüksələn peyğəmbər insanlara qələm ilə yazmağı və paltar tikməyi öyrədən peyğəmbərdir. Qərb təfəkküründə insan olmaq, insanın tərəfində olmaq işgəncəni, Şərq təfəkküründə isə yüksək lütfləri bərabərində gətirir.[7]

## Keçmişə necə baxmaq lazımdır?

İnsan zehninin qəribə yönlərindən biri də keçmiş ilə qurduğu əlaqədə ortaya çıxır. Yaşanıb keçmiş hadisələr arasından gözəl olanları, yaxşılarını seçib saxlamaq insanın əsas meyillərindən biridir. Bu səbəbdən insan oğlu hər zaman xaritələrində xoş təəssürat yaşayır. Çəkilən sıxıntıların üstünə bir pərdə atmaq və yaşanan xoş zamanları daim canlı saxlamaq arzusu ilə keçmiş (həm bir insanın fərdi tarixi, həm də ümumi olaraq tarix) rahat bir şəkildə simpatik mövzuya çevrilə bilir. Bu ruh halı bəzən o qədər güclü olur ki, insanlar keçmişin bir çox dəyərsiz xatirələrini belə əhəmiyyət verərək dəyərli təcrübələr kimi ələ alırlar.

Bunun ən qabarıq nümunəsini musiqi və incəsənət sahəsində görmək mümkündür. Hətta ən dəyərli qəbul edilən sənət sahələrində belə bu növ qəribəliklərlə rastlaşmaq olur. Bu gün bir az musiqi təhsili almış olan şəxslər, avtobuslarda oxudulan manhılara qarşı haqlı olaraq dodaq büzürlər, təhəmmül göstərə bilmirlər. Amma eyni insanların bir çoxu bundan 60-70 il əvvəlki kantoları zövqlə dinləyir, onların vallarını əldə etməyə həvəslənir. Halbuki bu kanto deyilən biabırçılıq rəvacda olduğu dövrdə səviyyəsiz bir musiqi olaraq qəbul edilir, ağlı başında hər insan tərəfindən narazılıqla qarşılanırdı. İndi isə radio və televiziya kanalları kantolar üçün müəyyən saat ayırır.

Yəni bir dövrün bataqlıq həyatı insanların indiki ev həyatı üçün seyr ediləcək səhnəyə çevrilib. Bənzər şəkildə hələ on-onbeş ilə əvvəl çayxana mahnıları deyə tanınan mənasız musiqilər bu gün sənət musiqisi səviyyəsində münasibətlə qarşılanır.

7. e.a.ə., s. 65-67.

Deməkki, - bu belə davam edəcək olsa - on beş-iyirmi il sonra indiki avtobus mahnıları və neçə-neçə biabırçılıqlar sırf keçmişdə qaldığı üçün insanlar tərəfindən baş tacı ediləcək.

Mən insanların bu qəribə zəfindən xəbərdar olduğum üçün keçmişə hər zaman xoş gözlə baxmıram. Keçmişə dəyər vermək üçün hadisələri müəyyən kriterilərə görə diqqətlə incələyirəm. Buna görə də sırf mədəniyyətimizin, adətlərimizin bir parçasıdır deyə üstündən illər keçmiş hər əsərə, hər hadisəyə xoş gözlə baxmıram. Məsələn, bu gün əlimizdə türkcəsi səbəbi ilə çox məşhur olan, "Qabusnamə" adlı bir kitab var. Bu kitabı Mercimek Ahmed XV əsrdə farscadan türkcəyə olduqca uğurlu bir şəkildə, gözəl dillə tərcümə etmişdir. Ən qatı türk dili müdafiəçiləri belə bu kitabdan mədh edərək bəhs edərlər. Kitab ümumi mənada Şərq mədəniyyətinin bir məhsulu, tərcümə edilmiş şəkli ilə də türk mədəniyyətinin bir parçası sayılır. Kitabda həm də orada verilən tövsiyələrə riayət olunması istənildiyinə görə, o günkü ictimai həyata da işıq salacaq mahiyyətdədir.

"Qabusnamə" hər nə qədər bilmillahla başlayıb ara-sıra dini nəsihətlərə yer versə də, Qurani-Kərim və Hədisi-şəriflərdən kifayət qədər məlumatı olan hər müsəlman bunu rahatca başa düşə bilər ki, kitabda İslamla ziddiyyət təşkil edən xeyli tövsiyə və nəsihətlər mövcuddur. İndi bu kitabı necə dəyərləndirməliyik? Bu da bir adət-ənənə və mədəniyyətin məhsulu deyilmi? Bir də ki, şəxsən padşah tərəfindən tərcümə edilməsi əmr edildiyinə görə də kifayət qədər rəğbətlə qarşılanan bir əsər olmalıdır. Əslinə baxsaq, bu kitab bütün tövsiyələri ilə birlikdə tam mənası ilə bir "şərqli"nin dünya həyatına dair portretini çəkməyə həsr olunub. Yüksək təbəqədə dayanan "kosmopolit" bir şərqli. Başı tamamilə bütün fars-yunan-ərəb adətləri ilə dolu bir şərqli.

Buyurun, bu da qədim bir əsər. Üstəlik, Şərq mədəniyyətinin məhsulu. Bəziləri üslubuna, içində yer verilən bəzi dualara baxaraq onu klassik əsərlərimizin arasında da saya bilər. Təsadüfən

gənc bir insan İslami biliyini artırmaq üçün bu kitabın faydalı olduğunu düşünərək oxuyacaq olsa nə hala düşər?

Nəticə olaraq: Mədəniyyəti tərifləyərkən diqqətli olaq.[8]

## Azad olmağın bilgisi

Sizə İslamın yeni bir düşüncə yolu olduğundan danışacağam, amma əvvəlcə aramızdakı yaxınlıq əlaqəsi ilə bağlı bəzi məsələlərə aydınlıq gətirmək lazımdır. Belə deyə bilərik: müsəlman olduğumuza görə aramızda bir düşüncə alış-verişi üçün ən etibarlı əlaqə qurulub. Biz inanc əlaqəsi ilə bir-birimizə bağlanmış insanlar deyilikmi? Əgər belə düşünürsünüzsə, deməliyəm ki, sizinlə eyni görüşdə deyiləm. Çünki bizim müsəlmanlığımız iki səbəbdən qaynaqlanan müsəlmanlıqdır: ya ətrafımızdakı insanların və təhsilimizin formalaşdırdığı vərdişlərin təsiri ilə və ya şəxsi seçimimizlə müsəlmanlığa bağlanmışıq. Hər iki halda da bizi ayıran xüsusiyyətlər birləşdirənlərdən daha çoxdur. Siz mənim yetişdiyim mühitdə yetişməmisiniz, dolayısilə dünyaya baxışınız, dünyanı qiymətləndirməyiniz, həsrət və qorxularınız mənimkilərdən fərqlidir. Mən də İslamı sizin seçdiyiniz səbəblərə görə seçmədim. Beləliklə, mənim müsəlman olmaqla əldə etdiyim fayda sizin müsəlman olmaqla əldə etdiyinizdən fərqlidir. Hər ikimiz də eyni ayələrə, eyni hədislərə riayət etmə əzmi daşıdığımızı deyirik, amma bu ayə və hədislərə elə fərqli mənalar veririk ki, hər hansı bir işi etməli olduğumuz zaman eyni düşüncə və eyni davranış yolunda olmadığımız ortaya çıxır. Biz qədim hekayənin tərsini yaşayırıq. Bu qədim hekayədə bir miqdar pul verilən dörd adamdan bəhs edilir. Adamlardan biri iranlı imiş və deyir ki, bu pul ilə “anqur” alaq. İkincisi ərəb imiş, deyir ki, “inab” alaq. Üçüncü adam rumdur, o istəyir ki, “stafil” alınsın. Türk olan dördüncü adam isə deyir “üzüm” alaq. Əslində hər birinin istədiyi şey eynidir, üzümdür, lakin bir-birinin dilini bilmədiyi üçün dalaşmağa başlayırlar. Müasir dövrün müsəlmanları olan bizlər isə eyni

8. İsmət Özəl, Üç Mesele, İstanbul 1998, s. 109-111.

şeyi söylədiyimizi, eyni yolu təqib etdiyimizi iddia edirik. Lakin "üzüm" deyəndə kimi quru üzümü nəzərdə tutur, kimi salxım üzümdən danışır, digəri üzüm kompotunu demək istəyir, o birisi də üzüm suyunu qəsd edir. Bütün bunların səbəbi hər birimizin fərqli şərtlənmələr altında fərqli hədəflər təyin etməyimizdir.

Görəsən, müştərək hədəflərə sahib olmaq üçün bizi müsəlman edən şərtləri aşaraq haqqında açıqca həmfikir ola biləcəyimiz bir yorumda birləşməyimiz lazım deyilmi? Bu suala mənfi cavab vermək yerində olacaq. Çünki bizi müsəlman edən şərtlər bir az da bizim şəxsiyyətimiz deməkdir. Şəxsiyyətimizi bir kənara qoyaraq birləşsək, o zaman bir insanlar topluluğu, müsəlman camaatı deyil, bir yığın, mexaniki cihazlar sürüsü, robotlar ordusu ortaya çıxar ki, bu da İslamın insanlar tərəfindən düzgün dərk edilmədiyinin bir sübutu olar. Əslinə qalsa, hamımızın müştərək bir yorumda birləşməsi mümkün deyil. Çünki sabitləşdirilmək istənən, bir sistem şəklinə salınaraq dondurulmaq cəhdi ilə məhdudlaşdırılan düşüncə hər zaman özündən kənarda saxladıqları tərəfindən gəmirilməyə davam edəcək və bu hücumlar ona bənzəyən və ya ziddi olan yeni bir sistemin ortaya çıxması ilə nəticələnəcəkdir. Necə ki, təkcə dünyadakı İslami hərəkatlar deyil, Türkiyədə varlığını davam etdirən İslami camaatlar və qruplar da öz yorumlarını tək etibarlı yorum saymaqla və birləşmənin ancaq bu yorum ətrafında ola biləcəyini irəli sürməklə müsəlmanlar arasındakı fərqləri dərinləşdirməkdə, hətta öz aralarında belə fərqli görüşlərin yaranmasına səbəb olmaqdadır.

Şəxsiyyətimizə xas olan fərqlərimizi qoruyacağıq və hər birimizin mənsubu olduğu müsəlman camaatı tək yorumun sərhədləri ilə məhdudlaşdırmaq kimi bir israrımız olmayacaq. Bəs yaxşı, yeni bir düşüncə yolu olaraq İslamda necə birləşə bilərik? İslamın yeni bir düşüncə yolu olduğunu anlaya bilmək azad düşünməyə bağlıdır. İslam azad olmağın bilgisidir. Halbuki şəxsiyyətləri silmək və tək yorumla sistemləşdirilmiş bir quruluşda həqiqəti

konkretləşdirmək yalnız qulun qula qulluğu ilə nəticələnər ki, bu da İslama zərbə vurmaqdan başqa bir şey olmaz.[9]

## Texnikanın çarxına ilişmək

Mənsubu olduğumuz mədəniyyət texnikanı baş tacı edir. Bəlkə bu mədəniyyət indiki gücünü sahib olduğu düşüncələrdən daha çox texniki hakimiyyətindən aldığı üçün bütün imtiyazları da texnikaya vermişdir. Qərb mədəniyyətinə texnologiya mədəniyyəti deyə bilərikmi? Məsələni kökləri etibarilə ələ alsaq, xeyr. Əslində, Qərb mədəniyyəti dünyanı humanizmin tələblərinə uyğun qavramanın nəticəsində ortaya çıxmışdır. Başlanğıcda texniki çöhrəsini dəyişdirəcək gücü də yox idi. Amma o dövrdə də bir Qərb mədəniyyəti var idi; yəni mənbələri etibarilə baxsaq. Qərb mədəniyyəti insanın kainatdakı yerinin yenidən və ənənəvi anlayışdan fərqli olaraq təsbiti nəticəsində ortaya çıxan düşüncə tərzi və əxlaqi dəyərlər məcmusudur. Məhz insanın kainatdakı yerinin idarə edilən deyil, idarə edən olduğunu qəbul edən anlayış bu düşüncələri ilə bir müddət sonra texnikanın inkişafını da körüklədiyi zaman sahib olduğu yeni imkanlarla dünyanı idarə etmə işini texnologiyanın hakimiyyəti şəklinə çevirməkdə çətinlik çəkməmişdir.

Texnologiya iqtidarı ələ keçirdikdən sonra öz əsaslarını və hətta düşüncə məntiqini də rahatca cəmiyyət içində qəbul etdirmişdir. XIX əsr Qərb mədəniyyətinin sərmayə və texniki üstünlük cəhətindən dünyanın dörd bir yanına yayılma dövrüdür. Bu yayılmada ilk diqqət çəkən xüsus sərmayə hakimiyyəti və bu hakimiyyəti möhkəmləndirən texnologiya olmasına baxmayaraq, Qərb mədəniyyəti özünə yayılma sahəsi olaraq seçdiyi torpaqlarda əvvəlcə mənən diktatorluq qurmuş, yəni Qərbin üstünlüyünün qəbul edilməsini bir qayda olaraq şərt qoşmuşdur. Bu üstünlüyün qəbul edilməsi isə yalnız onun ictimai quruluşunun və həyat tərzinin mənimsənməsi şəklində özünü göstərmişdir. Qərb və onun

9. İsmət Özəl, *Taşları Yemek Yasak*, İstanbul 2003, s. 15-17.

inkişaf etdirdiyi texnologiya qarşısında hələlik düzgün bir çıxış yolu tapdığımızı deyə bilmərik. Xalq arasında ən çox məqbul görülən fikir: Qərbin texniki gücündən istifadə etmək, lakin onun mənəvi dəyərlərinə qarşı müqavimət göstərməkdir.

Bu gün artıq Qərbin texniki məhsullarına qarşı da müqavimət göstərməliyik deyə fikir səsləndirənlər təəssüf ki, qalmayıb. İndi ziyalılarımızla xalqın böyük əksəriyyəti eyni fikirdədir: Qərbin texnoloji imkanlarına biz də sahib olmalıyıq!

Bu gün texnologiyaya qarşı maraq təkcə *"mədəniləşmək"* qayğısından qaynaqlanmır. Artıq texnikaya sahib olmaq cəmiyyət həyatının təmin edilə bilməsi üçün bir zərurət kimi görülür. Yaxşı, bəs texnikaya necə sahib ola bilərik?

Əsas məsələ texnikanın özünün hansısa əxlaqi dəyəri təmsil edib-etməməsidir. Texnologiyanın özünə xas məntiqi və işləmə qaydaları var. Əgər texnikaya sadəcə alətlərdən ibarət kimi baxılırsa, bunu bilin ki, bu güc öz əxlaqını əvvəlcədən qəbul etdirmişdir. Texnika təkcə bir makinanın özü və ya onun işləmə qaydalarından ibarət deyil. İnsanlar dörd ayaqlı heyvanlarla deyil, dörd təkərli maşınlarla nəqliyyatı təmin edirlər; istifadə olunan enerji əzələ gücündən deyil, buxardan, elektrikdən, nüvə stansiyalarından əldə edilir deyərək işin içindən çıxmış olmuruq. Çünki müəyyən bir mədəniyyətin müəyyən hal və şərtlərdə inkişaf etdirib o mədəniyyətə xas ölçülərə çatdırdığı bir texnika ilə qarşı-qarşıyasınız. Qərb mədəniyyətinin qucağında böyüyüb inkişaf etmiş bu texnologiya, üstünə, içində doğulduğu cəmiyyət adına bir missiya götürmüşdü: ağıl ilə varlıq arasındakı əlaqəni qopartmaq.

Texnikaya mənasını qavramadan yanaşmaq onun tələsinə düşmək deməkdir. Yəni texnika, texnologiya zənn edildiyi qədər məsum deyil. Siz onu şəxsiyyətsiz zənn edərək könüllü olaraq çarxına ilişsəniz, gedəcəyiniz son nöqtə heç də iç açıcı olmayacaqdır. Hazırda sahib olduğu xüsusiyyətlərinə baxsaq, texnika,

təkcə İslam cəmiyyətinə deyil, hətta öz məntiqini qəbul edən küfr nizamına da səadət bəxş etməkdən uzaqdır.

Texnika, nə olduğu yenidən incələnib açıqca anlaşılması tələb olunan bir hadisədir. Onu başa düşmədən nə ona sahib ola, nə də müqavimət göstərə bilərik.[10]

## Bazar dini

Yer üzündə hökmü keçən batil dinlər arasında ən çox yayılmış olanı *"bazar dini"*dir. Bazar dini müasir bütpərəstliyin ən azğın formasıdır. Müsəlmanların bütün bütpərəstliklərlə birlikdə onu da məğlub etmədikcə həm öz daxillərində, həm də xariclərində İslamı yaşamaları imkansızdır. Peyğəmbərimiz əleyhissalam: *"Tək olan, şəriki olmayan Allaha, Muhammədin Allahın qulu və rəsulu olduğuna, eşitməyən, zərər və faydası toxunmayan, özünə qulluq edənlə etməyəni ayırd edə bilməyən, daşdan düzəlmə bütlərə sitayiş etməkdən əl çəkməyə dəvət edirəm",* - buyurmuşdur. Günümüzün bütpərəsti daş bütünün gücsüzlüyündən xəbərsizdir. Nümunə olaraq ələ aldığımız bazar dini iqtisadi qanunların qüvvədə olduğunu qəbul etməklə birlikdə etiqadi cəhətdən hansı tərəfdə yer aldığını anlaya bilməyəcək qədər qulağı kardır. Bu dinin mənsubları müəyyənləşən qiymətin özü üçün mükafat, yoxsa cəza olduğunu anlaya bilməyəcək qədər, qiymətin müəyyənləşdiyi zamanın özü üçün bir *"hesab günü"* olduğunu anlamayacaq qədər qulağı kardır.

Bazar dininin daşdan bütü satılacaq olan hər növ maldır, əmtəədir. Hər bir xeyrin və şərin Allahdan gəldiyini dərk etmədən zərər və fayda təmin etmək gücünün əmtəəyə məxsus olduğunu düşünmək bazar dininin ən əsas sapqınlığı olaraq üzə çıxır. Əmtəə, pul və ya bank özünə qulluq edənlə etməyəni ayırd etməyəcəkdir, amma inancını bazar dininə həvalə etmiş olan şəxs ona bazarla əlaqəli bir zərər toxunduğu zaman görəsən hansı duanı və ya ibadəti unutdum deyə düşünəcək, bazar dininin ona

10. İsmət Özəl, Üç Mesele, İstanbul 1998, s. 149-151.

təmin etdiyi bir faydaya, qazanca qovuşduğu zaman da içində yer aldığı bu sistemə şükür edəcək.

Müasir bütpərəstliyin qulaq karlığı həm ona bağlı olanların həqiqətə qarşı laqeyd yanaşması ilə, həm də irili-xırdalı bütün bütlərin öz təbəələrinə qarşı laqeydliyi ilə ölçülə bilər. Müsəlmanın vəzifəsi insanları heç nəyi eşitməyən, zərər və faydası toxunmayan, ona qulluq edənlə etməyəni ayırd etməyən ilahlardan üz çevirməyə dəvət etmək deyilmi?[11]

## Adını silmək

Bu gün müsəlmanlar olaraq şəxslərin adlarının əhəmiyyətinə verdiyimiz dəyər, əldə ediləcək bir nəticə üçün bu nəticədə əməyi keçənlərin paylarına ayırdığımız diqqət və dəyər ilə müqayisə edilərsə, bu sahədə nə qədər gerilədiyimiz ortaya çıxar. Bəzən - buna əksər hallarda da deyə bilərik - nəyin edildiyi, nəyin deyildiyi arxa planda qalır və kimin söylədiyi bizim üçün əhəmiyyət daşıyır. Belə bir əhvali-ruhiyyə içində, əlbəttə, fəth etdiyimiz bütün Budin (Macarıstan) şəhərlərində malikanələri sipahilərə (Osmanlı süvariləri) təxsis etməyi təbii qarşılayırıq. Adımızın silinməsi artıq bizim üçün əhəmiyyətli deyil. Sanki indi əsas məqsəd adımızı bəzəmək, şəhərləri bər-bəzəkli halları ilə zəbt etmək olmuşdur.

Biz bugünkü müsəlman varlığımızın böyük bir qismini adını yaşatmayan, amma həqiqəti ən böyük əndişə olaraq qəlbinin dərinliklərində hiss edən insanlara borcluyuq. Buna görə bizim "tarix" deyə adlandıracağımız bir adət-ənənəmiz yoxdur. Adət-ənənəmiz həqiqət zəncirinin bizə heç də məlum olmayan kanallarla günümüzə qədər gəlib çatması ilə meydana gəlmişdir.

Adın silinməsi faktları keçmişdə çox müxtəlif formalarda yaşanmışdır. Təsəvvüflə əlaqəli nümunələrdən bir misal deyim: "Əhməd-zındıq öz kimliyini xalqdan gizlədən, mənəvi mərtəbəsini başqalarına bildirməmək üçün zahirən ağıldan kəm dərviş

11. İsmət Özəl, *Surat Asmak Hakkımız*, İstanbul 1998, s. 65-65.

kimi hərəkət edən şəxsiyyətlərdən biri imiş. Bəyazid həzrətləri mənəvi bir işarə hiss edərək Buxarada onu axtarmağa başlayır. Bu zaman hər kəs tərəfindən bilinən "zındıq" ləqəbini dilə gətirməkdən utanaraq "sıddıq", yəni həqiqi dost ləqəbi ilə onu axtarır. Xeyli gəzib soruşmasına baxmayaraq, onun izinə düşə bilmir. Nəhayət, bir gün onun məcsiddə oturub Quran oxuduğunu görür və orada onunla təsadüfən görüşmüş olur. Əhməd-zındıq Bəyazidin onun ləqəbini dəyişdirdiyini, hər kəs tərəfindən bilinən "zındıq" yerinə "sıddıq" dediyini eşitmişdi. Buna görə Bəyazidi azarlayır və xalq arasında "sıddıq" kimi tanınmaq istəmədiyini deyir. Beləliklə, Bəyazidə öz sirrini gizlətmək xüsusunda böyük bir hikmət dərsi verir".

Biz nəsə olmaq istəyiriksə, ancaq silinmiş adların buraxdığı silinməz izlərlə getdiyimiz zaman ola biləcəyik; Budini fəth edən sipahinin taxta evə üstünlük verməsindən, rəğbət görülən ləqəbi qəbul etməyən dərvişlərdən bizə gəlib çatan nədirsə, onlarla.[12]

## İnsan kimi yaşamaq

İnsanın üç əsas duyğusu var: aclıq, cinsiyyət və birlikdə yaşamaq. Bütün bu duyğular insanda bir instinkt olaraq mövcuddur, amma bu ehtiyaclarını hansı yolla qarşılayacağına dair məlumatlar onda anadangəlmə mövcud deyil. Sahib olduğu bu duyğuların hamısı ondakı potensialın əlamətləridir. İnsan bu duyğularının necə formalaşacağını daha sonra həyat boyu öyrəndikləri ilə müəyyənləşdirər. Necə doyacağına, cinsi ehtiyaclarını necə qarşılayacağına, hansı toplumların içində yer alacağına sonradan qərar verər. Bu qərarlarında içində yer aldığı mühitin təsiri altında olsa da, seçim etmək insana qalmışdır.

İnsan kimi yaşamaq insani duyğuların ən məqbul ölçülərdə, insana ən az zəhmət verəcək şəkildə, ən çox faydanı təmin edəcək formada nizamlanmasıdır. Bəs yaxşı, "məqbul" olan necə təsbit ediləcək? Bu halda insanın həyat tərzini, qoyacağı əxlaqi

12. İsmət Özəl, *Bakanlar ve Görenler*, İstanbul 1985, s. 92-93.

ölçüləri müəyyənləşdirən yenə insanın öz keyfi seçimləri olmayacaqmı? Məhz bu nöqtədə insan kimi yaşamaq ilə İslam kimi yaşamaq arasındakı fərq ortaya çıxır. İnsanın öz həyatını keyfi seçimləri ilə idarə etməsi "insan kimi", lakin özünü yaradan mənbəyə üz tutaraq öyrənməsi "İslam kimi" yaşamaq olacaq. İnsan kimi yaşamaq insanın həyatla bağlı seçimlərində o günə kimi sahib olduğu şərtlənmələr istiqamətində yaşamağa davam etməsidir. İnsan kimi yaşamaq insanın öz daxili duyğuları istiqamətində və məntiqi planlama çərçivəsində sərbəst buraxılmasıdır.

Humanist mədəniyyət insanın sahib olduğu bəzi qabiliyyətləri və həyat imkanlarını insanın əlinin və beyninin məhsulu olaraq görür. İslam anlayışı isə yaratmanın Allaha məxsus olduğunu ifadə etməklə qalmır, heyvanların əhliləşdirilməsindən gəmilərin üzdürülməsinə qədər bütün həyat imkanlarının ancaq Allahdan gələn bilgi ilə mümkün olduğunu ifadə edir.

İnsan kimi yaşamaq adət-ənənə və mədəniyyət qaydalarının əsas sayılması surəti ilə həyatın insan qərarlarına bağlı seçimlərlə nizamlanmasıdır. Beləliklə, iş münasibətləri, istirahət imkanları, sığorta əsasları, ticarət yolları kimi həyat ünsürləri də insan kimi yaşamağın möhtəvasına daxil olur. Bu gün insan kimi yaşamaq deyiləndə istər-istəməz müəyyən bir "rifah səviyyəsi" nəzərdə tutulur. İslam kimi yaşamağın isə mədəni doldurmaq, isti otaqda gərnəşmək, əməliyyat salonlarında həyəcan içində gözləməklə açıqlana biləcəyini zənn etmirəm.

Buna görə də insan kimi yaşamaq deyəndə böyük bir narahatlıq hiss edirəm.[13]

### Mən düzəltsəm demə, mən düzəlsəm de!

Ölkəmizin gələcəyi üçün söz deyiləcəyi zaman siyasət səhnəsindəki adamlar artıq *"nurlu üfüqlər"*, *"böyük Türkiyə"* kimi ifadələri işlətmirlər. Bəziləri *"dövrlə ayaqlaşmaq"* kimi nə mə-

---

13. *e.a.ə.*, s. 64-66.

naya gəldiyi tam olaraq bilinməyən ifadələrdən istifadə edirlər. Bəziləri də *"iyirmi birinci əsr Türk əsri olacaq"* kimi kəşfiyyat xarakterli balonlar uçurdurlar. Digərlərinin isə heç səsi çıxmır. Bu qeyri-müəyyənlik təkcə siyasətçilərə aid deyil, qədəri ölkəsinin qədərinə bağlı olan bir çox kimsəni də əhatə edir. Düzü, mövzu ölkəmizin gələcəyi olduğu üçün ya mənası açıq olmayan belə ifadələr işlədirik, ya da susuruq. Niyə?

Çünki bu ölkədə yaşayan səlahiyyətli və səlahiyyətsiz, təsirli və təsirsiz hər kəs birlikdə yaşaya bilməyimizə dəstək verəcək bir yola girməyib. Təsirli və səlahiyyətli olanlar digərlərinə, yəni təsirsiz və səlahiyyətsiz olanlara birlikdə yaşanacaq elə şeylər təklif edirlər ki, bunlar bir cəmiyyət olaraq varlığımıza təhdid təşkil edən şeylərdir. Məsələn, Türkiyənin ən böyük sərmayədarlarından biri *"inflyasiya ilə birlikdə"* yaşamağa öyrəşməyimizi tövsiyə edir. Baş nazir *"terrorla birlikdə"* həyatımıza davam etmək üçün dözümlü olmağımızı istəyir. Başqalarına iş buyurmaqda hər biri şahin olur, sıra öz öhdəliklərinə gələndə qarğaya çevrilir. Belə bir münasibət sanki cəmiyyətin bütün təbəqələrinə yayılıb. Hər kəs nəyi düzəldəcəyini, nəyin düzəldilməli olduğunu bilir, amma bu düzələcək və düzəldiləcəklər arasında özü yoxdur.

*"Birlikdə yaşaya bilməyimizə* dəstək verəcək bir yol" dediyimiz zaman geniş və təfsilatlı bir proqramı nəzərdə tutmuruq. Qəsd etdiyimiz sadə və təməl bir qaydadır. Mən birlikdə yaşamağa dəstək vermək istəyirəmsə, buna başqa birinin yaşaması üçün öz həyat sahəmdə ona bir yer ayırmaqla nail ola bilərəm. Etdiyi işin başqalarının haqqını qəsb etmək olub-olmadığını, başqalarına zərər, yoxsa fayda verdiyini bilmək üçün hər kəsin ağlı kifayət edər. Ağlı çatmırsa, ona heç "kişi" də demərik. Birlikdə yaşamaq hər kəsin başqa biri üçün yer açması ilə mümkün olur. Bir də bizə baxaq, artıq ölkəmizdə insanlar münasibətlərini *"qul haqqına diqqət"* əsasında qurmaqdan uzaqlaşıblar. Belə bir uzaqlaşma üçün bəhanə də hazırdır: düzəldiləcək olan, düzələcək olan onlar özləri deyil, başqalarıdır. Bu anlayış ilə bunu demək

istəyirlər: başqaları mənə həyat sahəsi açsın, mənim onlar üçün açacaq sahəm yoxdur. Deməli, düzəltmək xülyasını tərk edərək düzəlmək üçün səy göstərənlər öz zənginliklərinin fərqinə varmış olurlar. Çünki onların elə geniş həyat sahələri var ki, başqalarını da ora dəvət edə bilərlər.

Bütün bu mülahizələrin işığında nəticə olaraq ölkənin gələcəyi xüsusunda bütün mənfi əlamətlərin tək-tək insanların şəxsiyyəti ilə bağlı olduğunu deyə bilərikmi? Şübhəsiz ki, bəli. Əgər hazırda qüvvədəki və şəxsdən şəxsə ötürülə bilən üstünlükləri bir kənara qoyub, vazkeçilməz və əlimizdən alına bilməyən üstünlüklərimizə üz tutsaq, həm fərd, həm də cəmiyyət münasibətlərində müsbət əlamətlərin gözə çarpdığını görməkdə çətinlik çəkmərik.[14]

## Türk deyiləm demək cinayətdirmi, günahdırmı, təqsirdirmi, qəbahətdirmi?

Tarixə baxan hər kəs biz müsəlmanların heç bir əsrdə yəhudi və xristianlarla eyni tərəfdə yer almadığını, eyni qrupda, səmavi dinlərin təşkil etdiyi eyni kütlənin içində səf tutmadığını görə bilər. Amma təəssüf ki, müasirlik bu xüsusda kor olmağı zəruri hala gətirdi. Çünki müasirliklə birlikdə heç bir dini digərindən ayırmayıb eyni zəminə oturtmaq əsası qəbul edildi. Bu da kifayət etmirmiş kimi, bəzilərinə hər dinə xaricdən baxa bilmək, hər dini pozitivist ölçülərlə ölçüb-biçmək əhliyyəti verildi. Yəni din mövzusunda modern bir baxış bucağına sahib olmaq mümkün deyil. Ağıl olaraq müasirləşən kəs dinə yanaşa bilməz. Türkiyədə *"Dünya hara gedirsə, biz də ora gedirik"* deyilməsinin əsil səbəbi budur.

Müsəlmanlığı gündəlik mənfəətlərinin bəhanəsi halına gətirənlər *"türk deyiləm"* dediyi zaman günaha girirlər. Çünki türk olmamaq Kəbəsi əlindən alınmış olanların başına gələn hər fəlakətdən kar əldə etmək yolunu tutmaqdır. Əgər türkləri Məkkə və Mədinəni təslim etməmək əzmində yalnız və müdafiəsiz bu-

14. İsmət Özəl, *Vel-Asr*, İstanbul 2010, s. 146-148.

raxanlar olmasaydı, Dünya sistemi 1929-cu xristian ilindən altı ilə əvvəl, 1923-cü ildə tənəzzülə aparan bir böhrana girəcəkdi. Bəziləri "Türk deyiləm" deyərək sistem, nizam və əlaqə zənciri nəticəsində küfrün bir həyat busəsindən istifadə etməsini təmin etdi. İqtisadi liberalizm türk olmamağın çörəyinə yağ çəkdi.

"Türkəm" deyənlərin türk millətini mədəniyyət vasitələri ilə korlaşdırma, karlaşdırma, bütün özünəməxsus hissiyyatdan məhrum qoyma və iflic vəziyyətinə salma fəaliyyətləri davam edərkən, "türk deyiləm" deyənlər təqsirkar vəziyyətə düşdülər. Əsil təqsir isə türk millətinin üfqünü qaraltma təqsiri idi.

Bizi millət edən hər şeyi xor gördülər. Türk deyiləm deyənlər bu ifadələri ilə hər bir türkdən bir addım öndə olduqlarını ifadə etmiş oldular. Çünki türk olmamağın müştərisi hazır idi. Türk olmaq isə alıcısız qalmaq oldu.

"Sizin dininiz sizə, mənim dinim mənə!" (Kafirun surəsi, 6). Qəbahət hansı dinə mənsub olduğunu başa düşməkdən aciz olanlardadır. Bunlar "türkəm" desələr də, deməsələr də, qəbahətlidirlər. Bunlar cənnəti arzulamaq duyğusundan məhrum qalmış, nemət adı ilə dünya sürgünündən həzz almağa çalışanlardır. Günah çıxartmaq, divar önündə ağlamaq onların işidir. Qiymətli bildikləri hər şeyi ələ keçirər, öz yaxınlarının belə ondan istifadə etməsini çox görərlər. Dünya neməti saydıqları şeylər uğrunda əllərindən gəldiyi qədər şeytanlaşarlar. Şeytanlaşma gücünü ələ keçirə bilmədikləri hallarda isə İblisin bariz varlığı ilə uzlaşmaq yolu ilə əldə edəcəkləri kara talib olarlar.

İnfaq və cihad... Yanına bu ikisini almamısansa, tənbəl tələbənin dərsdən geri qayıtdığı kimi cənnətin qapısından geri qayıdarsan.[15]

15. İsmət Özəl, "Türk Değilim Demek Suç mu, Günah mı, Cürüm mü, Kabahat mi?", Erişim tarihi: 1 Ağustos 2015, *http://www.istiklalmarsidernegi.org.tr*

**MÜNDƏRİCAT**

**TƏQDİMAT** ........................................................................ 5
**ÖN SÖZ** ............................................................................ 9
**GİRİŞ** ............................................................................. 17

**İBN XƏLDUN** ........................................................................ 21
Müqəddimədən seçmələr: Tarix tərəzidir ................................. 24
İnsan təkbaşına yaşaya bilməz ............................................. 25
İqlimin insanlara təsiri ..................................................... 26
İqlimin insan əxlaqına təsiri ............................................... 27
Bədəvilik olmadan şəhər olmaz ............................................ 27
Şəhər pozar ..................................................................... 28
Əsəbiyyə soy kökü ilə meydana gəlir ..................................... 29
Məğlub olanlar qalib gələnləri təqlid etməyə meyllidir ................. 29
Həddən artıq əsəbiyyə istiqrarın düşmənidir .............................. 30
Zülm ümranın dağılmasına səbəb olur ...................................... 31
Şəhər doğular, inkişaf edər və ölər ........................................ 31
Sənətdəki məharət qabiliyyətə bağlıdır .................................... 32
Əsərlərin xülasəsi təhsilə zərər verir ....................................... 33
Tələbələrə qarşı kobud rəftar ................................................ 34

**MƏHMƏD AKİF ƏRSOY** ............................................................. 35
Bir gecə ........................................................................... 38
Gələcək nəsillərə necə təhsil verilməlidir? ................................. 39
Məscidlərdən düzgün istifadə edə bilmirik ................................. 39

Həccə kimlər getməlidir, nə etməlidir? ........ 40
Birlikdə iş görmək tərbiyəsi ........ 42
Avropalıların Şərq siyasəti ........ 42
Türkiyənin əhəmiyyəti ........ 43
Ağılın dəyəri ........ 43
Silahımız yoxdursa, dişimizlə vuruşarıq ........ 44
Qorxaqlar zillət içində ölərlər ........ 45
Təkbaşına heç bir iş görülməz ........ 45
Qərblilərin təəssübü ........ 46
Qərblilərlə əməkdaşlıq necə olmalıdır? ........ 46
Həddimi bilirəm, amma hesabımı yox! ........ 46

**MƏHƏMMƏD İQBAL** ........ 49
İnsanlıq aləmi bu gün üç şeyə möhtacdır ........ 50
İbadətin həqiqi məqsədinə çatması ........ 51
Həyatın davamlılığı məqsədin varlığına bağlıdır ........ 54
Mənliyin təməli eşq və sevgidir ........ 55
Aslanları tülküyə çevirən ehtiyacdır ........ 57
Kömür və almazın hekayəsi ........ 58
Elm və eşq ........ 59
Yardımın iqtisad elmindəki mənası ........ 60
Təəssübkeşliyimizdə haqlıyıq ........ 60
Düşmənini sevmək haqqında ........ 61
Birlik duyğusu ........ 62

**HÜSEYN CAVİD** ........ 65
Rasizadədən Cavidə ........ 67
İndi bildim ki, əsl şairsən ........ 69
Erməni əsirliyindən qurtulması ........ 73
Uçurum faciəsi ........ 75
Hüseyn Cavid poeziyasının satirikləşməsi ........ 77
Hüseyn Cavidin Mayakovskiyə cavabı ........ 80

**ƏHMƏD CAVAD** ........ 81
Əhməd Cavad kimdir? ........ 82
Əhməd Cavadın formalaşmasında milli amil ........ 84
Çırpınırdı Qara Dəniz........ 85
Osmanlıda könüllü xidməti ........ 87
Bakının azadlığı və Əhməd Cavad ........ 88
Sən get, mən gedim, bəs bu binəva Azərbaycanı kimə tapşıraq?... 90
Həyatının son anında Azərbaycana sədaqəti ........ 91
Rəsulzadə: "Onun qələmi minlərlə süngüyə bərabər idi" ........ 92

**HİLMİ ZİYA ÜLKƏN**........ 95
Təsəvvüf fəlsəfəsi........ 96
Din və tarixi imperializm ........ 99
Məfhum böhranı........ 104
Hürriyyətə gedən yollar ........ 106
Şərq – Qərb ........ 109
Xəyali, siyasi və həqiqi türkçülük ........ 113

**NƏCİB FAZİL QISAKÜRƏK** ........ 119
İslam Türkiyədə pozuldu, hər yerdə pozuldu ........ 121
Aksiyon ruhu ........ 123
Nə cür idarə olunmaq istəyirik? ........ 124
Əl, dil, qəlb ........ 126
Dünən və bu gün........ 128
Faşist ........ 129
Anadolu gəncliyi sən ol, biz də rahat ölək........ 130
İslam təsəvvüfü........ 131
Siyasət nədir və nə deyildir?........ 133
Düşmənlərimizə........ 135
Böyük Şərq........ 136
Tək kəlmə ilə qurtuluş yolu ........ 137
İslam və dövlət ........ 138

İslam və siyasət........................................................................ 140
İslam və ordu ........................................................................... 141
İslam və qadın .......................................................................... 143
Həqiqi və dərin müsəlman ....................................................... 145

**MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR** .................................... 147
O Tayı Bu Taya Birləşdirən Şair ............................................ 147
Təbrizli Məhəmmədhüseyndən Şəhriyara ................................ 148
Şəhriyarı Şair Edən Eşq ......................................................... 150
Heydər Babaya Salam poemasının məşhurluğu ........................ 152
İranın şeir günü Şəhriyar təyin etdi ......................................... 155
Milyonların içində sadə həyat ................................................. 157
Vətənə həsrət qalmaq… ......................................................... 158

**ALMAS İLDIRIM** ............................................................... 161
İldırım təxəllüsünü necə seçdi? .............................................. 163
Əhməd Cavad və Hüseyn Cavidin təsiri .................................. 164
Əyyubi: “Almas kimilərinin başları sovet çəkici ilə əzilməlidir” .... 164
Almas İldırım vətənindən sürgün edilməlidir............................. 167
“Sovet casusu” adlandırılması.................................................. 169
Türkiyədə bəzi yerlərin adının Azərbaycanla bağlı adlandırması .... 172
Həsrətli köçüş ........................................................................ 173

**NURƏDDİN TOPÇU** .......................................................... 175
İş əxlaqı ................................................................................. 178
Keçmiş bitərsə, millət bitər...................................................... 180
İnsan və daxili müşahidəsi....................................................... 181
Zülm və düşmən ..................................................................... 183
Əsl günah heyvanlaşmaqdır .................................................... 185
İztirabın mənası ...................................................................... 186
İztirabın Allaha yolu ............................................................... 187
Damcılar ................................................................................ 188

Düşüncələr ........ 191
İki fəth ........ 192
İradənin şikayəti ........ 192
Əxlaqlı olmağın birinci şərti hörmətdir ........ 195
Adam olmaq ........ 196
Gözlənilən gənclik ........ 197
Nəyi öyrənib nəyi öyrənməməliyik? ........ 198
Gənclər! Millət öz məktəbi ilə millət olur! ........ 200

**CƏMİL MERİÇ** ........ 203
Sağ ilə Sol ........ 205
İrticaçı kimdir? ........ 207
Qamus bir millətin namusudur ........ 207
Şüar ibtidai ideologiyadır ........ 208
Sən geridə qalmısan ........ 209
Avropadan yeni bir ixrac mal ........ 209
Jurnal: azad təfəkkürün qalası ........ 210
Kitablar dünyası ........ 211
Ziyalıların dini: "izm" ........ 213
İnananlar qardaşdır ........ 216
Bizim dünya görüşümüz nə idi? ........ 216
Modernləşmək meyarları ........ 218
Demokratiya və İslamiyyət ........ 220
İntelligent ........ 223
Qadın niyə başqası üçün yaşayır ........ 223
Niyə Osmanlının düşüncəyə ehtiyacı yox idi? ........ 225
Əsl türk hərfləri ərəb hərfləridir ........ 227

**BƏXTİYAR VAHABZADƏ** ........ 229
Şair necə yetişər? ........ 229
Şəki üsyanının şairin həyatına təsiri? ........ 230
Məktəbdə zorla rus dilində danışmağa məcbur edilməsi ........ 233

Səməd Vurğunu ziyarətdə nə baş verdi? .......... 237
Azərbaycan ədəbiyyatının Gülüstanı .......... 238
Özümüzü kəsən qılınc .......... 241
Azadlıq hərəkatının qəhrəmanlarından biri kimi .......... 243

**ALİYA İZZETBEQOVİÇ** .......... 247
Əsərlərindən seçmələr. Qərb, öz prinsiplərinə xəyanət etdi .......... 248
Demokratiya haqqında .......... 251
Tolerantlıq haqqında .......... 251
Milliyyətçilik haqqında .......... 252
Allaha təslimiyyət xaricində heç bir yerdə əxlaq yoxdur .......... 253
Müharibədə ədalət, ədalətsizlik və ləyaqət haqqında .......... 255
Əxlaqlı və ya əxlaqsız olan fərddir, xalq deyil! .......... 256
Propaqanda təlqini .......... 256
Bir milləti və bir dövrü tanımaq .......... 257
Həyat paradokslarla doludur .......... 258
Kompüter zəkası axmaqlıqdır .......... 258
Ey təslimiyyət, sənin adın İslamdır! .......... 259

**ÇİNGİZ AYTMATOV** .......... 261
İnsan üçün ən çətin şey, hər gün insan qalmaqdır .......... 261
Repressiyanın təsiri .......... 263
Yaradıcılıq fəaliyyəti və ən yaxşı sevgi hekayəsi .......... 266
İlk müəllim .......... 268
Əsgər Uşağı .......... 270
Əlvida Gülsarı .......... 271
Gün var əsrə bərarbər .......... 273
Dişi qurdun yuxuları .......... 276
Mədə beyindən daha ağıllıdır .......... 279

**SƏZAİ KARAKOÇ** ... 281
Aksiyonda diriliş ... 282
Dövrümüz mədəniyyət və ideologiyalar müharibəsi dövrüdür ... 286
İslamın yerliliyi ... 288
Bilmək mənliyə və ruha nəqş etməkdir ... 290
Böhranın qaynağı ... 292
Düşüncədən həyat doğular ... 295
Əmanət şüuru ... 296
Könül yolçuluğu ... 298
Qürur qraniti ... 301
İslam ziyalısı olmaq ... 304
Düşüncədə diriliş ... 306
İnancda diriliş ... 307
İslamın insanlıq mesajı ... 309
Rahata qaçmaq ... 313
Ruhun dirilişi ... 315
Adət-ənənə mədəniyyətin fiziologiyasıdır ... 316
Çanaqqalada niyə vuruşduğumuzu unutduq ... 319

**RASİM ÖZDENÖREN** ... 323
Bilik və şüur ... 324
Elmin ardındakı niyyət ... 326
İlk yola çıxan mən olacağam ... 328
Dil mövzusu siyasidir ... 329
Elm yoldan çıxardarmı? ... 331
İnsanın missiyası ... 333
Materialist şərtlənmə: aclıq qorxusu ... 334
Müsəlman demokrat ola bilərmi? ... 336
İslami düşüncənin fərqi ... 339
Necə oxumalıyıq? ... 340
Şəxsi həyat ... 342
İslam və ənənəvilik ... 344

Xarici terminlərlə İslama baxış ........................................... 346
Reform və yeniləmə........................................................ 348

**İSMƏT ÖZƏL** ............................................................ 351
İnsan yetişdirmək.......................................................... 352
Nəyi axtarmalıyıq? ....................................................... 354
Elmdən büt olarmı?....................................................... 357
İnsan dünyaya göndərilib, dünyaya atılmayıb ......................... 359
Orta əsrlərdə yaşayırıq .................................................. 360
İdris peyğəmbər və Prometey............................................. 362
Keçmişə necə baxmaq lazımdır?......................................... 364
Azad olmağın bilgisi....................................................... 366
Texnikanın çarxına ilişmək ............................................... 368
Bazar dini .................................................................. 370
Adını silmək................................................................ 371
İnsan kimi yaşamaq ....................................................... 372
Mən düzəltsəm demə, mən düzəlsəm de! ............................... 373
Türk deyiləm demək cinayətdirmi, günahdırmı,
təqsirdirmi, qəbahətdirmi? ................................................ 375